# "AZƏRBAYCAN" QƏZETİNDƏ PARLAMENT HESABATLARI VƏ ŞƏRHLƏR

## (NOYABR 1918 – APREL 1920)

## II CİLD

Bakı – 2016

Araşdırıb toplayanı, ərəb əlifbasından latın
əlifbasına çevirəni, ön sözün müəllifi, lüğətin tərtibçisi
**Şirməmməd Hüseynov**

4 612

**Transliterasiya redaktorları:**
professor **Şamil Vəliyev**
elmi işçi **Samir Xalidoğlu (Mirzəyev)**

290687

**"Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920).** II cild.
Bakı: Qanun Nəşriyyatı, 2016, 560 səh., 500 tiraj

Neçə minillik dövlətçilik tarixi və ənənəsi olan Vətənimizdə ilk dəfə "Azərbaycan" adlı müstəqil Xalq Cümhuriyyətinin ilk parlamanı – Məclisi-Məbusanının fəaliyyətinə dair "Azərbaycan" qəzetində dərc olunmuş hesabatlar və şərhlərdən bəhs edən bu kitab Cümhuriyyətin qarşıdan gələn 100 illik yubileyinə həsr olunur. Məlumdur ki, "Azərbaycan" qəzeti 23 ay fəaliyyət göstərmiş müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin salnaməsi olmuşdur. Qəzetin 443 nömrəsində xüsusilə parlament həyatına aid dəyərli hesabatlar və şərhlər vardır. Tariximizin bu mötəbər mənbəyini öyrənmək və müasir oxuculara təqdim etmək bizcə faydalı olar.

ISBN 978-9952-36-232-9

© Şirməmməd Hüseynov, 2016
© Qanun Nəşriyyatı, 2016

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

*Millət Məclisi məmləkətin bütün sinif və millətlərini təmsil edib, dövlətin tamamən taleinə hakim idi. Onsuz heç bir əmr keçməz, heç bir məsrəf yapılmaz, heç bir müharibə başlamaz, heç bir barışıq imzalanmazdı. Hökumət Məclisin etimadını qazananda qalır, itirəndə düşürdü. Ortada hakim olacaq vasitə – vəzifə yox idi. Parlament hakimi-mütləq idi.*

*M.Ə.Rəsulzadə*

# ÖN SÖZ

"Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" kitabının II cildinə qəzetin 1919-cu il aprelin 18-dən həmin ilin oktyabrının 30-na qədərki nömrələrində (№160-309) dərc edilmiş Məclisi-Məbusan hesabatları və vacib şərhlər daxil edilmişdir. Nəzərdən keçirdiyimiz bu 6 ayyarımlıq zaman zərfində müstəqil dövlətimizin ictimai-siyasi həyatını diqqətlə izləyən və bu möhtəşəm tarixi prosesin fəal iştirakçısı olan qəzetin redaktoru və dövrün dahi canlı salnaməçisi Üzeyir bəy 1919-cu il oktyabrın 8-də Parisə, qardaşı Ceyhun bəyə göndərdiyi məktubda belə səciyyələndirirdi:

"Əhvalı-siyasiyyəmiz dedikcə yaxşıdır. Nəsib bəy işi çox gözəl aparır və məmləkəti demək olar ki, hər bir təhlükədən qurtarmaqla bərabər, abad, məmnun və qüvvətli bir hala saldı. Bu saat tam mənası ilə müstəqil dolanırıq. İçimizdə heç bir biganə əl yoxdur. Qarabağ və Lənkəran məsələləri bizim nəfimizə olaraq, həmən qan tökülmədən həll edildi. Bir əndişəmiz varsa, o da Şimaldandır. Lakin o barədə də bizə ümid verənlər yox degildir. Qərəz işimiz "xod"dur".

Eyni nikbinlik ruhunu biz M.Ə.Rəsulzadənin "Azərbaycan" qəzetinin nəşrə başlamasının ildönümü münasibətilə oktyabrın 9-da, qəzetin 291-ci nömrəsində dərc olunmuş "Azərbaycan"ın birinci səneyi-davamiyyəsi" sərlövhəli məqaləsində də görürük:

"Azərbaycan" mühərrirləri böyük bir xülus və safiyyətlə əllərində tutduqları qələm ilə ancaq bir hədəf və bir qayəyi gözlərinin önündə bulundurmuşlardır ki, o da məmləkətin səlaməti, millətin hürriyyəti-siyasiyyəsi, fikri-istiqlaliyyətin qüvvətlənməsidir.

Bu üç şüar bittəb bu gün ümum əfradi-millət arasında söylənib təkrar edilməkdə və mətbuat isə bunu təqviyə eləməkdədir".

M.Ə.Rəsulzadə yazırdı ki, "keçmiş ilə hal-hazır arasındakı siyasi, ictimai, milli hərəkatımız kibi mətbuatımız da gələcək tarixin tədqiq və tənqidinə buraxılmışdır. Tarix, əlbəttə bir millətin həyati-siyasiyyə və istiqlaliyyəsini tədqiq edir ikən heç bir xətayı unutmayacağı kibi, heç bir fərdi də məsuliyyətsiz buraxmayacaqdır.

Siyasilər siyasi xətalarından.

Alimlər tənbəlliklərindən.

Hərbşünaslar yanlış müdafiə tədarüklərindən,

Cəmaət də məfkurəsizliyindən,

Cahil də cühhalından".

M.Əmin mətbuat və mühərrirlərin də gələcək qarşısındakı məsuliyyətini belə şərh edirdi: "bir millətin mətbuatı və mühərrirləri də xəta və nöqsanları yazmamasından, söyləməməsindən, mənafei-millət və vətənə aid düşünməməsindən dolayı məsuldur".

Nəticə olaraq mütəfəkkir göstərirdi ki:

"...bütün mühərrirlər və mütəfəkkirlərimizin də ülvi və həqiqətpərvər bir qayə ilə həyati-təhririyyələrinə davam edərək cəmaətimiz üçün görəcəkləri fikri xidmətin mənəvi mükafat və qədri də əlbəttə yaddan çıxmaz".

Qısa, lakin müdrikcəsinə, uzaqgörənliklə və ürək qanı ilə yazılmış bu sətirlərə nə əlavə etmək olar ki?

100 illiyini bayram edəcəyimiz türk və islam dünyasının ilk Xalq Cümhuriyyəti dövlətini məhz bu kişilər yaratmış və bizə əmanət edib dünyalarını dəyişmişlər. Bizim borcumuz onları şükranla anmaq, bu müqəddəs əmanəti dövrün və zamanın tələbləri səviyyəsinə yüksəldərək sonrakı nəsillərə sağ və salamat verməkdən ibarətdir. Tarixin tələb etdiyi bu məsuliyyət hissi bizim nəslə də aiddir. Onu unutmayaq!

**Şirməmməd Hüseynov**

## "AZƏRBAYCAN"IN BİRİNCİ SƏNEYİ-DAVAMİYYƏSİ

Məmləkət, millət və vətənimizin nami-müqəddəsi və müşərrəfilə təsmiyə edilib də müəyyən bir qayə, mübəccəl bir məfkurə ilə intişar edən qəzetəmizin – "Azərbaycan"ın – birinci səneyi-davamiyyəsi doldu.

Tamam keçən il təşrini-əvvəl ibtidalarında Gəncədə mövqei-intişara çıxan və yenə təşrini-əvvəlin 5-də Bakıda nəşriyyatına davam edən qəzetəmiz, heç şübhəsiz ki, Cümhuriyyət və İstiqlaliyyətimizin həyat və mövcudiyyəti naminə xeyirli və faidəli xidmətlər etmiş, əfkari-ümumiyyəyi idarə, müşkül vəziyyətlər qarşısında cəmaətimizi mənai-zində bir halda bulundurub da siyasi bir imanı idamə etməyə müavinət və təsiri olmuşdur.

Bir illik "Azərbaycan" kolleksiyonu tədqiq edilir, nəşr edilən məqalə və felyetonlar bir gözdən keçirilirsə, görünür ki, milliyyət, siyasiyyat, ticarət və iqtisadiyyat və tariximiz həqqində olduqca birər məlumat vardır. **"Azərbaycan" mühərrirləri böyük bir xülus və safiyyətlə əllərində tutduqları qələm ilə ancaq bir hədəf və bir qayəyi gözlərinin önündə bulundurmuşlardır ki, o da məmləkətin səlaməti, millətin hürriyyəti-siyasiyyəsi, fikri-istiqlaliyyətin qüvvətlənməsidir. Bu üç şüar bittəb bu gün ümum əfradi-millət arasında söylənib təkrar edilməkdə və mətbuat isə bunu təqviyə eləməkdədir.**

**"Azərbaycan"ın bir illik səneyi-davamiyyəsi köhnə və keçmiş illərin ağır şəraiti-təhririyyə və az-çox milli bir qayədən məhrum bulunan həyati-təşriyyəyə qırmızı bir çizgi**

**çəkmiş, keçmiş ilə hal-hazır arasındakı siyasi, ictimai, milli hərəkatımız kibi mətbuatımız da gələcək tarixin tədqiq və tənqidinə buraxılmışdır. Tarix, əlbəttə bir millətin həyati-siyasiyyə və istiqlaliyyəsini tədqiq edir ikən heç bir xətayı unutmayacağı kibi, heç bir fərdi də məsuliyyətsiz buraxmayacaqdır. Siyasilər siyasi xətalarından, alimlər tənbəlliklərindən, hərbşünaslar yanlış müdafiə tədarüklərindən, camaat də məfkurəsizliyindən, cahil də cühhalından. Halbuki bir millətin mətbuatı və mühərrirləri də xəta və nöqsanları yazmamasından, söyləməməsindən, mənafei-millət və vətənə aid düşünməməsindən dolayı məsuldur.**

İştə "Azərbaycan"ın birinci səneyi-davamiyyəsini biz bu gün qeyd edər ikən bütün mühərrirlər və mütəfəkkirlərimizin də ülvi və həqiqətpərvər bir qayə ilə həyati-təhririyyələrinə davam edərək camaatimiz üçün görəcəkləri fikri xidmətin mənəvi mükafat və qədri də əlbəttə yaddan çıxmaz.

*"Azərbaycan", 9 oktyabr 1919, №291*

Mübəccəl – müqəddəs, pak
Müşərrəf – şərəfli
Təsmiyə – adlandırma
Mənayi-zində – canlı ruhda
Kolleksiyon – toplu
Xülus – xalislik, saflıq
Safiyyə – saflıq, təmizlik
Təqviyyə – qüvvətləndirmə

*Qeyd:* Məncə bu imzasız redaksiya yazısının müəllifi M.Ə.Rəsulzadədir. Nəyə əsasən? Məlumdur ki, "Azərbaycan" qəzeti 1918-ci il sentyabrın 15-də – Bakının Qafqaz İslam ordusu tərəfindən azad edildiyi gün nəşrə başlamışdır. Qəzetin birinci nömrəsində bu tarix 8 zilhiccə – miladi tarixlə sentyabrın 15-i

göstərilmişdir. Yazıda göstərilir ki, qəzet təşrini-əvvəlin ibtidasında, yəni 5-də Bakıda nəşrə başlamışdır. Məlumdur ki, qəzetin 5-ci nömrəsi təşrini-əvvəlin 5-də degil, 3-də – yəni yeni təqvimlə oktyabrın 3-də Bakıda çıxmışdır. Deməli, 5 rəqəmi tarix degil, qəzetin nömrəsidir. Bu cüzi qeyri-dəqiqliyin səbəbləri vardır. Belə ki, qəzet Gəncədə və Bakıda nəşr edilərkən M.Ə.Rəsulzadə Azərbaycanda degildi. O, həmin vəqt İstanbulda idi. Yalnız 1918-ci il noyabrın 7-də, yəni qəzet Bakıda nəşrə başlayandan 35 gün sonra M.Ə.Rəsulzadə Bakıya gəlmişdir. Hadisələr o qədər sürətlə cərəyan edir və baş qarışıq olmuşdur ki, M.Ə.Rəsulzadə qəzetin Gəncədəki və Bakıdakı ilk nömrələri ilə tanış ola bilməmişdir. Fikrimizcə, yuxarıda qeyd etdiyimiz yanlışlıq da bundan qaynaqlanıb. – *Ş.H.*

## HADİSƏLƏRİN MƏNASI

Dünya müharibəsində üz-üzə gələn böyük dövlətlərdən İngiltərə, Fransa və Amerika zümrəsi nəhayət qalib gəldi. Rusiya, Avstriya, Almaniya zümrəsi isə məğlub oldu. Yalnız məğlubiyyətlə qalmadı. Bu dövlətlər daxilində inqilablar zühur etdi.

Bu hadisələrin mənasını anlamaq lazım. Çoxları diyorlar ki, inqilab çıxdı, çünki məğlub oldular. Bəziləri də diyorlar ki, məğlubluqlarına bais olan səbəb, inqilablarına bais olan səbəbin eynidir.

Əcəba, bunların hankısıdır? Nədir bu əqlləri heyran buraxan hadisələrin səbəbi?

Dövlət, insanların müxtəlif şəkillərdə bulunan cəmiyyətlərindən birisidir. Cəmiyyətin tərəqqisi vardır. Bu tərəqqi müəyyən qaidələrə və qanunlara tabedir. Müəyyən bir şəkli-siyasiyyəyə girincəyə qədər cəmiyyət müxtəlif hallar keçiriyor. Fəqət hər hankı halda olursa-olsun, cəmiyyətin özünəməxsus daxili təzadları vardır. Təzadlar ictimai olduğu kibi, siyasi də ola bilər. Siyasi təzadların da ənvai vardır. Bu təzad sinfi də olur, milli də.

Hərbi-ümumiyə iştirak edən böyük dövlətlərin bünyələrində müxtəlif təzadlar vardır. Bunların həpsində müştərək bir təzad vardı: ictimai müsavatsızlıq. Məmləkətin məhsulatı Avropa dövlətlərindən heç birisində daha müsavat üzrə təqsim edilmiyor. Sosializm heç yanda tətbiq olunmamışdır. Dövlətli-kasıb, tox-ac davası hala hökmündə baqidir. Bu təzad İngiltərədə də, Fransada da, Almaniya, Avstriya və Rusiyada da mövcud idi və hala dəxi mövcuddur.

Bundan keçdikdən sonra bir də siyasi təzad vardır. Siyasi təzad millətin tərəqqiyati-ictimaisi ilə malik olduğu şəkli-hökumət arasında hasil olur. Əhalinin müstəhsil qismi, demokrasi sinfi idrak sahibi olur. Tərəqqi edər, gözü açılır, sinfi ehtiyaclarını dərk edər. Buna müqabil siyasi şərait və hürriyyətlər istər, istədigi siyasi şəraiti hasil etməyincə əfkari-ümumiyyə ilə hökumət və tərzi-hökumət arasında bir ixtilafdır çıxar ki, bu da siyasi bir təzada bais və fürsət hasil olunca böyük bir böhrana səbəb olur.

Rusiyada yeni həyata girmiş, fəal, münəvvər bir burjua sinfi vardı. Rusiya demokratiyası inqilabpərvəranə fikirlərlə pərvəriş tapıyordu. Qüvvətli parlaq bir ədəbiyyat, mütəfəkkir və münəvvər ürəfa vücudə gəlmişdi. Əfkari-ümumiyyə başqa bir məcrada axırdı. Məmləkət dərəbəylikdən qalma qəliblərə sığmıyor, hürriyyəti-siyasiyyə tələb ediyordu. Halbuki çarizm haman əski üsul ilə duruyordu. Hökumət məmləkətin münəvvər və fəal əsnafına degil, köhnəpərəst, mürtəce dvoryanstvoya istinad ediyordu. Ruhla qəlb arasında bir təzad vardı. Ruh-qəlbə sığmıyordu.

Almaniya da öylə idi. Almaniyada olduqca qüvvətli, mütəşəkkil bilikli, bacarıqlı bir xəlq, dünyanın müəzzəm və müntəzəm bir təşkilata malik mücərrəb əmələ firqəsi varkən hökumət aparatı feodal halı ilə yaşayan əskəri bir firqənin əlində, iqtidar yarım dərəbəgi hökmündə bulunan xanədanlarda idi. İntixabi-ümumi yox, məsuliyyəti-vüzəra yox idi. Demək ki, burada da ruhla qəlb arasında siyasi bir təzad vardı. Yalnız alman sisteminin intizamı bu təzadın Rusiyada olduğu qədər məhsus olmadığına səbəb oluyordu.

Avstriya kəza bu dərdə mübtəla idi. Şu qədər var ki, Avstriyanın Almaniyadakı demokrasi cərəyanından daha şiddətli

bir böhrani-siyasiyyədən başqa digər bir bəlası dəxi vardı: milli təzad. Avstriya müxtəlif millətlərdən təşəkkül etmişdi. Bu millətlər kəndi həqlərini tələb ediyorlardı. Hissi-milli, həqqimilliyi arıyorlardı. Halbuki Avstriya-Macarıstan səltənəti bu hisslərin fövqündə mətbu və nazim rolunu oynuyordu. Demək ki, millətlə dövlət arasında bir təzad, bir mübarizə vardı.

Bu dərd ilə Avstriya yalnız degildi. Rusiya da bu dərddə idi. Rusiya da onun kibi qurama bir hökumət idi. Rusiyada dövlət milləti əziyor, millət ilə dövlət arasında qatı mübarizələr davam ediyordu.

– Dövlət və millət kəlmələrini mütəzad və mütbarz mənada işlətiyoruz. Halbuki əksərən dövlət ilə milləti bir biliyorlar. Çünki dövlət də millətin bir şəkli-digəridir. Millət özək, dövlət qabıqdır. Fəqət bu tərif şümuli bir millətə aid olan dövlətlər həqqində səhihdir. Digər təbirlə demək olar ki, bu tərif təbii təşkilata malik olan dövlətlər həqqindədir. Çünki ən təbii dövlət milli olan dövlətdir. Fəqət təhti-idarəsində bir çox millətlər olan dövlətdə məlumdur ki, dövlət mənasilə millət mənası bir olamaz. Nasıl ki, Avstriya-Macarıstan dövləti daxilində çex-slavak, macar, alman, polyak, rosin, rumın, italyan millətləri olduğu kibi, Rusiya dövləti daxilində də rus, fin, türk, erməni, gürcü, ukrayna və sairə millətlər vardı.

Halbuki İngiltərə, Fransa sonra isə müdaxilə edən Amerika dövlətləri ictimai bir təzada, yəni sinif müsavatsızlıqlarına malik idisələr də, şəkli-hökumətləri bu biri məmləkətlərdə olduğu qədər dərin bir təzad ilə azarlı degildi. Bu hökumətlər bilnisbə demokratik və o dərəcədə də milli hökumətlər idi. İngiltərədə bir "İrland" məsələsi var idisə də, Avstriya-Rusiya

dərəcəsində degildi. Fransa bu məsələyə tamamilə yabançı idi. Amerikada kəza milli ziddiyyət yoxdu.

(Bu məmləkətlərin daxili təşkilatı nəzərə alınaraq hökm veriliyor. Qanuni-siyasəti başqa bir məsələdir).

Yuxarıda söylədik ki, müharibə mövcud fəsadları şiddətləndirmək xasiyyətinə malikdir. Təbiidir ki, təzadları müxtəlif və çox olan dövlətlərin müharibəyə təhəmmülləri də o nisbətdə az olacaqdır. Əvvəl təhəmmülsüzlük göstərən əcayib degildir ki, Rusiya oldu. Çünki Rusiya şəkil və qəlb etibarilə Avropa hökumətlərindən ən gerisi, ictimai, siyasi və milli böhran nöqteyi-nəzərindən ən elitlisi idi. Sonra sıra Avstriyaya gəldi; nəhayət, qüvvəyi-istehsaliyyə və iqtisadiyyəcə də kəndisindən daha qüvvətli olan Amerika ilə də toqquşmaya məcbur qalan Almaniya bitab düşdü.

Almaniya böhranı milli Almaniya dövləti daxilində qalaraq siyasi bir şəkildə cərəyan ediyor. Yarımfeodal bir şəklihökumət demokratik cümhuriyyətə dəgişdiriliyor. Rusiya ilə Avstriya isə bununla qalmıyor. Parça-parça olaraq mürəkkəb olduğu parçalarına ayrılıyor. Hər ayrılan parça da eyni zamanda birər cümhuriyyət elan ediyorlar. Deməki, demokratik və milli olmayan dövlətlər xarici bir zərbə təhtində təhəmmül göstərməyərək birər milli-demokrat şəkli alıyorlar.

Daha hərbi-ümuminin ibtidasında ikən bu böyük padra üzərinə yazılan siyasi təhlillərdə diyorlardı ki, hərbi-ümumi nəticəsində millətlərin həqqi təslim olunacaqdır. Qəribə idi ki, İngiltərə zümrəsi də, alman zümrəsi də millətlərin hüquqi üçün davaçı olduqlarını iddia edib duruyorlardı. Əlbəttə, imperialistlərin məqsədi-əsliləri bu degildi. Fəqət məqsəd bu degil ikən hər iki tərəfin bundan bəhs eləməsi bu həqiqətin nə dərəcədə qüvvətli olmasını göstəriyordu.

Azərbaycan məbuslarından Saxaya pək doğru diyordu ki, Böyük Fransa inqilabı insanın hüququnu təşxis elədisə, hərbi-ümumi də millətin hüququnu elan etdi.

Milli hərəkətlər eyni zamanda da demokratik bir rəng alıyor. Milliyyət və demokratizm həqqində yanlış məlumat sahibi olanlara bu iki kəlmənin yanaşı gəlməsi bəlkə də bəid görünür. Çünki demokratizm adətən milliyyətpərvərligə zidd ədd olunmaq bidəti bizcə məşhurdur. Bu bidətə vəqtilə çox etina olunuyordu. Hətta bizim Qafqasiya sosial-demokrat şeyxləri belə bu xüsusda az inad və israr göstərməmişlərdi.

Fəqət bu gün onlar da mötərifdirlər ki, milliyyətlə demokratlıq qətiyyən düşmən məfhumlar degildir. Sabiq Qafqasiya vəlahəqq gürcü demokratiyasının pişvalarından Jordaniya cənabları baxınız bu xüsusda nə kibi bir etirafda bulunuyorlar; son günlərdə söyləmiş olduğu bir nitqində Jordaniya diyor ki:

"Millətin kəndi iradəyi-müstəqiləsini kəndi hüdudi daxilində və kəndi dili və mədəniyyəti vasitəsilə ibraz eləmədigi bir yerdə demokratizm təsəvvür eləmək qeyri-mümkündür".

"Milliyyət və demokratlıq cərəyanları əksərən ittifaq edərlər. Böyük Rusiya inqilabı çıxdığı zaman biz milliyyətlərə ayrılmanın əleyhində olduq, halbuki bizim istədigimizə rəğmən həyat bu əsası üstə çıxardı".

Əvət, Avropanın qərbini təşkil edən İngiltərə ilə Fransa, şərqini təşkil edən Almaniya-Avstriyaya qarşı çıxdıqda Şərqin Qərbə qarşı bir nöqsanı vardı ki, burası demokratik və milli degildi. Şimdi Avropanın şərqi də qərbi kibi milli və demokratik bir şəkil alıyor.

Bu şəkil yalnız Avropa dövlətlərində degil, Türkiyədə də hakimiyyət qazanıyor. Orası da həm milliləşməkdə, həm də demokratlaşmaqdadır.

Deməkki, aləm keşməkeşlərinin nəticəsində milliyyət və demokratizm prinsipləri qalib çıxıyor.

Dünya hadisələrinin bugünkü mənası iştə budan ibarət!

**M.Ə.Rəsulzadə**

***"Azərbaycan", 15 dekabr 1918, №65***

Ənva – növlər
Təzad – ziddiyyət
Müstəhsil – istehsalçı
Mücərrəb – sınanmış
Məhsus – hiss olunan
Mətbu – (burda) başçı
Nazim – nizama salan
Mürəkkəb – qurma, qatışıq
Bəid – qəribə
Mötərif – etiraf edən
Pişva – başçı

## DÖRDGÖZ OLMALIYIQ

Paytaxtımızda Azərbaycan istiqlalına qarşı sui-qəsd əməliyyatının kəşf edilməsi, bizi, yəni hökumətimizi də və əhalimizi də dördgöz olmağa vadar ediyor. Bundan sonra bizim hər bir cüzi də olsa fəqərədən şübhələnməmiz lazım gəlir. Və hər bir istiqlalpərəst və vətəndost şəxsin borcudur ki, hər kəsdən və hər bir əhvaldan və hadisədən şübhə edirsə hamandəm lazım olan yerlərə bildirib kəşf etdirsın. Və bu ayıqlıq təbiidir ki, həm Bakıda və həm də Azərbaycanın sair yerlərində dəxi ibraz edilməlidir.

Şükürlər olsun ki, Azərbaycanın türk və islam əhalisi arasında istiqlal və azad yaşamaq fikri o qədər bərkiyib və o dərəcə dərinləşubdır ki, əhalimiz əksəriyyət əzəminin vətənpərəstligi şəkk və şübhə xaricindədir. Baxüsus Nikolay dövri-mənhusindən qalma bir takım sui-idarələrin ləğvini böylə idarə başında duran bürokrat tərbiyəli adamların yavaş-yavaş iş başından rəf edilmələrini görən əhali hökumətimizin böylə müdəbbiranə tədbirlərindən xoşhal olub, öz-özümüzü özgələrdən yaxşı dolandırmaq iqtidarımıza iman və etiqat etməkdədirlər.

Bu gün Azərbaycan istiqlalı əleyhinə söylənən söz və icra edilən əməl hər bir Azərbaycan türk və islamının hissiyatına toxunmaqla qəlbini pərişan edir və acığını tutdurur.

Əhalimizin hal və hissiyyatı bu gün o haldadır ki, şərəflə ölməgi qul və əsir olmağa tərcih edir və bunu degil yalnız bir sözlə söyliyor bəlkə bütün əql və qəlbi ilə dərk edib anliyor.

Təəssüflər olsun ki, bizim sosialist firqələrimizdən bəziləri ifrat dərəcəyə varub da özgə çəkməsinin bizim boynumuz

üzərinə minməsini sosializm şüarlarının hüsulindən ədd edib bugünə xilafi-insaniyyət yollarda işləməgi özləri üçün caiz bilirlər. İstiqlallarını can və başla saxlamaq yolunda hər bir fədakarlıqlarda bulunan qoca gürcü sosialistlərindən ibrət almaq istəməyən cavan sosialistlərimiz, böyük səhvdədirlər. Böylə səhv ki, onun nəticəsi nəinki sosializm fikrinə xidmət göstərməz, bəlkə bir millətin məhv və itlafına səbəb ola bilər.

229687

Bız, ifrata varan cavan sosialistlərimizi bugünə əməllərin sonki təhlükələrindən xəbərdar etməgi özümüzə borc bilirik və bunu deyirik ki, müstəqil yaşamayan bir millət içində ali fikirlər əmələ gələ bilməz. Sosializmi ali fikirlərdən ədd edib də bunun intişarını Azərbaycan türk və islamları arasında arzu edirsinizsə, əvvəlcə çalışın ki, bu millət azad yaşamağa imkan bulsun, zira hər bir tərəqqi və o cümlədən fikir **tərəqqisi dəxi, ancaq azad yaşayan millət içində nəşvü-nüma tapıb inkişaf edə bilər. Hətta internasional fikri dəxi müstəqil yaşayan millətlər arasında törəyən bir fikir ola bilər.**

Hal-hazırda bizdən ötrü bolşevik hücumu və ya Denikin qaragüruh hücumu ikisi do bir təhlükədir. İstiqlalımızı itirmək, azad ikən qul və əsir olmaq və ola bilsin ki, bilkülliyyə yer yüzündən yox olmaq təhlükəsidir. Heç vəqt demək olmaz ki, bolşevik istilası Denikin istilasından iyidir. Çünki o da, bu da bir millətin istiqlalını və azadlığını əlindən almağdır. Biz onu da, bunu da təcrübə ilə görmüşük, viran edilmiş imarətlərimiz, talan olmuş malımız və günahsız yerə tökülmüş qanımızla imtahanlardan keçirmişik və bunu da hər bir sinfimizdən artıq demokrat və füqərayi-kasibə sinfimiz görüb və hiss edibdir. Özgə millətlərdən olan bolşevik hakimlərinin "ədalət" və "mürüvvət"indən hamıdan artıq zərərçəkən türk və islam füqərayi-kasibəsi olduğunu heç bir insaf əhli dana bilməz.

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

Bu füqərayi-kasibəni təkrar cəbr və zülm pəncəsi altına verməkdə nə böyük fikir və nə ali məqsəd ola bilir?

Zənn etmirəm ki, bu cür "ali" fikir və məqsədlər Azərbaycan türk və islamları işində müzahirət göstərən olsun!.. Bunun tərəfdarı ancaq bizim zillət və rəzalətimizi istəyənlər içində ola bilər...

İştə istiqlalımıza qarşı hazırlanmada olan sui-qəsdlərdən özümüzü qorumaq, müqəddəs vəzifəmizdir. Dördgöz olub da, hər bir şübhə iqaz edən keyfiyyətə diqqət yetirməliyik və əlaqədar olan dairələrin diqqətini cəlb etməliyik ki, bugünə sui-qəsdlər ibtidadə kəşf edilib böyüməgə imkan bulmasın.

İçimizdə olan düşmənlərimizin təhlükəsi, – xaricdə görünən düşmənlərinkindən daha zərərlidir. Xaricdə duranı görürük, lakin içimizdəkiləri hər dəfə görmək mümkün olmuyor. Bunlar əlaltı işlər görürlər və bizə qarşı qəflətən hücumlar və şəbxunlar hazırlıyorlar.

Bu yolda hökumətimiz üzərinə böyük vəzifəhlər tərəttüb edir ki, onlardan biri də əz cümlə budur ki, məmləkətimiz, qapısı açıq məscid halında qalmasun ki, oraya Allah bəndələri ilə bərabər şeytanə sitayiş edən əgri və oğrular dəxi girə bilsin. Keçmiş işlərdə ləkəli olanları və söz və əməllərilə şübhəli görünənləri məmləkətimiz daxilinə buraxmamalıdır, səhvən buraxılmışlar varsa, tərd və ixrac etməlidir. Gürcülər və ermənilər öz məmləkətlərində böylə edirlər, biz nə üçün etməməliyik? Bir halda böylə rəftara böyük bir həqqimiz vardır.

Xülasə, istiqlalımızı müdafiə və mühafizə yolunda dördgöz olub da xarici və daxili düşmənlərimizi dəf üçün hər bir tədbirə bilatərəddüd təvəssül etməlidir.

**Ü. Hacıbəyli**

***"Azərbaycan", 25 aprel 1919, №166***

## MİLLƏTİMİZ ÖZÜNÜ GÖSTƏRƏCƏKDİR! AZƏRBAYCAN PARLAMENTİNİN TARİXİNƏ DAİR QİYMƏTLİ KİTAB

"Millətimiz özünü göstərəcəkdir! Millətimiz dünyanı işğal etməyəcək, başqalarını yıxmağa çalışmayacaq, qonşularına həsəd bəsləməyəcək. Millətimiz mədəniyyətə, tərəqqiyə, sülhə, müsalimətə başqalarının da azad yaşamasına bacardığı qədər müavinətdə bulunacaq... İşdə parlamanımız bunu yapacaq. Parlamanımız istiqlaliyyətimizi təsdiq edəcək. Parlamanımız bütün varlığımızı, biz azəri türklərinin fəqət sülh və müsalimət tərəfdarı olduğumuzu sübutla müstəqil həyata yararlı olduğumuzu... göstərəcək..."

Bu sətirlər "Azərbaycan" qəzetinin 1918-ci il 7 dekabr tarixli sayında dərc olunub. 7 dekabr 1918-ci il. Azərbaycan milli dövlətçilik tarixində ən mühüm hadisələrdən biri – Şərqdə ilk demokratik respublikanın Parlamentinin – dövrün təbiri ilə degilərsə, Azərbaycan Məclisi-Məbusanın işə başladığı gün!

Yuxarıdakı sətirlərin müəllifi isə parlament üzvü, yaxud hər hansı dövlət, ictimai, siyasi xadim degil, "Ü.Əbdül" adlı tələbə idi. "Azərbaycan" qəzetinin həmin sayında Parlamentin açılması münasibətilə Azərbaycanın demək olar ki, bütün bölgələrindən, siyasi partiyalardan, müxtəlif cəmiyyətlərdən, görkəmli ziyalılardan, respublikada yaşayan ayrı-ayrı xalqların nümayəndələrindən alınmış 70-ə yaxın təbrik məktubları dərc olunmuşdu. Bu təbriklər "vətənin tərəqqisi, hürriyyəti və istiqlaliyyəti rəhni olan" ilk parlamentin yaranmasının yalnız Azərbaycanın siyasi və ziyalı elitası üçün degil, bütün respublika ictimaiyyəti üçün həqiqətən çox mühüm və

əhəmiyyətli hadisə olduğunu təsdiq edirdi. Bu təbriklər Quba, Şamaxı, Göyçay və b. qəzaların kənd əhalisi, Bakı, Gəncə, Qarabağın müəllim və tələbələri, Şəki, Ağdam, Dəvəçi bölgələrinin erməni milli komitələri, Gəncə quberniyasının alman, Qusarın rus, Qubanın yəhudi əhalisinin Azərbaycan parlamenti ilə bağlı arzu və ümidlərini ifadə etməklə bərabər həmin tarixi günün Azərbaycanda necə böyük ruh yüksəkliyi ilə yaşandığının bariz nümunəsi idi. Az sonra həmin yüksək əhval-ruhiyyəni öz səhifəhlərində əks etdirən "Azərbaycan" qəzeti artıq yalnız sadəcə "növbəti" say olmayaraq mühüm tarixi mənbə funksiyasını yerinə yetirəcək, azərbaycanlıların gələcək nəsillərinin də həmin günün təntənələrini tam mənası ilə təsəvvür etməsinə, həmin tarixi hadisəni yaşamış sələflərinin keçirdiyi həyəcan və sevincləri dərindən duymasına xidmət edəcəkdi.

Lakin sonrakı onilliklərdə Azərbaycan xalqı nəinki "Azərbaycan" qəzeti, ümumiyyətlə Azərbaycan Xalq Cümhuriyyəti tarixinə dair bütün mənbələrdən uzaq salınacaq. Dövlət müstəqilliyinə son qoyulmuş, iki dəfə əlifbası dəyişdirilmiş, Məclisi-Məbusanı formal xarakterli Ali Sovetlə əvəz edilmiş azərbaycanlılar öz milli dövlətçilik tarixinə bir də 70 ildən, öz müstəqilliyini bərpa etdikdən sonra qayıdacaq, bu tarixi, o cümlədən Azərbaycan Parlamentinin tarixini öyrənməyə yalnız XX əsrin sonlarında sıfırdan yazmağa başlayacaq. Bu zaman həmin tarixin ilkin məlumat daşıyıcıları, arxiv sənədləri, dövrü mətbuat və ilk növbədə "Azərbaycan" qəzeti ən mühüm mənbələr kimi xüsusi əhəmiyyət kəsb edəcək.

Bu baxımdan, AXC sənədlərinin məhv edilmədiyini, uzun illərdən bəri qapalı fondlarda gizlədilsə də, hər halda qorunub saxlanıldığını müəyyən mənada Azərbaycan xalqına

ədaləti və tarixi yaddaşını bərpa etmək şansı verildiyi kimi qiymətləndirmək olar.

Müstəqilliyin bərpasından keçən 25 ildə Azərbaycan Xalq Cümhuriyyətinin mənbəşünaslığı sahəsində ən fundamental iş 1998-ci ildə görülmüşdür: Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" 1998-ci il 30 yanvar tarixli sərəncamından irəli gələrək yaradılmış Dövlət komissiyası tərəfindən "Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920)" adlı 7 kitabdan ibarət sənədlər topluları nəşr edilmişdir. Bu kitablar AXC Parlamenti və hökumətinin qəbul etdiyi qanunlar və qərarlarını əks etdirən – "Qanunverici aktlar" (rus dilində), həmçinin "Xarici siyasət"ə (rus dilində), "Azərbaycan Ordusu"na (rus dilində), Azərbaycan Parlamentinə (2 cild Azərbaycan dilində, 1 cild rus dilində) və AXC xadimi Fətəli Xan Xoyskinin fəaliyyətinə (rus dilində) dair sənədlərdən ibarətdir.

Azərbaycan dilində buraxılan yeganə nəşr olmaqla, əsasən respublikanın arxiv fondlarında saxlanılan, qismən də "Azərbaycan" qəzetində dərc olunmuş parlament iclaslarının protokollarını və stenoqrafik hesabatlarını özündə əxz edən 2 cildlik "AXC. Parlament" kitabları kiril əlifbasında buraxılmış və bütün keçən dövr ərzində həmin mövzuya dair yeganə tarixi mənbə olaraq qalırdı.

Bu günlərdə isə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tarixinə dair son dərəcə qiymətli mənbə sayılan yeni bir kitab işıq üzü görmüşdür. Söhbət Azərbaycan mətbuatının fədakar, yorulmaz tədqiqatçısı, tarixçi alim, prof. Şirməmməd Hüseynovun nəşrə hazırladığı "**"Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918-aprel 1920)**" adlı çox cildlik sənədlər toplusunun I cildindən gedir. Lakin bu ki-

tab haqqində danışmazdan əvvəl nə üçün məhz "Azərbaycan" qəzetinin Parlament sənədlərinin ilkin mənbələrindən biri olması məsələsinə aydınlıq gətirək.

Azərbaycanın görkəmli ictimai-siyasi xadimləri Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev və Əli bəy Hüseynzadə hələ 1905-ci ildə Bakıda "Azərbaycan" adlı qəzet nəşr etməyə təşəbbüs göstərsələr də, Çar Rusiyası senzurası bu adda sırf siyasi məna görərək qəzetin nəşrinə icazə verməmiş və nəzərdə tutulan qəzet "Həyat" adı ilə buraxılmışdır. Doğrudur, Təbrizdə hələ 1857-ci ildə fars dilində "Əxbare-Darəlsəltəneye Azərbaycan" (Azərbaycan hakiminin xəbərləri) rəsmi dövlət qəzeti çıxmış və bir də 50 ildən sonra - 1906-cı ildə "Azərbaycan" adlı qəzet nəşr olunmuşdur. Lakin bilavasitə Cənubi Azərbaycanın ərazisi ilə bağlı, yəni coğrafi məna daşıdığı üçün İran hökuməti bu adın arxasında hər hansı bir siyasi-ictimai iddia görməmiş və onun nəşrinə etiraz etməmişdir.

Cənubdan fərqli olaraq, Şimali Azərbaycanda yalnız 1918-ci ildə, Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra "Azərbaycan" adlı qəzetin nəşri məsələsi bir daha gündəmə gəlmiş və mümkün olmuşdur. Qəzetin ilk sayı elə həmin il sentyabrın 15-də, Gəncədə buraxılmış və demək olar ki, əsasən Bakının azad olunması kimi mühüm bir hadisəyə həsr edilmişdir. Gəncədə cəmi 4 sayı, Azərbaycan və rus dillərində, (ayrı-ayrı səhifəhləri) buraxılmış bu qəzetin nəşri əsasən AXC Hökumətində maarif naziri Nəsib bəy Yusifbəylinin dəstəyi, Ceyhun bəy Hacıbəyli və Şəfi bəy Rüstəmbəylinin səyləri nəticəsində mümkün olmuşdur. Bakı azad edildikdən sonra qəzetin redaksiyası da paytaxta köçmüş, 5-ci sayından qəzet artıq ayrıca olaraq Azərbaycan və rus dillərində buraxılmış, Ceyhun bəy Azərbaycan dilli, Şəfi bəy Rüstəmbəyli isə rus dilli "Azərbaycan" qəzetlərinin redaktorları olmuşlar. 1918-ci il

oktyabr ayının sonlarında İrandan Bakıya qayıdan Üzeyir bəy Hacıbəyov az sonra "Azərbaycan" qəzetinin Parlament müxbiri kimi fəaliyyətə başlamışdır. Ceyhun bəy Hacıbəyli 1919-cu ilin yanvar ayında Paris Sülh Konfransında Azərbaycan Nümayəndə heyətinin üzvü kimi Parisə yola düşəndən sonra, Üzeyir bəy M.Ə.Rəsulzadə ilə birlikdə qəzetin redaktorları təyin olunmuşlar. Lakin tezliklə Azərbaycan Parlamentində "Müsavat" fraksiyasının başçısı Məhəmməd Əmin bəyin qəzetdəki fəaliyyətinin yalnız məqalə yazmaqla kifayətlənəcəyi məlum olduqdan sonra təxminən 15 ay müddətində – Azərbaycan Xalq Cümhuriyyətinin faciəli süqutuna qədər – redaktorluq vəzifəsini Üzeyir bəy yerinə yetirmişdir. Yalnız 1919-cu ilin yayında 2 ay müddətinə Üzeyir bəyi "Müvəqqəti redaktor" kimi dövrün tanınmış mətbuat xadimi, redaksiyanın əməkdaşı Xəlil İbrahim əvəz etmişdir. 1918-1920-ci illərdə qəzetin cəmi 443 sayı çıxmışdır.

Diqqətəlayiqdir ki, qəzetin 5-ci sayından (3 oktyabr 1918), yəni Bakı dövründən başlayaraq son sayına (28 aprel 1920) qədər "Azərbaycan" adı altında "gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetidir" sözləri yazılmışdır. Bununla belə, istər öz zamanında, istərsə də sonralar bu qəzet "AXC hökumətinin orqanı", yaxud "yarı-rəsmi", hətta "Müsavat" partiyasının orqanı kimi qəbul edilmişdir. Üzeyir bəy Hacıbəyov bir neçə dəfə bu məsələyə münasibət bildirmiş, xüsusilə qəzeti "Müsavat" partiyasına mənsub "firqəvi qəzetə" adlandıranlara "Azərbaycan" partiya qəzeti degil və məsləki "Vətən istiqlalı yolunda çalışmaqdan ibarət" olmaqla "xüsusi firqəvi proqram daxilində məhdudlaşmır" – deyə cavab vermişdir. Həmin dövr – 1919-cu ilin yanvarından başlayaraq AXC hökumətinin rəsmi orqanı kimi "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri" adlı həftəlik qəzet çıxdığı nəzərə alı-

narsa, Üzeyir bəyin redaktoru olduğu qəzeti "Vətən istiqlalı yolunda çalışan" bir türk qəzeti kimi müdafiə etməsini anlamaq olar.

Amma bu da aydın idi ki, "Azərbaycan" adını daşıyan bir mətbu orqan dövrün sıravi "siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzet"lərindən biri ola bilməzdi. Təsadüfi degil ki, istər Azərbaycan, istər rus dillərində çıxan "Azərbaycan" qəzeti ölkədə və onun xaricində baş verən hadisələrə münasibətdə tamamilə Azərbaycan Xalq Cümhuriyyətinin, ilk Azərbaycan milli dövlətinin milli maraqlarından çıxış edir, Azərbaycan istiqlalının müdafiəsi ideyası qəzetin ümumi siyasi xəttini ifadə edir, Azərbaycan xalqının bu dövlət və bu ideya ətrafında sıx birləşməsi isə qəzetin nail olmağa can atdığı əsas məqsəd və vəzifəhlərdən biri sayılır. Bu baxımdan Azərbaycan dövlətçiliyinin ən mühüm atributlarından olan Azərbaycan Parlamentinin iclaslarının protokollarını nəşr etməklə kifayətlənməyərək, qəzetin bu iclaslarda müzakirə olunan məsələlərin ətraflı şərhlərini verməsi, Parlament ətrafı hadisələri geniş işıqlandırması artıq özlüyündə "Azərbaycan" qəzetinin Parlamentlə bağlı materiallarını bir çox baxımdan xüsusilə əhəmiyyətli edir.

Tarixi dövrün yalnız üzdə olan hadisələrinin degil, ən incə, ilk nəzərdə xırda görünən bir sıra məqamlarının da açılmasında mətbuatın nə qədər mühüm rol oynadığını yaxşı bilən görkəmli jurnalist-tarixçi-alim prof. Şirməmməd Hüseynovun AXC Parlamentinin fəaliyyətinin öyrənilməsində ən qiymətli mənbə kimi məhz "Azərbaycan" qəzetinə müraciət etməsi də ilk növbədə bu anlamdan irəli gəlir.

"Azərbaycan" qəzetinin köhnə ərəb əlifbasında nəşr olunduğu, respublikanın kitabxana və arxivlərinin heç birində qəzetin tam külliyyatının saxlanılmadığı, 95 ildən artıq ta-

rixi olan köhnə qəzet nüsxələrinin oxunmasında yaranan çətinliklər və s. və s. nəzərə alınarsa bu gün oxuculara təqdim olunan kitabın ərsəyə gəlməsində onu "araşdırıb toplayan, ərəb əlifbasından latın qrafikasına çevirən, ön sözün müəllifi, lüğətin tərtibçisi" prof. Şirməmməd Hüseynovun nəhəng zəhmətini qiymətləndirməmək mümkün degil.

Əvvəlcədən deyək ki, yeni kitab bir sıra cəhətlərinə görə 1998-ci ildə buraxılmış 2 cildlik AXC Parlament hesabatları nəşrlərindən fərqlənir. İlk növbədə, latın qrafikasında dərc olunmaqla həmin sənədlərin ən geniş miqyasda müasir və gələcək azərbaycanlı oxucular tərəfindən asan oxunmasını və anlaşılmasını mümkün edir.

Daha sonra, Azərbaycan parlamentinin çoxşahəli, canlı və eyni zamanda gərgin fəaliyyəti, müxtəlif siyasi qüvvələri və maraqları təmsil edən Parlament fraksiyalarının, parlament komissiyalarının və ayrı-ayrı millət vəkillərinin işi, hökumət başçıları və nazirlərlə Parlament arasında münasibətlər və s. məsələlərə dair tarixi bir mənbə olmaqla yanaşı, bu kitab digər bir funksiya da daşıyır. Belə ki, Qanunvericilik orqanı kimi Parlamentin mahiyyəti və əhəmiyyəti, Azərbaycanda parlamentarizm ənənələrinin tarixi, artıq öz işinə başlamış Məclisi Məbusanın fəaliyyətinin mütəmadi olaraq Azərbaycan cəmiyyətinə çatdırılması, bu fəaliyyətin geniş ictimaiyyətdə oyatdığı təəssürat və b. bu kimi məsələlərin öyrənilməsi baxımından "Azərbaycan" qəzetində dərc edilmiş yazılar, rəsmi sənədlər, elanlar və nəhayət, müəllif məqalələri heç də Parlament iclaslarının stenoqramlarından az əhəmiyyət kəsb etmir.

Bu baxımdan, Milli Şuranın qəbul etdiyi Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında 1918-ci il 20 noyabr tarixli Qanunun mətni və Parlamentin ilk iclasının hesabatı ilə

başlayan 1998-ci il "Parlament" nəşrindən fərqli olaraq prof. Ş.Hüseynovun hazırladığı kitab "Azərbaycan" qəzetinin respublika ictimaiyyətini bu böyük hadisəyə hazırlaması məqsədi güdən silsilə yazıları ilə başlayır. Azərbaycan Milli Şurasının tarixi, onun hansı şəraitdə və hansı şərtlərlə – o cümlədən, 6 ay ərzində Parlamentin çağırılması – öz səlahiyyətini Azərbaycan hökumətinə tapşırdığı, fəaliyyətini bərpa etdiyi, keçirdiyi yığıncaqlar, Parlamentə üzvlərin seçilməsi ilə bağlı mövcud çətinliklər, "məmləkəti parlamansız qoymamaq" üçün qəbul edilmiş seçki qaydalarının və Parlamentin yaradılması haqda qanunun mətnləri, şərhləri və s. bu kimi yazılar "Azərbaycan" qəzetinin respublika əhalisi arasında nə qədər geniş maarifləndirici və təbliğatı-təşviqatı iş apardığını göstərir. "Böylə ağır günlərdə hökumət bütün dövlət işlərini yalnız öz məsuliyyətilə apara bilməz: siyasi məsələlərin həllində millət, camaat özü dəxi bilavasitə iştirak etməlidir" deyə qəzetdə parlamentin çağırılmasının zəruriliyi ilə yanaşı xalqın da bu proseslərə yaxından cəlb olunmasının vacibliyi qeyd olunurdu. Məhz bu "hazırlıq" yazılarının nəticəsi idi ki, Azərbaycan Parlamentinin açılması hadisəsi ümumxalq bayramı səviyyəsində qəbul edilmiş, "Azərbaycan" qəzeti istər xalqın bu hadisəyə münasibətini, istərsə də parlamentin açılışının təntənəsini öz səhifəhlərində geniş əks etdirmişdir. Yuxarıda gətirilən nümunələr – "Azərbaycan" qəzetində dərc olunmuş 70-ə yaxın təbrik məktubları, eləcə də Parlamentin açılması münasibətilə Ü.Hacıbəylinin "Tarixi günümüz" adlı məqaləsi və d. yazılar 1918-ci il 7 dekabr təqvim gününün Azərbaycan dövlətçiliyi və xalqı üçün tarixi əhəmiyyətinin hələ öz zamanında layiqincə qiymətləndirildiyini sübut edir.

Qeyd olunmalıdır ki, bütün bu yazılar, eləcə də Azərbaycan Parlamentinin 17 aylıq fəaliyyətinə dair sözü gedən kitabın adındakı "Şərhlər" ifadəsi altında nəzərdə tutulan müxtəlif məzmunlu və ünvanlı müəllif məqalələri, xülasələr və hətta felyetonlar ilk dəfə olaraq toplu şəklində Azərbaycan oxucusuna çatdırılır.

"Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" kitabının əsas mətnini sözsüz ki, parlament iclaslarının hesabatları təşkil edir. Artıq qeyd edildiyi kimi, ən azı 3 cild olacağı nəzərdə tutulan bu mötəbər mənbə-kitabın hazırda I cildi buraxılmışdır və bu cildə Məclisi-Məbusanın qəzetdə dərc olunmuş 19 iclasının (şərhlərdən əlavə) hesabatları daxil edilmişdir. Burada yəqin ki, Azərbaycan Parlamentinin ümumən keçirdiyi iclaslar və müzakirəyə çıxarılan məsələlər haqda qısaca məlumat vermək yerinə düşərdi.

17 aylıq fəaliyyəti dövrünə AXC Parlamentinin 145 iclası keçirilmiş, onlardan 17-si kvorum (yetərsay) olmadığı üçün baş tutmamış, 8-i isə müxtəlif əlamətdar günlər və hadisələrlə əlaqədar təntənəli, tarixi və ya fövqəladə xarakter daşımışdır. Qalan iclaslarda AXC-nin daxili, xarici, iqtisadi siyasəti, qanunvericilik aktlarının müzakirəsi və qəbulu, maliyyə, ordu quruculuğu və s. məsələlər müzakirə olunmuşdur. Parlamentin işi "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" adlı sənədlə tənzimlənmiş, onun fəaliyyəti dövründə 270-dən artıq qanun layihəsinə baxılmış, onlardan 200-ə yaxını təsdiq edilmişdir.

Bu rəqəmlər Azərbaycan parlamentinin cəmi 17 ay işləməsinə baxmayaraq kifayət qədər işgüzar və peşəkar qabiliyyətə malik olduğunun göstəricisidir. Lakin bütün bu qanunlar, layihələr, müzakirələr çox qızğın, gərgin, bəzən əsəbi şəraitdə gedən müzakirələr nəticəsində qəbul olunmuşdur

və məhz parlament iclaslarının protokolları və hesabatları Azərbaycanda parlamentarizmin hansı şəraitdə təşəkkül və təkamül etdiyini açıqlayır. Qeyd olunmalıdır ki, parlamentin iclasları Azərbaycan dilində aparılmış, öz dilini yaxşı bilməyən azərbaycanlı vəkillər və hökumət nümayəndələri də bu dildə danışmalı olmuş, yalnız başqa millətlərdən olan vəkil və qonaqlar rus dilində danışmışlar. Parlamentin protokolları iki – Azərbaycan və rus dillərində tərtib edilmişdir. Parlamentdə 10 nəfər stenoqrafçı – 6-sı Azərbaycan, 4-ü rus dilində – işləmiş, daha sonra parlament katibləri stenoqrafik yazılar üzərində düzəlişlər aparmış və nəhayət, hesabatların üzü köçürülmüş variantları hazırlanmışdır.

1998-ci ildə Azərbaycan dilində nəşr olunmuş 2 cildlik "Parlament" kitabı hesabatların əsasən bu son, üzü köçürülmüş nümunələri və ya (həmin nüsxələr qalmayıbsa) katiblərin düzəlişlər etdiyi nüsxələr əsasında tərtib edilmişdir.

Burada qeyd olunmalıdır ki, "Azərbaycan" qəzetində çap olunmuş Parlament hesabatları bəzi cəhətləri ilə arxiv nüsxələrindən fərqlənirlər. Ən əvvəl, artıq degildiyi kimi, qəzetin özünün Parlament müxbirləri var idi və katiblər tərəfindən hazırlanmış hesabatlar iclasların iştirakçısı olmuş həmin müxbirlərin də qeydləri əsasında bir daha təshih edilərək təkmilləşdirilirdi. Bir qayda olaraq bu hesabatlar qəzetin bir neçə sayında dərc olunurdu. Digər tərəfdən, qəzetin müxbirləri özləri parlament iclasları həqqində geniş hesabatlar hazırlayırdılar. Maraqlıdır ki, bəzi iclasların stenoqrafik hesabatlarının arxiv nüsxələri qalmamış, lakin məhz "Azərbaycan" qəzetində (hər iki dildə) dərc olunduğundan bu günümüzə gəlib çıxmış və 1998-ci il "Parlament" nəşrinə də qəzetə istinadən əlavə edilmişdir. Eyni zamanda Parlamentin bəzi iclasları arxiv variantlarından fərqli olaraq "Azərbaycan"

qəzetində daha yığcam, bəzən sadəcə hesabat şəklində işıqlandırılmışdır. Bu baxımdan Azərbaycan Parlamentinin fəaliyyətinin ciddi araşdırıcıları üçün hər iki kitabla işləmək, təbii ki, zəruridir.

Bax burada, həmin kitablarla bağlı bir məqama diqqət yetirmək lazım gəlir. Artıq qeyd edildiyi kimi, istər arxivlərdə saxlanılan, istərsə də "Azərbaycan" qəzetində dərc edilən Parlament hesabatları ərəb əlifbasında yazılıb və 1998-ci ildə kiril əlifbasına köçürülərək nəşr edilib. Bu nəşr üzərində çalışan, xüsusilə onun transliterasiyası ilə (başqa əlifbaya köçürmə) məşğul olan insanların son dərəcə böyük zəhmətini qiymətləndirməklə yanaşı, deməliyik ki, bəzən mətnlərdəki məna uyğunsuzluqları, ayrı-ayrı sözlərin səhv oxunuşu və s. bu kimi qüsurlar hələ o vəqt mütəxəssislərin diqqətini cəlb etmişdi. Prof. Şirməmməd Hüseynov "Azərbaycan" qəzetindəki hesabatları nəşrə hazırlayarkən, təbii ki, "Parlament" kitabının mətnlərinə müraciət etməyə bilməzdi. Lakin, bu mətnləri tutuşdurarkən alimin "Parlament" kitabının mətnlərində üzə çıxardığı saysız naqisliklər – bütöv cümlələrin, yaxud sətirlərin nəzərdən qaçırılması, ayrı-ayrı söz və ifadələrin düzgün oxunmaması nəticəsində tamamilə əks mənalar alınması, leksik, fonetik qüsurlar, fars, ərəb mənşəli sözlərin müasir sözlərlə əvəz olunması, mənbəşünaslıq baxımından yolverilməz olan bir sıra redaktələr və s. bir peşəkar arxivist-tarixçi kimi Şirməmməd Hüseynovun eyni zamanda iki iş gördüyünü üzə çıxarır. Belə ki, öz kitabı üzərində işləyərkən Şirməmməd müəllim "Parlament" kitabında rastlaşdığı qüsurların üstündən keçməyərək, həmin mətnlərin üzərində köhnə əlifbanı və o dövrün dil-üslub xüsusiyyətlərini dərindən bilən təcrübəli bir redaktor işi görüb.

Redaktə olunmuş sənədlərin əhəmiyyəti, üzə çıxarılan nöqsanların miqyası, həmçinin 2-cildlik "Parlament" kitabının 1998-ci ildə kiril əlifbasında nəşr olunduğu nəzərə alınarsa, Azərbaycan Xalq Cümhuriyyətinin və onun Parlamentinin qarşıdakı 100 illik yubileyi qarşısında bu sənədlərin redaktə olunmuş variantda və latın qrafikasında yenidən nəşr olunması zərurəti vardır.

Xüsusi qeyd edilməlidir ki, prof. Şirməmməd Hüseynovun, transliterasiya redaktorları prof. Şamil Vəliyev və elmi işçi Samir Xalidoğlunun iştirakı ilə hazırladığı kitabda istər "Azərbaycan" qəzetinin müəllif yazılarının, istərsə də Parlament iclaslarında çıxış etmiş millət vəkillərinin nitqlərinin dil və üslub xüsusiyyətləri olduğu kimi saxlanılıb, hər yazının sonunda isə mətndə işlədilmiş ərəb-fars mənşəli sözlərin lüğəti verilib. Ayrı-ayrı parlament iclasları hesabatlarından sonra "Azərbaycan" qəzetinin redaktoru Üzeyir Hacıbəyli başda olmaqla, parlament müxbirlərinin müzakirə olunan daha mühüm məsələlər, yaxud qəbul olunan qanunlar haqqində məqalələri, şərhləri də kitaba daxil edilib. Bu zaman həmin məzmunlu yazıların geniş xalq kütlələrinin parlamentin işi ilə daha yaxından tanış olması, ölkədə gedən proseslərə cəlb edilməsi məqsədi güddüyü əsas götürülüb. Qeyd olunmalıdır ki, istər parlament hesabatları, istərsə də qəzetin "parlament" məqalələri olduqca canlı, anlaşıqlı dildə yazılıb, millət vəkilləri arasında yaranan diskussiyalar, mükalimələr, sorğu və çıxışlara verilən cavablar, replikalar hesabat mətnlərinə müəyyən dramatizm gətirməklə onları daha da oxunaqlı edir. Parlamentdə dövlət əhəmiyyətli məsələlərlə yanaşı, ölkə əhalisinin gündəlik həyatında üzləşdiyi problemlərin, o cümlədən geniş vüsət almış məmur rüşvətxorluğu, neft məhsullarının icazəsiz ölkədən çıxarılaraq qonşu respublika-

lara daşınması, əmtəə və ərzaq məhsullarının satışının möhtəkirlərin əlində olması və s. bu kimi məsələlərin müzakirələri, ayrı-ayrı fraksiyaların hökumətə qarşı irəli sürdüyü haqlı-haqsiz iradlar, qərəzli mövqedə duran siyasi qüvvələrin hər vəchlə hökumət böhranı yaratmaq cəhdləri Azərbaycan parlamentinin və Azərbaycan hökumətinin nə qədər mürəkkəb, ziddiyyətli bir şəraitdə işlədiyini göstərir.

Bütün bunlara rəğmən Azərbaycan Parlamenti öz fəaliyyəti ilə həyati və yaşamağa qabil olduğunu sübut etmiş və bununla da ilk müstəqil Azərbaycan Respublikasının qanunvericilik orqanının əsası qoyulmuşdur. Xarici hərbi qüvvələrin hələ də ölkədə olduğu bir zamanda fəaliyyətə başlayan və daima xarici təcavüz təhlükəsinin mövcud olduğu bir şəraitdə işləyən Azərbaycan Məclisi-Məbusanının qəbul etdiyi qanun və qərarlar Azərbaycan dövlətinin varlığının və inkişafının strateji istiqamətlərini müəyyən etmişdir. Vətəndaşlıq, Ümumi hərbi mükəlləfiyyət, Mətbuat, Məhkəmə qanunvericiliyi, Gömrük və Poçt-teleqraf xidməti, Milli Bank, Bakı Dövlət Universitetinin yaradılması haqqında, Azərbaycan İstiqlaliyyətinin beynəlxalq aləmdə tanınması məqsədilə xarici ölkələrə, o cümlədən Paris Sülh konfransına, diplomatik nümayəndə heyətlərinin, həmçinin gənc respublika üçün yüksək ixtisaslı kadrlar yetişdirmək məqsədilə azərbaycanlı gənclərin xarici ali məktəblərə göndərilməsi haqqında və s. bu sıradan olan qanunlar cəmi 17 aylıq bir fəaliyyətin nəticəsi olmaqla Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tarixini bu gün də istər onun xələfləri, istərsə də geniş oxucu kütləsi üçün aktual, əhəmiyyətli və maraqlı edir.

Azərbaycan tarixinin görkəmli bilicisi, neçə-neçə jurnalist və alimlər nəslinin Ustadı, uzun, məzmunlu və mənalı öm-

rünün doqquzuncu onilliyini bütünlüklə Cümhuriyyət lideri Məhəmməd Əmin Rəsulzadənin zəngin irsinin nəşrinə həsr etmiş prof. Şirməmməd Hüseynov öz yeni kitabına yazdığı kiçik "Ön söz"də çoxmənalı bir xəbərdarlıq edir: "Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 98 yaşı tamam olacaq – 100-ə az qalıb..."

Oxuculara təqdim olunan "**Azərbaycan" qəzetində Parlament hesabatları və şərhlər. (noyabr 1918-aprel 1920) I cild**" kitabı ömrünün 10-cu onilliyinə qədəm qoymuş Şirməmməd müəllimin özünün bu 100 illiyə artıq hazırlaşmağa başladığına bariz bir nümunədir. Həm də çox ibrətamiz bir nümunə.

**Solmaz Rüstəmova-Tohidi,**
*tarix elmləri doktoru, professor*
*"Azərbaycan" qəzeti, 4 mart 2016*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 14 APREL AXŞAM İCLASI

### Tənəffüsdən sonra

**Sədr** – İclas davam edir. Söz verilir parlaman üzvü doktor Kuxmana.

**Kuxman** – Hökumət bəyannaməsi rusca tərcümə edilmədigindən və biz onun məzmununu bilmədigimizdən formulaya səs verə bilməyəcəgizi xəbər vermişdik. Şimdi məzmununa aşina olduq. Ona görə də ləhinə səs verəcəgiz.

**Sədr** – "İttihad" fraksiyası ilə bitərəf fraksiyası tərəfindən böylə bir təklif var – (katibə) oxuyun:

**Katib** – (oxuyur) Hökumətin bəyannaməsini dinləyərək "İttihad" fraksiyası və bitərəflər elan ediyorlar ki:

1- Çünki Azərbaycan istiqlalını müdafiə edən firqələr arasında koalisyon üsuli bu hökumətin təşkilində nəzərə alınmamışdır.

2- Çünki "İttihad" fraksiyası hökumətin təşkilində iştirak etməmişdir.

3- Çünki bu hökumətin gələcəkdə fəaliyyəti xüsusunda heç bir zəmanət yoxdur, firqələr bu hökumət həqqində öz nöqteyi-nəzərlərini təyin etmiyor və məsuliyyəti də üzərlərinə almıyorlar.

**Sədr** – Cəlil bəy siz danışmaq istiyordunuz, buyrunuz.

**Cəlil bəy Sultanov** – (bitərəf) Rəisi-Vükəlanın bəyannaməsində Qarabağ məsələsi üstü örtülü keçildigindən bizim fraksiya səs verməkdən imtina edir.

**Sədr** – Mən başa düşmürəm burada bitərəflər ismindən rəsmən təklif olunur, siz isə başqa söz diyorsunuz.

**Qara bəy** – (yerindən) Bu başqa motivdir.

**Sədr** – Belə olan surətdə etilafa gəlin.

**Cavanşir** – (bitərəf) (yerindən) İcazə veriniz.

**Sədr** – Buyrunuz.

**Cavanşir** – Hökumət Rəisi bu gün öz bəyannaməsində Azərbaycanın hər yerini adbaad çəkdi, nə fikri olduğunu söylədi. Hətta Lənkəran, İrəvan və Naxçıvan uyezdləri adını da çəkdi. Amma ən mühüm Qarabağın adı çəkilmədi. Məlumatımıza görə Qarabağ məsələsi bəyannamədə var idi. Fəqət bilmirəm kimin xatirəsi üçün bu gün bəyannamədən götürülmüşdür. Məlumdur ki, Qarabağ həlakətdə idi. İmdiyədək orada müsəlmanlar Andronikin əlindən çox böyük cəfalar çəkirlər. Çox qurbanlar vermişlər. Hətta 100-ə qədər kənd xarabaya dönmüşdür. Onlar gözlüyordular ki, hökumət bəyannaməsində Qarabağ məsələsi zikr ediləcəkdir. Hökumət, özünüz bilirsiniz oraya general-qubernator göndərib və ona böyük ixtiyarlar vermişdir. Bizim arxamızda duran üçüncü böyük hökumət də ona geniş vəkalət veribdir ki, Qarabağ müsəlmanlarını düşmənlər əlindən xilas etsin. Bu gün isə hökumət Rəisi bu barədə bir söz danışmadı. Öylə nəzərə gəlir ki, guya Qarabağ məsələsi qurtarıb...

**Səslər** – Qurtarıbdır....

**Cavanşir** – (davam edir) Sizdən ötrü ola bilər ki, qurtarıbdır. Amma bizdən ötrü hələ qurtarmayıbdır. Qarabağ əhlindən bir nəfər Şuşadan o yana adlaya bilmir. Hər kəs getsə ölümdən savayı bir şey görməz. Necə ki, bu gün Lənkərana gedib-gəlmək mümkün degildir. Öyləcə Qarabağın dağlarına keçmək mümkün degil. Biz ümid edirdik ki, hökumət bu gün Qarabağ məsələsi haqqında tədbirlər görəcəgini söylər. Amma

bu məsələ barəsində heç bir şey eşitmədik. Bilmirəm hökumətin bu barədə nəzəri nədir. Qarabağ məsələsinə münasibətimiz böylə ikən bəyannamənin qalan hissələri haqqında "İttihad" fraksiyasının formulasına iştirak edirik. Hökumətə olan münasibətimiz isə hökumətin gələcək fəaliyyəti ilə məlum olacaqdır.

**Sədr** – Söz hökumət Rəisi Nəsib bəy Yusifbəylinindir.

**Nəsib bəy** – Mötərəm məbuslar! Mənim bəyannaməmdə nə qədər mübahisəli yerlər və məsələlər varsa o xüsusda sözümü dedim. Çox mübahisəsiz məsələlər vardır ki, hökumət o xüsusda söz söyləməgi artıq bilir. İrəvan, Lənkəran, Tiflis sözü oldusa o da ondan ötrüdür ki, onlar mübahisəlidir. Qarabağ xüsusunda mübahisə yoxdur. Onun üçün də mən mübahisəli olmayan məsələ haqqində bir söz belə söyləməgi artıq bildim.

**Sədr** – Söz Məhəmməd Əmin Rəsulzadənindir.

**Məhəmməd Əmin** – Biz bu təklifin əleyhindəyiz. Nə üçün əleyhində olduğumuzun dəlilini söyləmək istərəm: Bəyannamədə Qarabağ fəqərəsi yoxdur. Bu xüsusda hökumət Rəisi dəxi nə mülahizə ilə məzkur fəqərəyə lüzum olmadığını söylədi. Həqiqətən öylədir. Meydanda Lənkəran məsələsi var. Çünki Lənkəran daha əlimizdə degil. Çünki oraya hala Azərbaycan məmuriyyəti təyin edilməmiş, Tiflis quberniyasından Borçalı məsələsi var. Çünki orası da bizim hökumət və qüvvətimizin xaricindədir. İrəvan quberniyasının bəzi yerlərinə aid məsələ var. Çünki kəza hökumət oralara hala nüfuz edəmməyib topraqlarımız başqa əllərdədir. Halbuki Qarabağ məsələsi böylə layənhəll bir halda degildir. Oraya general-qubernator təyin olunmuş, oradakı hüquqi-mülkiyyəmiz hətta bir dərəcəyə qədər beynəlmiləl bir halı belə iktisab eləmişdir. Bir də İrəvan quberniyasının da-

vasını edən hökumətdən qalxıb da Qarabağ məsələsini istizah etmək yersizdir. Çünki İrəvana gedən hökumət təbiidir ki, Qarabağ dağlarını aşıb keçmədən gedəmməzdi.

Bizcə və hökumətcə Qarabağ məsələsi yoxdur. Nasıl ki, Bakı məsələsi yoxdur. Buna görə də Qarabağ ünvanı ilə vaqe olan hər növ təklifi rədd edəriz.

**Sədr** – Söz parlaman üzvü Malxazyanındır.

**Sədr** – Parlaman üzvü Malxazovun etirazı əsassızdır. Mən səs verdim. Bəyannamə münasibətilə iki fraksiya öz rəyini dedi də. Məsələnin əsası üzərində danışan olmadı. Müştərəkən verilən təklifdən başqa, başqa təklif yoxdur. Bu təklifi səsə qoyuram.

**Sağdan** – Biz də təklif verdik.

**Sədr** – Sizin verdiginiz təklif degil. Siz ancaq nə üçün səs verməyəcəginizin səbəbini göstərdiniz. Mən bunu səsə qoya bilmərəm. (Katibə) Müştərəkən verilən təklifi oxuyun:

**Katib** – (oxuyur): "Hökumət bəyannaməsini eşidərək Məclisi-Məbusan bəyanı etimadla bəyannamədəki əsasların fikirdən işə keçirilməsində hökumətə hər növlə müavinət edəcəyini bildirərək növbədəki məsələlərin müzakirəsinə keçir". (Rusca tərcüməsini oxuyur)

**Sədr** – Qoyuram səsə, hər kəs bu təklifi qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır) Sayın: Lehinə – 43. Kim əleyhinədir? (Əleyhinə yoxdur) Kim səs vermir? 21 nəfər. Lehinə – 43, əleyhinə yox, səs verməyən – 21. Beləliklə, formul əksəriyyət ilə qəbul olunur. (Sürəkli alqış) Vəqt təng olduğuna görə başqa mə'sələlər müzakirəyə qoyulmayacaqdır. Məclisi qapamadan əvvəl gələn iclasın yövmiyyəyi-müzakiratını elan edirəm. Gələn iclasın yövmiyyəyi-müzakiratı böylə olur: Mükəlləfiyyəti-əskəriyyədən maarif, yaxud sənət cəhətilə azad

olunması həqqindəki imtiyazat qanununun tövsi. Cəbəliyyun hökumətinə 30 milyon qərz xüsusunda layiheyi-qanuniyyə. Kür nəhri sahillərində sədlər inşası üçün müəyən məbləğ buraxılması həqqində layiheyi-qanuniyyə. Bu cür yövmiyyəyi-müzakiratı təsdiq ediniz. Etiraz yoxsa, qəbul olunur. Məsələ bitdigindən iclas qapanır.

(İclas saat 8:50 dəqiqədə qapanır)

*"Azərbaycan", 18 aprel 1919, №160*

# AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

## 17 aprel 1919

İclas saat 12:15 dəqiqədə açılır.

**Sədr**: Həsən bəy Ağayev.

**Katib**: Mehdi bəy Hacınski.

**Sədr** – Məclis açılır. Bu gün ruznameyi-müzakirat Divani-Rəyasət tərəfindən böylə tərtib edilmişdir:

1- Daxil olmuş kağızlar, o cümlədən:

a) Daxiliyyə nəzarəti tərəfindən təqdim olunmuş Səlyan qışlaları təmiri üçün istida olunan məbləğ xüsusunda layiheyi-qanuniyyənin eyni nəzarətə təshih və müəyyən eləmək üçün iadəsi

b) Ləvazimat komissiyonunun üzvlərinin dəbiyyətəsi (məvacibi) təzayüdü həqqində layihəsi

p) Ziraət və əmlak nəzarətinin Nuxa şəhərilə Nuxa-Yevlax şosse yolu (Kiş) çayının daşqınından mühafizə etməkdən ötrü mövcud olan daş və çırpıdan mürəkkəb yarımsəddin təmiri üçün lazım olacaq məbləğ həqqində layiheyi-qanuniyyəsi

t) Sabiq parlaman üzvü Bağır Rzayevin istidası

s) "Əhrar" fraksiyonunun bəyannaməsi

2- Mükəlləfiyyəti-əskəriyyədən məarif, yaxud sənət cəhətilə azad olunması həqqindəki imtiyazat qanununun təvəssöi xüsusundakı layiheyi-qanuniyyənin 3-cü qiraəti

3- Şimali Cəballiyun hökumətinə 30 milyon rublə qərz buraxılması layihəsi

4- Kür nəhri sahillərində sədlər inşası üçün müəyyən məbləğ buraxılması həqqində layiheyi-qanuniyyə.

Buna əlavə etmək istiyoram ki, ziraət və əmlak nəzarəti tərəfindən gələn layihə maliyyə-büdcə komissiyonuna göndərilir. Ləvazimat komisyonundan təqdim olunan layihə də eyni komisyona gedir. Bunu da ərz edirəm ki, parlaman qulluqçularının məvaciblərinin təzayüdü xüsusunda gələn pəncşənbə günü başqa bir layihə gələcəkdir. İcazə versəniz bu layihəni də parlamana gəlmədən bir baş maliyyə-büdcə komisyonuna göndərim ki, ikisi də bir yerdə müzakirə edilsin. Bağır Rzayevdən gələn kağız bu məzmundadır: (katibə) oxuyun!

**Katib** – (oxuyur) Azərbaycan Məclisi-Məbusanı rəyasəti-aliyyəsinə sabiq Məclisi-Məbusan əzası Bağır Rzayev tərəfindən:

Möhtərəm əfəndim həzrətləri! Acizləri Məclisi-Məbusan açıldığından yanvar ayının 21-nə qədər keçmiş Seym əzası olduğum kibi Məclisi-Məbusan əzalığımda da qalaraq türklər Qafqasiyadan çəkildikdən sonra İrəvandan Naxçıvana çəkilməgə məcbur oldum. Ermənilərlə Naxçıvan Şərur islamları arasında davam etməkdə olan hərb qarğaşalığına məruz olub da böyük bir müşkülat qarşısında qaldım. Və heç bir vəsilə ilə Bakıya Məclisi-Məbusana gəlməgə müvəffəq olamadım. Hətta Məclisi-Məbusanın açsılmasına dair də heç bir məlumata dəstrəs olamadım. Bunun üçün naqabil rəddü səbəblərdən naşı gələmədigimi nəzərə alaraq hüquqi-şəxsiyyəmin müdafiə edilib də sabiq əzalıq yerimin təkrar kəndimə verilməsini məclis əzayı möhtərəməsindən rica və istirham eylərəm.

Bağır Rzayev"

**Sədr** – Divani-Rəyasət təklif edir ki, bu istida etibarnamə (mandat) komisyonuna verilsin. Etiraz yoxdurmu?

**Səslər** – Etiraz yoxdur.

**Sədr** – "Əhrar" fraksiyasının bəyannaməsini (katibə) oxuyun!

**Katib** – (oxuyur) El fraksiyası "Əhrar" tərəfindən. Azərbaycan parlamanına məruzədir.

İşbu nisanın 14-dəki parlaman iclasında yeni kabinə təşkili haqqında "Əhrar" fraksiyası özündən asılı olmayan səbəblərdən naşı öz nöqteyi-nəzərini söyləmədigindən hökumətə etimad məsələsi səsə qoyulduqda bitərəf qalmağa məcbur olmuşdu.

Vətənin hər yerində hökumətin mexanizmasının hər şöbəsində pozğunluq, nizamsızlıq, başsızlıq və rüşvətxorluq tabehal hökmfərma olduğundan, yollarımızın təmiratına layiqincə iqdam edilmədigindən, topraq məsələsinin həlli üçün heç bir tədbir görülmədigindən, ədliyyə işlərimiz nizam altına alınmadığından, məktəblərimiz, mədrəsələrimiz fəna hallar keçirdigindən, maliyyə, ərzaq, posta-teleqraf işlərimiz tamamilə yoluna qonulmadığından aşkardır ki, sabiq hökumətin verdigi vədlər əncampəzir olmamışdır.

Yeni hökumətin verdigi vədlər sabiqki kimi kağız üzərində qalmıyıb qövldən-felə keçəcəginə ümid edərək ona müzahirat edəcəgimizi vəd ediyoruz.

Siyasətimizin əhəmiyyətini və incəligini dərk edən fraksiyamız kabinə təşkilini təxirə uğratmamaq üçün iştirakdan vaz keçmiş idisə də bilaxirə Rəisi-Vükəla cənablarının rəy və tənsibi üzərinə kabinəyə dəvət olunan Qardaşov cənablarının iştirakına da fraksiyamız mane degildir.

**Sədr:** Ə.Əfəndizadə

**Katib** – (oxuyur) Azərbaycan Məclisi-Məbusanı Divani-Rəyasətinə:

1919 sənəsi aprelin 16 tarixli "Əhrar" fraksiyasının qətnamə surəti. Məclisi-Məbusan Rəyasətinə bəyan olunur ki:

1-ci maddə: Məclisi-Məbusanında söylənən rusca nitqlər türkcəyə behəməhal tərcümə edilməlidir.

2-ci maddə: Məclisi-Məbusan Nizamnaməsi təshihi ilə təb etdirilib sərian fraksiyalara tövzihi.

3-cü maddə: Məclisi-Məbusan komisyonları müzakirələrində rusca müzakirə davam etdigi müddətcə fraksiyalarımız nümayəndələri komisyonlarda iştirak etməyəcəkdirlər.

**Sədr:** Ə.Əfəndizadə"

**Sədr** – Bu xüsusda Divani-Rəyasətin rəyi belədir: Əvvəlinci maddə nakaza (Nizamnaməyə) aiddir ki, rusca danışılmış nitqlər türkcəyə tərcümə edilsin. Nakazda dil xüsusunda bir şey yazılmamışdır. Ona görə də bu maddə nakazın təğyiritəbdilinə aid olduğu üçün komisyona verilməlidir. Keçən dəfə məlumunuzdur elan olundu ki, nakaz komisyonu işlərini bitirdigindən ləğv olunur. İndi tazədən ayrı bir komisyon seçilməsi lazımdır ki, əlavə maddələrə baxıb işləsin. İki son maddələr xüsusunda Divani-Rəyasət bir şey söyləmiyor. Bunu nəzərdə tutun və özünüz etilafə gəlin. Növbədəki məsələyə keçmədən rica edirəm ləğv olunmuş fəhlə komisyonu əvəzinə tazədən komisyon seçəsiniz. Çünki fəhlə komisyonu üzvləri 3 dəfə iclasa gəlməmişlərdir. Nakaza görə də komisyon üzvləri 3 dəfə iclasa gəlməsələr 23-cü maddəyə görə o komisyon ləğv olur. İclasın axırında qapalı olaraq yeni komisyon seçilməlidir. Növbədəki məsələ mükəlləfiyyəti-əskəriyyə qanun layihəsinin 3-cü qiraətidir. Məruzəçi Musa bəy Rəfiyevdir.

(Qanun layihəsi madəbəmaddə oxunub səsə qoyulur. Hər maddə əksəriyyət ilə qəbul olunur. Sonra layihə tamamən səsə qoyulur, əksəriyyəti-ara ilə qəbul olunur və təshihiyyə komisyonuna verilir)

**Sədr** – Növbədəki məsələ Cəbaliyyun hökumətinə 30 milyon faizsiz qərz verilməsi layihəsidir. Məruzəçi Musa bəy Rəfiyevdir.

**Rəfiyev** – Şimali Qafqasiya hökuməti Azərbaycan hökumətinə müraciət edib 30 milyon faizsiz qərz istiyorlar. Bu barədə varid olan layihəni büdcə-maliyyə komisyonu müzakirə edib və Dağıstan hökumətinə müavinət lazım olduğunu nəzərə alıb dəgişiksiz qəbulunu parlamandan rica edir. Layihə 3 maddədən ibarətdir: (oxuyur)

1- 1919 sənəsinin fövqəladə smetasına salınaraq Şimali Qafqasiya İttihadi Cəbaliyyun Cümhuriyyəti hökumətinə 30 milyon rublə faizsiz qərz vermək üçün maliyyə nazirinə izn verilsin.

2- İttihadi-Cəbaliyyun Cümhuriyyəti hökuməti Azərbaycan hökuməti ilə birlikdə para çıxarmaq həqqində saziş əmələ gələrsə məzkur qərz, birlikdə para buraxıldıqdan sonra ödəniləcəkdir.

Birlikdə ümumi para buraxmaq həqqində xüsusi saziş olmazsa İttihadi-Cəbaliyyun Cümhuriyyəti hökuməti kəndisinə verilmiş borcu iki il müddətində aşağıdakı qaidə üzrə 3 növbədə verməlidir.

1- 10 milyon qərz, verildigi gündən bir il sonraya qədər;

2- 10 milyon, bir il 6 ay sonraya qədər. 3 mai-baqisi iki il sonraya qədər ödəmməlidir;

3- İttihadi-Cəbaliyyun Cümhuriyyəti hökumətinin vəkilinə qərz verilənə kimi onun ödənilməsi həqqində işbu layiheyi-qanuniyyənin 2-ci maddəsində göstərilən şərtlər ilə müqavilə bağlamaq maliyyə nazirinə tapşırılsın".

**Sədr** – Kim bu barədə danışmaq istiyorsa vərəqə ilə bildirsin.

**Məhəmməd Əmin Rəsulzadə** – (yerindən) Bu barədə danışmaqmı lazımdır?

**Sədr** – Söz istəyən yoxmu?

**Səslər** – Yoxdur, yoxdur, səsə qoyun!

**Sədr** – Onda səsə qoyuram. Layihəni maddəbəmaddə səsə qoyuram.

(Layihə maddəbəmaddə oxunub səsə qoyulur. Əksəriyyət ilə qəbul olunur. Sonra tamamən səsə qoyulur, əksəriyyəti-ara ilə qəbul olunur)

**Sədr** – Keçirəm növbədəki məsələyə. Növbədəki məsələ Kür nəhri sahillərində sədlər inşası üçün məbləğ buraxılması haqqında layiheyi-qanuniyyədir. Məruzəçi Əbuzər bəy Rzayevdir.

**Rzayev** – Möhtərəm məbuslar! Özünüzə məlumdur ki, yaz fəsli seylab vəqti Kür çayı daşıb çox zərər verir. Camaatin əkin və malını məhv eliyor. Əlbəttə, hökumətin borcudur buna bir çarə etsin. Məsələn, mühəndislər göndərsin, proje hazırlasın, milyonlarla pul buraxıb bu fəlakətin önünü alsın. Fəqət hələlik bunların həpsini etmək mümkün degildir. 95-ci ildə Kür nəhri daşıb xəlqə nəhayət dərəcədə böyük zərər yetirmişdi. O vəqt rus hökuməti tələsik bir layihə qayıraraq camaatin zəhmətindən istifadə edərək çayboyu topraq tökdürməgə başladı. Haman layihəyə görə 90 min sajin topraq tökülüb sədd qayırmalıydı. Fəqət iş qurtarmamış ixtişaş düşüb 70 min sajin topraq töküldükdən sonra camaat dağıldı və iş yarımçıq qaldı. İcarədar dəxi işdən əl çəkdi. Amma o vəqt bir neçə xətalı yerlər sədsiz qaldı. Ona görə sonradan hökumət öz xərci ilə oraları düzəltməgə başladı. Fəqət yenə başa vurulmadı. Böylə ki, cümlətanı 226 sajin topraq töküldükdən sonra iş yenə yarımçıq qaldı. İmdi iki ildir ki, haman işlərə bilmərrə qulaq asan olmayır, yağış yağır sədləri xarab ediyor. Böyləlik ilə tazəsi qayrılmadığı halda qayrılmış olanı da sökülüb dağılır. Şimdi bu sədləri təmir etmək lazımdır. Yenidən təmir ediləcək olan yer təqribən 7 verstə qədərdir ki, burada cümlətanı 262 sajin topraq tökülməlidir. Təxminən hər sajinə bir neçə fəhlə lazımdır. Fəhlənin gün muzdu 20 manatdan hesab edildikdə cümlətanı 500 min manat lazım oluyor. Bundan əlavə texniçeski nadzor

dəxi lazımdır ki, bunun xərci təqribən 3 faiz götürülərək, onun da məsarifi hesab edildikdə cümlətan yekunu 641 min manat lazım olur. Nəzarət bu xüsusda Məclisi-Məbusana tələsik bir qanun layihəsi təqdim etmişdir. Maliyyə komissiyası məzkur layihəyə baxıb heç bir irad tapmayaraq tamamilə qəbul etmişdir. Qanun layihəsi də budur: (oxuyur) Maliyyə-büdcə komissiyonu bu layihənin qəbulunu və zirayət naziri binagüzarlığına 641 min manat buraxılmasını təklif ediyor.

**Qənizadə** – Əlbəttə, Kürün daşmasından çox böyük zərər hasil oluyor. Şübhəsiz bu xüsusda təşəbbüslər edilib sədd çəkmək lazımdır. Çünki əhalinin mənfəəti gərək gözlənsin. Amma əsl mətləb buradadır ki, Kürün daşmağının vəqti keçibdir, həmişə daşqın təqribən aprel ayının əvvəllərində olurdu. Bəzi illər əbədən daşmazdı. Şimdi bu vəqtədək daşmıyıb və bu ziyanın olacağı da gözlənmiyor. Daşqının vəqti keçibdir. Ona görə də sədd üçün 600 min manat buraxmaq nahaqdır. Çünki pul hədər gedər. Binaənileyh bən layihənin qəbulunu lazım bilmiyoram.

**Mahmudov Mustafa** – Məruzəçinin dedigi kimi Kür sahilindəki səngərlər neçə ildən bəridir ki, qayrılıyor. Fəqət bu axır vəqtlər şuluxluq olduğuna görə oraya heç fikir verilmiyib qulaq asılmıyıbdır. Bən zənn edirdim ki, bu barədə heç danışıq olmayacaq. Amma bizə imdi diyorlar ki, lazım degil, çünki vəqt keçibdir. Fəqət bu doğru degil, çünki çayın daşmağı hələ bundan sonradır. Kür hələ daşqın halına gəlmiyibdir və biləks bu il daha yaman daşqın gözləniyor. Bir də hökumət qabaqcadan bu barədə sərəncamda bulunmuşdur. Hətta səddin təmirinə 200 min manat buraxmışdır. Bu ümid ilə ki, bu layihə qəbul edildikdən sonra haman kreditdən o 200 min manat dövlət xəzinəsinə qaytarılacaqdır. İş çoxdan başlanıb-

dır. Bən təklif ediyoram başlanmış iş yarımçıq qoyulmasın və layihə qəbul edilib istənilən pul buraxılsın.

**Qənizadə** – Görünür ki, iş başlanıbdır. Əgər böylə isə əlbəttə lazımdır pul buraxılsın. Ancaq bən iltimas edərdim layihə oxunanda ətraflıca məlumat verilsin, tainki natiq işə yaxşı bələd olsun. Şimdi bən də diyoram ki, pulu buraxmaq vacibdir.

**Hacı Hüseyn Əfəndizadə** – Kür sahilinə əlbəttə sədd çəkmək lazımdır. Bunun üçün 641 min manatın da buraxılması fərzdir. Fəqət bən təklif edərdim ki, bu pul buraxılanda kəndlərə təqsim olunsun. Çünki pul buraxılıyor, amma desyatnik və sairləri öylə adamlardan olur ki, camaəti pulsuz iməci işlədirlər, pul da qalır bəzi adamların cibində.

**Sədr** – Bu barədə daha kim danışmaq istiyor? Səsə qoyuram, hər kəs layihənin komissiya təklif etdigi kibi qəbulu tərəfdarısa əlini qaldırsın. (Əllər qalxıyor) Deməli, layihə əksəriyyət ilə qəbul olunur.

Ruzinameyi-müzakirat bitmiş olduğundan iclası qapıyoram.

(İclas saat birdə qapanır)

*"Azərbaycan", 20 aprel 1919, №161*

İstida – xahiş, ərizə
İadə – qaytarma
Təzayüd – get-gedə artma
Təvəssö – genişlənmə
Dəstrəs – nail, imkan
İstirham – rica
Tənsib – münasib görmə
Səriən – tələsik
Tövzih – paylaşdırma
Təğyir – dəyişdirmə
Təbdil – tərcümə
Baqi – qalıq, qalan

## BÖHTANLARLA BÖYÜK İŞLƏR GÖRÜLÜR

Biz Qafqas türkləri həqli sədamızı, təbii həqqimizi yanımızda, aramızdakı müttəfiqlər müməssili Tomsona yetişdirəmədigimiz, ona həqiqət-halı anlatmadığımız halda, ermənilər yüz dürlü böhtan və qırmızı yalanlarını Parisə, Londona qədər çatdıraraq Qafqas siyasətində böyük rol oynamaqdadırlar. Həm öylə dəhşət və əhəmiyyətli rol oynamaqdadırlar ki, ona qarşı bir saət səbir və sükut, ona qarşı bir tədbiri-siyasi aramamaq hüquqi-sərihəmizə, həyati-istiqlalımıza olan aşkar təcavüzü qəbul eləmək deməkdir. Bu isə müstəqil yaşamaya əzm etmiş bir millət üçün degil, adi bir cəmiyyət üçün belə bir eyib, bir nöqsandır.

Yalnız bir eyib və nöqsanmı? İş bununla qalsa yenə dərd yarı: yenə nöqsanı ikmal mümkün. Fəqət daşnaksaqanlar öylə qızıl iftira və ağulu dillərlə, öylə ustalıq və sərbazlıqla müttəfiqləri və onların buradakı vəkillərini aldadıyorlar ki, nəticəsi vücudumuzun mühüm bir üzvünü xəncərlə kəsib ayırmaq və bu surətlə həyati-istiqlaliyyəmizi bir daimi zəf və mərəzə düçar etməkdir.

Heyf ki, bəyanatım quru bir söz degil: iştə mürəxxəslərinə vurduğu teleqraf:

İştə bu teleqrafın nəticəsi olaraq Kars Cənub-Qərbi Qafqas hökumətinin dağıdılması.

Ehtimal ki, oxuyanların bir qismi bu teleqraf məzmununu bilmiyor. Teleqrafın xülaseyi-məzmunu böylədir:

"Qarabağ, Şərur, Naxçıvan, Sürməli və Kars tərəflərində Osmanlı zabitlərinin komandanları təhtində böyük türk qüv-

vətləri toplanmaqdadır. Bunlar top və atəş qüvvələrilə yenidən erməni qanı axıtmaqla bu yerləri Azərbaycana zorla ilhaq etmək istiyorlar. Vəziyyət qayət ciddi və təhlükəlidir. Müttəfiqlər qüvvətinin müavinətilə bu qanlı qitalın qabağı saxlanmalıdır. Vəilla, yaxında böyük və qanlı faciələr üz verəcəkdir".

Parisə çəkilən bu həyəcanamiz teleqraf Parisi vəlvələyə saldığı bir anda, Tiflisdə çıxan ingiliscə "Detrans Qafqazyan post" qəzetəsindəki "Türk intiriqaları" məqaləsi də buradakı müttəfiq komandanlarını şübhəyə buraxdı.

İştə bu şübhə səbəbilədir ki, müttəfiqlər komandanı Tomson, bir az əvvəl Kars hökumətini təqdir və təsdiq etdigi halda bu həftə adi bəhanələr ilə onu dağıtdı və aprelin 14-də bütün kabinə əzasını dustaq edib təhtülhənüz Batuma göndərdi. Yarım milyonluq türk demokratiyasını daşnaksaqanların, erməni sərmayədarlarının pəncəyi-intiqamlarına buraxdı.

İştə safdil türklər! Görsünlər və sadədil Azərbaycan türk demokratları anlasınlar ki, daşnaqsaqanların kiçik bir qeyrətləri, daha doğrusu hiylə və bötanları nə böyük işlərə şayani-əsəf təbdillər vücudə gətiriyor!

Nasıl can alacaq damarı biliyolrlar. Nasıl əhvalı-hazirə tilsimini quruyorlar: İngilisləri nasıl "Qafqazda Osmanlı nüfuzu" ilə quşqunlandırıyorlar.

İştə bu da bir siyasi hünər, bir hiylə müvəffəqiyyədir. İngilislər əlilə böyük məram və qayələrinə çatmaqdır. Zəhmətsizcə yarım milyonluq bir türk kütləsinin ittihadını, siyasi-müəssəsatını dağıtmaqdır.

Bu məgər az hünərmidir?

Bu gün, yarın Kars şəhəri ermənilərə keçəcək. Daşnaksaqanların əski hakimiyyətlərini quracaq, bütün müsəlman füqərası uzaqlara işsiz yerlərə qaçacaq, qayalara, dağlara sığınacaq. Ac, çıplaq qalacaq, minlərcə naxoşlayacaq, yüzlərcə qırılacaq.

Əvət, daşnaksaqan hakimiyyəti Karsa köçəcək, oradakı yüzlərcə top, minlərcə tüfəng, milyonlarca patronu əllərinə keçirəcək, müsəlmanlar əleyhinə işlədəcəklər.

Ermənistan hüdud və nüfuzu altında 486 müsəlman kəndinin ermənilər tərəfindən zəbt və işğal edilmələrinə rəğmən Karsdakı 86 erməni kəndinə sığınan yersiz müsəlman kəndliləri yerlərindən qovulacaq dağlara, bayırlara sürüləcəklər. Bu il dağ otlarilə yaşasalar belə, gələn qışda acından ölümə məhkum olacaqlar.

İştə daşnaksaqan propağandasının qızıl böhtanının nəticəsi!

İştə ingilisləri inandırmalarının siyasi manevrə və hiylələrinin səmərəsi!

İştə buna müqabil də bizim sükut və "təvəkkül"ümüz!

Əcəba bizim bu sükut və təhrimiz doğrudan uzun sürəcəkmi?

Zənn etməm. Daha zənn etməm ki, türk demokratiyası əskisi kibi uzun yatsın!

Ümidvaravm ki, tezliklə bu hiyləkarlıqların, ingilis səhvlərinin üstünü açsın və tələb etsin ki, Kars hökumət heyəti bacarıqsız idisə onu təməlindən pozmaq, dağıtmaq olmaz. Mövcud olan Məclisi-Məbusanı vasitəsilə tazələmək, əhvalı islah etmək mümkündür.

Ümumi demokrat qanunu ilə vücuda gələn bir məmləkət Məclisi-Məbusanını heçə saymaq, onun kabinəsini tutub həbs eləmək, qonşular təşviqatı ilə Məclisi-Məbusanı ilə bərabər bir hökuməti-mütəşəkəlliyi dağıtmaq millətlər müqəddəratını təmin üçün Qafqasiyaya gələn ingilislərin mənfəətinə müvafiq olmasın gərək.

**Ümidvar (Ömər Faiq Nemanzadə)**

***"Azərbaycan", 20 aprel 1919, №161***

## TƏKZİB

"Znamya truda" qəzetəsində və sonradan başqa qəzetələrdə bir xəbər yazılmışdı ki, guya Qafqasiyada olan müttəfiq dövlət komandanı general Tomson Gürcüstan Şurayı Vükəlası sədri Jordaniyayı üç dəfə İngiltərə ərkani-hərbinə dəvət edib və guya axırda Jordaniyaya demişdir ki: Sülh konfransı Eçmiyədzin uyezdindən başqa Rusiyanı 1914-cü il sərhədlərində bərpa eləmək əsası ilə Zaqafqasiya cümhuriyyətlərini təsdiq etmiyor. Sonrakı xəbərdə diyordi ki, guya bu söz Jordaniyaya artıq təsir bağışladığından, Jordaniya bu xəbərin əqəllən mayın birinə qədər elan edilməməsini Tomsondan xahiş eləmişdir.

Azərbaycan hökuməti nəzdində olan Gürcüstan milli nümayəndəsinin məlumat bürosu bu əhvalatın əsilsiz olduğunu xəbər verir. Jordaniya ilə Tomson arasında yuxarıdakı məsələlər həqqində heç bir söhbət olmamışdır.

**İdarədən:** qəzetəmizin keçən nömrələrinin birində yalan şayiələr ünvanı ilə fövqdəki xəbərin əsilsiz uydurma olduğunu yazmışdıq.

"Vperyod" qəzetəsi də bu xəbərin yalan olduğunu bildikdən sonra diyor ki, erməni siyasi dairələrinin Parisdən və İstanbuldan aldıqları məlumata görə sülh konfransı Zaqafqasiya cümhuriyyətlərini təsdiq etməgə meyllidir.

*"Azərbaycan", 20 aprel 1919, №161*

## DAĞISTANA İMDAD

Dağıstan imdad məsələsi – görünür ki – qövldən-felə gətirilmək üzrədir. Şayani-diqqət və səzai-əhəmiyyət partiyalarımızın bu imdad işinə – rəsmi hökumət imdadından ayrı olaraq – könüllü surətdə girişib də könüllü dəstələri təşkil etmələridir.

Bir tərəfdən "Müsavat", bir tərəfdən sosialistlər ittifaqı və digər tərəfdən də bitəraflər partiyası, hər biri öz adından könüllü yazılmaq və yazdırmaq dəftəri açıb dağıstanlı qardaşlarımızın imdadına yetişmək üçün çalışmaqdadırlar.

Azərbaycan türk və islamlarının əhali müməssilləri olan partiyalarımızın bu xüsusda çalışması Azərbaycan və Dağıstan xeyirxahlarını sevindirəcək dərəcə layiqi-təqdir və şayani-təhsin bir əməldir. Yalnız bir arzu qalır ki, o da – bu çalışmadan hasil olacaq nəticələr, yerini tutsun və imdad nəticə – bihəqq bir imdad olub dağıstanlı qardaşlarımızı müşkül haldan çıxara bilsin.

Bu son arzunun hüsulə gəlməsi üçün hər bir partiyanın üzərinə, könüllü yığmağdan başqa, digər vəzifəhlər dəxi tərəttüb ediyor ki, bu vəzifəhlər əhəmiyyətcə böyük bir mövqe ehraz etməkdədirlər.

O vəzifəhlərin ən başlıcalarından biri – bu "Dağıstana imdad" işini birləşdirmək və bu yolda ittihad və ittifaqilə iş görməkdir. Bu işdəki ittifaq, partiya əzalarını "kənardan baxanlar" yanında məhcub edəcək və özlərinə töhmət və məzəmmət yetişdirəcək ittifaqlardanədd oluna bilməz. Madam ki məqsəd birdir – o halda bu məqsədin hüsuli yolunda sərf edilən. əmək və əməllər də bir olmalıdır ki, işin içindən bir nəticə çıxsın.

Hər bir partiyanın xüsusi olaraq könüllü yığmasına sözümüz ola bilməz. Çünki təbiidir ki, könülli yazılmaq istəyənlər öz bəyəndigi partiyanın başına yığılacaqdır. Arzumuz fəqət budur ki, hər partiyanın könüllüləri yığıldıqdan sonra bunların Dağıstana ezami və orada nə vəchlə iş görmələri məsələləri ümumiliklə həll edilmək üçün bir mərkəzə mərbut edilsin. Yəni partiyalar əzalardan birər iki şər nəfərlər iştirakilə xüsusi bir komisyon təşkil edilib yığılmış könüllüləri göndərmək. Dağıstanda lazım olan mövqelərdə yerləşdirmək saxlamaq, yemək, içmək ehtiyacatı rəf etmək və bu Azərbaycan könüllü qüvvəsini vahid bir qüvvə surətində dağıstanlı qardaşlarımızın imdad yolunda sərf etmək işi o komisyona tapşırılsın.

Bu Dağıstana imdad məsələsinin bir cəhətidir ki, zənn edirik, buna qarşı əsas etibarı ilə etiraz edən olmasın gərək, zira etiraz edən olursa müxtəlif proqramlı partiyaların.bu məsələ üzərində və bu işdə ittihad və ittifaqı partiyalıq nöqteyinəzərindən "imkan xaricində" bir iş kibi tələqqi edənlər çıxarsa, öylələrin Dağıstana imdad məsələsində imdaddan başqa özgə bir məramın dəxi təqibində olduqlarına güman aparmağa həqqimiz olar.

Məsələnin başqa bir cəhəti dəxi vardır ki, o da dağıstanlı qardaşlarımızla Denikin qaragüruhunun arasında vaqe olan müharibə gedişindən və iş nə yolda və nə vəziyyətdə olduğundan, dağıstanlı qardaşlarımıza nə miqdar imdad lüzumundan kəmalınca vüquf və ittilat hasil etməkdir ki, bu da məhəlində, yəni Dağıstanın özündə mümkündür.

Məlumunuz olduğu üzrə bunun üçün xüsusi adamlar seçilib bu günlərdə Dağıstana gedəcəkdirlər. Genə arzu edərdik ki, müxtəlif partiyalara mənsub olan bu adamlar Dağıstana gedərkən xüsusi bir komisyon sifətilə getsinlər və gedib də hal və övzain necəligindən dürüst məlumat əxz etsinlər. On-

dan əlavə burdan göndəriləcək olan könüllü köməginin orada nə surətlə qəbulu və istemali xüsusinda da pişəzvəqt hazırlıqlarda bulunsunlar. İşin müəyyən bir nizam və qaidə ilə yürüməsinə diqqət yetirsinlər. Sistemsiz və xudsəranə işlər görülməsinə yol verilməsin. Qərəz səy edilsin ki, imdad həqq ilə imdad mahiyyətində olub da dağıstanlı qardaşlarımızın felən hiss edəcəgi mərtəbə müəssər olsun.

İştə bu birlik və nizam ilə iş görmək arzularımız əmələ gəlirsə, ümidvar olarıq ki, dağıstanlı qardaşlarımıza həqiqi kömək yetirə bilib onları da, özümüzü də qaragüruhlar təcavüzatından mühafizə edə bilərik. Bunun üçün partiyalarımızı bu mühüm işdə birligə dəvət edib də müvəffəqiyyətlərini təmənna edirik.

**Hacıbəyli Üzeyir**

*"Azərbaycan", 23 aprel 1919, №164*

Vüdsər – özbaşına

Pişəzvəqt – vəqtından qabaq

## ZAQAFQAZİYA KONFRANSINA DAİR

Azərbaycan, Dağıstan, Gürcüstan və Ermənistan nümayəndələrindən təşəkkül edəcək olan Zaqafqaz konfransı sabahkı gündən etibarən Tiflisdə iniqadə başlamalıdır.

Konfransın müzakirəsinə vəz ediləcək olan məsələlər xüsusində qəzetəmizin keçənki nömrələrində məlumat verilmişdi. Bundan anlaşıldığı üzrə konfransda həm iqtisadi və həm də siyasi məsələlər müzakirəsi müqərrərdir ki, siyasilərini təklif edən Azərbaycan və iqtisadilərini də Gürcüstan olmışdır.

Həll ediləcək olan məsələlər, istər siyasi olsun, istər iqtisadi olsun, son dərəcə mühüm olduğundan, Zaqafqaz cümhuriyyətlərinin biri-birilə yaxşı və yaxud yaman dolanması bu məsələlərin o tövr və ya bu tövr həll edilməsindən asılıdır.

Məsələlər mühüm olduğu kimi, onların həlli də çox müşküldür. Azərbaycan tərəfindən təklif edilmişdir ki, ixtilaflı məsələlər haqqində konfrans heç bir qərara gələ bilməsə, o halda hər tərəf "Arbitraj" qərarına tabe olsun, yəni bu işlərdə mənafecə zimmədəxl və əlaqədar olmayan bitərəflərdən hakəm (hakim) və münsiflər dəvət edilib ixtilafın həlli olanların qərardadına həvalə edilsin və onlar nə qərardad qoysalar, hər tərəf buna razi olsun. Bu maddə bu surətlə qəbul edilərsə, ixtilaf və mübahisəli məsələləri həll etmək müşkülatı bir dərəcəyə qədər asanlaşar. Fəqət bu arbitraj qərardadının iki tərəfdən birinin mənafeinə müvafiq olacağından, mənafeini xələldar olmuş hesab edən tərəf genə də narazı qalacaqdır.

İştə bunun üçündir ki, bəziləri, əzcümlə erməni milli komitəsi naşiri-əfkari olan rusca "Naşe vremya" qəzetəsi dəxi, siyasi məsələlərin həllini sonraya, yəni ümumsülh konfransı

həllinə vagüzar edib də yalnız bir iqtisadi məsələlərdən bəhs edilməsini səlah bilirlər.

Lakin biz bu zəndəyik ki, siyasi məsələlərə əl vurmamaq şərtilə iqtisadi məsələləri müzakirəyə qoymaq və müzakirə bədində müəyyən qərarlar ittixaz etmək mümkün olan işlərdən degildir. Ondan əlavə siyasi məsələlərin müəlləq bir halda qalması heç bir kəsi şad edə bilməyib, arada genə də bürudət və küdurət törədə bilər. Halbuki konfransdan məqsəd bu küdurəti və bu bürudəti aradan götürmək, etibar və etimad əmələ gətirməkdir, bunun üçün bir kərə açılışmaq lazımdır. Böylə açılışmaq ki, onun axırı möhkəm surətdə bağlaşılmağa müntic olub aramızdakı kin və küdurəti rəf etsin.

Siyası məsələlərdən ən mühimi və ən çətini hüdud təyini məsələsidir.

Bu məsələ zatən Zaqafqaz cümhuriyyətlərinin istiqlal elanı bədindən müzakirə və həll edilməli idi. O vəqt, yəni təqribən altı-yeddi ay bundan əvvəl bu xüsusda bir konfrans yığmaq üçün Gürcüstan və Azərbaycan hökumətləri tərəfindən təşəbbüslər edildi. Lakin Ararat hökuməti o vəqt bu konfransa razı olmayıb, işi pozdu. Pozmaqda da müəyyən qərəzi olduğunu, buna mütəaqib Gürcüstana qarşı açmış oldiği müharibə ilə isbat etdi. İngilislər tərəfindən toxtadılmış olan bu müharibədən erməni hökuməti heç bir şey qazanmadı, biləks maddi və mənəvi zərərlər çəkdi. İş genə qılıc zoru ilə degil, danışıb görüşmək təriqi ilə həll edilmək zərurətində qaldı.

Şayani-diqqət burasıdır ki, o zaman Ararat hökuməti Azərbaycan iştirakilə bir konfrans qurulmasına razı olmayıb da məxsusi surətdə gürcülər ilə danışığa girişmək istəmişdi. Gürcü hökuməti bu işə razi oldusa da iş genə Ararat hökumətinin təkrar rizasızlıq ibrazı ilə baş tutmadı. Hər hal-

da ümumzaqafqaz konfransı təşkilindən əvvəl Gürcüstan və Ermənistan hökumətlərinin xüsusi görüşmələri niyyəti baqi qalmış imiş ki, bu konfransdan əvvəl haman iş baş tutub Ermənistan və Gürcüstan arasında bu günlərdə vaqe olan danışıq nəticəsində bu iki hökumət bir-birinin istiqlalını qəbul edib tanıdıqlarını rəsmi surətdə elan etdilər. Bundan aşkardır ki, Gürcüstan və Ermənistan arasında vaqe olan ixtilaflı məsələlər artıq həll edilib qurtarmışdır. O surətdə, deməli, hər nə ixtilaflı hüdud məsələləri varsa Azərbaycan ilə Gürcüstanın və genə Azərbaycan ilə Ermənistanın arasında qalmışdır. Bu ixtilaflar bərtərəf edilərsə, bizim dəxi istiqlalımız zənn edilər ki, rəsmi surətdə tanılılacağdır.

Rəsmi tanılmağın başqa bir mənası vardır. Məsələn, əgər Ermənistan hökuməti Azərbaycan istiqlalını rəsmən tanıdığını elan edərsə, o surətdə Parisdə olan Nubar paşaların və sair erməni mümәssillərinin Azərbaycan torpağı hesabına böyük Ermənistan qurmaq niyyətləri bir dərəcəyə qədər puç olar. Bunun üçündür ki, hökumətimiz tərəfindən rəsmi tanınmaq məsələsi təklif edildikdə, Ararat hökuməti bu məsələnin həllindən əvvəl hüdud məsələsinin müzakirə və həllini lazım bildi.

İştə məsələlərin ən mühümü və çətini bu hüdud təyini məsələsidir ki, sair siyasi və iqtisadi məsailin həlli də bu hüdud məsələsi həllinə bağlıdır.

Bu məsələnin çətinligindən bir az olsa da xəbərdar olmaq və nə qədər mühüm olduğunu təsəvvürə gətirmək üçün misal olaraq burasını mülahizə etməlidir ki, məsələn Ermənistan hökuməti əksəri Azərbaycan türk və islamlarilə məskun olan Naxçıvan və Şərur mahallarını təmamilə mənimsəməkdən əlavə Qarabağımıza dəxi iddiası vardır. Hakəza Gürcüstan,

Borçalı islam və türklər ilə məskun yerləri zəbt etdigi bəs degil ki, hələ Zaqatala ölkəsinə də göz dikmək istiyor.

Hüdud məsələsi müzakirəsinə başlarkən bir əsas üzərində dayanmaq lazımdır. Bu şərtlə ki, hər tərəf o əsası qəbul etmiş olsun. Böylə olursa məsələnin həlli bir dərəcəyə qədər asanlaşar. Halbuki məlumumuz olduğu üzrə hər tərəfın iltizam etdigi əsas başqadır. Məsələn gürci və ermənilər əsas olaraq tarixi ortaya qoyurlar. Biz isək "etnoqrafı" əsas tərəfdarıyıq, yəni bir yerin, bir mahalın sakin olduğu millətlərindən çoxluq və azlıq kimin tərəfində olduğunu mülahizə edirik.

Zatən, biz də tarixə müraciət edə bilərik. Ancaq bu şərtlə ki, o tarix "Nuh əyyamının" tarixi olmuya, yəni qədim tarix olmuyub də yaxın tarix bəhsi ola.

Bizim "Böyük Azərbaycan" qurmaq xülyalarımız olmadığına görə bu məsələdə ifrata girişmək xəyal və arzumuz da ola bilməz. Yalnız istədigimiz budur ki, əksəri Azərbaycan türk və islamlarilə məskun olan yerlər Azərbaycan dövlətinə mütəəlliq olsun. Məsələ həll edilə bilmədigi halda "Arbitraj" qərarına tabe olmaq təklifimiz, insaf əhli olduğumuza böyük bir şahiddir.

Məsələnin həlli üçün, "Arbitraj" qərarına verilməkdən başqa bir də digər bir yol dəxi vardır ki, onun vasitəsinə də müraciət eləmək mümkündür. Bu yol, mahal əhlindən əksəriyyətin kimə tabe olmaq arzularını bilmək və məsələni bu əksəriyyətin arzusuna müvafiq olaraq həll etmək.

Əgər tərəfindən birisi nə "Arbitraj" qərarına və nə də əhali əksəriyyətinin arzusuna tabe olmaq istəməzsə, o halda insafsızlıq ibraz edib zor və cəbr tərəfdarı olduğunu bildirəcəkdir. Biz isək təbiidir ki, cəbrə tabe olmaq və rəsmən tanınmaq üçün mal-mülk və əhalimizi fəda etmək istəmiyəcəyik.

Ümidvar olmalıyıq ki, tərəfin hər bir qeyri-qabil hüsuli boş və çürük xəyallardan əl çəkib də bu mühüm məsələ müzakirəsində əqli-səlim ilə iş görmək istərlər. Zaqafqaziya cümhuriyyətlərinin əhvali-iqtisadiyyəsi və bir-birinə olan rabitəsi bunu tələb edir. Ermənistan və Gürcüstanın iqtisad cəhətincə Azərbaycandan asılı bir çox ehtiyacatı olduğunu iqrar və etiraf edənlər olmasa da həyat və məişət bunu isbat etməkdədir. Bizim dəxi köçəri məsələsi kimi əhalimizin bir çox qismindən ötəri ölüm-dirim məsələsi olan böyük bir əngəlimiz var ki, o xüsusda yaylağlarımız yollarında yaşayan erməni ünsürilə etilaf və sazişimiz lazımdır...

Hər halda çox arzu edərdik ki, sabah açılan konfrans müzakirəyə qoyulacaq olan məsələləri həll edərkən saziş və etilaf hissiyatı ilə xeyirxahanə bir surətdə işə girişib ümum Zaqafqaz cümhuriyyətləri əhalisi üçün xeyir və mənfəət yetirsin və Yevropa gözündə dəxi öz istiqlallarının şan və heysiyyətini korlamasın.

**Hacıbəyli Üzeyir**

***"Azərbaycan", 24 aprel 1919, №165***

İniqad – təşkil edilmə, qurulma
Müqərrər – yaxını olan
Zimmə dəxl – məsuliyyətə qarışma, müdaxilə etmə
İttixaz – qəbul etmək
Müəlləq – açıq qalan
Bürudət – soyuqluq
Müntic – nəticə
Məsail – məsələlər

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**24 aprel 1919**

İclas saat 11:30 dəqiqədə açılır.

**Sədr**: Həsən bəy Ağayev.

**Katib**: Mehdi bəy Hacınski.

**Sədr** – İclas açılır. Bugünki ruznameyi-müzakirat böylədir:

1- Etimadnamə komisyonunun məruzəsi.

2- Yevlax-Nuxa yolunu Kiş çayının daşqınından mühafizə etmək üçün ziraət və əmlak nəzarətinə 211 min rublə buraxılması haqqində qanun layihəsi.

3- 410 milyon rublə dövlət pulu buraxılması haqqində hökumətə müsaidə verilməsi.

Etiraz yoxsa, yövmiyyeyi-müzakirat qəbul olunur. Növbədəki məsələ etimadnamə komisyonunun məruzəsidir. Məruzəçi Şəfi bəy Rüstəmbəyli.

**Şəfi bəy** – Bakı Bələdiyyə idarəsi Əliağa Həsənov ilə Ağazeynal Tağıyevi parlaman üzvü intixab etmiş idi. Əliağa Həsənov maliyyə naziri müavini və imdi də maliyyə naziri olduğundan, Ağazeynal Tağıyev də üzvlükdən xaric olduğuna parlaman üzvü hesab olunmuyorlar. Bakı Bələdiyyə idarəsinin 45 müsəlman əzasından 23-ü qanun üzrə əksəriyyət təşkil ediyor ki, əksəri iclasda varmış. Onlardan Əsədulla Əhmədov 24 səslə və Əsəd bəy Əmirov 15 səslə parlaman üzvü intixab edilmişlərdir. Etimadnamə komisyonu onların seçki protokollarına baxıb düz olduğunu qəbul ilə təsdiqini parlamana təklif ediyor.

**Sədr** – Etimadnamə komisyonunun məruzəsi haqqında kim danışmaq istiyor? Söz istəyən yoxsa, səsə qoyacağam. Nakaz üzrə bələdiyyə idarəsi tərəfindən seçilən üzvlərin əvvəlcə seçkilərinin düz olub-olmadığını, sonra da etimadnamə komisyonunun qərarını səsə qoyacağam. Hər kəs Bakı Duması tərəfindən Əsədulla Əhmədov ilə Əsəd bəy Əmirovun seçkisini dürüst və qanuna müvafiq hesab edirsə əlini qaldırsın. (Əllər qalxır) Əksəriyyət ilə seçkinin dürüst olduğu qəbul olunur. Hər kəs etimadnamə komisyonunun qərarını qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır) Əksəriyyət ilə qəbul olunur.

Növbədəki məsələ Yevlax-Nuxa yolunu Kiş çayının daşqınından mühafizə etmək üçün ziraət və əmlak nəzarətinə 211 min rublə buraxılması haqqında qanun layihəsidir. Məruzəçi Əbdüləli bəy Əmircanovdur.

**Əbdüləli bəy** – Nuxa-Yevlax şosesinin və Nuxa şəhərinin dağ çaylarından mühafizəsi üçün 1911-ci ildə bir sədd çəkilmişdi ki, çayın qabağını saxlasın. 1916-cı ildə bu səddin təmirinə bir çox şəhər və zemstvo parası buraxılmışdı. Bütün bu sədd Şəki şəhərini və Yevlax-Şəki şosesini müdafiə edirdi. Bildir 1918-ci il avqust ayında böyük bir sel gəlib bu səddin böyük bir parçapsını xarab etmişdir. 250 sajın ki sədd boyudur 50 sajını seldən bərbad olmuşdur. Bildir şəhər və dövlət parası ilə 30 sajınını təmir etdilər. Qalanı təmir olunmadı. Çünki ləvazimat tapılmadı. Ona görə Gəncə valisi ziraət nəzarətindən rica edir ki, dövlət meşəsindən çırpıntı almaqla və daş ilə səddin qalanı təmir olunsun və əvvəlki sədd alçaq olduğundan bu dəfə bir az uca olsun. Bunun üçün təqribən 211 min rublə təyin olunmuşdur.

Yevlax-Şəki şosesinin sel daşqınından xarab olması Şəki ticarətinə böyük zərər verir. Gəncə qubernatoru burasını nəzərə alaraq ona görə bu sədlərin təimirinə sərf olunacaq paranın hamısının dövlət xəzinəsindən verilməsini xahiş edir.

Bu barədə hökumət bunu qəbul eləmiş ki, 211 min rublə əcələ surətdə verilsin. Və bu sel may ayının axırında gəlməgə görə paranı əcələ olaraq vermişlər. İmdi hökumət rica edir ki, bu paranın verilməgini parlaman qəbul etsin. Maliyyə-büdcə komisyonu bu qanuna baxıb qəbul eləmiş. Maliyyə-büdcə komisyonunun arzusu bu olmuşdur ki, bu para sərf olunanda bələdiyyə rəisi iştirak etsin ki, bu pul ancaq öz yerinə sərf olsun.

**Əhməd Cövdət** – Mən əlbəttə bu qanunnamə barəsində danışmaq fikrində degiləm. Çünki may yaxınlaşır və sel gəlir. Nuxa-Yevlax şosse yolunu sel daşqınından müdafiə etmək üçün 211 min rublə istənilir, verilməsi lazımdır. Lakin arzu edərdik nəzarət tərəfindən tədbirlər görülsün və diqqət olunsun ki, bu pullar yerinə xərc olunsun ki, bir də bu sədlər xarab olmasın və yenidən bizdən pul istənilməsin. Ancaq mənim dedigim özgə şeydir. Neçə aydır ki, parlaman açılmış və bura gələn qanunnamələri müzakirə edirik. Ziraət və əmlak nazirindən bir-iki qanun gəlmiş: biri bu, biri də Kür çayı sahillərində sədlər inşası həqqində qanun layihəsi, belə nəzərə gəlir ki, biz və nəzarət böylə xırda qanunlara baxmaqdan başqa bir şey tapmıyoruq. Guya bizim məmləkətimiz anarxiya keçirməmiş, kəndlər dağılmamış, evlər xarab olmamış, bir çox yerdə bu saət əkinçilər kotansız və toxumsuz qalmamışdır. Bu barədə ziraət nazirinin kömək lazımdır. Amma bu barədə indiyə qədər heç bir qanun layihəsi daxil edilməmişdir. Nəzarət iş görmür, guya hər işimiz öz yolunda imiş və ya başqa böyük qanunlara ehtiyac yoxmuş. Ancaq çay daşqınının qeydinə qalmalı imiş. Doğrudur buna da baxmaq və pul buraxmaq lazımdır. Lakin cümhuriyyət içərisində ümumiyyətlə ehtiyacı rəf etmək üçün evləri sökülənləri, evlərini təmir etməli, malı olmayanlara mal verməli, toxumu, kotanı olmayanlara toxum və kotan tədarük etməlidir. Bu

barədə gərək nəzarət bir qanun ilə bizim qabağımıza çıxsın və pul istəsin. Arzu edərdim ki, bundan sonra hökumət böylə xırda-xırda qanunlar ilə degil, gələcəkdə böyük dərdlərimizi və ehtiyaclarımızı yazıb qabağımıza çıxsın.

**Sədr** – Daha söz istəyən varmı? Yoxsa, müzakirə bitmiş olur. Səsə qoyuram. Hər kəs qiraət olunmuş layihəni komisyonun rəyi ilə bərabər qəbul edirsə əlini qaldırsın. (Əllər qalxır) Əksəriyyət qəbul edir. Növbədəki üçüncü məsələ 510 milyon dövlət pulu buraxılması həqqində hökumətə müsaidə verilməsidir. Məruzəçi Mustafa Vəkilov.

**Vəkilov** – Hökumət tərəfindən təqdim olunmuş qanun layihəsi 510 milyon kağız pul buraxmaq üçün hökumətə müsaidə vermək xüsusindədir. Hökumət parlamandan rica edir ki, yenidən kağız pul buraxılması üçün hökumətə müsaidə verilsin. Hökumət parlamandan rica edir ki, yenidən kağız pul buraxılması üçün hökumətə müsaidə verilsin. Hökumət öz bəyannaməsində bu məsələnin tarixindən bəhs edib və bu paranın nasıl məsrəf olması həqqində məlumat verir. Böylə görünür ki, Bakı bələdiyyə idarəsi tərəfindən Bon adında kağız pullar buraxılıbdır. 1918-ci ildə Bakı şəhəri bir tərəfdən daxili Rusiya və digər tərəfdən Tiflis ilə münasibatı kəsildiginə görə məhəlli bazarda rınokda pula artıq ehtiyac olduğundan bələdiyə idarəsi Bon buraxmağa məcbur olmuşdur. Və bonun buraxılması məsrəfi və təmin edilməsi xüsusunda Bələdiyyə idarəsi bir qaidə və qanun düzəltmişdi. O vəqt pul yerində bon idi. Bu əsil pul mənasını verirdi. Lakin özləri və əhali buna pul kimi baxmırdı. Müvəqqəti pul yerini verib veksel kimi işlənirdi. O vəqt şəhər idarəsi padşahlıq bank vasitəsilə 62 milyon kağız pul buraxmışdı. Necə ki məlumunuzdur, sonradan şəhər bolşeviklər ixtiyarına keçdikdə haman yenə o kağız pul bolşeviklər tərəfindən daha da şiddətlə buraxıl-

dı. Hərçəndi bu pul bələdiyyə adından hesab olunurdu. Lakin bolşeviklər öz istədikləri kimi sərf edirlərdi. Bolşevik hökuməti elan eləmişdi ki, bu kağız pulun əvəzini Rusiya öz varı ilə cavabdehdir. Hökumət bizim əlimizə keçənə qədər bolşeviklər zamanında 227 milyon manat kağız pul buraxılmışdır. Deməк hökumət bizim ixtiyarımıza keçənə kimi 300 milyona qədər kağız pul buraxılmışdır. Sonra ixtiyar bizim hökumətimizə keçdikdə hökumət və maliyyə nəzarəti bu barədə dərin düşünüb istədi ki cəmaətə və məmləkətə xeyr olan bir üsul tapıb böylə müşkül haldan çıxsın. Məlum olduğu üzrə Bakı alınmamışdan qabaq bizim hökumət Tiflisdə gürcülər və ermənilər ilə pul buraxmışdı və bəzi şərt-şürut ilə bir hissəsinə iştirak edirdi. Bakı alınandan sonra hökumətimiz gördü ki, rınoka 300 milyon kağız pul buraxılıb. Hökumət bir istədi ki, bir növ ilə Bakı pullarını yığıb ondan xilas olsun və Zaqafqasiya pulundan istifadə etsin, sonradan bu tədbir həm hökumət və həm də əhali üçün müşkül göründü. Qərar qoyuldu ki, iki pul işlənsin: biri Bakı, digəri iştirak etdigimiz Zaqafqasiya bonu. Sonradan hökumət öz ehtiyacını ödəməkdən ötrü getdikcə kağız pul buraxmağa məcbur oldu. Parlamandan əvvəl hökumət ehtiyacı olduğundan 90 milyon öz qərarı ilə pul buraxıb, sonradan bəyannamənin deməginə görə hökumətin xərci artdığından 100 milyon rublə də bir buraxılmışdır. Dekabr və yanvar ayında olan qərarlara görə sonradan 200 milyon rublə də buraxmışdır. Hökumətin dediginə görə artıq əcələ olduğundan parlamanın müsaidəsi olmadan bu pulları buraxmışdır. Lakin hökumət tərəfindən buraxılan bu pullar ehtiyacı təmin etmiyor. Ona görə hökumət parlamandan rica edir ki, həmi müsaidəsiz buraxdığı 300 milyon para təsdiq olunsun və mayın axırına qədər xərci təmin

eləməkdən ötrü 210 milyon rublə buraxmağa icazə verilsin. Hökumətin cəmi istədigi 510 milyondur.

Hökumət öz bəyannaməsində xərclərini ümumi bir formada göstərmişdir. Mayın axırına qədər 200 milyon rublə istəyir. İndi görək bu pullar nə cür sərf olur və ehtiyac nədir. Hökumətin göstərdiginə görə ayda 60 milyon rublə neft mədənçilərinə verilir. Bundan əlavə 35 milyon da ingilis ştabına verilir. 40 milyon da hökumətin öz işlərinə məmurlara və qeyri ehtiyaclara xərclənir. Bu hesab ilə hökumət zənn edir ki, may ayının axırına qədər 210 milyon kifayət edər. Onun üçün də 510 milyonun müsaidəsini istəyir. Əlbəttə bu layihə maliyyə və büdcə komisyonunda ətraflı müzakirə oldu. Büdcə və maliyyə komisyonu buna əhəmiyyət verib düşünür ki, kağız pul nə qədər artıq buraxılarsa qiyməti o qədər düşər. Bu bir aşkar məsələdir ki, finansist olmayan əhali də bunu bilir. Məsələnin əsl qüsuru və əsl bədbəxtligi budur ki, bu kağız pul ki buraxılır, dava zamanı, bizdən daha zəngin məmləkətlərdə bizdən artıq buraxılıb ancaq onların qızıl təminatı var ki, vəqtində kağız pul əvəzinə qızıl pul alınır. Ancaq bizim hökumətin qızıl təminatı olmadığından nəki istehsalatı və dövləti varsa, onunla da buraxılan kağız pulları təmin edə bilər. Bundan savayı biz görürüz ki, bu kağız pul ki buraxılır, əhalinin ehtiyacı nə qədər buraxılsa idi qiymətdən düşməzdi. Dərd burasındadır ki, əhalidə ehtiyacdan artıq pul vardır. Hətta ən kasıbda pul çoxdur. Rınokda da pul ehtiyacdan artıqdır. Hökumətin də bu pulları öz bangına yığmağa lazımi qədər qüvvəsi çatmıyor. Əhalidə pul çoxdur, hökumətdə isə yoxdur. Buna görə hökumət getdikcə pul buraxmağa məcbur olur. Çünki ehtiyac çoxdur. Büdcə-maliyyə komisyonu bunu nəzərə alıb bir neçə arzular elədi. Bu arzuları da sizə məlum edir: əvvəla bunu nəzərə aldı ki, hökumətin ehtiyacını bir tək

pul kəsən makina vasitəsilə ödəmək olmaz. Bu böylə gedərsə axırda öylə olar ki, bazara çıxıb bir şey almaq olmaz. Ona görə hökumət gərək naloqun (vergilərin) tezliklə yığılmağına böyük əhəmiyyət versin. Tainki əhalidə olan pul xəzinəyə gəlsin. Və xəzinəyə əl uzadanda o pullardan istifadə etmək mümkün olsun. Yanvar ayında hökumətin mədaxili 5 milyon, məxarici 25 milyon olmuşdur, fevral ayında isə mədaxil 8 milyon, məxaric 32 milyon olmuşdur. Əlbəttə böylə davam etsə, nə qədər pul buraxılmasına müsaidə etsək, yenə də hökumətin ehtiyacı təmin edilmiş olmaz. Ona görə maliyyə-büdcə komisyonu mədaxilin artmasına diqqət verdi. Və gəlir vergisinə (podoxodnı nalok) ki artıq mədaxil verir, nəzarət tərəfindən əhəmiyyət verilməsini arzu edir. Bu bir.

İkinci, nəzərə aldıq ki, gərək istiqraz müəssisələri, banklar nizama salınsın. Bunların indiki halda əvvəlki kimi müamilədə bulunmadıqları məlumdur. Əvvəllər pul bankda müamilədə olurdu, əhali və hökumət ondan istifadə edirdi. İndi bunlar zəif işliyorlar. Və bəlkə də heç işləmiyorlar. Bunları qaidəyə və nizama salmaq lazımdır. Ona görə mərkəzi hökumət bankı olmalıdır ki, qeyri-müəssisələr də onlardan kömək alıb işləsinlər. Hökumətdən işə başlamağı və qeyri-müəssisələr də oradan kömək alıb işləsinlər. Hökumətdən işə başlamağı və qeyri-müəssisələrə əhəmiyyət verib Mərkəzi Bank açmasını arzu edirik. İkinci arzumuz budur.

Üçüncü, biz gördük ki, bir məmləkətdə iki cür pul işlətmək işləri çətinləşdirir. Bir Bakı pulu, bir Tiflis pulu. Diqqət etsəniz görərsiniz ki, bizim pulumuz Tiflisdə az qiymətə gedir. Amma Tiflis pulu Bakıda artıq qiymətə gedir. Və xəlq arasında yaxşı pul hesab olunub bazarda satılır. Bizim pul ilə Tiflis pulu bir qiymətdə degildir. Bizim orada hissəmiz olduğuna görə iki tərəfə baxdığımızdan bu məsələdə bir növ şaşqınlıq və çaş-

lıq əmələ gəlir. Bizim zənnimizə görə pul sistemi bir olmalıdır. Zaqafqasiyanın ümumi pulu olacaqmı, yaxud məxsusi Azərbaycan pulu olacaqmı onu maliyyə nəzarətində olan mütəxəssislər iyi bilərlər. Ancaq bircə hansı biri olursa-olsun pul sisteminin bir olmasını indiki halda xeyirli bilirik.

Əlbəttə aşkar məsələdir ki, hökumətin ehtiyacı da olsa, əcələ də olsa yenə parlaman müsaidəsi olmaya-olmaya izinsiz pul kəsilməsi büdcə komisyonunun nəzərilə mümkün və düz degildir. Hərgah hökumət ancaq pul kəsmək təriqilə ehtiyacı təmin üçün asanca pul əldə edə bilərsə, o zaman qeyri mənbələrə və mədaxilverici müəssisələrə bittəbii əhəmiyyət verməz. Əgər hökumət görsə ki, pul buraxmaq çətindir. Onda qeyri vasitələr və başqa çarələr ilə pul əldə etməgə çalışacaqdır. O vəqt bankların yaxşı məmalatda bulunmasına, vergilərin nizam ilə toplanmasına daha ciddi surətdə baxıb ehtiyacını təmin edər. Buna da hökumətin nəzər diqqətini cəlb edirik. Parlamandan izinsiz pul buraxmaq düz degildir. Bu məlumatdan sonra hökumətin qanun layihəsini oxuyuram. Həqiqətdə bu cür pul buraxmaq böyük müşkülat çıxarar. Maliyyə-büdcə komisyonu düşünür və ətraflıca söylədigi arzuları ilə bərabər görür ki, bu saət pul lazımdır, lakin əldə yoxdur. Ona görə komisyon təklif edir ki, hökumətin bu layihəsi qəbul edilsin. Hökumət də büdcə komisyonunun arzularını nəzərə alsın və gələcəkdə doğru yol ilə pul tapmağa çalışsın. Büdcə komisyonu təklif edir ki, layihəni qəbul ediniz.

**Sədr** – Kim danışmaq istiyor? Danışmaq istəyən varsa vərəqə ilə bildirsin. Söz Yusif Əhmədovundur.

**Yusif Əhmədov** – (bitərəf) Möhtərəm məbuslar! Bu qanun layihəsi maliyyə nəzarəti tərəfindən təklif olunur. Béncə bu məsələnin çox böyük məna və əhəmiyyəti vardır. Özüm də tüccar sinfinə mənsub olduğum üçün bu barədə bir qədər iza-

hat verməgi lazım bilirəm. Keçmişdə Bakı Bələdiyyə idarəsi tərəfindən 62 milyon, ittilaatıma görə Seym tərəfindən 80 milyon (səslər – 160 milyon) 160 milyon və sonradan parlamanın icazəsi olmadan Azərbaycan hökuməti tərəfindən 300 milyon manat para buraxılıbdır. İndi isə haman 300 milyon və tazədən buraxılmaq istədikləri 210 milyon ki hamısı bir yerdə 510 milyon edir, təsdiq etdirmək istiyorlar. Eybi yoxdur. Pulu makina kəsir, lakin təfavütü budur ki, o vəqt kəsən kim olub. Mən bir neçə gün əqdəm Tiflisdə idim. Doğrudan da adama çox ağır gəlir, bir pul ki hər şəhərdə makina vasitəsilə kəsilir və buna müvəqqəti bon degilir, tazə təşkil olunmuş cümhuriyyətlərdən heç birinin bu pullar əvəzində Azərbaycan məmləkəti qədər qüvvəsi və etibarı yoxdur. Fəqət heyflər olsun ki, bizim pulumuz Tiflisdə, Batumda, Potidə, Ermənistanda heç bir şey degil, vəhalanki Batum və Potidə olan ingilislərlə əlaqəmiz yaxşıdır, ancaq nədənsə bu barədə bu vəqtə qədər bir tədbir və sərəncam olmuyubdur. Qəsdim heç bir kəsi şəxsən nəzərdə tutmaq degil. Mən ümumi dairədə parlamana bildirməgi lazım görürəm. Bən istərdim o pullar ki bir dövlət tərəfindən buraxılır, etibarı nəzərdə tutulaydı və bu barədə Gürcüstan və Ermənistan ilə əlaqəmiz məlum olaydı. Zaqafqasiya pullarının dərəyi-etibarı bizimkindən 99 faiz artıq hesab olunur. Təəssüflər olsun ki, o pullar hər yerdə işləndigi halda biz tacirlər çətinlik ilə 5-6 faiz pul alıb Tiflisdən mal almağa gediyoruz. Bu barədə lazım idi sərəncam olsun, güman ediyoram olacaq. Lakin bir qədər tez olsaydı yaxşı olardı. İkinci, İrəvan ilə əlaqəmiz və ticarətimiz vardır. Bizim pulumuz orada bir dərəcəyə çatıbdır ki, min manatımız 11 tümənə gediyor. Sülh vəqti hesabilə min manatımızın qiyməti 18 manat 70 qəpik eləyir. Bununla da belə olur ki, oradan arşın malı gətirmək lazım olduqda 3 manatlıq

şeyə 15 manat verilir. Burada da əhali şeyləri birə 8, birə 10 artıq qiymətə almağa məcbur oluyor. Mən deyirəm ki, bunlara necə çarə vardır: bəncə mürur ilə bu pullar kəsilib çoxaldıqca və ticarət dairəsinə buraxıldıqca iş bir yerə çatar ki, indiki kibi qiyməti olmaz və bəlkə də heç almaz dərəcə etibarı az olar. Onsuz da indi manatımız bir qəpiyə gedir. Bunun bir çarəsi vardır. Ola bilər ki, bu dedigim söz fəhlə sinfinə dair olsun, qərəzli görünsün. Lakin xəyalım o degil, biqərəz diyoram. Bir yerdə istəsələr pulun qiyməti artsın, gərək o məmləkətdə iş, turud çağlasın. Çünki zəhmət çox olanda pulun qiyməti artar. Amma imdiki halət bir dərəcəyə çatıb ki, zəhmətdən hasil olan iş, məvacib müqabilində heç dərəcəsindədir. Sülh vəqtindəki 8 saatlıq işin məhsulu imdikinə nisbətən 100 faiz çox olurdu. Güman edirəm nəinki başqa xidmətlər dəxi böylədir. Asayiş vəqtində bir saətdə işlənən iş imdiki 6-7-10 saətdə işlənmiyor. Odur ki, zəhmət məhsulu azalıb pul da mürur ilə çoxalıyor. Bunun intəhası yoxdur. Parlaman izn verəcək pul kəsiləcək. Bən özüm də tacirəm, o şeyi ki bən özüm almışam, onun əvəzində verdigim pulu heç kəs bənə vermir. Ona görə məsləhət bilirəm ki, maliyyə naziri cənabları bu yolda səy etsin ki, mümkün qədər zəhmətdən əmələ gələn məhsulat çoxalsın. Bunun nəticəsi də o olar ki, mal çoxaldıqca hər kəs özününkünü tez satmağa tələsər. Və ortada bir rəqabət olar ki, bununla pulun qiyməti artar. Bu bir çarə. İkinci çarə məruzəçi də dedi ki, Gürcüstan və Ermənistan ilə əlaqəmiz olsun. Onların pulu ki burada artığına işlənir, heç olmazsa bizim pulumuz orada manatı-manata işlənsin. Üçüncü çarə olmaq üzrə İran ilə əlaqəmizi düzəltməliyiz, Rusiya ilə əlaqəmiz yoxdur, ora bizim üçün ticarət tərəfindən əhəmiyyətli idi. Ukrayna ki Rusiyanın bir parçası hesab olunurdu, əvvəlcə ora ilə böyük əlaqədə idik. Sonradan nə olacaq bilinmiyor. Hələlik bizimlə

yaxşı əlaqədə olan tazə hökumətlərlə əlaqəmizi öylə düzəldək ki, pulumuz sərbəst və öz qiymətinə işlənsin. Bu asan bir şeydir. Çünki Gürcüstan hökuməti ticarət barəsində bizdən asılı olduğundan bizə tabedir. Biz onlara əmr edə bilərik, onlarda alış-veriş yoxdur. Orada pul da yoxdur. Bən Gürcüstan ticarət təşkilatları ilə görüşüb aldığım nəticəyə görə bilirəm ki, bir adam əlində çek 3-4 ay pul almaq üçün qapı-qapı gəzir. Tapılmır ki, onlara verilsin və o pulu alınca çekin yarıdan çoxu sərf edilir. İranın sərfi kibi. İş ki böylədir. Gürcüstan ilə pul məsələsində ciddi danışılsa, bizim pulumuz onların pulu ilə bir dərəcədə olardı. Və özümüzə görə geniş varidatımız olduğundan bizim pulumuz onlarınkından artıq da gedə bilər. Ticarət əhli o biri kağızı alanda manata 50-60 qəpik artıq veriyor. Bən sözümü bitirərkən deyirəm ki, pul kəsilsin. 300 milyon da ki var təsdiq edək. Ancaq pul kəsilməsi barəsində bir az ehtiyatlı olmalı və diqqət edilməlidir denilməsin ki, bu hal müvəqqətidir.

Keçənlərdə təriq və məabir nəzarəti tərəfindən idxal edilmiş layihənin qəbul olunmasına tərəfdar idim. Çünki müvəqqəti denilir idi. İmdi görüyoruz ki, işlərimiz bir növ yaxşılaşmış və halımız bir ay bundan əvvəlkindən möhkəmdir. Müttəfiqlər nümayəndələri ilə əlaqəmiz yaxşılaşıb və qonşularımızla da əlaqəmiz yaxşıdır. Bən deyirdim ki, bu makinaya bir qədər diqqət və ehtiyat ilə rəftar edilsin. Hərgah pul kəsmək məsələsi asanlıqla mümkün olmasa və çətinlik ilə qəbul olunsa nazir cənabları başqa yol və mənbəyi-varidat tapmağa məcbur olacaqdır. Hər halda pulun çox olması ticarətə zərərdir.

*"Azərbaycan", 30 aprel 1919, №169*

Müamilə – faizlə pul borc vermə, hərəkət
İttilaat – agah olma

## MÖHKƏM İDARƏ MÖHKƏM ƏXLAQLI İSTƏR

Fərdlərin, şəxslərin öz işlərində etibarları, müvəffəqiyyətləri, tərəqqiləri, şöhrətləri nasıl malik olduqları əxlaq və fəzilətlərilə mütənasib isə, fərdlərdən vücuda gələn bir heyət, bir hökumətin də dərəcəyi-ədl və etibarı, mərtəbəyi-şərəf və qüvvəti də öyləcə əxlaqi-mədəniyyə və mətinəsilə mütənasibdir.

Bu, öylə bir lütfi-həqqdir ki, üluləzzəm peyğəmbərlər, ən böyük hadilər, dahilər, həkimlər, qəhrəmani-hürriyyətlər belə bununla, bu müsbət qanuni-ictimaiyyə ilə insanları təbşir və tənzir, sövq və idarə eləməgə müvəffəq olmuş və vücudə gətirdikləri inqilabi-ictimailərlə həqiqəti-məzkurəyi ela və elan eləmişlərdir. Bu öylə bir həqiqətdir ki, bundan məhrum olanlar, bu vasiteyi-etila və iqbalı anlamayanlar elm ilə əxlaqı, tərbiyə ilə ədəbi bir-birinə qarışdıranlar daima zəlalətə düşəcək, daima zərər görəcəklərdir.

Elm ilə əxlaq, tərbiyə ilə ədəb başqa-başqa şeylərdir – dedik. Əvət öylədir:

Hüsni-əxlaq və tərbiyə, mütləq təlimi-elm və fəzilət ilə olursa da, hər sahibi-elm, sahibi-fəzilət və əxlaq olamaz.

Mətin əxlaq və tərbiyə şəksiz ki, beşikdən başlanan elmi və əsri tərbiyə, fəzilətə tədrici adət və həqq və ədlə alışmaq, onu təbiyyəti-saniyə edinmək ilədir. Bu isə, ictimai nöqsanlarımızın ən böyügü, məktəblərimizin qara ləkəsidir.

Əxlaqsızlıq istibdad və qara fikirlərin, zülm və həqsizlıqların yeganə vasitəsi olduğu kibi, vicdansızlığın, tamahkarlığın büxl və həsədin də anasıdır.

Əxlaqsızlıq hələ tazə idarələrdə, yeni hökumətlərdə birər bəla, birər taundur. Xayır-xayır bəlkə bunlardan da bədtər, bunlardan da əşəddir. Çünki bunlar görünür, anlaşılır. Lakin

o, o qara üzlü şeytan kibi görünməz nəfsi-əmmarə kibi qafatasının içində gizlənir. Zəhərli mikrob kibi qan damarında cövlan edir. Fürsəti gözlər, vücudin zəifini, böhranını, anarşiyasını qənimət bilər. Əvvəl vəqt, haman özünü, felini aşkar edər. Zəhərini, bəlasını göstərir.

* * *

Bilməm nə vəqtdə Bakıda ərzaqmı hansı idarədən isə xeyli pul qeyb (?) olur.

Bilməm hankı idarədən, bədəfkarlar, ah o bəlli əfkarlar neçə min hökumət pulunu oğurlarlar.

Bir ay qabaq bədbəxt Naxçıvan mühacir və fəqirlərinə paylamaq üzrə bir möhtərəm, mükərrəm vətənpərəst, aşiqi-həqiqət, füqərapərvər xadimi-millət, sahibi-şəfqət, mötəmid, müqtəsid müəllim, müsəlləm, mübarək, eynmülk, mötəbər, dilavər "Bayramda Paşa" hər yerodə dilgüşa, fəzilətməab, alicənab bir şəxsə bir neçə 100 min manat kağız pul verirlər. Bu cənabın da acından qırılan fəqirlərə yazığı gəlir. Onlara kağız pul əvəzinə qızıl pul verməк istər. Onu tapmaq üçün də Rəştə gedər. Batuma qaçar. Aradan xeyli vəqt çıxar. Amma bu arada Naxçıvan aclarından bir qisminin də canı çıxar. Zərəri yox. Çoxu yenə sağ. Möhtərəm cənab kağızı qızıla dəgişdirmək üçün təbii rahət oturamaz. Oraya-buraya baş vurur. Lakin bunun ali zəhmətini bədəfkar sosialistlər anlamazlar. Qışqırıq salarlar. Nəhayət, pulu geri verir.

Bu pulun üstünə bir az da qoyarlar. Olur doqquz yüz min. Daha mötəbər, daha fəzilətpərvər bir heyətə verirlər ki, Tiflis yolilə Naxçıvana götürsün. İki-üç aydan bəri ölməyib sağ qalan mühacirlərə versinlər.

Heyəti-kəmali-üzv ehtişamla Tiflisdə "Orient" qostinsasına düşər. "900" min manatı da çamadan ilə nömrə otağında

saxlar, lakin bir gün sonra, 17 apreldə pul qeyb olur. Həm büsbütün qeyb olur. Əvət, əvət doqquz yüz min manat həpsi birdən uçar.

Şübhə üzərinə heyət əzasından birini tutub həbsə salarlar.

* * *

Məqsədimə misal üçün yuxarıda nəql elədigim zərafətə qədər əlimanə olan xitabəyi buraxalım, yenə məqsədə keçəlim.

Cavan Azərbaycan hökuməti idarələrinə bir çox məmurlar lazım.

Bunların iyisini bulmaq, ayırmaq çətin. Çünki xainlər, əxlaqsızlar hər kəsdən ziyadə şirin dilli, qeyrət və həmiyyətli, mötəbər və bacarıqlı, aqil və məlumatlı görünürlər. Ürəklərindəki qaranlığı, qanlarındakı zəhəri, qafalarındakı xəyanəti əsla bəlli etməzlər. Ağızlarından guya məhəbbət, gözlərindən mərhəmət, işlərindən bərəkət tökülür. Biçarə safdil rəislər, məsul müdirlər birdən-birə anlamazlar. Nədən sonra işlərin üstü açılanda xəzinəyə milyonlarla zərər dəgəndə ayılırlar.

Bu halda nə etməli? Əldə bir vasitə yox ki, xainlər, əxlaqsızlıqlar anlaşılsın, əmniyyət edilməsin, təmizlənsin.

Bunun üçün zahirən bir alt təfriq yox degiləcək. Lakin bu bəhanə doğrumu? Əcəba dairəyi-elmimizdə əhvali-ruhiyyəyi, israrı-qşəlbiyyəyi bildirəcək heç bir miqyas – ölçü yoxmu? Sanıram ki, vardır. Həm öylə bir ölçüdür ki, çox az şaşar. Bu da şəksiz "qəvanini-ruhiyyə"dir. Qəvanini-ruhiyyə bizim sandığımız kibi qəvanini-fərziyyə və ehtimaliyyələrdən degildir. Riyazi-hesab qəvanini kibi müsbət və layəzal qanunlardandır.

Bu qanun təbiəti, bu mənəvi ölçügi başınıza alınız. Filan dairə müdirinin, filan qulluqçununmu nasıl olduğunu, onun dərəcəyi-sədaqətinimi bilmək istiyorsunuz? Çox gözəl. Haman onun "tərcümeyi-halını" tədqiq ediniz: keçmişini, adətini, xüsusi hallarını, xasiyyətlərini ögrəniniz və

vəqtilə hökuməti müstəbidə zülmünə müavinət etmişmi, xəfiyyəlikdə bulunmuşmu, millətini mənfəətinə satmışmı, cinsdaş bir hökuməti para və məmuriyyət müqabilinə qəzetə sütunlarında qaralamışmı, xüsusi borclarını verməmişmi, yaxın qövm və qonşularına mərhəmətsizlik etmişmi, hirs və səfahət, moda və keyfə düşgünmü, yalan söyləyib hər şeyə and içiyormu, məmuriyyət və istiqbalından ümidsizmi, ev tərbiyəsindən möhkəm bir iman və məfkurədən məhrummu, xəlq cəhalətini vasiteyi-şöhrət və mənfəəti bilmişmi ............ bil ki, yenə öylədir. Nə isə yenə odur. Adəti ögrənişi təbiəti-saniyəsidir. Bəlkə vələdi-qaliyədir. Xəlq iradə və idarəsidir.

İştə burasını nəzərə alaraq cavan Azərbaycanımızın təhkimi üçün məsuliyyətli dairələr, heyətlər başına mükün mərtəbə möhkəm əxlaqlı insanlar qoymalı ki, istiqlalımıza rəxnə, xəzinəmizə zərər, gəncligə zəhər vurulmasın.

**Ümidvar (Ömər Faiq Nemanzadə)**
***"Azərbaycan", 20 aprel 1919, №169***

Üluləzm – iradə sahibləri
Ədl – ədalət, insaf
Təbşir – şad xəbər
Ela – şan-şöhrət artırma
Büxl – paxıllıq, xəsislik
Əmmarə – çağıran, əmr edən
Mükərrəm – səxavətli
Mötəmid – etibarlı, doğru
Məsamm – məsamələr
Qəvanin – qanunlar
Layəzal – əbədi, həmişəlik
İsrar – sirr saxlama, gizləmə
Təbəiyyət – tabeçilik
Hirs – tamah, acgözlük, qəzəb
Səfahət – səfehlik
Təhkim – möhkəmləndirmə

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**24 nisan iclası**
(keçən nömrənin axırı)

**Sədr** – Söz Rüstəmbəyli Şəfi bəyindir.

**Şəfi bəy** – Burada bazara 510 milyon manat pul buraxmaq kimi mühüm bir məsələ müzakirə olunur. Bu məsələ o qədər böyük bir məsələdir ki, onu böylə səthi keçmək olmaz. Bizim zənnimizcə lazım idi ki, maliyyə naziri, yainki nəzarətin bir nümayəndəsi burada olub Məclisi-Məbusana ətraflı məlumat və izahat verə idi. Ancaq ondan sonra biz bu məsələnin müzakirəsinə keçə bilərdik. Ona görə bən təklif edərdim ki, bu layiheyi-qanuniyyənin müzakirəsi təxirə salınsın və maliyyə naziri Məclisi-Məbusana ümumiyyətlə əhvali maliyyəmiz və maliyyə siyasətimiz həqqində müfəssəl məlumat versin. Öylə olsa əhali də bilər ki, pul nə üçün, nə surətlə və nə qədər buraxılır. Bən yenə təklif edirəm məsələ təxirə salınaraq gələn iclasda müzakirə edək. Nazir də bəyanat versin.

**Sədr** – Məbuslardan rica ediyorum danışmaq istədikdə vərəqədə nə xüsusda söyləyəcəklərini qeyd etsinlər. Şəfi bəy söz istədikdə nə danışacağını bildirməmişdi. Şimdi çıxıb müəyyən təklif ediyor. Fəqət bən böylə təklifi qəbul edəməm. Zira nizamnaməyə görə təklif o vəqt qəbul edilib rəyə qonular ki, əqəllən 5 məbus tərəfindən imzalanmış olsun. Söz Muxtar Əfəndizadənindir.

**Əfəndizadə** – Layiheyi-qanuniyyə barəsində bizim bir neçə sualımız var idi. O suallardan bəziləri həqqində bəyanatçı əfəndi məlumat verdi. Bunları bir daha təkrarə ehtiyac və lü-

zum yoxdur. Qaldı bir məsələ də var idi ki, nə üçün maliyyə naziri burada yoxdur ki, əhvali-maliyyəmiz haqqında məlumat versin. Bunu da Şəfi bəy dedi. Pulların bir qismi hələ Məclisi-Məbusan yox ikən hökumət tərəfindən buraxılmışdır. Bir qismi də Məclisi-Məbusan mövcud ikən kəsilmişdir. Əvvəla parlamandan izn almadan hökumət heç bir vəqt pul kəsməməlidir. Üçüncü sualımız da məxaric haqqında idi. Burada ingilislərə 25 milyon manat pul verilməsi istənilir. Fəqət bən bilməm bu nə üçün verilsin. Poşlinmi, həqqi-himayəmi, ya nə ad ilə verilsin. Bən təklif ediyoram bu vəqtədək kəsilmiş olan kağız pullar təsdiq edilsin. Amma mümkün olan qədər yenidən pul kəsilməməsi tərəfdarıyız. Zira imdi manatın kursu bir qəpik isə pul daima kəsildikdə bir qəpikdən də aşağı düşər. Binaənileyh biz təklif edərdik mümkün olan qədər tazədən pul kəsilməsin.

**Sədr** – Bir təklif var ki, maliyyə naziri bəyanət verənədək məsələnin müzakirəsi təxirə salınsın, başqa təklif yoxmu? Yoxsa son söz məruzəçinindir.

**Vəkilov** – Bən bir məsələ haqqında məlumat verməк istərdim. Burada hökumət qabaqca 300 milyonmu, 390 milyonmu pul kəsmək olduğundan bəhs olunur və denilir ki, bunu parlaman təsdiq etməli idi. Bu səhvdir, çünki hökumət haman 300 milyon manatı parlaman olmayan zaman kəsmişdir. Yəni o vəqt ki, bütün ixtiyarat ancaq hökumətin əlində idi. Saniyən sual olunur ki, ingilislərə nə üçün pul verilmək istənilir. Bən deməliyəm ki, ingilislər bu məbləği bizdən borc istiyorlar və komisyonun məlumatına görə haman məbləğ ingilislər tərəfindən lazımi dərəcədə təmin edilmişdir. Bir də sual olunur ki, nə üçün bəyanatdan ötrü nazir özü iclasa gəlməmişdir. Buna cavabən ərz edirəm ki, büdcə və maliyyə komisyonu bu layihənin müzakirə ediləcəgini nazirə xəbər vermişdi.

Fəqət mühüm işlər üçün iclasları olduğundan nazir Məclisi-Məbusan iclasına gələ bilməmişdir.

**Sədr** – Təklif var layiheyi-qanuniyyənin müzakirəsi təxir edilsin. İki natiqə söz veriyoram: biri ləhinə, digəri əleyhinə, kim danışmaq istiyor? Danışmaq istəyən yoxdur səsə qoyuram: kim məsələnin təxiri tərəfdarıdır, rica edirəm əlini qaldırsın. (Əllər qalxır) Deməli əksəriyyət ilə məsələnin təxiri həqqindəki təklif qəbul olunur. Bunun ilə məsaili-yövmiyyə bitmiş oluyor. Fəqət məclisi qapamadan əvvəl möhtərəm məbusların nəzər diqqətlərini bir şeyə cəlb ediyoram. Komisyonlar 100-də 90-nı işləmiyorlar. Adları əksəriyyən kağız üzərində var, özləri isə əsla əsəri-həyat və fəaliyyət göstərmiyorlar. Parlamanın qərardadı ilə komisyonlar əzasının miqdarı iki qat artırılmışdır. Fəqət artırmaq daha da işi müşkülə salmışdır. Zira 5 adamı yığmaq çətin idi. Şimdi 10 əzayı yığmaq daha da müşkül olmuşdur. Dekabrdan bəri bu komisyonlar seçilmiş, fəqət ancaq kağız üzərində qalmışdır, özləri işləmiyorlar. Bir də topraq komissiyası 3 dəfə iclasa yığışmamış olduğundan Nizamnaməyə görə ləğv edilmişdir. Fəqət bu vəqtədək hələ yeni əza seçilməmişdir. Ona görə rica edirəm bu məclisdə məzkur komissiyaya namizəd göstərəsiniz. (Namizədlər göstərildikdən sonra vərəqlər yazılıb verilir. Sonradan katib vərəqləri oxuduqca səs alanlar qeyd olunur. Vərəqlər oxunub qurtarır)

**Sədr** – Cəmisi 42 vərəqə verilibdir. Komisyona keçən gərək 22 səslə keçsin. Seçkilərin nəticəsini oxuyun. (Səs alanların ismi oxunur) Ən çox səs alanları oxuyun.

**Kazımzadə** – (oxuyur) Məlik Yeqanov – 36, Heybətqulu – 32, Məhəmməd Əli Rəsulzadə – 30, Qaraşarov – 28, Əliheydər Qarayev – 27, Kərimov – 26, Ter Azarov – 26.

**Sədr** – Fəhlə komisyonunda 5 adam var idi. 5 üzv keçmiş olur. İndi istiyorsunuz komisyon üzvlərinin ədədini artıraq, təklif var 7 nəfər olsun.

**Məhəmməd Əmin** – (yerindən) Əksəriyyəti-mütləqə alan nə qədərsə o qədər də keçsin.

**Sədr** – Fəhlə komisyonuna keçənlər bunlar oldu: Məlik Yeqanov – 36 səslə, Heybətqulu – 32, Məhəmməd Əli Rəsulzadə – 30, Qaraşarov – 28, Qarayev – 27, Kərimov – 26, Ter Azarov – 26 səslə. Sosialist bloku tərəfindən Məclisi-Müəssisan seçki komisyonuna Camo bəy Hacınski əvəzinə Abbas bəy Atamalıbəyov təklif olunur. Ləvayehi-qanuniyyə komisyonuna "Əhrar" fraksiyası tərəfindən Muxtar əfəndi Əfəndizadə, Aslan bəy Qardaşov yerinə təklif olunur. Bir də sosialist bloku tərəfindən ləvayehi-qanuniyyə komisyonuna Əhməd bəy Pepinov yerinə Qaraşarov təklif edilir.

**Qaraşarov** – (yerindən) Mən istəmirəm.

**Sədr** – Keçən 13 aprel tarixli iclasda erməni fraksiyası tərəfindən Cubaryan maliyyə-büdcə və topraq komisyonuna, Ter Azarov ləvazimat, Papyan Məclisi Müəssisan seçkisi komisyonu ilə istizah komisyonuna təklif edilirlər. Hərgah istiyorsunuz bunları da indi seçək, yainki gələn iclasda.

**Səslər** – Gələn iclasda.

**Sədr** – Rica edirəm gələn iclasa seçki üçün hazır gələsiniz. Namizədlərin siyahısı dəftərxanədə vardır. Oradan ala bilərsiniz. Bunumla ruzinameyi-müzakirat bitdigindən məclisi qapıyoram.

(İclas saat 1:40 dəqiqədə qapanır)

*"Azərbaycan", 4 may 1919, №171*

Himayə – qoruma

İstizah – aydınlaşdırma

## DAĞISTAN VƏ BİZ

Bu bir-iki gün ərzində Dağıstandan gələn xəbərlər Dağıstan hökuməti əhvalını o qədər qat-qarışıq bir halda təsvir edir ki, insan çaşıb qalır.

Bir tərəfdən ingilis komandanlığının əmri ki, dağıstanlılar Denikin və Prjevalski ordularına qarşı düşmənanə hərəkətlərdən əl çəksinlər. Prjevalskinin qoşunu Petrovskini işğal etsin. Demək bütün Terski oblast Denikin hökmü altında qalsın. Digər tərəfdən xəbər var ki, dağıstanlılar ittifaq edərək Denikin ordusuna Nazran yanında böyük bir həzimət yedirdib Qroznıyı, təkrar geri alıbdırlar. Bu tərəfdən dəxi bir şayiə dövran ediyor ki, Dağıstan hökuməti məqərri olan Teymurxan Şura şəhərində inqilab əmələ gəlib bolşeviklik hərəkatı müşahidə edilməkdədir. Əlavə görüşüb danışdığımız dağıstanlı qardaşlarımızdan bir çoxunun söhbətindən anlaşılır ki, Dağıstan hökumət əzaları və parlaman məbusları arasında dəxi lüzumi dərəcədə saziş və söz birligi yox, əhalidən dəxi bir para qisminin hökumət və parlamandan şikayətçi olduqları məsbutdır.

Həmhüdud Dağıstan ilə aramızda olan dini və siyasi rabitə bizi bu işlərdən baş açmağa və həqiqət halı müsbət bir surətdə təyin etməgə vadar ediyor. Madam ki biz Dağıstana kömək etməgi özümüz üçün böyük və vacib bir vəzifə ədd edirik ki, filvaqe böyük vəzifəhlərimizdən biri budur – pul yığırıq, könüllü dəstələri təşkil edirik, o halda kömək edəcəgimiz yerin həqiqət halından bixəbər qala bilmərik.

Bunun üçün bizə lazım və vacibdir ki, əvvəla Dağıstan həqqində və Dağıstan istiqlalını mühafizə və müdafiə xüsusində ingilis baş komandanın rəy və mülahizəsini bilək.

Dağıstandan ötrü böyük bir mədaxil mənbəi olan və onsuz Dağıstanın müstəqil bir hökumət şəklində yaşaması haman mümkün olmayan Terski oblastını və dəniz qapısı Petrovski şəhərini Denikin əlinə verməkdə ingilislərin məqsədi nə olduğunu aşkar edək.

İkinci olaraq bizə borcdur ki, Dağıstan əhvalından doğru bir xəbər bilmək üçün yalnız bir rəsmi mənbələr xəbərlər ilə iktifa etməyib, Dağıstana xüsusi bir komisyon göndərərək ki, hər işi öz məhalında tədqiq və təhqiq edib bizi əhvaldan vaqif etsinlər. Bu xüsusda nə qədər tez davransaq, bir o qədər yaxşı olar.

**Ü. Hacıbəyli**

*"Azərbaycan", 4 may 1919, №171*

## EYNİ MÜAMİLƏ GÖZLƏYİRİK

Qarabağ ermənilərinin, Azərbaycan hökumətinə tabe olmamaq qəsdilə göstərməkdə olduqları inad artıq həyasızlıq dərəcəsinə varmışdır.

İngilis baş komandanı Bakı nümayəndəsi Şatelvort cənabları Qarabağ ermənilərini Azərbaycan hökumətinə itaətə dəvət etmək üçün rəsmi surətdə Bakıdan Qarabağın müqərrər hökuməti olan Şuşa şəhərinə getdi, erməniləri əhvaldan xəbərdar edib, Qarabağda yalnız Azərbaycan hökuməti icrai-hökm və ifayi-vəzifə edə biləcəgini onlara bildirdi, ingilislərin də yalnız bu nöqteyi-nəzəri iltizam etdiklərini elan ilə Qarabağ ermənilərini itaətə dəvət etdi.

Buna cavab olaraq, Qarabağ erməniləri bir "isiyezd" yığıb məsələni "müzakirə" etdilər və təkrar bu qərara gəldilər ki, Azərbaycan hökumətinə tabe olmasınlar!

Şatelvort cənabları ermənilərin bu qərarına rəğmən Qarabağın məhz Azərbaycan hökuməti təhti-idarəsində olduğunu elan ilə bu hökumətə tabe olmağı ümüməhaliyə tənbih etdi.

Deməli, bundan sonra hər kəs ki, Qarabağda Azərbaycan hökumətinə qulaq asmadı, asi və xain cümləsindən ədd edilib layiqi olan cəzalara düçar edilməlidir.

Lakin Qarabağ erməniləri böylə cəza və tənbihlərdən qorxmuyorlar, çünki öz dedikləri kimi "Yevropaya ümidvardırlar", ümidvar olmaqlarının əsasi dəxi budur ki, müharibə əsasında müttəfiqlərə "kömək durub" düşmən qabağında "döş gərib qılıc vurubdurlar", bunun əvəzində müttəfiqlərdən "ənam" gözlüyorlar!..

Məsələnin bu gün bizi maraqlandıran cəhəti budur: madam ki Qarabağ erməniləri ingilis baş komandasının dəxi əmrindən çıxırlar və öz haqsizlıqlarında inadlıq edib dururlar, o surətdə ingilis baş komandanlığı öz nüfuz və heysiyyətini itirməmək üçün nə kibi müamilələrə təvəssül edəcəkdir?

Kiriyib duracaqdırmı?

Əlbəttə, əgər ingilislər bu cürə işlərə əvvəldən qatışmasa idilər və məsələnin həllini bizim özümüzə vagüzar etmiş olsa idilər, biz bu işi bir növ ilə bitirib, ya sazişlə və ya cəbrən həqqimizi yeritməgə qadir olardıq. Məsələ, ingilislər, gürcü və Axısqa məsələsinə qatışmadıqları kimi, Azərbaycan və Qarabağ məsələsində də bitərəf qalsa idilər, biz özümüz bu məsələni çoxdan həll etmiş olardıq. Amma madam ki ingilislər Qarabağ məsələsinə qatışdılar, özləri də həqqin tərəfdarıdırlar, o halda gözlədigimiz odur ki, erməni inadını sındırmaq və erməniləri boş xəyalatdan əl çəkdirmək işini yarımçıq və natəmam qoymuyub, axıradək aparsınlar. İngilis baş komandası bu əmri axıradək yetirməgə üç cəhətcə borcludur:

Əvvəla – iş natamam qalırsa, ermənilərin həqsizlığı müsəlmanlara xoş gəlmiyib arada vuruşma və toqquşmalar əmələ gələ bilər ki, bunun məsuliyyəti ingilislər üzərinə düşər.

Və saniyən – ingilislər bir dəstə Qarabağ ermənilərini itaətə məcbur edə bilməsələr, öz nüfuz və heysiyyətlərini Qafqaz millətləri arasında itirə bilərlər.

Və salisən – madam ki ingilislər Qarsı və həvalisini erməni hökumətinə təslim etmək üçün oranın islam "şurasını" dağıtdı, əzalarını həbs etdi və bir neçələrini öldürdülər, o halda Qarabağ ermənilərini də itaətə məcbur üçün insaf və ədalət naminə eyni müamiləyi işlətməgə mənən məcburdurlar. Vəilla türk qövmünə qarşı böyük bir həqsizlığda bulunmuş olarlar.

Qarabağda bu "hartu-vurtu" salan və bu hərəkətləri çıxaran bütün Qarabağ etmənilləri olmuyub bəlkə bir dəstə daşnak güruhudur. Qarabağın kənd ermənilləri yaxşı bilirlər ki, Azərbaycan hökumətinə tabe olmasalar, müsəlmanlar ilə əlaqələrini kəsməgə məcbur olub, acından ölərlər. Ona görə biz əminik ki, bədbəxt erməni kəndləri bu gün bir dəstə daşnakların xəyanət və şeytanəti qurbanıdırlar, bu güruhi-layəqləhun erməni millətinin gözünü o qədər qorxudubdur ki, bir bu qədər həqsizlıq və zülmlərə qarşı ağız açıb söz deməgə cürətləri yoxdur. Əgər bu xainlər güruhu Qarabağdan tərd və təbid edilirsə və onların yuvaları dağılırsa, Qarabağ erməniləri asudə nəfəs çəkib həm acından ölməzlər, həm də öz həmişəki qonşuları ilə mehriban dolanıb, Azərbaycan hökumətinin ədaləti altında və sayeyi-mərhəmət vayəsində kəmali-asudəgi ilə imrari-məişət edərlər.

İştə bizim və ümumqafqaz türklərinin ingilislərdən gözlədigi budur ki, Qarabağ erməni üsyançılarına qarşı şiddətli tədbirlər ibraz etməklə həm ədalət göstərsinlər, həm də öz şan və heysiyyətlərini artırsınlar və bununla Qarabağ erməni məsələsi bir kərəlik həll edilib qurtarsın.

**Ü. Hacıbəyli**

***"Azərbaycan", 5 may 1919, №172***

Layəqləhun – ağılsız

Vayə – səbəb, məqsəd, pay

## MƏCLİSİ-MƏBUSANIN QƏRARI

Dünən Məclisi-Məbusan fövqəladə bir parlaman günü halını iktisab eləmiş; ümumi tətil həqqində hökumətə bir sual verilmiş; sual münasibətilə firqə natiqləri atəşin nitqlər söyləmiş; hökumət Rəisinin bəyanatını müzakirə elədikdən sonra hökumətin tətili bitirməsi həqqindəki tədbirlərini ittifaqla təqdir elədikdən sonra böyük bir əksəriyyətlə aşağıdakı qətnamə qəbul edilmişdir:

"Raboçi konfrans adlanan müəssisə tərəfindən elan olunan tətili-ümuminin istiqlalımız əleyhinə bir sui-qəsdi mütəzəmmin olduğunu nəzərə alaraq və hökumət Rəisinin izahatını eşidərək hökumətin tətili bitirmək həqqində gördügü və görəcəgi tədbirləri təyid və bu xüsusda kəndisinə hər növ müavinətdə bulunacağını vədlə Məclisi-Məbusan növbədəki məsələlərin müzakirəsinə keçir".

Hökumət Rəisinin məclisə verdigi məlumata görə dəmiryolu işliyor; su, teleqraf dəxi tətil etməmişdir.

Hökumət dairələrinin telefonları işləməkdədir. Çox ehtimala görə bu gündən etibarən işıq dəxi veriləcəkdir.

Aldığımız digər məlumata görə mədənlərdəki müsəlman əmələləri bu tətilə iştirak eləməmiş, yalnız elektriklə işləyən zavod və mədən əmələləri bilzərurə məəttəl qalmışlardır.

*"Azərbaycan", 6 may 1919, №173*

İktisab – qazanma, kəsb etmə

Mütəzəmmin – içərisinə alan, əhatə edən

## MƏBUSLARA DAİR

Quba uyezd naçalniki qubernatora müraciətən Quba uyezdindən dərdəst edilmiş olan məbusları Bakıya götürmək üçün iki həftədə bir dəfə yatab təyin edilməsi qərardad edilsin.

*"Azərbaycan", 6 may 1919, №173*

## TÜRK ƏDƏMİ-MƏRKƏZİYYƏT "MÜSAVAT" FİRQƏSİ TƏRƏFİNDƏN

**Millətdaşlar, yoldaş əmələlər!**

Bakıda cürbəcür maska altında olan Rusiya hökumətinin agentləri tərəfindən göndərilən adamlar və paylanan pullar vasitəsilə başımıza tazə işlər gətirmək istiyorlar, yenə ümumi tətil elan ediyorlar. Əsil məqsədlərinin Azərbaycan Cümhuriyyətini müşkülata soxmaq olduğu aşikar ikən fikirlərinə başqa don geyindiriyor; bu zabastovka ekonomiçeski (iqtisadı)dır diyorlar.

Kollektivninin mühüm ekonomiçeski maddələri qəbul olunmaqda ikən, dənizin əlimizdə olmadığını bildikləri halda Hacıtərxana yol açmamızı və tezliklə bolşeviklərə neft yollamamızı tələb ediyorlar.

Məlum degilmi yoldaşlar ki,böylə əmələ gəlməz bir tələblə rus bolşevikləri canımıza, istiqlalımıza, hürriyyət və cümhuriyyətimizə tazə təpik vurmaq istiyorlar?!

Əlbəttə ki, məlumdur. Bunun üçün də aldanmayın, zabastovkada iştirak etməyin, çünki, bu zamanda zabastovka edib bütün həyatı durdurmaq Azərbaycanın həyatına qəsd edib millətin boynuna kəndir salmaqdır.

Təbiidir ki, özünü bilən türk və müsəlman demokratiyası millətinin qatili olmaz. Yalançılara aldanıb zabastovka eləməz.

Yaşasın idraklı türk demokratiyası!

Yaşasın Azərbaycan!

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi
Bakı Komitəsi
*6 may 1919*

***"Azərbaycan", 7 may 1919, №174***

## NƏ İSTİYORLAR

Fəhlə konfransı, daha doğrusu, istiqlalımız bədxahlarından əmələ gəlmiş və hökumət içində hökumət törətmək niyyətilə əlaltından iş görən və məqsədləri Azərbaycan istiqlalını uçurmaq olan güruh başçıları, guya iqtisadi olaraq yeni bir zabastovka meydana çıxartdı.

Bu gunə zabastovkalar istiqlalımız düşmənlərinin əlində bir əsləhədir ki, hazır saxlayıb fürsət məqamında bizə zərbələr vururlar.

İqtisadi elan edilmiş olan bu zabastovkanın siyasi mənası böyükdür. Astarxan yolunu açmaq və bolşeviklər hücumuna müsaid yollar aramaq istiyorlar.

Məhəlində, yəni Bakının və Azərbaycanın özündə istiqlalımıza qarşı üsyan törədib, inqilab əmələ gətirməgə hələ özlərinin maddi və mənəvi gücləri kifayət etmədigindən, kənardan gəlmə gücdən istifadə etmək istiyorlar. Odur ki, Həştərxan yolunu açın deyirlər. Açın ki, əvvəla bolşeviklər neftdən korluq çəkməsin, saniyən, Bakı üzərinə hücum etməgə həm qüvvəsi, həm də imkanı olsun!

İştə istədikləri budur:

Fərz edəlim ki, Həştərxan yolu açıldı. Aya, biz əminikmi ki, bolşeviklər bizimlə yalnız bir neft alveri etməklə kifayətlənib də istiqlalımıza qarşı sui-qəsd etməzlər?

Mart hadisatında bizi, yəni müsəlman burjuyundan tutmuş müsəlman füqərayi-kasibəsini və baxüsus müsəlman əlsiz-ayaqsızlarını erməni daşnak saldatlarının süngü, güllə və xəncərlərilə arvad və uşağına kimi qırdıran bolşeviklərə biz nə tövr etibar edə bilərik? Bolşeviklik naminə erməni-

müsəlman qırğım salanların hansı "gözəl" sözünə və "insaniyyətpərvəranə" sözlərinə inana bilərik?

Bolşevikləri dursun.

Menşeviklərinə nasıl bel bağlaya bilərik? İstiqlalımızı qəbul etmədiklərinə görəmi? Və bu gün hər bir vəsilə ilə olur-olsun, istiqlalımızı əlimizdən almaq yolunda çalışdıqlarına görəmi?

Bu gün ingilislərdən şikayət edən və onlara düşmənçilik göstərən menşeviklər, roxlinlər, curayevlər haman adamlar degildirlərmi ki, bir millətin hüququnu əllərindən alıb da bu hüququn istirdadi yolunda can verən türk və islamlarla müharibə üçün ingilisləri yalvara-yalvara çağırıb əl və ayaqlarına düşüb kömək diliyordular. İndi nə oldu ki, ingilis pis oldu? Azərbaycan türkləri istiqlalının tərəfdarı olduqlarına görəmi? Pəs Azərbaycan hökumətinə qarşı düşmənlik nədəndir? Hökumət başında Azərbaycan türkləri oturub da Azərbaycan istiqlalının harisi və mühafizi olduğuna görəmi?

Bu gün cümhuriyyətlərində ümum millətlərin hüququnu gözləyən, bunların rifah halı üçün öz millətinin bir çox həqqini belə qurban edən, hürriyyəti-mətbuat, hürriyyəti-kəlam, hürriyyəti-ictimai, hürriyyəti-diniyyə, hürriyyəti-şəxsiyyəsilə sosialist Gürcüstandan və daşnak Ermənistandan belə ağac-ağac qabaqda olan bu türk hökumətinin qəbahəti nədir ki, buna qarşı düşmənçilik edirlər?

Türk və islam olduqlarına görəmi?

Zənn edilməsin ki, sözlərimiz provakasiyadır. Arada başqa bir səbəb görmüyoruq.

Bizim hürriyyət düşməni olmadığımızı və biləks, hər bir hürriyyətə riayət etməkdə olduğumuzu görən hürriyyətpərəstlər nə üçün bizimlə, biz Azərbaycan türk və islamlarilə düşmənçilik edirlər?

"Tatarva" hökuməti olduğuna görəmi?

Bizə sosializmə və sosialistlərə düşmən olmadığımızı hökumət kabinəsi içində sosialistlərə yer verməklə, parlamandakı sosialist fraksiyamız ilə isbat etdigimiz halda, sosialist roxlinlər, curayevlər və kampaniyasının bizi bəyənmədigi "tatarva" məsələsindən dolayı olmayıb da bəs nədəndir?

Bizim hökumətimiz var, parlamanımız var, – əgər Həştərxan yolunu açıb da neftimizi rəvac etmək üçün əhvali-siyasiyə müsaidə olarsa, əlbəttə, biz buna razı olub da heç vəqt istəmərik neftimiz yatıb qalsın. Neftimizin Rusiyaya daşınması bizim mənfəətimizdir. Böylə olursa, pulumuzun qiyməti artar və ticarətimiz rəvac olar. Amma madam ki, biz hələ bunu etmirik və Həştərxan yolunu hələ açmırıq, görünür ki, istiqlalımızı təhdid edən siyasi əhvallardan çəkinirik və fürsəti müsaid bilmirik. Şübhəsiz, rus fəhlələri neftin satılmağını Azərbaycan türklərinin istiqlalından əziz tuturlar. Onlardan ötrü təki neft satılsın, yerdə qalanı əhəmiyyətsizdir.

Amma türk və islam olan fəhlələr işə bu nəzəriylə baxa bilməzlər. Milli hüququ iqtisadi mənfəətlərə sata bilməzlər. İstiqlalımızı neft alış-verişi yolunda qurban və fəda etmək istəməzlər.

Ondan əlavə, bu saət bizim iqtisadi əhvalımız o qədər naçar halda degildir ki, biz bu saət heç bir şübhəyə baxmayıb da neftimizi satmaq üçün təhlükəli vəsilələrə əl ataq.

Gürcüstan və Ermənistanın əhvali-iqtisadiyəsi Azərbaycandan qat-qat fəna bir halda olduğu surətdə nədəndir ki, orada ümumi zabastovkalardan heç bir xəbər-əsər görünmüyor?

Acından ölən və ianələr ilə dolanan Ermənistan öz istiqlaliyyətindən bərk-bərk yapışdığı halda Azərbaycana nə olubdur ki, tez neftini satmaq üçün istiqlalını təhlükələrə salsın?

* * *

Əlqərəz, bu gunə zabastovkaların iqtisadi rəngdə də olmuş olsa bizə, bizim hüquqi-millimizə, bizim azad yaşamamıza, istiqlalımıza bədxah və düşmən olanlar tərəfindən icra edilməsindən məqsəd məhz istiqlalımızı əlimizdən almaq və bizi təkrar əsir etməkdir. Əgər zabastovka Azərbaycan türk fəhləleri tərəfindən və Azərbaycan türk sosialistləri əliylə icra edilmiş bir keyfiyyət olsa idi, biz heç bir təşvişə düşməyib də arada xəyanətkarlıq olmadığına əmin olardıq. Lakin özgələrin zabastovkasına, roxlinlər və curayevlər təşviqatı ilə icra edilən tətillərə biz ancaq yan-yan baxa bilərik, çünki onlara inanmarıq və genə də inanmarıq və inanmamağa da əlimizdə böyük dutalğalarımız vardır. Onlar bizim puç olmağımızı istiyorlar.

**Ü. Hacıbəyli**
*"Azərbaycan", 7 may 1919, №174*

Haris – qoruyucu
Lavə – kinayə

## YETƏR ARTIQ

Dünyada heç bir millət və firqənin istifadə etməmiş olduğu hürriyyət, ictima, kəlam və mətbuat sayəsində sol cinah sosialistləri Azərbaycanda tutduqları mövqe və vəziyyətdən istifadə edərək təbliğat, təşviqat vasitəsilə yerlərini möhkəmləşdirdilər və şimdi – daha doğrusu ibtidadan. Fəqət şimdi açıqdan-açığa – dövlət və hökumətimizin əleyhinə çıxmağa başladılar. Bir dərəcə ki, hətta axır zamanlar sosialistlərin hərəkətini görən cəmaət "Hökumət bunların ipini bir qədər çəkmiyəcəkmi?" – deyə şikayət dili açdı.

Azərbaycan hökumət və cəmaətinin fikri, zehni daxili işləri düzəltmək çarələri, əmin və asayişi möhkəmləşdirmək təşəbbüsləri və şimaldan gözlənən qara irtica axıntısı ilə məşğul ikən paytaxtımızda məmləkətimizin qibləgahında bolşeviklər yuva salıb gündən-günə artmaqda, mövqelərini möhkəmləşdirməkdə və şimdi artıq açıqdan-açığa istiqlalımız və hüququ milliyyəmiz müqabilinə mübarizəyə girişməkdədirlər.

Bu vəqtədək Azərbaycan hököməti bolşeviklərə qarşı mübarizə açmamışsa şübhəsiz ki, zəiflikdən degil siyasətimizin təqazasından, demokratik bir hökumətin demokratiya ilə mübarizə etmək istəməməsindən irəli gəlmişdir.

Fəqət yetər artıq!

Hər şeyin bir həddi, bir intəhası olar.

Azərbaycanlılar daima sağ tərəfə diqqət verib onlarla mübarizə etməklə bərabər bundan böylə sol tərəfi də nəzərdən qaçırmamalıdırlar. Zira bizim üçün heç fərqi yoxdur. Sağdanmı,

soldanmı istiqlalımızı məhv etmək istəyən hər bir qüvvəyə qarşı mübarizədə bulunmalıyız.

Azərbaycan türk demokratiyası bilməli və bildirməlidir ki, özgələrin, ələlxüsus hüquqi-istiqlalımız düşmənlərinin dalınca getmək, bəsdir artıq.

Fəhlə konfransı son iclasında ümumi tətil etməgi təhtiqərara alaraq istaçkom seçmişdir. Dündən tətil başlanmışdır. Bu tətilə iqtisadi rəng vermək və əmələlərin gözünü örtərək dallarınca aparmaq qəsdilə bir "müştərək müqavilə" dəxi qeyd etmişlərdir. Fəqət demokratiya anlamalıdır ki, bu tətil sırf siyasi mübarizədən və Azərbaycanda bolşevik hökuməti qurmaq planının birinci qədəmindən ibarətdir.

Biz bolşevik hökuməti istərizmi?

Əlbəttə bu suala cavab vermək müşkül degildir. Bolşevik hökumətinin "ləzzətini" görmüş olan hər bir azəri türkün rəyi məlumdur: nə qədər Nikolay hökumətini istəsə, o qədər də bolşeviki istər.

Madam ki, böylədir, bir dəfə şifri açmaq və türk demokratiyasına açıq bildirmək lazımdır ki, bu zahiri göstərişlər həp bəhanədir. Əsl məqsəd isə bolşevizm bərpa etmək, Azərbaycan hökumətini yıxmaq və türk demokratiyasının boğazına yenidən kəndir salmaq, keçən ilki əsarəti tazələməkdir.

Bir dəfə burası türk demokratiyasına açıq bildirilsə o, öz çarəsini bilər. Tərzi-hərəkətini təyin edər və şübhəsiz bu macəraçılardan üz çevirərək deyər: yetər artıq!

**Xəlil İbrahim**

***"Azərbaycan", 7 may 1919, №174***

## BAYRAĞIMIZ SARSILMAZ

Müqəddəs bayrağımızın münəvvər rəngləri, günəşin ziya və şəfəqləri kimi təcəlli edir. Zülmət dostu olan sağ və sol düşmənlərimizin xain gözləri bu nurlardan qamaşır.

Münəvvər bayrağımızın üç rəngli parçasını övci-səmayə qaldıran ağacı, iti bir ox olub alçaq düşmənlərimizin qara qəlblərini deşməkdədir.

Müzəffər bayrağımızı möhkəm tutmuş olan müqəddəs əllərin getdikcə artmaqda olan qüdrət və qüvvəti zalım düşmənlərimizin namərd belini sındırmaq və alçaq başlarını əgdirmək üzrədir.

O xain gözlər, qara qəlblər, namərd biləklər və alçaq başların sahibləri əzab çəkirlər; ruhları inciyir, bədənləri ağrıyır. Vicdan əzabı allında həqq qapısında sürünən iblis kimi, müqəddəs bayrağımız qabağında əzilib-büzülür və bu bayrağı qapmaq, ağacını sıxıb-sıxıb və parçasını para-para etmək üçün bayraqdar üzərinə cummaq və soxulmaq istiyorlar...

Əbəs zəhmət!

O ağac sınmaz, o nur sönməz, o əl dönməz!! Çünki bayrağımız, həqq bayrağıdır. O bir millətin hüquqi-bəşəriyyəsinin harisidir. Bir millət ki, onun da insan kimi yaşamağa həqqi vardır! Bir millət ki, daha əsir olmaq istəmir!

Nahaq səy!

Zülm və əsarətin yoğun zəncirlərini qırıq-qırıq etməgə qadir olmuş bir millətin, həqq və hürriyyət bayrağı enməz, sarsılmaz!

**Ü.Hacıbəyli**

***"Azərbaycan", 8 may 1919, №175***

## MƏCLİSİ-MƏBUSAN VƏ TƏTİL

### 6 may 1919

İclas saat 11:10 dəqiqədə açılır.

**Sədr**: Həsən bəy Ağayev.

**Katib**: Əhməd Cövdət Pepinov.

**Sədr** – İclasa davam ediriz. Bu gün növbədəki məsələlərdən savayı hökumətə aid Divani-Rəyasətə bir sual daxil olubdur. Bu sual iclasın axırında elan olacaqdır. Növbədəki məsələ əhaliyə bilavasitə ziraət yardımı edən və ziraətə zərər yetirən amillər ilə mübarizədə bulunan təşkilatın daxiliyyə nəzarəti ixtiyarından ziraət və əmlak nəzarəti ixtiyarına keçirilməsi haqqında qanun layihəsidir.

Məruzəçi Şəfi bəy Rüstəmbəyov.

(Şəfi bəy Rüstəmbəyov layihə haqqında məlumat verdikdən sonra katib layihəyi oxuyur)

**Sədr** – Söz parlaman üzvü Vinoqradovundur.

(Vinoqradov layihə haqqında danışır. Sonra Abdulla bəy Əfəndizadəyə söz verilir. Layihənin ikinci qiraətinə keçilir. Maddəbəmaddə oxunduqdan sonra layihənin üçüncü qiraəti gələn iclasa qalır)

**Sədr** – Təklif var ki, növbədəki məsələlər gələn iclasa qalsın. Bu təklifin lehinə və əleyhinə iki natiqə söz verəcəgəm. Abuzər bəy Rzayev buyrunuz.

**Rzayev** – Əfəndilər! Hamınıza məlumdur ki, bu gün Bakıda tətil başlanıb, elektrik, dəmiryol yatıb. Bu günlərdə vodaprovod da (su kəməri) yatacaqdır.

**Qara bəy** – (yerindən) Qoymayacayıq.

**Rzayev** – (davam edir) Bu tətil iqtisadi olmuyub siyasi bir tətildir. Bizim düşmənlərimiz sağdan-soldan hər yerdə baş qaldırıb istiqlaliyyətimizi əldən almaq istiyorlar. Ona görə biz təklif edərdik ki, bu gün bu məsələyə baxılsın. Başqa məsələlər təxirə salınsın. Parlaman və hökumət bu barədə öz tərəfindən nə tədbirlər görəcəgi həqqində məlumat versin.

**Sədr** – Bu təklifin əleyhinə danışan yoxdursa, səsə qoyuram. Hər kəs bu təklifin tərəfdarıdırsa əlini qaldırsın. (Əllər qalxır) Deməli növbədəki məsələlərin gələn iclasa qalması əksəriyyət ilə qəbul olunur. Keçirik təklifə.

(Katib təklifi oxuyur)

**Sədr** – Söz **Məhəmməd Əmin Rəsulzadənindir.**

**Məhəmməd Əmin** – Möhtərəm Məclisi-Məbusan əzası! Bilirsiniz ki, şəhərimiz indi bir fövqəladə əhval içərisindədir. Zabastovka elan edilmişdir. Bu tətili elan edənlər əmələ konfransı namilə və bu addan sui-istifadə edən bir təşkilatdır. Onlar öz məqsədlərinə iqtisadi diyorlarsa da fəqət onların məqsədlərinin nədən ibarət olduğu və siyasi olduğu kimsədən ötrü gizli degildir. Əgər xəlq qismi bu məsələnin əsasına bələd olmasa da parlamanda oturan möhtərəm əzaların şəkk-şübhə edəcəklərinə qane degiliz.

Ələlümum ticarət və sənayemizin düçar olduğu vəziyyət müşküldür. Əhval və övzadan naşı əmələlərində müşkül bir vəziyyətdə olduqlarını kimsə inkar etməz. Onların iqtisadi cəhətdən hallarına müavinət lazımdır. Acqarına, kəmmayə ikən bir müşkülat içində işləməyə məcburdurlar. Bu müşkülat ilə bərabər məmləkət içində işləyən bütün əmələlərin idraklı qismləri anlıyorlar ki, ticarət və sənayemiz müşkülat içərisindədir. Bu müşkülatı rəf etmək lazımdır. Fəqət bunu yalnız konfransa toplanıb da əmələlər adından, yerli xəlq əmələləri ilə əlaqələri olmayan və özlərinin xüsusi intiriqala-

rı üçün əmələlərin müşkül mövqedə qalmalarından istifadə edib intiriqa çevirən şübhəli bir dəstəmi düşünüyor? Başqa bir təşkilat yoxdurmu ki, bunu düşünsün? O da siz burada oturan və milləti təmsil edən məbuslar var. Və sonra da türk xəlqi, müsəlman demokratiyasıdır. (Sağdan və mərkəzdən alqış) Fəqət onların düşüncələri də başqa, məsələyi həlli üçün vasitələri də başqa, bizimki də başqadır. Onlar qaş qayırarkən göz çıxarmaqdan heç də düşünməzlər. Bizimkilər isə qaş qayırmaq istərkən gözü də qorurlar. Onlara şuluq və ixtilal lazımdır. Bizə hürriyyət və istiqlal. (Alqış) Onlar zahirdə həqq və xoş, batində isə yalan və zəhərli sözlər meydana atırlar. Düha Həzrəti Əli əleyhissəlam buyurmuşdur: "Kəlamülhəqq yeridiyəl batil". Həqiqət bəzi kəlmələr vardır ki, batini örtmək üçün söylənir. Onlar da ortaya bu cür kəlmələr atırlar. Onlar diyorlar ki, Həştərxan yolu açılsın, oraya neft getsin. Bunu hökumət öz bəyannaməsində də söyləmişdir. Həştərxan yolu açılsın, ticarət münasibatı başlansın, əmələlər işsiz qalmasınlar. Bunlar zahirdə həqq sözlərdir. Fəqət bunun altında batil bir məqsəd vardır. Onlar bununla vəziyyəti-siyasiyyəyi bərhəm edib Həştərxana neft aparmaqla Həştərxanı buraya hakim etmək istiyorlar. (Sosialistlərdən başqa bütün kürsülərdə alqışlar. Səslər: "doğrudur, doğrudur") Əvət, əfəndilər məsələ böylədir. Zahirdə iqtisadi tələblər təklif olunur. Tələb olunur ki, stavka artsın, kollektiv (doqovor) qəbul edilsin.

Əgər doğrudan da fəhlələrin halı və mənafei-iqtisadiləri gözlənilmiş olsaydı, əgər arada intriqa və siyasi məqsədlər olmasaydı digər tələblər də olmalıydı. Əgər raboçi konfrans əmələlərin əhvalını gözləmək istiyor, bilməli idi ki, gündən-günə məvacibi artırmaqla iş düzəlməz. Promışlennost hökumət parası ilə dolanıyor. Stanok kağız para kəsir, əmələlərə paylıyoruz. Əmələlər tələb etməli ki, hökumət öylə

təşkilatlar düzəltməgə kömək eləsin ki, əmələlərə ucuz buğda, çörək, ət və sair lazımi şeylər versin. Əgər raboçi konfrans iqtisadi mənafei gözləsəydi, bunu deməli idi. Fəqət bundan bəhs olunmuyor. Bunu demiyorlar. Lakin öylə şeylər tələb edirlər ki, onlar ilə əsla dərdə çarə olmaz. Bu cür siyasi məsələlər ortalığa ancaq anarxiya və ixtişaşdan başqa bir şey salmaz.

Əfəndilər! Siz bilirsiniz ki, daha hökumət özü kəndi bəyannaməsində elan etdi ki, Hacıtərxan yolu gərək açılsın. Hacıtərxan yolunun açılmasının nə qədər əhəmiyyətli olduğunu əlbəttə hökumət düşünüyor.

Fəqətşimdiəmələkonfransıhökumətinbubəyannaməsindən istifadə edərək hökumət də Hacıtərxan yolunun açılmasını istiyor – deyə sui-təfsir ediyor. Azərbaycan hökumətinin Hacıtərxan yolunu açmasilə Çurayev, Mirzəyanların açmasında fərq vardır. Onu görməyən və idrak etməyən bir fərd tapılmasa gərəkdir. Hökumət Hacıtərxan yolunu o vəqt açmaq istər ki, bu xüsusda Sovet hökuməti müraciət edə və müəyyən şərtləri ola. O şərtlər də bunlardır: Əvvəla Sovet hökuməti bizim istiqlaliyyətimizi tanıyormu? Saniyən bizim daxili işlərimizə qarışmayacaqmı? Qafqasiya üzərinə hakim olmaqdan qətiyyən imtina edəcəklərmi? Rus hakimiyyətini buraya tətbiq etmək istəməyəcəklərmi? Bu şərtlər bizim istədigimiz kibi olarsa o vəqt əlbəttə biz neft verəriz.

Lakin fəhlə konfransiyasında əyləşən və bu gün müvəffəq olan bir takım sərsərilər qəti surətdə müvəffəqiyyəti əllərinə keçirəcək olurlarsa bizim ixtiyarımıza, hüququmuza, türk demokratiyasının istiqlaliyyətinə təcavüz etməyəcəklərinə kim təminat verə bilər. Onların bizə verdikləri və ortaya atdıqları təklif bir şahmat oyunudur ki, onunla hiyləgəranə bir surətdə yolumuzu kəsib bizi mat qoymaq istiyorlar. Və bununla burada öylə bir vəziyyət hasil etmək istiyorlar ki, Bakı fəhlə konf-

ransı realnı bir qüvvəyə istinad etsin. Biz istər-istəməz kəndi mənafeimizi onlara vagüzar edək. Biz burasını bilməliyiz ki, müstəqil bir millət və cəmaət ən əvvəl öz qüvvəsinə istinad etməlidir.

Mart faciəsini yaradanlar bizim onlara istinad edəcəgimizə inanıyorsalar qətiyyən yanılıyorlar. (Alqışlar)

Əfəndilər! Məsələ bu yoldadır. Əmələləri aldatmaq üçün iqtisadiyyata istinad ediyorlar. Fəqət yalan söylədiklərini özləri etiraf ediyorlar. Fəhlə konfransiyasında müzakirat əsnasında bu tələbnamə siyasiyyəmidir – deyə onlara verilən bir suala qarşı siyasi olduğunu və yalnız ingilislərdən gizləmək üçün onlar iqtisadi bir don geydirdiklərini məlum etmişlərdir.

Bən zənn etmiyorum ki, bir takım Çurayev və Mirzoyanlar ingilislərin gözü qarşısında pərdə asa bilsinlər və ingilislər də o qədər səhli-bavər olsunlar ki, nərədən gəldikləri məlum olmayanların ixfalına aldansınlar. Bu pərdəni yalnız ingilislərin degil, rus, erməni və müsəlman əmələlərinin də gözündən asmaq istiyorlar. Bən zənn ediyorum ki, əmələlər fəhlə konfransının bu tələsinə səs vermişlərsə də həqiqəti bildikdən sonra macəraçu olmazlar. Və Hacıtərxan yolunun bizim ixtiyarımızda olmadığını bilə-bilə heç bir şeyə əhəmiyyət vermədən ərkəksən də doğ, dişisən də doğ – deyib bizi müşkül vəziyyətə salmazlar.

Bu zərbə yalnız ingilislərə degil, eyni zamanda da Azərbaycan hökumətinə və Azərbaycan istiqlaliyyətinədir. Bu sadə bir iqtisadi tələb degildir. Bu o tələbdir ki, burada Çurayev Sovdep hökuməti qurmaq istiyor. Çurayevin konfransı Rusiya Sovdep hökumətinin Bakıdakı səfarətxanəsi kibi ədd olunmalıdır. Beynəlmiləl hüquqda bir hökumət digər bir hökumət nəzdində səfir bulundurmaq istədikdə əvvəlcə o hökumətin rəyinə müraciət elər və müsaidəsini aldıqdan son-

ra səfarətxanəsini açar. Lakin Sovdep hökumətinin qaidəsi büsbütün başqadır. Onun nümayəndəsi mahallarda təşkil edilən bolşevik konfranslarıdır. Buradakı kofrans da Sovdep hökumətinin səfarətxanəsindən başqa bir şey degildir. Binaənileyh oradan çıxan qərarlar və verilən tələbnamələrin ruhu və mahiyyəti bizcə bəllidir. Biz yaxşı biliyoruz ki, burada 14 milyonlar ilə paralar nasıl sərf ediliyor. Biz biliyoruz ki, keçən tətildə əmələ konfransı əmələlərdən qəpik qəpik ianə istiyordu və verməndiklərindən şikayətləniyordu. Amma imdi görüyoruz ki, Dağıstan gününə və sairəyə on minlər ilə ianələr veriyorlar. Bu paralar nərədən gəliyor. Bu isə bizə həqq veriyor deyək ki, burada yalnız Sovdep hökumətinin agentləri degil, paraları da işliyor. (Sağdan və mərkəzdən alqış)

Əfəndilər! Bən bunu buradan söyləməliyəm. Onlar əmələləri aldatıyorlar, əmələlərin içərisində gəzib diyorlar ki, bu tələbatə parlamanda tərəfdar olmuşdur. Parlamanda əgləşən heç bir firqə millətin boynuna əsarət zənciri salanlarla bir olmaz. (Alqış)

Əfəndilər! Böylə mühüm bir məsələ qarşısında ikən burada sakitanə oturub da o ufaq-tefek qanun layihələrini müzakirə edəcək bir halda degiliz. Ona görə parlamanın müxtəlif fraksiya üzvləri imzası ilə hökumətə sual verilmişdir. Görək hökumətin bu məsələdə nöqteyi-nəzəri nədir və nə tədbirlər düşünüyor. Qoy bunu bu kürsüdən söyləsinlər, biz də bilək, millət də bilsin.

Burasını qeyd etməliyəm ki, bizə təhlükənin yalnız bolşevikdən degil, sağdan da mövcud olduğunu biliyoruz. Təhlükə təhlükədir. İstər sağdan, ya soldan olsun. Bizim üçün birdir. Bu təhlükə kəndi koloniyasından və hakimiyyətindən əl çəkmək istəməyən Rusiya tərəfindəndir. İstiqlaliyyətini müdafiə etmək Məclisi-Məbusana nə dərəcədə fərz isə,

istiqlaliyyətini əziz bilən millət və camaat oğullarına bolşevik də olsa istiqlaliyyətimiz əleyhində olanlar ilə mübarizə etmək o dərəcədə fərzdir. İstər sağdan, istər soldan olsa da düşmən düşməndir. Bu vəziyyət bizi hökumətdən sual etməyə vadar etdi. Görək hökumətin fikri nədir. Hökumətdən müvafiq cavab almayınca sakit olub evlərimizə gedəmməyiz. (Sürəkli alqış)

**Sədr** – Burada daha kim danışmaq istiyor. Söz Rəisi-Vükəlanındır.

**Nəsib bəy** – Möhtərəm məbuslar! Bu tətil iqtisadi olmayıb siyasi olduğunu güman edirəm bilməyən yoxdur. Bu tətilin siyasi olduğunu tətil edənlər və tətil etdirmək istəyən adamların özləri də inkar etmiyorlar. Onlar öz məclislərində açıq diyorlar ki, biz gərək bütün Rusiyada, o cümlədən də Azərbaycanda ki onu da Rusiyanın bir parçası hesab edirlər, Sovdepya hökuməti təşkil edək. Onlar bunu inkar etmiyorlər və bu məqsədə çatmaqdan ötrü də vəsiləyə müraciət ediblər və edirlər. Məlumi-aliyənizdir ki, indiyə qədər iş başında olan hökumət və indiki hökumət Azərbaycanda hürriyyəti-müdafiə və mühafizə yolunda əlindən gələni eləmişdir. Hürriyyəti-mətbuat, hürriyyəti-ictimaiyyə, tətillər mühafizə olunmuşdur. Bunun səbəbi nədir? Səbəbi budur ki, hər nə qədər hökumətimizə bəy, xan hökuməti desələr də iş başında olan hökumət öz demokrat və xəlqpərəst əməli ilə demokratlığını isbat eləmişdir. Fəqət bu hürriyyət sui-istemal olunur. Bunlar da öz içimizdə olan əhalimiz degil, özgə dövlətlərdən gələnlərdir ki, sui-istemal edirlər. Bu vəziyyət içəridən qalxmış degil, xaricdən qaldırılır. Bununla da əsl məqsəd Azərbaycanı Rusiyaya ilhad etməkdir. Bunu rusların əksəri mütəəssifanə hər bir rus istiyor. Sağdan bunu istiyordular. Hətta bu xüsusda Azərbaycan daxilində bir para tədbirlər görülmüşdü ki, o

da kəşf olundu. Bir çoxları nəfy və tərd edildi və edilir. Soldan da bunu istəyənlər var. Soldan istəyənlər özgə bir vasitə ilə Azərbaycanı Rusiyaya ilhaq etmək istiyorlar. Onlar cürbəcür vasitələr ilə öz əhalimizin, əmələlərimizin əli ilə öz ixtiyarlarını və qüvvələrini buraya gətirmək istiyorlar. Doğrudur, türk müsəlman fəhlələri arasında hala mövqei həqqilə düşünə bilməyən, anlaya bilməyən bəzi adamlar tapılar. Ancaq əminəm siz də inanırsınız ki, müsəlman türk demokratiyası və ələlümum yerli demokratiya ki, arasında rus və erməni demokratiyası da var, bu yalana aldanmayacaqlar. (Mərkəzdən alqış) Çünki onlar uşaq degillər. Onlar müvəqqəti olaraq bu yağlı sözlərə aldana bilərlər. Lakin işə gəldigi zaman məsələ ki dikinə qoyuldu, yəni ya Azərbaycan tərəfinə və ya Rusiya Sovdepyasına gedəsi məsələsi ki, qoyuldu o zaman zənn etmirəm rus tərəfdarı bir iki prosentdən artıq raboçi tapılsın. (Mərkəzdən alqış) Mən eşitmişəm mitinqlərdə söylüyorlar ki, hökumət Həştərxan yolunun açılmasına tərəfdardır, deklarasiyasında da bunu diyor. Doğrudur hökumət Həştərxan yolunun, bu yeni bazar yolunun açılması tərəfdarıdır. İki yüz milyon put neft var. Onu satmaq lazım, satmaq üçün də mühüm bir bazar Həştərxandır. Ancaq hökumət və millət degil ki neft, canını da verər ki, Sovdepya hökumətini bura gətirməz və istiqlaliyyətindən əl çəkməz. (Sosialistlərdən başqa bütün kürsülərdə sürəkli alqış) Hökumət demişdir ki, bəli əgər Sovdepyadan təklif olarsa ki, nefti almaq istiyoruq, o vəqt bəzi şərait ilə qəbul edəriz. Bunun mənası açıq idi. Əgər Rusiya bizim istiqlaliyyətimizi tanırsa, bizimlə hesablaşırsa, o zaman neft verəriz. Bunlar olmayınca hökumət Sovdepyayə neft verməz. Lakin bunlar diyorlar ki, yolu şəraitsiz açın gəlsinlər. Buna heç bir hökumət, heç bir fəhlə, türk demokratiyası və heç bir azərbaycanlı razı olmaz.

Məlumunuzdur ki, bu zabastovkanın əmələlər içərisində qəbul olunması üçün ona iqtisadi bir rəng verirlər. İqtisadi məsələlərdə hökumət hər zaman fəhlələrin tərəfindədir və olacaqdır da. Bunu hökumət öz bəyannaməsində də məlum etmişdi. Əgər tələb doğru olursa və iqtisadi olursa bu günkü tələbnamənin doğru olmadığını bəyan və ərz elədim. Bunların o sözlərini yalana çıxarmaq üçün hökumət bəzi iqtisadi güzəştlərə də gedə bilər. Hökumət nə qədər güzəştə getsə belə, bu tətili aparmaq istəyənlər heç bir zaman buna razı olmayacaqlar. Onlar diyorlar kollektivin hamı maddələri qəbul olunsun, Hamınıza məlumdur ki, kollektivdən bir maddə var. Onda denilir ki, fəhlələri qulluqdan çıxarmaq və qəbul etmək fəhlələrin haqqidir. Məlumunuzdur ki, bizim mədənlərimiz və başqa idarələrimiz var ki, hər zaman Çurayevlər istəsələr onları tətil etdirə bilərlər. Bunun da səbəbi odur ki, oradakı əmələlərin hamısı azərbaycanlı degil. Budur ki, onlar çalışıyorlar ki, bu maddə ilə hər yerə öz adamlarını qoysunlar, istədikləri zaman məmləkətin makinalarını və həyatını durdura bilsinlər. Əlbəttə kollektivin bu maddələrini hökumət heç bir zaman qəbul edə bilməz. (Alqışlar)

Bir də türk demokratiyasını bununla aldatmaq istiyorlar ki, hökumət də, parlaman da "Müsavat" da tələbata razıdır. Bu kibi şayiələr ilə türk demokratiyasını hər nə qədər aldatmaq istəmişsələr də bu gün təsəvvür edilən o tətil yoxdur. Dəmiryolumuz dünən saat beşdə tətil elan etmişdi. Fəqən dün də, bu gün də lazım olan qatar hərəkət etdi. (Sürəkli alqış). Teleqraf lazımi dərəcədə işliyor. Və heç kəs ona mane olamaz. (Sürəkli alqış) Telefon tamamilə işləmiyorsa da öz adamlarımızdan oraya təyin etdiklərimizin sayəsində hökumət dairələrinin telefonları işliyor. (Alqış) Və ola bilsin ki, mən sizə daha qəti demiyoram axşam işığınız da olsun.

Deməkk o duzəx ki qurulmuşdur, başa gəlmiyəcək. Əgər bir kəs tərəfindən işləmək istəyənlərin üzərinə hücum olunarsa, hökumət var qüvvəsi ilə buna mane olacaq. (Sağdan və mərkəzdən sürəkli alqış) Lazım gələrsə və çox inad edərlərsə ətrafdan gələrək burada Sovdep lehinə işləmək istəyənlərə təklif olunacaq ki, gedib öz Sovdeplərində əgləşib işləsinlər. (Sağdan və mərkəzdən şiddətli və sürəkli alqış, soldan daşnaklar dəxi alqışlıyorlar)

Hökumət Rəisinin bəyanatından sonra firqə nümayəndələri hər məsələyi münaqişə və müzakirə eləmiş, nəticədə böyük bir əksəriyyətlə aşağıdakı qətnamə qəbul edilmişdir.

"Raboçi konfrans adlanan müəssisə tərəfindən elan olunan tətili-ümuminin istiqlalımız əleyhinə bir sui-qəsdi mütəzəmmin olduğunu nəzərə alaraq və hökumət Rəisinin izahatını eşidərək hökumətin tətili bitirmək haqqində gördügü və görəcəgi qəti tədbirləri təqdir və bu xüsusda kəndisinə bir növ müavinətdə bulunacağını vəd ilə Məclisi-Məbusan növbədəki məsələlərin müzakirəsinə keçir".

*"Azərbaycan", 11 may 1919, №177*

Kəmmayə – sərmayəsi az, qiymətsiz
Səhli-bavər – sadəlövh
İxfa – yalan, gizlətmə
Vəsilə – bəhanə, vasitə
Nəfy – sürgün
Tərd – qovma, uzaqlaşdırma
Şərait – şərtlər

## SİYASİ İMTAHAN

Elan edilmiş və hökumətimizlə bərabər millətimiz və millətimizin siyasətən ziyalı qismini təşkil edən fəhlə və amələlərimiz tərəfindən ustadlıqla söndürülmüş olan zabastovka Azərbaycan üçün siyasi bir imtahan idi.

Bu bir böyük imtahan idi ki, bütün dost, düşmən və bitərəflərin nəzər-diqqətləri bizdə olub diyordular ki, görək bu Azərbaycan türk və islamları ki, – müstəqil yaşamaq və öz-özlərini dolandırmaq istiyorlar – bu siyasi imtahandan keçə biləcəkmi, yoxsa bacarmayıb basılacaqmıdırlar və əvvəldən müəyyən edilib dəftərə yazılmışdı ki, əgər bizim kimi ağır siyasi imtahanı layiqilə verə bilərsək, müstəqil yaşamağa, öz-özümüzü – beduni-qəyyum – dolandırmağa layiq bir millət, bir dövlət əfradi olduğumuzu bütün aləm qarşısında isbat edərik. Vəilla... özümüzə qəyyum tikmək, özgələri üstümüzə hakim qoymaq lazım gələcəkdir. O hakimin və o qəyyumun da bizimlə nə tövr dolanacağı və yaşamağa layiq olmayan bir millətlə nə günə rəftar edəcəgi məlumdur.

İmtahan – ağır imtahan idi.

Bizi imtahana çəkənlərin əsl məqsədləri bizi yıxmaq, əzmək və məhv etmək olduğundan, qabağımıza o dərəcə ağır suallar qoymuşdular ki, hər birisinin cavabı öz-özlügündə xüsusi bir müşkülat törədiyordu.

Onlar – bir kəlmə istiyordılar ki, bizim əlimizi, ayağımızı hər bir bənd bərəmizi möhkəm-möhkəm bağlayub, sarıyıb yerə yıxsınlar və meyit kibi hərəkətsiz düşmüş bədənimizə işarə edib, kənardən baxan dost və düşmənlərə rişxənd və istehza ilə desinlər ki:

– Baxın! Müstəqil yaşamaq iddiasında olan bu diri ölüyə və ölü diriyə ki, siz bundan yaşayış iqtidarı gözləyirsiniz! Bunun nə başı başdır ki, özündən və mühitindən xəbəri olsun, nə qolunda bir qüvvət vardır ki, özünü müdafiə etsin, nə ayağında istiqamət var ki, ayaqüstə dura bilsin! Özünü bir dəstə qandırıcıların kəməndinə giriftar edən bu millət daima zəncirbəndiəsarət olmağa layiqdir!

Lakin, şükr olsun ki, böylə olmadı. Millət imtahandan keçdi və parlaq bir surətdə keçdi!

İmtahanın ən ağırı fəhlə və əmələlərimiz üzərində idi. İqtisadi zabastovka deyə onların gözlərinə pərdə çəkmək istənildi. Fəqət fəhlə və əmələlərimiz pərdəni yırtdılar. Yırtıb da arxasında görünən siyasi cəhətləri dərk etdilər. Dərk edib də dedilər ki:

– Biz istiqlalımızı satmaq, millətimizi məhv və nabüd etmək, vətənimizi xarabazara döndərmək istəmirik! Biz candan əziz tutduğumuz Azərbaycanımızı dünən bolşeviklərlə "hökumətlik" üstündə qarpış-qarpış salan, bu gün isə bolşevikləri köməgə çağıran, dünən ingilislərə yalvaran, bu gün ingilisləri sögən Çurayev, Anaşkin və mikoyanların hava və həvəsinə, kefə – mayəşasinə qurban etmək istəmərik.

İmtahan parlaq bir surətdə keçdi.

Dost sevindi, düşmən yandı!

Azərbaycan türk və islamları müstəqil yaşamağa qabil, diri, səlamət əql və səlamət bədənə malik siyasi bir vahid olduğunu yar və əğyar nəzərində isbat etdi!

Ola bilsin ki, gələcəkdə bizim üçün daha ağır imtahanlar hazırlanır. Fəqət biz daha qorxmuruq. Zira bugünkü ağır imtahandan keçmək üçün biz bütün qüvvəmizi sərf etməgə lüzum görmədik, çətin imtahanı asanlıqla keçdik. Bundan daha ağır imtahanları keçmək üçün kifayət qədər qüvvəmiz oldu-

ğu aşkar oldu. Düşmənlərimizin gələcək hiylə və təzvirlərinin dəxi hər dəfə müvəffəqiyyətsizligə düçar olacağına bugünkü əzmimizdən pay aparmaq olar.

Qoy indi bu imtahanı göz ilə görən bitərəf hakimlər dəftərlərində bunu qeyd etsinlər və ümumə oxutsunlar ki:

– Azərbaycan türk və islamlarının azadlığına toxunulmasın! Onlar bu azadlığa layiqdirlər!

**Ü. Hacıbəyli**
***"Azərbaycan", 11 may 1919, №177***

# AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

## 12 mayıs iclası

İclas saat 12:11-də açılaraq müəllimlərin və məarif nəzarəti məmurlarının maaşlarının artırılması həqqində məarif nəzarəti tərəfindən təqdim edilmiş olan layiheyi-qanuniyyə və ümum dövlət xidmətçi və məmurlarının məvaciblərinin artması barəsindəki qanun təcili surətdə müzakirə və qəbul edildikdən sonra iclasın axırında Sosialistlər fraksiyası general Millin 20 martda nəşr etmiş olduğu və mayın 7-də Bakı və ümum Zaqafqasiyada paylanmış olan elan həqqində hökumətə sual veriyor. (Elan Zaqafqasiyanın ingilislər qəzetəmizdə vardı) Bu suala cavabən Rəisi-Vükəla Yusifbəyli Nəsib bəy həzrətləri böylə bəyanat vermişdir:

**Nəsib bəy** – Möhtərəm məbuslar! Məlumunuzdur ki, ingilis əskərləri paytaxtımıza daxil olduğu gündən bəri bir çox təbəddülat vaqe olmuşdur. Bən sizin yadınıza salmaq istiyoram o günləri ki, ingilis tərəfindən işğalı həqqində idi ki, muzdlu əskərləri Biçeraxov dəstəsilə bərabər paytaxtımıza daxil oldular. Yenə sizin xatirinizə o günlərdə ingilislər tərəfindən intişar edilmiş proklamasiyaları salmaq istiyoram. Bununla demək və ərz etmək istərəm ki, o şeyi ki, general Millin tərəfindən elan olunmuşdur, məəttəəssüf Azərbaycan üçün yeni bir şey degil. Yalnız bir şeyi sizə ərz eləmək istərəm ki, buraya daxil olan xarici qüvvətin gündən-günə, saətdən-saətə hökumətə, vətəndaşlarımıza olan münasibatı dəgişməkdə idi. Paytaxtımızi general-qubernatorluq elan edən Tomson, məəttəəssüf ərz eləməliyəm ki, bütün daxili

işlərimizə müdaxilə ediyordu. Lakin gün-gündən bu münasibət dəgişildi. Biz o haldayız ki, heç bir cəhətlə bizim daxili işlərimizə müdaxilə edilmiyor.

Əlbəttə ki, bu hallar səbəbsiz degildir. Bunun səbəbi-müəyyəni nədir? İngilislər buraya gəldigi zaman bizim həqqimizdə olan təsəvvürləri büsbütün başqa idi. Onlar paytaxtımıza daxil olduqdan sonra özlərinin səhvdə olduqlarını gördülər və bildilər ki, bizim həqqimizdə onlara verilən məlumat yalandır.

Onlar gördülər ki, Azərbaycan milləti o qədər yetişmiş ki, özlərini idarə edə biliyorlar, bunu inkar da etmiyorlar. Bu axır günlərdə onlar çox diyorlar ki, biz gördük və anladıq ki, siz özünüzü idarə edə bilirsiniz. Sizin daxili işlərinizə müdaxilə etmək artıqdır.

Əlbəttə biz istəmiyoruz və istəməyəcəgiz ki, kim olursa-olsun, xahi-ingilis və xahi başqa bir dövlət bizim işlərimizə müdaxilə eləsin. (Alqış) Biz istəmiyoruz və istəməyəcəgiz ki, bizim işlərimizə nə qədər qüvvətli və nə qədər təntənəli və şəşəəli olursa-olsun kimsə müdaxilə eləsin. Özümüz-özümüzü idarə etməgə ləyaqətimiz vardır. Və idarə də edə biləriz.

Millinin elan etdigi intibahnamə məlumunuzdur ki, mart ayına aiddir. Martın 20-də İstanbulda çap edilmişdir. Və buraya texnika cəhətindən iki aydan sonra gəlib çıxmışdır. Bu iki ayın zərfində ümum aləmdə o qədər təbəddülat hasil olmuş ki, İngiltərə hökumətinin iki ay əvvəl nə düşündügünü burada müzakirə etməgə bərfövqdür də lüzum yoxdur. İki ay əvvəl ola bilər ki, İngiltərə hökuməti öylə düşünüyormuş. Hər halda haman məsələ bu günə aid degildir. Çünki 2 ayda degil, 2 gündə də degil, saatın ərzində dəyişikliklər vaqe oluyor.

Çox ola bilsin ki, bu yaxın zamanlarda hökumət mümkün biləcəkdir ki, sizə bir çox təbəddülatlardan bəhs üçün mən kəmali-məmnuniyyət və cəsarət ilə deyə bilərəm ki, Millin tərəfindən elan edilən intibahnamənin bir o qədər əhəmiyyəti qalmamışdır. Və ya Tiflisdən bizə verilən məlumata görə bu elan tarixə aid köhnə bir şeydir. Onlar öylə bir xəta eləmişlər, bəlkə onların şu elanı şəhərimizdə vaqe olan tətilə bir təsiri olsun. Bən təkrar ərz eləmək istiyoram ki, ola bilsin yaxın günlərdə sizə məlumat verək ki, bizim artıq müqəddəratımız təyin edilmişdir. Məvarayi-Qafqasiyanın məsələsi sülh konfransında həll edilmişdir. Bunun nəticəsi olaraq bir çox təbəddülat hasil olacaqdır. Əlbəttə bunlar bənim şəxsi müşahidəm nəticəsidir. Hər halda yəqin eləmək olar ki, bizim müqəddəratımız həll edilmişdir. Ancaq bir məsələ var ki, o millətin əzmi və arzusudur. Necə ki, tətil zamanında isbat etdi ki, millət artıq özünü bilər millət istiqlalına layiqdir. Buna layiq olduqdan sonra əlbəttə öz istiqlalını mühafizə edər və bən yenə təkrar ediyoram ki, Azərbaycanın heç bir şeydən qorxduğu yoxdur.

*(Mabədi var)*

***"Azərbaycan", 14 may 1919, №180***

## XATİMƏ

Zabastovkanı yatırtmaq və xələldar edilmiş məişəti öz yoluna salmaq həqqində hökumətimiz tərəfindən ittixaz edilmiş tədabiri-şədidədən hasil olan müvəffəqiyyət və müzəffəriyyəti əvam və anlamazlar nəzərində ləkələmək üçün hökumətimizi irticapərəstliklə ittiham ediyorlar. "Kontrrevolyusoner", "reaksioner" deyə əvam fərib tədbirlərlə qandırmaq istiyorlar ki, guya bizim hökumətimiz Nikolay hökuməti yoluyla gedib "proletariya" ilə mübarizəyə qalxırmış! Fəqət böylə degil ki, böylə də olsun!

Zabastovkanı yatırdan hökumətimiz, azad Azərbaycan Cümhuriyyətinin ən hürriyyətpərvər, ən demokratik bir hökumətidir ki, bu sənətləri haiz olduğu sözlə degil, felən isbat edib də azad bir Cümhuriyyətə yaraşan azadlıqların hamısına yol vermişdi.

Zabastovka quran adamlar isə Bakı proletariyası Bakının əsl füqərayi-kasibəsi olmuyub da imperializm amalını – yəni bir millətin azadlığına qarşı sui-qəsd etmək fikrinin tərəfdarları idi ki, Azərbaycan türklərinin azadlığı, azad bir surətdə tərəqqi və inkişaf etməsi və bir millət olmaq üzrə – qəüvveyi-cismaniyyə və ruhaniyyə və maddiyyə və mənəviyyəsinin sərbəstanə-təalisi – onlarca arzu olunmayan və onların xoşuna gəlməyən əhvallardandır.

Deməli, bu mübarizəyə konturrevolyusiya ilə proletariya mübarizəsi degil, hürriyyətpərəst və azadlıq tərəfdarı olan bir millətin qırmızı rəngə boyanmış qara qüvvələrdən özünü qoruması, müdafiə və mühafizə etməsidir.

Əsarət kəməndini təkrar boynuna salmaq və zəlalət zəncirini tazədən ayaqlarına vurmaq istəməyən bir milləti və o millətin başında duran hökuməti kontrrevolyusoner deyə təkdir etmək, başını qəssabın bıçağı altına uzatmaq istəməyən bir heyvanı sögmək mənziləsindədir...

Bu zabastovka ki, baş tuta bilsə idi, bütün həyatımızı durduracaq və zabastovkaçıların müvəffəq olduqları təqdirdə ola bilsin ki, paytaxtımızi təkrar qan ocağına döndərəcək idi – yeni təşəkkül etmiş kabinəmizdən ötəri, öz bacarığını və bacarıqsızlığını əhalimizə və ümumə bildirmək üçün bir imtahan və bir məhək daşı idi.

Kabinəmiz təşəkkül edən gündən bəri, bir çoxlarının əli, yürəgi üstə durub fikir-fikir ediyordular ki, aya bu qədər uzun bir böhrandan sonra əmələ gəlmiş olan bu kabinə bir şey bacaracaqmı, yoxsa idarə işində bacarıqsızlıq və düşmənlərimiz qarşısında mətanətsizlik göstərib məmləkəti idarədən acizmi qalacaqdır.

Zabastovkanı yatırtmaq yolunda hökumətimiz tərəfindən göstərilmiş olan bu əzm və səbat bizi və hər bir istiqlal-dost vətənpərvərləri mətməülqəlb edə bilər. Çünki hökumət bu imtahandan parlaq bir surətdə keçdi. Məhəkdaşı – hökumətimizin səbat və bacarıq sahibi olduğunu meydana qoyub aşkar etdi. Nəsib bəy kabinəsinə bəyani-etimad etmiş olan parlaman səhv etmədigini bilsin.

Nəsib bəy həzrətləri bir kabinə Rəisi olmaqla bu heyətə bir əzm və səbat ruhu vermək və bir daxiliyyə naziri olmaqla məmləkətin xələldar edilmək istənilən əmn və asayişini müdəbbiranə bir surətdə bərpa və bərqərar etməkdə nə qədər səlim bir əql, mətin bir qəlb və qüvvətli bir iradəyə malik qiymətli bir zat olduğunu ələni surətdə bildirdi və müstəqil Azərbaycan tarixində böyük bir ad qoydu.

Azərbaycan türk və islamları və əmn-asayiş tərəfdarı olan Azərbaycan millətləri – Nəsib bəy kabinəsinə bel bağlaya bilər və ümidvar ola bilər ki, idareyi-məmləkət işinin hər bir cəhətlərində dəxi bunun kibi səlamət bir politika işlənilib məmləkətimiz və vətənimiz kəmali-sürətlə bir tərəfdən qüvvət tapıb, bir tərəfdən də tərəqqi edəcək və getdikcə ağ günlərə çatacaqdır.

**Ü.Hacıbəyli**
***"Azərbaycan", 15 may 1919, №181***

Fərib – hiylə
Mətməülqəlb – arzu edilən

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**12 mayıs**
(keçən nömrədən mabəd)

General Millin elanı həqqində Sosialist fraksiyası tərəfindən hökumətə verilmiş olan suala Rəisi-Vükəla həzrətlərinin cavabı münasibətilə Əhməd Cövdət bəy söz alaraq şu nitqi irad ediyor:

**Əhməd Cövdət** – Əfəndilər! Əlbəttə ki bizim fraksiyamız hökumətə bu sualı verərkən bundan bir məqsəd vardı və təbii, əhəmiyyəti olmasa idi, bu sualı da verməz idi. Məəttəəssüf əhəmiyyəti vardır. Azərbaycanın cəmaət vəkilləri məmləkətdə nə kibi əhvalat cərəyan edərsə bilməlidir, taki bizim vasitəmiz ilə də cəmaət vəziyyəti anlasın. Burada Rəisi-Vükəla buyurdular ki, elanın əhəmiyyəti qalmamışdır. Üç ay iləri İstanbulda çap olunmuşdur və texniki cəhətdən buraya gec gəlib çıxmışdır. Kaş öylə olaydı, əhəmiyyətsiz olaydı. Lakin zənn etməyiriz ki, əllərində bütün dəryalar və simsiz teleqraflar bulunduğu halda ingilis dövləti üçün texniki cəhət kağızların gec gəlməsinə bais olsun. Hərgah həqiqətən də bu elannamənin əhəmiyyəti olmasa idi, ingilis komandanlığı onu yapışdırmazdı. Madam ki, vurulmuşdur onda əhəmiyyəti də vardır. Deməк, əgər Rəisi-Vükəlanın buyurduğu kimi bu elan tətilə qarşı olsaydı, bu da həqiqət ilə düz olmasın gərək. Çünki biləks bu tədbir bəlkə daha da tətilin artmasına səbəb olaydı. Və bu da əgər yalnız tətil üçün olmuş olsaydı, yalnız Bakıda vurulardı, daha Zaqafqaziyanın başqa yerlərində yapışdırılmazdı. Fəqət məlumatımıza görə Tiflis istisna olaraq

Zaqafqaziyanın qeyri şəhərində də vurulmuşdur. Bu vəqtə kibi ingilislər bu elannamələri saxlayıb imdi isə yapışdırıblar.

Deməli ki, bir əhəmiyyəti vardır. Buna görə bizim də bu məsələyə əhəmiyyət verməgimiz lazımdır. Elannaməyə keçmədən əvvəl ona aid bir neçə kəlmə danışmaq istiyoram: müharibə bir tərəfin məğlubiyyəti ilə qurtarandan sonra zənn olunurdu ki, qalib, məğlub və bitərəf dövlətlərin nümayəndələrindən ibarət sülh konfransı qurulacaq da, o konfransda mübahisəli məsələlər də adilanə surətdə həll ediləcəkdir. Bir çoxları sülh konfransından məzlum və məhkum millətlərin azadlığını və daha bir çox şeylər gözlüyordular. Bütün cahan və bəşəriyyət gözlüyordu ki, bu qanlı müharibədən sonra qurulacaq sülh konfransı yeni yaşama əsasları düzəldib dünya da yeni bir həyat dövrəsinə girəcəkdir. Lakin qəzetə oxuyub təqib edənlər biliyorlar ki, neçə aydan bəri davam edən sülh konfransı bu şeylərə oxşayan bir şey ortaya çıxara bilmiyor. Bu sülh konfransı millətlər konfransı degil, qalib və məğlubların sülh konfransı degil, ancaq qaliblərin konfransıdır. Orada sülh şəraiti ancaq məğlub millətlərə təklif və diqtə etmək üçün çıxarılır.

Bu günlərdə almanların nümayəndəsini oraya çağırıblar və onlara sülh şəraitini veriblər ki, 2 həftəyə kibi ya qəbul və ya rədd etsinlər. Bir vəqt vardı ki, Vilson (14) maddələrindən çox dəm vurulurdu. İmdi isə onlar da həyata tətbiq olunmuyor. Onun əvəzində isə beş qalib dövlətlərin təklifləri ancaq ortaya qoyulub tətbiq olunur.

Bilirsiniz ki, millətlərin bəqası adında bir təşkilat düzəltmək fikri var idi. İmdi aşkar olur ki, o da beş qalib dövlətin birligine dönübdür. Və teleqrafların gətirdigi xəbərlər də aydın göstəriyor ki, sülh konfransı dünyada yeni əsaslar və təbəddülata meydan verməyib yaşadıqca köhnə imperia-

lizm və burjuaznı əsaslarını daha da möhkəmləşdirmək və rahətləndirmək istiyor. Yeni ölkələr qəsb edilir, yeni mandatlar paylanır. Türkiyə vilayətlərindən Suriyanın mandatını birisinə, Fəhləstini birinə, Ərəbistan, Misiri birinə, Ermənistan birinə verilibdir. Demək, onlardan sonra Zaqafqasiyanın da sırası gəlmişdir. Əgər Avropa sülh konfransı doğrudan da dünyada yeni əsaslar qurmaq istəsə idi, o vəqt cümlə millətlərin nümayəndəsini çağırıb ədalətli bir sülh yapa biləcək konfrans təşkil edə bilərdi. Fəqət cahan imperialistləri bunu yapa bilməzlərdi və önümüzdəki faktlar da göstəriyor ki, həqiqətdə böylədir. İmda burada qarşımızda ingilis komandanlığı vardır ki, beş aydır onlar ilə münasibətdə bulunuruz. Rəisi-Vükəla doğru söylədilər ki, ingilislər əvvəl dəfə buraya gəldikləri vəqt buraxılan intibahnamələr nəzərə alınmalıdır. Doğrudur, o vəqt ingilis komandanlığı Azərbaycan xəlqinin arzusunu və əzmini bilməmiş və bəzi sərsərilərin iftiralarına inanmaqda idi. Bunlara baxmayaraq onların general-qubernatorluğu yalnız hərbi olub, ancaq Bakıya aid idi. Zaqafqasiya ilə əlaqəsi yox idi.

Biz arzu edərdik ki, bu elannamənin əhəmiyyəti olmasın və yalnız divarda qalsın. Madam ki, burada ingilis komandanlığı vardır, onlar ilə hesablaşmaya məcburuz və bu barədə onlar həqqində bir neçə söz deməliyəm.

*(Mabədi var)*

***"Azərbaycan", 16 mayıs 1919, №182***

## VƏTƏN GƏNCLƏRİNƏ BİR KAÇ SÖZ

Məlumdur ki, heç bir hökumət ordusuz yaşayamaz. Hökumət kəndi mövcudiyyətini göstərmək, təbiri-axırla boynuna yüklənmiş ağır, milli vəzifəhləri ifa üçün istinad edəcəgi ən mühüm amil və ən birinci qüvvət vətənin ruhi məsabəsində bulunan ordudur. Bir millətin səhneyi-dünyada tutduğu mövqe, o milətin ordusunun müntəzəm, müstəqim və ruhi yüksək olması halları ilə mütənasibdir.

Sənələrlə rus çarizmi əlində əzilərək insan dərəcəsində sayılmaya həqqimiz olmayan biz azərbaycanlılar bir gün kəndi müqəddəratımızı, istiqlalımızı kəndi əlimizdə bulundurmaq istəyiriz. Burasından əmin olmalıdır ki, sözümüzü dinləyəcək canlı və mükəmməl qüvvəyə, yəni müntəzəm bir orduya malik olmadıqca istədigimizə nail olmamız pək şübhəlidir.

Bu gün daha doğrusu, müqəddəratımız, bütün həqq və hüququmuz süngümüzün ucundan asılıdır. Bu qüyudatı mütailədən sonra bir də mühitimizə baxalım! Nə görüyoruz? Əskərlik kibi şanlı, müqəddəs vəzifədən eraz edən və övladlarını bu yoldan qurtarmağa çalışan bir çox atalar... Bu gün hər fərdimiz boşboğazlığa xitam verərək qışlalara girəcəgimiz yerdə övladlarımızın böylə müqəddəs vəzifədən kənar olması üçün ətəklərlə paralar töküyoruz.

Bəzimiz İran pasportu alaraq İran rəiyyətiyiz – deyə bəzimiz də min dürlü dəsais və hiylə ilə qaçıyoruz.

Əskərlik denilincə hər fərdimiz fəlakət ocağı, ölüm ayağıdır zənn ediyoruz. Övladlarımızı Vətən mühafizəsi kibi müqəddəs bir vəzifədən kənar edib də əziyyət vermiyəlim. Pəki!.. Ya qəflətən yarın əcnəbi bir əl vətənimizə təcavüz ilə

uzadıldıqda milli və dini yaşayışımızın nasıl olacağı, hər fərdimizin vəhşi sürülər kibi ovlanacığını nə üçün düşünmüyoruz?

Bu gün zaman icabatı ilə bir çox islahatə möhtac isək də onlar müruri-zaman ilə düzəlir. Fəqət bu gün Vətən gənclərinə tərəttüb edən vəzifə, təmiz ürək və saf vicdanla qışlalara girərək bir təkamülü-əskəriyyə meydana gətirməkdir. Ətrafımıza baxalım da kiçik, böyük millətlərdən ibrət alalım.

Məlumdur ki, hər kəsin bir ümidi olur. Millətin də milli bir ümidi olur ki, o da zəman və inqilabdır. Bu iki qüvvənin hüsula gəlməsini dərnəzər edərək səy edərsək istədigimiz hər amalı, hər qayəyi əldə edəcəgimiz mühəqqəqdir.

Vətənimizin bir çox yerlərində övladlarını azad etmək uğrunda ətəklərlə para saçan bəzi atalar vardır. Ya hanı həmiyyət? Vətən namusu, Vətən qeydi böyləmi çəkilir?...

Orasını düşünmuyoruz ki, bu gün ümumiyyətlə əl-ələ verərək qızıl qanlarımızı gözəl qayə uğrunda axıtmağa hazır olmazsaq, bədihidir ki, ümid günəşlərimiz tülu etmiyəcək və vətənimizdə o qızıl qanların əksi-səmərəsi olan qızıl güllər və çiçəklər açılmayacaq. Vətən övladı da cənnət səadətində degil guşeyi-zəlalətdə yaşayaraq əziləcəkdir. Düşünməlidir ki, bir zamanlar sətvət və sükuhlarilə, əzəmət və qüvvətlərilə dünyayı titrədən əcdadımız ordu əskərlik sayəsində istədiklərini yapmağa müqtədir olaraq hakimiyyət kürsülərindən hökmüran oluyordular. Türk oğlu yurdunu anlamazlığa qapılaraq, silahını yerə atıb süngüsünü çıxarar-çıxarmaz əski əzəmət və qüvvət də tədricən boğulmağa başlamışdır.

Artıq qullar kibi həqqimizdə müamilə edildiginə xitam verdirməliyiz. Və mövcudiyyətimizi göstərmək üçün hər fərdimiz silaha sarılıb süngüyü qucaqlamalıyız. Bu gün ke-

çirdigimiz vəz və əhval bizim üçün həyat və məmat mənziləsindədir.

Bu gün isbati-vücud edərək cəladət və rəşadətimizlə əskəri qışlalarımızı təzyin etməzsək iləridə vətənimiz əcnəbi ovlağı olmaqla üfüqümüzdə qara buludlar oynayacaqdır. Bu gün hatifi bir nida bizim də acizlər, zəiflər sırasından çıxaraq tam bir istiqlala nail olmamız üçün "Silah başına" əmrini veriyor. Bu qəti və layətəğəyyər əmrin önündə hər azərbaycanlı həmiyyət və mətanəti fövqəladə ilə diz çökərək Vətən imdadına qoşmalıdır. Taki bu surətlə babalarımızın getdiyi izlərə gedərək tariximizin yenə əski, zərin səhifəhlərini işğal edəlim!

**Əbdülrəhim Ağakişizadə**
***"Azərbaycan", 16 may 1919, №182***

Məsabə – sifəti, kimi
Qüyudat – qeydlər
Tərəttüb – sıralanan
Eraz – ərz etmə
Dəsais – hiylələr, bicliklər
Zəman – topraq, ilk şərt
Sətvət – hücum, qüdrət, iqtidar
Sükuh – böyüklük, cəlal
Cəladət – igidlik, qəhrəmanlıq
Hatif – qeybdən gələn səs, vicdanın səsi
Layətəğəyyər – dəyişməz, sabit

## SİYASİYYAT

İngilislərin Qafqazdan getməgi və əvəzində italyanların gəlməgi – müxtəlif göftgulara səbəbiyyət verməkdədir. Bu siyasiyyat dəyişikligini hər kəs bir cürə təfsir ediyor. Bunu – italyanlara müttəfiqlər tərəfindən bir güzəşt surətində anlayanlar, ingilis nüfusuna qarşı bir hədd qoyulmaq məzmununda tələqqi edənlər və sair bu kibi mənalarla təfsir verənlər vardır.

Bizcə bu əhvali-siyasiyyat yürüşünün proqramını bu gün əllərində tutmuş olan müttəfiq dövlətlərin proqram dəyişikliklərini anladan əhvallardan degildir. Bu – müzəfəriyyət və qələbələrindən mümkün mərtəbə böyük istifadələr qazanmaq, hərb əsnasında çəkmiş olduqları zərər və ziyanları mənfəətilə qaytarmaq və Almaniyanı zərərsiz bir halə salmaq işlərilə məşğul olan müttəfiqlərin əskəri manevrasıdır ki, qoşun hissələrinin istirahəti nöqteyi-nəzərindən ittixaz edilməsinə lüzum görülmüşdür.

Qafqaz cümhuriyyətləri üzərində "protektorat" təyin etmək və həqqi-himayənin kimə verilmək məsələsinin hələlik həll olunmadığını zənn edirik.

Ümumiyyətlə, bunu demək olar ki, müttəfiqlərin Qafqazda dolaşması – əvvəlcə zənn olunduğu kimi Rusiyanı diriltmək və əski hüdudları dairəsində yenidən bərqərar etmək niyyətilə olmuyub, bəlkə alman ayağı dəymiş olan yerlərdən alman nüfuzunu bilkülliyyə məhv etmək və bolşevikliyin yayılmasına bir hədd qoymaq qəsdilədir.

Həqqi-himayə məsələsi – gələcək məsələlərdəndir. Mehmannəvazlıqla məşhur olan qafqazlılar və baxüsus Azərbaycan türk və islamları, rəftar və hərəkati ibtidadə xeyirxahlı-

ğa dəlalət etməyin ingilisləri böylə bir mehmanə layiq olan hörmətlə qarşıladığı kimi dost və xeyirxah olacaqlarını ümid etdigimiz italyanları dəxi kəmali-mehmannəvazi ilə qəbul edəcəklərdir.

Vəqtilə istibdad və əsarət acılığını dadmış olan italyanlar, bu istibdad və əsarət cəngindən yenicə can qurtarmış olan azərbaycanlıların halını gözəlcə anlarlar, əlavə türklük ilə italyanlar arasında qədim və yeni tarixlərdə bir o qədər dərin bir xüsumət və düşmənçilik olmadığını və bu gün italyanlar ilə Osmanlı türkləri arasında mövcud olan ülfət və məvəddəti mülahizəyə alırsaq, italyanlardan mənfəətdən başqa bir zərər görməyəcəgimizi indidən qəviən ümid etmək olar.

İngilislərin getməginə gəlincə – yuxarıda zikr etdigimiz üzrə, bizdən, bizim adət, əxlaq və rəftarımızdan doğru xəbərləri olmayan və düşmənlərimiz tərəfindən həqqimizdə yalan-yalan xəbər və məlumat əxz etmiş olan ingilislər, ibtidaiəmirdə bizə bir qədər yan-yan baxmaq istədilərsə də, sonra bizimlə yaxından tanış olub da məlumatlarının yalan və yanlış olduğunu dərk edib hər münasibat və məlumatlarını dəgişdilər və bizim xeyirxahımız olmaqla, düşmənlərimizi başı aşağı etdilər. Hökumətimizi təsdiq etmək, daxili işlərimizə qarışmamaq bizi və bilümum Zaqafqasiyanı bolşeviklər hücumundan qorumaq, Biçeraxov kazaklarını rədd etmək, Denikin və prijevalskilər qaragüruhunu paytaxtımızdan çıxartmaq, Qarabağ məsələsində bizə kömək kimi rəftarlar ilə Azərbaycan türkləri arasında rəğbət qazandıqlarından çıxıb getmələrinə heyfsilənməmək qabil degildir. İngilislərin burada olmağından biz istifadə edib də yenicə təşkil etmiş olduğumuz dövlətimizin mövqeini bərkitdik. Ümuri-mülkiyyə və əskəriyyəimizi qaydaya salıb gücləndik və özümüzü düşmən hücumundan lazımınca və layiqilə müdafiə və mühafizə edə

biləcək bir halə gətirdik. Ümidvarıq ki, dostluqlarını intizar və arzu etdigimiz italyanların vürudundan dəxi böyük-böyük istifadələr edib hər bir nöqsanatımızı təkmilə fürsət bulacağıq.

**Hacıbəyli Üzeyir**
***"Azərbaycan", 17 may 1919, №183***

## İNDİ BAŞA DÜŞÜRLƏR

İstiqlalımıza qarşı qurulmuş olan zabastovka hökumət və millətimizin səyi və himməti ilə yatırıldı. İstiqlalımız düşmənləri olan zabastovkaçılar basıldılar. Özləri də biabırçılıqla basıldılar. Biəzm və bədnam oldular, hörmətdən və gözdən düşdülər və hər bir nüfuzlarını itirdilər. Deməli, xain və xasirlərə layiq olan mənəvi cəzalarına çatdılar.

Bu biabırçılığın şiddətini azaltmaq və itmiş nüfuzlarını geri qaytarmaq kimi təşəbbüslərə girişməgin müvəffəqiyyətpəzir ola bilməyəcəgini dərk etmiş olan zabastovkaçılar – "vahid cəbhə" qırıldıqdan sonra partiya-partiya olub, bir-birlərindən ayrılmağa tələsdilər. Tələsdilər ki, məğlubiyyətlərinin təqsirini bir-birlərinin üzərinə atmaqla hər kəs öz adını təmizə çıxartsın.

İştə iki gün əvvəl yığılmış olan "raboçi konfrans"da bu məğlubiyyət məsələsi müzakirə edilərkən, bolşeviklər menşevikləri və bunlar da onları ittiham etməgə başlamışdırlar.

Təqsirin ən böyügünü və məsuliyyətin ən ağırını türk sosialistlər firqəsi olan "Hümmət" üzərinə yıxıbdırlar və deyibdirlər ki, əgər "Hümmət" hümmət eyləsə imiş, zabastovka yatırılmazmış.

"Hümmət"i müdafiə etmək üçün güc və bəla ilə söz ala bilmiş olan Əhməd Cövdət əfəndinin "müdafiənamə"sindən görünür ki, daşnaklardan dönmə bolşeviklər tərəfindən qurulmuş olan bu zabastovka – necə ki, biz kərratla demişik və necə ki, türk füqərayi-kasibəsi özü də hiss və dərk etdi – məhz Azərbaycan türklərinin istiqlalına qarşı qurulan bir kələk imiş.

Safdərun "Hümmət"çilər səy edirmişlər ki, zabastovkanı Azərbaycan hökumətinə qarşı degil, ingilis politikası əleyhinə

çevirsinlər. Hökumətimizin vəqtilə demiş olduğu sözlərini ki, lazım və mümkün olduğu halda Həştərxana neft göndərərik – əldə dəstavuz edib də Həştərxan ilə mal mübadiləsinə mane olanlar – yalnız bir ingilislərdir deyə çalışırlarmış ki, zabastovka məhz siyasi bir rəngdə olub, ingilis siyasətinə qarşı bir protesto olsun.

Lakin hiyləkar daşnak bolşeviklərin əsl məqsədləri mal mübadiləsi məsələsi olmuyub da Azərbaycan hökumətini dağıtmaq və Azərbaycan türklərinin istiqlalını məhv etmək olduğundan, safdərun sosialistlərimizin sözlərinə məhəlgüzar olmuyub öz dediklərində durubdurlar. Amma sonradan özlərinin basıldığını görüb təqsiri – genə müsəlman sosialistlərinin üzərinə atıb, onları "proletariya" dedikləri cəmiyyət gözündə bədnam etməklə bir güllə ilə iki dovşan vururlar. Əvvəla, biabırçılıqlarının təqsirini özlərindən götürür və saniyən türk sosialistlərini "xəyanət"lə ittiham ediyorlar...

Daşnak bolşeviklərin və daşnak menşeviklərin bu cürə hiylələrini, ürəklərinin xainliklərini və ümumtürklügə – türk füqərayi-kasibəsi və türk sosialistləri də buraya daxil olmaq şərtilə – düşmən kəsildiklərini biz çoxdan bilirdik. Mart və martdan sentyabra qədər davam edən faciələr bu əhvalatı ümumtürklügə və baxüsus Azərbaycan türklərinə açıb, aşkar etdi. Təəccüb ediləcək hal burası idi ki, bu aşkar şeyi hamı görürdüsə də safdərun sosialistlərimiz görə bilmiyib, sosializm fikrinə də və istiqlalımıza da düşmən olan və "maska"lar altında işləyənlərə etibar edib onlarla əlbir olmağı özlərinə rəva görürdülər.

Əlbəttə, əlbir olmaq – dilbir olmaq degildir və biz haşa türk sosialistlərini xainlərlə dilbir olmaqda məznun görənlərdən degilik. Parlamanımız güşadında Şeyxülislamov əfəndinin dililə: Azərbaycan türklərinin istiqlalını müdafiə yolunda

birinci cərgədə biz sosialistləri görərsiniz! Və bu zabastovka günləri Əhməd Cövdət və Ağamalıoğlu əfəndilərin ağzı ilə: "biz istiqlalımızı sağdan və soldan da müdafiəyə hazırız" deyən sosialistlərimizi, bu istiqlalımızı sarsıtmaq və məhv etmək istəyən daşnakdan dönmə "sosialist"lərlə dilbirlikdə ittiham etməgə həqqimiz yoxdur. Təəccübləndigimiz əhval, bunların onlarla əlbir olmağı və bu yalançılara inanmağı və sosializm maskası altında gizlənən xain sifətləri görməməkləri idi.

İndi, şükür olsun ki, bu zabastovka xainlərin maskasını yırtdı və əsl sifətlərini bizim sosialistlərə göstərməklə bunları nifrətləndirdi və zənn edirik ki, gözlərini açdı. Türk sosialistlərinin naşiri-əfkarı olan "Zarya" qəzetəsi haman xainlər xüsusində dünənki baş məqaləsində diyor ki: "bu adamlar yalan deməgi, camaəti aldatmağı və iftiralarla məşğul olmağı vicdanlarına rəva görürlər. Bu xüsusda nasional bolşeviklər (yəni daşnakdan dönmələr) və sosial bolşeviklər dilbirdirlər... Prezidium seçmək işində Mikoyan utanmaya-utanmaya kələklər qurub Əbilovu və Pepinovu rədd edib, firqənin başqa əzalarını da işə qəbul etmədi... O adam ki, hələ dünənləri daşnak partiyası cərgəsində idi, bu gün özünə kommunist (bolşevik) maskası geyib türk-sosialist firqəsinin başçılarını fəhlələr qarşısında bədnam etmək istiyor. Bu yalançıların və maska geyənlərin hamısına bizim bir cavabımız var – murdar əllərinizi geri çəkin. Siz fəhlələr və fəhlə rəhbərləri arasında provakasiyalar düzəldə bilməzsiniz. Türk füqərayi-kasibəsi, ağır ibrət rusları vasitəsilə öz maskalı "dost"larını yaxşıca tanıdı..."

Bu əhvalatdan və bu sözlərdən sonra biz də ümidvar olmalıyıq ki, türk füqərayi-kasibəsinin martdan bəri gözəlcə tanımış olduğu "mehriban dost"larını türk sosialistləri – gec də

olsa – bu gündən tanıyıb və tanıyanları da tanımayanlarına tanıdıb, xain və xasirlərlə daha bundan sonra əlbir olmaz və onların istiqlalımıza qarşı qurmaq istəyəcəkləri zabastovkaları yatırtmaqda türk füqərayi-kasibəsinə köməklər edərlər.

**Hacıbəyli Üzeyir**

***"Azərbaycan", 19 may 1919, №184***

Biəzm – niyyətsiz
Xasir – yoldan azan
Məznun – təqsirləndirilən

## ERMƏNİ MƏTBUATI

"Arev"in xüsusi müxbiri Tehrandan xəbər veriyor ki: Naxçıvandan İrana qaçqın sayaqda köçmüş müsəlmanlar tərəfindən teleqrafən İran hökumətinə, qeyri hökumətlər səfirlərinə və sülh konfransına müraciət edilib Naxçıvan həvalisinin İrana ilhaqını təklif ediyorlar. Naxçıvanlılar xeyli mükəddər olub onu böyük bir xəyanət ədd ediyorlar.

* * *

Şərur və Naxçıvan dairələrində türk müşəvviqlərinin fəaliyyətinə xitam verib Novbəyazid nahiyəsində müsəlmanların binizamlıqlarını rəf etmək məqsədi ilə ingilis komandanlığının binagüzarlığı ilə haman yerlərə ingilis qoşun dəstələri sövq ediyorlar, müsəlman dəstələrini ingilislər tərksilah ediyorlar. Bu günlərdə ingilis və erməni qoşunları Culfanı işğal edəcəklər.

* * *

Van türkləri Türkiyə vəziri-daxiləsinə göndərdikləri teleqramlarında yazırlar: erməni hüdudunu Van gölünün kənarınadək çəkmək istiyorlar. Böylə iş mümkünmüdür? Bu ədalətdən kənar olar. Zira haman yerin erməniləri müsəlmanların ədədinə nisbətən ancaq yüzə on miqdarında olarlar. Van müsəlmanları heç bir vəchlə Türkiyədən ayrılmaq istəmiyorlar.

(Arev)

* * *

"Tan" qəzetəsindən iqtibasən "Arev" yazır: "Proarmeniya" qəzetəsinin sabiq müdiri Bisertri Şərq məsələsinə dair irad etdigi nitqində demişdir: Şərq məsələsinin yeganə təriqihəlli osmanlının mövcudiyyətini qət etməkdir. 1915 sənədə İngiltərə, Fransa və Rusiya arasında əqd edilmiş müqavilə ilə Türkiyənin təqsimi müqərrər olunmudur. Lakin əlan siyasətin cərəyanından naşı Türkiyənin aradan götürülməsi bu sayaq əncam bulunsun:

1) İstanbul və boğazlar beynəlmiləlləşsin;

2) Kiçik Asiyanın Qərbi hissəsi İzmir ilə belə Yunanıstan verilsin;

3) Hazırki Türkiyənin mərkəzi olan Kiçik Asiyanın vəsə tində yeni bir Türk hökuməti təşkil edilsin;

4) Əhalisi erməni və kürd olan Kiçik Asiyanın Şərqi hissəsində erməni hökuməti təşkil edilib Cəmahiri-Müttəhidəyə tapşırılsın;

5) Tavr dağlarının cənubunda olan bütün islam vilayətləri Suriya, Beynəlnəhrin, Fələstin və Ərəbistan İngiltərə təhtihimayəsinə verilsin."

*"Azərbaycan" 24 may 1919, №186*

Həvali – ətraf, civar
Mükəddər – kədərlənmiş
Vəsət – orta, mərkəz
Təriq – yol
Müqərrər – qərarlaşdırılmış
Cəmahiri-Müttəhidə – Birləşmiş Ştatlar

## İTALİYA HEYƏTİ RƏSMİSİ POLKOVNİK QABBANIN PAYTAXTIMIZA VÜRUDİ

May ayının 22-də səhər saat 7-də sürət qatarı ilə İtaliya heyəti rəisi polkovnik Qabba şəhərimizə vürud olmuşdur. Vağzalda Azərbaycan əskərlərindən fəxri qarovul qoyulmuşdur. Polkovnikin keçəcəyi küçələrdə milli bayraqlar rəkz edilmişdir. Azərbaycan Cümhuriyyəti namindən polkovniki xariciyyə naziri müavini Adilxan Ziyadxan cənabları təbrik eləmişdir. Cavabında polkovnik Qabba cənabları təvəqqe eləmişdir ki, özünə edilən ehtiramdan naşı Azərbaycan hökümətinə, onun səmimi təşəkkürünü yetirsin. Sonra polkovnik Azərbaycan əskərləri qarşısında enərək onları salamlamış və əskərlər cavab vermişlərdir. Polkovnik Qabba əskərlərin naçalniki polkovnik Ağalarovu qoşunların intizamından naşı təbrik eləmişdir. Sonra polkovnik Qabba salon vaqonuna daxil olub Adilxan Ziyadxanı da oraya dəvət eləmiş və onun ilə müsahibədə bulunmuşdur. Bədə polkovnik heyəti əzaları ilə avtomobillə Rakba Metropol mehmanxanasına əzimət eləmişdir.

### Məclisi-məbusan rəisi hüzurunda

Saət 2 tamamda heyət Azərbaycan Məclisi-Məbusan Rəisi həzrətlərinin ziyarətinə gəlmişdir.

Rəis əfəndi paytaxtımızda mədəni Avropa nümayəndələrini görməkdən şadlandığını qeydlə həpsini təbrik ediyor. Bunun cavabında heyət rəisi Qabba azərbaycanlıların mehmannavazlığından məmnun qaldığını və təşəkkürünü bəyanla Zaqafqasiyaya Azərbaycana ancaq qanun və nizamın müda-

fiəsi və qan tökülməsinin önünü almaq qəsdilə gəldigini bildirmiş və arzu etmişdir ki, bundan sonra gələcək olan heyətlərə də azərbaycanlılar böyləcə mehmannəvazlıq etsinlər.

Məclisi-Məbusan Rəisi həzrətləri cavab nitqlərində böylə ifadeyi-məram etmişlərdir:

Türk millətinin mehmannəvazlığı qorxudan, ya təəmmümdən olmuyub kəndisinə məxsus bir xislətdir ki, həmişə və hamıya qarşı eyni səmimiliklə ibraz edir. Biz azərbaycanlılar dəxi həmişə qanun, nizam və asayiş tərəfdarı olub hamıyla sülh və müsalimətlə yaşamayı arzu edər, xüsusən qonşularımızla hüsni-münasibətdə bulunmaya çalışıyoruz. Biz Qafqasiyanı neçə qardaşa məxsus bir qonaq kibi təsəvvür ediyoruz ki, burada hər qardaş öz odasını öz istədigi kibi bəzəməklə bərabər ümumiyyətlə qardaşcasına yaşamalıdırlar. Bunun yalnız quru sözdən ibarət olmuyub feləndə buna çalışdığımızı isbat üçün bu qədər kifayət edər ki, bu saat heç yerdə Azərbaycan qədər asayiş, müsalimət və rifah hal ilə yaşamıyırlar.

Qabaqca ərz etdigim kibi biz qanun və müsalimət tərəfdarıyız. Sizlərdən bu uğurda kömək gözliyoruz. Və özümüz səmimi olduğumuz üçün hamıdan böylə səmimiyyət tələb edəriz. Və hər kəs eyni səmimiyyət ilə bizə kömək edərsə həmişə bizdən hüsnü-qəbul və mehmannəvazlıq görər.

Biz əminiz ki, mədəni Avropa bizimdə arzularımızı nəzərə alar və milli amalımıza irişmək uğrunda kömək edər.

Heyət rəisi cavab vermişdir ki, Azərbaycanda italyanlar ancaq buna çalışıyorlar və bizim milli amalımıza irişməkdə İtaliyanın kömək edəcəginə əmin ola biləriz.

*"Azərbaycan" 23 may 1919, №186*

Rəks – sancılmış
Təəmmüm – hamıya aid olan

## BİLDİRİŞ

Azərbaycan Məclisi-Məbusan Rəisi naminə gələn ərizələr daxilində bir çox imzasız ərizələrə təsadüf olunuyor ki, böylə imzasız gələn ərizələrə qanun mövcibincə əncam edilməyib buraxılmalıdır.

Buna binaən Azərbaycan Məclisi-Məbusan naminə gəlmiş olan imzasız ərizələr baxılmamış və əncamsız qaldığı kibi, ərizə sahibi də ərzihalına əncam ediləcəgini bəkləməkdə qalıyor.

Azərbaycan Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrlərinə binaən ərizə göndərən zatlara bununla məlum ediliyor ki, göndərilən ərzihalların cümləsi imza edilməlidir. Əks təqdirdə ərizə sahibinin hansı səbəbdən dolayı olursa-olsun ərizəsini imza etməmiş olduğu halda göndərilən ərizələr Məclisi-Məbusan tərəfindən sərəncamsız qalır.

Parlaman idarəsi vəkili: Vəkilov
Kargüzar: C.Paşazadə

*"Azərbaycan" 25 may 1919, №187*

## NAXÇIVAN VƏ QARABAĞ

Naxçıvan müsəlmanları Ararat hökumətinə tabe olmaq istəmədigi kimi, Qarabağ ermənilәri də Azərbaycan hökumətinə təbəəlik etmək istəmiyordular və istəmiyorlar.

Naxçıvan müsəlmanlarının böylə rəftara həqləri vardı, çünki oraların müsəlmanları ədədcə ermənilərdən çox olub, yerlərinin böyük qismi də müsəlmanlara məxsusdur. Halbuki ədədcə müsəlmanlardan az və yer-yurdca müsəlmanlardan kasıb olan Qarabağ erməniləri bu iddialarından heç bir həqqə malik degildirlər və əlavə bu həqsiz fikir və iddia bütün Qarabağ ermənilərinin arzusu olmayıb bəlkə daşnak partiyasının fitnə və intriqası nəticəsidir. Halbuki Ermənistana tabe olmamaq təşəbbüsləri ümumnaxçıvan müsəlmanlarının öz arzuları idi.

İngilislər bu məsələləri həll etmək istədilər. Məlum oldu ki, Naxçıvanı məhəlli müsəlmanların həqli arzusuna rəğmən Ermənistana və Qarabağı da daşnakların iddialarına xilaf olaraq Azərbaycana mütəəlliq etdirmək əsası ilə iş görmək fikrindədirlər. Bu fikri yeritmək üçün general Revini Ararata kömegə və miralay Şatelvortu də Azərbaycana mədədə məmur etdilər.

Bu gün işin nəticəsi məlum olur.

General Revi öz vəzifəsini kəmali-müvəffəqiyyətlə ifa edib erməni "Naşe vremya" qəzetəsinin yazdığına görə – Naxçıvan və Şərur tərəflərini bu may ayının 14-də erməni hökumətinə təslim edə bildi. Böylə ki, ayın 13-də ingilislər və erməni hökumət əzaları Naxçıvana varid olub müsəlmanlardan başda Kəlbəlixan Naxçıvanski və mühəndis Sultanov olmaq

üzrə Milli Şura əzaları tərəfindən istiqbal olunduqdan sonra, bu türk yerlərinin və türk əhalisinin etirazsız və qeylüqalsız olaraq Ararat hökumətinə təslimi işini, Cəfərqulu xan Naxçıvanskinin qonaqlar üçün hazırlanmış olduğı naharı yeməklə itmamə yetirdilər.

Pəs miralay Şatelvort nə elədi?

Bakı ilə Qarabağ arasında olan yolu bir neçə kərə ölçdü və əz cümlə Qarabağ ermənilərinə bir neçə nəsihətamiz sözlər dedi və bu sözlər əvəzində Qarabağ daşnaklarından "başqa cürə" cavablar aldıqdan sonra, vəzifəsini qurtarmış hesab edib qayıtdı...

Deməli, Ararat hökuməti ingilislərin köməgilə nahəqq məramlarına nail oldular, amma Azərbaycan hökuməti genə eyni ingilislərin köməgilə öz həqqini həlalik yeridə bilmədi.

General Revinin miralay Şatelvortdan mənsəbcə yuxarı olduğumu ona müvəffəqiyyət qazandıra bildi, yainki ingilislər, ermənilər hamisi olan amerikalılara xoş görünmək üçünmü Ararat həqqində bu qədər canfəşanlıq göstərib də Amerikanın xəbəri olmuyan Azərbaycan xüsusində qəsdən səhlənkarlıq etdilər. Yoxsa Naxçıvan türk demokratiyası Naxçıvan xanlarının xəyanəti qurbanı oldular – hər halda həqq nahəqqə verildi və Azərbaycan hökuməti o tərəfdən məyus və bu tərəfdən məğmum bir halda qaldı. Bu yandan dəxi əhalimiz üçün ölüm-dirim məsələsi olan köçəri füqərası təxir qəbul etməz bir halda həll edilməsini bütün şiddətilə tələb etməkdədir.

Bizi yandıran – ingilislərin tərəfkirligi və ya ingilis generalının bacarığı və ingilis miralayının bişüurluğu degildir. Özümüzün rəftarıdır ki, onun adına bacarıqsızlıq deməkdən başqa özgə bir ad qoymaq olmaz.

Qarabağ general-qubernatorluq şəklinə qonulduqdan bəri bizim zənnimiz bu idi ki, Qarabağ məsələsi artıq bitdi. Ümid

edirdik ki, Qarabağın hakimi işin vəz və halından kəmalınca xəbərdar olub da lazım gələn tədbirləri görmək üçün bütün səyini hələlik məhz bu yolda sərf edəcəkdir.

Lakin işin bugünki vəziyyətindən anlaşılıyor ki, əvvəl əmrdə olan tədbirlərin ən böyügü ingilislərə ümid bağlamaq imiş və general-qubernator yanında təşəkkül etmiş olan "şura" əzaları da öz vəzifəhlərini bundan ibarət biliyormuşlar ki, "məhalə çıxıb" özlərinə general-qubernator "pamoşniki" adı qoyub aşnaları olan bəylərin cibinə Nikolaydan qalma "alacaq"ları kəndçilərdən şallaq gücilə yığmaq istəmiyən polis məmurlarını tutdurub həbs etmək ilə "ədalət", daha doğrusu, "hökmün" göstərsinlər. Və danosbazların təhrikatilə iş görüb biməzmun və çürük politika ilə məşğul olsunlar.

Bu cürə politikanın axırı bu olar ki, nəinki erməniləri tabe etmək mümkün olmaz, bəlkə müsəlmanları da rəncidəxatir edib qarışıq məsələni daha da qat-qarışığa salmaqla dövlətimiz qarşısında böyük-böyük əngəllər törədərik...

**Hacıbəyli Üzeyir**
***"Azərbaycan", 25 may 1919, №187***

## ERMƏNİSTANIN VÜSƏTİ

Yer üzündə cümlətanı 4-5 milyonluq olan erməni taifəsi tarixlərdə əsli qaranlıq və imdi süni bir tərzdə ixtira olunmuş "Hayqan" dövləti yolunda can, mal və qələm ilə çalışırlar, vuruşurlar, məramə nail olmaq üçün heç bir şeyi müzayiqə etmiyorlar. Hətta bu yolda lazım görülürsə böhtan, fitnə, həqqi batil kibi ədalət və insaniyyətdən uzaq, qeyri məşru şeylərdən də çəkinməzlər.

Ermənilər hankı bir yerdə yaşıyorlar-yaşasınlar, hankı bir partiyada işliyorlar-işləsinlər, yenə axırki məqsədləri "Hayıstan"ın istiqbalıdır. Bunu qazanmaq üçün bir vəqt rus istibdadının ən sadiq bəndələrindən sayılaraq Loris Melikovlar imperator sarayına qədər yaxınlaşdılar. Hətta zimami-hökuməti ələ almaq məqsədinə cürətləndilər. Erməni hiyləsini anlamış imperatorun müqərrəbləri dərhal Loris Melikovu kənar etdilər. Lakin ermənilər məyus olmayaraq Peterburq saraylarından Qafqaz canişini Voronsov Daşkov sarayına köçürlər. Erməni qadını vasitəsilə qoca və düşgün canişini ələ alıb onun icazəsi ilə daşnaq partiyasını tərtib veriyorlar. Bundan sonra erməni "cürəti" bir dərəcəyə çatır ki, bir tərəfdən sərhəddi keçib Türkiyə ermənilərini silahlandıraraq üsyana hazırlandırıyorlar, o biri tərəfdən də Qafqazda erməni mənafeinə müxalifət göstərmiş rus qubernator və generallarını terror vasitəsilə qətlə yetiriblər. Ermənistanda və Azərbaycanda bunlar törətdigi əməllərə qarşı gürcülər və müsəlmanlar mat və mütəhhir qalmışdılar. Sanki buraların hamısı erməniləşmiş bir ölkədən ibarət imiş. Rus inqilabi-kəbiri gələr-gəlməz istibdadçı ermənilər maskanı dəgişib inqilabçı partiyalarına

doldular. Peterburqda təşkil olunmuş Qafqaz komissariyatında heç kəsin nümayəndəsi olmadığı halda, ermənilər Yuvanqulovu oraya nəsb elətdirdilər. Türkiyədən alınmış qəzalara da general Avaryanov ilə doktor Zavrevi göndərdilər. Xülasə, istibdad dövründən götürdükləri faidələri hürriyyət dövründə də bəlkə bir az da artıq götürürlər. Hətta Qafqaz canişini vəzifəsini ənvai-dosyasilə bolşeviklərdən qoparmış Şaumyanın Bakıdakı erməni mənafei mülahizəsilə törətdigi qırğını yəqin ki, hələ heç kəs unutmamışdır.

İşxanyan yazdığı "Zaqafqasiyada əks-inqilab" ünvanlı kitabının 77-ci səhifəsində yazıyor ki: "Rus hakimiyyəti ermənilərin damarlarında axan qanlarında belə yerləşmişdir. Bu hakimiyyəti Qafqasiyada ermənilərdən başqa heç kəs, hətta gürcülər də istəmiyorlar. Ermənilərin xilasi-qəlbilə ruslara olan məhəbbəti bir çox tarixi, coğrayiyayi (?) və siyasi şəraitin nəticəsidir. Odur ki, rus hakimiyyətinin Qafqasiyada bəqa və davamına ermənilər var qüvvətlərilə çalışıyorlar. Hətta bu hakimiyyət nə kibi üsuldan (?) ibarət olursa-olsun, ermənilər üçün fərqi yoxdur".

İştə illərcə Qafqazın hamı millətlərindən artıq İrəvanda, Bakıda, Qarabağda və hətta Tiflisdə rus hakimiyyəti ilə mübarizəyə qalxmış erməni millətinin böyük yazıçısı İşxanyan cənabı sadəlövh rus oxucularını doxsan doqquzuncu dəfə aldatmaq istiyor. Bu həzəyan və əracif ilə sübut etmək istiyor ki, rus boyunduruğu ermənilərə həmişə xoşdur. Öylə yağlı dillər ilə Moskvada əyləşən ermənilər də bolşevikləri tovlayıb milyonlar ilə pul alıyorlar ki, Şərqdə (?) propaqanda yapsınlar. Əcəba Şərqdə nə qədər erməni taifəsi vardır ki, bunların propaqandası üçün altmış milyona qədər pul almışlar? Yaxın Şərqi sərasər doldurmuş türk, fars və ərəblərin propaqandası üçünmü bu pulları almışlar. Şərqdə erməni "vəzinə" inanan

bir taifə vardırmı ki, onları bolşevik yoluna dəvət etsinlər? Şərq arasında ermənilərin casusluğu hamıya məlum olduğundan bolşeviklərin pulları propaqandaya degil, xüsusi işlərinə sərf olunacaqdır ki, bunu sadədil sovetçilər anlamamışlardır...

Qafqazda və Moskvada özlərini rus hakimiyyətinə tərəfdar göstərmiş ermənilər Avropaya da Poqos Nubar Paşa kibi şəxslərin istidasilə Araratın istiqlaliyyətini tələb ediyorlar.

Erməni hoqqabazlıqlarının məharətinə bax ki, burada özlərini rus tərəfdarı göstərib milyonlar ilə rus hökumətindən pullar alıyorlar. Avropaya gəldikdə rusların kim olduğunu əsla tanımayıb "Hayestan"a istiqlaliyyət tələb ediyorlar. Hələ Amerikada oynadıqları rolları başqadır. Ermənilərin Qafqazda fəqir, zəlil, ac və çılpaq bir millət olduğunu Amerika qəzetələrini çığır-bağırları ilə doldurub yardım və müavinətlər istiyorlar. Odur ki, bu gün amerikalıların milyardlar ilə ianələri Qafqazda yalnız Ararat dairəsinə gəlməkdədir.

Nubar Paşanın Avropadan tələb etdiyi istiqlaliyyət Qara dəniz səvahilindən başlayaraq təxminən Bəhri-Xəzər kənarlarına qədər müxtəlif millətlər ilə məskun yerlərdir ki, əhalisinin əksəri türklər və kürdlərdir. Proqramın bu cəhəti hərçənd gizlətilmiyorsa da, lakin mahiranə bir üsul ilə avropalıların nəzərinə təqdim olunur.

Avropalıları təzri və niyaz ilə doyuran ermənilər Qafqazda süngü zoruyla özlərinə yer açırlar, meydan hazırlıyorlar. Müsəlman kəndlərini talan edib mütəssil bir "Hayestan" düzəldirlər. Bunun üçün də heç bir şərarətdən çəkinmiyorlar. Bir vəqt Andronik ilə Zəngəzur mahalını dağıtdıran erməni hökuməti Andronikin kim olduğunu tanımaq istəmiyordu. Sonra bunun istiqbalına ehtiram dəstələri çıxarıb böyük nəvazişlər göstərdi. Bu axır vəqtlərdə Andronik dəstəsi Kars

ətrafında keçmişdir. Aşkardır ki, burada da bir çox müsəlman kəndləri dağılacaqdır.

Bundan əlavə Göyçə həvalisində yerləşmiş müsəlman kəndlərini dağıdıb Qarabağ və Gəncə səmtinə "böyük pəncərələr" açmışlar. Naxçıvan və Şərur yaxınlığında da böyük pəncərələr açılmaqdadır.

Erməni hökumətinin böylə şərarətəngiz hərəkətinə qarşı ciddi bir tədbir ittixaz olunmazsa bu açılmış pəncərələr vasitəsilə Qarabağ və Naxçıvan kibi Azərbaycanın məhsuldar topraqları vəqtilə erməniləşə bilər. Buna dair Qafqazda degil, Avropada da etirazlar yapmalıdır. Sülh məsələsi axıra çatdığı günlərdə erməni daşnaqları hələ qırğın ilə məşğul olaraq Ermənistanın vüsətini böyüdürlər və qanlar tökülməsinə səbəb olurlar. Bu qanlara bir xitam vermək gərəkdir.

**F.A. (Fərhad Ağazadə)**
***"Azərbaycan", 25 may 1919, №187***

Zimam – cilov, yüyən idarə etmə
Müqərrəb – hökmdarın yaxın adamları
Həzəyan – sayıqlama, hədyan sözlər
Əracif – yalan xəbərlər, şayiələr

## AZƏRBAYCAN VƏTƏNDAŞLARINA HÖKUMƏTİN MÜRACİƏTİ

Azərbaycan vətəndaşları!

Bir sənə bundan əqdəm məbuslarınızın rəyi və arzusu mövcibincə Azərbaycan xəlqi müstəqil yaşayış təriqinə qədəm qoydu. 1919-cu sənəsi mayın 28-i Azərbaycan Cümhuriyyətinin milli bayramıdır. Öylə bir bayram ki, onun xatiri ümum Azərbaycan vətəndaşları üçün daima möhtərəm və müqəddəs sayılacaqdır. Çünki kəndi dövlətinin milli bayrağı altında keçmiş olduğumuz bir sənəlik azad və zəhmətli həyatınız Azərbaycanın böylə tarixi bir günü olduğunu sizə sözdən artıq izah ediyor. Siz çarizmin ən ağır tarixini keçmişsiniz. O, sizin ən gözəl həyatınızı, mədəniyyət və müqəddəs əməllərinizi ayaqları altında tapdalamış və məhv etmək istəmişdir. Biz hər bir hüquqdan və mədəni tərəqqiyatdan və ən ibtidai siyasətdən belə məhrum olmuşduq. Bizim gözəl arzularımız qəti surətdə əzilir və ayaqlar altına alınıyor idi. Sizin nəzərlərinizdən bolşevik hərc-mərcliyi onun o mənhus dövrü keçmişdir. Kəndi evlərinizin talan və qarət edilib, uşaqlar və qadınlarınızın böyük fəlakət və müsibətlərə düşdüyünü və təhəmmül etdiyini gördünüz.

Qan dəryasına qutəvər olan Azərbaycan türk milləti kəndi müqəddəratını öhdəsinə alaraq özbaşına buraxılmışdı.

O mətanəti-qəlb və əzmi-qəti ilə istiqbalı düşünərək yaşıyor və bilaxirə müstəqil və azad yaşamaq yolu arayıb ona rəvan oldu. Öylə bir yol ki, onu ümumcahanın əzilmiş və döyülmüş millətləri tutmuşdu. Bu yoldan isə həməvəqt geri dönmək,

qayıtmaq yoxdur, ola da bilməz. Bu bir sənə ərzi müddətində biz yorulmadan ilədik və bu iləməyimiz ilə dövlətimizi möhkəmləşdirərək camaatimizin aşağı sinfinə milli dövlət təşkili hissini düşündürdik və göstərdik ki, camaat və millət məbuslarının getdikləri yol doğru və xəlqin azadə fikri və məsləkidir.

Bu az vəqt zərfində Azərbaycan türkləri kəndlilərinin müstəqil və azadə yaşamağa layiq olduqlarını gözəl surətdə göstərib və dövlət təşkilinə istedad və qabiliyyət yetirdiklərini isbat etdilər. Bunun sayəsində isə şimdi məmləkətdə insanı məmnun edəcək bir dərəcədə nizam və asayiş hökmfərmadır. Dövlətin fəaliyyəti isə bir dəqiqə də olsa təxir etməyib haman hökümət işlərində davam etməkdədir. İnqilabın bizə vermiş olduğu səmərəsi mühafizə edilmək ilə bərabər siz indi Məclisi-Müəssisan seçkiləri ərəfəsindəsiniz, bu məclisdə Azərbaycan milləti kəndi fikir və rəyini aşkar edəcəkdir. İstiqlaliyyəti müdafiə və mühafizə etmək ümum Azərbaycan xalqının müqəddəs vəzifəsidir.

Azərbaycan vətəndaşları! Təhlükə və təhdid hala dəf olmamışdır. Bizim üzərimizə qara buludlar gəlməkdədir. Bizim daxildəki hərəkatımız və nizam və asayışımız təmin edilir isə istiqlaliyyətimizi təhdid edən qüvvələrə yol verməz və rahət və azadə yaşamağa malik olarız.

Azərbaycan vətəndaşları !

Mayın 28-i böyük və ümumi bir bayram hesab edilməlidir. Bu gündə bilafərq millət hər kəs özünü müsavi hüquqla Azərbaycan vətəndaşı hiss etməlidir. Bu gün ümumcahan millətlərinin ədalət üzrə olan hüquq və ixtiyaratının təmin edilən günlərindən bir gündür. Azərbaycan millətinin ittihad və ittifaqına istinad edərək və buna ümidini izhar etməklə,

hökümət Azərbaycan Cümhuriyyətinin ikinci sənəsinə qədəmnihad oluyor.

Ümümazərbaycan vətəndaşlarının qüvvə və müavinətinə ümid ilə hökumət onları dövlət bayramı ilə təbrik ediyor.

**Azərbaycan Vükəla Şurası rəisi və daxiliyyə naziri:**

**Nəsib bəy Yusifbəyli**

*"Azərbaycan", 28 may 1919, №190*

## AZƏRBAYCAN İSTIQLALINI MÜBİN ƏQDNAMƏ

Böyük Rusiya inqilabının cərəyanında, dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqasiyanın rus orduları tərəfindən tərkini mövcib bir vəziyyəti-siyasiyyə hasil oldu. Kəndi qüvvəyi-məxsusələrinə tərk olunan Zaqafqasiya millətləri müqəddaratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqasiya Qoşma Xəlq Cümhurriyətini təsis etdilər. Vəqayi-siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqasiya Qoşma Xəlq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhurriyəti təsisini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyəti-hazireyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi Cənub-Şərqi Zaqafqasiyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən arayi-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi-Milliyeyi-İslamiyyəsi bütün camaatə elan ediyor ki:

1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi Cənubi-Şərqi Zaqafqasiyadan ibarət Azərbaycan dəxi kamiləl-hüquq müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xəlq Cümhuriyyəti olaraq təqərrür ediyor.

3. Azərbaycan Xəlq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə münasibətihəsənə təsisinə əzm edər.

4. Azərbaycan Xəlq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrovunda yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

5. Azərbaycan Xəlq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.

6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arayi-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyə qarşı məsul hökuməti-müvəqqətə durur.

Bu əqdnamə 1918 sənəsi mayıs ayının 28-də Tiflisdə elan olunmuşdur.

*"Azərbaycan", 28 may 1919, №190*

Mübin – aşkara çıxaran, aydınlaşdıran
Əqdnamə – şəhadətnamə, sənəd
Kamilülhüquq – tam hüquqlu
Həsənə – gözəl, yaxşı
Qələmrov – hakimiyyətində olan ərazi

## İSTİQLALİYYƏT

İnsanlar azadə yaşamaq üçün xəlq olunublar və bu yaşadığımız yer bilatəvafüt insanların ixtiyarlarına vagüzar olubdur. Ona görə hər millətə istiqlaliyyət verilməlidir ki, ta kəmaliasudəliklə öz hüquqlarına nail olsunlar.

Peyğəmbərlərin cəmaətə ümdə sözləri bu olubdur:

Ey cəmaət! "Fəqət bir olan Allah-talayə itaət edin". Bu dəxi ifadə edir ki, Allahdan başqasının bir kəsə təsəllütü yoxdur, bəlkə hamı cəmaət hüquqda bərabərdirlər.

Quran ki, qəvanini-mədəniyyəti ixtira etdiyi halda xitabı doğrudan-doğruya ümum xəlqədir. Bu xitabla hakimiyyət xəlqi təsis və təmin etmişdir. "La əkərə fi əl-din" ayəyi-kərimısilə büलənd bir surətdə hürriyəti-vicdanı elan buyurmuşdur.

İstiqlaliyyətlə hürriyyəti mühafizə etmək olur, hər kəs öz sözünü, əqidəsini cürətlə bəyan edər. İstiqlaliyyətlə məktəblərdən və mədrəsələrdən cəmaətə nəf verən alimlər peyda olur, ehkami-ilahiyyə dəxi istiqlaliyyət sayəsində intişar tapır.

Hər taifəyə istiqlaliyyət lazımdır və buna tərəfdar olmaq adətdir. Ədalət isə cümlə əxlaqi-həmidənin əsasıdır. Kim ki, istiqlaliyyətin xilafınə hərəkət edə o zalımdır, günahsız insanları əsir etmişdir.

"Əl ədl mimaru-l-ard" demişlər.

İstirahət və səadəti-ümumiyyə tərəqqi və mədəniyyətlə hasil olur. Tərəqqi və mədəniyyət isə ancaq hər millətin istiqlaliyyətlə yaşamağındadır. İstiqlaliyyəti mühafizə etməkdə çalışmaq eyn səadət və nəhayət kəramətdir. Zira insan başqalarını nə dərəcədə məsud edərsə, özü dəxi o dərəcədə məsud olur.

İnsana istiqlaliyyətlə yaşamaqdan mane olmaq quşu qəfəs içində saxlamaq kibidir ki, daim özünə nicat yolu axtarır. İştə millət kəndi hüququna arif olandan sonra daim istiqlaliyyət axtarmaqla axirüləmr məramına nail olacaqdır. Buna görə insanı təbiətin xilafına məcbur etmək nəticəsiz böyük zülm və həqqi-təalinin əmrinə müxalifətdir.

İstiqlaliyyəti olmayan millət qanadsız quş kimidir ki, hətta xırdaca uşaqların da əllərindən xilas ola bilməz. Qanadsız quş başqa quşun qanadı ilə uça bilməz. İştə hüququ əlində olmayan millət də həmişə zülmətlər içində sərgərdan qalıb başqasının himayəsiylə nicat yolu bulmaz.

Be-per-e xiş bayəd kərd pərvaz
Be-bal-e digəran nətəvan pəridən

Azərbaycan hökümətl istiqlaliyyət peyda edərsə islam aləmi cəhalət və rətbəsindan xilas olub dini və dini cəhətlərini təmin etmiş olurlar və bununla xilqətin müqtəzasınca yaşamağa malik olub islamiyyətin ruhu və həqiqəti zahirə çıxar və bu nöqteyi-nəzərdən Azərbaycan hökümətl kəndi istiqlaliyyətini elan etmişdir. Fəqət böylə istiqlaliyyətdən gözəl nəticə almaq vəqtə görə məarifi artırmaqla və milli ruhda tərbiyə almaqla mümkün olacaqdır.

**Şeyxülislam: Axund Ağa Ağaəlizadə**
***"Azərbaycan", 28 may 1919, №190***

Rətb – rütubətli

## NƏ BÖYÜK BAYRAM!

Azərbaycan türkləri bu gün ilk dəfə olaraq böyük bir bayram saxlıyorlar:

İstiqlal bayramı!

Bundan bir sənə əvvəl Zaqafqasiyanın müqəddaratını həll üçün Tiflisə toplanmış olan müsəlman vəkilləri tarixin öylə bir anına təsadüf eləmişlərdi ki, yüz sənəlik dövrü-əsarətə yalnız yüksək bir amal nəticəsi degil, eyni zamanda zəruri bir ehtiyac kibi xatimə verмək məcburiyyətində qalmışlardı.

Əvət, Zaqafqasiya millətləri bilməcburiyyə elani-istiqlal etmişlərdi.

Bilməcburiyyə elani-istiqlal!

İstiqlalımıza düşmən olanlar bu iki "məcburiyyət" və "istiqlal" sözlərinin bir araya toplanmasını "ictimai ziddin" qəbilindən ədd etməklə, Zaqafqasiya cümhuriyyətlərinin qeyri-təbii olduqlarını isbat etmək istərlər.

Fəqət bu mülahizə zahirdə doğru görünsə də batində öylə degildir.

Bir növzadın məsimeyi-madərdən xilas olub da dünyaya gəlməsi heç şübhəsiz, bir vaqei-istiqlaldır. Qadının vəzihəmlinə digər təbirlə, bizdə "azad olmaq" deyirlər. Halbuki bu "azadlıq" eyni zamanda bir zərurəti-təbiiyyə, bir məcburiyyətdir.

Öylə bir məcburiyyət ki, həyati – aləm ona bağlıdır.

Zaqafqasiya "Seym"inin elani-istiqlalə məxsus olan günündə "kadet" firqəsi münayəndəsi "Seym" əzalarının o gün vəzifələrinin ağırlığından duyduqları hissiyyata tərcüman

olaraq, hər kəsi özü kimi təsəvvür edərək: "Baxınız, sanki "Seym" bir möhtəzirin başı üstündə durmuşdur" – dediyinə müqabilən bən: "Əfv edərsiniz, bu iztirab və əndişə bir möhtəzirin degil, bir ləhvisənin** başı üstündə görülən iztirabdır".

Zaqafqaziya ləhvisəsinin "azad"lığı çox müşkülatla olmuşdu. Çünki birdən üç növzad doğmuşdu:

Gürcüstan, Azərbaycan və Ermənistan!

Hər növzad kibi istiqlal dəxi can kibi sevildiyi halda canan kibi cəfakardır. Bir növzad paydar olub kəndi başına dolanar bir adam oluncaya qədər ata və anasına nə əndişələr, nə qəmlər, nə qüssələr verməz!

İştə eyni iztirabları, eyni qüssə və dərdləri fəqət bununla tovəm olan sevinc və itminanları biz keçən səneyi-istiqlalda keçirmədikmi?...

Mart hadisatı-əliməsinin bir nəticəsi olaraq davam edən Bakı əsarəti, Şamaxının bu dəfə yer altındakı məvaddi – bir kaniyyədəndegil, insanların fitrətindəki şərarətdən mütəzərrər olub da xak ilə yeksan olması, Osmanlı türk qardaşlarımızın son ümidsizlik dəmində yetişib də bizi düşmənlərdən xilasi; Bakının istirdadi, sonra ingilislərlə bərabər Biçeraxov və sairlərinin gəlişi ilə hasil olan iztirab və əndişə, Parlamanın mütəntən surətdə açılması, Azərbaycan ordusunun vürüdi, Qarabağ, Naxçıvan, Lənkəran məsələləri, Dağıstan faciəsi, nəhayət, bugünkü şənliklər – iştə bir sənəlik həyati-istiqlalın xof ilə ümid arasındakı iztirab və imtinan dəqiqələri!

Hər nasılsa növzadımız bir yaşına çatdı!

Bu bir ilin ərzində azərbaycanlıların maddətən verdikləri qurbanlara müqabil qazandıqları yalnız xaricin bizi müstəqil bir millət kibi tanımağa doğru və göstərdiyi bəzi təmayülat

---

* Vəzi-həml edən qadın

degil, ən böyük şeyi fikri-hüriyyət və istiqlalın artıq milli bir fikir olduğu keyfiyyətidir.

Bundan iki sənə əvvəl biz türkçülər Azərbaycan şüarını böyük güldəstənin zəngin bir gülü kimi təsəvvür etdikdə, yalnız rus kadetləri ilə sosialistlərindən degil, öz kadetlərimizlə sosialistlərimizdən dəxi müqabilə görüyorduq.

Bir sənə sonra bütün firqələr bunu bir zərurət kimi qəbul edərək Azərbaycan istiqlalının elanında iştirak etdilər. Bu gün isə hər kəs onu bir mövhibə kimi qarşılayıb bir amal və bir ideal kimi alqışlayır!

Bu alqışlar yalnız siyasi firqələrin nümayəndələrindən degil, ağac tüfəngləri ilə "irəli, irəli!" – deyə sokakları dolaşan gənclərlə "Azərbaycan əskərini" yaşar gözləri və "Allah bəd nəzərdən saxlasın" duası ilə ötürən cəmaətdən nəşeyi-istiqlalı dərk etmiş xalqdan gəliyor.

Bundan altı ay əvvəl Azərbaycan Məclisi-Məbusanın açıldığı gün: "Bir kərə yüksələn bayraq bir daha enməz!" – demişdim.

O zaman, içində bulunduğumuz zaman o qədər müşkül və o qədər pərxöf idi ki, yüksəltdigimiz bayrağı pək də yüksək qaldıramıyor, onu yalnız Parlaman binasına münhəsir etdirib də "müdara" göstərmək məcburiyyətində qalıyorduq.

Bu məcburiyyətdən mütəəssir olan bəzi bədbinlər "Hanı ya bir kərə yüksələn bayraq, bir daha endiriləməz!" – diyorsunuz – diyordular!

İştə qoy bugünkü gün, milli bayraqlara boyanmış Azərbaycan paytaxtı, o kibi bədbinlərin qəlbini təsfiyə etsin!

Bir sənəlik həyat həqiqətən də göstərdi ki, bir kərə açılmış livai-hürriyyət bir daha bükülməz!

Doğrudur ki, bu gün yüksəltdigimiz istiqlal bayrağını endirməgə, açdığımız livai-hürriyyəti bükməyə çalışan düş-

mənlər var. Bu düşmənlər bu gün hər tərəfdən bizə pusu qurmaqda, bizi təhdid etməkdədirlər.

Fəqət bir tərəfdən millətimizin gündən-günə artan əzmimilliyyəsinə, istiqlal və hürriyyəti yolunda sabit qalacağına, digər tərəfdən də, nə desələr-desinlər, dünya üzərində təsirsiz qalmayacaq, milliyyət fikri-müəzzəminin bilaxirə elani-zəfər edəcəginə inanmaqla, bu tarixi-milliyəmizdə misli namüsəyyür böyük bayramla yekdigərimizi təbrik edəlim də, inanalım ki, bir yaşına çatmış növzadi-istiqlal təhlükəli qranlarını keçirir.

Bir kərə yüksələn livai-istiqlal, bir daha enməz!

**M.Ə.Rəsulzadə**
*"Azərbaycan", 28 may 1919, №190*

Növzad – yeni doğulmuş
Möhtəzir – can verən
Mövhibə – hədiyyə, bəxşiş
Təsfiyə – saflaşdırma
Liva – bayraq
Müsəyyir – hərəkətə gətirilən

## BİR YAŞ

Bu gün, istiqlalını elan etmiş olduğumuz və bu istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanımanlarımızı xərabə qoyduğumuz bir dövlətin, yəni Azərbaycan Türk Dövlətinin bir yaşı tamam olub da ikinci yaşa qədəm qoyduğu gündür.

Novzad dövlətimizin təvəllüdü, ana vətənin bətnindən doğulması – çətinliklə əmələ gəldi. Ana vətən, balasını doğarkən, özünü qurban edəcək dərəcəsinə gəlmişdi... Azərbaycan torpağı bir xarabazara, bir viranəyə dönəcək idi. Onun, o madərimehribanın nazik sinəsi, zərif bədəni üzərində gəzən qaba ayaqlar, həm anasını, həm bətnindəki balasını çəkmələrinin təpikləri altında tapdalamaq, əzmək və xurd-xaş etməklə anasını da, balasını da öldürmək istiyordular.

Lakin bu zəif sinə içində gizlənmiş olan eşq və məhəbbət o dərəcə böyük bir qüvvəti haiz idi ki, zəif cism, qüvvətli ruh sayəsində düşmən zülmü qarşısında tab və taqətdən düşməyib yaşamaq və yaşatmaq iqtidarını qeyb etmədi.

Ana Vətən doğdu...

Və bu gün, doğduğu övladının səneyi-dövriyyəsi münasibətilə bayram qurub və övladını mavi, al və yaşıl rəngli parçalarla bəziyib nümayişkaranə bir surətdə bəyani-iftixar etmədədir.

* * *

Bir yaşlı dövlətimiz, – gələcəkdə – və yaxın gələcəkdə türklügün ümidgahı, islamlığın pənahı və aləmi-mədəniyyətin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda – hər kəsə bildirmədədir.

Azərbaycanın türklügə istiqbal meyvələri yetişdirmək üçün münbit bir topraq təşkil etdigini, Osmanlı türk qardaşlarımız dəxi iqrar və etiraf edib bizə ümid nəzəri ilə baxmadadırlar. Fihəqiqə Azərbaycan idi ki, türk irqində sağlam bir milliyət hissi oyatdı, millət nə olduğunu milliyətini unutmuş türklərə bildirdi: Onlara – sən əvvəl bir türksən dedi və "türkəm" dedirtdi...

Türk qövminin dəxi farslar və ərəblər kimi müşərrəf olduqları dini-mübini-islamın – Allahımız bir, Peyğəmbərimiz bir, Quranımız bir və binaənileyh dinimiz də bir olmalıdır – deyə bu birligə fel və əməl ilə ilk qədəm qoyan Azərbaycan türkləri oldu desəm, əminəm ki, xəta etmərəm. Bu fikrin Azərbaycan türkləri arasında böyük bir surət ilə intişarını və qüvvətlənməsini görənlər sözlərimi təsdiqə məcbur olarlar...

Bizi vəhşi bilənlər və bizdən yalnız qaniçicilik gözləyənlər ilə və bizim vücudumuzu aləmi-mədəniyyət üçün təhlükəliədd edənlər ilə bir balaca təmas lazım imiş ki, bu fikrin və bu nəzərin sırf yalan və yanlış olduğu meydana çıxsın. İngilislər bizim içərimizə girərkən, özlərini vəhşi heyvan qarşısına çıxmış bir ovçu vəziyyətində saxlamaq ehtiyatına heç bir lüzum olmadığını bir-iki gündən sonra kəmali-təəccüb ilə anladılar və həqqimizdə bəsləməkdə olduqları nəzər və təsəvvüratın – bilməməzlik və ya düşmənlər təbliği nəticəsi olaraq xəta və yanlış olduğunu da dərk etdilər. Əminəm bunu da dərk etdilər ki, istibdad altında tərəqqi və təalidən cəbrən məhrum və cəhalətə məhkum edilmiş olan bu millət, azad olduqdan sonra çox çəkməz ki, aləmi-mədəniyyət bazarlarında öz milliyyətləri təqazası ilə əmələ gəlmiş mədəni mətahlarını ənzari-bəşəriyyətə təqdim ilə mədəniyyəti qoca olan millətləri də heyran qoyarlar...

AL rəngi türklügə, YAŞIL rəngi islamlığa və MAVİ rəngi də mədəniyyətə işarə olan bayrağımızın mənayi-mənəviyyəsi də budur.

* * *

Adamlar var ki, bizim istiqlalımızı istəmiyordular, halbuki bizə düşmən degil idilər və bu istəməməzlikləri də düşmənçilik üzündən degil idi, fəqət onlar qorxurdular. Qorxurdular ki, biz hökumət etməgə, məmləkət dolandırmağa, dövlət saxlamağa qabil olmayıb da müxtəlif millətli təbəəmizin can və malını mühafizə edə bilməyək, məmləkətdə asayiş bərpa edə bilməyək, nizam və qaidə qoya bilməyək, siyasiyyatda bacarıqsızlıq göstərib xəlqin istirahətini pozaq...

Lakin növzad dövlətimizin yeni başlamış ömrünün günləri və ayları gəlib keçdikcə, bu fikirdəki adamlar öz fikirlərini dəgişməgə məcbur oldular, bolşeviklər dövründə həsrətini çəkdigimiz çörək və çörəkdən də artıq həsrətində olduğumuz əmin və asayişin yoxluğu və camaəti qoz və fındıq kimi bizar edən qətl və qarətin çoxluğu, o da, bu da dəf edildi. Azərbaycan dövləti çörək ilə bərabər əmin və asayişi də iadə etməklə əhalini həm aclıq, həm də qətlü-qarət bəlalarından xilas qıldı. Cavan dövlətimiz dünyanı bürümüş olan sarı xəstəliklərlə də mədəni və ər bir surətdə mübarizəyə girişib zəfər və müvəffəqiyyət qazandı...

Düşmənlərimizin virdi-zəban etdigi "bəy-xan və şallaq hökuməti" əvəzinə ən demokratik və ən hürriyətpərvər bir dövlət olduğunu bildirdi. Əhalisinə bir bu qədər geniş və genişligi heç bir hökumətdə görünməmiş bunca hürriyyət və azadlıqların vicudi qarşısında düşmənlərimizin gözləri heyrələnib, dilləri lal olacaq idi ki, hiylə və təvzirə əl atıb hökumətimizin bu qədər hürriyyətpərəstligini cəbunluğa və

səhlənkarlığa isnad ilə bizi genə də ləkələndirmək istiyordular. Lakin bu axırki zabastovkanı Azərbaycan istiqlalını məhv etmək və məmləkətimizi anarşı halına salmaq niyyətilə qurulmuş zabastovkanı yatırmaq işində hökumətimizin və millətimizin göstərmiş olduğu əzm və səbat, ustadlıq və məharət, düşmənlərimizin bu ləkəsini də üzərimizdən sildi və bu töhməti də rəf etdi...

* * *

İçərisindən çıxan qırmızı təhlükəni rəf və izaləyə qadir olan bir hökumət və millət, xaricdən sədası gələn qara təhlükəni də dağıtmağa və darmadağın etməgə qadir olmazmı, zənn ediyorsunuz?! Siz onun bir yaşar olduğuna baxmayın, düşmən dəfində təcrübəsiz olduğuna, türklük və islamlığına məxsus fəzilətlərinə baxıb da əmin olunuz ki, bu hokümət və bu millət öz istiqlalını, öz azadlığını və öz təbəəsini şanlı bir surətdə hər bir düşməndən qorumağa qadirdir və bu qüdrətini lazım olduğu halda isbat edər. Bu təntənəli, cəlal və şükuhlu bayramımızı görənlər bunu yəqin bilsin ki, bir yaşar cavan Azərbaycan türk dövlətinin istiqlal mühafizəsindəki şüarı budur ki:

**Ölmək var ki, dönmək yoxdur!**

Bu gün bu əziz bayram günü sidqi-dil ilə

– Yaşasın müstəqil Azərbaycan! – deyənlər, əmin olmalı ki, onu müstəqil yaşatmağa qadir olarlar!

**Hacıbəyli Üzeyir**

***"Azərbaycan", 28 may 1919, №190***

## ŞƏRƏFLİ BAYRAM

Tam bir il əvvəl bütün dünya qan ilə dəmir arasında əl-ayaq çaldığı, dünyanın yarısı hərc-mərc, başsızlıq, pozğunluq girdabında boğulduğu bir zamanda üzərimizə səadət günəşi doğub əsrlərdən bəri dərəbəyi idarəsinin pozğunluğu və istibdad yükünün ağırlığı altında əzilib məhv olmaq dərəcəsinə gəlmiş olan vətən və millətimizi istiqlal nuru ilə işıqlandırdı.

1334 sənəsi mayısın 28-də bütün mövcudiyyətimiz ortaya qonulmuşkən Azərbaycan istiqlalı elan edildi.

Bu keyfiyyət yalnız Azərbaycan, yalnız türk aləmi degil, bütün aləmi-İslam tarixinə şanlı bir səhifə qeyd etdirmiş oldu. Zira tarixi-islamda birinci dəfədir ki, bir millət böylə gözəl demokratik bir üsul-idarə qəbul etmiş olsun:

Xəlq Cümhuriyyəti!

Bir ildir ki, məzlum və məhkum millətimizi müstəqil elan etdik. Həm də bundan böylə millətimizi hüquqi-bəşəriyyəyi təmin və riayətlə bu vəqtədək tarixi-siyasətin doğurmuş olduğu ən demokratik bir üsuli-idarə ilə yaşamaq arzusunda olduğumuzu pişkahi-ənzari bəşəriyyətə nümayiş etdirdik.

Şimdi haman tarixdən tam bir il keçiyor. Odur ki, bu günü bayram sayıyoruz.

Heç kəs inkar etməz ki, siyasət səhnəsində bu gün biz bir məktəbli cocuq kibiyiz, məktəblərdə adətdir il başında çocuqları imtahan edər, keçən il zərfində oxuduqlarından nə öyrəndigini və nasıl oxumuş olduğunu sorurlar.

Bu gün biz dəxi keçmiş olduğumuz bir ilinin müstəqil həyatımızı nəzərdən keçirəlim də. Yuxarı sinfə keçməyə müstəhiq olub-olmayacağımızı təyin edəlim.

İstiqlal elan edərkən millətimiz yarın nə hala düşəcəgini, hankı düşmən tərəfindən yenidən əsarət zəncirinə keçiləcəgini bilmiyordu. Bütün vətənimiz başsız olub məmləkət hərc-mərc, qətl və qarət atəşi içində yanıyordu. Paytaxtımız başda olmaq üzrə vətənimizin qismi-əzimi düşmənlər əlində idi. Müstəqil dövlət həyatı ilə yaşaya biləcəgimizə heç kəs əmin degildi. Bir qiyam olmazsa özümüzü idarə edə bilməyəcəyimizə çoxları inanıyordu. O idi ki, məsələn türklər burdan çəkilərkən hamı vətən və istiqlalımızı əldən getmiş hesab ediyordu...

Bir il keçdi. Paytaxtımızı və məmləkətimizin sair bəzi qismlərini düşməndən təmizlədik. Hərci-mərc və qətlü-qarəti məhvlə asayış və məsaliməti bərpa etdik. Vətənimizi öylə bir hala gətirdik ki, hazırda çox məmləkətlərdən rahat və rifah ilə yaşıyor.

Demokrat bir millətə lazım olan Məclisi-Məbusan ədalət və qanun Kəbəsi olan məhkəmə idarələri və sairə təmin etdik. Hazırda Məclisi-Müəssisan çağırmağa hazırlaşıyoruz.

Deməli, mədəni demokrat bir millətə lazım olan hər işi gördük, görməkdəyiz. Bu vəchlə də imtahanımızı verdik və istiqlala istehqaq (həqq) qazandıq.

Yalnız adətən bayram günlərində bayram etmək imkanından məhrum olanları da unutmamalıdır. Bu gün həpimiz dərinb bir kədərlə etiraf etməliyiz ki, mütəəssifanə bu vəqtədək torpağımızın müxtəlif hissələri (Naxçıvan, Borçalı, Şərur və Lənkəran qəzaları) hələ yabançılar əlindədir. Binaənileyh bu gün bayram saxlarkən ammeyi-milliyəmiz olan Məclisi-Məbusan qarşısında gələnilki bayramda o qardaşlarımızın da bizimlə iştirak etmələrinə imkan verməyi əhd və ricali-dövlətdən bu uğurda ciddi tədbirlər tələb etməliyiz.

**Mübarək olsun İstiqlal bayramı!**

**X.İ (Xəlil İbrahim)**

***"Azərbaycan", 28 may 1919, №190***

## TÜRK ŞÜƏRASI VƏ İSTİQLAL

**Qəza hər feyzini, hər lütfünü bir vəqt üçün saxlar:**
**Fütur etmə, sakın millətdəki zəfü-bətaətdən.**
**Büz ol ali himəm ərbabi-cihadü ictihadız, kim**
**Cahangiranə bir dövlət çıxardıq bir əşirətdən**

*(Namiq Kamal)*

Şüəra və üdəbanın hər əsrdə və hər məkanda mayei-iftixarı, amal və əfkarı yalnız "məhəbbətdən" ibarət olmuşdur. Təqazai-zəmanəyə görə bu məhəbbət gah məhtablı gecələr, layicəli növbahar çiçəklərinə, sənubərlərə, cuyubarlara, gah dilfirib məhbubə və sənəmlərə, gah millətə və insaniyyətə və gah da vətənə həsr olunmuşsa da yenə axır ki, məqsəd bəni-növi-bəşəri bir-birinə alışdırmaq, vətəni, dünyanı sevməkdir. Şüəramızın əsərlərini nəzərdən keçirsək görərik ki, bunların sərməşqi-ittixaz etdikləri məhəbbətin ilk qədəmi eşq və sevdadan başlayıb bir çox istihalələrdən sonra hürriyət mənzilləsinə çatır ki, bunun da axırkı arzusu istiqlaldır:

Böylə ki, şair bu barədə yazır:

*İki şey sevdirir həyatı bana:*
*Biri hürriyət, axırı sevda*
*Edirəm eşq üçün həyati fəda!*
*Feyzi-hürriyətin yolunda fəqət*
*Eşqi-sevdayi eylərəm ifna!*

Lakin eşq və sevdadan bilavasitə hürriyət və istiqlalə irişmək məhal və mümtənidir. Zira eşq ilə hürriyətin arasın-

da öylə böyük-böyük uçurumlar, məmaneələr mövcuddur ki, buralardan millət karvanını təhlükəsiz bir üsul ilə keçirmək üçün hürriyyətpərvər şüəramızdan böyük zəka və məharətlər tələb olunur. İmdi baxalım ki, şüəramız bizi bu uçurumlardan nə kibi vasitələr ilə xilas etmişlər.

Məhəbbətin birinci mənzili eşqdir, dedik. İki müxtəlif gəncin arasında peyda olmuş müaşiqəni ən qədim vəqtlərdən şüəramız "Leyli və Məcnun" kibi böyük dastanlarda yazdıqları hamının məlumu olduğu üçün bunun üstündə artıq dayanmayaraq ancaq burasını qeyd edəlim ki, şüəranın məntiqinə bu qədər əhəmiyyət verməkləri məhz bundan ötrü idi.

İki müxtəlif cinslər arasında sıxı və daimi bir məhəbbət hasil olsun, ərkək ilə qadın sədaqətən əl-ələ verib bəni-növibəşərin rifahı üçün çalışsınlar.

Məhəbbətin ikinci dərəcəsi – həmcinslər arasında, yaxud əfradi-millətin ittihadıdır ki, bunu şair böylə tövsiyə ediyor:

Ümumi müstəfid etməz, xüsusin haqqini ibtal,
Saqın bir fərdi əzmə! Qeyrət əfradi lazımsa.

İttihad yapanların ən böyük vəzifəsi xəlqə, millətə xidmət etməkdən ibarətdir ki, böylələrini qiyamətədək unutmayıb bəlkə adlarına abidələr, nişangahlar da bina edərlər necə ki, şair diyor:

*Usanmaz kəndini insan bilənlər, xəlqə xidmətdən*
*Mürüvvətmənd olan məzalimə əl çəkməz ianətdən*
*Növi-insan həşrədək təzim edərlər adına.*
*Kim fədayi-nəfs edərsə, cinsinin imdadına*

İttihadi-millətin ən böyük dostu ədalət və böyük düşməni də zalimdir ki, bunu şair böylə təsvir ediyor:

*Bargahi-ədli viran eliyənlər adamın*
*Başına zindan edər dünyanı abad etsə də*
*Zalimləri ədlin nə zaman xan edəcəkdir?*
*Məzlumların çıxmaqdadır göylərə ahı!*

Lakin daş ürəkli və müstəbid hökmdarlara məzlumların ah və nalələri təsir etmədiyindən şair onları millətin "Janna Dark", "Qaribaldi" və "Gavələri" xürucu ilə hədəliyor, böylə diyor ki:

*Bir əbdi-həbəş dəhrə olur bəxtilə sultan*
*Zöhhakin edər mülküni bir Gavə pərişan.*

Məhəbbətin üçüncü dərəcəsi hürriyətdir ki, bunu Firovn, Şəddad, Zöhhak və Nikolay kibi müstəbidlərin əlindən qoparmaq üçün əfradi-millətin göstərə biləcəyi böyük bir fədakarlığına vabəstə qalır, onun üçün də şair böylələrinə müraciət edərək diyor:

*Bəni-növin xilas et atəşin qeydi-əsarətdən*
*Cahanda bir də firdovs eləmək icad lazımsa.*

Hürriyətin istehsalı üçün bir çox qanlar tökülür, canlar verilir, zalimlər tələf olur. Axır ki, hürriyət məşəli ətrafa şölə saçır necə ki, şair diyor:

*Xuni-ərbabi-həmiyyət qərq edər zalimləri,*
*Məşəli-əfkari-əhrarənə sönməz xünilə!*

Hürriyyət alınır, millət asudə nəfəs almağa başlar ki, bu vəqtlər kənardan qara güruhun təcavüzü ənvai-işgəncələri,

müstəbid hökmdarların zalimlərindən artıq hətta mart hadisati-əliməsi kibi fəqərələr baş verir, millət çaşır, hürriyətin də hüsuluna peşiman olur. Bunu duymuş şair milləti cürətləndirmək üçün böylə yazır:

*Həqir oldusa, millət şanına nöqsan gəlir sanma*
*Şairin halətini pozur, böylə yazır ki:*
*Musiqilər təranəsaz olsa*
*Sinələr cayi-ehtizaz olsa*
*Guşimə millətin ənini gəlir!*

Təcavüzkarların zərbələri ilə dağılmış "İsmailiyyə" kibi vətən xərabələrinin qarşısında şair məyus olmayır, vətən xərabələrini behiştə oxşadır, hübbi-vətəni böyləcə təsvir ediyor:

*Vətən xərabəsi bəncə behişti-aladır,*
*Xərabələr gəzərəm bən çəmən, çəmən deyərək,*
*Xəlqi-aləm bittəbi hübbi-vətən məcburidir*
*Bin gülüstanə də dəgişməz bum bir viranəyi.*

Milləti vətənə alışdıran şair: zəmanənin icabatına görə məhəbbətin dördüncü dərəcəsinə ki, "istiqlal"dan ibarət olmuş ola, qəsdi-iqamə bağlayıb bunun gələcəkdə təhsilinə ümid bağlayır və bunu böylə təsvir ediyor:

Nə yarıcan etmişsən, ah ey ümidi-istiqlal!
Cahanı sənsin azad eləyən bin yaş möhnətdən.

Şair yalnız ümidə kifayətlənmiyərək fəaliyyət və fədakarlıq ilə istiqlalın təhsilinə çalışır və tövsiyə edir ki, vətənin düşmənlər əlində qalmış hissələrini şühəda qanları bahasına alsınlar.

Odur ki, diyor:

*Vücudin kim xəmirmayəsi xaki-vətəndəndir*
*Nə qəm rahi-vətəndə xak olursa çövrü-möhnətdir*
*Əvət igidlər, əvət siz fədayi-nəfs ediniz!*
*Vətən yolunda fədai-həyat edən ölməz!*

İştə vətənin dilavər balaları toplanaraq binlərcə şəhidlər verir, vətəni düşməndən xilas edir. Axırda istiqlali-tammə nail olur.

Bunlar hamısı məhəbbətin səmərəsidir ki, eşq və sevdadan başlıyaraq istiqlalə qədər varmışdır. Bu məhəbbət "varsın çoxalsın da heç azalmasın!"

**Fərhad Ağazadə**
***"Azərbaycan", 28 may 1919, №190***

## AZƏRBAYCAN İSTİQLALI

Bu gün istiqlalımızın sənəyi-dövriyyəsidir. Keçən sənə 28 mayısda etdigimiz istiqlal elanından bu gün bir sənə keçiyor. O münasibətlə qiymətli Azərbaycanımızın hər tərəfində müəllataq zəfərlərin, möhtəşəm binaların bəzənməsi görüldügü kibi, hər ağızdan degil, minarələrdən də kələmatinin zəfərlər eşidiliyor. Bu şənlik, bu şadlıqlar bizi nə qədər sevindiriyor və o sevinclər içində nə qədər vaqeələr dərxatir etdiriyor. Bu sevinci daimi və daimiyyət əsasını təhkim və bu təhkimatı namusla bina etmək üçün azərbaycanlıların nəzəri-mütaliəsinə bir parça tarixi faciə ərz ediyoruz.

Təbii, bu tarixi faciə parçası keçirdiyimiz "əsarət dövrü" həqqində bir xatirə olaraq və hakimiyyətinə məhkum olduğumuz ünsürün icraatını təşkil edəcəkdir.

Bu gün ortada görülən səthi tarixçələrdə Moskovların ölkəmizə təərrüzü Petronun zamanından görülüyor. Lakin öylə degildir. Ondan daha çox əsrlər irəli rusların həqqi və təbiətilə Azərbaycan adını daşımağa istehqaq kəsb edən paytaxtımız Bakıya gəmilər dolusu ilə gəldikləri görülüyor. Yunan, rum, alan, avarlardan maəda hicrinin 22-ci sənəsindən ikinci xəlifə həzrətlərinin zamani-xilafətindən 230 hicri xəlifeyi-Abbasiyədən "Vaiqibillah"ın əhdi-xilafətinədək Azərbaycanda ərəblər ilə xəzərlərin bilafasilə qanlı müharibələri olmuşdur. 270-də "mötəmədəliallah" qüvvətli və müntəzəm əskər sövqü ilə xəzərləri iskat və ricətə məcbur etdiyi kibi, fövqəladə islahat dəxi vücudə gətirmişdir. Və bir fərman sadir edərək paytaxtımız Bakıda olan neft və duz mədənlərinə müstəhqizlər müqərrər etmiş və sənəlik məadən varidat və is-

tehmalatını tərtib edilən qərar mövcibincə təqsim etmək üçün Məhəmmən bin Öməri təhvildar təyin eləmişdir.

290-da xəzərlər Dərbənd üzərinə şiddətli hücum və təərrüzlərdə bulunmuşlarsa, islami-ittihad və hərbdəki məharətlərindən dolayı müvəffəqiyyət degil, məğlub olaraq geriyə dönmüşlərdir. Ruslar bunların şaşqınlığından istifadə edib etdikləri yağma və qarətin yarısını onlara vermək şərtilə xəzərlərdən dəniz təriqilə bəri keçməyə müsaidə hasil etmişlər. Beş yüz gəmi ilə əlli bin nəfər rus İdil nəhrindən Xəzər dənizinə keçmişlərdir. Fəqət fitri adətləri olaraq müsaidəsinə məzhər olduqları Xəzər xaqanının ehtiram gözləmədən canavarcasına bütün sahillərdəki şəhərlərini, qəsəbələrini qətl və qarət eləmişlər. Müdafiə üçün gəmiləri olmayan və iş-işdən keçdikdən sonra səhvlərini anlayan xəzərlər quru təəssüfdən başqa bir çarə bulamamışlardır.

Xəlifai-Abbasiyədən Müqtədirbillah bir vaqeədən ittilayi-istehsal edib 296-da Əbülqasım Yusif bin Əbülsaci qüvvətli ordu ilə sövq etmiş, mişarileyh dəxi Bakıya gəlib gəmilər tədarük etməyə başlamışdır. Ruslar artıq qətl və qarətdən əl çəkib Nargin cazirəsinə iltica etmişlər. İslam ordusu gəmiləri sonra cəzirəyə ruslar üzərinə hücum etmişlərsə də məğlub olaraq qayıtmışlardır. Bu səbəblə ruslar daha bir müddət orada qalmağa və ətrafı çalıb-çapmağa imkan bulmışlar. Etdikləri fövqəladə qənimətin yarısını Xəzər xaqanına vermişlərdir. O vəqtlar Bakıda Əli bin Heyşəm hakim idi.

Məğlubiyyətə heç də davam edəməyən islam əskərləri bu xüsusda çox düşünüb həddən ziyadə hazırlıqlarda bulunmuşlar. Nəhayət bir tərəfdən bunlar, digər tərəfdən xəzərlər arasındakı müsəlmanlar intiqam saiqəsilə hücum edərək ruslara otuz bin tələfat vermişlərdir (1).

332-də yenə ruslar Kür və dəniz təriqilə Aran paytaxtı Bərdəni zəbt etməyə hərəkət etmişlər. Ora hakimi beş bin ilə müqabilə etmişsə də ruslar kilitli əfradə malik olduqlarından məğlub olmuş və Bərdə rusların pənceyi-istilalarına keçmişdir. Ancaq yerli əhali üçün Bərdədən çıxmağa bir həftə vəqt qoymuşlar. Müəyyən müddət qurtardıqdan sonra yerdə qalanlarını tamamilə qətl və əsir edib, biri igirmi dirhəmə satmışlardır. Bu müharibədə rusların əlinə ərli-qadınlı 19 bin əsir düşmüşdü.

Mərzban denilməklə məşhur olan Azərbaycan valisi Məhəmməd bin Müsafir otuz bin nəfərlə rusları dəf etməyə hərəkət etmiş isə də məğlub olmuşdur. Ruslar orada bir sənədən ziyadə qalmışlardır. Mərzban təkrarən müharibəyə başlamış, fəqət pək də müdəbbiranə başlamışdır. Yollarda pusquda əskər qoymuş, kəndisi bir az qüvvə ilə qarşılarına yürümüş. Rusların hücumu əsnasında qaçmağa üz çevirmişdir. Bu əsnada pusqudakı əskərlər rusları arxadan təpələmiş, sərkərdələrini qətl, cəmiyyətlərini ağır tələfata düçar etmişlərdir.

Mabəqiləri Bərdənin Şəhristan adlı qələsinə sığınmışlarsa da mühasirə təzyiqi altında daha davam edəmədəklərindən gecə olunca mümkün qədər şeylərini alıb gəmilər vasitəsilə qaçmışlardır (2).

Nəhayət, rusların böylə quldurca olan təərrüzləri və qətlqarətləri yekdigərini təvali edə gəlmiş və Petronun, Yekatrinanın, sonra Aleksandrın zamanında ikmal edilmişdir. Onların cahangiranə degil, türk-islam ünsürünü məhv etmək məqsədlərinin icrası yolunda infaz edilən dəhşətli şikəncələrin qanlı faciələri hənuz da təxfif və təhvin edilməmişdir. Öylə şikəncə, öylə faciələr ki, fəciyi-mart qırğını onların yanında sıfıra müsabiyəsində qalıyor. Keçdiyimiz "dövri-əsarət" acı-

lığı dimağımızdan silinməmişdir. Milləti-məhkumə olmaq əziyyəti canımızdan çıxmamaqdadır.

Şimdi məzkur acılıqları hakimiyyəti-milliyyə sahibi olmaq sifəti ilə yaşamaq, yaşamaqda böylə böyük-böyük şənliklər etməklə ödəyəcəyiz. Unudulmasın ki, dünyada yaşamaq hakimiyyəti-milliyyə, hakimiyyəti-milliyətin bəqasi əskər ilədir. Haydı, coşğun həmiyyət, qaynar qeyrətlə çalışalım və yüksək səda ilə söyləyəlim:

**Yaşasın Azərbaycan!**

**Var olsun hakimiyyəti-milliyyə!**

**Paydar olsun əskərlərimiz!**

**Əliabbas Müznib**

***"Azərbaycan", 28 may 1919, №190***

(1) Məsudi

(2) İbn əl-Asir

## BÖYÜK BİR GÜN

Günlər vardır ki, böyük bir həqiqəti elan etmiş, günlər vardır ki, böyük peyğəmbərləri doğurmuş, günlər vardır ki, bütün insaniyyət üçün mövcibi-iftixar olmuş, yenə günlər vardır ki, kiçik bir millət böyümüş, böyük bir milləti oyandırmış, böyük vətənpərvərlərdən böyük millətlər yetişdirmiş və bütün tarixi-miləldir:

Böyük bir gün! Böyük bir mövqe tutmuşdur. "Allah bir gün dünyayı yaratdı" - demişlər. Kainatın sahibi-həqiqisini göstərmişlər, "Adəm bir topraqdan vücuda gəldi" - deyə Mehdi-bəşərin əslini təyin etmişlər. "Nuh bir gün tüfanə tuttuldu" - deyərək təbiət ilə bəşər arasındakı mübarizənin tarixini bulmuşlar, İsa bir gün şagirdlərinə "Sənə sağdan bir tovqaat vururlarsa sol tərəfini çevir!" deməsilə sülh aləminin qapısını açmaq istəmişlər! (Həzrəti-Məhəmməd bir gün möminlərdən "Rical vardır ki, cənabi-həqlə əhd etdikləri şeyə sədaqət göstərirlər" məalində ayət nazil oldu) – deyərək Peyğəmbər zişani-qəhharı bir mübarizi-həqq olaraq tanımışlar. Şərq səmimiyyət fikriyyəsinin əsasını bildirmişlər. Hasili "Bir gün" bütün tarixi-mədəniyyət və bəşərdə bir mövqe tutmuş, bir böyük gün, əzəli bir təkərrür tarixi olaraq bütün millətləri ziyarət etmişdir.

Əvət, "bir gün" hər halda kainatın ümumi həyatı, bəşərin tərəqqi və təkamül meyarı olaraq bir çox hikmətləri, bir çox incə fəlsəfələri havidir. Öylə bir gün yoxdur ki, aləmi-təbiətdə böyük hadisələr çıxmasın, öylə bir gün yoxdur ki, həyati-insaniyyət və miləldə ya məsud və ya mənhus bir təzahür zühura gəlməsin. Bir gün, Fransua Ferdinand Bosniya-Herseqdə

öldürüldüyü bir gün Avropa müharibəsi çıxdı. Bu gün Rusiya ixtilal etdi, bu gün Lehistan, Ukrayna, Litva, Finlandiya, Sibirya, Qafqasiya ayrıldı, bir gün türklərin günü açıldı bir gündə:

Azərbaycan elani-istiqlal etdi! Günlər başqa aləmlər üçün də getmişdir. Mənhus günlər keçirən bu gün məsud günlərə nail olmuşdur. Hər millətin böylə günləri vardır. Fəqət bəncə həpsindən qiymətli olan günlər kiçik millətlərin məsərrət və məhzun günləridir.

Çünki kiçik millətlərin hüznləri də səmimidir, məsərrətləri də! Orada siz cahanşümul bir feyz, aləmi haiz bir fövz görüyorsunuz. İştə o feyz və fövzlərdən biri şübhəsiz bizim üçün ən müstəsnası Azərbaycanın məsərratı:

**Böyük bir gündür!**

**28 Mayıs günü!**

**Ə.Həmdi**

*"Azərbaycan", 28 may 1919, №190*

## GƏNC NƏSLƏ

Azərbaycan gənci! Bu gün sənin gənc Cümhuriyyətin bir yaşını bitiriyor. Kim bilir tarixi-ilahinin tovfiqilə kaç, bəlkə yüzlər, minlərcə sənələr sən bugünki gündə bayrağını götürüb səmimi bir sevinc, həqli bir vüqar ilə istiqlal aldığın bu günü xatırlayacaqsan....

Gəl yoldaş! Bu ilk bayram sonra gələcək məsud bayramlara bənzəməz, bu bayram sənə sevincdən ziyadə vəzifə gətiriyor. Gəl bu ağır tarix imtahanlarını ver, qazandığın həqqə səzavər olduğunu isbat et. Baxalım, bir vətəndaş adlanmaya layiqmisin. Bu gün dövlətlər arasında bir mövqe tuta bilmək, beynəlmiləl ailənin bir fərdi olmaq üçün bəşəriyyət səndən nə istiyor biliyormusan? Səndən milliyətini tanımaq, xüsusi bir mədəniyyət və tərəqqi uğrunda bir əzm, bir səbat istiyor. Tarixi bir rol oynamaq, cahan xəritəsində bir yer tutmaq istədiyin üçün həm Şərq, həm Qərb qarşısında məsulsan. Qərb o təcrübəli gözlərini sənə dikərək:

"Baxalım ölü, çürümüş Şərqin bu təcəddüd imtahanı nə səmərə verəcək?" – diyor. Şərq isə əsrlərdən bəri əsarətə məhkum olmuş qollarını yuxarı qaldırmış bu gənc oğlanın nə yapacağını böyük ümid və həsrətlə bəkliyor. Sənin əzmin birincilərin şübhələrini zail etməli, ikincilərin ümidlərini qüvvətləndirməlidir. Aləmləri şaşırdacaq bir mətanətlə araya atılıb damarlarında tökülən qanı və əsəblərində oynayan zəkayı bişkahi-bəşəriyyətə atmalısın. Görsünlər də, bilsinlər ki, bu torpağı altında təbii atəşi yanan ölkənin gənclərinin sinəsi altında da bir həqiqət, mədəniyyət atəşi yanıyor. Azərbaycan gənci, iftixar et qardaş! Oğuz xan nəsli arasında

birinci olaraq ən mədəni üsuli-idarəyə, cümhuriyyət üsuluna nail olan yenə sənsin!

Vəqtilə Napaleon Misirdə ikən dönüklük xəyalında olan əskərlərinin qarşısına çıxaraq ehramları göstərmiş və "Əskərlər! Bu ehramların üstündən qırx əsr sizə şəhadət ediyor" –demiş, bu ufacıq cümlə ilə yenidən bir ordunu ruhlandırıb səfərdə davam etdirmişdir. Əvət qardaşlar, bu gün də Qafqasiya dağlarının almaz şahiqələri üstündən bütün millətlər, bütün cahan mədəniyyətinin hər gənci seyr ediyor. Çalışır ki, o tənqidçi nəzərlər önündə üzün ağ, alnın açıq olsun. Yarınki səadət, yaxud fəlakət hər ikisi sənin əlindədir. Sən istərsən vətənini bir məhdi-mədəniyyət, bir kəbeyi-səadət edə bilərsin. İstərsin onu bayquşlar məskəni, dirilər mədfəni də yapa bilərsin. Deməli, gələcək nəsillərin də taleinin yaradıcısı sənsin. Səy et ki, onlar da səni nifrət və həqarətlə degil, təqdis və hörmətlə yad etsinlər. Unutma ki, bu gün yarına bənzəməz. Bu günün hökmü başqa, yarının hökmü başqadır. Bu gün yalnız qılıncının zoru ilə kəndisinə həqqi-həyat qazanan bəşəriyyət, yarın tamamilə mənəviyyatına istinad edəcək, diyorlar. Onun üçün şimdi cümhuriyyətin müdafiəsi üçün köksüni onun hüduduna sipər etməlisənsə, yarın da yaşamaq həqqı qazanmaq üçün ruhunu yüksəltməli, əqlini qüvvətləndirməlisin. Bax, böyük türk şairi nə diyor:

.....Ey yarının
İnqilab ordusunda çarpışacaq
Qəhrəman! Ögrən – iştə: qüvvət-həqq
.......................................................
Bəklərəm bir zəfər əsasən sən
Qılıncdan ziyadə qəlbindən! (T.F)

Azərbaycan gənci! Gəl yoldaş, bu məhsullu əkinlər, sərin sulu yaylaqlar, həşəmətli ormanlar, qarlı dağlar, meyvəli bağlar, baxçalar, qara altun verən zəngin mədənlər həpsi sənindir, sənin vətənindir. Min illərcə bəşəriyyətin nisfinin kəbəsi, beytülmüqəddəs sanılan Bakı atəşgədələrindən, hənuz keçirdiyi tarixi vəlovləli günləri unutmamış, Gəncə həvalisindən Qarabağın (ah gözəl ölkə) o yaşıl bağlı Qarabağın musiqi, nəğmə yurdu olan köylərindən, Zəngəzurun qartal yuvaları ilə dolu qayalarından, Hülaki bəyin məqbərini ağuşuna çəkmiş Cəbrail tərəf, Aras yakasından şairlər, ədiblər vətəni olan Şirvandan.... həpsindən, bunlardan ibarət bir məmləkət var ki, orası sənin vətənindir. Hər sübh günəşin tülui tarlasında çocuq qədər şən və səmimi qarşılayan zəhmətkeş çiftçi, qarşısına qatdığı qoyun sürülərini kəndi lisanınca oxşayan uşaq, ya arandan yaylağa, yaylaqdan arana köçürən, əlindəki zopaya təkyə edərək dağların qarlı qələlərinə, ormanların dəhşətli qəmərinə baxaraq köksündən, mənidar, sadə və səmimi bayatılar fırlatan çoban, mədənlərdə ömrünü çürüdərək neft, yağ içərisində çalışan fəhlə, həpsi, həpsi bunlar eyni vətənin həyatı uğrunda çalışan insanlardır.

Gəl vətəndaş! Bu gün sənin birinci intibahının timsalı olan "İsmailiyyə"nin xarabəsi qarşısına çıxmalı, əlini qəlbinin üstünə qoyaraq gözlərini parlaman binası üzərində ruzigarlarla qəhrəmancasına çarpışan bayrağına dikməli, bir daha onun enməyəcəyinə əhd etməlisən və and içməlisən ki, bu gün qazandığın istiqlalə təcavüzanə əl uzadanlar ancaq sənin cəsədinin üstündən keçə bilərlər.

**Əli Yusif**

***"Azərbaycan", 28 may 1919, №190***

## YANAR DAĞ...

*Ke-yeki həst hiç nist cöz-u*
*Vəhdə hu lə-iləhə-illə huva**

**Hatif**

O, ömründə bir çox patıltılar, gurultular keçirərək qüvveyi-heykəliyyətini daima nərə kəşan olduğu bir surətdə, içərisində olan odlu daşları havaya sovurmuş və bir vəqt ətrafını qara çamurlar ilə əhatə edərək yaşıl sünbülləri, o mayei-həyati-bəşəriyyəyi kəndi qara qabından çıxarmış olduğu hisli, paslı zəhəralud nəfəsi ilə müləvvəs etmişdi. Bir zaman dəxi böyük bir nərə ilə ətrafı məhabətli və olduqca dəhşətli bir gurultuya qərq edib, içərisindən havaya qalxan odlu, hərarətli şölələr və şərarələri ilə yaxındakıları işıqlandırıyor, ətrafını isə qara topraqlara basdıraraq baharın ilk nəsimi ilə açılmış çəmənləri, o məhcub qönçələri matəm libasına geyindiriyordu. Uzaqdakılar həmişə onun zəhərli şəfəqlərindən və şöləvər olan işıqlarından məhrum olmaqla bərabər onu bir fəcri-kazib hiss edərək pöhrəvər olmaq istəməzlər idi.

Zatən kəndisinin cəbəliyyətini və təbiətini bildiklərindən əsla etina etməz və heybətindən uzaqda olduqlarını dərklə, cüzi də olsa xof etməyib xətərəyə düşməzlərdi. Yaxındakılar isə get-gedə işıqların içərisindən çıxan bədheybət sövtləri eşidərək kəndisini təbii bir həyəcan içində hiss etməklə qəlbini dağdar ediyor və dillərində böyük bir kəlməyi virdlə diyorlardı ki: bu gün bu bəla bir çox xanimanları bərbad edib

külünü göyə sovururdusa da, lakin o ədalət və haqq tərəfdarı olan pərvərdigar bizi öz mərhəmətindən məhrum etməz və:

"Allah bir yandan bağlarsa, o biri yandan açar".

* * *

Bir çox zamanlar keçdi. O zat kəndi hərarətini, qızğın hissiyatını və cəhənnəmnəmun nərələrini qeyb etdi. Hərarətindən qalan artıq zəif bir cəsəd kibi düşgün bir halda idi. Söndü, məhv oldu. Onun heybəti, o qəvi heykəl bədəni bir dağ kibi yıxılmışdı. Ətrafındakılar ondan hala qorxuyordular. Yaxına gəlməkdən həzər ediyor isə də, bir daha onun hərəkət eyləyəcəyinə inanaraq cəsarət və qeyrətə gəliyorlar idi.

* * *

Düşmən neçə gün əvvəl Yanar Dağda olan cüzi bir başıpozuq dəstəsini qovub onu işğal etmiş və orasını böyük bir xəndəklər ilə mühafizə edərək möhkəm bir hala salmışdı. Yanar Dağın düşmən tərəfindən işğalı dost qoşunları komandanı ...... bəyi düşündürüyor idi. Zira onun hərb nöqteyinəzərindən böyük əhəmiyyəti var idi.

Yayın isti və şiddətli dərəcə hərarətli bir günündə cəbhəyə yeni varid olan komandan:

– Bu gün nasıl olursa-olsun şu təpələr və xüsusən Yanar Dağ işğal edilməlidirlər. Bu təpə təsərrüfümüzdə olmadıqca kəndimizi daima xətərə qarşısında hiss edəcəyiz – dedi. Haman iki saatdən sonra haman təpələrə hücum əmri sadir oldu. Ətrafda insanın bütün mövcudiyyətini belə sarsıdan bir müharibə başlandı. Topların gurultusu metraliozların taqqıltısı, mauzerdən, vintovkalardan bilavasitə açılan güllələrin şaqqıltısı get-gedə cəbhəyi böyük bir meydani-hərbə təbdil etdi. Qumbaraların havaya sovurduğu toz-topraqdan

meydani-hərb görünməyib, gurultular haman neçə illər bundan əqdəm dağın təbii gurultularını andırıyor idi. Orada insanlar cəhənnəm misalı ataş və Yanar Dağın odlu qurşuni fəvvarəsi içərisində kəndisini mülki-əlmövt çəngalində hiss ediyorlar idi. Ölüm saçan makinələrdən buraxılan qurşunlar dağın içərisindən çıxmış olan yalançı altuna, qurşuna qarışıyor idi. Xəndək müharibəsi bir qədər davam etdikdə düşmən kəndi mövqeyini möhkəmləşdirib rəşadətli inad göstərdigindən süvari dəstə kəndi komandası altında atlarına mahmız göstərərək üryan qılınclar əllərində olduğu halda dağa, düşmən səngərlərinə doğru hücumavər oldular. Və komandan həzrətləri müxtəsər bir nitq ilə süvarilərə müraciətən:

– Oğlanlarım! Allahu Əkbər....! – dedi. Süvarilər bu böyük kəlməyi komandanın ağzından alaraq müttəfiqən onu təkrar ilə ucadan – "Allahu Əkbər" nərəsilə kainatı hərəkətə gətirdilər. Cüzi bir çarpışmadan sonra suvarilərdən bir çoxu dağın kəlləsində qərar tutub qırmızı bayrağı oraya nəsb etdilər və bununla isbat etdilər:

*"Ke yeki həst hiç nist cöz-u*
*Vəhdə hu ləiləhə-illə huva"**.

**Piri**

***"Azərbaycan", 28 may 1919, №190***

* Yalnız biri var, ondan başqa heç bir ilahi yoxdur (red.)

## TƏŞKİLATIN QADINLARA TƏSİRİ

Məmləkətimizdə dəxi qadınlıq oyanmağa başladı. Nə böyük xoşbəxtlik! Bu gün Azərbaycanda olan müsəlman türk qadınları həqqi-həyatını, həqqi-ictimaisini düşünüyor: nə məsudiyyət!...

Qadınlığın oyanması ictimaiyyatı, siyasiyyatı başqa rəngi-mədəniyyətə təhəvvül edəcəkdir.

İnsaniyyəti yüksəldəcək, adəmiyyəti məsud edəcək ancaq qadınlıqdır.

Qadın, ərkək bir-birindən ayrı həyat keçirəmədiyi kibi, bərabər yaşamağa təbiiyyətən məcburdur. Ərkəkin qadından ayrı yaşaması, ayrı hüquq mühafizə etməsi nə əqlə sığar, nə məntiqə.

Ərkək-qadın bir-birinin tamamı, yardımcısıdır. Əgər böylə olmazsa insaniyyət kamalını, adəmiyyət mövqeyini bulmamış olur.

Nə qədər ərkəklər hüquq dərəcəsində qadınlardan ülvi olursa-olsunlar, əgər qadınlar hər hüquqdan məhrum qalıyorlarsa o millət heç bir vəqt yüksələməz və bizim şimdiki halımız kimi qalıyor. Əgər ərkəklər kibi qadınların da hüquqları hüquqi-ümumiyyə arasında qəbul edilmiş olduğunu görərsək o dəqiqədən etibarən bəşəriyyətin məsud olacağına inana biləriz. Bu gün bizi yaşadacaq, əvvəlkindən daha iyi yaşadacaq ancaq Azərbaycan və Azərbaycan hökuməti olacaqdır. Gələcək ümidimiz Azərbaycanı fəal müdafiə edənlərədir. Əgər onlar əzm və niyyətlərində müstəqim olursalar, biz də millətimiz, insaniyyətimiz, varlığımızda öyləcə müstəqim və mətin oluruz. Əgər müdafiəçilərimizi, qəhrəmanlarımızı

yetişdirən, şimdi də kəmali-iftixarla əskərliyə göndərən analarımız oğullarını baş qaçırtmadan, göz yaşı tökmədən sevə-sevə, dua edə-edə əskərliyə göndərsələr, öylə övladlar da layiqi ilə millətin qəhrəmanı, hökumətin müdafiəçisi olur.

Burada bir əhvalat xatirimə gəldi. Keçən gün məmuriyyətimdən çıxıb da evimə tərəf dalğın-dalğın gəliyordum. Yol əsnasında bir dəstə müsəlman xanımlarıyla birləşdik. Əvvəlcə bən bunlara əhəmiyyət vermədimsə də onların pək ciddi olan söhbətləri məni dalğınlığımdan ayıltdı.

Daha iyi qulaq verməyə başladım. Hal və tövründən təxminən 15 yaşında olan birisi diyordi:

– Nənə, öylə niyə diyorsan! Hər vəqt sən sözə uyar və fikrindən tez dönursən. Keçən gün qardaşıma sən kəndin demiyormudun ki, get bala, get Allah səni mühafizə etsin.

Bir qeyrisi:

– Nənəm o vəqt razı idi, amma Gövhər xalaqızıgil bizə gəlib əskərlikdən danışandan bəri nənəmin də rəyi döndü, daha dadaşımı göndərmək istəmiyor.

Bir qeyrisi:

– İnsan da öylə tez fikrindən dönərmi? Bu bir mal bazarlığı degil ki, bunu istəməm, bunu istərəm deyəsən, bu bir vəzifədir. Allah borcu kibi bir şeydir.

Bir kaçı birdən:

– Əstəğfirüllah elə! Əstəğfirüllah elə! Kafir oldun. Əskərliyə getmək Allah borcu kibi niyə olsun, istərəm göndərmərəm, istərəm göndərərəm. Həm də öylə biqeyrət ana olurmu ki, oğlunu öz rəyi ilə əskərliyə göndərsin. Bu da sözmüdür oğul bəslə, oğul yetişdir də, sonra de ki, ala, gəl oğlumu qoşuna apar, güllə qabağına apar. Buy, Allah amandır, böylə şeyi kim görmüş, kim eşitmişdir...

Bununla böylə diyor ki, Allah borcu kibi şeydir. Bən böylə şeyə razı olmam da, sən nə vəqt ki böylə bir övlad yetişdirərsən onu göndər. İmdi sənin nəsihətin bənə lazım degil, balam.

– Ay nənə! Axı sən bica söz danışırsan. Sənin ərin bələdiyyə idarəsinin üzvü olsun, bir oğlun yun məmuru olsun, bir oğlun hər kəsdən artıq var qüvvəsilə millətin irəli getməsi üçün çalışsın, özün də bir külfət içində qanacaqlı hesab olunasan da böylə danışasan, onda o biri avam qadınlardan nə gözləməliyiz. Onda gərək onların heç biri övladlarını əskərliyə göndərməsinlər.

Sən övladını sevib istəyən kibi, onlar da övladlarını sevib istiyorlar.

Düşün... Övladlarını əskərliyə göndərən anaların heç biri övladını küçədə tapmamışdır. Onlar da övladlarını min məşəqqətlə meydana gətirmişlərdi. Nə üçün onlar millətlərinin irəli getməsinə, hökumətlərinin möhkəmləşməsinə övladlarını...

Söz buraya gəldikdə məəttəəssüf bən də evimə çatmış bulundum və xanımların fikrinin nəticələrini eşidəmmədim.

Çox kiçik vəqtlərimizdə rəhmətlik nənəm bizi başına toplayıb pək sevdiyi və heç söyləməkdən doymadığı, keçirmiş olduğu müharibə təəssüratından bizə danışardı.

Nənəm öylə eşq və həvəslə söylərdi ki, çocuqlardan başqa böyüklər də oturub nənəmin hekayəsini dinlərlərdi.

İştə nənəmin söylədiklərindən bir annənin şəhid oğluna söylədikləri xatirimə gəldi.

Annəsi oğlunun şəhid olduğunu eşitdikdə demiş:

– Bütün mövcudiyyətimi, qadınlığımı bildirən, həyatımın boşluqlarını dolduran, bütün ələmlərimi, iztirablarımı zövqlərə, sürurlara təhəvvül eləyən səndin yavrum, şəhid balam.

Mövcudiyyətin bənim üçün bir cahan, bir səltənət idi. Həyatımda bütün arzularım, yüksək amallarım həp səndin, şəhid oğlum.

Bax, validən şimdi sənsiz, qərib qaldı, qəlbimə unudulmaz yaralar açdın, gözəl yavrum.

Sən bənim mədari-şanım, şöleyi-şücaətim, fanusi-nurum idin. Şimdi səmalara süud etdin, mələklərə qovuşdun, bənim sevgili vəzifəşünas oğlum, vətən aşiqi mərd yavrum.

Ah biçarə annəni kimsəsiz, nəşəsiz buraxdın, qəlbimə oxlar saçdın, hicranlar çizdin, heç silinməz izlər buraxdın, bənim şəhid yavrum. Bir daha səni görmiyəcəyəm. Sənin yerinə uğrunda canını fəda etdiyin vətənini görəcəyəm, sevəcəyəm – demişdi.

Biz hekayə təriqilə eşitdiyimiz bu mübarək arzulara, bu müqəddəs işlərə həmd olsun ki, yetişdik. Hökumətimizin təşkilatını, əskərlərimizin nizam-intizamını görüyoruz. Artıq bundan böyük hankı arzu ola bilir. Nə məsudiyyət, nə böyük xoşbəxtlik!

İştə bu gün Azərbaycan istiqlalının bir sənəsi oldu. Ərkəklərimiz kəndi hissələrinə düşən vəzifələrini fədakaranə surətdə ifa etməkdədirlər. Saat kibi düzgün, vəqti-vəqtində, həm də eyni surətlə kəndi öhdələrinə mühəvvəl olunan işlərə çalışıyorlar. Həmd olsun, səy və qeyrətləri həvayı getmədi. İştə bu gün səylərinin səmərəsi meydanda.

Alqışlanmağa layiq olan bu çalışqan milləti alqışlar və yorulmaqsızın işlərini əncamə yetirməklərini arzu edər və müvəffəqiyyətlər dilərəm. Fəqət...

Fəqət Azərbaycanın möhtərəmə xanım əfəndilərinə gəlincə, baxalım onlar təşkilatımızı nə ilə qarşıladılar. Ərkəklərimizə təsəlli olacaq nə kibi işlərdə bulundular. Yoxsa hər bir əmrdə erkəklərimiz cavabdehində olduğu kibi qadınların vəzifəsidəmi ərkəklərimizin əmr və nəhyinə mühəvvəl olundu.

Yox...yox... bunu xəyala gətirəmiyorlar. Əgər öylə olarsa zavallı ərkəklərimiz böylə böyük bir vəzifəyi, təhəmmül olun-

maz bir işi öhdələrinə alıb da iki vəzifə ilə müvəzzəf olsalar mühitimizdə yaşayan iki qollu, iki qanadlı işləyən millətlərə vəqtində ulaşa bilərmi?

Onsuz da biz onlardan milyon məsafələrdə geri qalmışız və qaldığımızı da gözlərimizlə görə-görə yenə guya ki, o millətin yarısını təşkil edənlər biz qadınlar degiliz kibi hər bir işimizə yabancı nəzər ilə baxıyoruz. Mazidə olduğu kibi hal-hazırda da ancaq ailə daxilindəki işlərimizdə kübaranə dolanıb da ictimai-siyasi işlərə qarışmayı kəndimizə zəhmət bilib rahatlığımızı pozmaq istəmiyoruz.

İyirminci əsrdə, keşməkeşli mühitdə pərvəriş edən qadınlarımız zəmanəmizin, ələlxüsus hal-hazır vüqüatlarının həpsindən xəbərdardırlar. Həpsinin ərkəkləri Azərbaycan hökumətinin birər möhtərəm üzvləridir. Necə ola biliyor ki, möhtərəm üzvlərin möhtərəm ailələri böylə səssiz, sümm, bekam yaşasınlar da ictimaiyyat və siyasətdəki hissələrini ərkəklərimizin öhdəsinə tapşırsınlar. Şimdiyə qədər bütün günahlarımızı, qüsurlarımızı zalım istibadadın boynuna yükləməklə kəndimizi bir növ kəndi aramızda təmizləyə biliyorduq. Fəqət yenə də qadınların günahkarlıqları, töhmətlərini qulaqlarımızla eşidiyorduq. Hürriyət verildi. İstibdadın zənciri qırıldı, Azərbaycan hökuməti təşkil olundu. Şimdi daha deyəcək bir sözümüz qaldımı?!..

Bəli qaldı!...O şimdiki halda qadınlar arasında ən lazımlı, ən tərəqqi etmiş söhbətlər, yay zamanını hankı səviyyələrdə keçirmək, hankı yerdə daha səfalı ömür sürmək və nərədə təbiətin daha gözəlliyini görmək, sərinliklərində vəqt keçirməkdə söhbətləridir. Əlbəttə o da lazım, fəqət bunlar 2-3-cü dərəcədə olanlardır. Şimdilik çalışqan millətlərin qadınlarını lütfən bir nəzərdən keçirəlim, tarixlərini oxuyalım. Nələr yapmışlar, nələr yapıyorlar və daha nələr yapacaqlardır. Heç

olmazsa kəndimizi bir az da olsa onlara bənzədəlim. Onların iyi əməllərini qəbul, fəna əməllərini atmaqla milli adat, milli ənənat, milli əsas daxilində kəndi qeydimizə qalalım.

Bugünki halda avam qadınlarımızın günahı bilib də soyuqqanlılıqla keçirən qanacaqlı xanımlarımızın boynunda qalıyor. Artıq himmət, qeyrət meydanıdır. Çalışan qazanır. Biz də çalışalım da, hər hüququmuza nail olalım.

**Şəfiqə Əfəndizadə**
***"Azərbaycan", 28 may 1919, №190***

Bica – boş, mənasız
Sürur – sevinc, şadlıq
Mədar – səbəb; təməl
Fanus – fənər; mayak
Süud – yuxarıya qalxma
Nəhy – qadağan etmə
Müvəzzəf – vəzifəli
Pərvəriş – bəsləmə
Sümm – karlar

## MİLLİ BAYRAM MÜNASİBƏTİLƏ

Ox! Şu köhnə dünyada nələr olmadı. Həyati-bəşərin uzaq səhifələri degil, şu yaxın zamanlarda axıb gələn bəşəriyyət səhnəsində vəxamətli rolları təxəyyül etdikdə nəzərində təcəssüm etdi. Dedim a, uzağları degil yaxın maziyi-Nikolay dövrünü seyr ediyoram. Nəzərimi şu səhneyi-aləmin bir yanında istər-istəməz siyasiyyat səhnəsinə çəkilən biz azəri türklərinin halına baxıyoram.

Ah nələr vaqe oluyor. Hökumət məmurlarının politikası sayəsində cavanlarımız bir-birinin qatili oluyor. İştə nahaq qanlar, qəlbi dağidar analar, ya bacılar, gözü yaşlı məsum cocuqlar. Həbslər, mənfalər, ziyalılarımız istibdad yumruğu sayəsində ağızları taqqadılmış, millətimizin avam qismi başına nə gəldiyindən bixəbər, əcnəbipərəstlər iltifatlara nail, vətənpərəstlərə həbslər, mənfalar təqdim olunur. Məktəblərimizin ancaq adı "milli", fəqət ruhən başqalaşmış politikası çarxı ilə fırlanıyor. İslam qanlı, türk ruhlu bir millət də həməsrlərini görüb də tərəqqi və təali etmək həqqına, yoluna düşməyi qəsd və idarə etməzmi?

İştə şu fikrin, şu niyyətin doğmasına bir gün olsa da imkan verməK qəsdi-iblisanəsilə özümüz diplomatlar vasitəsilə biçarə millətimizin milli fəaliyyətini ictimai idarə istemdadını, fitri qüvvət və təvanını axəri həyacistan məcralara çevirməklə başımıza fəlakətlər yaxdı. Pək çox proqramlarımız əqim qaldı.

İştə bu qədər fəlakətləri, müsibətləri yedik, türk ruhu bunlara səbr elədi. Ümumislam aləminə baxdıqda biri-digərindən müdhiş, ürəkyandırıcı mənzərələr, əmri vaqeələr, iştə şu halları görən, sızıldayan islam övladı birdən-birə bilaixtiyar

"İlahi, bu gedişlə islam dünyasında nələr daha vaqe bulacaq? İslamı şu bəlalardan kim qurtaracaq. Dəstə-dəstə islamiyanı ayırıb nərələrə aparıyorlar??

İştə hər bir islam övladının ruhunu böylə suallar qarışdırıyor. Böylə acı, uzun sənələr milli ənənatımızı, bütün ruhumuzu əzib keçdilər.

Hürriyət dövrü yetişdi. Cümlə millətlər milli işlərini yoluna qoymağa, məsud olmağa qiyam etdilər. Bir az keçmədən bu dövrün nəticəsi: başımızın üstündə qara buludlar peyda oldu. Ox! Bu dövrdə heça-heç bir bəhanəsərd ilə yenə biz alqanlara boyandıq. Hansı vəhşətlər qaldı ki, islam, xüsusən türklüyə düşmən bir ruhda tərbiyə edilmiş daş ürəkli daşnaqlar icra etmədilər. Əvət, biz böylə xunalud həyat səhifələrini görüb dadar. Millətimiz təhrir və təsviri bir dürlü qabil olmuyan bir neçə həqsizligi, sitəmi görən biz azəri türkləri ancaq Allahın tovfiqi sayəsində və millətimizin həmiyyəti və zuribazusilə bu gün naili-məram olub istiqlaliyyəti-vətənə, o sevgili məhbubəyi dərağuş ediyoruz.

Bu öylə bir nemətdir ki, millətlər böylə neməti-əziməyə nail olmaq üçün nələr fəda etməmişlər. Ah biz də bu yolda pək çox qanlar qurban elədik, digəl mart faciəsi biz azəri türkləri Nikolay dövründə həm Petroqrad ministrlərinin və bir çox rus bayquşlarının ulaması ilə, daha doğrusu istiqlaliyyət fikri, hətta ürəklərimizdə xətvər etməmək naminə pünhan qan nəhrləri Azərbaycan torpağını boyamışdı. Nikolay dövründə biz milli səadət naminə nə yapsaydıq axırda murad etdiyimiz heçaheç nəticələr qarşısında idik. İştə istiqlaliyyətsiz tərəqqi və təali etmək olmaz! Tərəqqi etmənin vəqtı iştə bugündür. Səadət qapılarının cümləsi üzümüzə açıqdır. Bu gün ixtira alətlərinə məşhur millətlər həp istiqlaliyyət sayəsində böyük alimlər yetişdirib əqlləri heyrətə salan makinələr icad etmişlər.

Yaponlar həp istiqlaliyyət sayəsində bugünki dərəcəyi-tərəqqi və təkamülə çatdılar. Halbuki türk övladı bunlardan və bir çox millətlərdən daha müstəhid və daha qabildir. Bu gün Fərabilər, Ömər Xəyyamlar, Sədilər, İbn Rüşdülər və bu zümrə hükəma və azim yetişdirən islam aləmi istibdad səbəbinə öylə böyük ruhların nəşvü-nümasına müsadif degil idi. Minlərcə şükür bu gün istiqlaliyyət elami ələlümum islam, ələlxüsus türk övladı və biz Azərbaycan türklərinin xilqətində mərkuz olunan möhibə ileyhi olan o ali xislətlər, o mənəvi qüdrət və təvan, o istedadı-xariqüladə kamaliylə nəşvü-nüma bulub vətənə ən böyük insanlar yetişdirib dünyada səadət nə olduğunu biləcəyiz!

Ey sabiq dövrün məzlumları, məqdurları!

İştə ey islam baxçasının vəqtsız solan al gülləri, mart məzlumları! Məzarlarınızdan qalxınız, o yaralı bədən, o qanlı gözləriniz ilə göylərdə təməvvüc edən istiqlaliyyətimizi elan edən şu sevimli bayrağa nəzər ediniz! Nəzər ediniz də istiqlaliyyətimizin paydar olması üçün cənabi-həqq dərgahında dualar ediniz!

Ey sevgili məhbub, sən bizim dərdimizin dərmanı, ruhumuzun qidası – sən yaşa! Minlərcə yaşa! Yaşasın azad Azərbaycan!

**Ağababa Ağababazadə**
***"Azərbaycan", 28 may 1919, №190***

Müsadif – təsadüf edən, rast gələn

## MİLLİ BAYRAMIMIZ MÜNASİBƏTİLƏ

Təbiidir ki, hər bir şəxs yaxşı və bəxtiyar gün keçirtdigi kibi, pis və fəna gün dəxi keçirtmişdir. İştə məzkur şəxsin ən gözəl və yaxşı keçirtdigi günündə şu pis gününü yad edərək yaxşı və bəxtiyar gününü daha ziyadə yüksək və möhtərəm tutaraq o gündə şad və xürrəm oluyor. Biləks xoş günündə şadlandığı kibi pis günündə dəxi şad gününü yad edib o günü arzu edərək daha ziyadə qəmgin olar! Binaənileyh biz dəxi keçən sənə mayıs ayının 28-ndə bütün Qafqaziya cümhuriyyətlərilə bərabər elani-istiqlal edən Azərbaycan Cumhuriyyətinin sənəyi-dövriyyəsi münasibətilə bu günü ən şərafətli və möhtərəm günlərdən ədd edərək həpimiz şu günü milli bir bayram ediriz. Əvət bu gün cavan Cümhuriyyətimiz qarşısında durub keçən zəlalətli günlərimizi, ələlxüsus heç unudulmayan mart hadiseyi-əliməsini xatırlayaraq bu günün nə dərəcə əziz və möhtərəm olduğunu müşahidə edərək kəndimizi qayət dərəcə şad və xürrəm görüyoruz. İştə bu gün hər kəsin yüzündə milli bir ruh və milli bir səadət parlayır. Sanki bunların qəlbinə bu gün yeni bir ruh daxil olaraq onları bu gün hürr və azad yaşamağa dəvət ediyor. Nəhayət, bu gün hər kəs ürəyindəki mübarək arzusunun nəticə verməsini görüb və kəndisini yeni bir əfkar və həyat içində müşahidə edərək qayət bəşşaş çöhrəsilə gözəl xalılara və al bayraqlar ilə təzyin edilmiş sokaklara və evlərə diqqətlə tamaşa edərək sanki bu gün cahana yeni qədəm qoymuşdur – deyə kəndisini nəhayət dərəcə məsrur və bəxtiyar ədd ediyor. İştə bu gün Azərbaycanın paytaxtı al bayraqlar ilə təzyin edilərək çıraqban olunmuşdur. Nəhayət, o müqəddəs Məclisi- Məbusanımız

üzərində təməvvüc edən al bayraq və bayran münasibətilə böyük xətlər ilə orada yazılan "Yaşasın istiqlal!" kəlməsi insanın nəzər-diqqətini kəndisinə cəlb edərək bizi ittihadi-ittifaqə dəvət ediyor. Əcaba türk və islam aləmində bu hansı gündür ki, məmləkətimiz bu tövr gözəl şeylərlə təzyin olunmuşdur?

Bu gün haman gündür ki, türk arkadaşlarımızın mərhəmətilə bütün Qafqasiya türk və islam aləmi əcnəbilər zülm cəngəli altından xilas olaraq hürr və azad yaşamağa başlamışlar. Binaənileyh bu gün bütün türk aləmində milli və tarixi bir bayram olduğuna binaən Azərbaycanın tarix səhifələrində yazılaraq ümum Qafqasiya əhalisi bu günü əziz və möhtərəm tutub parlaq bir surətdə yola verməlidirlər. Zira əcnəbilər istibdad zənciri altında yaşamağımızı və Rusiya inqilabıkəbirindən sonra təsadüf etdigimiz zülm və zəlalətlərə qarşı şimdi kəndi Cümhuriyyətimiz sayəsində hürr və azad yaşamağımızı müşahidə edərək nəhayət bu günün hər sənə yenə təkrar davam etməsinə binaən istiqlalımızdan möhkəm bir surətdə yapışaraq və onun daima paydar olmasını həqqi-təali həzrətlərindən istida və istirham edəriz!

**F.A. Seyyid Əlili**

***"Azərbaycan", 28 may 1919, №190***

Bəşşaş – sevincli, gülərüz

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 25 MAYIS İCLASI

**Sədr:** Həsən bəy Ağayev
**Katib:** Mehdi bəy Hacınski, sonra Əhməd Cövdət
İclas saat 11:50 dəqiqədə açılıyor.

### Məsaili-yövmiyyə

1. Əxzi-əskər idarələri təşkili həqqində layiheyi-qanuniyyə;
2. Gəncə bələdiyyə idarəsinə bir milyon manat verilməsi həqqində layiheyi-qanuniyyə;
3. Hökumətin 20 milyonluq fondunun 40 milyonadək artırılması həqqindəki layiheyi-qanuniyyə;
4. Bakı bələdiyyə idarəsinə beş faiz ilə on milyon manat borc verilməsi həqqindəki layiheyi-qanuniyyə;
5. Məclisi-Müəssisan seçkiləri layiheyi-qanuniyyəsi;
6. Ünas edadiləri nizamlarının təğyir və təkmili həqqində layiheyi-qanuniyyəsi;
7. Neft aksizi idarəsinin ştata layiheyi-qanuniyyəsi;
8. Daxil olmuş kağızlar, o cümlədən:

a) səhhəti-ümumiyyə nəzarətinə 7 milyon 83 min 500 manat buraxılması həqqindəki layiheyi-qanuniyyə;

b) xüsusi təhqiqat və təftişat komisyonu təsisi layiheyi-qanuniyyəsi;

t) maliyyə nəzarəti nəzdində gömürük şöbəsi təşkili həqqində layiheyi-qanuniyyə;

s) əskərlikdən azad olan şəxslərdən bədəli-əskəriyyə alınmasının ləğvi həqqində layiheyi-qanuniyyə;

c) yer və tövcü vergisinin artırılması ilə bərabər topraq gəlir vergisi təyini layihəsi;

ç) hökumət əndində süvari məiyyət bölügü təşkili haqqında layiheyi-qanuniyyə;

x) məbus Tsixakayanın ərzi-halı, "Müsavat" firqəsinin sualı və sair bir neçə təklif

Ruzinameyi-müzakirat bir qədər təbdil ilə qəbul olunur.

## Əxzi-əskər idarələri

Birinci növbədə əxzi-əskər idarələri təşkili haqqındaki layiheyi-qanuniyyə mövqei-müzakirəyə qonuluyor. Məruzəçi Qarabəyli Qara bəy (İttihad). Layihə ümumiyyətlə və sonra maddə-maddə oxunaraq rəyə müraciət ediliyor və bilamüzakirə əksəriyyəti-ara ilə qəbulə keçir.

## Hökumət fondu

Bədə hökumətin 20 milyonluq fondunun 40 milyonadək artırılması, yəni qabaqca nəzərə alınmayan və fövqəladə məsrəf üçün hökumət ixtiyarına yenidən 20 milyon manat pul buraxılması haqqındaki layiheyi-qanuniyyə müzakirə ediliyor. Məruzəçi Mustafa bəy Vəkilov (Müsavat). Məruzədən anlaşılıyor ki, neçə ay bundan müqəddəm fövqəladə məsrəf üçün hökumət ixtiyarına verilmiş olan 20 milyonun 17 milyonu sərf edilib qurtarmışdır, şimdi yenidən 20 milyon pul buraxılmalıdır ki, gələcəkdə lazım olan yerə sərf edilsin. Layihə bilamüzakirə ittifaqi-ara ilə qəbul olunur.

Bakı bələdiyyə idarəsinə 10 milyon borc.

İkinci layihənin qəbulundan sonra bir neçə dəqiqəlik tənəffüs elan ediliyor. Tənəffüsdən sonra:

**Sədr** – Parlamanın tapşırması ilə Gürcüstan istiqlaliyyətinin sənəyi-dövriyyəsi münasibətilə Gürcüstan Məclisi-Müəssisanı rəisi naminə böylə bir teleqraf göndərdik (oxuyur).

**Teleqraf**

Tiflis. Gürcü Məclisi-Müəssisanı sədrinə

Məclisi-Məbusanın 26 mayıs tarixli qərarına görə sizin şəxsinizdə Gürcüstanın elani-istiqlal sənəyi-dövriyyəsi münasibətilə təbrik və təhniyət ediyorum. Azərbaycan milləti əmindir ki, bir illik müstəqil həyat keçirən Gürcüstan müstəqil bir dövlət olaraq yaşamağa müstəid olduğunu isbat etmişdir. Azərbaycan Cümhuriyyətilə Gürcüstanın tamamilə müttəhidən çalışmaları hər iki dost qonşu millətin rifahi-hal və səadətinə və qazanılmış istiqlalın möhkəmləşməsinə bir rəhn olacaqdır.

Yaşasın müstəqil Gürcüstan!

Azərbaycan Məclisi-Məbusan rəisi: Ağayev

Növbədəki məsələ Bakı bələdiyyə idarəsinə 5 faiz ilə on milyon manat borc verilməsi həqqindəki layiheyi-qanuniyyədir. Məruzəçi Musa Rəfiyev.

**Rəfiyev** – Bakı bələdiyyə idarəsinə keçən dəfələr pul borc verildikdə şəhərin əhvalı, bələdiyyə idarəsinin vəziyyəti və şəhər mədaxil və məxaricinin müvazinəsi və sairə həqqində öylə müfəssəl məlumat verilmiş və o qədər müzakirə olmuş ki, bu xüsusda təfsildar danışmağı lüzum görmiyorum. Ancaq müxtəsərən bunu deməliyəm ki, şəhərin sənəvi mədaxili 30 milyona qədər olduğu halda məxarici 82 milyona yetişiyor. Bu surətlə beləde 50 milyon manat açıqlıq əmələ gəliyor. Bələdiyyə idarəsi bu açıqlığı vəziyyəti-hazirədən dolayı özü qapaya bilmədiyindən hökumət və Məclisi-Məbusana

müraciətlə 35 milyon manat borc istiyor. Fəqət maliyyə komissiyası bu məsələyi ətraflıca müzakirə etdikdən sonra istənilən məbləği çox görüb qərar verdi ki, hələlik ancaq on milyon manat buraxılsın, ona görə də heyəti-ümumiyyəyə də 10 milyon buraxmağı təklif ediyor.

Bu xüsusda İbrahim Əbilov (2 dəfə), Ağa Aşurov, Səmədağa Ağamalı oğlu, Əliağa Həsənov, Çubaryan, Yusifbəyli Nəsib bəy nitqlər irad ediyorlar (nitqlər gələcək nömrəmizdə) və layiheyi-qanuniyyə səsə qonularaq əksəriyyəti-ara ilə qəbul olunur.

### "Müsavat"ın sualı

Nəhayət, Denikin qoşunlarının Dərbəndi işğalı münasibətilə "Müsavat" firqəsi tərəfindən hökumətə böylə bir sual veriliyor:

(Katib oxuyur)

Denikin ordusunun Petrovsk ilə Dərbəndi işğal etdiyi hökumətə məlummudur, məlum olduğu təqdirdə Azərbaycan istiqlalını təhdid edən bu hadisəyə qarşı hökumət nə nəzərlə baxıyor və bu xüsusda nə kibi tədbirlər görmüşdür?

**Rəsulzadə Məhəmməd Əmin** – Camaat! Biliyorsunuz ki, bu gün əfkari-milliyyə böyük həyəcan içindədir, bu da Dağıstanda vücuda gəlmiş bir hadisənin nəticəsidir. O hadisə isə dobrovol qoşunlarının Petrovski və Dərbəndi almalarıdır. Hətta şayiəyə görə könüllü ordu qitəatı Yalamada dəxi görülüyormuş. Bu xəbərləri içimizdə yaşayan, bəlkə dobravolnıları gözləyən və onların gəlməsindən şadlanan adamlar küyə salıb hətta bəzi qəzetələr könüllülərin Qubaya yürüş etdiyini yazıyorlar. Ona görədir ki, camaat həyəcandadır. Əlbəttə, millət vəkili olan məbuslar və istiqlalımızı bəbək kibi müdafiə və

mühafizə etməyi vədə etmiş olan hökumətimiz bu xəbərlərə və demokratiyanın bu həyəcanına laqeyd baxa bilməz. Dağıstan Azərbaycanın qapısıdır. Dağıstanın denikinlər əlində olmasına azərbaycanlılar heç vəqt səhlənkarlıq ilə baxamazlar. Zira denikinlərin və könüllü ordunun ümumiyyətlə yeni təşəkkül etmiş dövlətlər və xüsusən Azərbaycan həqqindəki qara niyyəti məlumdur. Hamı biliyor ki, onların fikri köhnə hökuməti qaytarmaq və bütün yeni məmləkətləri ona tabe etməkdir. Böylə bir zamanda Bakı, Azərbaycan türk demokratiyası heç vəqt evində rahət duramaz. Bu halda lazımdır bu kürsüdən hökumətin səlahiyyətdar sözü eşidilsin ki, camaat həm öz vəziyyətini bilsin, həm də vəzifəsin. **Camaat istiqlala o qədər mənus olmuş, hürriyyət və istiqlal fikri o qədər xəlqin təninə sinmiş, ruhuna işləmişdir ki, şimdi artıq istiqlal fikri bir firqənin, bir kütlənin arzusu degil, bütün camaat vətəni və milləti istiqlalsız və dövləti hürriyyətsiz təsəvvür edəmmiyor. Binaənileyh demokratiya bittəbii qapısında şübhəli adamlar durmasına heç vəchlə razı olamaz və bir tən vahid kibi hürriyyət və istiqlalının müdafiəsinə hazırdır** (Alqışlar).

**Yusifbəyli Nəsib bəy – (Rəisi-Vükəla):**

Möhtərəm məbuslar! Varid olan suala cavab verməkdən əvvəl bən burasını ərz etməliyəm ki, bu vəqtədək bizim sərhədimizi heç kəs keçməmişdir və ancaq meyitlərimiz üstündən keçə bilərlər (Hər tərəfdən şiddətli alqış, bravo sədaları). Bir də sözümə keçmədən əvvəl Dağıstan əhvalı həqqində sizə bir qədər məlumat verməyi lazım biliyoram. Üç gün bundan əvvəl Teymurxanşuradan Dağıstan hökuməti nəzdindəki siyasi nümayəndəmizdən böylə bir teleqraf aldım (oxuyor).

## Teleqraf

Bakı xariciyyə nəzarəti

Dünən Petrovskiyə böyük könüllü qüvvələri gəlməsi haqqında məlumat alınmışdır. Axşam Parlamanın iclası vaqe oldu. Hökumət rəisi zeyldəki məlumatı verdi:

Könüllü ordu İttihadi-Cəbaliyyun hökumətini tanımaqdan imtina ilə Dağıstan hökumətini tanımaya razı oluyor və daxili işlərinə müdaxilə etməyərək Dağıstan bolşeviklərə qarşı könüllülərə yardım edəcəyini təsəvvür edir. Könüllülər dəmiryol xəttini Yalamayadək tuturlar. Bu məqsəddən ötəri dünən Dərbəndə bir bölük gəlmişdir. Cəbaliyyun Cümhuriyyətinin müqəddəratı sülh konfransında həll olunacağı üçün şimdilik könüllülər ilə mübarizəyə və etiraz etməyə qüvvətimiz olmadığından Cəbaliyyun hökumətini qeyri-mövcud elan ediyoram. Dağıstanda bütün ixtiyarat general Hacı Murada veriliyor.

Gecə saat birdə rəis Parlaman iclasını qapalı elan etdi.

Təcili təbliğat bəkliyoram.

**Haqverdiyev.**

Sonra Quba qəza qaimməqamı və sairlərindən bir neçə məlumat alındı ki, Dağıstana 4 eşalon kazak qoşunu gəlmişdir. Bunlardan birisi Petrovsk və digəri Dərbəndi işğal etmişdir. Fəqət bu gün yeni bir məlumat alınmışdır ki, birinciyi təshih ediyor. Böylə ki, Azərbaycandakı Dağıstan siyasi nümayəndəsi Bakir Tağıyev göstərdi. Bu teleqrafdan anlaşıldı ki, Dağıstanda denilən qədər də öylə böyük bir şey olmamışdır. Teleqrafı da Dağıstan hökuməti rəisi Kovtsov imza etmişdir. Dərbəndə gələn qüvvə haqqində məlumat var ki, oraya gələn az bir qüvvədir: iki yüz, uç yüz adam imiş. Fəqət

doğrudur ki, Dərbəndə gəldikdən sonra orada bəzi nalayiq işlər görmüşlərdir. Məsələn gərək Petrovskda və gərəksə Dərbənddə təhərri, axtarış, xırsızlıq olmuşdur.

Bən bu xəbəri alar-almaz ilk əvvəl ingilis komandanlığının qarşısında şifahən və təhrirən protesto etdim. Bunu lazım bildiyimizin səbəbi də budur ki, əgər biz bu vəqtədək rahət oturmuşsaq, səbəbi bu olmuşdur ki, həmişə bizə demişlər könüllülər Dağıstan hüdudunu keçmiyəcəklərdir. Və əgər Petrovskda az bir qüvvə saxlamağa lüzum görülmüş və orada bir az əskər saxlanılırsa, o da Petrovsk bəndərinin bir baza qərar verilməsindən nəşət edən bir keyfiyyətdir. Yoxsa könüllü ordu Dağıstanın sayır yerlərinə tərəf hərəkət etməyəcəkdir. Buna görədir ki, biz birinci sualı ingilislərə verdik və etiraz da onlara etdik. Şifahən etiraz etməklə bərabər İngiltərə komandanlığına bu məzmunda bir nota dəxi verdik (oxuyur).

İngiltərə komandanlığının Denikin ordularının, Dağıstan hüdudunu keçmiyəcəyi xüsusundakı mütəəddid vədlərinə rəğmən bu gün aldığımız məlumata görə könüllü ordu əskərləri Dağıstan dəmir yollarını Yalama stasyonunadək işğal ediyorlar.

Könüllü ordu qüvvələrinin Dağıstanda Azərbaycan hüdudunda bulunmasını Azərbaycan uçün böyük bir təhlükə ədd edərək iləridə möhtəməl vaqeatın önünü almaq qəsdilə Azərbaycan hökuməti İngiltərə komandanlığı tərəfindən könüllü ordunun Dağıstandan çıxarılması xüsusunda lazım olan ciddi tədbirlər ittixaz edilməsini arzu edər.

Bundan maəda bən bəşəxsən ingilis nümayəndəsi Şatılvort ilə də görüşdüm. O bənə dedi ki, ingilislərin qərarı dəyişməmişdir. Və heç bir zaman könüllü ordu Petrovskdan bəri keçməməlidir. Doğrudur bir eşalonun bəri tərəfə keçdiyi xəbər veriliyor. Fəqət kimin müsaidəsilə və necə olmuş ki,

keçmişdir, bu xüsusda bizdə heç bir məlumat yoxdur. Ancaq bu uğurda lazımi tədabir ittixaz etmişdir və ali məhafildən aldığı təlimatı bizə xəbər verəcəkdir. Əlbəttə İngiltərə komandanlığı anlıyor ki, biz bu məsələyi sükuti-qəlblə danışa, bu işlərə, bu hərəkətlərə rahət baxa bilməriz. Dağıstan hər kimin əlində olur-olsun, istər Denikin, istər sair bir qüvvə, xülasə, Dağıstan düşmən əlində olarsa biz təhlükə altında qalıyoruz. İngilis komandanlığı bu işləri bir nedorazumeniya adlandırıyor, diyor ki, bunlar həp nedorazumeniyadır.

Ban burada şifahən protesto və nota verməklə bərabər Tiflisdəki nümayəndəmizə də teleqrafla xəbər verdim ki, müttəfiqlər baş komandanlığına haman notayı yetirsin. Bən İngiltərə nümayəndələrinə dedim ki, vədlərdən artıq bıqdıq. Bundan sonra biz də ancaq öz qüvvəmizə güvənəcəyiz və lazım gələrsə bir tən vahid kimi hamımız hürriyyət və istiqlalımızı müdafiəyə qalxışacağız (ümumi alqış) və bu uğurda heç bir millət, hətta ən böyük millət və qüvvətlər belə bizə mane ola bilməz (alqış). Bu sözlərimə Şatılvort buna "sizin həqqınızdır, bəlkə vəzifənizdir" - deyə cavab verdi. Başqa dürlü cavab verə də bilməzdi.

*(Bitmədi)*

***"Azərbaycan", 28 may 1919, №190***

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA
(keçən nömrədən mabəd)

*(Keçən nömrəmizdə Könüllü Ordunun Dağıstanı işğalı münasibətilə "Müsavat" fraksiyonu tərəfindən verilmiş sual və Rəisi-Vükəla Yusifbəyli Nəsib bəy həzrətlərinin bəyanatının bir qismi dərc edilmişdi. Şimdi Rəisi-Vükəla həzrətlərinin bəyanatının ələlümdə Azərbaycana aid olan qismini dərc ediyoruz)*

**Yusifbəyli Nəsib bəy** – (Nitqinə davamla) Məlumunuzdur ki, Bakıda İngiltərə komandanlığı nəzdindəki Könüllü Ordunun Lazaryev nam bir nümayəndəsi vardır. Neçə gün bundan əvvəl mumaileyh Lazaryev tərəfindən Azərbaycan hökumətinə şifahi bir təklif edildi və eyni məsələ həqqində təhriri bir kağız dəxi alındı. Bu məsələ böyük əhəmiyyətə haiz olduğundan məktubu sizin üçün oxumaq istərdim (oxuyur):

**"Azərbaycan Cümhuriyyətinin**
**Heyəti-Vükəla Rəisinə**

Cənubi Rusiya qüvayi-müsəlləhəsinin Bakıda bulunan İngiltərə komandanlığı nəzdindəki nümayəndəsi

20 mayıs 1919

Cənubi Rusiya qüvayi-müsəlləhəsinin baş komandanı tərəfindən aldığım teleqrafa istinadən atidəki məruzatı ərz ediyoram:

Cənubi Rusiya qüvayi-müsəlləhəsi (Könüllü Ordu) komandanlığı Azərbaycan əleyhinə həç bir təcavüzkaranə hərəkətdə bulunmaq fikrində degil. Biləks Azərbaycanın istiqlalını münasib görüyor və tanıyor.

Rusiyanın bolşeviklərdən xilasından sonra sabiq Rusiya imperatorluğu daxilində təşəkkül etmiş dövlətlər ilə münasibat və etilaf peyda etmək Millət Məclisinin və yaxud bolşeviklərlə mübarizə edən qüvvələrin bütün ixtiyaratı tövdi edəcəkləri mənbəi-alinin işi olacaqdır.

Cənubi Rusiya qüvayi-müsəlləhə nümayəndəsi:

Polkovnik Lazaryev"

İzn veriniz rusca yazılmış olan mətnini dəxi oxuyayım, bəlkə türkcəyə tərcüməsindən bir yanlış və xəta varsa anlaşılsın.

*(Ruscanı oxuyur)*

Bundan maəda haman oxuduğum teleqraflar və kağızların vüsulundan və Könüllü Ordunun Dağıstana vürudundan sonra Savintski bənim yanıma gəldi. Bilirsiniz ki, bu adam qabaq da Bolqariyada rus səfiri idi və hal-hazırda Dağıstanda İngiltərə komandanlığı nəzdində Könüllü Ordu nümayəndəsidir. Onun söhbətindən böylə məlum oldu ki, Zaqafqasiya cümhuriyyətləri həqqində general Denikin fikrini dəgişmişdir. Böylə ki, Könüllü Ordu komandanlığı Zaqafqasiyada təşəkkül etmiş cümhuriyyətləri (Azərbaycan, Gürcüstan və Ermənistan) tanımağa və bunlar müqabilinə mübarizə etməməgə qərar vermiş imiş. Bu xəbəri yaxında Parisdən gəlmiş olan admiral Bubnov Denikinin özündən gətirmişdir.

Bu surətlə rəsmi surətdə bizim əlimizdə iki təminat var: birisi İngiltərənin bizim işlərimizə müdaxilə etməyəcəgiz deyə təmin etmələri, o biri tərəfdən Könüllü Ordu komandanlığının rəsmi surətdə böylə mühüm şeylər yazması. Fəqət bu xəbərlər və bu işlər bittəbii ki, bizi düşündüriyor. Çünki bir

tərəfdən könüllülərin bizim istiqlalımızı tanıyıb qəbul etmələri haqqındakı təbliğat, digər tərəfdən də Dağıstanı işğal etməklə məmləkətimizi təhdid altına almaları. Yekdigərinə zidd olan iki keyfiyyətdir. Bu təzadı düşünərək bən məktubu yazan Lazaryevi yanıma çağırdım və bunların hankı birinə inanayım zəminində sual verdim. Lazaryev yəmin etdi ki, Dağıstanın işğalı haqqında ona bir şey məlum degildir. Hətta qorxuyor ki, Denikinin bu son qərarından Dağıstandakı Könüllü Ordu komandanlığının xəbəri olmamış olsun və Dağıstanın işğalı da haman bixəbərlikdən nəşət etmiş olsun.

Sonra Lazaryev bu xüsusda Dağıstan komandanlığı ilə şifrəli teleqraf vasitəsilə mənə sübutda bulunmaq üçün izn istədi. Bən isəm əlbəttə şifrəli teleqrafa izn vermədim. Məxfi qalmasın ingilis kibi Lazaryev dəxi Dağıstan məsələsini "ne-darazumeniya" adlandırıyor və inandırıyor ki, Azərbaycana bir şey olmaz və heç bir təhdid və təhlükə yoxdur.

Bən bunu da deməliyəm ki, Dağıstan məsələsində Könüllü Ordu komandanlığı ilə bizim nöqteyi-nəzərimizdə bir ixtilaf var. Böylə ki, biz Dağıstanın işğalını özümüz üçün bir təhlükə saydığımız halda, onlar düşünüyorlar ki, Könüllü Ordunun Dağıstanda bulunması guya bizim üçün heç vəqt və heç dürlü təhlükə təşkil etmiyormuş. Fəqət biz fikrimizi dəgişməyiz və bən Dağıstanın işğalını Azərbaycan üçün bilavasitə bir təhlükə saydığımdan tələb etdim ki, Könüllü Ordu bilatəxir Dağıstanı təxliyə edib ordan çıxsın.

Bizi maraqlandıran məsələlərdən birisi də italyanların bu işə necə baxdıqları idi. Bunu ərz edim ki, İtaliya heyəti buradan Peterburqa, oradan Krasnovodskiyə gedib qayıtdıqdan sonra da Tiflis-İrəvan təriqilə Parisə getməli və Qafqasiya cümhuriyyətləri haqqında məlumat verməli idilər. Şimdi

Dağıstan fəqərəsindən sonra İtaliya nümayəndəsi haman səfərlərindən vaz keçərək təcili surətdə bir gün itirmiyərək Parisə əzimət etməgi lazım görmüşlərdir. Çünki onlar da bu məsələyi təhlükəli hesab edirlər. Heyətin dedidiginə görə onlar iyunun 4-də Parisə varid olacaqlardır.

Möhtərəm məbuslar! Yəqindir ki, nə qədər Könüllü Ordu Dağıstandadır, nə qədər ki, Denikin qoşunları Dağıstanı işğal ediyor, burası bizim üçün şübhəsiz ki, bir təhlükə təşkil edər və böylə olduqca biz heç vəqt evimizdə rahət yata bilməriz. Ona görədir ki, hökumət bu xəbəri alar-almaz camaatə xəbər verdi. Bir neçə tədbirləri gördü. Posta, teleqraf və məarif naziri və yenə qubernator ilə bərabər hüduda getdi. Hərbiyyə naziri general Mehmandarov tərəfindən dəxi sərhəddimizi mühafizə etmək üçün lazım gələn tədbirlər görülmüşdür. Əmin olunuz ki, nə qədər millətimiz var, nə qədər millət bu məsələdə əzm və isbat ilə dayanmışdır, hökumət hər növ tədbirlər görəcəkdir. Millət sərhəddi buraxıb qan tökmədən çəkilməyəcəkdir. Əlbəttə bizim məqsədimiz müdafiədir. Əlbəttə biz kimsəyə hücum etmiyəcəgiz, xüsusən xarici qüvvələrə qarşı mühacimə hərəkatında bulunmayacağız. Fəqət sərhəddimizi keçməgə də kimsəyə izn vermiyəcəgiz. (Alqış) Bundan əlavə yabançı qüvvələri Dağıstandan qovmaq üçün də hər növ tədbir görüləcəkdir. Bu bizim həqqimizdir. Bu həqqi kimsə dana bilməz. İtaliya olsun, İngiltərə olsun, yainki dost olan hankı bir millət və dövlət olsun bizim bu həqqimizi danamaz. Əgər bu yazılan məktublar, bu kağızlar həp boş, quru kağızdan ibarət degilsə, mütləqa Dağıstan Könüllü Ordudan təxliyə edilsin gərək, Dağıstan böylə. Fəqət sərhəddimizi isə kağız ilə degil, silah gücü ilə də müdafiə və mühafizə edəcəgiz. Silah tuta bilən bütün millət: qoca, cavan, dövlətli, fəqir, əla, ədna ümumvətən övladını vətənimizin, hüdudumu-

zun müdafiəsinə dəvət edəcəgiz. (Ümumi sürəkli alqış) Əmin olunuz ki, düşmən sərhəddimizi keçə bilməyəcəkdir. Çünki sərhəddimiz ancaq və ancaq bütün millətin meyitlərinin üstündən keçilə bilər. (Ümumi sürəkli alqış)

*"Azərbaycan", 30 may 1919, №191*

Mumaileyh – haqqında danışılan
Bəyyin – aydın, aşkar
Mühacimə – həmlə etmə
Ədna – həqir
Tövdi – təslim etmə; görüşmə

# İSTİQLAL BAYRAMI

Mayın 27-də daha şəhər bayraqlar ilə müzəyyən edilmişdi. Hər kəsdə bir təlaş görünməkdə idi. Paytaxtımızın yuxarı hissələrində belə alaqapı qayrılmaqda idi. Küçələr boyu məftillər çəkilərək əlvan fanuslar, rəngbərəng bayraqlar asılırdı. Türk ətfalı da bu bayramın əzəmətini, hörmətini düşündüklərindəndir ki, bir gün əvvəl rəsm-keçidə hazırlanırdılar. Kağız papaqlar, taxta silahlar hazırlanır, dalanlarda təlimat yapılırdı.

Gözlənilən 28 Mayıs günəşi tulu etdi. Artıq paytaxtın bəzəyi onqat artmışdı. Sokak boyu aşağı-yuxarı baxacaq evlərdən üç rəngli, hilallı, ulduz nişanlı bayraqların yellənməsi insanın qəlbində fərəh oyadırdı.

Yaşıllıqlar ilə bəzənmiş balkonlardan asılmış qiymətli xalılar, ipək örtüklər, "Yaşasın İstiqlal!", "Yaşasın Azərbaycan!" yazılı bayraqlar millətdə ruhi-vətən və millət məhəbbətini layiqincə göstərirdi.

Marşrut qərarı üzrə məktəblərin çocuqları buradan Məclisi-Məbusan qarşısına getməli idi. Bazar küçəsi ipək parçalar, xalılar və rəngbərəng bayraq ilə bəzədilmişdi.

Məclisi-Məbusan bir gün əvvəldən istiqlal bayramı libası geyinmişdi. Damında elektrikdən "Yaşasın İstiqlal!" şüarı yazılmış, böyük qapısı üstündə məşhur türk nəqqaşı Əzim Əzimzadə tərəfindən yazılmış istiqlal embleması elektrik lampaları ilə bəzənmişdi. İşbu rəsm olduqca mənalı və ğalibidiqqət idi. Bir gün əvvəl buradan keçənlər biixtiyar durub rəsmə baxır, gözəlliyini və mənidar olduğunu tanımadığı başqa bir tamaşaçıya söyləyirdi.

Bu rəsmdə Azərbaycanın tarixi nümunələri mahiranə bir surətdə təcəmmö etmişdi: Qız qalası üzərində üç rəngli Azərbaycan bayrağı, Suraxanıdakı tarixi Atəşgədə, sentyabr müharibəsində xəsarət almış Yanar dağ...

Digər tərəfdə minarələrində ay-ulduz rəkz edilmiş, xan məscidlərini tulu etmiş, İstiqlal günəşi işıqladır. Zanbaq kimi istiqlal səmasında vətən, istiqlaliyyət və məhəbbət nişanı mülk bütün Azərbaycan üzərində üç rəngli hilal-ulduzlu "Yaşasın İstiqlal!" şüarlı bayrağı tutmuşdu.

Həqiqət işbu rəsm şayani-təhsin idi.

Bələdiyyə idarəsi də bayraqlar içində idi. Bir sözlə: bayraqlar, bayraqlar! Yaşıl ot, əlvan parçalardan alaqapılar bəzədilmişdi. Küçəyə çıxan balkon elektrik ilə çıraqban edilmişdi. Şəhər bağı və bulvarda da bələdiyyə idarəsi tərəfindən alaqapılar bəzənib hesabsız milli bayraqlar asılmışdı. İçəri şəhərdəki bütün məscidlərin minarələri başında milli bayraqlar rəkz edilərək elektrik ilə çıraqban edilmişdi. Xan sarayları üzərində də milli bayraqlar asılmış, məşhur Qız qalası çıraqban edilmişsə də üzərində iki böyük bayraq rəkz edilmişdi.

Təzəpir camei çıraqban edilmiş, bayraqlar asılmışdı. Bütün paytaxtdakı minarələr elektrik ilə tənvir, milli bayraqlar ilə təzyin edilmişdi.

Dövlət binaları: nazirliklər, xüsusilə daxiliyyə nazirliyi olduqca qəşəng bəzənmişdi. Bulvardan daxiliyyə nazirliyinə baxdıqda ay-ulduza bürünmüş işıqlı, bəzəkli bir qala kimi gözə çarpırdı. Bulvar qarşısındakı hesabsız bayraqlar ilə müzəyyən qayıqlar paytaxtı salamlayaraq böyük bayram ilə təbrik edirdilər.

Saat 9 radələrində Məclisi-Məbusan qarşısında izdiham ğələbəlik bir dərəcədə idi ki, artıq keçməyə yol tapmaq namümkün idi. Bütün o dairədə ki, evlərin damları, pəncərə və

balkonları tamaşaçılar ilə dolmuş idi. Damda qoşa zurna çalınır. Qarşıdakı balkonda məşhur tarzən Şirin, məşhur xanəndə Cabbar Qaryağdı oğlu çalıb oxuyurdu.

Saat 10 radələrində mədən dairələrindən "Müsavat" və "Hümmət" firqələri tərəfindən təşkil edilmiş fəhlələr bayraq və musiqi ilə gəldilər. "Hümmət" firqəsinin bir çox al və milli bayraqları ilə bərabər embleması, "Müsavat"ın bir çox bayraq və embleması aralığı təzyin edirdi. Bir az keçmədən minlərlə məktəb şagirdləri havada kiçik milli bayraqları yelləyərək "Yaşasın!" sədaları ilə dairəyə gəldilər. Ətfalın səsləri asimanə büländ olurdu. İzdiham da çocuqların sədalarından cünbüşə gələrək "yaşa" - deyə onlara qoşuldular. Tam 15 dəqiqə işbu kütleyi-əzim "Yaşasın!" sədaları, əl şıqqıltıları bütün ətrafı gumbuldatdı. Bələdiyyə idarəsi qarşısından tutmuş Məclisi-Məbusan dairəsi, Parapet bulvarı, dövlət dairəsi tamaşaçılar ilə xıncaxınc idi.

Dəstə-dəstə mini-mini çocuqlar antik xalılarda taxta silahlar ilə ağır topxanaları ilə aləm bir əskər kimi marş oxuyaraq gəzirdilər...

Bir az keçmədən "Müsavat"ın bəzəkli avtomobili, türk mürəttiblərinin avtomobili dairəyə gəldi, türk mürəttibləri doğrudan da "əntiqə" bəzənmişdilər. İçərisində iki hürufat kassası qoyulmuş, iki nəfər mürəttib iş əlbisəsində cümlə yığır...

Bir az keçəndən sonra Məclisi-Məbusan qarşısında M.Ə.Rəsulzadə cənabları kürsiyi-xitabətə çıxaraq xalqın alqışları altında bir nitq irad edərək camaatı milli böyük bayram və bəxtiyarlıq ilə təbrik etdi: "Bizim düşmənlərimiz, azadlıq və istiqlaliyyətimizi gözləri götürməyən rəqiblərimiz deyirlər ki, Azərbaycan istiqlalını xanlar, bəylər elan etmişlər. Xalq onu istəmir. İştə cəmaət, bugünki izdiham, bügünki bəşaşət

istiqlaliyyətin xanlar degil, bəylər degil, xəlq tərəfindən elan edildigini düşmənlərimiz artıq görsünlər". (Xalqın alqışı altında nitqinə xitam verir) Ondan sonra başqa natiqlər də nitq etdilər...

*Azərbaycan", 1 iyun 1919, №192*

Müzəyyən – bəzədilmiş milli
Fanus – fənər
Təməccö – toplanmış
Tənvir – işıqlandırma
Bəşaşət – şadlıq, sevinc

## MƏCLİSİ-MƏBUSANDA

**5 iyun 1919**

Hökumət Rəisi Nəsib bəy Yusifbəyli cənabları Denikin məsələsi haqqında müfəssəl məlumat verdikdən sonra fraksion rəisləri də bəyanatda bulunmaqla (təfsilat yarın) axırda "Müsavat" fraksiyası ilə sosialistlər tərəfindən verilmiş olan işbu zeyldəki formula əksəriyyət ilə qəbul edilmişdir.

Hökumət Rəisinin Denikin təhlükəsi haqqındaki məruzəsini dinləyərək Denikinin məmləkətimiz haqqındaki təcavüzkaranə fikrinin əski çar generallarına məxsus xırda millətləri əsarət altına almaq və hürriyyətpərvər xəlqi əzmək istəyən cahangirlik siyasətindən hasil olma bir suyi-niyyət olduğunu bütün aləmə qarşı elan etməklə bərabər Azərbaycan Məclisi-Məbusanı:

Məmləkəti müdafiə halına gətirmək üçün hökumət daxilindən bir heyəti-məxsusənin ayrılmasını və bu heyətə ümumi səfərbərlik elan eləmək, bütün məmləkəti və yaxud bir cüzini idareyi-ürfiyyə və mühasirə halında elan etmək, cari olan qanunlardan bir qismini müvəqqətən ilğa və yaxud tədil eləmək: xüsusi könüllü əskərləri təşkil etmək və axırda hesabı verilmək üzrə xəzinəyi-dövlətdən lazım olan məbləği əxz və məhəllinə sərf eləmək kibi fövqəladə bir səlahiyyət verilməsini təhti qərarə alır.

Bununla bərabər Məclisi-Məbusan bütün Azərbaycan xəlqini məmləkət, hürriyyət və istiqlalımızı müdafiə yolunda hökumətə yardımçı olmağa dəvət edir. Azərbaycan xəlqi hökumət ətrafında birləşib ordunun qüvvətlənməsinə,

hökumətin müzəffəriyyətinə həm maddətən, həm də mənən kömək etməlidir.

Məclisi-Məbusan inanıyor ki, bu təhlükeyi-ümumiyyə qarşısında bütün Zaqafqasiya cümhuriyyətləri ittihad və ittifaq edərək hürriyyət və istiqlaliyyətlərini bərabərlikdə müdafiə edərlər.

Məclisi-Məbusan Avropa dövlətlərinin də demokratiyalarının sədasını dinləyərək millətimizin kəndisini müdafiədə həqli olduğunu təslim edəcəklərinə ümidvar olmaqla Denikin övnəsinin əldə silah olaraq suyi-qəsdini Paris konfransı ilə bərabər bütün miləli-mütəməddinə, parlamanlarına qarşı prtesto eylər.

*"Azərbaycan", 6 iyun 1919, №197*

Məhəll – müəyyən yerə
Övnəsi – silahdaş
Təslim – etiraf etmə

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 5 iyun 1919

Tənəffüsdən sonra iclas saat 2-də tazələnir.

**Sədr** – İclas davam edir. Parlaman müsaidə versə növbəti bir az dəgişib Rəisi-Vükəlanın vəziyyətimizə aid bəyanatını dinləyəndən sonra hökumətə verilən sualı növbəyə qoyub ondan sonra başqa məsələlərin müzakirəsinə keçərik. Etiraz yoxsa, qəbul olunur. Söz Rəisi-Vükəlanındır.

**Nəsib bəy Yusifbəyli** – Möhtərəm məbuslar! Bir neçə gün bundan əvvəl sizə ərz elədim ki, Denikin nümayəndəsi tərəfindən rəsmi kağız aldıq. Bu rəsmi kağızı da sizə oxudum. Gördünüz ki, rəsmi kağızda istiqlalımızı tanıyorlar. Ancaq nə bən oxuyan zaman, nə də siz eşitdiginiz vəqt etibar etmədiniz.

O kağız ki yazmışdılar onun mürəkkəbi qurumamış bir kağızda gəlib ki, ərz eləmək istiyoram. Oxuyandan sonra şübhəmizin nə qədər həqli olduğunu bilərsiniz. Dünən böylə bir kağız gəlmişdir (oxuyur):

"Azərbaycan Cümhuriyyətinin Heyəti Vükəla Rəisinə. Surəti İngiltərə komandanlığına və Qroznı-Petrovski qrupu komandanlığına.

Cənubi Rusiya qüvayi-müsəlləsəsi ərkani-hərb rəisi general-leytenant Luqovskidən baş komandan əmrilə göndərilmiş bir məktub iyun 3-də bənə vüsul oldu. İşbu məktuba istinadən rəsmən sizə elam ediyoram ki, Cənubi Rusiya qüvayi-müsəlləhəsi Azərbaycanı Rusiyadan ayrılmış hesab etmiyor, yalnız

şu məsələ iləridə Rusiyada təşkil olunacaq verxovnı vlast tərəfindən həllinə qədər Azərbaycanın istiqlaliyyətini münasib görüyor və tanıyor

Polkovnik Lazaryev".

Ruscasını istəsəniz oxuyum. O gün ərz etdigim kibi bəlkə tərcüməsində səhv etmiş ollam. (Məktubu rusca oxuyur) (Səslər: "Heç vəqt Rusiya olmayacaqdır!") Görürsünüz ki, bu kağız genə kağızdır. (Səmədağa yerindən: "Elə onlar özləri də kağızdır!")

Burada görürsünüz ki, Rusiya təşkil olunana qədər və orada verxovnı vlast olana kibi bizim istiqlalımızı tanıyor və sizə təhlükə yoxdur – diyor. Əgər bu da doğru olsa idi və buna inanmaq olsa idi, yenə bir şey idi. Məəttəəssüf bu da kağızdır. Bunun kağız olduğunu özləri də tez vəqtdə isbat elədilər. Bu kağız ilə Petrovskdan Lazaryevə və surəti Şatelvorta teleqraf gəldi. Bu kağızları və teleqrafları ərz ediyoram görəsiniz ki, bunların da mənası yoxmuş (oxuyur):

Polkovnik Lazaryevə
Surəti Bakıda İngiltərə qüvayi-müsəlləhəsi
komandanı polkovnik Şatelvorta
Hərbi

Cənubi Rusiya qüvayi-müsəlləhəsi baş komandanından işbu məzmunda teleqraf aldım. Azərbaycan hökuməti Könüllü Ordu hissələrinin Dağıstana hərəkətindən təşvişə düşmüşdür. General Dratenko Petrovski və Dərbəndin işğalı ilə kifayətlənib iləriyə getməyəcəyi xüsusunda təminat vermişdir. Əgər Azərbaycan hökuməti tərəfindən üzərimizə hücum olmaz isə öz tərəfimdən ordularımızın Zakatala-

Qafqasiya dağları Qızılburun xəttindən irəliyə getmiyəcəgini təmin edirəm".

Yekatrinodar, 18 may 1919
Nömrə 7389
Petrovski nömrə 3621
Terski-Dağıstan orduları komandanı
general Ankavalerii Erdeli.

Həmin bu məzmunda Erdelinin özündən Lazaryevə bir teleqraf var. Məzmunu bir olduğundan elanına ehtiyac yoxdur, zənn edirəm. Əgər arzu olunursa, keçən teleqrafın ruscasını oxuyum. (Keçən teleqrafı rusca oxuyur)

İkinci teleqraf budur: (Ruscanı oxuyur). Çünki bu teleqrafda bir işarə, bir namyok var ki, razılıq və saziş ilə təyin olunan xətti-təbii bu xətti guya bir tərəf ilə təyin etmişlər. Bu barədə kimlər ilə isə razılıq əmələ gəlmişdir.

O tərəfdə kim ola bilər. O tərəfdə yəqindir ki, ingilislərdir. Bu teleqraflar bənə çatandan sonra təbiidir ki, burada İngiltərə komandanlığı nümayəndəligi ilə görüşməgi özümə borc bildim. Məlumunuzdur ki, general Quri buradadır. General Quri Zaqafqasiyada olan müttəfiqlər qüvvələrinin baş komandanıdır. Dünən onunla və Şatelvortla görüşdük. Teleqraflar onun qabağında idi, onlara da gəlmişdi. Qabaqca o söz açdı. Dedi: bu teleqraflardan xəbərdarmısınız? Cavab verdim ona ki, mənası məlumdur. Soruşdu ki, nə tədbir görürsünüz. Əlbəttə ki, özgə cavab olmazdı. Əvvəlinci cavab – ona dedim ki, vətənimizi mühafizə edəcəyik.

Buna görə hər bir tədbir görürük və görəcəyik. Söhbət çox uzun oldu. Hamısını təfsilən ərz eləməgi artıq bilirəm. Nəticəsində o mənə təminat verdi və dedi ki, bu dəqiqə bu

teleqrafların mənasını öz tərəfimdən general Millinə xəbər verərəm. Müttəfiqlər komandanlığının Denikin ilə saziş barəsində dedi ki, heç bir saziş söhbəti ola bilməz və Denikin ilə xətt barəsində saziş olmaz. Və bir də general Denikinin bu hərəkətinə general Quri pis nəzər ilə baxır. Vətənimiz yolunda gördügümüz təşəbbüsatımızı yersiz bilmiyor: Dəniz tərəfindən də diyor sizi təmin edərəm: Bakıya o tərəfdən heç bir hücum olmaz. Çünki dəniz əlimizdədir. Diyor əgər dava olsa hüsnü-təvəccöhümüz sizin tərəfinizdədir. Əlbəttə, əgər Bakıda və Azərbaycanda bu münasibətlə talan və ixtişaş olmaz isə. (Soldan səslər: "Olmasa da özləri edərlər!") Əlbəttə, cavab verdim ki, təbiidir Bakıda və Azərbaycanda ixtişaş ola bilməz. Zatən Azərbaycan milləti isbat edəcəkdir ki, rus milləti əleyhinə bizim tərəfdən müamilə ola bilməz. Amma təbiidir, düşmən nümayəndələrinə, rus millətinə fəna müamilə bulunmaz. Əlbəttə düşmən müəyyən olandan sonra düşmən nümayəndələrindən xilas olmaq üçün lazımi təşəbbüs ediləcəkdir. Buna da general Qurinin razılıqdan başqa ayrı cavabı olmazdı. Deməк necə ki, görürsünüz bu surətlə ingilis nümayəndələrilə əvvəlinci görüşdə Şatelvort ayrı bir fikirdə idi, bir növ guya bitərəf qalmaq fikri var idi. Amma axırıncı dəfə Quri tərəfindən təminat verildi ki, Azərbaycan hüdudlarını heç kəs keçə bilməz. Hətta deyir, hər kəs keçsə həbs edərik. (Soldan gülüş). Deməli bu xüsusda təminat vermək istədi. Amma sözün doğrusu təhlükəni biz özümüz gərək görək. Biz çox sözlər eşitmişik. Bu sözlərə də böyük məna vermək olmaz. İngiltərə kimi hürr bir məmləkət nümayəndələri yalan söyləməzlər. Amma bəzən də söylədikləri şeylər üstündə dura bilmədiklərini aşkar edirlər. Biz görürük, bizə çox da vədlər verildi. Bizə dedilər Dağıstan təhlükədə degildir. Dağıstana kimsə hücum etməz. Denikin ancaq Petrovskini

baza (əsülhərəkə) olaraq tutacaq. Petrovskidən bu tərəfə keçməz. Vəqtilə bizə bu təminatı verdilər. Bununla bərabər Şatelvortun özü ilə danışıb bizə verdigi təminatı dedim və bununla bərabər dedim ki, bu vədlər ilə bizə mane oldunuz. Ola bilərdi ki, sizin vədləriniz olmasaydı biz Dağıstana böyük kömək göndərərdik və bəlkə Şimali Qafqasiyada düşməni dəf edərdik. Daha bu gün Dağıstan məğlub və sərhəddimiz təhdid altında olmazdı. Siz o vəqt vədlər verdiniz bunun nəticəsi nə oldu? Nəticədə Denikin Şimali Qafqasiyayı tutdu.

Bundan maəda ayrı vədlər də var idi. Bu vədlər tamamilə icra olunmadı. Bunu kimsə inkar etməz. İngiltərə komandanlığı da inkar etməz. Bununla bərabər hökumət İngiltərə komandanlığının vədlərinə böyük məna veriyor. Fəqət burası da məlumdur ki, qonşuya ümid olan şamsız yatar, özümüz hazır olmalıyız.

İmdiyə qədər əlbəttə ki, verilən vədlərin nə olduğunu özümüz bilirdik. Denikinlərin verdigi vədlərin də mənasını bilirdik. Onların heç bir əhəmiyyəti olmadığını da cümləmiz bilirdik. O məqsəd ki Denikin ordusu təqib ediyor, Rusiyayı bolşeviklikdən xilas etsin, onu əskisi kibi birləşdirə bilsin. Bu o qədər böyük bir məqsəddir ki, Denikinin özünü təhlükə altına alıyor. Özləri üçün bu qədər böyük təhlükə olduğu zaman arxada da özləri üçün böyük bir təhlükə təşkil etməzlər. Ancaq məəttəəssüf o generallar özlərini bu kibi böyük məqsədlərlə Rusiyayı birləşdirmək üçün xüruc etmiş kibi göstəriyorlar. Halbu ki, onlar özləri Rusiyayı dağıtmışlardır. Rusiyanın çarizm hökuməti böyük səhvlər ediyordu. Şimdi onun nümayəndələri də haman səhvləri ediyorlar.

O generalların məqsədi Rusiyanın ehyası degil, onların məqsədi bir millət tapmaqdır ki, ona hakim olsunlar. O əlbəttə ki, kim ola bilər. O Zaqafqasiya ola bilər. O yeni təşkil

edilmiş Gürcüstan ola bilər, Azərbaycan ola bilər. Ola bilər ki, Ermənistan Cümhuriyyəti də olsun.

Bugünkü tələbləri gündən-günə artır, dünən Dərbənddən irəli gəlmək istəmiyordular. Bu gün Qızılburuna soxulmaq istiyorlar. Əlbəttə bunlar bəhanədir. Yoxsa onlar Qızılburunu nə edəcəklərdir. Məlumdur ki, Qızılburunun heç bir sövqülceyş ya başqa əhəmiyyəti yoxdur. Onlar Bakının suyunu kəsmək istiyorlar. Bununla bizim üzərimizə edəcəkləri hücumları üçün zəminə hazırlıyorlar. Hücum da bir tərəfdən degil, Qara dənizdən də qara qüvvələr gəliyor. Bu qara qüvvə bizimlə hər zaman dost olan Gürcüstan üzərinə də gəliyor. Məqsədləri əski Zaqafqasiyayı ələ almaqdır. Plan çox açıqdır. Heç gizlətmək də istəmiyorlar. Hər yerdə sərhəd məsələsini ortaya çıxarıyor və diyorlar ki, sonra baxarız, sizinlə düşmənligimiz yoxdur. Ancaq sərhəd böylə olsun, filan yer filan olsun. Əlbəttə iki tərəfi var. Ona görədir ki, qara qüvvələr təhlükəsi altında müharibə etmək ehtimalı da vardır. Azərbaycan ilk gündən müharibə əleyhinə olduğunu isbat etdi, heç kəs ilə müharibə etmək istəmədigini bildirdi. Hər yerdə sülh ilə işin içindən çıxmaq istədi. Bununla bərabər indi etiraf edəriz ki, bu günkü məsələ həyat-məmat məsələsidir. Şimdi artıq heç bir güzəşt ola bilməz. Bu işdə bir adam qalıncaya qədər vətən və istiqlalı müdafiə edəcəgiz. Çünki bu iş ölmək-qalmaq məsələsini həll edəcəkdir. (Sürəkli alqış)

Bugünkü təhlükə yalnız bizim istiqlalımıza degil, bu təhlükə bizim qəlbimizə, ruhumuzadır. Bakının üzərinədir. Bu barədə qan tökəcəgiz. Qan tökmək yaxşı degil, lakin bu töküləcək qan müqəddəsdir. Əlbəttə ki, bu uğurda millət zəhmət çəkəcək. Bunun fəna cəhətləri var. Bununla bərabər bunun yaxşı tərəfləri də vardır. Yaxşı tərəfi budur ki, Denikin bizim gözümüzü açdı, Zaqafqasiyada iki millət qardaş oldu.

Bən burada cəsarət edib deyə bilərəm ki, bu millət nümayəndələrinin başında olanlar bənim özüm və gürcü milləti nümayəndələrinin çox səhvləri var. Biz çox istədik ki, bu iki millətin arasını vuraq. Fəqət olmadı. Bu iki millət isbat etdi ki, onların həyatı birdir. Haman millətlər Gürcüstan ilə Azərbaycan bu təhlükə qarşısında birləşəcək, bir tən vahid olacaqdır. Denikin təhlükəsinin də yaxşı cəhəti burasındadır. Sağ olsun Denikin ki, bizi birləşdirməyə xidmət etdi. (Şiddətli alqış, parlaman ayağa qalxaraq Gürcüstan nümayəndələrini alqışlıyorlar). Nümayəndələr lojadan qalxaraq təzim ediyorlar. Alqış şiddətləniyor. Bunu biliniz ki, bu məsələdə təhlükə hər iki millət üzərindədir. Bu təhlükəni hər iki millət bir tən vahid kibi öz üzərindən rədd edəcəkdir. Buna etimadım çoxdur. Şübhə yoxdur ki, həm Gürcüstan, həm Azərbaycan nə qədər mümkündür qan tökülməyə razı olmayacaqdır. Bu məsələnin sülh ilə həll edilməsinə təşəbbüs edəcəkdir. Ancaq ümid etmiyəlim ki, bu məsələ sülh ilə həll edilsin. Hərgah onların yaman bir məqsədləri olmasaydı, böylə teleqraflar göndərməz idilər.

Şimdi biz onların qarşısına çıxıb da vətənimizi müdafiə etdikdə bütün cahan demokratiyasına bildirəcəgiz ki, biz həqqi müdafiə ediyoruz. Bulunmazsa da, həqq bizim tərəfdə olduğu üçün nəinki yalnız İngiltərə komandanlığı, bütün dünya demokratiyası bizim tərəfdə olacaqdır. (Alqış)

*"Azərbaycan", 8 iyun 1919, №198*

Qüva – qüvvələr
Vüsul oldu – çatdı
Xüruc – üsyanetmə, çıxma
Ehya – dirilmə

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**5 iyun 1919**
(keçən nömrədən mabəd)

**Sədr**: Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** – Mötərəm məbuslar! Bu gün bəlkə Azərbaycan Cümhuriyyətinin ən az görülən tarixi bir günüdür ki, biz burada oturmuşuq. Biz bu gün hökumət Rəisinin söylədiklərini həpimiz qulaqlarımızı, gözlərimizi açıb bütün diqqətlə dinləyib bütün mənası ilə önümüzdəki vaqeəni dərk eləmək istəyirik. Bu gün degilən sözlər, bu gün çıxarılacaq qərarlar daha əvvəl neçə ay, neçə həftələr bundan əvvəl degilirdi. Fəqət o qədər atəşin və həssas təsir edəcək dərəcədə degildi ki, necə ki, bu gün görürük.

Rusiya inqilabı nəticəsində istibdad zülmündən qurtaran zəhmətkeşlər, çarizm zəncirindən xilas olan millətlər kəndi ixtiyarlarını əllərinə aldıqları vəqt onların düşməni olan müstəbid qüvvələr ümidlərini bütün kəsməyib genə əski mövqelərini qaytarmaq niyyətindən vaz keçmiyordu. Və yenə əski əsarəti və əski zəncirləri yaxasını yenicə qurtarmış millətlərin üzərinə salmağa hazırlaşırdı.

Əski rus generalları dobrovol-könüllü ordu adilə gah Sibiryada, gah Kubanda, Donda birləşməgə başladılar. Onlar yaxşı bilirdilər ki, Rusiya çarizmini yıxan Rusiya demokratiyasını əzmədikcə istibdad zəncirlərini xırda millətlərin boynuna vuramayacaqlar. Ona görə ən əvvəl işləri rus demokratiyası ilə çarpışıb bir neçə yerlərdə hakimiyyətlərini qura bilmişlərdir. Lakin Rusiya demokratiyası əlində olan qüvvələr

o qədər böyükdür ki, yerə sərilmiş generallar bir də o qüvvəyə qarşı dura bilməzlərdi. Fəqət onların köməginə Avropa imperialistləri, Avropa yoldaşları qoşub onlara silah ilə para ilə yardım edirlər. Onlar bilirdilər ki, bu gün Rusiyada azad olanların göstərdikləri misallar bütün dünyaya keçəcəkdir. Hər yerdə zəhmətkeşlər, məhkum millətlər zülümdən qurtarmaq istəyəcəklər. Ona görə Avropa sərvətdarları, imperialistləri bütün öz silahlarını, toplarını, pullarını verib əsarətdən qurtaranları yenidən rus generalları vasitəsilə zəncirə almağa və Rusiya istibdadını qurmağa qalxışdılar.

Bir neçə gün əvvəl məhkumiyyətdən qurtaran Azərbaycan xəlqinin hürriyyət və istiqlalının bir sənəligini bayram etdik. Bu nümayişlər, teleqramlar və bu hislər göstərdi ki, bu duyğu könülləşmişdir, xəlq daha əsir olmaq istəmiyor, hürr yaşamaq istiyor. Fəqət əfəndilər o qara qüvvələrin bütün məfkurələri hakim olmaqdır. O qara qüvvələr qüvvətlənib toplar, tüfənglər ilə cürətlənib aşağa gəlməkdədir. Birinci dəfə Gürcüstana hücum etdikdə Gürcüstan xəlqinin qəti müqaviməti nəticəsində geri dönüb bir zəif yer axtardılar ki, asanlıqla oradan girsinlər. Ona görə Dağıstan tərəfini götürdülər. Və bu da göstərdi ki, onlar Dağıstanı seçməgə haqlı imişlər. Çünki Dağıstan üzərinə gələnə qara qüvvələrə Dağıstan hökuməti başında oturanlar tərəfindən müqavimət görülmədi. Bura gələn teleqraflar və nümayəndələr Dağıstan hökuməti başında oturan və Rusiya istibdadının ehyasına çalışan xainləri lənət ilə də yad edirlər.

Heç şübhə etmək lazım degildir ki, tarix də, gələcək də onları yad edəcəkdir.

Əfəndilər! Artıq onlar bu gün bizim qapımızı dögüb, bizim üstümüzə gəlirlər. Bu gələn qara qüvvənin məfkurəsi yaman olduğuna görə, bu kürsüdən dəfəhlər ilə söylədik ki, bu gün müharibə Dağıstanda gedirsə, yarın bu müharibə bizim

üzərimizə gələcəkdir. Bizim üçün təhlükə olduğunu bilirsək, Dağıstanın yardımına qoşmaq düşmən ilə orada çarpışmaq lazım idi.

Lakin məəttəəsüf bir tərəfdən bizdə olan süstlük və səhlənkarlıq, digər tərəfdən İngiltərə komandanlığının sözləri və hiyləsi ki, könüllü ordu Petrovskdan bu tərəfə gələmiyəcəkdir. Ancaq Petrovskini bolşeviklər ilə mübarizə üçün üssülhərəkə olaraq tuturlar. Könüllü orduya Dağıstanı tutmağa və Dağıstan xəlqini yenidən zənciri əsarət altına almağa imkan verdi. Digər tərəfdən Zaqafqasiya cümhuriyyətləri arasında birlik olmadı ki, əlbir olub bu qara qüvvələr qarşısına mübarizə etsinlər.

Bu imdi oxunan teleqraflar əlbəttə könüllü ordunun məfkurəsi nəticəsidir. Bunlar aşkar bir işdir. Bu teleqraflar açıq-açığına arsızcasına diyor ki, sizi də qul eləmək və sizə ağalıq eləmək istiyoram.

Bununla bərabər İngiltərə komandanlığı təsəlli verir və diyor ki: təhlükə yoxdur və bizi mühafizə edəcəklər. Lakin bu günkü hal və bu teleqraflar göstərir ki, bizə özümüzdən başqa söykənəcək bir dirək yoxdur. Millət gərək kəndisinə söykənsin.

Biz yaşamaq istəyirik və Avropadan, madam ki Avropa demokratiyası hökuməti əlinə almamışdır kömək gözləmiyoruq. Biz özümüzə güvənməliyiz və müqəddəratımız bir olan yanımızdakı qonşularımız ilə əlbir işləyə biləriz.

Bir də əfəndilər! Hərgah bu gun söylənən söz yalnız söz degildirsə, əgər Mayın 28-də bizim istiqlaliyyətimizin bir sənəlik bayramında olan nümayiş doğrudan da xəlqin fikri, amalı və arzusu isə, Azərbaycan içərisində bir adam tapılmaz deməsin ki, biz həpimiz hökumət ilə əlbir o qara qüvvələri ilə mübarizəyə hazırız. (Sürəkli alqış)

*(Bitmədi)*

***"Azərbaycan", 10 iyun 1919, №200***

## İÇİMİZDƏKİ DENİKİNLƏR

Bir Denikin var ki, bizi xaricdən təhdid ediyor. Bir çox denikinlər də var ki, içimizə dolub, ən xətərəli yerlərimizdə gizlənib də bizi daxildən qorxuduyorlar.

Heç şübhə edilməsin ki, bu daxili denikinlərimizin qorxusu, xarici Denikinin qorxusundan daha böyük və daha xətərlidir. Çünki xarici Denikin göz önündədir, aşkardır. Daxili denikinlər isə içimizdə gizlənmişdirlər, özlərini göstərmiyorlar. Gizli düşmənin aşkara düşməndən daha təhlükəli olduğu hər kəscə müsəlləmdir.

Bir vəqt olar ki, üzərimizə hücum edən xarici düşmənin bəlasını dəf etmək üçün əl qalxızmaq, irəri atılmaq istədikdə görərik ki, daxili düşmənlərin hiylə və dəsisəsi sayəsində qollarımız bağlı və ayaqlarımız bənddədir. Bir dərəcə ki, heç tərpənməgə halətimiz yoxdur.

Azərbaycanımızda asudəlik ilə rahat-rahat yaşamaqda olan müxtəlif ünsürlərin içində öylə naşükür, öylə həsudlar, öylə qaraqəlblilər var ki, Denikini ürək döyünməsilə gözləməkdə və rus qaradovuyunun həsrətini çəkməkdədirlər. Bunların bir çoxları xəzinəmizin pulu ilə dolanıb da "aldığım pul rus dövlətinin puludur" – deyə özünü də, özgələri də aldatmaqla təsəlliyab olub, naşükürlüklə yedikləri çörəgimizi özlərinə halal bilirlər.

Bunların və böylələrin sayəsindədir ki, bizim bütün rəsmi kağızlarımız, ərizələrimiz, sənədlərimiz həpsi rusca yazılıb. İdarələrimiz sabiq rus çarlığının "konselyariya"larına döndügündən biçarə türk demokratiyası öz milli dövlətlərində də yenə tərcümanlar aramağa məcburdurlar. Bütün Qafqaz

millətləri arasında ümumi bir lisan hökmündə olan türk dili, guya o qədər naqabil imiş ki, ərizə yazmağa da yaramazmış... Halbuki bunun hamısı – çörəgimizi yeyib də üzümüzə sögən denikinlərin həsrətini çəkən və cümhuriyyətimizi rus dövlətinin bir parçası hesab edən və dövlətimizə degil, məhz pula və paraya qulluq edən, xain, həsud və qaraqəlbli çinovniklərin vətənimizdə yemlənməsi bərəkətindədir.

Xaricdəki Denikin ilə aramızda bir müharibə başlanırsa, heç şübhə edilməsin ki, daxilimizdəki yemləyib bəslədigimiz denikinlər öz həsrətkeşlərinin yollarını asanlaşdırmaqdan ötrü içimizdə cürbəcür xəyanət və cinayətlərə mürtəkib olub da bizə arxamızdan xəncər yaraları vurmaq və zərbələr yeritmək təşəbbüslərindən çəkinməyəcəkdirlər.

Ona görə, iştə bu yerdə filhəqiqə dördgözlü olmağımız bütün şiddətilə içab edər. Qəhrəman əskərlərimiz xarici düşmənlərimizlə müharibə edərkən, arxada qalanlarımız da arxamızda gizlənib də pusquda oturan daxili düşmənlərimizlə əlləşməlidirlər. Onlar bizləri pusurkən biz onları pusmalıyıq ki, əhyanən bizə qəflətən bir xətər yetirməsinlər.

Bu yolda hökumətimiz də, millətimiz də bərabər işləməlidirlər. Hökumət hər bir şübhəli görünənləri rədd və tərd etmək üçün heç bir şeydən çəkinməməlidir. Bu gün daha nəzakət və mərhəmət zamanı degildir. Zatən xainlərə qarşı nə mərhəmət?

Millət dəxi böylə bir şəkk və şübhə iqaz edən və dövlətimizə qarşı sui-niyyətilə məlum olan adamları hansı millətdən olursa-olsun, fərzi-məhal olaraq müsəlman da olsa – bilib də hökumətimizə və lazım olan yerlərə xəbər verməlidir.

İstiqlalının səneyi-dövriyyəsini dünən şadlıq və şənlik ilə keçirmiş olan millət, bu gün fövqəladə dəmlər keçirməkdədir. Candan əziz olan istiqlalımızı əlimizdən almaqla canımızı al-

maq istiyorlar. Buna görədir ki, istiqlalımızı əldən verməmək üçün bu fövqəladə zamanda fövqəladə işlər də görməlidir ki, o işlərin ən mühüm raqi, özümüzü xarici deniikinlər ilə bərabər, daxili denikinlərdən də qorumaq təşəbbüsüdür.

**Hacıbəyli Üzeyir**
*"Azərbaycan", 10 iyun 1919, №200*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**1919, 5 iyun**
(keçən nömrədən mabəd)
(Əhməd Cövdət Pepinovun nitqinin mabədi)

Əfəndilər! Bu kürsüdən siz dəfələr ilə gördünüz ki, biz burada firqə münazeələrində bulunduq, hökuməti dəfələr ilə tənqid etdik, yanlış yolları göstərdik. Bizimlə bərabər fəhlə və kəndçilər içərisində də bu siyasi mübarizələr var idi. Bu mübarizələr bir dərəcəyədək olar. Nə qədər biz burada rahət otururuz, daxili işlərimizdə mübarizə etmək olar. Fəqət zəmani ki üzərimizə qara qüvvələr gəliyor, düşmənlər bizi təhdid ediyorlar və düşmənlər burada nə kürsü qoyacaqlar və nə də parlaman. Öylə bir zamanda bizim aramızda firqə münazeəsi ola bilməz. Firqəçiligi boşlayıb özümüzü müdafiə etmək üçün silaha sarılar özümüzü, vətən və sərhədlərimizi müdafiə üçün bilafərq silk və məslək sərhəddə qoşarız. (Alqış)

Əfəndilər! Düşmən nə ilə qüvvətlidir?

Əgər biz bu gün açıq nəzərlə baxarsaq görəriz ki, düşmən tərəfi-müqabilin miskinligi ilə, özünü müdafiə etməmək ilə qüvvətləniyor. Burada bir xəlq var ki, kəndi iradəsilə müqəddəratını əlinə almış, öz hürriyyətini kimsəyə əlindən qaytarmaz. Bu gün biz üzümüzü Avropa demokratiyasına tutub ondan müavinət istəsək, o zaman Avropa demokratiyası deyər ki, millət – vətən istiqlaliyyət yolunda nə yapdı? Təhlükə qarşısında nə etdi? Əgər bir təhlükə varid olan kibi təslim olarsa, o zaman deyəcəklər ki, bu istiqlaliyyəti bir neçə adam özü üçün istəyirdi. Bütün millətin arzusu degildi. Əgər millət istəsəydi

qurban verərdi. Əgər bu uğurda biz can versək, onda hər yerdə üzümüz ağ və alnımız açıq olar. Biz həqqimizi müdafiə etmək üçün bu gün düşmənə müqavimət göstərməliyiz. Ola bilsin ki, məğlub da olaq, olsaq da eybi yoxdur. **Gələcəkdə əhfadımız, tariximiz bizi yaxşılıqla yad edəcəkdir.** Xanlıq zamanlarından bir Gəncəli Cavad Xanın öz istiqlaliyyəti müdafiəsində göstərdigi rəşadət və fədakarlığını tarix heç bir zaman unutmayacaq. Əgər biz də düşmənə müqabilə etsək, bir vəqt deyəcəklər ki, Azərbaycan yaşamaq istədi, lakin onu qoymadılar. Bu bizdən ötrü ar degil, şərəfdir, gələcəkdə tariximiz bunun ilə başlanacaq.

Əcəba bu xəlqdə yaşamaq qabiliyyəti yoxmu? Biz acizanə səfilanə düşmənə məslimmi olacağız? Hər bir fərdimiz, kişilərimiz və arvadlarımız bu fikirdədirlər ki, bir tən vahid kibi yuxarıdan gələn düşmənə bütün varlığımız ilə qarşı duraq, çarpışmaya hazır olaq. Bu gün biz bu yolda qan tökəcək olursaq, sabah bizim qanımızdan minlər ilə mücahidlər meydana çıxacaq zülm ilə istibdad ilə çarpışacaq Azərbaycan istəyən həqq və hüququ onlar alacaqlar. (Alqış)

Əfəndilər! Rəisi-Vükəlanın oxuduğu teleqramlara nəzərinizi cəlb etsəniz görərsiniz ki, onların qəzetələrdə nəşr edilməsi də istənilir. Bu bizi hədələməkdir. Bunun ilə nə demək istiyorlar? Onlar cəmaəti qorxutmaq istiyorlar. Dağıstan 200 adama təslim oldusa, Azərbaycan onları o cür qəbul eləməz. Onlar yanılıyorlar, Dağıstandakını Azərbaycanda görə bilməzlər. Bu tarixi gündə bizim içərimizdə ayrılıq və nifaq ola bilməz.

Bu gün Zaqafqasiyadakı qüvvətimizi azaltmayaq, Denikinin qüvvəti miskinlikdən və acizligindən irəli gəliyor. Gürcü xəlqi ilə bərabər gedərsək, bütün dünya demokratiyasının hüsnü-təvəccöhü bizim tərəfimizdə olacaqdır.

İştə bunlara istinadən əfəndilər deyərdim ki, gələcəgimizə ümidlə və qəvi ümidlə baxıyoram. Bütün varlığımızı toplayıb qonşularımız ilə bir olub zülm və istibdad qarşısına çıxarsaq düşmən qüvvələri bizə heç bir şey edə bilməz. Çünki:

*"Zülmün topu var, gülləsi var, qələsi varsa*
*Həqqin də bükülməz qolu, dönməz üzü vardır".*

**Sədr** – Söz Məhəmməd Əmin Rəsulzadənindir.

**Məhəmməd Əmin Rəsulzadə** – (Alqışlar altında kürsiyi-xitabətə çıxıyor)

Möhtərəm məbus əfəndilər! Qara Denikin ordusunun kağızlarının nə mənada olduğunu və o kağızlar ilə nə demək istədigini möhtərəm hökumət Rəisi burada elan etdilər. Fəqət, bən sizə bir növ başqalarını əsirlik altında saxlamaqdan və o əsirlikdən faydalanmaqdan, onlardan zövq almaqdan doymayan keçmiş ağalıqlarının həsrətində qalan əfəndilərin xəyallarından bəhs edəcəgəm. Görünüz bu əfəndilər nə təsəvvür edirlər və xırda millətlər ilə mübarizəni nasıl asan düşünüyorlar. Onlar öylə xəyal edirlər ki, az qüvvə ilə istədiklərinə nail olarlar. Siz bilirsiz ki, bizim üzərimizə gələn qara qüvvələrin nümayəndələri Batumda da oturuyorlar. Və Batumda onların qəzetələri də vardır. Biz burada hənuz mübarizəyə hazırlaşarkən onların qəzetəsi Bakıyı almış və Parlamanımız üzərinə rus bayrağını vurmuşdur. Qəzetə qarşımdadır. Yazır ki: Tiflisdən gələnlərin dediginə görə Denikin ordusu gəlmiş, Bakıyı almış və rus bayrağını Parlaman üzərinə sancmışdır. Denikin ordusunun Bakıya yavuqlaşması ilə şəhərin bəzi inqilab müəssisələri tərəfindən hazırlıqları olmuş, müqavimət üçün təşəbbüslər edilmiş. Fəqət müsəlman əhalisi müavinət etmək istəməmişdir. Hökumət də süst olmuş, məəttəl qalmışdır. Təşkilatların müqavimət etmək

istəmələrinə yerli əhali mane olmuş. Şəhərdə cüzi ixtişaş düşmüş, Denikin ordusu da bu ixtişaşdan istifadə edərək şəhərə daxil olmuş və rus bayrağını dikəltmişdir. Hökumət bitərəf qaldığından ona əl vurmamışlar. İstiyorlar ki, ona bəzi imtiyazat versinlər. Məsələ bununla həll olub getmiş.

Bu Batumda nəşr olunan Denikin qəzetəsinin fikri və təsəvvürü nəticəsidir. İştə onların xəyalı, əski Rusiya generalları yatanda yuxuda da rahət ola bilmiyorlar. Necə ola bilər ki, onlar general ikən əli altında əskər ordu olsun çəkmələrinin altını öpən bir millət olmasın. Onlar gəliyorlar və zənn ediyorlar ki, çəkmələrini öpməgə hazır bir millət vardır. Lakin onu bilsinlər ki, artıq Azərbaycanda çəkmə öpən bir vətəndaş da qalmamış. (Şiddətli alqışlar)

Əfəndilər! Onlar öylə düşünüyorlar ki, kəndi hürriyyət və istiqlalını elan etmiş və yolda bütün məsul firqə və heyətlər namindən dəfəhlər ilə bu müqəddəs kürsüdən var qüvvəsilə, malilə, canilə hazır olduğunu və istiqlaliyyətini sağlayacağını elan edən bir millət, bir millət ki mayın 28-də heç bir təhrik və təşviq olmadan Bakı tarixində misli qeyd edilməmiş bir səmimiyyət ilə küçələrdə bayram ediyordu. Hətta bayırda görünən çarşablı qadınlar da bu bayramı sevinc ilə qarşılamışlar və küçələrə çıxmışlardı. Böylə bir milləti asanlıqla təhti-hakimiyyətlərinə ala biləcəklərdir. Buradan doğru söylədilər ki, dili xörəyə çatmış bir sənəlik növzad artıq süd yeməz. Bunlar boş söz və bihudə xəyal degildi. Denikinlər və onun hampaları qalsınlar öz xəyalları ilə və zənn etməsinlər ki, Azərbaycanda öylə xain bir hökumət olur ki, düşmənə müqavimət etməsin, öylə olsun ki, Denikin ilə mübarizə edənlərə mane olsun. Bən inanıram ki, Mayıs nümayişi həqiqi və səmimi bir nümayiş idi. Əgər qan tökmək lazım gələrsə millət hazır olacaqdır. Çün o bilir ki, qan töküb müqavimət

etməsə yenə də onun hürriyyətini alacaqlar. Təkrar onu zəlilanə bir surətdə əzəcəklər, o miskin olacaqdır. O, buna razı olmaz. Miskinligi qəbul etməz. Hər bir təhlükəyi nəzərə alıb çarəni düşünür, səlabət ilə meydanı müharibəyə çıxar və müəzzəz bayrağımızı Azərbaycan sərhədində saxlar, onlara isə ancaq boş bir arzu qalır. (Sürəkli və ümumi alqış)

Cəmaət! Əlbəttə biz bütün təhlükəyi təsəvvür etmək ilə bərabər qətiyyən onu kiçiltməməliyiz. Və öylə baxmamalıyız ki, bu təhlükə asanlıqla rəf olar, keçər-gedər. Çünki düşməni zəif təsəvvür edən aldanıyor. Hər kim ki öz hürriyyətini və istiqlalını müdafiə etmək istərsə tədbirli və ehtiyatlı olmalıdır. Ona görə cəmaət bütün sinifləri ilə hökumət ətrafında birləşsinlər və hökumətə desinlər ki, millətin istədigi artıq aydın və müəyyəndir. Əgər hökumətdə süstlük olursa, Batum qəzetəsinin xəyalına cüzi də olsa ümid verirsə desin ki, sən* bizim hökumətimiz degilsən. Sənin kimi hökumət tarixdə lənətlər ilə yad olunur. Fəqət mübarizəyə hazır hökumət də deməlidir, madam ki bəndən bu tələbi edirsiniz, bütün cəmaət və firqələr var qüvvələrini, var etimadlarını hökumətə verməlidir. Əgər cüzi tərəddüd göstərilsə o vəqt sizin adınız əbədiyyən lənətlər ilə yad olunacaqdır. Bu gündən parlaman hökumətə səlahiyyəti-kamilə verməlidir ki, öz arasından bir heyət təşkil edib ümumi səfərbərlik, şiddətli qanunlar və düşmənlər əleyhinə müharibə tədarükü görsün və sonradan hesab vermək şərtilə xəzinədən lazım olduğu qədər para xərcləsin. Çünki bu gün Dərbənddə oturan və bizim istiqlalımızı gündə bir məna ilə teleqraflar göndərib təhdid edən bir qüvvət, öylə bir qüvvətdir ki, vəqtilə məşhur bir siyasiyunun

* Burdan I cild səh. 678-də yoxdur. – Ş.H.

dedigi kimi Azərbaycan həyatına döndərilmiş bir tapancadır. Nə qədər o tapanca bizə tərəf tutulubsa biz rahət oturamayız. O tapancaya qarşı bizim qalxanımız hazır və mühəyya olmalıdır. Keçən dəfə dedim ki, o tapancanın çıxmağına əl atılınca biz hərəkətə və müdafiəyə gəlməliyiz. İmdi biz görüyoruz ki, çaxmağa əl atıyorlar. Böylə bir təhdidi görməmək üçün kor olmalıdır. Binaənileyh hazırlaşmalı və müəyyən qüvvətlər ilə sərhədə qoşmalı və çaxmağa uzanan düşmən əlini bir an əvvəl biləgindən vurmalıdır. (Alqış)*

Əfəndilər! Bənə öylə gəliyor burada bizə necə ki, əvvəlki natiq dedi kəndi qüvvətimizi o qədər də kiçiltməməliyiz. **Biz Azərbaycan istiqlaliyyətinin tarixini yazıyoruz. Bir mühərririn müqayisəsinə tarix mətbəxə bənzər. Nasıl ki, bir aşbaz mətbəxdə kəndi bişirdigi aşın ləzzətini pək o qədər də tanımaz. Öz zəhmətindən və çox da xoş olmayan mənzərədən mütənəffir olur. Çox zamanlar öz işindən bizar olur. Fəqət onun əlindən hasil olan lətif xörək başqalarının hüzuruna çıxar, xörək yeyənlərin vəsilə həyatı olur.**

**Azərbaycan istiqlalını, Azərbaycan tarixini və gələcək səadətini hazırladığımız zaman kəndimizin də tənəffür etdigimiz və xoşumuza keçməyən bir çox əhvallar var. Bunlara təhəmmül etməliyiz. Biz Azərbaycan tarixini hazırlayanlar səy etməliyiz ki, gələcək nəsil bizim əlimizdən çıxacaq asara lənətxan olmayıb, onu rəhmətlərlə yad etsin.**

**Məmləkətin müdafiəsində süstlük əsəri göstərənlərə lənətlər ediləcək və lənətlər yağdırılacaq o adamın başına ki, burada zəiflik göstərib təslim olmaqdan bəhs eləsin.** (Şiddətli alqış).

---

* Burdan sonrakı hissə I cilddə səh. 678-dən sonrakı səhifələrdə də yoxdur. – *Ş.H.*

Əfəndilər! Əgər millətin müqəddəratını kəndi əllərinə alıb onun adilə söz söyləyənlər bu gün tərəddüd göstərərlərsə, onların burada yeri yoxdur.

Əgər siz isbat etsəniz ki, bir millətsiniz vətəninizin müdafiəsində səbat göstərə bilərsiniz, istiqlaliyyətinizi saxlaya bilərsiniz, hər bir təhdid qarşısında təslim olmazsınız, o zaman xaricdən baxanlar sizin müqəddəratınıza laqeyd olamaz, sizin həqqinizdəki fikirlərini təbdil edərlər. Madam ki özünüzü müdafiə etməzsiniz o zaman başqalarından kəlayə etməgə həqqiniz yoxdur. Həqsizlik mövqeində qalmamaq üçün Azərbaycan bir tən vahid kibi yekvücud olaraq bütün qüvvətini toplayıb müdafiə etməlidir.

Bu gün bizdən ötrü bir imtəhan meydanı açılmış burada biz öz dost və düşmənimizi tanıyacağız. Əsil dost o dostdur ki, öz dostluğunu fəlakət günündə bildirər. Zərbülməsəl diyor ki, yaxşı dost yaman gündə bilinər. Bu gün Gürcüstandan gələn səslər oradan eşitdigimiz qardaş səsi bizim yalnız olmadığımızı bildirir. Və bildiriyor ki, Gürcüstan bizimlədir. (Şiddətli və sürəkli alqış parlament ayağa qalxaraq nümayəndələr lojasında isbati-vücud edən Gürcüstan nümayəndələrini alqışlayır)

Əvət... biz heç bir vəqt cəng və cidal tərəfdarı olmadıq, heç bir zaman kimsəyə elani-hərb etmədik. Fəqət istərəm bu məna ilə təfsir edilməsin ki, hər şeyə təslim olacağız. Biz sülh istiyoruz. Fəqət "hazır ol cəngə əgər istər isən sülh və səlah!" hikmətinin hökmüncə sülh istəmək üçün bizi məcbur ediyorlar ki, cəngə hazır olalım. Başımız üzərində təməvvüc edən 3 rəngli Azərbaycan bayrağı əvəzinə şiddətlə müqavimət görmədən rus bayrağı sancıla bilməz.

Başımız üzərində təməvvüc edən o üç boyalı lavayi-istiqlalımız qanlara boyanmadan bayraqdarları birər-birər qətl olunmadan qətiyyən enməz. Burada dedilər: həqiqətən "həqqin

bükülməz qolu, dönməz üzü vardır". Azərbaycan bayrağını endirmək asan işlərdən degildir. Azərbaycanın şöleyi-istiqlalını söndürmək istiyorlar, fəqət əfəndilər:

Bir şəm ki, haqdan yana heç badilə sönməz! (Sürəkli və gurultulu alqışlar).

*"Azərbaycan", 12 iyun 1919, №202*

Münazeə – sözləşmə, mübahisə etmə
Əhfad – nəvələr
Süst – aciz
Müəzzəz – əziz, qiymətli
Tənəffür – nifrət etmə
Lənətxan – lənətləyən
Təməvvüc – dalğalanma, çalxalanma

## MACƏRAÇILIQ

Bir var ki, rast, məqul, sağlam bir politika yürütmək, bir də var ki, macəraçılıq saiqəsilə meydana atılıb, işin aqibət və nəticəsini mülahizəyə almadan, hər nə olur-olsun deməklə siyasət məntiqinə müğayir, mənafei-ümumiyyəyə zidd, səlaməti-milliyyə üçün qorxulu, asayişi-məmləkət üçün zərərli olan hərəkət və təşəbbüslər icrasilə ümumi bir fəlakət hazırlamaq.

İnsanı böylə macəraçı olmaq əməlinə vadar edən səbəblər çox ola bilər, fəqət ümdələri üç qism səbəbdir.

Birinci cəhalət, ikinci sui-niyyət, üçüncü mənəmlik.

Bir cahilin siyasət işlərinə qarışması siyasət meydanında rol oynamaq təşəbbüsü, mənsub olduğu millət, övladı olduğu vətən, təbəəsi olduğu dövlət üçün böyük zərərlər törədə bilər. Böylə cahil bir adam özü kibi qanmaz və anlamazları da başına cəm edib birdən-birə öylə qeyri-məqul hərəkətlər çıxarda bilər ki, nəinki "qaş düzəldərkən göz tökər", hətta başın özünu də cəhaləti yolunda fəda edib böyük bir bərbadlıq meydana gətirər.

Sui-niyyət ilə macəraçı olmaq istəyənlər isə daha təhlükəlidirlər. Çünki bunlar hər nə edirlərsə bilə-bilə edirlər. Aqilanə və səyli əllər ilə qurulmuş olan binaları, qəsd və təəmmüd ilə uçurmaq istiyorlar ki, əməllərinin nəticəsi olacaq bu xarabalıqları seyr və tamaşa ilə ləzzətyab olsunlar, iblis təbiətli və şeytan ruhlu yaranmış olan bu macəraçılar üçün heç bir pak, heç bir müqəddəs şey yoxdur. Onlar üçün millət, vətən, istiqlal həpsi boş və bimənа sözlərdir. Təqdis etdikləri bir şey varsa da, o da yalnız uçurub dağıtmaq əməli, sitayiş etdikləri bir Allah varsa, o da zülm və şər Allahıdır.

Bu iki əvvəlki qisim macəraçılardan daha zərərlisi mənəmlik iddiası ilə meydana çıxanlardır. Bunların fikri milləti də, vətəni də, dövləti də və istiqlaliyyəti də öz şəxsi mənəmlik və şöhrətinə qurban etməkdir. Şəxsi "eqoizm" denilən möhlik bir mərəzə mübtəla olan bu şöhrətpərəstlər adına şöhrət qazandırmaq üçün bütün məmləkəti od və atəş içində yaxıb yandırmaqdan əl çəkməzlər.

Bu sadaladığımız macəraçılar öz məqsədlərinə çatmaq və məramlarını ələ gətirmək üçün əvamfirib bir libasa bürünüb guya millətpərəst və vətəndustdur deyə safdərunları, cahil və qanmazları nəşeyi-milli və təəssübi-dini iqaz edən sözlərlə aldadıb, avamyanə bir təbirlə "başlarını piyləyib" öz əllərində kar və kor bir alət və vasitəyə döndərib ondan sonra bildiklərini edərlər. Yəni həqiqi millətpərvər, vətən sevgilisi olan, aqil siyasət sahibi olanların min zəhmət və məşəqqət ilə meydana çıxarmış olduğu hər bir xeyirli əməllərin mənfəətli nəticələrini pozub, dağıdıb, məhv və nabud edərlər. Böylə macəraçılara inanmış olan yazıq, safdil millət dəxi aldandığını, aləti-məsxərə olduğunu o vəqt başa düşər ki, daha iş-işdən keçmiş ola! Aldandığına, qandırıldığına əfsus edib peşiman olarsa da "sonrakı peşimanlıq fayda verməz" məfadınca yəs və naümidi qarşısında, əli qoynunda qalar.

İştə istiqlalını elan etmiş olduğumuz Azərbaycanımızı nəinki bir qara və qırmızı təhlükələrdən qorumalı, bəlkə böylə macəraçıların "ağ təhlükələrindən" dəxi gözləməlidir.

Buna görə hər bir məsuliyyətsiz olan tanınmamış və bilinməmiş adəmlərin zahirdə nəzərə xoş görünən sözlərə genə inanmamalıdır. Zira ki, zahiri xoş isə də, batini və gizli tərəfi qorxulu və zərərlidir. Biləks səy etmək lazımdır ki, böylə atılıb düşənləri yerlərində rahat oturtmaq və ya içimizdən tərd və təbid etmək, ağızlarını yummaq, əməllərinə qarşı

sədlər çəkmək, "fitnə yatıbdır, allah lənət etsin onu durquzanlara" sözlərini yadda saxlayıb da zahirdə nəzm və nizam tərəfdarı, lakin batində fitnə və fəsad qovzamaq istəyən böylə macəraçılardan çəkinməli və ehtiraz etməlidir.

Parlamanımızın təsdiqi ilə zimami-hökuməti əlinə almış və məmləkət dolandırmaq və məmləkətimizi təhdid edən bir takım sağ və sol təhlükələrindən millət və vətəni qan tökülməksizin qurtarmaqla öz iqtidarını, müdəbbirligini əzm və səbatını dürüst və sağlam siyasət təqib etməyini ümummillət əfradına təsdiq etdirmiş olan bir hökumətimiz olduğu halda, bu hökumətin siyasətini pozmaq istəyənlərə, hökumətin razılığı olmayan bir takım əməllər icrasına dəvət edənlərə qulaq asmaqlıq nə böyük xəta və nə fahiş bir qələtdir!

Millətimiz əfradını böylə macəraçılar təhlükəsindən xəbərdar edib də hər bir əməlin aqibətini fikir etmək, qeyri-məqul hərəkətlərdən əl götürmək, dərin fikirli, sağ və sələmət bir siyasət sahibi olmaq və hökumətimizə qarşı nəzm və nizam ehtiramını saxlamaq kimi düz və doğru yollara dəvət edirik.

**Üzeyir Hacıbəyli**

*"Azərbaycan", 20 iyun 1919, №209*

## QARABAĞ HADİSATI

Naxçıvanım səssiz-küysüz, qeylu-qalsız, dava və münaziəsiz olaraq erməni hökuməti tərəfindən işğalından sonra – ki bu işğal Azərbaycan Cümhuriyyətinin mənafei-həyatiyyəsini xələldar etmək idi – zənn olunurdu ki, ermənilər daha Qarabağ məsələsində inadlıq etməyib hirslərini soyumuş və iştahalarının şiddətini azalmış hesab edərlər. Lakin böylə degilmiş.

Nə adi və nə də siyasi nəzakəti başa düşməyən erməni başçıları Qarabağ adlı torpağımızda sükunət edən erməni əhalisini – bu əhalinin xahişinə rəğmən – Azərbaycan hökumətinə tabe etməmək yolunda daha böyük inadlıq göstərib İngiltərə baş komandanlığının təklifini də rədd etməkdən çəkinmədilər.

Azərbaycan hökumətinin səbir kasası doldu. Köçəri mövsümünün hüluli isə əhalini dəxi böyük müşkilat qarşısında qoyub arada bir acıq və əsəbiyyət törətməginə səbəb oldu. Ermənilərin inadlığı və hökumətimizin hövsələsi bu acığı və əsəbiyyəti getdikcə artırıb, Qarabağda bu gün-sabah bir qeyz və qəzəb partlanğıcı zühur edəcəgini naçar qoymuşdu.

İşin bu yerə gəldigini və bunun nəticəsi nə ola biləcəgini həqqilə anlamış olan general-qubernator Xosrov bəy Sultanov həzrətləri bunun qabağını almaq və qırğına mane olmaq üçün Qarabağ erməni başçılarının inadını sındırmaq və məsələni camaatin qatışmasına məhəl qoymamaq üçün hökumət əlilə, yəni qanuni bir yol ilə həll etmək əmrinə mübaşir oldu və olub da erməniləri itaətə məcbur etdi. Daha doğrusu, erməni camaatini xudsər və qeyri-məsul "komitet"lər qorxusundan xilas edib, camaatin öz meyl və arzularını hüsulə gətirdi.

İndi umumi qırğına mane olan erməni "komitet"lərinin şərini ümumqarabağ əhalisi üzərindan dəf edən, hökumət əmrini layiqincə yerinə yetirən Xosrov bəyi alqışlamaq, ona mütəşəkkir olmaq, ondan razılıq etmək əvəzində onun əleyhinə danışılan sözlər və hərəkatını fəna bir surətdə göstərən qeybətlər eşidirik. Hətta onun geri çağrılması məsələsi dəxi meydanda söylənilməkdədir.

Biz bu növ fikrə mailik ki, Sultanov Xosrov bəyin əleyhinə danışanlar, onun layiqsiz bir hakim olduğundan degil, biləks fəzləsilə ləyaqət sahibi, bacarıqlı və iş görən bir Azərbaycan məmuru olmasından qorxuya düşən və gözləri götürməyənlərdir.

Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni camaəti tərəfindən dəxi möhtərəm sayılan Xosrov bəy Qarabağın hökuməti başında olmasa idi, burası – Azərbaycanın cənnəti hesab olunan bu yer – çoxdan bəri cəhənnəmə dönüb qətl və qital ocağı olmuşdu. Bu həqiqəti Qarabağın müsəlmanları da, erməniləri də Qarabağ hadisəsini təhqiq üçün məhəlli-məzkurə getmiş olan xüsusi komissiya dəxi iqrar və təsdiq etdigi bir halda Xosrov bəyin əleyhinə danışmağın mənası nədir? Qarabağı ixtilal və iğtişaşa sövq etmək niyyəti degilmi?

Şimal təhlükəsinin vücudu meydanda olduğu bir halda bizim başımızı Qarabağ şuluqluğuna qatışdırmaq istəyənlər Qarabağın iğtişaşından mənfəət aparanlar, əlbəttə, səy edəcəkdirlər ki, Sultanov kimi layiqli bir hakim Qarabağdan kənar edilib bu yerdə hər bir macəraçılıq üçün meydan hazırlasın.

Lakin biz əminik ki, Sultanov Xosrov bəyin xidmətlərini layiqincə təqdir edən və bu məsələnin ətrafında dolandırılmaqda olan intiriqalardan kəmalınca xəbərdar olan höku-

mətimiz, əvvəla, öz daxili işlərinə qatışmaq istəyənlərə yol verməz və saniyən, Azərbaycanın mühüm bir cüzi olan Qarabağ şuriş və iğtişaş atəşinə ilqa etməz və Qafqazda nizam və asayiş mühafizəsi əmrinə mükəlləf olan müttəfiqlər komandanı dəxi bir takım müzürr adamların ilhah və israrına məhəlgüzar olmayıb bu yolda hökumətimizin tərəfini iltizam etməgi səlah görər.

**Hacıbəyli Üzeyir**
***"Azərbaycan", 24 iyun 1919, №210***

İlhah – təkid etmə, israr etmə

## "SƏDDİ-İSGƏNDƏR"

Avropa mətbuatının bizə çatan ala-yarımçıq xəbərlərindən bizə, bizim istiqlalımıza, bizim müqəddəratımıza aid yazılarını böyük bir maraqla arayıb oxuyuruq. Oxuyub da məyus və mükəddər olmaq məcburiyyəti hiss edib fikirlərə düşürük.

O mətbuat, baxüsus Fransa mətbuatının bizim həqqimizdəki fikri – bizim Afrika vəhşiləri barəsində qərarlaşmış fikrimizin eynidir.

O mətbuatın fikrincə Qafqazda iki qism millət vardır ki, onlardan birisi məzlum, digəri zalımdır. Zalım əlbəttə, biz imişik, özümüz də vəhşi, yırtıcı, mədəniyyət düşməni, irfan müxasimi zalımlardan imişik. Bizim heç bir məziyyətimiz, heç bir fəzilətimiz yox imiş. Məhz bir vəhşət və dəhşət mücəssəməsi imişik.

Həqqimizdə olan böylə bir fahiş və həqsiz nəzər, avropalılarda nədən və nərədən hasil olmuşdur?

Bu nəzər sənələrdən bəri əleyhimizdə çalışmaqda olan düşmənlərimizin səy və əməklərinin məhsul və nəticəsidir ki, bizimlə Avropa arasında zənn edirsən ki, yıxılmaz, deşilməz, keçilməz bir "Səddi-İsgəndər" əmələ gətirib və bizi "yəcuc və məcuc" mənziləsində qoymaqla əbədi bir zindana məhkum və açılmaz bir tilsimə salmışdır...

Əcəba Avropaya göndərmiş olduğumuz mürəxxəslərimiz bu səddi yara biləcək və bu tilsimi aça biləcəkdirlərmi?

İştə mühüm bir məsələ!

Düşmənlərimiz bu işdə də bir çox çalışmışdırlar. Azərbaycan mürəxxəsləri əhyanən bunların yalan və iftira və böhtan-

dan qurulma kələklərini açar qorxusilə mürəxxəslərimizin üzərinə olmazın böhtanlar atmaqla onları da Avropa nəzərində ləkələndirmişdirlər. Bunun nəticəsi olacaqdır ki, fransız qəzetələrindən ən nəzdik beyinləri mürəxxəslərimizin Parisə vürudini bir takım nalayiq sözlərlə "təbrik" edib öz münasibətlərini bildirmişdirlər.

Bunun üçündür ki, Parisdəki mürəxxəslərimizin vəzifəsi dedikcə ağır və müşküldir. Bir tərəfdən öz böhtanlanmış adlarını təbriə etdirmək, digər tərəfdən düşmənlərin tilsimini qırıb həqiqəti meydana çıxarmaq – nə qədər məharət və ustadlıq istər.

Qəzetəmizin dünənki nömrəsindəki xəbər – ki mürəxxəslərimiz "dördlər" tərəfindən hüzurə qəbul edilmişdirlər – bizə bir takım ümidlər veriyor və bunu təbşir ediyor ki, Avropada dəllallıq edən və özünü pula satan məsləksiz mətbuat olmaqla bərabər – doğruluq sevən adamlar, cəmiyyətlər və işin ciddiyyətini nəzərə alıb da hər tərəfin sözünü və şikayətini dinləməklə, birgözlü və birqulaqlı olmaq istəməyənlər dəxi vardır. Binaənileyh düşmənlərimizin "Sədd-İsgəndər"i əslində saxta bir sədd, tilsimləri – aldatma bir tilsim olduğundan – himmət və həmiyyətimiz sayəsində bu səddi uçurmaq və bu tilsimi açmaq imkanına ümidimiz çoxdur.

Əgər bu işə müvəffəq olarsaq, avropalıların gözləri açılıb da baxıb görərlər ki, sədd arxasında olanlar – zənni-batillərinin əksinə olaraq – yəcuc-məcuc degil, bəlkə özləri kimi adi insanlardır ki, nə zalımdırlar, nə mədəniyyət düşmənidirlər, nə irfan əduləridirlər, biləks alicənab, mərhəmətli, insaflı, tərəqqi və təkamülə mail bir qövmdür ki, müxalif tərəfin təsvir və tərif etdiginə heç də oxşayışları yoxdur.

O halda işlər açılar və ikigözlü Avropa öz zəlalətini də anlar, düşmənlərimizin degil yalnız bizə qarşı, bəlkə bütün

insaniyyətə, ümumaləmi-bəşəriyyətə qarşı xəyanətlər etmiş olduğunu dərk ilə xainlərə bizimlə bərabər lənətxan olar.

**Hacıbəyli Üzeyir**
***"Azərbaycan", 26 iyun 1919, №212***

Müxasim – aralarında ədavət olan iki adamdan hər biri
Nəzdik – yaxın
Təbriə – təmizə çıxarma
Yəcuc-məcuc – qısaboylu çox çirkin əfsanəvi bir tayfa; qorxunc, dəhşətli adam

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

Cümə günü həziranın 27-si 1337-də Azərbaycan Məclisi-Məbusasının növbədən xaric iclası təyin edilmişdi. İclas saat 11-də açılacaqdı. Hələ $10^1/_2$-dən məbuslar və tamaşaçılar yığılmağa başlıyorlar. Fəqət 11 keçiyor, 12 oluyor Məclis açılmıyor. Nəhayət, birin yarısında zəng vuruluyor. Bu gün məbusan demək olar ki, tam heyətilə isbati-vücud ediyor. Nazirlər və nazir müavinləri dəxi tamamilə buradadırlar. Diploması lojada Gürcüstan siyasi nümayəndəsi və nazirləri əgləşmişlərdir. Tamaşaçılar üçün təyin olunmuş yerlərdə ayaq üstə durmağa belə yer yoxdur. Xanımlar lojaları dəxi doludurlar. Nəhayət Rəis zəngi vuruyor. İclası şu kəlmələrlə açıyor:

Əfəndilər!

Bu gün Azərbaycan Məclisi-Məbusanının növbədən xaric iclası dəvət edilməsindən məqsəd əvvəla Azərbaycan hökuməti ilə Gürcüstan hökuməti arasında əqd edilmiş olan hərbi tədaföi-əqdnaməyi təsdiq üçün Məclisə təqdim etməkdir. Bu əqdnamə o qədər mühümdür ki, növbəti iclasları gözləmək olmazdı. Həm də Eydi-fətr münasibətilə bir neçə gün bayram edəcəgimizdən əqdnamənin təsdiqi təxirə uğrardı. Fəqət zamanın və məsələnin əhəmiyyətini nəzərə alaraq Divani-Rəyasət bunu təxirə uğratmamaq üçün növbədən xaric olaraq təqdimə lüzum gördü. Bununla bərabər Divani-Rəyasət yenə məsələnin mühüm olduğunu qeydlə təklif ediyor ki, bu məsələyə adi qayda ilə baxılmıyıb müstəcəl tələqqi və o surətlə də müzakirə və təsdiq edilsin.

Bugünkü iclasın müzakirəsinə vəz ediləcək olan ikinci məsələ də Qarabağ hadiseyi-axirəsi münasibətilə hökumət

tərəfindən oraya göndərilmiş olan parlaman komisyonunun o xüsusdakı məruzəsi idi. Fəqət məruzə hazır olmadığından və bəzi sair səbəblərdən dolayı bu gün Qarabağ hadisatı həqqində məruzə təqdim edilməsi mümkün olmayacaqdır. Əgər etiraz yoxsa ikinci məsələyi növbədən götürəlim də ancaq birinci məsələyi müzakirə edəlim.

Məclisi-Məbusan tərəfindən bu təklifə etiraz edilmiyor və bu surətlə Azərbaycan-Gürcüstan etilafnaməsinin müzakirəsinə keçilərək katib Əhməd Cövdət əfəndi əqdnaməyi oxuyur. Əqdnamə eynilə qəzetəmizin neçə gün əvvəlki nömrəsində dərc edilmiş olduğundan təkrar dərcinə lüzum görmürüz. Bundan sonra müzakirat açılıyor.

**Məhəmməd Yusif Cəfərov** – (Xariciyyə naziri) Alqışlar altında kürsiyi-xitabətə çıxıyor və etilafnamə əqdi münasibətilə bu vəcəati bəyanat veriyor:

Möhtərəm məbuslar! Bu günkü tarixi gündə bən istərəm Azərbaycan hökumətinin siyasəti barəsində ümumiyyətlə sizə bir-iki söz deyim. Ola bilər ki, bu siyasət qəbul edilsin, həmçinin ola bilər ki, qəbul edilməsin də. Bu xüsusda iki nəzər ola bilər. Fəqət bu siyasəti Azərbaycan hökuməti özü üçün bir rəhbər qəbul etmişdir. Azərbaycan hökuməti ümum millətlər və dövlətlər ilə xüsusən Məvarayi-Qafqasiyada yaşayan millətlər və cümhuriyyətlər ilə həmrəy olmağa çalışmışdır və çalışacaqdır. Hələ oktyabr ayında hökumət bənə bu məzmunda bir məktub yazaraq bu yolda qonşu millətlər ilə müzakirata girişməgi tövsiyə etmişdi. Qonşularımızla siyasətimizi birləşdirmək, onlarla həmrəy olmaq həmişə bizim amalımız, idealımızdar. Ona görədir ki, noyabr ayında Qafqasiya cümhuriyyətləri konfransını dəvət edilmək istədikdə hamıdan qabaq Azərbaycan hökuməti Cənubi Qafqasiya hökumətləri siyasətlərinin birləşdirilməsini proqrama

daxil etdi. İmdi isə biz haman məsələyi qövldən felə çıxardıq və 16 iyun etilafnaməsini bağlamağa müvəffəq olduq. Noyabr və aprel konfranslarında həmişə gürcülər bizimlə həmrəy olmuşlar və birləşmə məsələsində daima bizə müvafiqət etmişlərdir. Azərbaycan və Gürcüstan hökumətləri həmişə bu rəydə olmuşlardır ki, bizim millətlərin mənafei yekdigərilə mərbut olub xeyrimiz də, fəlakətimiz də ümumidir. Bir təhlükə gələrsə hər ikimizi eyni dərəcədə təhdid edər. Ona görədir ki, bizim çalışmamız, müdafiəmiz də ümumi, bərabər olmalıdır. Fəqət üçüncü qonşumuz bu fikrə gəlmədi. Noyabr ayında konfransa dəvət edildi. Fəqət onlar gəlmədiklərindən konfrans baş tutmadı. Son konfransda dəxi onlar min dürlü bəhanə ilə bizə yanaşmadılar. Məsələn onlar birləşmək təklifinə cavab olaraq dedilər ki, topraq və hüdud məsələləri həll edilmədikcə birləşmək olmaz. Binaənileyh bir uzlaşma hüsul edə bilmək üçün qabaqca topraq və hüdud məsələlərini qəti surətdə həll etmək lazımdır. Biz onların bu fikrinə şərik ola bilmədik. Çünki topraq və hüdud məsələsi öylə böyük bir işdir ki, uzun vəqt istər və tez həlli mümkün degildi. Halbuki o vəqtədək gözləmək də olmazdı. Ona görədir ki, biz onları gözləyə bilmədik və ayrıca (seperatnı) etilafnamə bağlamağa məcbur olduq. Şübhəsizdir ki, Şimali Qafqasiya millətləri də bizim bu etilafnaməmizə şərik olar, iştirak edərlərdi. Fəqət etilafnamə əqd edilən zaman Şimali Qafqasiya hökuməti yox idi. Çünki o zaman Denikinin qara qüvvələri Dağıstanlılar Cümhuriyyətini məhv etmişdi. (Skamyalarda tutqun nifrət sədaları) Lakin biz əminik ki, bu yoxluq müvəqqətidir. Yəqin şimallı qardaşlarımız məhv olmaz, hüququ yolunda mübarizə edər, nəhayət qalib gələrlər və yenə də bizim ittifaqa daxil olarlar. (Alqış). O ki, qaldı üçüncü qonşumuza, Azərbaycan

hökuməti yenə əmin olur ki, onlar da səhvlərini anlayaraq bizim tərəfimizə gələrlər və etilafa daxil olarlar.

Möhtərəm məbuslar bu əqdnamənin Azərbaycan və Gürcüstan üçün böyük əhəmiyyəti vardır. Çünki burası birinci özüldür ki, gələcəkdə bunun üzərində möhkəm bir bina qurulacaqdır. Bu əqidəmə biz iki millətin arasında gələcək rabitəmizi təyin ediyor. Bəlkə bir gün bu iki millətin ikisi də bir fəlakətə düşər, ola bilər ki, istiqlalını da qeyb edər, amma şübhəsizdir ki, həmişə bir yerdə qonşu olaraq bahəm yaşayacaqdır. Öylə bir şey olsa da yenə bu əqdnamənin onda da təsiri olar.

Bir də hamı bu əqidədədir ki, guya Qafqasiya millətləri bahəm yaşaya bilməzlər, onlar həmrəy olmazlar. Biz millətlər guya qurd kibi ancaq yırtmaq, dağıtmaq bilərik, ancaq qırar, əzərik. Biri-birimizlə heç vəqt sazişə gələ bilmərik. Şimdi bu etilafnamə sübut ediyor ki, bu sözlər iftira, bu fikirlər yanlışdır. Biləks Qafqasiya millətləri yaxşı etilaf ilə dolana bilər və bu mühüm dəqiqələrdən təhlükə qarşısında bir yerdə yığışmaq, bir yerdə ölməgə də hazırız. (Alqış) Bu şərtnamə göstəriyor ki, Azərbaycan və gürcü millətləri özlərini müdafiəyə hazırdırlar və bu xüsusda lazım gələn tədbirlər görməgi bacarıyorlar. Bu etilafnamə sübut ediyor ki, biz xırda millət olduğumuz halda hürr və müstəqil yaşamaq istiyoruz. Və öz hürriyyətimizi, istiqlalımızı hər növ təhlükəyə qarşı müdafiə, mühafizə etməgə və bu uğurda lazım gəlsə qan tökməyə hazırız. Bunlardan əlavə bir də göstəriyor ki, biz heç millətə, heç dövlətə təcavüz etmək fikrində degiliz. Yalnız müdafiə vəziyyətində duruyoruz.

Gürcüstan ilə bağladığımız əhdnamə 3 il müddətinədir. O vəqtədək Cəmiyyəti-Əqvam təşkil olunsa və biz haman Cəmiyyəti-Əqvama daxil olsaq, o zaman bu şərtnaməmiz ləğv olunacaqdır. Əgər o ali fikir əmələ gəlməsə belə etilafnaməyi

pozmaq istəyən tərəf vəqti-müəyyənə bir il qalmış gərək xəbər versin.

Etilafnamənin bir maddəsində denilir ki, ittifaqə daxil olan tərəfin kəndilərinin və yekdigərinin hüququnu müdafiə edəcək və hər babda dostanə siyasət yürüdəcəkdir. Ona görə də aramızda olan təyini-hüdud və vaqe ola biləcək hər növ ixtilaflı məsələlər dostanə bir surətdə etilaf, sülh təriqilə həll edilməlidir. Bununla da mümkün olmazsa, hökmi-arbitraj məhkəməsilə qətü-fəsl ediləcəkdir ki, bu məhkəmənin də qərarı hər iki tərəf üçün məcburidir.

Bir də etilafnamənin digər bir maddəsində iki dövlətin siyasətinin birləşdirilməsindən bəhs olunur. Bundan böylə Azərbaycan hökumətilə Gürcüstan hökuməti siyasətlərini birləşdirəcək bir siyasət aparacaqlardır. İştə etilafnamənin əsas maddələri. Bən bu əsasları zikr etməklə nitqimə xitam verərək hökumət namindən bəyan ediyoram ki, Azərbaycan hökuməti əmin oluyor ki, millət nümayəndəsi olan Məclisi-Məbusan bu etilafnaməyi gülər üz ilə qəbul edəcək və ona əməl edəcəgini bildirəcəkdir. (Sürəkli alqış. Məbuslar ayağa qalxıyor, diplomasi lojada Gürcüstan nümayəndələrini şiddətlə gurultulu bir surətdə uzun-uzadı alqışlıyorlar. Nümayəndələr ayağa qalxaraq təzim ediyorlar).

**Məhəmməd Əmin Rəsulzadə** – ("Müsavat") Bu gün Zaqafqasiya tarixində mühüm bir hadisə vaqe olmuşdur. O hadisə də burada təşəkkül etmiş milli hökumətlər arasında birinci dəfə etilafnamə əqdindən ibarətdir. Bu fəqərə millətlər ayılıb da hər kəs özbaşına bir milli hökumət təsis etməsini tənqid edənlərə gözəl bir cavabdır.

Əfəndilər! Siz biliyorsunuz ki, milli hökumət münəqqidləri daima deyirlər milli əsas ilə təşəkkül edən hökumətlər şəxsi mənfəət və qərəz üzərində təsis olunur və böylə hökumətlərin

təşkili demokratiya üçün əsla mənfəət degil, bəlkə zərərdir. Çünki Zaqafqasiyadakı milli hökumətlər daima biri-birilə vuruşar, kin və ədavətlə yaşar və heç vəqt yekdigərilə uzlaşmaz. Hətta müşkül zamanlarda belə birləşməzlər. Böylə qərəzkaranə sözlərin cavabında həmişə milli hökumət tərəfdarları deyərlərdi ki, milli hökumət təşkil etmək demokratiyayı yekdigərinə salışdırmaq üçün degil, biləks hər millət öz milli hüququnu müdafiə və özü üçün hökumət təşkil edərsə tez tərəqqi tapar, tezlik ilə milli idrak hasil edər və bu surətlə də öz xeyir və şərini tez anlar. Böylə hökumətlər şübhəsizdir ki, həmişəlik birləşməzsə də mühüm zamanlarda öz millətlərini birləşdirərlər. Bu gün gürcü millətilə əqd etdigimiz etilafnamə sübut ediyor ki, milli hökumətlər millətləri vuruşdurmazlar. Bəlkə bir təhlükə vaqe olursa haman təhlükə milli hökumətlərin və onları təsis edən millətlərin yaxınlaşmasına, uzlaşmasına, birləşməsinə daha yaxşı bir vəsilə təşkil edər. Bugünkü müahidənamə iştə Zaqafqasiya hökumətlərinə vurulan töhmətin canlı bir təkzibidir. (Alqış)

Əfəndilər! Bu şərtnamə, bu birləşmə öylə bir zamanda əqd edilmişdir ki, xaricdən bir qara təhlükə bizi təhdid ediyordu. Denikin Zaqafqasiyanın qapısına gələrək bizi əzmək istiyordu. Fəqət farsda bir şeir var diyor ki:

Ədu şöd səbəb xeyr əgər xüda xavəhəd

– yəni əgər Allah istərsə düşmən xeyirə səbəb olar. İştə Allahın istəgi: ki bu da camaatin istəgidir. Allah istədi, camaatin istədigi hasil oldu. Denikin düşmən ikən bu xeyrin husuluna səbəb oldu.

Möhtərəm məbuslar! Millətlər arasında əqd olunan hər əhdnamə xəlq arasında şayani-qəbul – təbiri-məxsüsilə – populyarnı olamaz. Fəqət bu gün təsdiqinizə ərz olunan əqdnamə öylə bir əqdnamədir ki, o yalnız hökumət degil,

həmişə millətcə də məmul görülmüşdür. Azərbaycan milləti ilə Gürcüstan milləti daima bu müahidəyi arzu etmişlərdir. Gürcüstan ilə bizim aramızda bəzi ixtilaflar vüquinə rəğmən bu iki millət arasında həmişə dostluq hissi vardı. Ona görədir ki, bu müahidənaməyi yalnız Məclisi-Məbusan degil, bütün millət alqışlar.

Çünki millətimiz həmişə gürcülərdən səmimi bir silah yoldaşlığı, səmimi bir dostluq gözlüyor. (Alqış)

Etilafnamənin məzmunundan gördünüz ki, onun əqdindən məqsəd yalnız istiqlalımızı tamamiyyəti-mülkiyyətimizi xarici qüvvələrə qarşı müdafiədir.

Müdafiə: İştə məqsəd!

Təcavüz yoxdur!

Bizim fikrimizdə heç millətə və dövlətə qarşı təcavüzkarlıq yoxdur. Çünki o millətlər ki, milli hüquq, milli istiqlal elan etmişlər və ancaq onu başqalarından müdafiə ediyorlar, böylə millətlər heç vəqt özgələrin milli hüququna təcavüz etməzlər. Böylə millətləri təcavüzkarlıqda ittiham edənlər ya qərəzkardırlar, ya axmaq!

Möhtərəm məbuslar! Biz arzu edirdik ki, bu etilafnamənin altında bütün Qafqasiya millətləri nümayəndələrinin imzası olaydı və bu gün gürcülərlə, azəri türklər nümayəndələrindən başqalarının imzası olmadığına təəssüf edəriz. Fəqət yenə ümid ediyoruz ki, Zaqafqasiyanın 3-cü böyük ünsürü olan erməni demokratiyası da həmişə bizimlə sülh ilə yaşamaq məcburiyyətində olduğunu anlar. Bu gün o demokratiya bəzi cərəyanlara uyaraq öz vəziyyətini, halını dərk etməmişşə də, yaxında dərk edər, o zaman onlar da bu dostluğa iştirak və müahidənaməyi imza edərlər. Buna da imkan buraxılmışdır. Yenə ümidvar oluruz ki, yaxın zamanda erməni demokratiyası kəndi mənafeini dərk edər, öz müqəddəratını, öz mənafeini

sair millətlərlə birlikdə arar və məsələyi də bu yolda həllə qalqışar.

Əfəndilər! Bu gün bu etilafnamənin əqdi bənə bir şeyi xatırlatıyor. Gürcüstan ilə etilafnaməmiz iyun ayının 16-sında əqd edilmişdir. **Keçən il iyun ayının 16-sında Gəncədə birinci Azərbaycan hökuməti təşəkkül etmişdir.** Deməli Azərbaycan hökumətinin ilk təşəkkülü ilə istiqlalın həqiqi müdafiəsi uğrundakı ilk təşəbbüsü eyni tarixə təsadüf etmişdir. Fəqət müsaidənizlə əfəndilər bu işdə yalnız bir tarixi təsadüf degil, eyni zamanda bir falnik dəxi görmək istərəm.

Möhtərəm məbuslar! Bu gün Azərbaycan ilə Gürcü milləti arasında əqd olunan etilafnamə bu iki millət demokratiyası arasında əskidən bəriyə müşahidə olunan dostluq hissi və birlik amalının məhsulu olmaqla bərabər bütün demokratiyanın arzu etdigi dostluq bünövrəsidir ki, bunun atidə daha da möhkəmləşməsi və genişlənməsini arzu edəriz. (Sürəkli alqış)

**Yusif Əhmədov** – Möhtərəm məbuslar! Üzərimizə gələn və istiqlalımızı təhdid edən qüvvənin qarşısına çıxmaq və onu yaxşı müdafiə edə bilmək çarəsi ittifaqda görülmüşdür. Hələ ay yarım bundan əvvəl bən burada demişəm, yenə bu rəydəyəm ki, ümumiyyətlə biz istiqlalımızı müdafiə etmək və bizi təhdid edəcək olan hər dürlü təhlükənin qabağını almaq üçün Qafqasiya millətləri yığışıb birləşməlidirlər, özlərini də birlikdə müdafiə etməlidirlər. Müdafiə böylə ümumi olarsa, kənardan gələn qüvvə də görər ki, biz hüququmuzu tanıyıb, bilib, mühafizəsi üçün də lazım gələn təşəbbüsatda oluruq. Əlbəttə o halda təcavüzə cəsarət də edə bilməz. Əlhəmdülillah ay yarım bundan əvvəl bəyan etdigimiz arzuyi imdi həqiqət olaraq görüyoruz. Təşəbbüslərimizin nəticəsi imdi göz qabağındadır. Əlbəttə aşkar vazehdir ki, böylə etilaf və ittifaqlar yalnız hərb, müdafiə və sairə məsələsində olmuyub, hər

barədə xüsusən ticarət barəsində də lazımdır. Azərbaycan istiqlalı ki, yeni elan edilmişdir, bunun təsdiqinin bir əlaməti də sair dövlətlər ilə əlaqə peyda etməsidir. Gürcüstan ilə əqd etmiş olduğumuz bu şərtnamə dəqaidir. Yəni istiqlalımızı, vətənimizi təhdid edən qüvvələrə qarşı ümumi qüvvə ilə, mübarizə və müdafiədə bulunmaq üçündür. Yaxşı olardı ki, bu etilafnaməyi ümum Zaqafqasiya millətləri imza edə idilər. Lakin hər şeyin ibtidası naqis olar və hər şeyin yaxşılığı ondan ibarətdir ki, gecdə get-gedə təkmil edilsin. Şərtnamənin yaxşılığını isbata hacət yoxdur. Ən böyük məziyyəti budur ki, hökumətimiz lazım gələn vəqtində nə etməgi və necə etməgi gözəl bilmişdir. Binaənileyh hökumətin bu təşəbbüsünü bən özüm və mənsub olduğum firqə təbrik edəriz. Güman ediyoruz ki, bu etilafnamə kağız üzərində quru söz olmuyub əməl olunacaqdır. Bundan sonra bütün Avropadan başlamış cüzi təşkilata qədər hamısı anlasın, hətta cəsarət etməsin istiqlal və hüququmuzu müdafiə üçün bir müstəqil millətin istiqlal və hüququna təcavüz edə bilməz, etməsin də! Bən dübarə bu etilafnamənin əqdi münasibətilə firqəmizin səmimi razılığını hökumətə ərz edirəm. (Alqış)

*(Bitmədi)*

***"Azərbaycan", 29 iyun 1919, №214***

Tədafö – mübarizə
Eydi-fətr – Orucluq bayramı
Müstəcəl – təcili
Vəz – qoyulacaq
Qətü-fəsl – məhkəmədə iş kəsmə, hökm çıxarma
Məmul – arzu edilən
Qayil – inanan, razılıq
Dəqai – zərif əməllər
Fal – uğur, bəxt, yaxşı tale
Qal – söz, danışıq; ərinti

Qeyd: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasında (I cild, səh.30) yazılır ki, 1918-ci il iyunun 17-də Fətəli xan Xoyskinin başçılıq etdiyi 2-ci müvəqqəti Azərbaycan hökuməti, M.Ə.Rəsulzadə isə 1919-cu il iyunun 27-də parlamentdəki çıxışında deyir: "Keçən il iyun ayının 16-da Gəncədə 1-ci Azərbaycan hökuməti təşəkkül etmişdir". Hansı düzdür? Məncə hökuməti təşkil edən Milli Şuranın sədri düzünü deyər – Ş.H.

## BARIŞIQ İMZA EDİLDİ

1914-cü ildə müharibənin zühurundan üç ay sonra eşidilməsi gözlənən bir xəbər bu gün, beş il sonra eşidiliyor.

Barışıq imza edildi!

Sülhi-ümumidən bəhs edə-edə hərbi-ümumi atəşinə tutulan aləm nəhayət, tarixin qeyd eləmədigi əzim bir fəlakətdən sonra barışıq sözü eşidiyor.

Barışıq!

Dünyayı sevindirəcək, hər yanda fərəhlər doğuracaq bir nida!

Fəqət bu nida dünyanın hər tərəfində böyləmi tələqqi ediliyor. Yoxsa sevinən yalnız qaliblər, qalib məmləkətlərdir. Məğlublar isə daha pək əski bir zaman təbiri söylənmişdir:

Vay məğlublara!

Fəqət "sülh peyğəmbəri" Vilsonun 14 maddəlik əsasatı elan olunduğu zaman bəşəriyyət bilxassə "Vay məğlublara!" düsturi-cahangiranəsi qarşısında tiril-tiril titrəyən insaniyyət bir az sakit olmuş barışıq xəbərini rəna ümidlərlə gözləməgə başlamışdı.

Halbuki nə görüyoruz.

Barışıq imza edildi xəbəri gəliyor. Halbuki nərədə o sevinc, nərədə o qiyamət ki, təsisi ədalət etsin. Nərədə o əsaslar ki, bizi yeni bir intiqam binaənileyhə yeni bir hərb atəşindən mühafizə eləsin.

Hərbi-ümumiyə girişən mədəni Avropa millətləri bütün sənəti, elm və idraklarına rəğmən hey bir şey ögrənmədiklərini yıxmaq, dağıtmaqdakı qansızları ilə göstərdikləri kibi, 5 sənəlik fəlakətəngiz bir hərb, müdhiş nəticəsində sülhi-ümumi-

nin nə kibi əsaslar üzərinə qurulması lüzumini dəxi ögrənmiş olmalıdır.

Barışıq imza edildi!

Fəqət Vilson prinsipləri nərədə qaldı?...

Əgər birinci xəbər alındığı zaman bu ikinci müəyyən və müsbət bir cavaba malik olmayan beyinə düşən sual olmasaydı, o zamanimza zərurətində qalan Almaniyadan Şeydemanın küfürləri Türkiyə paytaxtındakı mitinqlərdən əyyuqa qalxan "Allah, Allah!" sədaları əvəzinə:

– Əlhəmdülillah qurtardıq! –

sədasını eşidəcəkdik!

Əgər bu cavabsız sual olmasaydı o zaman təyini-müqəddəratlarını, milli hüquqlarının qaytarılmasını Vilson prinsiplərinin qövldən-felə keçməsində görən Zaqafqasiya cümhuriyyətləri kibi növ zühur hökumətlər daha böyük bir qüvvəti-qaliblə, daha ziyadə bir mətanətlə istiqbalə baxar, istiqlallarının təsdiqini Cəmiyyəti-Əqvamə qəbul olunacaqlarını daha artıq bir ümidlə gözlərlərdi.

Hər halda bəşəriyyətin qanlı girdabdan qurtarıb da qarışmış dünya işlərinin düzəlməsinə bir səbəb təşkil edəcək barışıq imzası şayani-qeyd və təqdirdir. Çünki məşhur məsəlifəhvasınca:

Fəna bir barışıq, iyi döyüşdən yaxşıdır!

*"Azərbaycan", 27 iyun 1919, №214*

Əyyuq – göy üzünün ən yüksək yeri

***(İmzasız məqalə zənnimcə M.Ə.Rəsulzadənindir – Ş.H.)***

## SAĞ AYAĞIMIZ DA KƏSİLİYOR

Hökumətimizin tutduğu məslək alicənabanədir. Qonşularla dostanə keçinmək, hər işi sülh ilə qurtarmaq fikri – insaniyyətpərvarənəsindədir. Hər xüsusda səbrü-təali ilə hərəkət edib yenidən qan tökmək, yeni qaçqınlar, yeni fəlakətlər hazırlamaq arzu etmiyor.

Bütün cahan sülhə doğru getdigi halda hökumətimiz yenidən dava açmaq töhmətində bulunmaq istəmiyor. Mümkün mərtəbə hər işə müşavirə və həkəm vasitəsilə baxıb qonşularla qətiyyən pozuşmaq tərəfdarı görünmüyor.

Əvət! Hökumətimiz insaniyyətin, fəzilətin, ululuğun, səbir və təhəmmülün, sükut və güzəştin bütün mənasilə hərəkət edib millətimiz başına tazədən bir bəla və müsibət açmaq əsla istəmiyor.

O istiyor ki, tazə doğan bir hökumət, doğrudan səbi kibi pak, saf olsun. Təmiz əllərini qana bulaşdırmasın, tazə hərəkətə gələn qollarını insaniyyətə xidmətə alışdırsın.

İlk düşüncəsi anasına – insanlığa məhəbbət olsun.

İlk addımı ətrafındakılara şətarət versin. İlk hərəkəti, ilk halı gələcəgi üçün bir fali-xeyir və səlamət olsun.

İştə cavan Azərbaycan hökuməti bu kibi insani fikirlərlə indiyədək hər cür təcavüzlərə, həqarətlərə göz yumdu və hala yumuyor.

Məmləkətimizdə cavan heç bir hökumətdə görülməyən bir hürriyyət, bir azadlıq var:

Gürcüstandan, Dağıstandan, Ermənistandan, Rusistandan bilməm nə standandan qaçanlar burada səlamət buluyorlar.

Hökumətlərindən, anarşiyadan, oğurluq və qarətkarlıqdan, aclıqdan, firqəbazlıqdan, yolsuzluqdan... qaçanların həpsi, həpsi buraya, bu gözəl və hürr Azərbaycana, Azərbaycan paytaxtına toplanıyorlar.

Burası adətən, bir şəhri-Babil, bir məcməi-əzdad oluyor:

Menşevik, Denikin, daşnaq, imperialist, kommunist-bolşevik, anarşist, mömin, kafir, doğru, əgri, sadiq, xain, millətçi, ittihadçı, heççi... həpsi, həpsi burada mövcud, həm komayla mövcud.

Ox, nə xoşbəxtlik, nə böyük mədənilik, nə uca, nə ali azadlıq!

Paytaxtımız bu gün azadlıq və xoş məişətcə mərkəzi-mədəniyyət olan Londonu, Parisi keçməkdədir.

Oh, bu bizim üçün nə böyük şərəf, nə xoş səadət!

Lakin... lakin bir cəhət var. Bir qanuni-təbiət var.

İştə bu cəhət, bu qanun bəni uzun-uzun düşündürüyor. Qara-qara fikirlərə düşüyor. Qafama qorxunc fikirlər dolduruyor. Qəlbimə yanıqlı hisslər buraxıyor. Gözüm qabağına cigərsuz mənzərələr, qanlı lövhələr, müdhiş səhnələr gətiriyor.

Həyatım qarşısında fəlakətli uçurumlar, qaranlıq gecələr açılıyor. Yolumu aydınladan "halal" istiqlalımı qanlı buludlarla sarıyor. Ümidi-istiqbalımı söndürməyə çalışıyor...

Əvət, o cəhət, o qanun bəni hər cəhətlə rahətsiz ediyor.

Bəni rahətsiz edən bu qanuni-təbiət çox da məşhur degil. Lakin nəticəsi, təsiri məşhur qanunlardan da məşhur və qüvvətlidir.

İştə o:

"Tədbirsiz, səy və qüvvətsiz arxayın olmaq, hər şeyə razı olmaqdır".

* * *

Vilsonun prinsiplərinə arxayın oldu. Hər məmləkət kəndi müqəddəratına kəndisi sahib olacaq şüarına aldandıq. Böyük bir parça, əksəriyyət təşkil edən bir kütlə bir millətin vücudundan qoparılıb zorla özgələrin təhti-əsarətinə verilməz zənnində bulunduq.

Axisqa, Axalkələk qan selləri axıdılaraq, yüzlərcə kəndlər xərab edilərək zorla təhti-əsarətə alındı.

Kars, Ərdəhan, Ovləti, Qağızman, Sürməli mahalları – erməni qaçqınlarını yerləşdirmək bəhanəsilə – güc və zülmlə müsəlmanların əlindən alınıb ermənilərə verildi.

Azərbaycanın ayrılmaz birər hissəsi olan gözəl Naxçıvan, məhsuldar Şərur yerləri başdan-başa daşnaq hökumətinin pənceyi-qəhr və intiqamına keçdi.

Türkiyə ilə rabitəmiz əbədiyyən kəsildi. Bakı-Culfa dəmiryolu planımız yırtıldı; üzümüzə çırpıldı.

Dəmiryolu çəkiləcək yerləri əlimizə gətirmədən, saxlamadan qabaq xülyalara, boş qeyrətlərə qapıldığımızın cəzası verildi. Biz hala arxayın oturub duruyoruz.

Əsl məmləkətlərimiz, türk yerlərimiz birər-birər əlimizdən çıxıyor. Biz yenə soyuqqanla baxıyoruz.

Naxçıvanın, Şərurun ah və ənini qulaqlarımızdan kəsilmədigi bir dəqiqədə özgə yerlərdən, Zəngəzur mahalından qopan fəryad və fəqanlar bizi nə cür yerimizdə rahət otutduracaq bilmiyoram.

Bu gün Zəngəzur atəş və qan içindədir. İrəvan hökumətindən kömək alan Zəngəzur erməniləri ora müsəlmanlarını yaylaqlara qətiyyən buraxmıyorlar.

Müsəlmanları hər yandan sarıb bütün mal və heyvanlarını vermək şərtilə təslimə məcbur, əks halda qətliam etmək fikrindədirlər.

İştə bu surətlə Zəngəzuru da zorla əlimizdən alıb bizi qonşumuz İrandan qətiyyən ayırmaq istiyorlar. Və bu plan ilə ermənilər bizi həm Türkiyədən, həm də İrandan uzaqlaşdırıb bu tərəfdən Lənkəran ilə bərabər Kaspi dənizinə, digər tərəfdən Ovləti səmtilə Qara dənizə çıxmaq aradakı böyük Türk yerlərinə heçdən sahib və ağa olmaq fikrini bu gün felən meydana çıxarıyorlar. Zəngəzuru almaqla bizim sağ ayağımızı da kəsiyorlar.

O, öylə buradakı, Bakıdaki yəcuc-məcucların halı isə istiqlalımız üçün şəkli qorxulu.

Əcəba! Bu fəlakətlərə səbir və bu səbirlə hər şeyə razı olacaqmıyız?

Ayağımızın sızısı bizim qəlbimizə heç bir sızı buraxmayacaqmı?

**Ümidvar (Ömər Faiq Nemanzadə)**
***"Azərbaycan", 28 iyun 1919, №214***

Hakəm – münsif, arbitr
Təhəmmül – dözmə
Səbir – təmkinli olma
Şətarət – şənlik, şuxluq
Fal – uğur, yaxşı tale
Məcmə – toplanış yeri, qovşaq
Yəcuc-məcuc – qorxunc, dəhşətli adamlar
Əzdad – rəqiblər
Suz – göyərdən, yandırıcı

## ƏXZİ-ƏSKƏR İDARƏSİNDƏN

Bakı uyezdni əxzi-əskəriyyə idarəsi təyin edibdir. Əskərlik vəzifəsini ifa etməkdən ötrü 1894, 1895, 1896, 1897, 1898, 1899-cu sənələrdə təvəllüd tapan müsəlman cavanlarından ötrü zeyldə yazan vəqtləri:

**Balaxanı və Sabunçu** polis müdiriyyəti üçün: 1, 2 və 3-cü polis uçastokları 2 iyul; 4 və 5-ci polis uçastokları 3 iyul; 7-ci polis uçastoku 5 və 6 iyul; 6-cı polis uçastoku 7 iyul.

**Bakı şəhəri üçün**

1, 5, 7, 8, 9 və 10-cu polis uçastokları 10 iyul.

**2-ci polis uçastoku**

| | | |
|---|---|---|
| Məhəmmədiyar məscidi | – | 12 iyul |
| Keylik məscidi | – | 13 iyul |
| Cümə məscidi | – | 14 iyul |

**3-cü polis uçastoku**

| | | |
|---|---|---|
| Tazəpir məscidi | – | 15 iyul |
| Qasımbəy məscidi | – | 16 və 17 iyul |

**4-cü polis uçastoku**

Hüseynqulu və Hacı Hüseyn və Məhəmmədi məscidləri: 19, 20, 21 iyul

**6-cı polis uçastoku**

Tazə, Hacı Ağababa və Hacı Pirverdi məscidləri: 22, 23 və 24 iyul

1) Əskərligə dəvət olunur yerli əhali və kənar yerlərdən gələn Bakıda sükunət edən Azərbaycan vətəndaşları. Hərçəndi siyahıda yazılmamış olsalar da və habelə metrik dəftərində yazılmamış olsalar da əskəriyyə qulluğundan azad olmaq kaffət qərarı üzrə və naxoşluğa görə və ya qeyri səbəblərə

görə mümkün olar əxzi-əskəriyyə idarəsinin qəti-teyyinə görə. Ona görə hərgah bir evdə əskərlik yaşında bir nəfər və ya neçə nəfər adam var isə hamısının borclarıdır gəlsinlər.

2) Əxzi-əskəriyyə idarəsinə gəlmək vacibdir. Həmçinin padşahlıq qulluğunda olan adamlar üçün də və dəmiryollarında və kanvoynı sotniyada və ya çastnı qulluqlarda olan adam üçün yeqeraz voyenni qulluqçular.

3) Qeyri yerlərdə olan əskərlik yaşında olan adamlara onların ataları və qeyri əqvamları məlumat verməlidirlər.

4) Çağrılan adamlar borcludurlar gələlər əxzi-əskəriyyə idarəsinə Persidski və Quberniski küçələrin küncündə olan Şagidanovun evində camaat vəkilləri ilə bərabər hansı ki, siyahı yazmaqda iştirak edibdirlər sübh saat 9-un yarısında.

İdarə özünü borclu bilir xəbərdar etməgə ki, bu ikinci prizivdir ona görə hərgah gələcəkdə əskərligə düşən adam tapılsa hansı ki vəqtində gəlmiyiblər bu günə adamlar əskərlikdən qaçan hesab olunacaqdırlar, onların ata və anaları və evlərin böyükləri onların qaçmaqlarına kömək edən hesab olunacaqdırlar.

İdarənin sədri: **Talışxanov**

***"Azərbaycan", 3 iyul 1919, №215***

Zeyldə – aşağıda

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA NÖVBƏDƏN XARİC İCLAS

(keçən nömrədən mabəd)

**Əbilov İbrahim** – (Sosialist) Möhtərəm məbuslar! Məhəmməd Əmin əfəndi həzrətləri, nitqlərində buyurdular ki, "Ədüvv şəvəd səbəbi xeyr, əgər xuda xahəd".

Kənardan bizi təhdid edən, Rusiya hürriyyətini boğmaq istəyən Denikin, hamımızın düşməni olduğu halda, iki qonşu milləti birləşdirməgə məcbur etdi və birləşdirməyə bilməzdi. Çünki bu millətlərin hürriyyəti və istiqlalı Rusiya inqilabikəbirinin nəticəsi idi. Odur ki, bütün Rusiya və Qafqasiya hürriyyətini təhlükə altına alan bir qüvvə qarşısında Qafqasiya millətləri birləşmədən qalamazlardı, həm öylə də oldu. Denikin təcavüzü Qafqasiya millətlərini, Qafqasiya demokratiyasını birləşdirdi. Bu iki millətin həyatında öylə vəqtlər olmuşdur ki, ən səmimi dost olan gürcü və Azərbaycan demokratiyası arasında bəzi ixtilafa bais olmuşdur. Hətta bəlkə münaqişə belə çıxarmaq dərəcəsinə varmışdır. Lakin bu iki demokratiya arasında münaqişə olmamışdır. Bu surətlə haman şer məfhumunca Allah istədi düşmən xeyrə səbəb olub demokratiya arasında dostluq əmələ gəldi. Fəqət əfsuslar olsun ki, böylə bir zamanədə üçüncü demokratiya iş başında duran hökumətin politikası sayəsində qəflətdən hələ ayılmayıb, ona görə də bu gün bu etilafnamənin altında onların imzaları yoxdur. Amma bununla bərabər ümidvarız ki, erməni demokratiyası, onların qonşularla birləşməsinə mane olan qüvvəyi rədd edərək hökuməti öz əlinə alar. Və axırda əlimiz

biri-birinə çatar. Erməni demokratiyası da bu ittifaqa daxil olar. Bu surətlə də ümum Zaqafqasiya demokratiyası birləşər.

Gürcü demokratiyası ilə Azərbaycan türk demokratiyasını bu gün bir təhlükə birləşdirdi. Bu gün bəziləri bəlkə güman ediyorlar ki, o təhlükə imdi artıq zail olmuşdur. Öylə ümid edənlər ola bilər ki, guya o sərhəd ki, bizə vəd ediblər, haman xətti-hüdud təyini məsələyi bitirib qurtarmışdır. Amma əqidəmizcə o kağız, o vəd əhəmiyyətsiz şeylərdir. Çünki hamımız biliyoruz ki, Denikinin çalışdığı Rusiyayı tazədən əvvəlki sərhədi daxilində həyatə gətirməkdir. Bu fikrində, bu əməlində müvəffəq olub Rusiya hürriyyətini boğarsa şübhəsizdir ki, Denikinin axırki zərbəsi yenə Azərbaycan üzərinə endiriləcəkdir. Ona görə o vədlərə inanmayıb gərək şərtnaməmizi daha da möhkəmləşdirərək və nəinki böylə hərbi müdafiə etilafı əqd etmək, bəlkə gələcəkdə qonşu demokratiya ilə bilmərrə birləşək. Əgər bu etilafnamə möhkəmləşməsə o halda təhlükə daha da artar. Binaənileyh Gürcüstan ilə aramızda bağlanmış əqdnaməyi möhkəmləşdirməli və üçüncü demokratiyanın da daxil olmasına çalışmalıdır. Bilməlidir ki, bizim istiqlalımız paydar olar, ancaq bu cür etilaflar ilə dünya sülh və etilafı ilə şimdi bu iki demokratiyanın birləşməsi gələcəkdə sairləri ilə və bütün dünya demokratiyası ilə etilafa girişmək, birləşmək üçün bir müqəddəmədir. Ona görə yaşasın Azərbaycan demokratiyası! Yaşasın Gürcüstan demokratiyası! Yaşasın gələcəkdə bizimlə birləşəcək olan erməni demokratiyası! (Alqış)

**Əfəndizadə H.H.** (Əhrar) – Bugünki günün bizim üçün tarixi əhəmiyyəti var. Çünki xaricdən vətənimizi təhdid edən bir təhlükə qarşısında qonşumuzla etilafa gəldik. Bu etilafnamə bizim daima bəsləməkdə olduğumuz arzunun birinci səmərəsidir. Ümidvaram ki, gələcəkdə aramızda daha geniş,

daha böyük etilaflar, ittifaqlar əmələ gələcək və türk milləti ilə gürcü milləti hər bir barədə birləşəcəkdir. Bu etilafnamənin xariciyyə nəzarətimiz üçün daha başqa bir əhəmiyyəti də var ki, istiqlalımızı möhkəmləşdirmək, hər halə qarşı müdafiə etmək uğrunda çarələr düşünüldügünü, tədbirlər görüldügünü bildiriyor. Məlumdur ki, istiqlal elan etmiş olan ümum demokratiya və ələlxüsus Azərbaycan demokratiyası bu rəydədir ki, hürriyyət və istiqlalını hər vasitə ilə olur-olsun, hankı qüvvə müqablinə olur-olsun müdafiə etməlidir. Məlumdur ki, bu da təklikdə çətin mümkün olar. Heç millət özünü təkbaşına müdafiə edə bilməz. Odur ki, istiqlal və hürriyyəti müdafiə edə bilmək üçün qonşularla etilafa girmək, birləşmək lazımdır. Natiqlərdən birisi Azərbaycandan bəhs edərkən "biz zəif bir millətik" dedi. Fəqət bən deyirəm, xeyir! Öylə degil, biz böyük bir millətik! Lakin gənc bir istiqlala malikiz. Bir qədər keçərsə gələcəkdə istiqlalımız möhkəmləşər və o vəqt bizim böyük olduğumuz görülər. O gözəl və böyük istiqbalə və istiqlala irişmək uğrunda birinci qədəm olmaq üzrə biz bugünkü etilafnaməyi səmim qəlbdən alqışlayaraq diyoruz: Yaşasın demokratiya birligi! (Alqış)

**Bakradze** (Gürcü) – Xəlq nümayəndələri vətəndaşlar! Bu gün təsdiq edilmək üçün bizə böyük tarixi əhəmiyyəti olan bir əqdnamə təqdim edilmişdir.

Tiflisdə Gürcüstan və Azərbaycan Cümhuriyyətləri nümayəndələri tərəfindən iyunun 16-da əqd edilmiş olan siyasi-hərbi etilafnamənin hüsnü-təsir və nəticələrini və əhəmiyyətini tamamilə təyin etmək hal-hazırda mümkün degildir. Bu əmri-behəqqə qiymət qoymaq gələcək nəslin, gələcək müvərrivin işidir. Fəqət imdi də qəti aydın bir surətdə demək olar ki, iyunun 16-cı günü bundan böylə Zaqafqasiya cümhuriyyətləri tarixində yeni səhifə açan, yeni bab təşkil edən tarixi bir gün,

məzkur millətlər həyatında yeni yollar qeyd edici bir tarixi rəhnüma, Zaqafqasiya demokratiyasını müqəddəratını qədrləyən yeni bir amil olacaqdır.

Vətəndaşlar! Müahidənamənin bütün maddələrində müşahidə olunan əsası bir ideyayı məəlməmnuniyyə qeyd etməmək olmaz, o da müahidənamənin hər növ təcavüzkaranə qərəzdən və dövlətlər arasında adətən xəlqdən bixəbər və cəmaət mənafei zərərinə olaraq əqd edilən köhnə müahidənamələrin həmişə əhatə edildigi əsrardan xali olmasıdır.

16 iyun müahidənaməsi isə xəlqin gözünün qabağında əqd edilmişdir və nümayəndələri şəxsində xəlq onu təsdiq də edə bilər, rədd də. Müahidənamənin böylə dərin demokratikligi təmin ediliyor ki, nəinki hər iki cümhuriyyətin hökumət başında duran dairələri bəlkə iki məmləkətin arasında bir əlaqə, bir zabitə təşkil edəcəkdir və hər iki millət həqqi-hakimiyyəti və məsuniyyəti-mülkiyyəsini müdafiə etmək üzrə müahidənamənin əsasına qoyulmuş olan ali prinsiplərin müdafiəsinə idrakla qalxışar. Fəqət bu müahidənamənin üzərində Zaqafqasiya millətlərinin birligi, həmrəyligi binası qurula biləcək möhkəm bir özül təşkil edə bilməsi üçün lazımdır ki, kəndi hüquqlarına sui-niyyət bəsləyən düşmənlərdən bu ittifaqı müdafiə etməgi millətlər özləri dərk etsinlər.

Bunun üçün yalnız bir siyasi-hərbi müqavilənamə əqdi kafi degildir. Öylə şərait hasil etmək lazımdır ki, onun vücudu ilə millətlər təsdiqimizə vəz edilmiş və haman millətlərin mənafeinin məcməsi olan əqdnaməyi müdafiə etmək lüzumini bittəbii tarix və təbiət sövqilə dərk etsinlər. Hər iki cümhuriyyətin hökumət dairələrinin nəinki xarici, bəlkə daxili siyasətdə də əlbir olaraq müttəhidən çalışması və öylə şərait hasil etməsi lazımdır ki, məzkur cümhuriyyətlərin de-

mokratiyasına iqtisadi, mədəni və siyasi rifahlıq son dərəcəsi təmin edilmiş olsun. O halda hər iki cümhuriyyətin demokratiyası ümumi bir təhlükə çıxdığı təqdirdə bundan böylə iki qardaş millətin sarsılmaz, möhkəm bünövrəsini təşkil edən müahidənamənin əsaslarını bilatərəddüd səbatla müdafiə edər.

16 iyun əqdnaməsinin əhəmiyyətindən bəhs edərkən bən Rəsulzadə Məhəmməd Əmin əfəndinin şimdi burada bəyan etdigi bir fikri təkrar etmək istərdim.

Burada və Avropada bizim düşmənlərimiz qərəzkaranə bir surətdə şayiə buraxırlar ki, Zaqafqasiya millətləri öz aralarında sülh ilə yaşamaya müstəid degildirlər. Binaənileyh qəyyuma möhtacdırlar. ("Tayms" qəzetəsinin mütaliələri)

Vətəndaşlar! Məclisi-Məbusanın bugünki təntənəli iclası bu yalanı təkzib etməzmi? Və barı şimdi yalançılar, iftiraçılar ağızlarını yummağa məcbur olmazlarmı?!...

Azərbaycan Cümhuriyyəti daxilində yaşayan və bu gün onun adından bu ali məclis hüzurunda danışmaqla şərəfyab olduğum gürcü demokratiyası bu əqdnaməyi təbrik və təhniyyət ediyor və qardaşlıq ittifaqı sayəsində parlaq istiqlal və şərəfli gələcək ümidi verən yeni təriqə təvəssül etmiş Zaqafqasiya millətləri üçün bu müahidənamədən xeyirli səmərəli və hüsni-nəticələr gözliyor. (Şiddətli alqış)

**Qarabəyli Qara bəy** – (İttihad) Əfəndilər! Bu atılan qədəm bəncə, elani-istiqlaldan qabaq atılmalı idi. Zira elani-istiqlal edən millətlər qabaqcadan hankı əsaslara istinad edəcəklərini və hankı qüvvə ilə istiqlallarını müdafiə edəcək və yaşadacaq olduqlarını o vəqtdən düşünməli idilər. Zaqafqasiya cümhuriyyətlərinin böyük xətasıdır ki, bunu o vəqt düşünməmişlərdir. Bu gün biz əgər nəzər tədqiqdən keçirsək görəriz ki, Zaqafqasiya millətləri o vəqt ittifaq yapmış olsaydılar və

haman ittifaqa qonşu millətlərin həpsi iştirak etsəydi, heç imdi bizi təlaşə salan və imdi birləşməgə vadar edən amillər olmazdı.

Şübhəsiz ki, denikinlər və sairlər Qafqasiyada böylə bir ittifaq görsəydilər imdi başımıza gələn bəlalar heç başımıza gəlməzdi. Bu gün Şimali Qafqasiyanın başına gələn fəlakəti nəzərə alsaq – ki heç fərqi yoxdur, bizim öz başımıza gəlmiş hesabdır – görəriz ki, əgər bu ittifaqı qabaqda əqd etmiş olsaydıq və Şimali Qafqasiya millətləri də buraya daxil olsaydılar, yəqin ki, Şimali Qafqasiya Cümhuriyyətinin də başına o fəlakət gəlməzdi.

Binaənileyh biz bu əqdnamənin nə qədər nöqsanı olsa belə bu gün onu maddə-maddə tənqid etmiyəcəgiz. Çünki istiqlalı müdafiə məsələsi gəldikdə cüziyyətə baxılmaz. Hazırda bizim üçün bu ittifaqın varlığı şərtdir. Bu gün bu ittifaqda iqtisadi, ya maddi mənfəət aramaq xətadır. Zira bizə ancaq o ülvi və müqəddəs məqsəd, bir ittifaq, bir müdafiə yoldaşlığı lazımdır. Bu nöqteyi-nəzərdəndir ki, bağlanmış olan etilafnamə, qüsuru olsa belə, bizcə məqbuldur və onu tənqidə lüzum yoxdur.

Madam ki, əsrlərdən bəri qonşuluq etmiş mehriban yaşamış, biri-birini tanımış olan iki millət birləşmək istiyor, biz bu fikri, bu təşəbbüsü təbrik edəriz. Hələ aramızda ittifaq olmayan zaman gürcü milləti ilə Azərbaycan türklərinin dostluqla yaşamış olduqları, bu iki millətin yekdigərinə qarşı hüsn etdigi rəfaqət və bu üzdən hasil olan möhkəm zəminə bizi inandırıyor ki, bu iki millət həmişə müvəffəqiyyətlə müttəfiq olub ittifaqı yaşada bilər. Əqd olunmuş ittifaqı bütün qəlbimizlə təbrik edəriz. Ancaq ittifaqa daxil olmayan üçüncü millətə də tövsiyə ediyoruz, bir an əvvəl daxil olsun, çünki kənarda durmaqla o millət bizə degil özünə zərbə vurmuş olur, çünki ümum arasında bəhs edilən ittifaqi-miləl

ya Cəmiyyəti-Əqvam baş tutmaz bir puç şeydir. Avropanın əski çürük siyasəti həmişə başqalarının vətənini istila, xırda millətləri qəhr və məğlub etməkdən ibarət ikən əmin olsunlar ki, avropalılar öz xoşuna yenə heç kəsə, heç millətə bir şey verməzlər, verməyəcəklərdir də. Bu vəqtədək təcrübə göstəriyor ki, ancaq elani-hüquq etmiş və onu müdafiəyə çalışmış olan millətlər haqq və hüquq almışlardır. Ümid etmək ki, avropalılar heç kəsə heç zad vermədikləri halda bəzilərinin qara gözünə aşiq olacaq, onların istədiklərini verəcəkdir, buna inanmaq, ümidvar olmaq böyük səhvdir. Avropalılar ancaq öz xeyirlərini, öz mənfəətlərini axtarıyorlar. Odur ki, onlara ümid bağlayanlar yanılıyorlar. Binaənileyh yatanlar ayılmalı, aldananlar anlamalıdırlar. Bu gün Gürcüstan ilə Azərbaycan arasında etilafnamə əqd edilməsi göstəriyor ki, biz iki millət və bizim hökumətlərimiz öz mənfəətlərini dərk etmiş, dərdlərini və onun çarəsini anlamış, necə əlac etmək lazım gəldigini bilmişlərdir. Ona görə biz bu ittifaqı səmim qəlbdən təbriklə ümid ediyoruz ki, ən yaxın zamanda ümum demokratiyanın köməgi ilə Dağıstan dəxi yenidən istirdad edilər. Şimdi biz daxili işlərimizi, mübahisələrimizi sonraya buraxalım da ümum cahana elan edəlim ki, Azərbaycan həmişə sülcu olmuş, asayiş və müsalimət axtarmışdır. Və bu siyasətində də davam ediyor. Gürcüstan ilə bağlamış olduğumuz ittifaq məhz tədafö, təcavüzdən uzaq bir demokratik ittifaqdır və buna daxil olmayanlar demokratik üsullara yanaşmaq istəməyənlərdir. (Alqış)

Nitqlərdən sonra böylə bir təklif varid oluyor: "Azərbaycan Məclisi-Məbusanı Tiflisdə iyun ayının 16-da Azərbaycan hökuməti nümayəndələri ilə Gürcüstan hökuməti nümayən-

dələri arasında bağlanmış olan siyasi və tədafö müahidənaməyi təsvib və təsdiq ediyor".

Təklif müttəhidül-rəy qəbul olunur. Məclis ayağa qalxaraq nəhayət dərəcədə şiddətlə alqışlıyor. Bir ura! sədaları gurultulu alqış salonu dolduruyor. Axırda Rəis həzrətləri ayağa qalxaraq şu nitqləri ilə məclisə xitam veriyorlar.

**Ağayev Həsən bəy** – (Rəis) Möhtərəm məbuslar! Bu gün Azərbaycan-Gürcüstan etilafnaməsini bütün firqə və millətlər mütəhidül-rəy qəbul və təsdik etməklə isbat etdilər ki, ümum Azərbaycan demokratiyası bilafərq din, dil və məsləki-siyasiyyə Azərbaycanın müqəddəratını və qonşu millətlərin və ümum Mavərayi-Qafqasiyanın müqəddəratını gürcü və ermənilərlə bərabər təyin və müdafiə etmək istiyorlar.

Burada natiqlərin hamısı söylədilər və bən bütün qəlbimlə bu rəyə iştirak ediyoram ki, ümidvar olmalıdır üçüncü millət dəxi tək yaşaya bilməyəcəgini, hürriyyət və istiqlalını təklikdə müdafiə edəmiyəcəgini anlar, bu ittifaqa daxil olar. O vəqt bu millətlər müttəfiqən yaşar, lazım gördükləri müqavilənamə və ittifaqları əqd edib bu surətlə hürriyyət və istiqlallarını ümumi qüvvə ilə müdafiə edərlər.

Əlbəttə bu vəqtədək gürcülərlə bizim aramızda ticarəti, iqtisadi əhəmiyyəti haiz müqavilənamələr əqd edilmişdir. Məsələn, bu yaxınlarda əqd etmiş olduğumuz post-teleqraf müqavilənaməsi. Fəqət bu onlara bənzəməz. Biz həmişə öz səadət, hürriyyət və istiqlalımızı düşünərək bir an onları unutmadan möhkəmləşməsi və müdafiəsi üçün hər tədbirlər görmüşüz. Təşəbbüsatda bulunmuş, o cümlədən bu gün təsdiqinizə vəz edilən müqavilənamə əqd olunmuşdur. Bundan böylə də biz daima böylə təşəbbüsatda bulunacağız. Şimdi bən gürcü nümayəndələrinin Məclisi-Məbusanımızda

isbati-vücud etmələrindən bilaistifadə ayağa durub dübarə təbrik etmənizi təklif ediyoram.

(Bütün heyət ayağa qalxıyor. Diploması lojaya mütəvəccehən uzun-uzadı alqışlar gurultusu salonu dolduruyor. Gürcü nümayəndəsi ayağa qalxaraq kəraətlə təzim ediyor. Alqış şiddətləniyor və davam ediyor).

**Ağayev H.B.** – Şimdi iclası qapanmış elan ediyoram.

(Yenə şiddətli alqışlar).

*"Azərbaycan", 3 iyul 1919, №215*

Əmri – haqq – haqqın əmri, buyuruq, göstəriş
Rəhnüma – bələdçi, yol göstərən
Məsuniyyət – toxunulmazlıq
Vəz – verilmiş
Məcmə – toplanış, qovuşulan yer
Təhniyyət – mübarəkbadlıq etmə
Tədafö – müdafiə
Təsvib – bəyənmə
Mütəvəcceh – üz tutaraq

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA
## 7 TEMMUZ İCLASI

İclas açılır saət 1-ə 20 dəqiqə işləmiş.

**Sədr:** Həsən bəy Ağayev

**Katib:** Mehdi bəy Hacınski

### Məsaili-yövmiyyə

1- Hökumət əndində xüsusi təftişat və təhqiqat komisyonunun təşkili haqqında qanun layihəsi. Məruzəçi: Şəfi bəy Rüstəmbəyzadə.

2- Poylu stasyonunda gömrük idarəsi təsisi haqqında qanun layihəsi. Məruzəçi: Əmircanov.

3- Gömrük idarələrində ambar vergisi miqdarının artırılması haqqında qanun layihəsi. Məruzəçi: Əmircanov.

4- Bakı gömrükxanə ştatının təzyidi haqqında qanun layihəsi. Məruzəçi: Əmircanov.

5- Gürcüstan Cümhuriyyətindəki Azərbaycan siyasi nümayəndəligi cünbündə maliyyə nəzarəti agentəliginin təşkili haqqında qanun layihəsi. Məruzəçi: Əmircanov.

6- Ermənistan sərhəddində "Uzun Tala" gömrük idarəsi qarşısında gömrükxanə təsisi haqqında qanun layihəsi. Məruzəçi: Əmircanov.

7- Xəzinə nəfinə buğ qazanlarından alınan verginin artırılması haqqında qanun layihəsi. Məruzəçi: Əmircanov.

8- Məclisi-Müəssisan seçkiləri haqqında qanun layihəsi "üçüncü qiraət". Məruzəçi: Rəsulzadə.

9- Daxil olmuş kağızlar. O cümlədən:

1- Ticarət və nafiə şəhadətnamələrindən şəhərlər nəfinə alınan vergi miqdarının 50 faizədək tərfiyi həqqində qanun layihəsi.

2- Bakı karxanə sənətkar yerlərində və fəhlələrin miyanında hesabsız içki və spirt işlənilməsinin önünü almaq həqqində qanun layihəsi.

3- Təhkim vergisi miqdarlarının artırılması həqqində qanun layihəsi.

4- Ümumi tamaşaxanə, əyləncə yerlərindən alınan müvəqqəti verginin (naloq) hökumət xəzinəsi mübəlliği mütəxəssisinə idxalı həqqində qanun layihəsi.

Birinci layihə maliyyə-büdcə, son üçüncülər ləvayehi-qanuniyyə komisyonuna göndəriliyor. Növbədə "Poylu" mövqifində gömrük idarəsi təsisi həqqindəki layiheyi-qanuniyyədir.

Bir qədər müzakirədən sonra layiheyi-qanuniyyə birinci və ikinci qiraətdə qəbul olunaraq 3-cü qiraəti qanuna görə gələcək iclasa qalıyor.

Bədə gömrük idarələrində ambar vergisi miqdarının artırılması həqqindəki layiheyi-qanuniyyə keçiliyor. Və əksəriyətiara ilə qəbul olunur.

Üçüncü növbədə Bakı gömrükxanəsi ştatının təzyidi həqqində qanun layihəsinə baxılıyor. (Məruzəçi Əmircanov) Layihə bilamüzakirə qəbul olunur. (Birinci, ikinci qiraət) və üçüncü qiraəti qanuna görə gələcək iclasa buraxılıyor.

Növbədə Gürcüstan Cümhuriyyətində Azərbaycan siyasi nümayəndəligi cünbündə maliyyə nəzarəti agentligi təşkili həqqindəki qanun layihəsidir.

Layihə ümumiyyətlə oxunaraq bir qədər müzakirədən sonra qəbul olunur: bədə madəbamaddə qiraətinə (ikinci qiraət)

keçilərək yenə qəbul və üçüncü qiraəti qanuna görə gələn iclasa tərk ediliyor.

Bundan sonra Ermənistan sərhəddində "Uzun Tala" gömrük idarəsi qarşısında gömrükxanə təsisi həqqindəki qanun layihəsinə keçilərək birinci və ikinci qiraətdə qəbul olunur. Və üçüncü qiraət gələcək iclasa buraxılaraq 5 dəqiqə tənəffüs elan ediliyor.

Tənəffüsdən sonra Rəisi-Vükəlanın təklifi üzərinə Qarabağ məsələsi həqqində hökumət tərəfindən göndərilmiş olan parlaman heyəti tərəfindən bəyanat veriliyor. (Təfsilatı sonra)

*"Azərbaycan", 8 iyul 1919, №219*

Tərfi – yuxarı qaldırma

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 7 iyul 1919

### Tənəffüsdən sonra

**Sədr** – İclas davam edir. Növbədəki məsələyə keçmədən əvvəl Rəisi-Vükəlayə növbədən xaric olaraq söz verirəm.

**Nəsib bəy Yusifbəyli** – Möhtərəm məbuslar! Məlumunuzdur ki, Qarabağda bir neçə vuquat olmuşdur. Bu vuquat gündən-günə mətbuatda və əhali arasında bir çox sözlərə və dedi-qodulara səbəb olmuşdur. Əlbəttə bu məsələyi hökumət tərəfindən təftiş və təhqiq edilib bu xüsusda öz rəyini bildirəcəkdir. Hökumət münasib gördü ki, Məclisi-Məbusan əzasından 4 nəfərdən mürəkkəb bir komisyon gedib orada məsələni ögrənsin və bizə məlumat versin. Mən arzu ediyoram ki, göndərilən məbus əfəndilər sizə məlumat versin. Orada vaqe olan əhvalatdan siz də, əhali də xəbərdar olsunlar. Bu göndərilən komisyonun fikrini bildikdən sonra hökumətin özünün də məlumatı vardır. O ayrıca bir məsələdir. Binaənileyh başqa məsələlərdən əvvəl bu məsələyə baxmağı təklif ediyoram.

**Sədr** – Təklifə etiraz yoxdur. Əgər Parlaman qəbul edirsə Qarabağa gedən heyət öz məruzəsini bəyan etsin.

**Səslər** – Xahiş edirik.

**Sədr** – Qara bəy Qarabəyov.

**Qara bəy** – Möhtərəm məbuslar! Bu məsələ mühüm olduğu, bu məsələ ətrafında bir çox gurultu partladı, yalnız Azərbaycan degil Avropada belə gurultular olduğu, ora-

ya gedən və 10 günə qədər çalışıb bu məsələ ətrafında bir çox materiallar toplayan heyət öz məruzəsini bu məsələ ətrafında əleyhimizə bir çox cərəyanlar yaradıldığı üçün qeyri-müsəlmanlar arasında bir çox fitnə və provakasiya nəşr edildiginə görə öz məruzəsini rusca yazmışdır. Binaənileyh bən də rusca söyləmək istərdim. Bu təklif hökumət və əhalimiz əleyhinə olsa da lakin müazirlərimizə cavab vermək üçün ətraflıca məruzəyə aşina olmaqdan ötəri söyliyoram.

**Sədr** – Bu təklif xüsusunda etiraz varmı? Məruzə rusca yazıldığından bənə belə gəliyor ki, rusca söylənməsi müşkülatsız olardı. Təklifi səsə qoyuram məruzəçi özü ləhinə danışdı. Kim əleyhinə danışmaq istiyor. Şəfi bəy Rüstəmbəyli.

**Şəfi bəy Rüstəmbəyli** – Parlamanda çox mühüm məsələlər olubdur ki, istəmişik qeyri-millətlər də bilsin. Lakin yenə türkcə danışmışıq. Bizdə elə bir ittifaq olmamış ki, bizim tribunadan rusca söz söylənsin. Biz gərək öz qaydamızca danışaq. Sabah bu qəzetədə olacaqdır, bunu hər kəs qəzetədən öyrənə bilər. Bunun üçün mən türkcə danışmaq tərəfdarıyam.

**Sədr** – Qara bəy.

**Qara bəy** – Bunun ləhinə olaraq ərz ediyoram ki, mən bunu müşkülat üçün demədim. İş oradadır ki, bu komisyon arasında ümumi bir fikir yoxdur. Məhəlli-hadisəyə göndərilmiş olan məbusların 2-si müsəlman, 2-si isə təriqi müqabilə. Yaxşısı budur ki, mənim söyləyəcəgimi o başa düşsün, cavabını versin. Bu fikri nəzərə alaraq mən bu təklifi etdim.

**Sədr** – Təklifi səsə qoyuram. Hər kəs ruscanın tərəfdarıdır əlin qaldırsın, kim əleyhinədir? Kim səs vermiyib? Ləhinə 34, əleyhinə 11, səs verməyən 1. Əksəriyyət ilə təklif qəbul edilir. Rica edirəm yerinizdən danışmayasınız. Təvəqqe edirəm dokladınızı oxuyasınız.

**Qarabəyli Qara bəy** ("İttihad") – (rusca danışır) Möhtərəm məbuslar! Siz bilirsiniz ki, Qarabağ məsələsi böyük əhaliyyətə haiz olduğundan Qarabağ xüsusi bir general-qubernatorluğa ayrılmışdır. Bu barədə ingilis komandanlığı ilə də etiraf hasil edilərək hətta general-qubernatorun şəxsi həqqində da razılıq əmələ gəlmişdi. Qarabağın halı nəhayət dərəcə qeyri-adi idi. Orada iki hökumət var idi. Qarabağın erməni əhalisi Azərbaycan hökumətini istəmiyordu. İngilis komandanlığı bəyan etmişdi ki, məsələ sülh konfransında həll edilənədək Qarabağ Azərbaycan hökuməti təhti-idarəsində, Naxçıvan, Şərur və s. İrəvan quberniyası qəzaları və həmçinin Qars oblastı erməni hökuməti təhti-idarəsində qalacaqdır. Fəqət məzkur yerləri Ermənistan ixtiyarına verərkən ingilis komandanlığı Qarabağ həqqində vermiş olduğu vədəyə bu vəqtədək əməl etmədi. Hətta Şuşa şəhərinin özündə general-qubernatorun iqtidarı yalnız müsəlman hissəsinə şamil olub, erməni hissəsi isə Erməni Milli Şurası təhti-idarəsində qalmışdı. Böylə adətdən xaric işlər barəsində çox müzakirat icra edilmişdi. Hətta general-qubernator idarəsini qəbula mane olan milli-şura əzasının Şuşadan təbidi həqqində İngiltərə komandanlığı arasında ixtilaf əmələ gəlmişdi. Qabaqca onların dilindən kağız alınmışdı ki, öylə işlərə qarışmasınlar. Fəqət bununla vəziyyət yaxşılaşmadı. Hətta general-qubernator hələ Zəngəzur və Qarabağın sair yerləri o yanda qalsın, barı Şuşa şəhərində qəbul olunacağını ümid edəmməzdi. Bir çox dəlillərdən görünür ki, general-qubernator bu məsələləri sülh ilə həll etməgə çalışmışdır. Fəqət göründü ki, bu tədbirləri heç kəs hüsni-istiqbal etmir. Biləks bir çox təcavüzkaranə hərəkətlər ibraz edildi. Yevlax-Şuşa şosse yolu kənarında Şaen dağlardakı kəndlərin erməniləri yolu güllələyib əhalini öldürür, arabaları soyur, atları aparırlardı. Hətta ordumuz ərkani-

hərb rəisi general Səlimovu atəşə tutmuşlar. Ümumiyyətlə, may ayınadək ermənilər ilə müsəlmanlar sülhlə dolanırlarmış. Mayın ibtidalarında ermənilər yola hücum edib 9 müsəlman aparmışlar. Hətta bu vəqtədək meyitlərini belə verməmişlər. Mayın ortasında belə 7 müsəlman ermənilər tərəfindən aparılaraq xəbərsiz qeyb olmuşdur.

Parlaman heyəti Şuşaya iyun ayının 16-da varid oldu. Yevlax-Şuşa yolunda və ətrafında tam müsalimət, asayiş və nizam hökmfərma idi. Ağdamda 10 nəfərədək erməni fəhləsi vardı. Biz onları danışdırdıq. Fəhlələr bəyan etdilər ki, burada heç bir təcavüz olmamış və gözlənilmir. Və kəndilərini tam amanda hiss ediyorlar. Yaxşı muzd alıyorlar. Və bu ətrafda yaşayan və işləyən ermənilərə qarşı müsəlmanların rəftarından çox razıdırlar. Pirumov adlı bir arvad Ağdamda casusluqda məznun tutularaq təqib edilmiş imiş. Fəqət heyət onu azad edib özü ilə avtomobildə Şuşaya aparmışdır. O arvad dəxi təhriri surətdə iqrar və təkid etmişdir ki, hökumət və polis qulluqçuları onunla hüsni-rəftar etmişlərdir. Pristavlara, qəza qaimməqamına mütəşəkkirdir. Şuşa-Yevlax yolu bu halda ikən, Şuşa-Gorus, Şuşa-Qara Yevlax (Karyagin) yolları tamamilə ermənilərin əlində olub bir müsəlman bu yollardan keçə bilmiyorlarmış. Müsəlmanlarla məskun yerlər mühasirədə olan kimi imişlər.

Mayın 27-dən etibarən köç başlanmışdır. Şuşa və daha ertədə dağlaradək bütün yol mal-qoyun, at və sairə ilə dolur. Hər biri oba tutur. Zəngəzurdan başqa ümum Qarabağ əhalisi köçür. Şəhərdə 2 hökumət olur. Bir qism əhali general-qubernatora, digər qismi erməni milli şurasına tabe olmasına baxmayaraq ingilis əskərləri ilə müsəlman milisləri təhtimühafizəsində köç səlamət keçirmiş. İyunun əvvəllərinədək əhval belə keçir. Müsəlmanlar çox narazı olmaqla bərabər

bu işlərə bir növ təhəmmül edirlərmiş. General-qubernator əmr etmişdir ki, heç kəs ermənilərə təcavüz edəmməz. Hətta ermənilər hücum etsələr də müsəlmanlar gərək dinməsinlər. Nəhayət iyunun 1-də və 2-də (bəzi ermənilərin rəvayətinə görə) Şuşanın müsəlman hissəsində bir milis nəfəri bir erməninin tapançasını alır.

Buna cavab olaraq erməni hissəsində 2 əskəri tərki-silah edərək birisinin atını, tüfəngini və tapançasını, digərinin tüfəng və xəncərini alırlar. (Bunu ermənilər də, müsəlmanlar da etiraf ediyorlar) Əskərlərdən birisi onların əlindən qurtarıb müsəlman hissəsinə qaçır və əhvalatı xəbər verir. General-qubernatorun ittixaz etdigi tədbirlər nəticəsində 3-4 saətdən sonra ingilis heyəti vasitəsilə o biri əskər dəxi azad edilir və silahları da tamamilə qaytarılmır. Hətta qaytarılan silah haman adamlardan alınan silah degildir. Erməni milli şurası demişdir ki, atı və silahı alan adamlar şəhərdən qaçmışlar. Ona görə şura başqasını alıb verməgə məcbur olub. Bu əhvalat məhəlli müsəlmanlar və əskərlərə çox ağır gəlib, onları həyəcanə salmışdır. Çünki məzkur hadisəni Azərbaycan Ordusu və əhalisi həqqində böyük həqarət tələqqi edirlər. Siz özünüz bilirsiniz ki, Bakıda mart hadisəsinə bais "Dikaya Dviziya" - denilən dəstənin adamlarına hücum edilməsi oldu. Mən bunu onun üçün diyoram ki, bir hadisəyə hərbiyyə idarəsi və cəmaətin nə nəzərlə baxacağını göstərir. Haman bu günlərdə də xəzinə ilə poçt-teleqraf idarəsi erməni hissəsindən şəhərin müsəlman hissəsinə köçürülür. Erməni hissəsində hökumət ümuri milli şurada olmasına baxmayaraq orada bəzi şeylər olurmuş. Məsələn, erməni hissəsinə müsəlləh erməni dəstələri və məsuliyyətsiz adamlar ələlümdə kənardan gəlmələr gəlib-gedir. Milli Şuradan əlavə bir də bandalar burada ciddi surətdə işliyor və ermənilər arasında dəhşət saçıyorlarmış. Ruben

Nikolayeviç Şahnazaryan və Minasbekovun göstərdigindən məlum oluyor haman bandalar erməni hissəsində adamları soyur, erməni arvadlarını çəkir təhqir edir və ermənilərə sair təcavüzlər edirmişlər. Əlbəttə müsəlmanlar bunların həpsini bilərək həyəcan və iztiraba düşürmüşlər. Fəqət bununla bərabər general-qubernator əhalini sakit və əskərlərin tərki-silah ixtilafını rəf edə bilmişdir. Xəzinə ilə poçtanın müsəlman hissəsinə köçürülməsi münasibətilə hərçənd ermənilər təşvişə düşərək ingilis heyətinə qiymətli kağızların müqəddəratından qorxduqlarını bəyan etmişlərdir. Fəqət bu münasibətlə öylə bir ixtilaf vaqe olmamışdır. Haman bu zamanlar şəhərdən köç getdigindən general-qubernator ətraflardan gəlib də özünü çox pis aparmaqda olan məsuliyyətsiz adamlar və bandaların təcavüzündən obanı və şəhəri təmin etmək qəsdi ilə mühüm yerdə: şəhərin başı üstündə hökmfərma olan "Üçmıxda" və Şuşa-Gorus yolunun ən mühüm qismi olan Yarmadə mayın axırından etibarən əskəri qaravul bulundurmağı təhtiqərara alır. Bunların vəzifəsi şəhərə müsəlləh adam buraxmamaq və elatın rahət keçməsini gözləmək imiş. Qaravulların miqdarı manqadan artıq degilmiş. İyunun 2-də haman əskər əhvalatından sonra 5-i iyunun 4-cü gecəsi general-qubernator binagüzarlıq etmişdir ki, şəhər üzərində hökmfərma olan "Üçmıx" səngərində qarovul artırılsın. (18 piyada və bir pulemyot ilə 9 pulemyotçu qoyulur).

Ermənilər bu əhvalı bilərək iyunun 4-ü səhər "Üçmıxa" Arzumanov nam bir zabitin təhti komandasına bir dəstə müsəlləh adam göndərmiş və onlar əskərlərin səngərlərinin əlli addımlığında səngər tutaraq türk qarovulları komandanı zabit Maksimoviçdən tələb etmişlər ki, səngəri boşaltsınlar və əskərlər oradan getsinlər. Maksimoviç cavab vermişdir ki, müəyyən qanun və nizama tabe olan bir əskər olmaq hesabı

ilə öz böyügündən əmr olmadıqca heç vəqt yerindən tərpənə bilməz. Ancaq rəisi ilə bu barədə danışar, əgər rəis buyurarsa məəlməmnuniyyə gedər. Çünki ona əmr olunmuşdur, yolları mühafizə etsin və heç kəs ilə dava eləməsin. Maksimoviç müzakirata girişmək qəsdi ilə səngərdən çıxıb şəhərə gəlmiş və öz yerində müavini Kərimovu qoymuşdur. Ermənilər ikinci dəfə Kərimovdan da tələb etmişlər səngəri boşaltsın. Lakin o dəxi razı olmamışdır. Nəticədə səngərdə atışma başlayaraq türklərdən 4 əskər ermənilərdən isə zabit Arzumanov qətl edilmişdir. Burada kim əvvəl güllə atdığını təyin edəmmədik. Ermənilər deyirlər qabaqca türklər atışma açdılar, türklər isə əvvəlcə ermənilərin güllə atdığını bəyan edirlər. Atışma buradan şəhərin sair yerlərinə də yayılıb bir anda şəhər atəş altında qalmışdır. Şəhərin türk əhalisi dərhal tüfənglərini götürüb 1905-ci ildən bəri adət olduğu üzrə səngərlərə dolmuşlardır.

Bunu da qeyd etməliyəm ki, 1905-ci ildə vüqu bulmuş olan erməni-türk toqquşmasından bəri erməni hissəsi ilə müsəlman hissəsi sərhəddi arasında səngərlər qayrılmışdır. Bir şey olan kimi türklər öz səngərlərinə dolurlar, ermənilər də öz səngərlərinə. Bu surətlə atışma başlandıqda türklər hər kəs tüfəngini götürüb müəyyən səngərə getmiş, ermənilər də öz səngərlərinə doluşmuşlardır. "Üçmıx" səngərinə sabiq polismeyster Məhərrəmzadənin komandası altında 10-15 polis və süvaridən ibarət xırda bir imdadiyə dəxi göndərilmişdir. General-qubernator ümumpolis nəfəratına və qoşuna şifahən və yazılı əmrnamələr vasitəsilə hökm etmişdir ki, güllə atmasınlar. Ayın 4-də tamam gün atışma davam etmişdir. Yarmadakı qaravul dəstəsi ilə şəhərin əlaqəsi bilmərrə kəsilmiş imiş və ona kömək göndərmək heç vəchlə mümkün degildi. Ermənilər yepiskop (keşiş) Vaqana müraciətlə təvəqqe etmişlər ki, ingilis nümayəndələrinə müraciət edərək atışma-

nın yatırılması haqqında tədbirlər ittixazını rica etsin. Mayor bu xüsusda general-qubernatora müraciətdə bulunmuşdur. General-qubernator bunun cavabında İngiltərə komandanlığından tələb etmişdir ki, Azərbaycan əskərlərinə təcavüz edilməsi və hökumətə tabe olunmamasına bais olan Milli Şura əzası şəhərdən təbid edilsin. Mayor erməni əhalisinə cavab vermişdir ki, atışma sakit olacaqdır və general-qubernator əskərlərə bu atışmada iştirak etməgə izn vermir. Fəqət davanın yatırılması üçün lazımdır ki, İngiltərə komandanlığı da öz vədinə əməl edərək Milli Şura əzasını şəhərdən çıxartsın. Ayın 5-də səhər saat 9 radələrində ermənilər Milli Şura əzasından 3 nəfərini təslim edərək bildirmişlər ki, yerdə qalanları şəhərdən qaçmışlar. Bundan sonra atışma sakit olub, ancaq iki tərəfdən hərdən bir tək-tək güllə atılırmış.

Hələ ayın 4-də atışma başlar-başlamaz general-qubernator türklərə əmr etmişdir ki, ermənilər güllə atsalar da onlar cavab verməsinlər. Atışmanın dayandırılması uğrunda general-qubernator, tabur komandanı və zabit Əştal tərəfindən hər növ tədbirlər görülmüşdür. Bu zaman yolda olan köçərilər dərhal geri qayıdaraq türk əhalisi mühafizəsinə sıxınmışlardı. Fəqət bununla bərabər onlardan 5 külfət bütün şeyləri, qoyun və malları ilə ermənilərin əlinə düşmüşdür. 2 arvad öldürülüb meyiti haman oradaca qalmış, yerdə qalanları isə qeyb olmuşdur. Erməni əlinə düşmüş qoyunlardan bir neçəsi ingilis avtomobilində tutulmuşdur. İngilis komandanlığı qoyunları geri verərək üzr istəmişdir ki, onları satın almışdır. Türklərin rəvayətinə görə bu atışmada türklərdən təlafat olmamışdır. Atışma vəqti müsəlman hissəsində qalmış olan erməniləri buraxmışlardı. Ermənilər də oradakı müsəlmanları buraxmışlar. Qəribə burasıdır ki, iyunun 4-də səhər ertə türklərin heç şeydən xəbəri olmayaraq öz uşaqla-

rını şəhərin qırağında, erməni hissəsinin başında olan Realnı məktəbinə buraxmışlardı. Həmən gün türk alış-verişçiləri də erməni hissəsinə getmişlərmiş. Məsələn, erməni ilə şərikli dükanı olan Kərbəlayı Qasım Qulu oğlu nam bir şəxs səhər gedir erməni hissəsinə atışmadan bir saat qabaq şəriki olan Akop nam bir erməni şərikli puldan 1000 manat verərək demişdir ki, get müsəlman hissəsinə çünki burada həyəcan var. Dükanlar bağlanıb və bir şey gözlənilir. Ermənilər isə diyorlar ki, müsəlman hissəsində 18-dək erməni tələf olmuşdur. Bu barədə heyət general-qubernatordan sormuş və cavab almışdır ki, haman iş təhqiq edilmişdir və məlum olmuşdur ki, nə yerdə erməni işləyirmişsə sağ-salamat buraxılmışdır. Sonra nə olmuşsa bilmir.

*"Azərbaycan", 11 iyul 1919, №222*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**7 iyul iclası**
(keçən nömrədən mabədi)

**Qarabəyli Qara bəy** – ("İttihad") (Qarabağ hadisələri haqqində məruzəsinə davam ediyor)

Ayın 5-də şəhərdə atışma sakit olub, hərdən bir güllə atılmaqda ikən saat 12 radələrində Qaybalı adlı erməni kəndinə hücum edilmişdir. Məzkur kənd 60-65 tüstü ermənidən və 15-ə qədər tüstü müsəlmanlardan ibarətdir. Şəhərin 3-4 verst cənubi-qərbində bir dərədə vaqedir. Kənd Kənd general-qubernatorun evindən görükmüyor. Haman kəndin müsəlman əhalisi qabaqkı binizamlıqlar əsnasında kənddən qovulub evləri yandırılmış olduğundan şimdi orada müsəlman olmuyor.

Qaybalı kəndinin müsəlman əhalisi oranın yaxınlığındakı 7-8 kənddən ibarət Xəlifəlilərə köçmüşdür. Görünür ki, şəhərdə atışma başlandıqda məzkur kəndlərin əhalisi şəhərə köməgə, yainki bəlkə də qarətə gəlmək istəmişdir. (Özləri deyirlər müsəlman qardaşlarına köməgə gəliyormuşlar) Yolda Qaybalı kəndinə hücum etmişlərdir.

Şəhərin bundan xəbəri olmamış. Ancaq 12-1-də şəhərdən və qubernatorun evindən görmüşlər ki, dərədən tüstü çıxıyor. Şəhərdə müxtəlif şayiələr dövran ediyormuş. Çox danışırlarmış ki, ətraf erməni kəndlərindən şəhərin üstünə böyük qüvvə gəliyor.

Ordumuzun ərkani-hərbi iqamət edən Xankəndindən də general-qubernatora bu məzmunda xəbər verilmişdir. Ümumiyyətlə şəhərin ətrafında vüqu bulunmaqda olan hadisat

həqqində ibtidadə heç kəsə doğru bir şey məlum degilmiş. Böylə şayiələrin intişarından dolayı general-qubernator hər növ ehtimala qarşı hazır olmaq məcburiyyətində bulunduğundan Xankənddəki qoşun heç yerə göndərilə və dağıdıla bilməzdi.

Tüstü göründükdən və ingilis heyəti vasitəsilə erməni mənabeindən Qaybalıya hücum edildigi xəbəri aldıqdan sonra general-qubernator əhvalı ögrənmək və hadisəyi yatırmaq üçün oraya adam göndərilməsi həqqində binagüzarlıq etmişdir. Fəqət şəhərdəki erməni səngərlərindən yol gülləyə basıldığından general-qubernatorun adamları yaxın yol ilə gedə bilmiyib Xankəndi təriqilə 12-13 verstlik dolama yol ilə getməgə məcbur olmuşlardır. Fəqət məhəllinə vəqtində çatmamışlardır. Çünki kəndin üstünə gəlmiş olan külli miqdarlı müsəlman 3-4 saət içində kəndi işğal və talan edərək evləri yandırmış və əllərinə düşən erməniləri tamamilə qırmışlardır. General-qubernatorun adamları ilə Xankəndindən zabit Əli bəyin komandası altında göndərilmiş olan əskərlər daha kəndə bir kömək edə bilməyərək ancaq kollarda gizlənmiş və qaçmış olan 57 ermənini yığıb Xankəndinə, oradan da general-qubernatorun yanına gətirə bilmişlərdir. Burada haman ermənilərə yemək-içmək verib sonra da Ermənistana yola salmışlardır. (Bunu mütəzərrir olan ermənilər dəxi təyid ediyorlar) Gərək general-qubernator, gərəksə Xankəndindəki əskərlər Qaybalıya ondan artıq kömək edə bilməzlərdi.

Ayın 6-da şəhərin 30-35 verstligində bulunan uzaq kəndlərdən küllü miqdarda kürd dəstələri şəhərə gəlmək istəmiş, fəqət general-qubernatorun əmrilə şəhərə buraxılmayaraq dayandırılmışlardır.

Kürdlər Qaybalının ya sair erməni kəndlərinin dağıdılmasında iştirak edə bilməzlərdi. Yaxın kəndlərdən yığılmış olan

dəstələr şəhərin altındakı Daşaltı, Daşkənd və sair erməni kəndlərini dağıtmaq istəmişlərsə də general-qubernator onların müqabilinə qoşun və pulemyot göndərərək qayıdıb getmələrini əmr etmiş və qoşuna əmr etmişdir ki, əgər öz xahişlərilə qayıdıb getməsələr pulemyot atəşilə qovsunlar. Bu surətlə ayın 5-də şəhərdə atışma davam edərək hökumətin ətrafdan bixəbər olduğundan bilistifadə kəndlərə hücum edən dəstələr dağıda bilmədikləri kəndlər tamamilə mühafizə edilmiş və səlamət qalmışlardır. Bir də haman dəstələr Kərkicahan adlı erməni kəndini yandırmış, dağıdmışlardır. Kərkicahanın əhalisi qabaqcadan Xankəndinə aparılmış və orada Azərbaycan qoşununun mühafizəsi altında qalmışdır. Çünki Xankəndi əskərlərindən Kərkicahana az bir miqdarda mühafizə əskəri verilmiş imiş. Əskərlər özlərinin az olduqlarını və şayəd kəndə böyük bir dəstə hücum edərsə müqavimət göstərə bilməyəcəgini dərklə qabaqcadan ermənilərə təklif etmişlər ki, şeylərini qonşu müsəlmanlara əmanət verərək (haman kəndin əhalisi qarışıq olub həm erməni var, həm müsəlman) özləri qorxusuz bir yerə köçsünlər. Bunlardan əlavə 15 tüstüdən ibarət olan Bəhlul adlı digər bir erməni kəndi də yandırılmışdır. Fəqət burada əsla insan tələfatı olmamışdır. Çünki əhalisi davadan qabaq yaxın erməni kəndlərinə köçmüş imiş.

Miqdarı 3000-dən ziyadə olan kürdlər şəhərə buraxılmıyıb 18 verstlikdə Mıxtökən adlı dağda dayandırılmışlardır. Ancaq 50-60 nəfəri ayın 6-da şəhərə girmiş, lakin onlar da tezlik ilə şəhərdən çıxarılmışlardır. Görünür ki, kürdlər heç müsadimədə iştirak etməmişlərdir. Çünki davalardan və talanından sonra gəlib çıxmışlardır. Bu davalarda kürdlərin iştirak etmədiklərinə çox dəlillər vardır. Əzcümlə burası var ki, Daşkənd qabağında 4 müsəlman öldürülmüşdür. Bunlardan

heç biri kürd degil, yaxın kəndlərin əhalisindən imiş. Kürdlərin ancaq ayın 6-da axşam çağı gəlib çıxdıqları sübut ediyor ki, hökumət yainki yerli camaat qabaqcadan kürdlərə xəbər verməmiş və kömək istəməmişlərdir.

Çünki o halda kürdlər əhvalatdan xəbərdar olaraq tez bir zamanda cəmləşib şəhər üzərinə gedə bilərlərdi. İstər atlı, istər piyada kürdlər üçün yarışmaq, cəm olmaq şəhərə yollanmaq öylə ağır bir şey degildir. Bir şey oldumu tüfəngini götürüb atını minib avtomobil sürətilə həmin yerə gələcəkdir. Piyadaları da atlı qədər cəld gəliyorlar. Qaybalı kəndi Xankəndinin 5-6 verstligindədir və oradan görükmüyor. Bu iki kəndin arasında bir dağ var. Kərkicahan kəndinin də əhalisi qabaqcadan Xankəndinə daşınmış olduğundan qoşun boş Kərkicahana o qədər diqqət verəmməzdi. Bilxassə Xankəndində öylə bir qüvvə saxlamaq lazım gəliyordu ki, şayəd ərkani-hərbə hücum və yolu kəsməgə suyi-qəsd ediləcək olursa müdafiəyə qadir olsun. Hücum icrası və yolun kəsilməsi isə ehtimal daxilində idi. Ona görədir ki, Xankəndindəki az miqdarlı qoşun uzaqdaki kəndlərin müdafiəsi üçün heç vəqt dəstələr ayıra bilməzdi.

Ümumiyyətlə heyətin əldə edə bildigi məlumat əsasilə denilə bilər ki, təqribən Qarabağ hadisatı bundan ibarətdir. Müəssif hadisənin səbəbi bütün Qarabağ və xüsusən Şuşa şəhərinin məruz qalmış və qalmaqda olduğu böylə qeyri-adi vəziyyətdir. Orada iki hökumət vardı, şəhərin erməni qismi, erməni kəndləri və ümum erməni dairələrini erməni Milli Şurası idarə ediyordu. Müsəlman hissələri isə, çoxdan bəri öz bəyannaməsi ilə sülh konfransının qərarınadək Qarabağın Azərbaycan hökumətinə tabe olmalı olduğunu bizə də, ermənilərə də elan etmiş olan İngiltərə komandanlığının rizası ilə Azərbaycan hökuməti tərəfindən təyin edilmiş

general-qubernator tərəfindən idarə ediliyordu. Naxçıvan və İrəvan quberniyasının sair uyezdlərini və Kars oblastını erməni hökuməti təhti idarəsinə verib də o yerlərə erməni qoşunu sövq etmiş olan İngiltərə komandanlığı bu vəqtədək Qarabağ həqqindəki vədinə əməl etməmişdir. General-qubernatorun məhəlli-iqaməti olan Şuşa şəhərinin yarısı Azərbaycan hökumətini qəbul etməyərək, hətta qulluq işi üçün Ermənistana gedən əskərlərin silahını alıyordular. Qarabağı Ermənistana ilhaq etmək xəyalında olan erməni hökumətinin məqsədinə xidmət edən əşqiya dəstəsi əlindən yollar rahət və səlamət degildir. Müsəlmanlar ilə məskun olan bəzi dairələrin bütün dünyadan əlaqəsi kəsildi. Baş şosse yolunda müsafirlərə hücum ediliyor, gəlib-gedənlər atəşə tutuluyor. Fürsət məqamında erməni əlinə düşən müsəlmanlar 7-9 nəfərlik dəstələrilə olunuyordular. Kəndlərdən Şuşa şəhərinə müsəlləh erməni əşqiya dəstələri gələrək Ermənistanda həyatı öz təsərrüflərinə alıyor, dinc əhaliyi dəhşətlərə salıyor və müsəlmanlara etdikləri zülmlə cəfadan məsul olmuyordular. Azərbaycan hökumət nümayəndəsi bu ya o cinayətin müqəssirlərini tələblə müraciət etdikdə ingilislər vədlər verib ancaq müxtəlif təsvirlərlə iktifa ediyordu. Halbuki eyni zamanda müsəlmanlar heyətinin fəaliyyətsizligindən narazı qalaraq həyacana gəlir həyat və əmlakının təmin olunmasını öz hökumətindən tələb ediyorlardı. Buna görə şəhər ətrafında gəzib dolaşmaqda olan müsəlləh erməni əşqiyasını şəhərə buraxmamaq və Qarabağın üç qəzasının on minlərcə köçərilərinə rahət gəlib keçməgi təmin qəsdilə general-qubernator şəhər və yollar üzərində hökmfərma olan iki mövqei işğal etməgi lazım bilmişdir. Eyni zamanda xəzinə ilə post-teleqraf idarəsini erməni hissəsindən müsəlman hissəsinə köçürmüşdür.

Gərək müsəlmanların, gərəksə ermənilərin və rus zabitlərinin verdikləri məlumat göstəriyor ki, bizim hökuməti Qarabağ hadisəsini qabaqcadan hazırlamaqla təqsirləndirmək olmaz. Hətta müsəlmanlar hökumətdən çox narazıdırlar ki, hadisata çox loyalnı nəzərlə baxıb erməniləri müdafiə ediyor. Müsəlmanlar asudə yaşamaq imkanından məhrum olaraq və ermənilərin də onlara qarşı təcavüzkaranə hərəkatını bilərək hökumət nümayəndəsinin tədbirlərindən narazı qalıyorlar. Müsəlmanlar hətta ermənilərə ərzaq satmaq istəmiyorlar. Çünki ermənilər Azərbaycan hökumətini qəbul etmədikləri halda külli miqdarda ərzaq alıb hökumət və camaat əleyhinə işləyən əşqiya dəstələrini saxlıyorlar. Bununla da bir yandan təcavüzkar ünsürə müzahirət ediyor, digər tərəfdən də ərzağın bahalaşmasına bais oluyorlar. General-qubernator erməniləri boykot etməmişdir. Bu xüsusda nə şifahi, nə təhriri əmr verilmişdir. Fəqət icbari tədabir olmaq üzrə əhalinin özü elan etdigi boykota maneə də olmamışdır. Boykotdan qabaq ermənilər baha qiymətlə çox mal alıyormuşlar. Amma ondan sonra Qarabağdan taxıl ixracı mən edilmiş və ermənilərə taxıl az miqdarda buraxılmışdır. Ermənilər miyanında yepiskop Vaqan (baş ruhani), Qriqori Kalantarov (sabiq bələdiyyə rəisi), Ruben Şahnazarov (edadiyyə müəllimi) kibi möhtərəm zəvat qəti surətdə bəyan ediyorlar ki, Şuşa hadisəsinə səbəb və bais general-qubernator degildir. Onlar ancaq diyorlar ki, general-qubernator Qarabağı Azərbaycana tabe etmək qəsdilə öz qüvvəsini göstərmək, ya müqavimətin önünü almaq üçün bir nümayiş əmələ gətirmək istəmiş ola bilər. Fəqət bu iş bir nümayiş olsa da yalnız ermənilər həqqində degil, müsəlmanların da cilovunu çəkmək üçündür. Heç bir təcavüzə məhəl buraxmamaq barəsində verilmiş olan bir çox əmrnamələr dəxi bunu isbat ediyorlar. Bunlardan əlavə Qarabağ yollarında bütün

mal və heyvan ilə on minlərcə silahsız köçərilər bulunduğu və dava günü müsəlmanların körpə uşaqlarının həpsi erməni hissəsinə məktəbə getdikləri aydın göstəriyor ki, general-qubernatorun dava eləmək, ya ixtilaf çıxarmaq fikri yox imiş. Əgər böylə fikri olsaydı barı uşaqları məktəbə buraxmazdılar. Bizim orduda xidmət etməklə vicdanlarını da bizə satmamış olduqları yaxşı məlum olan rus zabitlərinin də göstərdigindən anlaşılıyor ki, general-qubernatorun bütün fəaliyyəti ancaq əhalinin həyat və əmlakını təmin uğrunda sırf hüquqi və qanuni tədbirlərdən ibarət olmuşdur. Əlimizdə olan bütün dəlillər bunu isbat ediyor.

Fəqət general-qubernatorun böylə qanuni tədbirləri və yuxarıda zikr olunan nöqtələrin işğalı erməni başçılarının irticainə bais olmuşdur. Onlar qoşun müqabilinə müsəlləh qüvvə ilə çıxmağı qərarlaşdırmışlardır və nəticədə müəssif hadisə baş verərək Qaybalı, Kərkicahan və Bəhlul kəndləri mütəzərrər olmuşdur. (Kərkicahan və Bəhlul kəndlərində təlafat olmamışdır, Qaybalıda isə təlafat olmuşdur, amma hesabı məlum degildir. Çox qaçıb səlamat qurtaranlar dəxi var, bunların da miqdarı təyin edilməmişdir) General-qubernatorun hərəkəti hökuməti möhkəmləndirmək və əhalinin rifa halını təmin etmək üçün icra olunmuş sırf zəbtiyyə tədabirindən ibarət olmuşdur.

Heç kəs və əzcümlə general-qubernator heç vəqt təsəvvür belə edə bilməzdi ki, bəzi əqilsizlər böyük əskəri və mülki qüvvələrə müqavimət edib atışmaya girişəcək və nəticədə 1 əskər ölüb 5 nəfəri yaralanacaq və burası bir qığılcım olub alovlandıracaqdır. General-qubernator bu ya o qanuni tədbirlər görə bilmək üçün özünü lazımınca güclü hesab ediyordu. Böylə yanğın əmələ gələcəgini heç təsəvvür etməz, fikrinə gətirməzdi. Hətta gətirmək istəməzdi. Çünki o zaman şəhər

təriqi ilə köçərilər bütün mal heyvanı ilə gediyorlardı və onlar hər iki tərəfdən ermənilər tərəfindən atəşə tutularaq böyük xəsarətlərə düçar ola bilərlərdi. Buna görə əqlinə gəlməz idi ki, şəhər hadisəsini bilərək ətraf kəndlərdən müsəlmanlar şəhərə hücum edib yolda da erməni kəndlərini məhv edirlər, yainki uzaq kəndlərdən minlərcə kürd (həmişə etdikləri kibi) müsəlman qardaşlarının köməginə gələcəkdir. Tainki əvvəla bunların önünü almaq, sonra da kənardakı talanı təsviyə etmək üçün tədbirlər görülə idi. Xankəndində duran əskəri qüvvələr dəxi erməni kəndlərinin xilası üçün geniş tədabir görə bilməzlərdi. Çünki əvvəla hadisat həqqində vəqtli-vəqtində məlumat alamıyordu, saniyən də Xankəndinə və şəhərə böyük erməni dəstələri hücumu həqqində şayiə olan müxtəlif xəbərlər onları vadar etmişdir ki, ehtimal daxilində olmaq üzrə bu hadisat böyük bir davaya mabəddəl olduğu təqdirdə hiss ediləcək bir qüvvə olmaq üzrə hazır dursunlar. Davanın üçüncü günü şəhər ətrafına gəlmiş olan 3000 kürd məsələsinə gəlincə general-qubernatora hadisatı qabaqca bilərək onları dəvət etmək lazım degildi. (Hətta general-qubernator hadisatı qabaqca görməz və görmək istəməzdi) Onlar şəhər hadisatı həqqində kənardan xəbərdar olaraq yığışıb gələ bilər. Çünki şəhərdən o kəndlərə 30-33 verstdir.

Bu surətlə biz təkid ediriz ki, general-qubernatorun qabaqcadan düşünülmüş, təyin edilmiş talan planı yox imiş. Ancaq qanlı müsadimə və müqavimət imkanını təsəvvür belə etməyərək böyük gücünü nümayiş etdirməklə ən sülhcüyanə bir surətdə əhali və köçərilərin rahətini təmin və Azərbaycan hökumətini tətbiq və təşmil arzusunda imiş. General-qubernator erməniləri hifz etmək üçün hər növ əldə olan tədbirləri görmüş və hər vasitə ilə çalışmışdır. Və qoymamışdır ki, Yevlaxdan başlamış Şuşayadək bütün erməni

dairələri tamamilə məhv olsun. Halbuki binagüzarlığında olan qüvvə ilə bunu etmək pək asan idi. Bu həqiqəti ermənilər özləri də etiraf ediyorlar və onlardan heç birisi general-qubernatoru suyi-niyyətə və mütəzəmmən erməniləri məhv etmək fikri ilə ittiham etmiyorlar. Bitərəf, xüsusi məqsədə xidmət etməyən Ararat siyasətçiləri məbudinə tabe olmayan möhtərəm ermənilər (Məsələn: Yepiskop Vaqan, 11 il qlava olmuş Kalantarov və daşnak məktəbinə mənsub olmayan ciddi siyasi xadimlərdən Şahnazarov) dəxi öz səmimi və düzgün bəyanatlarında bu əmri qəti surətdə təyid və təsdiq etmişlərdir. Hər kəs bu dəlil və sübutlara diqqət versə anlar ki, çalışqan, iş bilən, ermənilərə qarşı xeyirxah, bütün Qarabağ müsəlmanlarının ehtiram və təziminə məzhər olub, Qarabağda az zaman xidmət etməklə həyatı təcdid etmiş, hər şeyi qaidəyə salmış olan general-qubernator əleyhinə necə murdar, çirkli yalanlar, iftiralar söyləniyor.

*"Azərbaycan", 13 iyun 1919, №223*

Mənabe – mənbələr
Əşqiya – canilər
Təyid – söylənmiş sözün doğrulunu təsdiq etmə

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA
(keçən nömrədən mabədi)

### Çubaryanın məruzəsi

Məclisi-Məbusanın 7 temmuz (iyul) tarixli iclasında Qarabağ hadisəsini təhqiq üçün göndərilmiş olan parlaman heyəti tərəfindən doktor Qarabəyli Əfəndinin məruzəsindən sonra (haman məruzə qəzetəmizdə var idi) heyətin erməni əzası tərəfindən Çubaryan ayrıca bir məruzə təqdim etmişdir. Məlum olduğu üzrə hadisat barəsində heyət bir rəyə gəlmiyib türklər ayrı, ermənilər də ayrıca məruzə vermişlərdir.

İştə Çubaryanın məruzəsi:

**Çubaryan** – Qarabağa getmiş olan komissiyanın birinci iclasında bir təklif vardı ki, rəylər yazılı surətdə təqdim edilsinlər. Bunun cavabında doktor Qarabəyov eşitdiginiz məruzəyi təqdim etdi. Fəqət haman məruzədə vüqu bulmuş olan şeylərin bəziləri denilmədi. Bən həm erməni, həm də daşnak olduğum üçün bu iki amil əleyhimdə olacaqdır. Fəqət rica ediyorum inanasınız ki, hadisat barəsində bitərəf bəyanat verəcəgəm. Sizdən xahiş ediyoram Qarabəyovun məruzəsində ümumi vəziyyət həqqindəki müqəddimə ilə məsələnin siyasi cəhətini atıb ancaq illəti cəhətinə diqqət verəsiniz. Bən hətta məsələyə mənafei-siyasiyyə nöqteyi-nəzərindən yanaşmayacağam. Çünki bu məsələdə rəylər müxtəlif ola bilər. Öz məruzəmdə bən ancaq hadisat həqqindəki məlumatı nəzərə alıyoram. Burada Şurayi-Milli Divani-Rəyasəti daxiliyyə naziri Yusifbəyliyə müraciətlə Qarabağda nələr olduğunu sordu. Buna böylə cavab verildi. (Cavabı oxuyor)

Daxiliyyə naziri naminə çəkmiş olduğu bir teleqrafda Qarabağ general-qubernatoru hadisəyi böylə göstəriyor ki, ermənilər elatın qabağını kəsmişlər və nəticədə təbii bir hərəkət üzündən bir erməni kəndi məhv edilmişdir. Bən haman bu andan başlayacağam. Elat mayın 27-dən etibarən köçməgə başlamış və tam bir həftə dinc, salamət gəlib keçmişdir. Heç bir ixtilaf və müsadimə olmamışdır. Bu öylə bir məsələdir ki, buna diqqət verməli və düşünməlidir. Avam cəmaət öz mənafeini daha yaxşı anlıyor və dərk ediyor. İbtida qərar verilmişdi ki, elatı İngiltərə heyəti, general-qubernator və erməni Milli Şurası adamlarından ibarət bir mühafizə dəstəsi təşyi etsin. Fəqət nədənsə böylə mühafizə dəstəsi təyin edilməmişdir. Amma bununla bərabər el-oba sağ-salamət və heç təcavüzə uğramadan gəlib keçmişdir.

Boykot məsələsinə gəlincə burasını deməliyəm ki, doğrudan da boykotun hökumət tərəfindən edildigi qəti surətdə müəyyən olmamışdır. Fəqət hökumət bu boykota mane olmamış və onu haqli görmüşdür. Lakin buna da etiraz etmiyoruz. Hərb qanunları şiddətlidir və biz ona tabe oluyoruz.

Şəhərin müsəlman hissəsində bir erməninin tapançasını almışlardır. Buna cavabında erməni hissəsində bir neçə xuliqan bir süvarinin atını və tüfəngini alıb qaçmışlardır. Erməni Milli Şurası bir at alıb vermiş və məktub yazaraq üzr istəmişdir. Deyirlər ki, ermənilər müsəlmanlara təcavüz ediyorlar. Fəqət heç bir təcavüz olmamışdır. Erməni hissəsində xəzinəyi həmişə əskərlər mühafizə ediyordular. Erməni hissəsi ilə müsəlman hissəsi arasında daima gediş-gəliş davam etmişbir. Daxiliyyə nazirinin məktubunda deniliyor ki, xəzinəyi erməni hissəsindən köçürmək istədikdə ermənilər müqavimət göstərmiş, mane olmaq istəmişlərdir. Halbuki xəzinənin köçürülməsi işinə baxan zabitin bəyanatından anla-

şılıyor ki, heç bir mümaniət göstərilməmişdir. Bən bilmiyoram ki, postxanə ilə xəzinənin köçürülməsinə ermənilər tərəfindən mümaniət göstərilməsi həqqində ingilis heyətinə yazmış olduğu məktubu general-qubernator nə əsas üzərinə yazmışdır. Böylə şeylər bəni vadar ediyor ki, hökuməti-məhəliyyə tərəfindən verilən bəyanatə bir qədər sərhesablıq ilə baxalım.

Yarma səngərinin sövqülceyş əhəmiyyəti vardır. Tutalım ki, o səngər yolu mühafizə etmək üçün lazım idi. Fəqət şəhərin erməni hissəsi başı üstündə olan Üçmıxın nə əhəmiyyəti ola bilər. Şahidlərin həpsi göstəriyor ki, üç səngər müsəlman əskəri tərəfindən işğal edilən kibi ermənilər arasında çaxnaşma və həyəcan başlanmışdır. Ermənilər yığışıb Yepiskopun yanına getmişlər ki, ingilis heyətinə müraciətlə onların əmin və amanlığını müdafiə və təmin etsin. Səngərə ancaq açıq yol ilə getmək olur. Doktor Qarabəyov pək həqli olaraq qeyd ediyor ki, əvvəl hankı tərəfin güllə atdığını təyin etmək çox çətindir. Çünki ermənilər deyirlər ki, qabaqca müsəlmanlar güllə atdılar, müsəlmanlar isə deyirlər, qabaqca ermənilər atdılar. Fəqət bunların həpsi nə məqsədlə edilmişdir? General-qubernator açıqdan-açığa bəyan ediyor ki, bir dəfəlik bu hallara xatimə çəkərək öz hökumətini möhkəmləşdirməgi təhtiqərarə almışdır. Hadisat general-qubernatorun təşəbbüsü ilə başlanmış və müəyyən plan üzərinə tədricən səngərlər işğal edilmişlərdir. Nəticədə bütün şəhər ataş içində qalmışdır.

İkinci dəfə Yepiskop ingilislərin yanına getdikdə Milli Şura əzasının şəhərdən çıxarılması həqqində general-qubernator tərəfindən verilmiş tələbnamə ona xbər verilmişdir. Şəhərdə olan Milli Şura əzası təslim edilmiş, fəqət atışma dayanmamışdır. Uzun müddət atışma davam etdiginə baxmayaraq, şəhərdə heç kəs mütəzərrər olmamışdır. Bunların həpsi göstəriyor ki, sırf hərbi bir nümayiş icra edilmişdir. Dava baş-

lanan zaman müsəlman hissəsində olan ermənilərin həpsi yox olmuşdur. Hökumət nə yapmışdır? General-qubernator diyor ki, o danışdırdığı adamlar bəyan etmişlər ki, atışma başlandıqda haman erməniləri müsəlman hissəsinin sərhəddinədək aparıb yola salmışlardır. Sonra necə olmuşsalar onlara məlum degildir. Hökumətin böylə hərəkəti müqəssirləri ruhlandırmaqdır.

Qaybalı kəndindən qaçıb qurtaranların bəyanatından görülüyor ki, orada dava ayın 5-də degil 4-də başlanmışdır. Saət 11-də general-qubernator görmüşdür ki, Xəlifəlilər Qaybalı kəndini mühasirə etmişlərdir. General-qubernatorun evindən Qaybalı kəndinin görükməsi doğru degil. Amma mühasirə edənlərin keçəcəgi təpələr yaxşıca görüküyorlar. Bən bir xanım ilə bərabər 2 saət zərfində piyadə endim dərəyə və hər yeri gəzdim, general-qubernator isə diyor ki, o adamını dolama yol ilə göndərmişdir. Qaybalı kəndlilər diyorlar ki, onlar qaçıb qurtarmaq üçün kənddən çıxdıqda bir tərəfdən köçərilər ilə əskərlər, digər tərəfdən də şəhərin adamları ilə əskərlər onları mühasirəyə almışlardır. Ona görə də kəndlilər geri qayıtmağa məcbur olmuşlardır. Bu zaman böyük bir dövlətin nümayəndələri ilə ermənilər mühafizəsiz, köməksiz ermənilərin qırılmağına tamaşa ediyormuşlar. Telefon daima general-qubernatorun binagüzarlığında olmuşdur. Binaənileyh telefon ilə də tədbirlər ittixaz edə bilərdi. Deyirlər ki, mühafizə əskərləri erməni qüvvələrinin hücumu təhdidi altında imiş. Fəqət heç bir sual etmiyorlarmı ki, bu qüvvələr nə yerdən gələ bilərlərdi. Əskərlər kazarmada oturmamalı, əhaliyi mühafizə etməli idilər. Hamı bir səslə təkid ediyor ki, Qaybalı kəndində dava ayın 5-də qurtarmamış, hətta 6-da da davam etmişdir. Binagüzarlığında qoşun və süvarilər olan general-qubernator bunu dayandıra bilməzmi idi. Kürdlər

ayın 5-də gəlmişlərdir. Bən bu barədə general-qubernatoru təqsirləndirmək fikrində degiləm. Fəqət güman ediyorum ki, onların vürudu hadisatın nəticəsi degil, onlar böylə bir şey gözlüyormuşlar. Onun üçün də gəlmişlərdir. Məhəlli caddələri bən gəzmişəm, dərədə meyitlər vardı. Meşə meyitlər ilə dolu idi. Çayda meyitlər vardı. Qəbirlər açılıb dağıdılmışdır. Çünki camaat böylə güman etmişdir ki, qəbirlərdə şey gizlətmişlərdir. General-qubernatorun böylə rəftarını nə ilə izah edərsiniz. O vəqtədək meyitləri dəfn etməmişlərdir. Camaat özü ərizə verərək meyitlərin dəfni üçün izn istəmişdir. Fəqət ayın 11-nədək ancaq 30 meyit basdırılmışdır. Bən bu xüsusu general-qubernatora dedikdə cavab verdi ki, keşişə demişdir. Fəqət nədənsə bu vəqtədək əməl edilməmişdir.

Bizim cəmi ümidimiz şübhəsiz ki, qoşunadır. Binaənileyh cavan ordumuza toxunan hər növ şeyə öylə ehtirasla baxılmasını anlıyoram. Fəqət bizim ümidimiz sağlam orduyadır. Kərkicahana göndərilmiş olan dəstənin zabiti yerli əhaliyə demişdir ki, kəndin üstünə gəlməgə dəstələr yığılıyor. Əskərlər də əlbəttə öz müsəlmanlarının əleyhinə çıxmayacaqlardır. Ona görə təklif ediyor ki, ermənilər kənddən çıxıb Xankəndinə köçsünlər. Ermənilər də qulaq asmışlardır. Sonra kənd talan edilmişdir.

Bəhlul kəndi bilmərrə mühafizəsiz imiş. Camaat kənddən çıxıb getmiş, sonra kəndi yandırmışlardır. Bunlar hökumətin fəaliyyətsizligi degilmi? Bunun həpsi isbat ediyor ki, əhalinin bir qismi digərinə nisbətən xüsusi imtiyazatə malikdir və hər nə istəsə edə bilər. Dedilər ki, yolun kənarındakı kəndlərdən şosseyi gülləliyormuşlar. Əgər bu kəndlər təcavüz etmək istəsəydilər burada zikr olunduğu kibi Ağdamdan Şuşayadək bütün yolu tutmuş olan köçəriləri buraxmazlardı. Ancaq bir

ittifaq olmuşdur ki, o da burada zikr edildi. Kəndlilər heç bir təcavüzkaranə hərəkatda bulunmamışlardır.

Bən bir neçə sözdə bu məsələnin müzakirəsi barəsində deməк istiyoram. Anlamıyoram məsələ nə üçün bu qaidə ilə müzakirə olunur. Bizi parlaman göndərməmişdi və ümumiyyətlə bən bilmiyoram oraya nə üçün getdik. Əgər məhəllində hər şey təhqiq və tədqiq edilmiş olsaydı biz dəxi müfəssələn təhqiq etmək və məlumat toplamağa imkan bulardıq.

Bən istərdim ki, biz əqəliyyət nümayəndələri də məmləkətdə ümumi vətəndaşların istifadə etdikləri ümum hüquqa malik olaydıq. Bən bir şey istiyoram ki, Azərbaycanın müxtəlif yerlərində bəlkə azlıqda qalan ermənilər var. Onlar dəxi ümum vətəndaşlarla bərabər hüquqa malik olsunlar.

*"Azərbaycan", 15 iyul 1919, №225*

İllət – səbəb, dəlil, məqsəd, qayə
Təşyi – müşayiət etmə
Qayil – inanc, razılıq

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 8 TEMMUZ İCLASI

### Rüstəmbəyli Şəfi bəyin məruzəsi

**Rüstəmbəyli Şəfi bəy** – Dün burada ərz edildi ki, Qarabağ məsələsi haqqında iki məruzə var: birisi bənimlə Qarabəyli əfəndinin, digəri Çubaryan ilə Xocayevin.

Fəqət mütəəssüfanə dün ikinci məruzə oxunmadı. O məruzə deleqat heyətinin əlində bulunan sənəd və sübutlar əsasilə tərtib verilməmişdir. O, ancaq general-qubernator əleyhinə bir təqsirnamədən ibarətdir. Əsil əsasları da bundan ibarətdir ki, Qarabağ hadisatı əsnasında hökuməti-məhəliyyə fəaliyyətsizlik və səhlənkarlıq ibraz etmişdir. Bunu isbat üçün sual ediyorlar ki, Üçmıx səngərinə qaravul qoymaq general-qubernatorun nəyinə lazım idi? Məlumunuzdur ki, Şuşa iki müsəlləh tərəfdən ibarət idi: birisində hökumət vardı, digərində isə hətta ermənilər özləri də etiraf ediyorlar ki, heç bir hökumət olmuyub müsəlləh çetə dəstələri hökmfərma olaraq əhaliyi dəhşətə salıyordu. General-qubernator da, ingilis heyəti də böylə vəziyyəti təhəmmül edilməz bir hal sayaraq general-qubernator səltəsinin erməni hissəsində tətbiq və təşmil edilməsini lazım görüyorlardı. Bu məqsədlə qışla olan qismə əksəri qitəat yeridilməsi təhti-qərarə alınmışdı və çünki general-qubernatorun bu qərara əməl etməsinə müsəlləh ermənilər tərəfindən mümaniət göstəriləcəgi və öz xahişləri ilə bu əmrə tabe olmayacaqları gözləniyordu. Ona görə də general-qubernator qeyri məmul hərəkətlərin önünü almaq üçün müəyyən tədbirlər ittixaz etməgə məcbur idi. Bunu

ermәni әhalisi dә biliyordu. General-qubernatorun bәyanatına görә mәlumat varmış ki, o zaman ermәni kәndlәrindәn şәhәrә müsәllәh kömәk dәstәlәri gәlәcәkdi. Əlimizdә mәlumat var ki, şәhәrә tez-tez müsәllәh dәstәlәr gәliyormuş, hәtta Qarabağ ermәnilәrinә sәfәrbәrlik elan edilmiş imiş. Ona görә Üçmıxa qaravul qonulmuşdur ki, şәhәrә müsәllәh ermәnilәri buraxmasın, ermәnilәr dә, türklәr dә tәyid ediyorlar ki, silahsız adamlara heç kәs dәgmiyordu.

Hadisat başlanan günü Ağdamdan Şuşayadәk bütün şosse köç ilә dolu imiş vә Qarabağ türklәrinin bütün var-yoxu yolda imiş, bir çox şahidlәr göstәriyorlar ki, ermәnilәr kәrratla mәzkur yolu atәşә tutmuşlardır. Bu işlәr isbat ediyor ki, general-qubernatorun ermәnilәrә qarşı heç bir tәcavüzkarlıq fikri yoxmuş vә ola bilmәzdi. Ermәni mәtbuatı bu hadisәdә kürdlәrin roluna böyük әhәmiyyәt veriyor. Bu xüsusu Çubaryan dәxi qeyd etdi. Qaybalı kәndinin talanında kürdlәrin iştirakı hәqqindә ermәnilәr ilә ingilis heyәti mәlumat veriyorlar. Fәqәt türklәr göstәriyorlar vә tabor komandanı, hökumәt vә sairlәrinin әldә etdiklәri mәlumatdan anlaşılıyor ki, kürdlәr dava qurtardıqdan sonra gәlib çıxmışlardır. Ermәnilәrin hәpsi diyor ki, kürdlәrin iştirakı onlara mәlum degildir. Mühәqqәqdir ki, kürdlәrin hәrәkәti general-qubernatorun binagüzarlığı ilә dayandırılmışdır. Tәbiidir bir yerdә bir hadisә olursa bәzilәri kömәk, digәr bәzilәri dә qarәt üçün oraya qoşuyorlar. Bir dә Çubaryanın bәyanatında әskәrlәrimizin iştirakına böyük әhәmiyyәt veriliyor. Halbuki mәlum oluyor ki, Üçmıx vә Yarma sәngәrlәrindәki qaravullardan başqa ümum әskәrlәr ayın 4-dә qışlalarda imişlәr. Ermәni hissәlәrindәn atılan güllәlәr ilә qışla içindә әskәrlәrdәn qәtl edildigi dә bunu isbat edir. Hәtta general-qubernator vә tabor

komandanı əmr etmişlər ki, ermənilər güllə atsalar da əskərlər cavab verməsinlər. (Hökmləri oxuyor) Bu surətlə görülüyor ki, əskərlərin güllə atmamaları üçün hər növ ciddi tədbirlər görülmüşdür və general-qubernator var qüvvəsilə çalışmışdır qan tökülməsin.

*(Bitmədi)*

*"Azərbaycan", 16 iyul 1919, №226*

Təyid – təsdiq etmə

Kərratla – dəfələrlə

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 8 TEMMUZ İCLASI

(keçən nömrədən mabədi)

**Rüstəmbəyli Şəfi bəy** – ("Müsavat") (Məruzəsində davamla diyor) Qaybalı hadisatında qoşun qitəatının iştirakı həqqində heç bir dəlil yoxdur və bən bilmiyoram hankı əsas və dəlillər üzərinə Çubaryan təkid ediyor ki, qoşun iştirak etmişdir. Doğrudur, mütəzərrərləri danışdırarkən bir növ çinli adamların dəxi iştirak etdiklərini bəyan etmiş və isbat üçün bir danə çin dəxi göstərmişlərdir. Fəqət haman çin məhkəmə məmurinə məxsus bir şey idi. Qaybalı kəndinə kömək verilmişdir. Geneal qubernatorun binagüzarlığında bulunan ümum vasitə və qüvvələrdən istifadə edilmişdir. Hətta öylə bir vəqt olmuşdur ki, əhalidən bir qismi ermənilərə hücum etmək istəmiş, fəqət general-qubernator qoymamışdır. İş bir məqamə çatmışdır ki, yerli müsəlman əhali general-qubernatorun fövqəladə insaniyyətpərvəranə və himayətkaranə rəftarından narazı qalmışdır. Qətiyyən müəyyən edilmişdir ki, Qaybalı kəndində yanğın, şəhərdə atışma olan zaman başlanmışdır. Yəni o zaman ki, hökumət bütün fikri və zehni bittəbii şəhər hadisatı ilə məşğul imiş. Rötmister İştal bəyan ediyor ki, yolları ermənilər öylə gülləliyorlardı ki, ancaq dolama yol ilə getmək lazım və mümkün oluyordu. General-qubernatorun evi yaxınında şəhər ilə Qaybalı arasında uca bir dağ var. Doğrudur, biz o xüsusda tədqiqat icra etmədik, lakn zənnimcə bu evdən tüstü çətin görülə bilərdi. Şahidlərin göstərməsi əsasilə biz təyin etdik ki, Qaybalı kəndində dava 3-4 saat çəkmişdir. General-qubernator bu hadisəyi bildikdə,

dərhal kömægə başlamışdır. Fəqət şübhəsizdir ki, təhtiidarəsində olan bütün qüvvədən istifadə edəmməzdi. Zira eyni zamanda yalan-doğru çox xəbərlər çıxmışdır ki, sair kəndlərə də hücum ediliyor. General-qubernatorun qüvvəsindən bir neçə erməni kəndinə kömək edilmiş və onlara nicat verilmişdir. Xankəndinin kömæginə qaldıqda, bu mövqe hər tərəfdən erməni kəndlərilə əhatə edilmiş olduğundan oradakı əskərlər çox sərhesab olub orayı boş qoymamalıydılar.

Bilxassə ki, firqə komandanının göstərdigindən anlaşıldığı üzrə Xankəndi yaxınında müsəlləh erməni dəstələri yığıldığı həqqində məlumat alınmış imiş. Bununla bərabər kəndlərin mühafizəsi üçün oradan xırda qaravul dəstələri və əskər qitəatı göndərilmişdir və bu surətlə nə mümkün isə edilmişdir. Ermənilər özləri diyorlar ki, ayın 5-də firqə komandanı yanında qalmış olan yeganə komandanı 16 əskər ilə Qaybalı kəndinin kömæginə göndərmişdir. Fəqət kömək gec yetişmişdir. Ancaq 67 adamı xilas edə bilmiş və Xankəndinə gətirərək iki gün yemək-içmək verdikdən sonra general-qubernatorun yanına göndərmişdir. Bundan əlavə Atabəyovun mülkü dəxi əskərlər tərəfindən hifz edilmişdir. Onun bütün şeylərini ştaba apararaq saxlamış və ertəsi gün qaytarmışlardır. Gərək general-qubernator və gərəksə qoşun bu etdiklərindən artıq daha bir şey edə bilməzlərdi.

Bir də Çubaryan dəfn edilməmiş meyitlərdən bəhs etdi. Ola bilər ki, orada meyitlər varmış. Fəqət burası da məlumdur ki, general-qubernator kərratla ermənilərə və hətta keşişə meyitlərin dəfni həqqində kağız yazmışdır. O meyitləri müsəlmanlar dəfn edə bilməzlərdi. Çünki dəfn zamanı müəyyən ayini-ruhani icrası lazımdır. Meyitlərdən qövm-əqrəbası olan bir qismini onlar dəfn etmişlərdir. Yerdə qalan qismi isə dəfn olunmamış qalmışdır. Bu işi hökumətin fəaliyyətsizlik

və səhlənkarlığına istinad vermək həm də eşidənlərin əhvali-ruhiyyəsinə icrayı təsir etmək müəyyən bir nəticə və təsir buraxmaq üçün Çubaryanın danışdığı kibi danışmaq lazım degildi. Buna ehtiyac yoxdur, fəzlə bir işdir.

Kərkicahan məsələsinə gəldikdə qoşun heç vəqt onlara deməmişdir ki, biz müsəlmanlara güllə atmayacağız. Ancaq bəyan etmişdir ki, qoşun az olduğundan böyük dəstəyə müqavimət edəməz. Ona görə də ermənilərə təklif edilmişdir ki, şeylərini müsəlmanlara əmanət tapşırıb özləri Xankəndinə əskərlərin mühafizəsi altına getsinlər. Bu əmr əskərlərin fəaliyyətsizligi degil, bəlkə ayrıca diqqət və iltifat əlamətidir. Bunların həpsindən əlavə o ermənilərə güllə atılmaması, onlara kömək və müdafiə edilməsi haqqında general-qubernator bir çox əmrlər vermişdir. (Əmrnamələri oxuyor) Telefon ilə də hər tərəfə əmrlər vermiş, binagüzarlıqlar etmişdir. Şübhəsizdir ki, böyük bir yanğın əmələ gətirə biləcək olan hadisat ancaq hökuməti-məhəlliyyənin təşəbbüs və fəaliyyəti sayəsində təhdid edilmiş, dayandırılmışdır. General-qubernatorun böylə qəti tədbirləri olmasaydı, erməni kəndlərinin həpsi dağıdılardı, biz Qarabağda olan zaman istintaq icrası və müqəssirləri tapmaq üçün oraya müddəiyi-ümumi və istinaf məhkəməsi sədri dəxi gəldilər. Bu surətlə ədliyyə tədbirləri də görülmüşdür. Bitərəfanə və biqərəz mühakimə edilərsə görülər ki, Qarabağ hadisəsi nəinki yeni təşəkkül etmiş bir dövlət, hətta böyük dövlətlərdə də mümkünatdan olan bir anarşi çıxışı imiş. Lakin qabaqcadan düşünülmüş bir təşəbbüs və Çubaryanın dedigi kibi qəsdən edilmiş səhlənkarlıq degil, biləks hökumət qara niyyətləri boğmaq üçün hər növ tədabir görmüşdür. Bunu biz müəyyən və qəti surətlə bəyan ediyoruz. General-qubernatorun məqsədi ancaq bütün şəhərdə nizam və asayiş bərpa etmək olmuşdur. Mətbuatda gene-

ral-qubernator namı ətrafında qaldırılan səs-küy provokasiyadır. Bu ancaq Azərbaycanda bir fəna hadisəyi qeyd və müəyyən surətdə tənvir etmək niyyətilə icra olunur. Köhnə Qarabağ məsələsi qaldırılıyor. Bu məqsədlə də Zaqafqasiya həyatında İrəvan quberniyası və Axisqa qəzasında görmüş olduğumuz hadisələrə nisbətən xırda bir məsələ ətrafında bunca gurultular qoparılıyor. Biz gərək bu məsələyi meydana çıxararaq Qarabağın vəziyyətini aydınlaşdıraq və erməni mütəəssüblərinin hərəkatı və əməlləri müqabilinə nə kibi tədbirlər ittixazı lazım gəldigini təyin edək.

Məclisi Məbusan və bütün azərbaycanlılar Qarabağı Azərbaycanın ayrılmaz bir hissəsi deyə qəbul etmişlərdir. Bu iş son zamanlar ermənilər ilə müsəlmanlar arasında vasitəçi rolu oynayan xarici qüvvənin rızası ilə olmuşdur. Fəqət həqiqət halda Qarabağın dağlıq qismi və şəhərin yarısı Azərbaycan hökumətinin məntəqei-nüfuzu xaricində qalmışdır. Şübhəsiz, dövlət və beynəlmiləl hüquq nöqteyi-nəzərindən bu işə müsəlləh üsyan kibi baxmalı və bunun müqabilinə hər bir hüquqi qüvvə işlətməgə qədər qəti tədbir görməlidir. (Səslər: doğrudur) Fəqət Azərbaycan parlaman və hökuməti bu məsələnin silah ilə həll edilməsini istəmiyordular. Buna baxmayaraq Azərbaycan Cümhuriyyəti təşkil olunandan bəri bəzi qruplar orayı Azərbaycandan ayırmağa çalışıyorlar. Az qala Qarabağı bolşevik Rusiyanın bir hissəsi elan etmək dərəcəsinə vardılar. Nəticədə orada iki düşmən tərəf əmələ gəldi.

Biri erməni, biri müsəlman. Həmişə də bunların arasında müsəlləh müsadimələr baş verdi. Hökumətimiz Qarabağda general-qubernatorluq təsis etdikdən bəri Qarabağ məsələsinin yeni bir səfhəsi başlanmışdır. Biz Qarabağ ermənilərinin də, türklərin də əhvali-ruhiyyəsini gördük. Onlar həmişə birgə yaşamaq istiyorlar və biliyorlar ki, siyasi və iqtisadi rabitəsiz

yaşaya bilməzlər. Şuşa və Zəngəzur erməni Milli-Şuralarının daima rəhbərlik etdikləri mütəəssüb erməni dairələrinin fəaliyyəti həmişə Azərbaycan dövləti əleyhinə camaati qızdırmağa həsr edilmişdir. Açıqdan-açığa gözümüz qabağında işliyor, əleyhimizə çıxışlar quruyor, yollarımızı, kəndlərimizi güllələyiyordular. Bunun həpsi dəlil və sənədlərlə sübut olunur. Fəqət biz həmişə sülh tərəfdarı olduq-qaldıq. General-qubernatorluq təsisindən sonra müsəlmanlar ermənilərə hücum etmişlərdir. Fəqət general-qubernatorluq təhti-idarəsində bulunan hər yerdə hər daim hökuməti-məhəliyyə sülhcuyanə, tərəf müqabil isə təcavüzkaranə iqdamatda bulunmuşdur. General-qubernator ilə əlaqəsi olmayan kəndlərdə həmişə müsəlləh dəstələr olmuşdur. İyunun 4-dək erməni Milli-Şurası general-qubernatoru qəbul etmiyib, onunla ancaq ingilis heyəti vasitəsilə əlaqədə bulunuyordu. Bu surətlə erməni Milli Şurası hökuməti qəbul etmiyordu. Hətta Yepiskopda general-qubernator ilə görüşməkdən mm etmişdir və ancaq ayın 4-5-dən sonra görüşmüşlərdir.

Eyni zamanda bunu da nəzərdən qaçırmamalıdır ki, Qarabağ Milli Şurası özbaşına öz gücü ilə işləmiyordu. General-qubernatorun əldə etdigi dəlillər bunu şübhə xaricində isbat edərlər ki, onlar həmişə İrəvan ilə siyasi və maddi rabitədə olub, Şuşa erməni Milli Şurasının əlində olan bütün qüvvə və pul İrəvandan göndəriliyormuş. Burası Şuşada Arzumanovun evi axtarıldıqda kəşf edilmişdir. Bu dəlillərin həpsi isbat ediyor ki, Qarabağda erməni camaatinin təcavüzkaranə niyyəti vardır. Zəngəzurda təcavüzkarlıq hələ də davam ediyor. Bunu mətbuat səhifəhləri göstəriyorlar. Fəqət orada da hökumətimiz məsələnin sülh təriqi ilə həlli tərəfdarıdır. Hətta hal-hazırda ermənilər hər tərəfdən hücum etdikləri zaman general-quber-

natorun müəyyən əmrnamələri var ki, müsəlmanlar hücum etməsinlər. Yalnız özlərini müdafiə və mühafizə etsinlər.

Burada boykotdan bəhs edildi. Qışda general-qubernator Qarabağa gəldikdə ermənilər çox fəna bir halda olub hətta acından ölənləri oluyormuş, səbəbi də bu idi ki, ermənilərin arandan əlaqəsi kəsilmişdi. Qarabağın erməni hissəsi şiddətli aclıq təhlükəsi altında idi. General-qubernator dərhal ermənilərə ərzaq verilməsi həqqində tədbirlər görmüş, Qarabağdan taxıl ixracını mən etmişdir. Bu surətə Bakıda 200 manatdan yuxarı olduğu halda Qarabağda taxılın putu 30 manata düşmüşdür. Ermənilər ucuz qiymətə külli miqdarda taxıl alıb əşqiya dəstələrini təmin etmişlərdir. Bu halda general-qubernator iqtisadi boykot kibi tədbir görə bilərdi, amma görməmişdir. Heç yerdə göstərilmiyor ki, general-qubernator boykot elan etmişdir. Şahnazarov, Kalantarov və sair adamlarda bunu təyid ediyorlar və diyorlar ki, camaat özü boykot etmişdi. Ermənilər az-az taxıl ala biliyorlardı. Amma külli miqdarda verilmiyormuş. General-qubernator boykot etməmiş. Biləks erməni nümayəndəsi Şahnazarovun hüzurilə qəti binagüzarlıq etmişdir ki, boykot götürülsün: götürülmüşdür də.

Bu surətlə bu məsələdə də general-qubernatoru təqsirləndirmək olmaz. Həmişə və hal-hazırda general-qubernator bütün qüvvələrinin yarısı ermənilərin mənafeinə xidmət ediyor.

Məsələn, erməniləri həmişə qaravul əskərlər müşayiət etmişlər, canlarını, mallarını daima hökumət və əskərlər mühafizə etmiş və etməkdədirlər. Hal-hazırda ermənilər ilə müsəlmanlar arasında öylə əlaqə hasil edilmişdir ki, Əskərana və Ağdamadək hər yerdə erməni arvadları taxıllarını yığıb kəndə daşıyorlar.

Bunların həpsi hökumətin tədbiri ilə edilmişdir. Onlara mühafizə veriliyor və çox kömək ediliyor. Fəqət bunların

həpsilə bərabər mütəəssüfanə ermənilər ayrı oluyorlar. Hal-hazırda yenə də müntəzəm müsəlləh qüvvələri, hökumətləri, ərkani-hərbiləri var, hökumətə tabe olmuyorlar. Bunlar da Şuşada degil, Keşiş kəndindədirlər. Ermənilər Azərbaycan hökumətinin bütün yaxşılıqlarından istifadə ediyor. Fəqət öhdələrinə düşən dövləti vəzifədən boyun qaçırıyorlar və Azərbaycan hökumətini qəbul etmiyor, tanımaq istəmiyorlar. Bunların həpsini edən Zəngəzur erməni Milli Şurasıdır ki, açıqdan-açığa işliyor və hökumətə tabe olmuyor. Amma digər tərəfdən bizim hökumətimiz bu uğurda bir iş görmək istədikdə həmişə səs-küy, gurultu, patıltı qoparıyor. Şuşada, Zəngəzurda və sair yerlərdə edilən hücumlar kibi bir çox hadisələr vüqu bulmuş. Fəqət kimsə bu xüsusda məsul olan hökumətə müraciət etməmiş və bu surətlə müqəssirlər tapılmamışdır. Şuşada, Zəngəzurda və hər yerdə bəzi məsuliyyətsiz ünsürlər işliyorlar. Mütəəssüfanə Çubaryanın bəyanatının bir təqsirnamə olduğu və erməni başçılarının xətalarından əsla bəhs olunmaması bununla təyid ediliyor. Bunların həpsini edən Azərbaycan, Ermənistan və Tiflisdəki erməni başçılarıdır. Daima rəhbərlik etmiş və etməkdə olan firqə bu işlərin həpsinə hüsni-nəzərlə baxır, Şahnazarov Ruben və Kalantarovun təyinatı isbat ediyor ki, bu hadisələrin həpsində pişrovluq edən "daşnak sütun" firqəsidir. Fəqət general-qubernatorstvoda ildırım saçan, od yağdıranlar mütəəssüfanə nizam və asayiş bərpası üçün heç bir tədbir görməmişlərdir və görmiyorlar.

Binaənileyh bən özümü borclu biliyoram Məclisi-Məbusana elan edəm ki, hal-hazırda Qarabağ ən ciddi bir vəziyyət altındadır. Əgər hökumət qəti tədbirlər görüb, möhkəm hökumət idarəsi qurmasa bu hadisat bütün Qarabağa yayılar və çünki Qarabağ Azərbaycanın ümdə bir mərkəzi, ümdə bir hissəsidir.

Ona görə orada öylə böyük hadisələr çıxa bilər ki, bu vəqtədək vüqu bulmuş olanların həpsini keçər. Binaənileyh deleqat heyəti keçən dəfə demişdir, yenə təkrar ediyor ki, Qarabağda sülh və asayiş, nizam və qaidəyi bərpa etmək üçün nizam və asayişi təmin edə biləcək yaxşı hökumətin səltəsini bütün Qarabağa tətbiq və təşmil etmək lazımdır. Bu mühüm Qarabağ məsələsini ancaq böyləliklə həll etmək olar.

*"Azərbaycan", 17 iyul 1919, №227*

Firqə – böyük dəstə
Müddəiyi-ümumi – prokuror
İstinaf – yenidən başlama

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

(keçən nömrədən mabədi)

**Çubaryan** (Daşnaq) – Mötərəm məbuslar! Dün bən bu məsələnin mövqeyi-müzakirəyə düz vəz edilməmiş olduğunu qeyd etmişdim ki, bundan dolayı da bəzi əmrlər həqqində aramızda ixtilafi-rəy hasil olmuşdur. Möhtərəm Rüstəmbəyli, Şəfi bəyin nitqinin siyasi qərəz həqqində və Qarabağda və ötəsində bu və ya o qrupların siyasi arzu və məqsədlər və haman qrupların icrayi-təsiri ehtimalı və hətta deleqat heyəti əzasından bəzilərinin böylə qərəzdən azad olmaması barəsindəki ikinci qismindən əsla bəhs etməyəcəyəm. Məruzə hazırlarkən bu cüzi məsələlər bəni maraqlandırmamışdır. Zira bən məsələyə ancaq bu cəhətdən yaqlaşmışam.

Hadisatın cərəyanını aydınlaşdırmaq və hüquqi-dövlət nöqteyi-nəzərindən hadisatın nə qədər düz cərəyan etdigini təyin qılmaq, iştə zənnimcə həpimizin təqib etməli olduğu əsas prinsip budur. Fəqət nə üçün Şəfi bəy bizim təqsirnamə adlandırdığı məruzəmizdən bir çox şeyləri buraxıyor. Bən heç vəqt təkid etmərəm ki, özünü erməni hökuməti adlandıran erməni Milli Şurasını bulunduğu şərait altında öylə yaxşı nizam və qaidə təsis edə bilə idi. Bununla böylə bu gün yenə səmimi surətdə sizə bəyan ediyoram ki, Qarabağ məsələsinin siyasi cəhəti bəni maraqlandırmıyor. Əgər biz bu işi düzgün müzakirə edib müəyyən qərara gəlmək istiyorsaq, siyasi cəhəti atmalıyız. Çünki nail olmaq üçün general-qubernatorun var qüvvəsilə çalışacağı siyasi məqsəd bir məsələdir? Ona irişmək qəsdilə təvəssül olunan çarələr dəxi başqa məsələ. Orada lazım gəldikcə məhəlində təvəssül edilmiş çarələrdən

birisi – parlaman və ya hökumət bildirilmək istərsə – siyasi məqsədə irişmək uğrundakı tədbir parlaman əksəriyyətinin işidir.

Fəqət zənnimcə böylə yol ilə gedən hər halda yaxşılığa çıxamaz. Burası nə Azərbaycan üçün faydalıdır, nə də yeni təşəkkül etmiş digər dövlətlər üçün. Bən hadisatı bəyan edərkən buraxılmış olduğum xətayə övdət ediyoram. Sizə baş ağrısı verməmək üçün bən keçən dəfə istəməmişdim və imdi də istəmiyoram təqsirnamə adlandırılan məruzəmi oxuyayım. Bən orada danışılanları, xüsusən hadisatın əməli cəhətinə aid nitqləri diqqətlə təqib ediyordum. Zira qəti surətdə tədqiq olunmamış dəlillərə istinadla öylə məsuliyyətli nəticələr çıxarmaq – necə ki, burada çıxarılıyordu – hər halda siyasi kütahbinlik olur və böylə zərbə məqsədə endiriləməz. Çox tez-tez Ruben Şahnazaryan adlı bir adamın şəhadətinə istinad ediyorlar. Bən siyasi düşmənlərimin şəxsiyyətinə ehtiram etməgə adət etmişəm. Binaənileyh istərdim bunca böyük diqqət və əhəmiyyət verilən Şahnazarovun kim olduğunu açam. (Səslər: Şuşa ermənilərinin nümayəndəsidir) Bu şahidin həqqində bunu deyərəm ki, erməni deleqaları Qaybalı kəndi əhvalını ondan soruşduqda cavab verdi ki: bən Qaybalı kəndi həqqində bir şey bilmiyoram. Bənim vəzifəm bu idi ki, general-qubernator Qaybalıdan qaçqınlar gəldigini xəbər verdikdə ancaq onları Ermənistana apardım. Pensilvaniya həqqində Pensilvaniya nefti barəsində, ingilis siyasəti, Rusiya işləri, Denikin siyasəti, Qarabağın kimə məxsus olacağı və Milli Şura həqqində çox danışdı. Anlaşıldı ki, bu müəyyən siyasi qrupun siyasətindən (səslər: daşnaq siyasətindən) narazı qalan ziyalı agentlərdən birisidir. Orada menşeviklər də vardı, daşnaqlar da, kadetlər də. (səslər: kadetlərdəmi?) bəli, kadetlər də! Sonra bir də o diyordu ki, beşəxsə onun zənninə

görə böylə siyasət fəlakətamizdir və qeyri-məmul nəticələr verər. Şəhərdə hankı əskəri qitənin iştirak etdigi və hadisatın necə cərəyan etməsi həqqində müsadiənizlə birinci pulemyot bölügü komandanı rus xidmətində bulunan zabit Aleksey Pavloviç Maksimoviçin şəhadətini ərz edim. (Səslər: rus xidmətində!) Bu haman zabitdir ki, Arzumanov ilə müzakiratda bulunmuşdur. (Oxuyor: "Bizim taborumuz tamamilə atışmada iştirak ediyordu və ətraf kəndlərdən kürdlər və sair müsəlmanlar bizə köməgə gəldilər"). Bunu deyən nə daşnaqdır, nə də erməni. Sizi də, bizi də maraqlandıran bir məsələ daha məruzəmdə tez-tez göstərdigim yol: general-qubernatorun evindən Qaybalı kəndinə gedən dərə təriqilə ən yaxın yoldur. Bu yol, bu şosse kimin əlində idi. Haman zabit bu barədə diyor ki: şosse yolunu bir zabitin komandası altında general-qubernator məiyyətindəki kürdlər işğal etmişlərdi. Həzərat bir şahid dəxi var ki, buna inanmağa heç birimizin ixtiyarı yoxdur. Bu şahid general-qubernator özüdür. Öz bəyanatında o dedi ki, biz oraya müsəlləh adamlar qoyduq. Çünki atışmanın ən şiddətlisi orada idi. Burada ikinci bir məsələ daha açılıyor. Kimlərin hücum etdigi barəsində düz danışmadılar. Bən heç vəqt demədim ki, atışmada qoşun qitəatı iştirak etmişdir. Bən dedim əskərlər də varmış. Onlar köçərilər və şəhərlilər ilə bərabər Xankəndi və dağ tərəfdən kəndlilərin yolunu kəsmişlərdir. Kəndlilər əskərlərin çinini, rəngini təsvir ediyorlar və bir danəsin də bizə gətirdilər. Deyirlər o çin məhkəmə məmuruna məxsus şeydir. Fəqət biz əhli-xibrə vəzifəsi görmüyorduq. Ancaq gördük ki, əcəb bir şey idi. Həm də mülkü məmura məxsus idi.

Fəqət kəndlərin talanında əskərlərin iştirakını şübhəsiz hesab etməlidir. (Səslər: provakasiya)

General-qubernator diyor ki, Qaybalı kənd davası qurtardıqdan 3-4 saət sonra (dava 2-3 saət çəkmişdir) kəndin içindən 65 kürd keçmişdir. Fəqət kürdlər davada iştirak etməmişlərdir. Kəndlilər biz olmayan zaman general-qubernatora verdikləri ərizədə diyorlar ki, davada Kaçelis (?) kürdləri iştirak etmişlərdir. Zənnimcə biz şübhə edəmməyiz. Bən beşəxsə bu sözlərin doğruluğuna şübhə etmiyoram. General-qubernator gərək kürdlərin şəhər üstünə gəldiklərini bilə idi və biləcək qabağını ala idi. Müxtəlif nöqtələrdən kürdlərin yığışıb gələ bilməsi üçün əqəllən iki gün lazım idi. Saət 10-dan 01-dək bunu etmək olmazdı. Ona görədir ki, məruzədə dəxi göstəriliyor ki, kürdlərin şəhərə üzərinə gəlmələri hadisatın nəticəsi degil, onu qabaqlamaq tədbirindən ibarətdir. Bən diyoram qabaqlamaq hərəkəti (səslər) və sonralar dəxi müxtəlif yığınlar iştirak etmişlərdir.

Bir də burada qışlalardan bəhs edildi. Şəfi bəy bu məsələyi şübhəsiz yaxşı tənvir etdi. Bu qışlaları Şuşanın erməni hissəsində nizam və asayişi bərpa etmək və hərc-mərci yatırmaq üçün tutmaq lazım gəliyordu. Bən bunu təbrik edərdim, fəqət biz bunu bilmək istərdik ki, qışlaların təslimi həqqində general-qubernator nə vəqt tələb vermişdir. Həpimiz siyasətə alışmamış ədd etdigimiz digər bir şahid: Minasbəyovdan sual edildikdə ki, ingilis komandanlığı tərəfindən qışlanın təslimi həqqində bir tələb varid olmuşmu idi, yoxmu, Minasbəyov cavab verdi ki, bəlkə general-qubernator və ingilis komandanlığı qışlanın təslimini tələb etmişlərdirlər də, fəqət Milli Şuraya böylə bir tələb təqdim edilməmişdir. (Şəfi bəy yerindən o vəqt Milli Şura yox idi) Haman qışlada 1500 nəfərədək erməni qaçqını oluyordu. Ancaq ayın 5-də general-qubernator polismeysterdən tələb etmişdir ki, qaçqınlar üçün yer tapsın. Erməni hissəsində yer tapmaq və qaçqınları yerləşdirmək

lazım gəliyordu. Ayın 6 və 7-də qışlayı işğal etmişlərdir. Bu məsələ də general-qubernator tərəfindən heç bir mümanəət və müqavimət olmamışdır.

Burada Milli Şuradan çox bəhs etdilər və deyirlər ki, o Milli Şura şimdi mövcud degildir. Fəqət həzərat vəqt yetişmişdir ki, biz siyasi düşmənlərimizlə namusla rəftar edək. Bən bilmərrə bu rəyə iştirak etmiyoram ki, Milli Şura öz qüvvəsi və məhəlindəki təşkilat kömərgi ilə general-qubernator kibi böyük bir qüvvə müqabilinə mübarizə edəmməzdi. Həzarat! Azərbaycan hökumətini qəbul etməyənlərin həpsini başqa məqsədlər, başqa arzular təqib edənlərin cümləsini əşqiya dəstəsi və hətta danışmağa yaramayan adamlar ədd etmək – məsələyi düz tənvir etmək degildir və siyasi mübarizədə öz qarşısında namuslu düşməni görməməkdir. Səslər: Namuslu düşmən yoxdur! Namuslu düşmənimiz olsaydı!

*"Azərbaycan", 18 iyul 1919, №228*

Əhli-xibrə – ekspert
Tənvir – işıqlandırma
Tənvir – işıqlandırma
Mən – qadağa

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA
(keçən nömrədən mabədi)

**Xocayev** – (Erməni fraksiyasından) – Həzərat! Deleqat yoldaşlarımın həpsindən sonra bən danışıram. Birinci iki yoldaşım hadisat həqqində heyətin məhəlində toplamış olduğu bütün məlumatın əməli cəhətindən bəhs etdi. Bu məlumatın həpsini elan etmək üçün bən iki sənəd göstərməli idim.

Birisi gərək ermənilər və gərəksə müsəlmanlar tərəfindən edilmiş şikayətləri havi protokoldur ki, çox uzun olduğundan onu oxumayacağam. Ancaq dövləti nöqteyi-nəzərdən ermənilər üçün də, müsəlmanlar üçün də böyük əhəmiyyəti haiz bir məsələdən bəhs edəcəgəm.

Erməni şikayətçilərinin böyük qismi göstəriyor ki, hadisat vəqti Şuşa-Yevlax yolunda olduqlarından mühafizə əskərləri, ya könüllülər mühafizəsi altında müəyyən yerlərə getməgə məcbur olmuşlardır. Və orada yol boyunda vətəndaşların əmin və rahatını mühafizə etmək üçün təyin olunmuş adamlar onları axtarmaq bəhanəsilə soymuşlardır.

Digər sənəddə Şuşadakı ingilis heyətinin, daha doğrusu ingilis heyəti nümayəndəsi polkovnik Qlyatenberqin verdigi xəbərdir. Bu vəqtədək ancaq ermənilər ilə müsəlmanların, yəni mənfəətdar olan tərəflərin verdikləri məlumatı elan etmişik. Üçüncü məruzə isə kənarda buraxılmışdır. Əlimizdə olan məlumatı tamamilə bəyan və tənqid edə bilmək üçün bən həmin bu sənədi dəxi elan edəcəgəm.

Qlyatenberqin verdigi məlumatı oxuyur. Salonda səs-küy qalxıyor. (Səslər: doğru degil bunlar həp yalandır) İştə həzərat, dün və bu gün burada elan edilmiş materialın həpsi

bu! Bu məlumatın tənqidi nədən ibarət olmalıdır. Bəncə bunun tənqidi iki cür ola bilər: əvvəla hadisatın səbəblərini açmaq, aydınlaşdırmaq, sanyən məzkur hadisatda hökumətiməhəliyyənin rolunu təyin etmək. Hadisatın səbəbləri nədir?

Səmimi və insaf üzərinə bu suala bir cavab ola bilər: bir tərəfdən Qarabağ ermənilərinin Azərbaycan Cümhuriyyəti hökumətini qəbul etmək və tanımaq istəmədikləri: digər tərəfdən də Azərbaycan Cümhuriyyəti və onun nümayəndəsi, yəni hökumətin məhəlli nümayəndəsinin nə yol ilə olursa-olsun Qarabağ ermənilərini Azərbaycana tabe etdirməgə çalışması. Bu hadisatın əsil səbəbi iştə budur. Burada sizə diyorlar ki, əhalinin bu işdə təqsiri yoxdur, onlar Azərbaycan hökumətini qəbula hazırdırlar. Fəqət bəzi qruplar, təşkilatlar, dəstələr onları qoymuyorlar və tabe olmamağa məcbur ediyorlardı. General-qubernator bu nöqteyi-nəzəri müdafiə ediyor. Görünür ki, deleqat heyətindəki müsəlman yoldaşlarım dəxi bu nöqteyi-nəzərə şərikdirlər. General-qubernator ancaq Şuşa Milli Şurası əzasının təbidinə çalışıyordu və təbid etdi. Ona görə anlaşılıyor ki, o ancaq haman əzayı müqəssir və mübəlliğ sanıyor. Bilxassə ki, başqa şəxslərin təqib edildigini görmədik və görmüyoruz.

Mütəəssüfanə Milli Komitənin bütün fəaliyyətini təhqiq edə bilmədik. Nə üçün? Çünki nə mükatibə vardı, nə dəftərxanə, nə də şura əzası, bəziləri qaçmışdı, digər bəziləri təbid edilmişlərdi. (Səslər: salonda ümumi səs-küy) Ancaq bilavasitə hadisatə aid bir çox əmrlərə təsadüf etdik. Bəncə Milli Şura heç yoxdur, əhəmiyyət verilməgə dəgməz. Deyirlər ki, erməni hissəsində Milli Şuradan başqa hökumət yox idi, mayın 27-də köç başlanandan iyunun 4-nədək köçərilər ilə ətraf kənd erməniləri miyanında heç bir müsadimə olmamışdır. Bəs nə üçün fəsadların həpsi Milli Şuraya isnad veriliyor.

Amma qeyd edilmiyor ki, haman şuranın tədbirləri sayəsində iş böyləcə rahət keçiyormuş. Bir də müsəlman hissəsində bir ermənínin tüfəngini almışlar. Bunun cavabında onun da xuliqan yoldaşları 2-3 gün sonra iki nəfər könüllünün silahını, hətta atını almışlardır. (Səslər: könüllü degil, əskərin silahını almışlar) Birinin atını qaytarmışlar. Digərinin atı və silahı qeyb olmuşdur. General-qubernator haman at ilə silahın qaytarlımasını tələb etdikdə Milli Şura onun dalınca adam göndərmişdir. Çünki xuliqan atı minərək kəndə qaçmış imiş, lakin tapmamışlar. Çünki iz itirmək üçün ayrı kəndə qaçmışdır. Milli Şura isə 10.000 manata bir at və 1500 manata bir tüfəng alaraq könüllüyə (bir səs: "əskərə") vermək üçün ingilis heyətinə təslim etmişdir. Bir də deyirlər ki, erməni hissəsində hökumətsizlik, hərc-mərc hökmfərma imiş. Bəlkə varmış, amma müsəlmanlar həqqində yox. Çünki dava başlandıqda erməni hissəsində bulunan müsəlmanlar həp salamat qalmışlar. Amma müsəlman hissəsində 40 erməni tələf omuşdur. Bir də son dəqiqədə general-qubernator ultimatum kibi tələb ediyor ki: "şəhərdə atışma ancaq təbid üçün Milli Şura əzasının təslimindən sonra yatırılacaqdır".

Bunun müqabilində əzalar gəlib ingilis heyətinə təslim oluyorlar. Bunlar həp isbat ediyor ki, Milli Şurada əgləşənlər qaniçici degilmişlərdir. Bəncə ümumiyyətlə bu hadisatda müəyyən şəxsləri, yaxud qrupları və təşkilatı müqəssir tutmağa əsas yoxdur. İş təbliğatda, ya əhali içində hasil edilən əhvali-ruhiyyədə degildir. (Qarabəyov: düzdür) Əhvali-ruhiyyə üsuli idarədən asılıdır. Bunu isə hökumət və onun məhəlli nümayəndələri əmələ gətiriyorlar. Doğrudur, bəzi adamlar təbliğat ilə cəmaəti bir tərəfə mail edər. Hökumət müqabilinə çıxara bilər. Fəqət hökumətin də əlində çox tədbirlər var ki, mübəlliğlər ilə mübarizə edib əhvali-ruhiyyəyi dəgişdirə

bilər. Deleqat rəisi doktor Qarabəyli general-qubernatorun bu məsələ ətrafındakı bütün tədbir və hərəkətini təsvib ediyor, həqli görüyor.

Bir də boykot məsələsindən bəhs etdikdə diyor ki, general-qubernator razı ola bilməzdi ki, ermənilər külli miqdarda ərzaq alıb onunla da əşqiya dəstəsini təmin etsinlər. Bən sizi inandırıyoram, cənab Qarabəyov ki, əhalini ərzaqdan məhrum etdikdə əşqiyanın heç vecinə də olmuyor. Onlar sizdən-bizdən çox tapıyorlar. Mütəzərrər dinc əhali oluyor.

Bir də bunu qeyd etməlidir ki, hadisat zamanı hökuməti-məhəliyyənin rolu nə imiş və necə rəftar etmişdir. Sabiq natiq Çubaryanı tənqid edərkən öylə isnad verdi ki, guya o, general-qubernatoru talan əmələ gətirməkdə ittiham ediyormuş. Xayır öylə degildir. O şeylər ki, Şuşada olmuşdur, heç kəs deyə bilməz və demiyor ki, Şuşada erməniləri qırmaq üçün hazırlanmış imiş. Bu ancaq geniş dairədə icra edilmiş (bəlkə ingilislərin də rizası ilə) bir nümayiş idi ki, erməniləri qorxudaraq Azərbaycan Cümhuriyyəti hökumətinə tabe olmağa, general-qubernatoru qəbula məcbur etmək məqsədilə vaqe olmuşdur. Ərz etdigim kibi burası pək böyük dairədə icra edilmiş bir nümayiş idi. Və əgər bir xəta və səhv olmuşsa bən demiyorum ki, bu general-qubernator tərəfindən bir cinayətdir. Yoldaşım da böylə demiyor. Biz diyoruz ki, bu ehtiyatsızlıqdır. Nəticədə müəyyən müsadimələrə bais ola biləcək tədbirlər görmək və bunu da əhaliyə xəbər verməmək, ehtiyatsızlıqdır. Nə üçün general-qubernator bunu danıyor. Nə üçün diyor ki, bu iş nümayiş məqsədilə degildi. Köç yolunu mühafizə üçün idi. Gərək ermənilərin və gərək müsəlmanların iztirab və həyəcan içində olduğunu nəzərə alsanız, görərsiniz ki, general-qubernator böylə bir halda o cür tədbirlər görmək mümkün olmadığını bilməyə bilməzdi. Çünki ermənilər böylə an-

lamışlar ki, onları qırmaq hazırlıqları görülüyor. Ona görə də silahlı adamlarını qaravulların müqabilinə çıxarmışlardır. İki müsəlləh qüvvə qarşı-qarşıya durmuşdur. Böylə bir zamanda vəziyyət müşkül, xəlq həyəcanlı olan bir halda heç əhəmiyyəti yoxdur kim qabaqca güllə atmışdır. Bilxassə ki, aralarında nizama tabe olmayan adamlar dəxi az degilmiş. Şuşa hadisəsini ehtiyatsızlıq hesab etmək olursa, Qaybalı hadisəsi hökumətin fəaliyyətsizligi və səhlənkarlığından başqa bir şey degildir. Dün Qarabəyov isbat ediyordu ki, general-qubernatorun kömək vermək və qırğının önünü almaq imkanı yoxmuş. Yoldaşlardan bəziləri diyorlar ki, orada müsadimə olmuşdur, xeyr orada qırğın vaqe olmuşdur.

Deyirlər kömək vermək üçün 17 verst dolama yol getmək lazım gəliyordu. Halbuki firqə ərkani-hərbi iqamət edən Xankəndi ilə Şuşa arasında telefon var. Bu surətlə istəsəydilər qırğının önünü almaq üçün telefon ilə binagüzarlıq edə bilərlərdi. Amma etməmişlərdir. Deyirlər etmişlər, fəqət gec olmuşdur. Yox, bu belə degil. Nədən hamı biliyordu, amma general-qubernator bilmiyordu ki, qırğın var. Deyirlər ki, erməni dəstələrinin hücumu təhlükəsi varmış. Bən qəti surədə diyoram ki, şəhərə heç erməni dəstəsi gəlmiyormuş və gələ bilməzdi. Hərbi idarələr böylə şaiyat əsasilə iş görməzlər. Onlar kəşfiyyatçı göndərər, nə olduğunu bilərlər. Odur ki, demək olmaz ki, kömək göndərmək mümkün degildi. Bir də deyirlər ki, orada təqdim edilmiş olan çin əskəri degil, məhkəmə məmurlarına məxsus bir şey olduğundan kürdlərin iştirak etdiklərinə bir dəlil degildir (?). Binaənileyh Qaybalı kəndlilərin sübutları əsassızdır. Amma adətən mütəzərrərlərin şəhadəti əgər cərh edilməzsə dəlil hesab olunar. Deyirlər Qaybalıya kömək göndərmək olmazdı, çünki sair kəndlərin də kömagə ehtiyacı vardı. Fəqət, həzərat, qabaqca Qaybalı

mütəzərrir olmuşdur. Binaənileyh sair kəndlərdən Daşaltı və sairlərinə hücum edilməsindən bəhs olunamaz. Çünki onlar sonradan olmuş imişlərdir.

Bu işlərin həpsinə adi degil, dövlət nöqteyi-nəzərindən baxılarsa demək olar ki, əvvəla general-qubernator böylə hadisələrdə müsəlləh camaatin iştirakını məqul bir əmr sayırmış.

Müsəlmanların özlərinin dediklərinə görə orada müdafiə komitəsi var. Haman komitə erməni sərhəddinə müsəlləh adamlar göndərmişdir. Bən diyoram ki, bu böyük xətadır, çünki general-qubernator özü təkrar bəyan etmişdir və heyət buna şərikdir ki, general-qubernatorun ixtiyarında hər növ nizamsızlığı yatırmaq üçün lazım gələn miqdarda müsəlləh müntəzəm qüvvə var idi.

Davada nizama tabe olmayan camaat özü əldə silah iştirak etmişdir. Şahidlərdən birisi diyor ki: bizim müdafiə komitəmiz var. Böylə ittifaqlarda könüllü müsəlləh adamlar çıxarıyor. Bunlar heç bir nizama tabe olmuyorlar. Bən hər şeydən ziyadə diqqətinizi buna cəlb ediyoram. Zira gələcəkdə burası bir ixtilaf və müsadimə mənbəi və qanun və asayişi təhdid edici bir təhlükə ola bilər.

Bir mühüm məsələ də var: hadisatdan sonra heç bir təftişat və istintaq olmamışdır. On gün sonra bizim heyət getdi, hələ istintaq yox idi. Bəncə bu iş Qaybalının qırğınından bedtərdir. Çünki caza verilmədikdə camaat öylə güman edir ki, insanın keyfi nə istəsə edə bilər.

*"Azərbaycan", 20 iyul 1919, №229*

**Təbid – uzaqlaşdırma**
**Mükatibə – yazışma**
**İsnad – aid etmə, məxəz, sübut**
**Cərh – sancma, biabır etmə**

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 17 TEMMUZ İCLASI

**Nəsib bəy Yusifbəyli** – (Rəisi-Vükəla)*

Möhtərəm məbuslar! Qarabağ hadisatının təfsilatından sizə ərz etmiyəcəgəm. O vüquat ki, orada olub bən güman edirəm siz onun təfsilatını burada söyləyən yoldaşlarınızdan eşitmişsiniz. Onları təkrar etməgi bən öz tərəfimdən və hökumət namindən artıq bilirəm. Sizin yoldaşlarınızdan dörd nəfərini sizə məlumdur ki, hökumət vüquatdan sonra Qarabağa göndərdi. Onlar orada olan vüquatı ögrəndikdən sonra gəlib sizə ərz etdilər. Bən bir şey ərz etmək istiyoram ki, məəttəəssüf o dokladlarda ki, burada sizə söyləndi onlarda ifrat və təfrit vardır.

Bir tərəfdən verilən dokladda səy edilmiş idi ki, Qarabağda vaqe olan hadisələrdə kimsə günahkar olmadığı göstərilsin, digər tərəfdən sizə ərz olunan dokladdan məlum oluyordu ki, guya orada iki növ adamlar vardır. Birisi zalım, o birisi məzlum. Zalımlar onlardır ki, orada olan məzlumlara son dərəcədə zülm etmişlər. Zalım müsəlmanlar, məzlumlar isə ermənilər olduğu göstərildi. Ermənilər tərəfindən heç bir hərəkət vaqe olmamış kibidir. Heyətin erməni əzası tərəfindən təqdim olunan məruzədə hər bir xüsusda səbəb axtarılmışdır. Və səbəb göstərmişlər ki, guya iki nəfər əskəri ermənilər tərksilah etmişlər. Əlbəttə bu böylə böyük bir məsələ degil, bunun da səbəbi var imiş, o da bu imiş ki, müsəlmanlar tərəfindən bir erməninin tapançası alınmış imiş. Digər tərəfdən Qaybalı kəndi dağıdılmış, o kənddə gördüklərini təfsir ilə həzin kartinalar, dəhşətli mənzərələr təsvir ediyorlar. Amma

haman məruzədə söylənməmişdir ki, Qaybalı kəndində olan müsəlmanların da evləri dağıdılmışdır. Dokladda bu barədə heç bir söz söylənməmişdir ki, bütün müsəlman ailəsi dağılmış, iki arvad məqtul tapılmışdır.

Bunu ərz etmək istiyoram ki, dokladlar öylə bir tərzdə yazılmışdır ki, bir tərəfdən müdafiə, digər tərəfdən hücum edilir. Bir tərəf müqəssir görülərək, diğər tərəf özünü təqsirsiz göstərmək istiyor.

Qarabağa göndərilən heyətdən əsl məqsəd bu degil idi. Məqsəd o idi ki, cinayətin üstü açılsın və günahkarlar tapılsın. Çubaryanın dokladına Məclisi-Məbusan üzvlərindən birisi təqsirnamə adı verdi. Burada yəni bir məqsəd var. Məqsəd günahkarları tapmaq degil, general-qubernatoru təqsirləndirməkdir. Həqiqətən general-qubernatorda günah varmı və ya yoxdur – bu böyük bir məsələdir. Bu xüsusda hökumətin fikrini ərz etmək istərəm.

Əlbəttə, bilirsiniz ki, son zamanlarda Zaqafqasiyada qırğınlar olduğu zaman onda məhəlli hökumət məmurlarının əli olmuşdur. Əlbəttə burada da nəzərə gəlir ki, kənd dağılmış, arvad-uşaq ölmüş, bunda general-qubernatorun da əli olmuşdur. Əgər qubernatorun həqiqətən talançı və məqsədi də talan düzəltmək olsaydı, o zaman buna müsaid bir zəmin axtarardı. Baxıb görəlim o vəqtki Qarabağda bu hadisə vaqe olmuş, o buna müsaidəmidir və ya degildir? Bütün Qarabağ yolları köçərilər ilə dolu olan bir zamanda talan fikrinə düşmək dəlilik olardı. Çünki o öylə bir zaman idi ki, həqiqətən böylə bir iş görmək onda bütün köçərilərin həyatını təhlükə altında buraxıyordu. Bunu şübhəsiz ki, general-qubernator nəzərə almaya bilməzdi.

İkinci: Əgər məqsəd yalnız talan qurmaq idisə məgər general-qubernator başqa yer tapmazmı idi ki, orada qursun?

Öylə gərək Avropa nümayəndələrinin ingilis və Amerika nümayəndələrinin gözü qabağında qura idi ki, gəlib o meyitlərin şəkillərini görsünlər və rəsmlərini alıb aləmə bildirsinlər. Yenə deyirəm: general-qubernator talan qurmaq istəsəydi başqa bir yer tapardı. Əgər general-qubernator istəsə idi bütün Yevlaxdan Şuşaya kimi öylə bir poqrom yapa bilərdi ki, bütün Qarabağ ataş içində qalardı. Əgər məmurlarda sui-niyyət olsa idi əlbəttə böylə edərlərdi. Bilirsiniz general-qubernatorun bunu edə bilmək qədər qüvvəti və nüfuzu da vardır. Görüyorsunuz ki, burada sui-niyyət olmamışdır. Əgər olsaydı bu hadisə iki şeydən baş verə bilərdi. Əvvəla general-qubernator ya gərək divanə olaydı, çünki əqli başında olan şəxs Şuşanın iki verstliyində poqrom qayırmazdı. Yoxsa ayrı səbəbi yoxdur.

İkinci isə o adam xain olmalı idi. Çünki həmin poqromdan Azərbaycın camaatinin istər müsəlman, istər erməni dən olsun bütün Azərbaycan əhlinin canı və malı tələf olmaq təhlükəsi vardır.

Qaybalı kəndi büsbütün sarsıldı. Orada iki yüz adam tələf olmuşdur. Zaqafqasiyanın halı bu saət öylədir ki, doğrudan da 200 adam nəzərə bir şey gəlmiyor. Lakin Şuşada Qaybalı kəndinin poqromu bir cinayətdir, bir dəlilikdir. Degilə bilər ki, Xosrov bəy iyi və ya fəna adamdır. Mən onu tanıyıram. Lakin heç bir kimsə ona xain deyə bilməz. Çünki şübhəsiz ki, bir xəyanətlik yoxdur. Poqrom barəsində general-qubernatorun heç sui-fikri və sui-qəsdi olmamışdır. Sonra dokladların birisində yeni tənzim olunmuş Azərbaycan əskərlərini də müttəhim etmək istiyorlar. Mən diyoram hər yerin əskərləri arasında, o cümlədən Azərbaycan əskərləri içərisində də ola bilər fəna adamlar tapılsın. Bu bir təəccüblü şey degildir. Özünüz görüyorsunuz ki, bənim məiyyətimdə bulunan

iki nəfər əskəri cinayət yapdıqları üçün boğazından asdılar. Ola bilər onlar bütün mövcudiyyətimizi müdafiə ediyorlar. Lakin cinayətə görə onları da asdılar. Söyləmək ki, Qarabağ əskərləri nizamı pozub cinayət yapmışlar, bu mümkün degildir, yalandır.

**Səslər** – Yalandır, biz qoymarıq, rədd ediyoruq.

**Nəsib bəy** – İnsafı olan təsdiq edər ki, bizim ərkanı-hərbimiz erməni məzlumları üçün bir mərc olmuşdur. Hər kəs orada həyatının təmində olduğunu görüyordu. Şuşada əskərlərimiz asayişi təmin və təcdid etməgə çalışmışlardır. Mən böylə əskərlər ilə başqa şey degil, yalnız iftixar edərəm. (Alqış) Diyorlar ki, nə üçün əskərlər vüquatın qarşısını almadılar və Qaybalı kəndini mühafizə etmədilər?

Möhtərəm əfəndilər! Əvvəla vüquatın necə olduğunu bilmiyorlar, cəmaət biri-birini yemək istiyor. Şuşa od içində yanıyor. Əgər bütün Qarabağ alovlansaydı iş qayət fəna olardı. Orada öylə bir qüvvət olmalıydı ki, bu təhlükənin qarşısını alsın. Əlbəttə az qüvvətimizi parçalayıb kəndlərə yollaya bilməzdik. Əgər getmək istəsəydi belə məlum degildi ki, o kənd dostmudur ya düşmənmidir, bilmiyorduq ki, o kənd əskərlərin arxasından tüfəng atacaqlarmı ya atmayacaqlarmı.

O işi ki, əskərlərimiz orada edibdir oraya gələn adamları mühafizə edib, müdafiə etmişlər yedirib içirmişlər. (Alqışlar) Biz biliriz ki, başqa əskər böylə hörmətkəranə hərəkətdə bulunamazlar. O səbəbə əskərlərimizlə iftixar edərəm. (Alqışlar) Az bir zamanda yetişmiş əskərlərimiz isbat olundu ki, dissiplina (nizam) saxlıyorlar. Bir sözlə demək olur ki, əskərlərdə və Sultanovda günah yoxdur.

Hər halda bir kənd məhv olmuşdur. Şəfi bəy Rüstəmbəyov öz nitqində dedi ki, Şuşada ufaq vüquat olmuşdur. Qaybalı

kəndinin vüquatı ufaq görünüyorsa da filhəqiqə Bakı əhvalatındandır.

Nuxa-Şəki İrəvan, Zəngəzur və Naxçıvan hadisatından daha ufaq isə də, amma məəttəəssüf ufaq olmasilə bərabər çox böyük zəlalətdir və bütün Zaqafqasiya müsəlmanlarını ləkələyən vüquatdır. Nə olmuş: 3-4 yüz arvad-uşaq məhv olub getmişdir. Keçmiş zamanlarda qonşular arasında heç böylə vüquat olmamış. Qədimdə arvad-uşaqlara əl vuran olmazdı. Şimdi kəndilərini kişi hesab edənlər silahsız və pənahsız arvad və uşaqları məhv ediyorlar. O səbəbə istiqlaliyyətimiz üçün bu kibi cinayətlərin önünü almaq lazımdır.

O böyük günah nədir? O günah Ermənistanda, ya Azərbaycanda kimsə canilərin əleyhinə qalxıb onlara tənbih etməmişdir.

Əfəndilər! Demək olmaz ki, İrəvanda və Ermənistandakı müsəlman köylərində Qaybalı kəndindən əksik işlər və faciələr oluyor. Bunlar həpsi bir-birinə əvəz yapmaq deməkdir. Bəncə caniləri mütləq tənbih etmək lazımdır.

Bu işləri ədliyyə nazirinə tamamilə təftiş, layiqilə təhqiq etməsi və canilərin cəzayə çatdırılması həqqində əmr olmuşdur və komissiya seçilmişdir.

Başqa yollar da vardır ki, hökumət təvəssül etmişdir, onları da unutmamışdır. Bu yollardan birisi Qarabağ əhalisi nümayəndələri ilə bilavasitə bir çox məsələləri həll etmək təşəbbüsüdür. Buna iqdam edilmişdir. 6-cı erməni syezdi çağrılmışdır. Oradan nümayəndələr gəlib hökumət ilə müzakirədədirlər. Arada bir o qədər şey qalmamışdır. İşlər sülh ilə həll oluyor. Orada sizin istiqlaliyyətinizi Qarabağ ermənilərinin hamısı olmasa da 4-dən 3 hissəsi sülh konfransına qədər etiraf edib kəndilərinin Azərbaycanda olduqlarını hiss və dərk edərək özlərini Azərbaycan təbəəsi elan

etməgə qərar verirlər. Bundan əlavə başqa yerlər də daha vardır. Azərbaycanda da, Ermənistanda da bir çox cinayətlər vaqe olub, olmuşdur. Bunları gözlə görmək və təhqiq etmək üçün millətlər nümayəndələrindən ibarət komisyon təşkil etmək mümkündür. Və hökumət də böylə bitərəf bir komisyonun təşkilinə qərar verib, erməni hökumətinə təklif etmişdir ki, 2 əza bizim parlamandan, 2 əza erməni parlamanından, 2 nəfər bitərəf adamlardan, məsələn: ingilis və ya İtaliya nümayəndələrindən bir heyət gedib həmi Qarabağ hadisatını, həm də Ermənistanda vüqu bulmuş və bulmaqda olan hadisatı ögrənsinlər. Azərbaycanda yaşayan ermənilərin və Ermənistanda yaşayan müsəlmanların halını təftiş etsinlər. Azarı təyin etsinlər ki, dəvası tapılsın. Çünki azar tapılarsa dəvası tez tapılar. Ona görə bən təvəqqe edirdim ki, tezliklə 2 nəfər nümayəndənizi intixab edəsiniz. Ermənistan da razı olmuşdur. Komissiya gedər təftiş edər. İştə hökumətin tədbiri və fikri. Ola bilər ki, bu tədbirləri tənqid edənlər olsun və razı olanlar da olsun. Amma bir şey ərz edərdim. Talan harda olursa-olsun hökumət onun əleyhində olacaq və poqrom qayıranlara ciddi cəza verməgə tərəfdardır. Əgər hökumət bunu yapa bilməzsə bir dəqiqə iş başında qalmaz, qala da bilməz. (Alqış)

Bundan sonra iki təklif varid oluyor:

1. Erməni fraksiyonları təklifi:

Azərbaycan Parlamanı, parlaman üzvlərindən mütəşəkkil heyətin məruzəsini və rəisi-hökumətin Qarabağda iyul ayının əvvəlində vüqu bulmuş olan hadisələr xüsusundakı bəyanatını dinləyərək arzu edir ki, hökumət tərəfindən məzkur hadisat münasibətilə general-qubernator məmuriyyətindən kənar olmaq şərtilə istintaq təyin edilərək müqəssirlər kim olursa-olsun mənsəb və məmuriyyətinə baxmayaraq təhti mühakiməyə alınsın.

2. "Müsavat"ın təklifi:

Qarabağ hadisatı həqqində hökumətin bəyanat və məlumatını dinləyərək və hökuməti-məhəliyyə, xüsusən general-qubernatorun əməl və fəaliyyətində heç bir qanunsuzluq əlaməti görməyərək Məclisi-Məbusan bu hadisənin təsviyyəsi üçün hökumət tərəfindən ittixaz olunmuş tədbirləri təsviblə növbədəki məsələlərin müzakirəsinə keçiyor.

Birinci təklifin lehinə ancaq ermənilər səs vermişlər. Sosialistlər səs verməmişlər və əksəriyyət əleyhinə səs vermişdir.

İkinci təklifin əleyhinə ermənilər və lehinə əksəriyyət səs vermişdir. Sosialistlər bu təklifə də rəy verməmişlərdir.

*"Azərbaycan", 22 iyul 1919, №231*

Həzin – kədərli, hüzün
Mərc – çəmən
Təvəssül – xahiş etmə
İttixaz – tədbir görmə
Əzası – ərazisi
Poqrom – proqram
Mərc – məcrə
Zəlalət – rəzalət

***Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament kitabının birinci cildində (səh.869-872) Nəsib bəyin bu çıxışı arxiv sənədləri əsasında dərc olunub. Qəzet mətni ilə tutuşdurduqda bir sıra ciddi nöqsanlara yol verildiyi məlum olur – Ş.H.**

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 27 TEMMUZ İCLASI

İclas axşam saat 8-in yarısında açılır.
**Rəis:** Həsən bəy Ağayev
**Katib:** Əhməd Cövdət

### Məsaili-yövmiyyə

1 – Şəhərlər nəfinə idxal və ixrac olunan yüklərdən alınan müvəqqəti vergi nizamnaməsi həqqində qanun layihəsi. Məruzəçi: Ağabəyov (3-cü qiraət)

2 – Nazir müavinlərinə yeni maaş təyini həqqində qanun layihəsi. Məruzəçi: Ağabəyov (3-cü qiraət)

3 – Sənaye şəhadətnamə qiymətlərinin artırılması həqqində layiheyi-qanuniyyə. Məruzəçi: Rüstəmbəyov (3-cü qiraət)

4 – Hökumət əndində xüsusi təftiş və təhqiqat komisyonunun təsisi həqqində layiheyi-qanuniyyə. Məruzəçi: Rüstəmbəyov (3-cü qiraət)

5 – Sinif və məşğələsindən dolayı mükəlləfiyyəti-əskəriyyədən azad edilənlər həqqində layiheyi-qanuniyyə. Məruzəçi: Mehdi bəy Hacınski

6 – Bələdiyyə idarələrinə qlasnılar intixabatı qaidəsinin qanun layihəsi

7 – Spirt məhsullarından alınan aksiz vergisi miqdarlarının artırılması həqqində layiheyi-qanuniyyə. Məruzəçi: Ağabəyov

8 – Azərbaycan Cümhuriyyəti sərhəddində mühafizə bölügü təsisi həqqində layiheyi-qanuniyyə. Məruzəçi: Ağabəyov

9 – Topraq vergisinin artırılması ilə bərabər topraq və məxaric smetasının və topraq vergisi miqdarlarının təcdidi haqqında qanun layihəsi. Məruzəçi: Ağabəyov

10 – "İttihad" fraksiyasının hökumətə sualı

11 – Nəşri-elan haqqında. Məruzəçi: Rüstəmbəyov

12 – Maliyyə nəzarəti şurası təsisi haqqında layiheyi-qanuniyyə. Məruzəçi: Rüstəmbəyov

13 – Fabrika inspeksiyasına dair qəvaidin müvəqqəti təğyir edilməsi haqqında layiheyi-qanuniyyə. Məruzəçi: Rüstəmbəyov

14 – Daxil olmuş kağızlar.

Ləvazim heyəti komisyonuna Abbasqulu Kazımzadə əvəzinə qeyri-bir üzv intixab edilməsi.

**Rəis** – (Məsaili-yövmiyyə oxunduqdan sonra) Bir də keçən səfər Məclisi-Məbusan təklif etmişdi ki, tezliklə Məclisi-Məbusan mərkəzi intixab komissiyası seçilsin. Onu da proqrama daxil ediyoram. Bundan əlavə Zəngəzur qaçqınlarına yardımedici heyətə Parlaman tərəfindən bir üzv intixab edilməlidir. Hökumət tərəfindən Zəngəzur qaçqınları nəfinə 17 milyon 750 min manat buraxılması münasibətilə hökumət arzu etmişdi ki, hökumət tərəfindən seçilən heyətə Parlaman tərəfindən də bir üzv daxil olsun. Binaənileyh nəzarət arzu ediyor ki, o üzv indicə seçilsin. Əlavə ləvazim komissiyasına Abbasqulu Kazımzadənin əvəzinə digər bir üzv seçilməlidir. Rica edirəm tənəffüs zamanı namizəd göstərib məclisin axırında o üzvü seçəsiniz. Bu cür tərtibata etiraz yoxsa qəbul olunur. Növbədəki məsələ: şəhərlər nəfinə idxal və ixrac olunan yüklərdən alınan müvəqqəti vergi nizamnaməsi haqqında qanun layihəsidir.

Məruzəçi: Bayram Niyazi əfəndi Kiçikxanov olmaq üzrə məzkur layiheyi-qanuniyyə maddə-maddə oxunaraq hər

maddəsi bilaetiraz və ümumlayihə tamamilə müttəhidülrəy qəbul olunur.

Bədə müavini-nazirlərə yeni maaş təyini həqqindəki layihənin müzakirəsinə keçiliyor və yenə müttəhidülrəy qəbul olunur. Yalnız 3-cü maddədə bir nisan əvəzinə yeni maaşların bir iyuldan tətbiqi həqqində təshih vaqe və qəbul oluyor.

Bundan sonra sənaye şəhadətnamə qiymətlərinin artırılması həqqindəki qanun layihəsinin müzakirəsi başlanıyor. Maddə-maddə və sonra tamamilə səsə qoyularaq bilaetiraz müttəhidülrəy qəbul və ləvayei-qanuniyyə komissiyasına mühəvvəl ediliyor.

Növbədə hökumət əndində xüsusi təftişat və təhqiqat komissiyası təsisi həqqindəki, layiheyi-qanuniyyədir. İkinci katib Mehdi bəy Hacınski əfəndi qanunu maddə-maddə oxuyor. Bütün maddələr bilaetiraz qəbul olunur. Nəhayət layihə tamamilə səsə qoyuluyor və müttəhidülrəy qəbula keçiyor.

Bədə sinif və məşğələsindən dolayı mükəlləfiyyəti-əskəriyyədən azad edilənlər həqqindəki layiheyi-qanuniyyə mövqei-müzakirəyə qoyulur. Rəis əfəndi bu qanunun təcili surətdə keçirilməsini Divani-Rəyasət tərəfindən təklif ediyor. Əksəriyyəti-ara ilə istecal qəbul olunur. Məruzəçi Hacınski Mehdi bəydir.

**M.B.Hacınski** – Mükəlləfiyyəti-əskəriyyə elan edildikdən sonra böyük müəssisələrin bəzi mühüm xidmətçiləri bilatəfavüt əskərligə alınırlar. Bu cümlədən təftiş sədirləri, müstəntiqlər, müddəiyi-ümumilər və qeyri bu kibi məmurlar əskərligə dəvət ediliyorlar. Buna görə hərbiyyə naziri bir qanun layihəsi hazırlayaraq məzkur qanun mövcibincə lazım gələrsə böylə mövqe tutan və əvəz edilməyən əşxasın müvəqqətən əskərlik vəzifəsindən azad olunmalarını təklif ediyor. Bu barədə ləvahiyyeyi-qanuniyyə komissiyası hərbiyyə komis-

siyasının da rəyini sordu, hərbiyyə komissiyası öz rəyini yazıb bildirməklə bərabər məzkur layiheyi-qanuniyyəyə təcili surətdə baxılmasını rica etdi. Təsdiqinizə ərz olunan layiheyi-qanuniyyə budur (oxuyur sonra layihənin maddə-maddə müzakirəsinə keçiliyor).

**Rəsulzadə Məhəmməd Əmin** – "Müsavat" – Mükəlləfiyyəti-əskəriyyə məsələsindən ən ziyadə əhəmiyyəti olan bir məsələ varsa, o da müzaqiyət məsələsidir; o da istisna xüsusundadır. Bir şeyə təəccüb ediyoram ki, nəzarətdən burada bir adam yoxdur. Əgər nəzarətin nümayəndəsi olsaydı bu istisna həqqində bizə səlahiyyətli cavab verərdi.

Burası mühüm bir məsələdir. Ən əhəmiyyətli cəhətinə də xəlq içində, cəmaət ilə təmasda bulunan zaman təsadüf ediliyor. Buna çox əhəmiyyət vermək lazımdır. Bu qərar layihəsinin təcili surətdə qəbulunu bizə təklif ediyorlar. Fəqət bəzi ailələr və məmuriyyətlər var ki,onlara da müafiyət xüsusi tətbiq edilməlidir. Lakin o barədə qanun layihəsində bir şey yoxdur. Bən bilmək istərdim ki, bu müaflığı hərbiyyə nəzarəti hankı maddələr əsasilə tətbiq ediyor. Zənnimcə nəzarətin nümayəndəsi hazır olsaydı bu məsələ həqqində daha müfəssəl danışmaq olardı və bunun səbəblərini bilərdik. Lakin bu yoxdur. Amma bəncə müəyyən sinif mənsubiyyəti və məmurluq verdigi kibi bəzi ailələr şəraiti də var ki, əskərlikdən müaflıq həqqi verir. Bu xüsusda sabiq Rusiya qanununda bir qaç maddələr var ki, qalığı cəmaət içində bulunurkən hiss ediliyor. Bəzi rus qanunları var ki, şimdi bizdə tətbiq olunur. Amma həyatımıza düz gəlmiyor. Məsələn, rus qanununa görə bir atanın ya ailənin böyük oğlu olan – sair oğul olmazsa əfv ediliyor.

Ola bilər ki, rus həyatında rusluq nöqteyi-nəzərindən bu mümkün olsun. Amma bizdə böylə olamaz. Ola bilər ki,

bir atanın böyük oğlu əskər aparıldıqda o qədər müşkülat törətməsin. Amma haman qanun əsasilə atası-anası olmayan, fəqət bir ailə başçısı mövqei tutan şəxsləri əskər aparıyorlar ki, ana-atası yoxdur. Halbuki böylə şeylərdən böyük müşkülat çıxıyor. Çünki ata-anası olan bir oğul aparıldıqda bəlkə atası ailəyi saxlaya bilər də. Amma valideynsiz bir oğul aparıldıqda ailəsi tamamilə sahibsiz qalıyor. Rus həyatında bunun o qədər zərəri olmaz bəlkə, lakin bizdə böylə ailələr böyük müşkülat içində qalarlar. Zira başçısız ailəyi arvad idarə və təmin edəmməz. Ona görə bən dedim ki, bizim həyatımızca bəzi şeylər dəxi əlavə edilib mükəlləfiyyəti-əskəriyyə məsələsində bir çox xüsusiyyətlər nəzərə alınsın.

**Rəis** – Layiheyi-qanuniyyəyə böylə bir təshih təklif ediliyor:

"Pərəstarı olmayan ailənin rəisi və tək olan övladı dəxi müafdır".

**Aşurov** – (Bitərəf) Məhəmməd Əmin cənabları bu xüsusda müəyyən bir təklif etdilər. Zənnimcə bəlkə o qanuna bələd degildirlər. Burada qanun yoxdur. Burada ona baxılmıyor ki, hankı adamlar əskərlikdən azad olsunlar, bu qanuna bir əlavədir.

Əsl qanun bənim zamanımda, yəni birinci hökumət dövründə qəbul edilmişdir. Biz o vəqt bu xüsusları həp mülahizə etmişik. Biz rus ailəsindən bir cavanın əgər ata-anası olmaya, lakin arvadı ola onu aparırlar. Çünki arvad özünü dolandıra bilər. Lakin biz o vəqt kəsdik ki, məiyyəti olmayanları azad olunsunlar. Praktikadan da görünür ki, əskər tutanlar çox biqanunluqlar ediyorlar. O da bizim işlərimizin tazəligindəndir. Amma tək ailə sahibi olanlar həqqində qanun var ki, tək bir nəfər çörək qazananları gərək aparmasınlar.

**Muxtar Əfəndizadə** – (Əhrar) Bəncə bu məsələ hər halda yersiz degildir. Öylə oluyor ki, bir ailə içindən 2-3 qardaş ayrılıb ayrı-ayrı ailələr təşkil ediyor.

Məhəmməd Əmin əfəndi buyurdu ki, rus qanunlarını tamamilə bizim həyatımıza tətbiq etmək mümkün degildir. Fəqət burada bir məsələ var ki, ruslarda qardaşlar biri-birindən ayrılmıyor, yaxud çox gec ayrılıyorlar. Bizdə isə çox tez ayrılıyorlar. Bir kişinin 3 oğlu varsa 3 ailə təşkil olunur. Müşkülat da bunda oluyor ki, hər ailənin bir ailə başçısı olmaq lazım gəliyor ki, onu idarə etsin. Ruslarda başqa cürədir. Qanun mövcibincə məiyyətsizləri buraxıyorlar, məiyyətsiz isə ata-anası olub qardaşı olmayan adamlar hesab ediliyor. Yoxsa bir atanın 3 uşağı olub on il ondan ayrılıyor. Onu qəbul etməzlər. Bu xüsusda tədqiqatda bulunsaq görəriz ki, nəticə etibarı ilə hər evdən əskərligə düşən iki adam olsa birini də ala bilməyəcəgiz. Çünki tez evləndirib ayıracaqlardır. Böylə olan surətdə diqqət verilməlidir ki, ata-anası və ailəsini saxlayan adam olan cavanlar məiyyətsiz sanılmasınlar. Yoxsa bir evdə neçə adam varsa buraxmaq olmaz. Binaənileyh biz imdilik bu layihənin qəbul edilməsi tərəfdarı degiliz, qalsın nəzarət tərəfindən məlumat verildikdən sonra baxarıq.

**Rəsulzadə M.Ə.** – Bən təklifimi müdafiə edərkən dedim ki, nəzarətin nümayəndəsi burada yoxdur. Əgər nümayəndə burada bulunaraq bizə izahat versəydi bəlkə də məsələ daha aydın olardı. Lakin şimdi nümayəndə burada yoxdur. Yalnız nümayəndə əvəzinə sair adamlar bizə izahat verdilər. Fəqət bunların izahatı bizi qane etmiyor. Bu məsələ bəlkə qanunda başqa cürdür. Lakin həyatda, praktikada başqa surət alıyor.

Vilayətlərdə camaatlə təmasda bulunduğumuz zaman bu qanunun tətbiq olunduğunu görmədik. Muxtar əfəndi söylədi ki, bu qanun qəbul edilirsə bir atanın uşaqları ayrı-ayrı ailələrə ayrılar və müxtəlif ailə başçısı olmaq üzrə əskərligə almazlar. Biz böylə demədik. Mövcud qanun mövcibincə bir oğul varsa atası olsa da alınmaz. Amma bir ailədə bir oğul var,

atası da yoxdur bir özü bir arvadıdır qanun hökmünə görə əskər alınır...

**Sədr** və kənardan səslər: öylə şey yoxdur.

**Məhəmməd Əmin** – (nitqində davamla) Öylə şey bəlkə də qanunda yoxdur. Lakin mahalda alırlar. Rus qanununa görə bir ailənin başçısı əskər alınar, amma bizdə böylə ola bilməz. Ailə sahibsiz buraxılamaz. Halbuki məişətdə görüyoruz ki, alıyorlar. Bəlkə böyləliklə qanunsuzluq cari olunur. Amma bu xüsusda bən səlahiyyətdar bir ağızdan cavab və izahat eşitmək istərdim. Ayrı-ayrı ağızlardan eşidilən cavab bizcə kafi degil və qane etməz.

Nəzarət nümayəndəsi burada olub "bu məsələ qanunda yoxdur", yaxud "var, amma düzəldərik" deyərsə o vəqt biz qane olarız. Yoxsa böylə cavablar bizi qane etməzlər.

Bu danışıqlardan sonra layihə rəyə vəz və qəbul edilərək 5 dəqiqə tənəffüs elan ediliyor.

*"Azərbaycan", 29 iyul 1919, №237*

İstecal – tələsdirmə, tələsdirilən
Müzaqiyət – ehtiyac
Müaf – əfv edilmiş, bağışlanılmış

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

(keçən nömrədən mabəd)

**Tənəffüsdən sonra**

İclas saət 9-da açılıyor. Rəis xəbər veriyor ki, 3 təklif varid olmuşdur. Birisi avqustun 5-dən sentyabrın əvvəlinədək Parlaman iclaslarının dayandırılması, ikincisi köhnə qaidə üzrə iclasların yenə gündüzlər saət 11-də təyin edilməsi, üçüncüsü isə Məclisi-Məbusan iclaslarının gündüz saət 10-dan 2-yə qədər olan zamana təyidi həqqindədir. Zənnimcə ikinci təklifdə yeni bir şey yoxdur. Üçüncü təklifi isə güman ediyoram təklif sahibləri geri götürərlər.

**Əhməd Cövdət** – Parlaman iclaslarının dayandırılması həqqində keçən məclisdə də bir məsələ qaldırılmış olduğunu ümum fraksiya bu xüsusda fikirlərini deyib əksəriyyəti ara ilə təklifi rədd etdiklərini qeydlə bəyan ediyoruz ki:

Bəncə bu məsələyi yenidən müzakirə edib tazədən ona vəqt sərf etmək lazım degildir. Məsələ tazə bir şey degil. Keçən iclasda müzakirə edildi, qəbula da keçmədi. Bən zənn edirəm yenidən vəqt sərf etmək fəzlədir. Bilxassə ki, bir neçə mühüm məsələlər var Parlaman onları həll etmədən tətil elan olunamaz.

**Malxazov** – (Daşnak) Təklifin lehinə olmaq üzrə rusca bir nitq söyləyərək diyor ki, Parlamanda öylə mühüm qanun layihəsi yoxdur. Şimdi də yaydır işləmək ağır oluyor. Binaənileyh istilər keçənədək Parlamana bir az müddətlik tənəffüs vermək zərərsizdir.

Səsə qoyularaq əksəriyyəti ara ilə təklif barəsində müzakirat başlanması qəbul olunur. Təklifi birinci imza etmiş olan Malxazov söz alaraq dübarə təklifi müdafiəyə başlıyor və diyor ki: hal-hazırda Parlamanda öylə mühüm bir qanun layihəsi yoxdur ki, təxir gözləməsin.

Daha doğrusu qanun layihəsinin mühümü və qeyri-mühümü olmaz. Hər qanun az-çox mühümdür. Ona binaən mühüm layihə var deməк yersizdir. Bundan əlavə tətil əleyhinə danışan əfəndilər özləri də ürəkdən arzu ediyorlar ki, tətil olsun. Ancaq nümayiş üçün onun əleyhinə danışıyorlar. Təxir gözləməyən ancaq bir Məclisi-Müəssisan seçkiləri həqqindəki qanun layihəsi idi ki, o da qəbul olunub qurtarmışdır. İmdi ancaq mərkəzi seçki komitəsi seçmək lazımdır. Bunu da seçəriz, fəaliyyətə başlar.

**Hacı Hüseyn Əfəndizadə** – (Əhrar) Bəyan ediyor ki, onlar qəti surətdə iclasların dayandırılması tərəfdarı degildirlər. Fəqət əleyhinə də degilodirlər. Ancaq təklif ediyorlar ki, bütün mühüm məsələlər həll olunub qurtardıqdan sonra tətil elan edilsin.

**Əhməd Cövdət** – (Sosialist) Keçən dəfə burada təklifin əleyhinə danışdım. Fəqət dübarə bir neçə söz söyləməgə məcburam. Malxazov burada köhnə səbəbləri təkrar etdi. Bir də dedilər ki, tətil məsələsi mühüm qanun layihələri qəbul edildikdən sonraya qalsın. Dübarə deyirlər ki, bəzi natiqlər ancaq nümayiş üçün çıxıb danışırlar. Halbuki tətilə ürəkdən razıdırlar. Bu doğrudur. Onlardan birisi də bən özüməm. İstərəm ki, bir ay nədir ay yarım tətil elan edilsin, canım rahət olsun. Lakin dövlət üçün böyük əhəmiyyəti olan qanun layihələri vardır. O qanunlar mühüm olduqlarından dövlət nöqteyi-nəzərindən bir an əvvəl qəbul edilməlidirlər. Bən dövlət mənafei nöqteyi-nəzərindən öz istirahətimi fəda

ediyoram ki, qoy o qanun layihələri qəbul edilsinlər (soldan alqış). Malxazov söylüyor ki, mühüm məsələlərdən Məclisi-Müəssisan intixabatı həqqindəki qanun layihəsi idi; o da qəbul edilmişdir. Buna görə ancaq mərkəzi komissiya seçərik ki, işə başlasın. Lakin məlumdur ki, Məclisi-Müəssisan qanunundan daha mühüm olan bir təbəəlik qanunu da vardır. O da dünən hökumətdən bizə varid olubdur. Hal-hazırda lavayehi-qanuniyyə komissiyasında müzakirə edilməkdədir.

Biliyorsunuz ki, o qanun qəbul edilmədikcə heç bir seçkiyə şüru edilə bilməz. Bundan əlavə bir də topraq məsələsi var. Malxazov diyor ki, o məsələ əhəmiyyətli degildir. Lakin onun üçün əhəmiyyətli olmasa da bizim üçün çox böyük əhəmiyyəti var.

Şimdi əkin işlərinin qızğın vəqtidir. Xalq əkdigini biçiyor. Yarın payızlıq əkin vəqti gəliyor. Əkinçilər bunu dördgöz ilə gözliyorlar. Görünür Malxazov bunu bilmiyor. Halbuki topraq məsələsi Məclisi-Müəssisan qədər əhəmiyyətlidir. Məclisi-Məbusan mütləqa bu məsələyi tezlik ilə həll etməlidir. Bunlardan başqa bir də kollektiv məsələsi vardır. Onun da həlli bizim üçün çox əhəmiyyətlidir. Zənn edirəm bütün bu qanun layihələri çox mühümdürlər. Bu gün bizim heç bir ayrı qətnaməmiz ola bilməz. Tətil məsələsindən ancaq bunları qəbul edib qurtarandan sonra danışmaq olar. Bu olmadıqca heç bir tətildən bəhs açmaq olmaz.

**Vanseviç** – Əhməd Cövdət əfəndiyə etirazla rusca nitqində bəyan ediyor ki, əvvəla təbəəlik məsələsi və topraq məsələsi mühüm olduqları üçün diqqətlə müzakirə edilməli, onlara çox məna və əhəmiyyət verilərək ziyadəsincə düşünməlidir. Halbuki şimdi məbuslar öylə yorulmuşlar ki, lazım olan qədər diqqət verə bilmiyorlar. Məsələn, bugünkü qanunlara nə bir etiraz edən oldu, nə bir təshih, ya əlavə təklif edən. Saniyən

təbəiyyət məsələsi o qədər də təxir gözləməyən şeylərdən degildir. Ona görə onu sentyabrda tətildən sonra da həll etmək olar. Topraq məsələsinə gəlincə bunu ancaq Məclisi-Müəssisan həll edə bilər. Şimdiki naqis heyət ilə parlaman bu kibi böyük qanunun qəbuluna səlahiyyətdar degildir.

**Əhməd Cövdət** – Vanseviç cənablarının etirazları yersizdir. Əvvəla buyurdular ki, bu gün burada qəbul olunan qanun layihəsinə məbuslar, ələlxüsus bizim fraksiyamız əhəmiyyət vermədilər. Kimsə o xüsusda danışmadı. Bu bir etiraz degildir. Çünki keçən dəfəhlər bu xüsuslarda çox danışılmışdır.

Bir də əgər Vanseviç cənabları diqqət versəydilər görərlərdi ki, bu gün qəbul olunan layiheyi-qanuniyyələr həpsi 3-cü qiraətdən keçiyorlardı. Binaənileyh buna yenidən əlavə ya təshih təklif etmək olmaz. Ayrı danışıq da ola bilməz. Binaənileyh Vanseviçin etirazı yersizdir. İkinci etirazı da topraq məsələsinədir. O diyor ki, topraq məsələsini Məclisi-Müəssisan həll edə bilər, Parlaman isə bu qanunu keçirə bilməz. Bən bilmirəm Vanseviç cənablarına kim o həqqi verdi ki, Parlamanı naqis elan etsin. Bir də necə oluyor ki, sair qanunlar müzakirə və qəbul edildikdə Vanseviç Parlamanı səlahiyyətdar biliyor, amma topraq məsələsi həqqindəki qanundan bəhs açıldıqda Parlamanı səlahiyyətsiz elan ediyor (alqış). Bən diyoram ki, topraq məsələsi gərək burada – Parlamanda həll edilsin. Vanseviçin bu etirazı da.

Vanseviç diyor ki, bu qanun layihəsi də sentyabrda qəbul edilə bilər. Lakin qanun layihəsinin bir maddəsində degilir ki, hər bir vətəndaş 3 ay zərfində öz təbəəligi həqqində məlumat verməlidir. Bu qanunu siz sentyabrda qəbul edərsəniz məcbur olacaqsınız dekabradək gözləyəsiniz ki, 3 ay qurtarsın. O halda Məclisi-Müəssisanımız dəxi dekabradək təxirə düşər. Bəlkə Vanseviç cənablarının istədigi odur ki, Məclisi-Müəssisan heç

də yığılmasın. Lakin biz istərdik Məclisi-Müəssisan daha da tez yığılsın. Binaənileyh təbəəlik məsələsini də təxirə salmaq olmaz.

Bu nitqdən sonra müzakirata xitam verilməsi həqqində bir təklif varid oluyor və səsə qoyulduqda əksəriyyəti ara ilə qəbul edilir.

Bədə avqustun 25-dən sentyabrın əvvəlinədək Məclisi-Məbusan iclaslarının dayandırılması həqqindəki təklif səsə qoyularaq yenə əksəriyyəti ara ilə qəbul ediliyor.

Növbədə bələdiyyə məclisləri intixabatı həqqindəki qanun layihəsidir.

*(Mabədi yarın)*

***"Azərbaycan", 30 iyul 1919, №238***

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA
(keçən nömrədən mabəd)

**Şəfi bəy Rüstəmbəyli** – Bələdiyyə vəkilləri seçkisi həqqindəki qanun layihəsinin məruzəçisi sifətilə çıxaraq diyor ki:

Məlumunuzdur ki, hazırda davam edən bələdiyyə məclislərinin vəkalət vəqti çoxdan tamam olmuşdur və seçki qanunumuz olmadığından hökumətimiz sabiq qanunu dəyişdirib yeni qanun vəz etməgi lazım bilmişdir. Bunun üçün də bir komissiya təsis edilmişdi.

Haman komissiya demokratik əsas üzərinə bir qanun layihəsi tərtib vermişdir. Həddi-zatında bu qanun tazə bir şey olmuyub sabiq Müvəqqəti Rusiya hökuməti tərəfindən tərtib verilmiş demokratik qanundan ibarətdir. Ancaq komissiya onu Azərbaycan həyatına tətbiq etmiş, ona görə də məhəlli şərait təqazasınca bəzi maddələri buraxmış, bəzilərini qismən dəgişmiş, bəzən də yeni maddələr əlavə etmişdir.

Məsələn: bizim layihənin birinci maddəsi Rusiya qanununda yoxdur. O maddədə daxiliyyə nəzarəti qərar veriyor ki, qanun layihəsinin qəbul və rəsmi qəzetədə elanından bir həftə sonra seçkilər başlansın.

Rus hökumətinin əvvəlki qanununda ikinci maddə mücibincə bələdiyyə vəkilləri 3 il müddətinə seçiliyorlardı və seçkilər köhnə üsul ilə icra olunurdu. Bu isə çox çətinlik və əngəl çıxarıyordu. Amma bizim daxiliyyə nəzarətimiz bunu dəgişib və vəkalət müddətini ancaq 2 il qəbul etmişdir.

3-cü maddə seçkidə hankı şəxslərin iştirak edə bilmələrinə aiddir. Burada mühüm bir məsələ ariz olmuşdur. Azərbaycan təbəəsi olmayanlar seçmək və seçilmək ixtiyarına malik ol-

sunlarmı, yoxmu? Hökumət tərəfindən tərtib verilmiş qanun layihəsinin 3-cü maddəsilə bu məsələ həll olunur və degilir ki, seçkidə ancaq Azərbaycan Cümhuriyyəti vətəndaşları (yəni Azərbaycan təbəələri) iştirak edəcəklərdir.

Qanunun 4-cü maddəsində əskəri xidmətdə bulunanların hüququndan bəhs ediliyor. Bu maddə mövcibincə əskər və zabitan seçmək hüququndan məhrum ediliyorlar. Bu maddə dəxi hökumət tərəfindən qəbul edilməmişdir. Amma təcrübədən görüldügü üzrə əskəri xidmətdə bulunanlar seçkiyə iştirak etdikdə çox qarışıqlıqlar oluyor. Buna görə də əskər və zabitan seçə bilməzlər amma özləri seçilə bilərlər.

5-ci maddə ilə intixabçıların yaşı təyin edilərək 21 yaşını ikmal etmiş hər bir şəxsə seçki ixtiyarı veriliyor.

6-cı maddəyə görə bir şəhər dairəsində bir ildən az yaşamış olan şəxslər seçkiyə iştirak edəmməzlər.

Bundan əlavə köhnə seçki qanununa görə intixablar iki həftə zərfində qurtarmalıdırlar. Fəqət bu mümkün olmadığından daxiliyyə nəzarətimiz qanun layihəsinin 7-ci maddəsilə bu müddəti bir ayadək təhdid etmişdir. 8-ci maddəyə işbu qanunun Məclisi-Məbusanda qəbulundan sonra bələdiyyə idarələri seçki hazırlıqlarına şüru etməlidirlər. Bələdiyyə idarələrinə ixtiyar veriliyor ki, lazım gəldigi təqdirdə şəhəri müəyyən seçki dairələrinə təqsim etsin.

Nəhayət, sabiq Rusiya qanununa görə seçkilər həqqindəki şikayət senatadək gedə bilərdi. Amma 9-cu maddəyi hökumət böylə təshih etmişdir ki, son mərhələ istintaq məhkəməsi olsun.

İştə bu qanun layihəsi və hökumətin təshihləri. Bundan əlavə layiheyi-qanuniyyəyə komissiyada baxıldıqda komissiya dəxi bəzi təshihləri təklif etmişdir.

Məsələn: birinci maddədə degilir ki, qanun layihəsi qəbul edildikdən bir həftə sonra bələdiyyə idarələri yeni seçkilər hazırlamaya şüru etməlidirlər.

Fəqət ləvayehi-qanuniyyə komissiyası bəzi şəhərlərin uzaqlığını, yaxınlığını nəzərə alaraq bir təshih təklif ediyor ki, qanun məhəllində alınıb rəsmi surətdə təbliğ edildikdən bir həftə sonrayadək hazırlıqlara şüru edilsin. Çünki öylə şəhərlər var ki, məsələn – Zaqatala kibi ki, on gündən sonra da qanun oraya çatıb təbliğ ediləməz.

Bundan əlavə komissiya bir təshih də təklif ediyor ki, Ağdaş ilə Zaqatala şəhər olsun. Bu da Şuşa ilə Nuxanın nüfusu təqribən bərabər olduğu halda Nuxa qlasnılarının miqdarı 24, Şuşanınki isə 45-dir. Komissiya təklif ediyor ki, Nuxanın qlasnılarının miqdarı Şuşa kibi 45 olsun. Seçkilərdə kimlərin iştirak etməsi məsələsini komissiya müttəhidülrəy qəbul edəmmədi. Komissiyada bu məsələ müzakirə olunarkən Malxazyan buyurdu ki, biz təbəəlik məsələsini burada keçirə bilmərik.

Bir də bələdiyyə idarəsi siyasi bir məsələ degil, sırf xozyaystvenni bir idarədir. Burada hamının mənafei var. Bu məsələdə hamı müttəfiqlərdir. Binaənileyh şəhər dairəsində yaşayan ümum camaatin seçməgə də, seçilməgə də ixtiyarı olmalıdır. Seçilməgə ixtiyar verilməsə də barı seçmək hüququ vardır. Vanseviç isə əksini isbat ediyordu. Seçkidə həmişə o adamlara ixtiyar verilir ki, siyasi işlərə də qarışmaq həqqinə malik olsunlar. Təcrübə isə göstərmişdir ki, bələdiyyə idarələri həmişə siyasi işlərə qarışmışlardır. Hətta böyük siyasi rollar oynamışlardır. Ona görə bələdiyyə idarələri seçkilərində bu xüsusu nəzərə almalıdır. Bu mülahizələrilədir ki, bir məmləkətin təbəəsi olmayan bir şəxs oranın seçkilərində iştirak etməməlidir. Çox müzakiratdan sonra komissiyalar əksəriyyəti ara ilə qərar verdi ki, seçkilərdə ancaq Azərbaycan təbəələri iştirak etsinlər. Bu məsələdə bir səslə razılıq əmələ gəlmədi. Komissiyada ixtilafı mucib olan ikinci məsələ də in-

tixabçıların yaşı məsələsi idi. Bəziləri 20, 21 və 25 yaş təklif ediyorlardı.

Komissiya əksəriyyəti ara ilə 20 yaşı qəbul etdi.

İştə ləvayehi-qanuniyyə komissiyası daxiliyyə nəzarətindən varid olmuş qanun layihəsini öz təshihi ilə bərabər təsdiq üçün təqdim ediyoram.

**Aşurov** – Layihənin birinci maddəsində degilir ki, qanun elanından bir həftə sonra seçki işlərinə başlansın. Bən buna heç vəqt razı ola bilmərəm. Çünki doğrudur qanun vermək Parlamanın işidir. Amma bən öz tərəfimdən məsləhət görmürəm ki, Məclisi-Məbusan vəqt təyin etmək kibi işlərə qarışsın. Bələdiyyə idarələri öz işlərində müstəqil cəmaət tərəfindən seçilmiş bir idarədirlər. Onlar öz işlərini yaxşı biliyorlar. Onlar hər zaman qışqırmışlar ki, tezlik ilə seçki qanunu verilsin. Hətta bu barədə çoxdan bizə müraciət etmişlərdir.

Amma biz qanun layihəsini 3 ay özümüz ləngə saldıqdan sonra bələdiyyə idarələrindən bir həftə müddətində işə başlamalarını tələb ediyoruz. Halbuki çox ola bilər ki, Duma heç bir həftə yığıla bilməsin. Məsələn, Parlamanda kvorum yoxluğu kibi orada kvorum olmaz: yainki siz istilərə görə tətil etmək istədiginiz kibi bir daha Duma dəxi az-çox bir müddətə tətil edər. Binaənileyh bən təklif ediyoram bir həftə həqqindəki maddə qanundan götürülsün. Əgər işin tez başa gəlməgini istiyordunuz qanunu tez qəbul edəydiniz. Çün maddə əsla həyatə düz gəlməz şayəd bu maddə qoyulsa da barı bir həftə yox bir qədər artıq vəqt təyin edilsin.

Bir də bələdiyyə vəkillərinin müddəti-vəkalətindən bəhs olunur. Deyirlər ki, əgər bələdiyyə məclisi 4 il müddətinə seçilsə müddət vəkaləti axırınadək vəkillərin bəziləri istefa verib bəziləri də digər səbəblərə görə çıxarlar, vəkil miqdarı azalar. Bu surətlə də kvorum yığmaq müşkül olar.

Nəticədə şəhər işləri təxirə uğrar. Bən elə biliyoram bu bir dəlil degil. Bizim seçki üsulumuz hamınıza məlumdur. Hər firqə bələdiyyə məclisinə 10 adam keçiriyorsa siyahısında 20 namizədi oluyor. Ona görə də çıxanları əvəz edə biliyor. Fəqət müddəti vəkalətin az olmasının böyük mənfi cəhəti var. Məlumunuzdur ki, bələdiyyə idarəsi böyük bir müəssisədir. Xüsusən Bakı kibi böyük bir şəhərin bələdiyyə məclisi böylə müəssisəyi idarə etmək üçün şəhər işlərinə aşina və baxəbər adamlar lazımdır. Bir də lazımdır ki, bələdiyyə vəkilləri öz işlərinə tamamilə bələd olsunlar. Bu isə yüngül bir məsələ degildir. Şəhər işlərinə tez bir zamanda bələd olmaq çox çətindir. Onun büdcəsini, sair işlərini ögrənmək üçün uzun müddət lazımdır. Ögrənmədən də idarə etmək olmaz. Böylə olan surətdə 4 il müddət çox degildir. Bəncə hələ onu 3 il etmək əsla faidə verməz. Bundan əlavə məsələnin maliyyə cəhəti də az əhəmiyyətli degildir. Özünüzə gərək məlum olsun ki, hələ köhnə zamanlarda bələdiyyə məclisi seçkilərinin 3-4 yüz min manat xərci olurdu. İmdi isə yəqin ki, bir neçə milyon sərf etmək lazım gələcəkdir. Bələdiyyə seçkiləri nə qədər tez-tez icra edilsə yəqin ki, xərc də o qədər çox olacaqdır. Ona görə maliyyə cəhətindən də 4 il müddəti 3 ildən xeyirlidir.

Əskərlərin iştirakı məsələsinə gəlincə bən də bunun tərəfdarıyam ki, əskərlər seçkiyə iştirak etməsinlər.

Bundan sonra Əhməd Cövdət əfəndi danışaraq qabaqkı natiqə xüsusən müddəti-vəkalət haqqindəki rəyinə etiraz ediyor.

Nəhayət layiheyi-qanuniyyənin brinci qiraəti səsə qoyularaq əksəriyyəti ara ilə qəbul və ikinci qiraətə keçilməsi qət ediliyor. İkinci qiraət gələn iclasa qalıyor.

*"Azərbaycan", 1 avqust 1919, №240*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 29 TEMMUZ İCLASI

İclas səhər saat 11-də Həsən bəy Ağayevin sədarəti Əhməd Cövdət bəyin katibliyi ilə açılıyor.

**Məsaili-yövmiyyə**

1 – Daxil olmuş kağızlar: o cümlədən təcililik həqqində qanun layihəsi

2 – Bələdiyyə məclisləri seçkisi həqqindəki qanun layihəsinin 2-ci qiraəti

3 – Spirt və alkoqol məhsulatı rüsumunun artırılması həqqində qanun layihəsi

4 – Xidməti-əskəriyyə müddətinin təyini həqqindəki layihəyi-qanuniyyə

5 – Azərbaycan xətti-hüdudində sərhəd mühafizəsi bölügü təşkili həqqində layiheyi-qanuniyyə

6 – Topraq vergisi və gəlir mədaxilinin 1919 sənəsinədək təmdidi həqqində layiheyi-qanuniyyəsi

7 – Nəşri-elan layiheyi-qanuniyyəsi

8 – Maliyyə nəzarəti əndində bir şura təsisi həqqində layiheyi-qanuniyyə

9 – Fabrik müfəttişligi qanununun təğyiri və təbdili həqqində qanun layihəsi

10 – "İttihad" fraksiyasının hökumətə sualı

Təbəəlik həqqindəki layiheyi-qanuniyyə ləvaheyi-qanuniyyə komissiyasına göndəriliyor və əskərlik barəsindəki qanun axıra salınıyor.

Bu surətlə ibtida bələdiyyə vəkilləri seçkisi həqqindəki layihənin 2-ci qiraətdən başlanıyor.

Birinci maddə (Bir həftə zərfində seçki hazırlıqlarına şüru edilməsi məsələsi) uzun mübahisələrə bais oluyor.

**Aşurov Ağa** – Keçən dəfə dəxi bən bu xüsusda fikrimi bəyan etdim. Bəncə bu surətlə bir həftə məhdud vəqt qoymaq səhvdir. Gərək işə şüru edilməsi üçün vəqt qonulmasın. Qanun ancaq onu təyin edə bilər ki, qalan vəqtədək gərək bələdiyyə məclisləri seçilib qurtarsın. Məsələn rus qanununa görə tələb edilmişdi ki, gərək yanvarın birinədək bütün şəhərlərdə bələdiyyə seçkiləri seçilib qurtarsın. Şimdi biz dəxi qərar qoya biləriz ki, seçkilər məsələn noyabrın birinədək, ya dekabradək qurtarmalıdırlar. Böylə olar. Amma işə nə vəqt şüru edilməsini təyin qılmaq bəncə səhvdir. Bir də burasını nəzərə almalıdır ki, bir həftə ya filan qədər vəqt təyin etmək seçkiləri təmin qılmaz. Əgər böyləliklə müddət verilməsi intixabatın tez başlanmasını təmin üçün isə bununla məqsədə çatmaq müşkül olar. Əvvəla mümkündür ki, bir həftə zərfində bələdiyyə idarəsi iclası baş tutmasın, yaxud başqa səbəblər olsun, bundan əlavə siz bununla seçkinin tez icrasını təmin etmək istiyorsunuz. Bələdiyyə idarəsi təxirə uğratmaq arzusunda olsa birinci həftə içərisində iclas qurar, həmin qərara gələr sonra yenə işi təxirlə görər. Özü də deyər ki, qanuna əməl etdi. Birinci həftədən başladı. Fəqət iş yoxdur. Yetirmiyor. Bu surətlə görüyorsunuz ki, vəqt qoymaqla məqsəd əldə etmək çətindir. Amma tezlik ilə seçkilərin icrasını başqa yol ilə təmin etmək olar. Məsələn vəqt qoyarsan ki, filan müddətədək Dum seçkiləri qurtarmalıdır. Əgər məqsəd seçkiyi təmin etmək isə təklif edirəm bir həftəlik müddət götürülsün. Seçkilərin nə vəqtədək qurtarması barəsində bir müddət təyin edilsin.

**Məhəmmədbəyov Heybətqulu** – Bu ki, 7 gün vəqt qoyurlar, onu təmin etmək heç mümkün degildir. Məlumdur ki, seçkilərə şüru etmək üçün bələdiyyə idarələri gərək qabaqca

pul buraxsınlar. Seçkilərin də özünüzə məlumdur ki, xərci çoxdur. Odur ki, hələ qabaqca bələdiyyə idarələri gərək bu məbləği haradan alacağını düşünsünlər. Alsınlar. Bilirsiniz ki, imdi hava çox istidir. O qədər himmət və vicdanla çalışmaq mümkün olmuyor. Ona görədir ki, zənnimcə bu təyin edilən kimi bir həftə içində işə şüru etmək olmayacaqdır. Bir də qanun bir dəfəlik degil deyəsən bu qanun təsdiq edildikdən bir həftə sonra işə başlansın. Qanun həmişəlikdir. Əgər birinci dəfə intixabat hazırlıqlarına şüru etmək üçün bir həftə vəqt qoysaq, gələcək seçkilər üçün vəqti necə təyin edəcəklər, yoxsa hər dəfə yeni qanun çıxarıb, yeni vəqt qoyacağız.

**Rüstəmbəyli Şəfi bəy** – Burada təklif olunur ki, intixabat işlərinə şüru etmək üçün müəyyən vəqt qoyulmasın. Amma bizcə vəqt təyin etməmək çox çətindir. Ağa Aşurov cənabları deyirlər ki, bir həftə təyin edilirsə bələdiyyə idarəsi qanuna görə haman birinci həftə zərfində ilk iclasını qurar. Qanuna əməl etmiş olar. Amma sonra seçkiyi vəqtində icra etməz. Lakin zənnimə görə bələdiyyə idarəsi birinci iclası qurduqda yəqin ki, həmin iclasda intixabatın nə vəqtədək qurtarmalı olduğu məsələsini müzakirə və qət edəcəkdir və o surətdə heç şübhəsiz vəqti-müəyyəniyədək intixabatı icra edib bitirmək məcburiyyətində qalacaqdır. Bu vəchilə biləks bəncə işə şüru edilməsinin vəqti təmin olunduqda məqsədə irişir və intixabatın vəqtli-vəqtində icrası təmin edilmiş oluyor. Bundan əlavə məlumunuzdur ki, şəhərlərin uzaq-yaxınlığı var. Biz bilmiyoruq bu qanun hansı şəhərdə nə vəqt alınacaqdır ki, onun da vəqtini təyin edək. Böylə olan surətdə ümum şəhərlər üçün filan vəqt seçkilər qurtarmalıdırlar – deyə bir vəqt təyin etmək olmaz. Bir də deyirlər işə şüru edilmək üçün vəqt təyin edilməsin. Böylə olan surətdə bəs verdigimiz qanun nə vəqt qanun gücünə minsin.

Bunu təyin etmək lazımdırmı ya yox? Bunu deyə bilərdilər ki, 7 gün azdır. Bu olar. Əgər 7 gün az isə o halda 2 həftə bəlkə daha da artıq vəqt təyin etmək olar. Amma vəqt qoymamaq heç vəqt mümkün degildir. Bir də deyirlər ki, istidir. Ciddən çalışmaq mümkün olmuyor. Bəncə bu bir bəhanə degildir. Çünki məsələn keçmiş seçkilərdə daha isti vəqt işləməgə məcbur olduq, bütün yay aylarını seçki işləri ilə məşğul olmaqla keçirdik, heç o zaman istidir deyən olmuyordu. Halbuki imdi qabaq payıza gediyor və işlərimiz çox da istiyə düşmiyəcəkdir. Bununla bərabər nə qədər isti olsa da borcumuzdur intixabat işlərinə şüru edək. Binaənileyh bən təklif ediyoram seçki işlərinə başlamaq üçün mütləqa vəqt təyin edilsin. İntəhası, ərz etdigim üzrə bəlkə bir həftə azdır, o halda daha artıq 2 həftə vəqt təyin edə biləriz.

**Aşurov** yazılı təklif veriyor ki, birinci maddədə bir həftə müddət atılıb layihə böylə təshih edilsin ki, seçkilər yanvarın birinədək qurtarsınlar.

Səsə qoyulduqda əksəriyyəti ara ilə Aşurovun təshihi rədd edilib, birinci maddə komissiyanın tərtib verdigi kibi qəbul olunur.

Uzun mübahisəli muçib maddələrindən birisi də bələdiyyə vəkillərinin müddəti-vəkaləti məsələsi olmuşdur.

**Bağır Rzayev** diyor ki, bizim zənnimizcə siyasi və ictimai həyatda bu zamanda çox tez-tez təbəddülat oluyor. Ola bilər ki, bu gün əksəriyyətin lazım bilib seçdigi adamlar əhvali-siyasiyyə və ictimaiyyə öylə dəgişər ki, yarın cəmaət arasında etibardan düşər. Əksəriyyət onun bələdiyyə vəkilligini lazım görməz. Çünki seçilən adamlar əhvali-siyasiyyəyə tabe oluyorlar. Ona görə də tez-tez dəgişiklik ola bilər. Binaənileyh bən təklif edərdim bələdiyyə vəkillərinin müddəti-vəkalətini 3 il əvəzinə 2 il təyin olunsun. Bir də bu bizim birinci qa-

nunumuzdu hələ qanunları biz təcrübədən keçirməmişik. Müddəti-vəkalətin nə qədər olmasının yaxşı nəticə verdigini bizə gələcək təcrübə göstərər. O vəqt təcrübəmiz əsasilə də təyin edəriz. İmdilik bən 2 il təklif ediyoram.

**Aşurov** – Keçən dəfə layiheyi-qanuniyyədə müddəti-vəkalət 3 il qoyulduqda bən 4 il təklif etdim. İmdi isə hələ 3 ilə də razı olmuyub 2 il təklif ediyorlar. Və buna dəlil olmaq üzrə siyasətin tez-tez dəgişməsini göstəriyorlar. Doğru, hər işdə olduğu kibi şəhər işlərinin də siyasət ilə əlaqə və rabitəsi var. Fəqət bələdiyyə işlərinə sırf siyasi nöqteyi-nəzərdən baxmaq olmaz. Biləks mümkün olan qədər bələdiyyə idarəsini siyasətdən uzaq tutmağa çalışmaq lazımdır. Bələdiyyə vəkillərinin müddəti-vəkaləti 2 il olsun. Çünki şəhərdə tramvay xətti çəkilməsi, yaxud xəstəxanə açılması məsələsi müzakirə edilərkən orada səs verən es-erimi olacaq, ya müsavatçı olacaqdır – bunun heç fərqi yoxdur. Doğrudur bəziləri şəhərin mərkəzini abad etməgə çalışarlar, digərləri isə kənar və ətrafların dərdini ortaya çəkərlər. Amma əsas etibarilə fərq yoxdur. Deyirəm şəhər işlərini siyasətdən uzaq tutmaq lazımdır. Çünki keçmiş təcrübələr bizə göstərdi ki, şəhər işlərinə sırf siyasi nöqteyi-nəzərdən baxılıb seçkiləri o mülahizə ilə icra etdikdə siyasət üsulu çox fəna nəticələr veriyor.

Bu üsul nəticəsində Duma işləri bərbad hala gəliyor. İşlər sahibsiz qalıyorlar. Çünki o üsul ilə seçkilər daima siyasət ilə uğraşıyorlar. Şəhər işi isə sırf xozyaystvenni bir işdir. Xozyaystvoya isə bələd olmaq lazımdır. Bir qlasnı gəlib az müddətdə işlərə bələd olamaz. Ona görədir ki, bən təklif ediyoram vəkalət müddəti uzun olsun. Bir də deyirlər ki, bizim birinci qanunumuzdur, müddəti az təyin edək, gələcəkdə təcrübə göstərər hankı yaxşıdır. O təcrübəyə əsas ilə də iş görəriz. Amma bəncə bu fikir yanlışdır. Çünki bu gün tətbiq etmək istədigimiz qanun çoxdan bəri Avropada yazılmış,

qəbul edilmiş bir qanundur ki, onu Rusiya qəbul edib. Ruscaya tərcümə etmişdir. Doğrudur, bəzi şeyləri dəgişmişdir. Amma əsas haman əsasdır ki, qalmışdır. Məsələn köhnə Avropa qanununda 4 cəhətli seçki üsulu yox idi. Arvadlar seçkidə iştirak etmiyorlardı. Amma müvəqqəti Rusiya hökuməti bu maddələri əlavə etmişdir. Böylə təshihləri biz dəxi edə biləriz. Amma əsas qanun dəgişməmişdir. Öylə də qalıbdır. Bundan maəda bən keçən dəfə söylədim. Bələdiyyə seçkilərinin hələ qabaq illərdə – 3-4 yüz min manat xərci oluyordu. İmdi isə milyonlar sərf ediləcəkdir. Əgər müddəti-vəkalət uzun olmasa intixablar tez-tez olacaq. Bununla da hər dəfə milyonlar sərf ediləcəkdir ki, bu surətlə neçə milyonlar artıq sərf olunacaqdır. Saniyədə qlasnıların işə bələd olmaları üçün uzun vəqt lazımdır.

Məsələn, bir məsələ Dumada 2-3 dəfə keçdikdən sonra ancaq qlasnı bələd olur ki, bu məsələyə necə baxmalı, necə səs verməli imiş. Götürək smeta məsələsini. Bir qlasnı bir dəfə mədaxil-məxaric smetası keçirmək təcrübəsini görməzsə gələn dəfə yenə smeta müzakirəsində işə nabələd kibi baxacaqdır.

Bir də yadınızdan çıxmasın ki, bələdiyyə idarəsində müəyyən xidmətlər dəxi var. Məsələn uprava üzvülügü və sairə. Müddəti-vəkalət nə qədər az olsa təcrübəli, bacarıqlı adam oraya xidmətə getməz. Kimdir ki, hazır qulluğunu, işini əldən buraxıb az bir müddətə getsin Dum qulluğuna girsin. Bu surətlə hər cəhətdən baxıldıqda xüsusən praktikadan görünüyor ki, bələdiyyə vəkilləri müddəti-vəkalətinin azlığı həmişə fəna nəticələr veriyor. Bu mülahizə illədir ki, bən təklif ediyoram müddəti-vəkalət çox olsun.

*(Bitmədi, var)*

***"Azərbaycan", 3 avqust 1919, №241***

Təmdid – uzatma
Təğyir – dəyişdirmə
Təbdil – başqa şəklə salma

## ELAN

1919, 4 avqust bazar ertəsi günü gündüz saət 10-da Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 29 TEMMUZ İCLASI

(dünki nömrədən mabəd)

**Əhməd Cövdət** – (Sosialist) Aşurov məarifi çıxarkən ümumiyyətlə deyir ki, imdiki üsul ilə seçilən dumalar idarəyi bacarmadıqlarını göstərdilər. Əgər Aşurov imdiki üsul əleyhinə danışsaydı bən onu başa düşərdim. Amma bu qanunu, bu üsulu qəbul edib də, sonradan tənqid etməgini başa düşmüyoram. Bir də əgər Aşurov diqqət ilə baxsa görər ki, məsələn Bakı bələdiyyə idarəsi keçən il bu ilkindən yaxşı işliyordu. Halbuki keçən il Dumada haman təcrübəsiz, bacarıqsız dedigi adamlar əyləşiyordular. Bu il isə natiq əfəndinin istədigi zəvatdır. Unudulmasın ki, builki Duma yeni üsul ilə seçilmiyib təyin edilmişdir, həm də təyin olunan bələdiyyə vəkillərinin siyahısını o vəqt hökumət başında duran zaman Aşurov özü tərtib vermişdi. Madam ki böylədir, bəs nə üçün aşurovların təyin etdikləri bələdiyyə vəkilləri işləyə bilmiyorlar. Şəhərin bütün işlərini sentredum öz əlinə alıbdır. Seçkiyə sərf olunmasına qənaət edilən milyonlarla xəlq pulu "Rusiya" qəzetəsi kibi qəzetələrin nəşrinə sərf olunur, camaatin milyonları çox öylə şeylərə xərcləniyor ki, əsla oraya sərf edilməməlidir.

Bundan maəda millət cavan olduğu üçün nə qədər tez-tez intixabətə getsə o qədər yaxşı olar, o qədər təcrübə artar. Ona

görədir ki, biz təklif ediyoruz bələdiyyə vəkillərinin müddəti-vəkaləti iki il olsun.

**Rəsulzadə Məhəmməd Əmin** – ("Müsavat") Bələdiyyə vəkilləri müddəti-vəkalətinin uzun ya qısa olması həqqindəki ixtilaf Ağa Aşurov ilə Əhməd Cövdətin ixtilafı olmuyub daha əsaslı, daha dərin bir məsələ, ixtilafdır. O da təcrübə hasil etmiş, ixtisas qazanmış, bilən, bacaran iddiasında olan camaat xadimləri ilə təcrübəsiz, bacarıqsız filan göstərilən camaat xadimlərinin ixtilafıdır. Aşurov diyor ki, bələdiyyə vəkili öz vəzifəsini ancaq 4 il müddətində ögrənə bilər. Amma bəncə bir məsələ əvvəla hər vəkilin səviyyəsinə, təşəbbüskarlığına bağlıdır. Öylə vəkil ola bilər ki, heç 10 il müddətində də vəzifəsini, şəhər işlərini öyrənə bilməsin. Amma öylələri də olur ki, bir il zərfində hər şeyi öyrənə bilər. Fəqət şimdi camaat vəkillərinin bacarıq, təcrübə və məramını, əzmkar və təşəbbüskarlığını ölçmək üçün həkəm (münsif) kim olsun? Yəqindir ki, müntəxəblər özləri olamazlar. Çünki seçilənlərin hər biri özünü yaxşı, digərlərini pis göstərmək istəyəcəkdir. Bəncə bu məsələdə camaat həkəm ola bilər.

Bir də şübhəsizdir ki, əgər seçilənlər yaxşı çalışsalar işlərini öyrənərlər. Bundan əlavə öylə təsəvvür etmək lazım degildir ki, bələdiyyə məclisinə seçilən adamlar məktəbə ögrənməgə gediyorlar. Zənnimizcə bələdiyyə məclislərinə anlayan, bilən, işlərə bələd, siyasiyyatə aşina, siyasi proqrama malik olan adamlar gedəcəklərdir. Yoxsa camaat hamını bir-bir sınayıb dişinə vurmaz ki bu laqeyddir, ya bu salamatdır. Əgər böylə olsa heç 4 ildə kifayət etməz, o da az müddət olar. Amma həqiqət hal böylə degildir.

Bir də deyirlər ki, müddəti-vəkalət iki il olsa heç kəs öz mövqeini buraxaraq şəhər xidmətinə gəlməz.

Bizcə bu da doğru degildir. Çünki əgər camaat görsə ki, seçdigi adam öyrənməgə degil, bilərək gedib işlərini də bacarıyor, vəzifəsini hüsnü-ifa ediyor və onun iş başında olmasından hüsnü-nəticələr alınıyor, şübhəsiz ki, onu təkrar seçər. Camaatə də nə qədər tez-tez imtəhan ixtiyarı verilsə o qədər seçkiyə idrakla getməgə adət edər və seçdigi vəkilləri idrakla seçər.

Bundan əlavə seçki üsulu pisdir, ona görə də seçilənlər işləyə bilməmişlərdir demək – nəzər aldatması, qalyutsinatsiyadır. Bir müəssisə əzasının fəaliyyətini, yəstim fəaliyyəti kibi zikr etmək doğru degil, onu yaradan səbəbləri nəzərə almıyıb üsuli intixabatı mühakimə etmək səhvdir. Keçən il fəaliyyət ibraz edilməmişsə üsuli intixabın fənalığından degil, bəlkə keçirmiş olduğumuz övza və əhvalın tövlid etdigi səbəblərin vücudindəndir. Bunu inkar etmək bitərəfanə mühakiməyi pozmaq deməkdir. Həm də əski istehqaqlı seçkilər üsuluna qayıtmaq nəfinə yozmaqdır. Böylə mühakimə yalnız əski üsulu müdafiədən ibarətdir. Bu isə heç vəqt olmıyacaqdır. Əski qaidə bir daha qayıdılmaz. İki il kafidir ki, bir bələdiyyə vəkili həm şəhər işlərini ögrənsin, bələd olsun, həm də hüsnü fəaliyyət ibraz edə bilsin. İki ildə ögrənməyən bir adam əmin olunuz ki, heç dörd ildə də ögrənə bilməz. Bu iş əskərlikdə dəxi var. Qabaqda deyərlərdi ki, hər bir əskər əskərligi ancaq 4 ildə ögrənə bilər. Amma imdi fənni-hərb mütəxəssisləri kəşf etdilər və həyat təcrübəsindən məlum oldu ki, xidməti-əskəriyyə az müddətə olub nə qədər tez-tez əskər yığılsa xəlq arasında əskəri tərbiyə o qədər artar, hamı nizamə adət edər. Xəlq nizamında camaat distiplanında da bu belədir. Binaənileyh biz diyoruz ki, nə təklif olunan 4 il lazımdır, nə də komissiyanın göstərdigi kibi 3 il. Bələdiyyə vəkillərinin müddəti-vəkalət vəqti olmaq üzrə 2 il kifayətdir.

**Rəhim Vəkilov** – ("Müsavat") Qanun layihəsinin müəyyən bir maddəsində bəzi xırda şəhərlərin adı çəkildi: Ağdaş və Zakatalanın şəhərlər sırasına daxil edilməsindən bəhs olundu. Amma Qazax şəhərinin əsla adı çəkilmədi. Halbuki türklər Azərbaycana gəldikdə Qazax, Ağdam və sair kibi bəzi yerləri şəhər elan etdilər. İmdi isə qanunda bu xüsusda bir şey yoxdur. Bən cavab istərəm görək nə üçün Qazax şəhərlər sırasına daxil edilməmişdir.

**Rüstəmbəyli Şəfi bəy** – ("Müsavat", məruzəçi) Lavayehi-qanuniyyə komissiyası bu layihəyi müzakirə edərkən müddəti-vəkaləti 4 sənədən endirib 3 il etdi. Çünki 4 il davam etdikdə təcrübə göstəriyor ki, bir çoxları gediyorlar kvorum yığmaq mümkün olmuyor. Xülasə komissiyanın bu işi təcrübə əsasilə idi. Amma 2 il əsla nəzərə alınmamışdı. Fəqət bir iş də var ki, seçki tez-tez olduqda camaatin də həpsi intixablara gəlmiyor, az adamlar iştirak ediyorlar. Bundan əlavə məsələnin bir maliyyə cəhəti də vardır. İntixabat nə qədər tez-tez olsa xərc dəxi o qədər çox oluyor. Komissiya burasını da nəzərə almışdır.

Qazax məsələsinə gəlincə bu barədə bizdə heç bir məlumat yoxdur. Ərəş barəsində məlumatımız var. Amma Qazax barəsində yoxdur. Əgər hökumətdə bu xüsusda bir şey varsa xüsusi bir qanun verərək orayı da şərh etmək və orada dəxi seçki qanunu tətbiq eləmək mümkündür. Hökumət bunu edə bilər. Amma imdi böylə məlumat olmadığı halda komissiya bunu edə bilməzdi, mümkün degildi.

İkinci maddə səsə qoyulur. Əvvəl müddəti-vükəlanın 2 il olması həqqindəki təshih, sonra Qazağın dəxi şəhərlər sırasına daxil edilməsi məzmunlu əlavə rəyə vəz edilərək əksəriyyəti ara ilə qəbul olunur. Sonra layiheyi-qanuniyyənin ikinci maddəsi səsə qoyuluyor və qəbul ediliyor.

**Əhməd Cövdət** – (Sosialist) Madam ki Qazax şəhərlər sırasına daxil edildi, bən təklif edərdim bələdiyyə vəkillərinin miqdarı dəxi təyin edilsin.

Təklif qəbul ediliyor. Səslər 20 qlasnı təklif ediyorlar. Bu dəxi qəbul olunur.

Seçkilərə kimlərin iştirak edə biləcəgi məsələsi dəxi uzun mübahisələrə bais oluyor.

**Saniyev Hacı Kərim** – (Sosialist) Təklif ediyor ki, intixabat məsələsində təbəəlik nəzərə alınmasın. Çünki Azərbaycan şəhərlərində bir çox əcnəbi təbəələri var ki, uzun müddətdən bəri Azərbaycan dairəsində oluyorlar. Şəhərlərdə mülkləri, müəssisələri filanları var. Böylə adamlar şəhərin abadlığında mütaliqən mənfəətdardırlar.

Ona görə də heç şübhəsiz öz xeyirləri üçün şəhərin yaxşılığına, abadlığına, tərəqqisinə çalışacaqdırlar. Binaənileyh bu kibi adamlara əcnəbi təbəəliginə baxmayaraq, seçmək ixtiyarı verməlidir.

**Vanseviç** – (Polyak nümayəndəsi) Rusca uzun bir nitq söyləyərək əcnəbi təbəələrinin seçkidə iştirak etmələrinin fəna nəticələrini göstəriyor. Yaxın həyatımızın təcrübədə nələr göstərdigini təadadla inqilabdan sonra Bakıda vüqu bulmuş olan seçkiləri, orada kimlərin iştirak etdiklərini, kimləri seçdiklərini və o seçki nəticəsində iş başına keçənlərin nə cür çalışdıqlarını, nə kibi fəaliyyət göstərdiklərini və şəhərimizin mənafeinə necə xidmət etdiklərini təsvirlə diyor ki:

Bu surətlə görüyorsunuz ki, kənardan gəlmə adamların seçkidə iştirakı, yabançıların dərdə ağlaması kibi mühüm bir işdir. Və onların seçdikləri namizədlər şəhərin mənafeinə əsla əhəmiyyət vermiyib siyasi məsələlər, proqramlar, taktikalar ilə iştiğal ediyor və şəhərə heç bir xeyir vermiyorlar.

Bu mülahizə ilədir ki, bən diyoram vətəndaş (Azərbaycan təbəəsi) olmayanların seçkidə iştirak etmələri heç də məmul degildir. Binaənileyh vətəndaş olmayanlara seçmək ixtiyarı verilməməlidir. (Alqışlar, bravo sədaları eşidiliyor)

Fəqət eyni zamanda öylə adamlar dəxi var ki, əslən Azərbaycan təbəəsi degildir. Lakin məhəlli işlərdə sıxı surətdə mənfəətdar olmaqla bərabər kəndisi təcrübəli, bacarıqlı, çalışqan bu nöqteyi-nəzərdən də pək xeyirli adamdırlar.

Bunlar uzun müddətdən bəri Azərbaycan şəhərlərində yaşamış, buranın həyatı ilə munis olmuş, burada əmlak, ticarət və sairə kibi müəssisələri var. Buranın həyati-siyasiyyə və ictimaiyyəsində həmişə ciddən iştirak etmişlərdir. Böylə adamlar şübhəsizdir ki, bələdiyyə idarələrində öz bilik və təcrübələri ilə bizə çox mənfəət verərlər.

Ona görədir ki, bu kibi mütəxəssisləri yalnız Azərbaycan təbəəsi olmadıqları üçün həyati-ictimaidən və fəaliyyətdən kənar etmək, onları iş başına buraxmamaq qəddi-nəqsdir. Binaənileyh bən təklif ediyoram bu kibi zəvatə bələdiyyə idarələrinə seçilmək ixtiyarı verilsin və qanunun eyni maddəsinə böylə bir əlavə qeyd edilsin:

"5 ildən az olmamaq üzrə şəhər dairəsində yaşamış əcnəbi təbəələrinə seçilmək ixtiyarı verilsin".

**Əhməd Cövdət** – (Sosialist) Seçkilərdə iştirak etmək həqqi vermək üçün məhdud bir dairə çəkmək filan qədər müddət yaşamağı şərt qoymaq bəncə əsla lazım degildir. Böylə biliyoram ki, şəhər dairəsində yaşayan ümum əhaliyə seçkidə iştirak həqqi vermək və heç bir şərt ilə məhdud etməmək lazımdır. Fəqət müəyyən bir vəqt qoymaq çox lazım gəlirsə o halda bəncə olsa ancaq bir ay vəqt qoymalıdır ki, son ay müddətində şəhər dairəsində yaşayanların həpsi iştirak etmək həqqinə malik olsunlar.

Bir də Vanseviç deyir ki, inqilabdan sonra məsələn Bakıda bələdiyyə məclisləri seçkisi olan zaman Olunitski quberniyasından gəlmiş adamlara seçkidə iştirak ixtiyarı veriliyordu. Bu isə siyasi mülahizə ilə ediliyor və fəna nəticələr veriyordu. Fəqət Vanseviç cənabları unutuyorlar ki, o zaman Bakı da, Olunitski də Rusiya hesab olunurdu. Binaənileyh Olunitskidən gələnlər Bakıda əcnəbi təbəəsi kibi baxılmıyıb hamı Rusiya vətəndaşı hesab edilərək intixabatda o cür iştirak ediyorlardı. Bundan əlavə biz praktik nöqteyi-nəzərindən ümum əcnəbi təbəələrinin iştirakı tərəfdarıyız. Çünki Azərbaycan daxilində məsələn küllü miqdarda iranlı var. Bunlar çoxdan bəri burada yaşayaraq kəsbkarlıq ediyor, çoxunun mülkü, ticarəti, filanı var. Əksərən bu iranlılar bir azərbaycanlı olub qurtarmışlardır. Bunları şimdi seçki hüququndan məhrum etmək olmaz. Burada təklif var ki, intixabatda iştirak edə bilmək üçün son 5 il müddətində Azərbaycan dairəsində yaşamış olmaq şərt qoyulsun. Fəqət biz böylə məhdudatın əleyhindəyiz. Buna görə də təklif ediyoruz ki, Azərbaycan daxilində olan ümum əhaliyə təbəəlik mülahizəsi nəzərə alınmayaraq seçkidə aktiv iştirak ixtiyarı verilsin.

*(Bitmədi)*

***"Azərbaycan", 4 avqust 1919, №242***

Qəddi-nəqs – böyük nöqsan
Həkəm – münsif
Müntəxəb – seçilmişlər
Yəstim – ümidsizlik
Qəddi-nəqs – böyük nöqsan

## ELAN

1919 sənə 7 avqust pəncşənbə günü gündüz saət 10-da Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur. Müzakireyi-yövmiyyə haman qərar üzrə qalmışdır.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 29 TEMMUZ İCLASI
(mabəd)

**Hacı Hüseyn Əfəndizadə** – (Əhrar) Əfəndilər! Bən öylə bilirəm ki, kimlərin seçkidə iştirak edəcəgi həqqində uzun-uzadıya bəhs etmək heç də lazım degildir. Burada Azərbaycan təbəəsi olmayanlara iştirak həqqi verilmək məsələsinin qaldırılmasına da ehtiyac yoxdur. Bən qəti surətdə diyoram ki, biz heç vəqt Azərbaycan təbəəsi olmayanlara heç vəqt intixablarda iştirak etmək həqqi verə bilmərik. Çünki onlara seçki ixtiyarı verilsə bizim üçün tazə bir Sentrodum yainki başqa onun kibi min dürlü şeylər hazırlayacaqlar. Əcnəbilərin seçdigi müəssisə Sentrodumdan artıq ola bilməyəcəkdir. Öylə müəssisələr isə bizə heç də lazım degildirlər. Qaldı ki deyirlər 5 sənə şəhər dairəsində yaşamış olanlara seçki ixtiyarı verilsin. Çünki öylələri əvvəla şəhərlər ilə sıxı əlaqə və rabitədədirlər, onlar şəhər işlərində mənfəətdardırlar. Bən diyoram ki, nə 5 sənə, nə də başqa bir müddət ola bilməz. Azərbaycan təbəəsi olmayanlara heç bir vəchlə seçkidə iştirak ixtiyarı verilməməlidir.

**Vəkilov Mustafa** (Müsavat) – Burada sosialistlər hamıya seçkidə iştirak həqqi verilməsini tələb edərək diyorlar

ki, Azərbaycan təbəəsi olmayanlar dəxi çoxdan bəri burada sükunət ediyorlar, şəhər işlərində bilavasitə mənfəətdardırlar. Həm də onlar bələdiyyə işlərinə bələd, təcrübəli adamlardır. Binaənileyh onlara aktiv seçki ixtiyarı verilməlidir ki, gəlib namizədlərini seçsinlər. Amma bəncə bu o qədər də doğru bir mülahizə degildir. Doğrudur onların içində bələd, təcrübəli adamlar var. Amma böylələri pək azdır. Əksəri isə əsla şəhər işlərinə bələd olmayan, şəhər işlərində heç də mənfəətdar olmayan adamlardır. Bu kibiləri isə adətən seçkiyə gedirkən nə intixab etdigi namizədin bacarıq və təcrübəsinə diqqət verər, nə də şəhərin mənfəətini nəzərə alarlar. Onların ancaq bir mülahizəsi olur. Haman mülahizə öylədə çox vəqt heç də şəhər ilə əlaqəsi olmayan bələdiyyə işlərində mənfəətdar olmayan adamları seçiyorlar.

Ona görədir ki, siyasi nöqteyi-nəzərdən baxılsın, istərsə xozyaystvenni mülahizələr nəzərə alınsın, hankı nöqteyi-nəzərdən baxılsa da böylə adamların intixabatda iştirak etmələri bizim üçün əsla mənfəətli degildir. Bir də unutmamalıdır ki, bu saət bizim vəziyyətimiz necədir. Hal-hazırda bizim istiqlal və həyatımızın çox düşmənləri var. Bunlar daxildən, xaricdən, hər tərəfdən bizim əleyhimizə çalışıyorlar. Bizim yaşayışımız, düşüncəmiz müqabilində daxildə bir çox əksi cərəyanlar var ki, qəzetələr, cəmiyyətlər və sairə vasitəsilə həmişə bizim zərərimizə çalışıyorlar. Bunu nəzərə almamaq heç vəqt mümkün olmaz. Əlbəttə üzərimizdə o qara buludlar olmasaydı, istiqlal və hürriyyətimiz hədə və təhlükə altında olmasaydı, o əksi cərəyanlar sakit dursaydılar, imdi içərisində yaşamaqda olduğumuz şəraiti-hazirə dəgişsəydi, bəlkə o vəqt biz təbəəligə bu qədər də diqqət verməzdik, hamının seçkilərdə iştirak həqqinə malik olması əleyhində bulunmazdıq. Fəqət nə qədər ki, vəziyyətimiz möhkəmləşməmiş, şəraiti-hazirə

dəgişməmiş, hürriyyət və istiqlalımız təhdid və təhlükədən qurtarmamışdır, nə qədər ki, o əksi cərəyanlar bütün ciddiyyət və inad ilə bizim əleyhimizə çalışıyorlar, o vəqtədək biz dəxi düşünməli və işimizdə sər-hesab olmalıyız.

Bizə deyirlər ki, onlar şəhər işlərilə o qədər sıxı surətdə əlaqədar və mütəfənndirlər ki, öz xeyirləri üçün də olsa bizim mənfəətimizə çalışacaqlardır və onların iştirakından biz xeyir aparacağız.

Əgər böylə isə madam ki, onlar Azərbaycan ilə bunca sıxı rabitə və əlaqədardırlar, madam ki, bizim xeyrimiz onların və onların xeyri bizimdir, madam ki, onlar bizim xeyrimizi istiyorlar, böylə isə nə üçün onlar Azərbaycan təbəəligini qəbul etməgi sığışdırmıyorlar. Nədəndir Azərbaycan təbəəsi olmaq istəmiyorlar.

Vəqta ki, onlar təbəə olmaq istəmiyorlar və qabaqca ərz etmiş olduğum hallar var, böylə olan surətdə biz də heç vəqt təbəə olmaq istəməyənlərə, köhnə fikirlərdə olanlara seçkidə iştirak həqqi verə bilməriz.

Bu nitqdən sonra sosialistlər fraksiyası, Vanseviç və Malxazov tərəfindən bir neçə təklif varid oluyor. Malxazov sosialistlərin təklifinə şərik olaraq özününkini geri götürüyor.

Vanseviçin təklifi budur ki, 25 yaşını tamam etmiş olanlara ancaq həqqi-iştirak verilsin.

Bu təklif səsə qoyularaq əksəriyyəti ara ilə rədd ediliyor.

Sonra sosialistlər tərəfindən edilmiş olan iki təklif səsə qoyulur. Birinci təkliflə şəhər dairəsində yaşayan ümum əhaliyə seçki ixtiyarı verilməsini istiyorlar. Təklif əksəriyyəti ara ilə rədd ediliyor.

İkinci təklif ilə son bir ay müddətində bir şəhərdə yaşayanlara həqqi-iştirak verilməsi istəniliyor. Bu təklif dəxi qəbula keçmiyor.

Nəhayət layiheyi-qanuniyyənin 3-cü maddəsi Parlaman komissiyasının qəbul etmiş olduğu qaidəsilə səsə qoyulur və əksəriyyəti ara ilə qəbul olunur.

**5 dəqiqə tənəffüs elan ediliyor.**

*"Azərbaycan", 7 avqust 1919, №245*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 7 AVQUST İCLASI*

Avqustun 7-də iclasda ibtida Azərbaycanda bələdiyyə məclislərinə vəkillər intixabı haqqindəki qanun layihəsi və aksiz vergisi nizamnaməsinin təbdili barəsindəki layiheyi-qanuniyyə qiraət və qəbul ediliyor.

Sonra Məclisi-Məbusanə ikinci müavini-sədr intixabı məsələsi qalxıyor. "İttihad" fraksiyası Soltan Məcid Qənizadənin namizədliyini qoyur. Başqa fraksiyalar namizəd göstərmiyorlar. Rəyə vəz edildikdə 45 səs ilə Soltan Məcid Qənizadə ikinci müavin intixab ediliyor.

Bədə təbəəlik haqqindəki qanun layihəsinə keçilir.

Rəis əfəndi layihənin istecalı haqqində bir təklif varid olduğunu bəyan ediyor. Təklif bilaetiraz qəbul olunur. Və layihənin müzakirəsinə keçilir.

**Kravçenko** – (Slav və rus cəmiyyəti nümayəndəsi. Keşiş) Rusca nitq irad ediliyor. Nitqinin müxtəsər məzmunu budur:

Təbəəlik məsələsi qanun əsasından olduğu üçün bu xüsusdakı layiheyi-qanuniyyə Məclisi-Müəssisan tərəfindən qəbul edilməlidir və ancaq Məclisi-Müəssisan qəbul edə bilər. Həm də böylə qanunlar bir məmləkətdə o vəqt qəbul edilə bilər ki, məmləkətin istiqlalı millətlər, dövlətlər tərəfindən qəbul və təsdiq edilmiş olsun. Binaənileyh Azərbaycan beynəlmiləl etiraf və təsdiq edilməmiş və Məclisi-Müəssisan çağrılmamış təbəəlik qanununun qəbulu əleyhindəyiz. Bundan əla-

* İyulun 31-i və avqustun 4-də dəxi iclas təyin edilmişdi. Dörd avqust iclası baş tutmadı. İyulun 31-dəki iclasda qəzetəmizin nümayəndəsi idarə işlərindən dolayı iclasın axırınadək olmadığından məlumat verə bilmədik.

və təbəəlik qanunu beynəlmiləl bir məsələ olduğundan məmləkətin, dövlətin ümum beynəlmiləl işlərindən məsul olan xariciyyə nəzarəti tərəfindən idxal edilməlidir. Nəinki ədliyyə nəzarəti tərəfindən. Ona görə biz bu qanunun ədliyyə nəzarəti tərəfindən verilməsinə təəccüb ediyoruz. Bir də bu qanunda bir çox nöqsan var. Məsələn: layiheyi-qanuniyyəyə görə 1870-ci ildə məsələn Gəncədə anadan olub 3 yaşında ikən 1873-də Tambov şəhərinə getmiş, orada böyümüş, evlənmiş, övlad sahibi olmuş bir adam bu gün birdən-birə özü, əyalı, övladı və bütün nəsli həpsi üçün nagümani bir surətdə Azərbaycan təbəəsi elan ediliyor. Böylə də şey olurmu, bu cür qanun felən cari ola bilərmi? Felən çıxarılması aydın-aşkara mümkün olmayan bir əsasda qanuna daxil edilərmi? Əlavə qanunda göstəriliyor ki, 3 ay müddətində hər kəs özünün təbəəligini xəbər verməlidir. Bən sual edirəm imdiki şərait həyatiyyəsi altında mümkündürmü ki, uzaqda yaşayan bir adam bu müddət zərfində hökumətə xəbər verə bilsin? Halbuki böylə bir az müddətdə uzaqda yaşayanlar heç qanunun verildigindən belə xəbər tuta bilməzlər. Bundan maəda kənarda yaşayıb da sonra Azərbaycan daxilinə qayıdan bir adam Azərbaycan təbəəsi olmaq istəmədigini bildirsə nasıl olar? Qanuna görə bunun üçün yalnız bir ərizə vermək kafi degildir. Halbuki böylə şeylərdən çox müşkülat və sıxıntılar törəyə bilər. Nəhayət burasını da qeyd etməliyiz ki, bu qanun tərtib verilərkən Rusiyanın haqqinə rəayət edilməmişdir. Bu gün Azərbaycan təbəəsi edilmək istəməyənlərin həpsi Rusiya təbəəsi edilir. Şimdi onları Rusiyadan ayırmaq mucib cəza bir əməldir. Bu adamların Azərbaycan təbəəsi olmalarına Rusiyanın rizasını hasil etmək lazımdır. İştə bu mülahizə dəxi qanunun vəqtindən tez verilmiş olması haqqindəki rəyimizi

təyid edər. Binaənileyh biz bu qanunu vəqtsiz və qeyri-kafi sayaraq qəbulunun təxirə salınmasını təklif ediyoruz.

**Vanseviç** – (Polyak) Yenə rusca bir nitq söyləyərək sabiq natiqin əsassız rəy və mülahizələrini rədlə qanunun qəbulunu müdafiə ediyor. Diyor ki:

Burada deyirlər bu qanunu ancaq Məclisi-Müəssisan qəbul edə bilər. Bu fikir yanlışdır. Çünki bir məmləkətdə hankı qanunun nə vəqt tərtib və qəbul edilə bilməsi hüquqi-düvəl və beynəlmiləl ilə təyin edilməmişdir. Binaənileyh şimdi bu qanunu vermək vəqti degil, yaxud bu qanunu Məclisi-Müəssisan dəvətinədək qəbul etmək olmaz demək səhvdir və haman məclisin çağrılmamış olması heç vəqt təbəəlik qanunu qəbuluna mane olamaz. Azərbaycan istiqlalının millətlər tərəfindən etiraf və təsdiq edilməsinin də bu məsələyə dəxli yoxdur. Doğrudur, beynəlmiləl qəbul və təsdiq edilmək məmləkətin bütün işlərini möhkəmləşdirər, təqviyə edər. Fəqət bu demək degil o vəqtədək məmləkətdə heç bir qanun qəbul ediləməz. Binaənileyh bən beynəldüvəl və beynəlmiləl hüquq əsası ilə diyoram ki, bu qanunu biz imdi də qəbul edə biləriz. O ki, deyirlər Məclisi-Müəssisan tərəfindən ancaq qəbul edilməlidir, bən diyoram biləks biz bu qanunu Məclisi-Müəssisan dəvətindən qabaq qəbul etməliyiz. Çünki təbəəlik qanunu qəbul edilmədikcə heç Məclisi-Müəssisan əzası seçilə bilməz. Odur ki, biz bu qanunu imdi qəbul etməliyiz.

Yalnız bən təklif edərdim ki, ikinci maddədə "əgər onlar əskəri xidmətlərini görmüşlər və ya əskərlikdən azaddırlarsa" cümləsi haman maddədən çıxarılsın.

**Əhməd Cövdət** – (Sosialist) Təbəəlik qanununun əsasən qəbuluna zənnimizcə burada bir neçə adamdan başqa kimsə əleyhidar degildir. Həm böylə də olmalıdır. Zira madam ki,

inqilab qanununa görə elani-istiqlal etdik və xüsusi hökumət təşkil etdik dövlət əsası qoyduq, böylə olan surətdə əlbəttə öz məmləkətimiz içində hər növ qanun qəbul edə bilərik və kimsənin buna sözü ola bilməz. Öz məmləkətimizdə öz qanunumuzu qəbul etmək üçün Rusiyanın rizası, yaxud Paris konfransının icazəsini də gözləməginə ehtiyac yoxdur. Bununla bərabər madam ki, biz məmləkətimizdə bir burjua hökuməti təşkil etdik, burjua ruhunda olan qanunu da qəbula məcburuz. Fəqət ümumiyyətlə qanunun əsaslarını qəbul etməklə bərabər bəzi maddələrin bir qədər dəgişməsini lazım biliyoruz. Məsələn, qanunun bir maddəsində deniliyor ki, Azərbaycan daxilində anadan olanlar Azərbaycan təbəəsi oluyorlar. Kənarda doğulanlar isə Azərbaycan təbəəsi olmaq istərsələr bu xüsusda məqamə aid yenə ərizə verməgə məcburdurlar. Bunu bilməlidir ki, Azərbaycan daxilində yüz minlərcə adam var ki, bu maddə ilə təbəəlikdən kənar ediliyorlar. Doğrudur eyni qanun ilə onlara ixtiyar veriliyor ki, Azərbaycan təbəəsi olmaq istəsələr ərizə versinlər. Amma o adamların çoxu savadsız olduğundan qanunun qəbulundan verilən möhlətdən və qaidədən heç xəbərləri olmayacaq. Ona görə də müəyyən vəqtədək ərizə verə bilməyəcəklərdir. Nəticədə isə özlərinin xəbəri olmadan təbəəlikdən çıxmış olacaqlardır. Ona görə bizcə lazımdır ki, əksini tələb edək. Yəni qanunun maddəsini öylə dəgişdirməlidir ki, hər kəs təbəə olmaq istəməsə iki ay müddətində bu xüsusda ərizə versin. Öylə olmaz isə çox böyük müşkilat çıxar. Biz təklif ediyoruz maddədə göstərilsin ki, elani-istiqlal edildikdə burada olanların həpsi Azərbaycan təbəəsidir və hər kəs təbəə olmaq istəməsə ərizə verməlidir. Bundan əlavə, ikinci fəsil 5-ci maddədə Azərbaycan təbəələrinin övsafından bəhs olu-

nur, deniliyor ki, əxlaq hissinə sahibi xidmətdar və kəndi qövmi-məsaisi ilə yaşamağa müstəid olan adamlar təbəə ola bilərlər. Fəqət müərrifligi kim edəcəkdir? Polis məmurları. Onlar da əlbəttə ki, bəgənmədikləri, xoşlanmadıqları adamlara müərriflik etmiyəcəklərdir. Polisin ən artıq bəgənmədigi, xoşlanmadığı da fəhlə sinfidir. Ona görə də bu maddədən ən artıq mütəzərrər olan fəhlə olacaqdır. Binaənileyh biz haman maddənin ləğvini təklif ediyoruz. Bir də qanunda göstəriliyor ki, Azərbaycan təbəəsi olmaq istəyən əcnəbilər polis idarəsi vasitəsilə daxiliyyə nəzarətinə ərizə verməlidirlər. Bununla bərabər hələ bir neçə sənəlik bir müddət dəxi təyin ediliyor. Bizcə böylə müddət və möhlət təyin etməgə əsla ehtiyac və lüzum yoxdur. Digər tərəfdən də bir and içmək məsələsi. Bəncə bu dəxi fəzlədir. Çünki təbəə olmaq istəyənlərin andına inanacaq olursaq daha qanunun qabaqkı maddələrinə (şürut və quyudə) ehtiyac qalmaz. Yetər ki, bir adam gəlib Qurana yainki İncilə and içsin. Amma böylə degildir. Təbəə olmaq üçün bir çox şərtlər və qeydlər var. Əgər o şərt və qeydlərə əməl ediləcək olursa o halda and içməgə ehtiyac qalmaz. Bir də nəzərdə tutuluyor ki, and müqəddəs bir şeydir. Onu sındırmaq olmaz. Amma həyat başqa cür göstəriyor. Məsələn, bir vəqt Rusiyada and içilmişdi. Halbuki inqilab qoparıldı, hətta imperator təxtindən də devrildi. Deməli and içmək sədaqəti təmin etmiyor. O mənayə gəldikdə andın qiyməti yoxdur. And müqəddəs bir şeydir. Amma biz bu babda and verdirək, qövli-şərəflə söz almaq ilə and içmənin və söz vermənin müqəddəsligini pozuyoruz. Binaənileyh zənnimizcə qanunun bu maddəsi dəxi fəzlədir.

Bundan maəda qanunun üçüncü maddəsində deniliyor ki, təbəəlik haqqini itirmiş və sonradan iadə etmək istəyənlər bu

xüsusda ərizə verdikdən sonra 5 il gözləməlidirlər. Biz 5 sənəyi artıq sayaraq 2 sənə təklif ediyoruz. Vəqtilə qanun layihəsi maddə-maddə müzakirə edildikdə hər maddə həqqində rəy və mülahizəmizi ayrı-ayrı və müfəssələn bəyan edəcəgiz.

İmdilik ümumiyyətlə biz qanunun əleyhində degiliz.

*(Bitmədi)*

***"Azərbaycan", 13 avqust 1919, №250***

İstecal – tələsik
Təqbiyə – qüvvət vermə
Övsaf – sifət, keyfiyyət
Müərrif – təyin edən, tanıdan
Şürut – şərtlər
Quyud – qeydlər

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 7 AVQUST İCLASI
(mabəd)

Təbəəlik qanununun müzakirəsi davam ediyor. Qeyri-müsəlman məbuslar tərəfindən bir təklif varid oluyor. Məsələ mühüm olduğundan rusca danışılsın, yaxud türkcə irad olunan nitqlər ruscaya tərcümə edilsinlər.

**Mustafa Vəkilov** (yerindən) Qətiyyən öylə şey olamaz. Məclisi-Məbusanda rusca nitq söyləmək qanunumuzda yoxdur.

**Kravçenkov** (Slav-rus cəmiyyəti nümayəndəsi rusca) Möhtərəm məbuslar: siz biliyorsunuz ki, təbəəlik qanununun böyük əhəmiyyəti var. Bu məsələ hamını maraqlandırıyor və hər şəxs bununla əlaqədardır. Binaənileyh məlumunuzdur ki, bu məsələ ətrafında nələr danışıldığını hamı bilmək istər. Bu gün bizləri buraya göndərən xəlq Parlamanda bu xüsusda nələr söyləndigini diqqətlə təqib ediyorlar.

Hamının rəyini onlara bildirmək lazımdır. Burada sizin milli hissinizə toxunacaq bir şey də yoxdur. Milli mənafeinizi pozacaq bir şey görülmüyor. Bu mülahizə ilə də xahiş ediyoruz bu məsələ həqqindəki nitqlər rus dilində irad, yaxud türkcə söylənib də ruscaya tərcümə edilsinlər.

**Vəkilov Mustafa** (Müsavat) Bən başa düşmüyoram, həddindən ziyadə səbrli olduğumuzdanmı, yaxud hər şeyə kəmetinalıq göstərdigimizdəndir ki, bu gün bizə Məclisi-Məbusanımızda bizdən əcnəbi dildə danışmağımızı tələb ediyorlar. Ümum millətlərdə, hər bir dövlətdə qəbul edilmiş və heç vəqt əl vurulmamış olan əsaslardan birisini biz də qəbul etmişik ki, Məclisi-Məbusanda öz dilimizdə danışaq. Bizim

dilimiz var. O dildə danışmağa həqqimiz var. Və danışmağa qərar vermişik. Qaldı ki, bizim uca səslə bu kürsüdən verilən dərsə də ehtiyacımız yoxdur. Milli hissiyyatımıza nə toxunar, nə toxunmaz onu özümüz yaxşı biliyoruz. Uca səslə demək lazım degildir. Bundan əlavə bu vəqtədək Məclisi-Məbusanda bundan daha böyük, daha mühüm məsələlər müzakirə və həll edilmişdir ki, onlardan da maraqlanmamaq mümkün degil. Bilmiyoram onda nə üçün rusca danışılmayı tələb etmiyor, danışıqları anlamaq istəmiyorlardı. İmdi nə olmuşdur ki, böylə tələblər veriyorlar. Bilmirəm nə cəsarətlə diyorlar ki, öz parlamanınızda özgə dildə danışınız bizi çox səbrlimi, yoxsa o qədər anlamazmı hesab ediyorlar. Böylə təkliflərə heç vəqt əməl etmək olmaz. Burası Azərbaycan Məclisi-Məbusanıdır. Azərbaycanlıların öz dili var, öz məclisində, öz dilini danışmalıdır, bir də böylə təkliflər edilməməlidir. Nitqlərin türkcə irad edilib də ruscaya tərcümə edilməsinə ki, necə bu vəqtədək Parlamanda heç vəqt böylə şey olmamışdır, bundan böylə də olmamalıdır, ola da bilməz.

Bu məsələ səsə qoyulur, əksəriyyəti ara ilə rusca nitq söyləmək, yaxud tərcümə təklifi rədd edilibdir. Təbəəlik həqqindəki layiheyi-qanuniyyənin müzakirəsi davam ediyor.

**Mustafa Vəkilov** – Heç təəccüb etməyin ki, bu gün təbəəlik qanunu müzakirə edildikdən hamıdan qabaq Slav-rus cəmiyyəti nümayəndəsi çıxıyor və burada uca səs ilə danışmalarına, səs-küy salmalarına da təəccüb etməyin. Bundan əlavə Slav-rus cəmiyyəti nümayəndəsi idxal edilmiş qanunu vəqtsiz, münasibətsiz hesab ediyor, onların zənnincə hələ böylə qanunlar vermək vəqti degil, tez imiş. Həm də münasibəti yoxmuş. Onların böylə rəy verməleri də təəccüb ediləcək şeylərdən degildir. Təəccüb ediləcək bir şey varsa o da onların Məclisi-Müəssisan tərəfdarı çıxmalarıdır. Görüyorsunuz

ki, sabiq natiq Məclisi-Müəssisan tərəfdarı oldu. Amma onu bilməməlidirlər ki, burada oturanlar Məclisi-Müəssisanın hüququnu onlardan ziyadə və artıq dərəcə məhəbbətlə müdafiə edə biliyorlar. Amma özünüz biliyorsunuz və yaxşıca anlıyorsunuz onların müdafiə etdikləri Məclisi-Müəssisan hüququ degildir. Kravçenkovlar Məclisi-Müəssisandan ziyadə yabançıları, özgə qüvvələri müdafiə ediyorlar. Halbuki təbəəlik qanunu qəbul edilmədikcə heç bir mühüm məsələyə əl vurmaq olmaz. Hətta Məclisi-Müəssisan çağırmaq olmaz. Çünki bu gün biz təbəəlik məsələsini həll etmədən Məclisi-Müəssisan çağırsaq özünü zahirdə Azərbaycan təbəəsi kibi göstərib həqiqət halda özgə təbəəsi olanlar dəxi keçərlər. Amma bağışlasınlar. Öylə xətaları bir daha işləmiyəcəgiz. Doğrudur qabaqlarda bu kibi nöqsanlarımız çox olmuşdur. Bu barədə çox səhvlər etmişik. Amma imdi artıq qabaqkı səhv və nöqsanları təkrar işləmiyəcəgiz. Qaldı ki, qanunun Məclisi-Müəssisan tərəfindən qəbul edilməsi və bunun üçün istiqlalımızın beynəlmiləl etiraf və təsdiqi həqqindəki bəhsləri dəxi həp keçinin su bulandırması kibi bəhanələrdir. Hüquqidüvəl və beynəlmiləllə dəxli yoxdur. Əlavə burada deyirlər ki, böylə qanunu Rusiyadan iznsiz qəbul etmək olmaz. Çünki bu adamlar iləricə həp Rusiya təbəəsi olmuşlardır. Şimdi Azərbaycan təbəəligi qanunu verməklə həqləri təcdid edilib bir dairəyə salmamalıdır. Fəqət bizcə Rusiyanın izn rizasına burada ehtiyac yoxdur. Və gözləmək lazım degildir. Qoy rusiyaçılar əllərindən gələn qədər çalışsınlar, ağızlarına nə gəlsə desinlər və bacardıqlarını etsinlər. Zira əgər Kravçenkov həqiqətən qanundan bəhs etsəydi əlbəttə biz də ona cavab verə bilərdik. Onun məqsədi qanunu müdafiə etmək degil, başqa bir şeydir. Ona görə də bən inanmıyoram ki, bu gün

Məclisi-Məbusanımız bu qanunu müttəhidül rəy qəbul edər və başqa məqsədlər təqib edənlərin məqsudi hasil olmaz.

Sonra sabiq natiqlərdən Əhməd bəy diyor ki, Azərbaycan daxilində anadan olanların təbəə sayılması doğru degil, çünki ancaq burada doğulanlar Azərbaycan vətəndaşı hesab edildikdə xaricdə təvəllüd edib də burada yaşayanlar üçün böyük müşkülat çıxacaqdır. Natiq əfəndi təklif ediyor ki, Azərbaycanda anadan olanlar yox, Azərbaycanda yaşayanlar təbəə hesab edilsinlər. Amma bəncə böylə denilsə daha müşkülat çıxa bilməz. Zira böylə olan təqdirdə bütün əhali özünün vətəndaşlığı həqqində ərizələr verməli müraciətlər etməli olar ki, bunun da asan olmadığı məlumdur. Halbuki təvəllüd edənlər təbəə hesab olunaraq kənarda anadan olub da Azərbaycanda yaşayanlara da arzu etdikləri təqdirdə ərizə vermək müraciətdə bulunmaq imkanı verilməsilə iş daha da asanlaşdırılmış oluyor. Onlara da böylə ixtiyar verilmişdir.

Bir də Vanseviç əskərlik məsələsindən bəhs etdi. Fəqət bir dəfə onlar nəzərə almalıdırlar ki, Azərbaycanda mükəlləfiyyəti-əskəriyyə məsələsi yalnız türk-islamlara aiddir və burada hər nə qanun və danışıq olsa müsəlmanlar üçündür. Binaənileyh onlar qabaqcadan əskərlikdən azaddırlar. Və əskəri məsələlərdə müntəfdar degildirlər, maraqlanmamalıdırlar da.

Bundan əlavə Əhməd bəy 2-ci fəsil 5-ci maddəyə etirazla diyor ki, müərriflik və qəbul məsələsi tamamilə daxiliyyə nəzarəti və polis idarəsi əlində olub xoşlanmadıqlarını qəbul etmiyəcəklərdir. Bundan da ən ziyadə fəhlə sinfi mütəzərrər olacaqdır. Buna cavabən bildirmək istiyoruz ki, o məsələ yalnız daxiliyyə nəzarəti ixtiyarında olmuyub ədliyyə və xariciyyə nəzarətlərinin iştirakı ilə həll ediləcəkdir. Nəhayət, Əhməd bəy and məsələsi həqqindəki maddənin dəgişməsini

tələb ediyor. Əlbəttə bir sosialist and məsələsinə ancaq böylə baxar. Və böylə də deməlidir. Fəqət biz isə böylə baxmıyoruz. Biz and məsələsini əsaslı bir şey bilib öylə də qəbul ediyoruz.

Sırada daha natiq yoxdur. Binaənileyh son söz məruzəçi Hacınski Mehdi bəyə veriliyor.

**Mehdi bəy Hacınski** – Kravçenkonun fikri aşkardır. O tazədən yenə qəyyumluq məsələsi qoyur. Rusiyayı yenidən bizə qəyyum tikiyor. Şübhəsizdir ki, heç vəqt böylə sözlər ola bilməz. Və onun təklifi qəbul ediləməz. Biz qanunumuzu qəbul edəcəgiz. Burada heç bir təhdid ya dairə yoxdur. Hər kəs Azərbaycan təbəəsi olmaq istəsə bismillah buyursun, qapı açıqdır. Vanseviçin təklifi üzərinə maddəyə "Hal-hazırda burada yaşayanlar..." əlavə edilməsinə zidd degiliz. Fəqət mükəlləfiyyəti-əskəriyyə həqqindəki təklifə əsla razı ola bilməriz. Bilxassə bu qanuna görə xaricilər əskərlikdən azaddırlar. Mükəlləfiyyəyi-əskəriyyə məsələsinin onlara dəxli yoxdur. O bizim öz işimizdir.

Qanunun 2-ci (maddə, maddə) qiraətinə keçilməsi səsə qoyulur və əksəriyyəti ara ilə qəbul ediliyor.

Birinci maddə Vanseviçin "Hal-hazırda burada yaşayanlar..." məzmunlu təshihi ilə oxunuyor, rəyə vəz ediliyor. Ədliyyə və məsai naziri Səfikürdlü Aslan bəy həzrətləri söz alıyor.

**Səfikürdlü** – (Sosialist) Burada təbəəlik qanununun müzakirəsinə şüru edildikdə dedilər ki, bu qanunu ancaq Məclisi-Müəssisan qəbul etməlidir. Və bu xüsusda özgə dövlətlər və hökumətlərlə müzakiratə girişmək, rəylərini sormaq lazımdır. Azərbaycan hökuməti və Məclisi-Məbusanı böylə qanunları qəbul edə bilməzlər. Bundan əlavə bizə təklif etdilər ki, burada bu məsələ həqqində rusca danışaq. Çünki onlar da anlamaq, rəylərimizi bilmək istiyormuşlar. Fəqət bu sözlərin bir qəpik

qiyməti yoxdur. Nə üçün bu qanunu ancaq Məclisi-Müəssisan qəbul edə bilərmiş və nə üçün hökumət və Məclisi-Məbusan qəbul edə bilməzmiş? Bunu tələb edənlərin fikri qanunu ya Məclisi-Müəssisan hüququnu müdafiə etmək degil, fikri budur ki, hökumət bu qanunu qəbul etməsin. Və bu surətlə təbəəlik məsələsi açıq qalsın. Rusca danışmaq həqqindəki tələb dəxi ancaq bu məqsədə xidmət edə bilər.

Qaldı təbəəlikdə təvəllüd məsələsi bizcə məhəlli təvəllüdün böyük əhəmiyyəti var. Ona görə də ədliyyə nəzarəti qanunun binasını haman buradan götürmüşdür. Çünki bir adam harada anadan olmuşsa orası həmişə sənədlərdə, vəsiqələrdə də qeyd olunur. Onun üçün böyük bir məkan oluyor. Doğma yurd o yer hesab olunur. Digər tərəfdən Azərbaycan daxilində təvəllüd etməyənlərə də ixtiyar veriliyor əgər istəsə iki il burada olmuşdur ki, Azərbaycan təbəəligini qəbul edə bilər. Elani-istiqlalından sonra burada olanların da həpsi – hər kəs təbəə olmaq istəsə – ərizə verib Azərbaycan təbəəliginə keçə bilər. Bu surətlə heç kəsin hüququ təhdid edilmiyib hamıya geniş ixtiyar verilmişdir. Hələ hökumət Gəncədə bulunan zaman təbəəlik həqqində bir qanun verilmişdi. İmdi bu qanun yalnız əvvəlkini islah və təkmil ediyor. Məlumunuzdur ki, Gürcüstan, Ukrayna, Krım və sair yeni təşkil olunmuş hökumətlər dəxi təbəəlik qanunu vermişlərdir. Onsuz ola da bilməz. Necə ola bilər ki, bir məmləkət təbəəlik qanunu verməmiş qalsın. Həm bu qanun təcilidir də, o qədər təcili ki, hökumət qanun layihəsinin tərtibini nəzarətə tapşırdıqda ancaq 10 gün möhlət vermişdi. Rica edərəm siz dəxi bu qanunu təcili surətdə qəbul edəsiniz.

Bir də Əhməd bəy qanunu tənqid edərkən bir məsələyə diqqət verdi ki, orada denilir: Ancaq öz məsaisi ilə yaşayıb özünü saxlaya bilənlər təbəəligə qəbul edilirlər. Əhməd bəy

burasını qeyd və tənbiyə etdi. Ona cavabən bən diyoram ki, mütləqa böylə də olmalıdır. Çünki özünü saxlamağa qeyrəti, bacarığı olmayan bir adamdan nə vətəndaşlıq gözləmək olur.

And məsələsinə gəlincə bu da vicdan və məslək məsələsidir. Hər bir məslək sahibi vətənə sədaqətlə xidmət və mənafeini müdafiə edib, onun uğrunda düşmən müqabilinə getməgə söz verməlidir.

Sosialistlər təklif ediyorlar ki, elani-istiqlaldan bəri Azərbaycan daxilində yaşayanların həpsi Azərbaycan təbəəsi hesab edilsin.

Məruzəçi bu təklifi qəbul etmiyor.

Səsə qoyulduqda birinci maddə təshihlə qəbul ediliyor.

*(Bitmədi)*

***"Azərbaycan", 15 avqust 1919, №252***

Məhəll – yer, məkan

## İXTAR

Makinalarımızdan birisi xarab olduğundan bir neçə gün qəzetəmiz bugünkü kibi kiçik qitədə çıxacaqdır.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 11 AVQUST İCLASI

### Məsaili-yövmiyyə

**Sədr**: doktor Ağayev
**Katib**: Əhməd Cövdət bəy

1 – Daxil olmuş kağızlar: o cümlədən Sosialistlər fraksiyasının hökumətə sualı. Mehdi bəy Hacıbabəyovun ərzi-halı; sonra

a – Bakı Gömrükxanə heyətində bir müfəttişlik məmuriyyəti təşkili haqqində layiheyi-qanuniyyə;

b – 600 yüz milyon dövləti kağız pul buraxılması haqqində qanun layihəsi;

c – Vəzirov və Əliverdiyevə məzuniyyət verilməsi haqqində ərizələr;

2 – Azərbaycan təbəəligi haqqındakı layiheyi-qanuniyyənin 2-ci qiraəti: məruzəçi Mehdi bəy Hacınski.

3 – Tövcü vergisi nizamnaməsinin qəvaidinin təbdili və tövcü vergisini təmin etmək üçün rəhin qəbulu haqqında layiheyi-qanuniyyə, məruzəçi: Mehdi bəy Hacınski.

4 – Sülh məhkəmələrinin cinayət işlərində daireyi-nüfuzunun tövsiyi və sülh hakimləri hökmünün təqviyəsi ilə əmvali-xassəyə qarşı icra edilən bəzi cinayətlərə biçiləcək qanunların

təbdil və təğyiri həqqində qanun layihəsi, məruzəçi: Rzayev Bağır.

5 – Spirt məhsullarından alınan aksiz vergisi miqdarlarının artırılması həqqində qanun layihəsi, məruzəçi: Ağabəyov.

6 – Azərbaycan məmləkəti sərhəddində mühafizə bölügü təsisi həqqində qanun layihəsi, məruzəçi: Ağabəyov.

7 – Tövcü vergisinin artırılması ilə bərabər topraq gəlir və məxaric smetasının və topraq vergisi miqdarlarının təmdidi həqqində layiheyi-qanuniyyə, məruzəçi: Ağabəyov.

8 – Nəşri-elan həqqində;

9 – Maliyyə naziri şurası həqqində;

10 – Fabrika inspeksiyasına dair qəvaidinin müvəqqətən təğyiri həqqində layiheyi-qanuniyyə;

11 – "İttihad" fraksiyasının hökumətə sualı;

12 – Ümumi əyləncəxana və tamaşaxanə yerlərindən alınan müvəqqəti verginin hökumət mübəlliğ müstəhəqzasına idxalı həqqində layiheyi-qanuniyyə, məruzəçi: Ağabəyov.

13 – Həmin sənə üçün İrəvan ümuri-xeyriyyə naziri vəkilinin maaşı və onun idarə məsarifatı üçün məzkur nazirə 127.000 rublə kredit açılması həqqində qanun layihəsi, məruzəçi: Ağamalov.

14 – Tamğa rüsumatı qanunnaməsinin bəzi maddələrinin təbdili və rüsum miqdarlarının təzyidi həqqində layiheyi-qanuniyyə, məruzəçi: Rüstəmbəyov.

15 – Şəhadətnaməsiz olan içki ticarətindən alınan cərimələrin qüvvələnməgi həqqində layiheyi-qanuniyyə, məruzəçi: Hacınski.

16 – Bakı xəzinə palatası müdir müavinligi vəzifəsinin ləğvi həqqində qanun layihəsi, məruzəçi: Muxtar Əfəndizadə

17 – Azərbaycan Cümhuriyyəti ümuri-xeyriyyə nəzarətinin ştat siyahısı və maaşlarının artırılması həqqində layiheyi-qanuniyyə, məruzəçi: Vəkilov Mustafa.

Sosialistlərin hökumətə sualı iclasın axırına tərk ediliyor. Qanun layihələrindən birincisi bəzi gömrükxanə heyətində müfəttişlik haqqında olanı lavayehi-qanuniyyə komissiyasına, 600 milyon kağız pul buraxmaq, sülh məhkəmələri daireyi-nüfuzunun tövsiyi, spirt məhsullarından alınan aksiz vergisinin artırılması, sərhəd mühafizə bölügü təsisi və tövcü vergisinin artırılması haqqındakı 4-5-6 və 7-ci layihələr isə maliyyə-büdcə komissiyalarına göndəriliyor.

Sonra Bəhram bəy Vəzirov ilə Qara bəy Əliverdiyevin məzuniyyətləri məsələsinə keçərək Rəis əfəndi elan ediyor ki, Bəhram bəy Vəzirov may ayının 28-də bir aylıq məzuniyyət almışdı. Sonra xəstə olduğunu bəyanla möhlət verilməsini xahiş etmişdi. Məzuniyyətinin vəqti iyul ayının axırınadək uzadılmışdır. İmdi o möhlətdən 11 gün keçmişdir. Bu surətlə məzuniyyətinin müddəti iki aydan da keçmişdir. Ona görə Divani-Rəyasət bu xüsusi nəzərə alaraq onun məzuniyyətinin vəqtini bir daha artırmıyıb Parlaman heyəti ümumisinə həvalə ediyor. Bu da məzuniyyətin təmdidi haqqındakı ərzi-hal keçən ayın 28-də yazılmışsa da bizə ancaq ayın 7-də "İttihad" fraksiyası ümuri-xeyriyyə naziri müavini tərəfindən verilmiş bir vəsiqəyi təqdim etmişdir. (Vəsiqəyi oxuyur) Deməli Bəhram bəy xəstə imiş, bu barədə "İttihad" firqəsi bizə vəsiqə yetirmişdir. Anlaşılıyor ki, haman firqə Vəzirova bir teleqraf çəkmişdir. Və cavabında Bəhram bəy böylə bir teleqraf vermişdir.

"Bən özümü" xəstəligə vurmuyoram, avqustun 15-də gələcəyəm".

Deməli Bəhram bəyin məzuniyyət vəqtindən 11 gün, Qara bəyin vəqtindən 17 gün keçmişdir. Rica ediyorum Parlaman bu barədə öz rəyini bildirsin.

Uzun müzakiratdan sonra Vəzirova avqustun 15-nə və Əliverdili Qara bəyə 20-nədək məzuniyyət verilməsi təhtiqərarə alınır. Sonra təbəəlik qanununun ikinci (maddə maddə) qiraətinə keçiliyor.

**Əhməd Cövdət** – Qanun birinci dəfə – ümumiyyətlə müzakirə edilərkən biz bəzi təshihlər təklif etmişdik. Onları təkrar söyləməgi lazım bilirəm. Qanunda deniliyor ki, Azərbaycan vətəndaşı olmaq istəyən hər bir adam bir neçə şərtlərə haiz olmalıdır. Məsələn: Əvvəla bir qulluq sahibi olsun gərək, ikincisi gərək hüsnü-əxlaq sahibi olsun. Bən keçən dəfə söyləmişdim, imdi yenə təkrar ediyoram ki, böylə hüdud qoymaq iş tapmayan vətəndaşları sıxmaq, onları vətəndaşlıq hüququndan məhrum etməkdir. Bir adam bir az çətin qulluq tapdıqda məhz yer olmadığı üçün Azərbaycan vətəndaşı olamaz. Bizcə böylə şeylərə heç vəqt məhəl buraxmamalıdır. Ona görə biz təklif ediyoruz ki, qanun layihəsinin bu maddəsi çıxarılsın. Bir də layiheyi-qanuniyyənin 10-cu maddəsində deniliyor ki, bir xarici Azərbaycan vətəndaşlığını qəbul etsə, onun arvadı da Azərbaycan vətəndaşı oluyor. Deməli bu maddəyə görə arvadın heç bir həqqi-hüququ yox imiş. Mal kibi bir şey imiş. Ər də onun sahibi imiş, haraya istərsə çəkər. Bu surətlə arvadın həqq və hüququ əsla nəzərə alınmamışdır. Ona görə bu maddəyi qanundan tamamilə çıxarmalıdır. Çünki çox ola bilər ki, bir xarici təbəəsi Azərbaycan vətəndaşlığını qəbul etsin. Amma arvadı qəbul etmək istəməsin. Öz istədigi təbəəlikdə qalsın. Yaxud arvad hankı təbəəlikdə olduğuna baxmayaraq arvad özü Azərbaycan vətəndaşlığını qəbul ediyor. Bu xüsusda ərizə veriyor. Bu onun öz ixtiyarıdır. Və bu ixtiyarı onun əlindən almaq olmaz. Parlaman fraksiyalarının həpsi öz deklarasiyalarında arvadların hüququnu qəbul və etiraf etdiklərini açıq bəyan etmişlərdir. Vəqta ki, ümum firqələr

arvadların hüququnu etiraf ediyorlar, o halda onu müdafiə və riayə dəxi lazımdır. Habuki bu maddə ilə arvadların hüququ xələldar ediliyor. Sonra qanunun 11-ci maddəsində and məsələsinə keçərək qabaqkı iclasda bən bu xüsusda danışmışdım. O vəqt Mustafa Vəkilov dedi ki, sosialistlər başqa dürlü danışmazlar da. Onların məramı öylədir ki, gərək and məsələsinin əksinə, əleyhinə danışsınlar. Bən də diyoram ki, Mustafa bəyin mövqei elədir ki, o gərək andı müdafiə etsin. Amma söz burasındadır ki, hər yerdə hər işə əxlaqi və mənəvi nöqteyi-nəzərdən baxmalıdır.

Bir mülahizə etməlidir ki, and içən adam andını saxlayacaq, ona əməl edəcəkmidir ya yox. Siz bir tərəfdən diyorsunuz ki, Azərbaycan təbəəligini qəbul edən bir şəxs iki il müddətində özünün əxlaqı – xasiyyət sahibi olduğunu göstərib etimad və etibar qazanmalı, ləyaqətini hökumətin nəzərinə yetirərək öz bənligini isbat etməlidir. Bundan sonra da bir çox qeydlər və şərtlər qoyulmuşdur ki, ona da əməl etməlidirlər. Bən diyoram ki, bu şərtlərə, bu tələblərə əməl edildikdən sonra bir də and içmək lazım degildir. O maddələrə əməl edilsə kifayətdir. Amma sən diyorsan xayır gərək bunların həpsilə bərabər bir də and içə və halonki heç and içmək sədaqət və xülusu təmin etməz. Ola bilər ki, sən özün imdi and içəsən. Amma bir vəqt hökumət əleyhinə çıxasan. Çünki bu min dəfəhlərlə görülmüş bir işdir. Bundan əlavə anda xəlq arasında nə qədər əhəmiyyət verildigi məlumdur. Məhkəmələrdə min dəfə and içiliyor. Sonra da əleyhinə gediyorlar. Bu surətlədir ki, anda əməl edilmədigindən andın əhəmiyyəti itiyor. Əgər siz doğrudan da and tərəfdarısınız, o halda gərək andın qüdsiyyətini saxlayasınız. Ona görədir ki, andı öylə yerdə işlətməlidir ki, müqəddəsligi itməsin.

Bundan maəda: Vəqta ki sən vətəndaş olmaq istəyini cürbəcür qanunlar, maddələr ilə qeyd və şərtlər altına alıb təhdid ediyorsan daha ona bir də and verməgin mənası və lüzumu qalmıyor. Ona görə bən təklif ediyoram and həqqində maddə bütün-bütünə qanundan rədd edilsin.

*"Azərbaycan", 20 avqust 1919, №256*

Təmdid – uzatma, çəkmə

Xülus – saflıq, doğruluq, səmimiyyət

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA XARİCİYYƏ NAZİRİNİN BƏYANATI*

Məclisi-Məbusanın 14 avqust tarixli iclasında Sosialistlər fraksiyası tərəfindən Denikin təhlükəsi və məmləkətin əhvalı-hazirəsi haqqində hökumətə bir sual verilmişdi. 18 avqust tarixli iclasda xariciyyə naziri Məhəmməd Yusif Cəfərov həzrətləri haman suala cavabən böylə bəyanət vermişdir:

Möhtərəm məbuslar! Keçirməkdə olduğumuz halların əhəmiyyətini dərklə hökumət bu suallara cavab verməgə hazırdır: Bilxassə ki, hökumət özü ən yaxın zamanda parlaman və cəmaətə xarici övzamız haqqində məlumat vermək təsəvvüründə idi. Sosialistlər tərəfindən verilmiş olan sual bir neçə maddədən ibarətdir ki, onların da ümdəsi donanma, xətti-hüdud, məmləkət daxilində Denikin agentlərinin fəaliyyəti və ümumiyyətlə "Denikin təhlükəsi" adlandırıla biləcək bir neçə sair məsələdir. Bu suallara ətraflı cavab vermək üçün bən qabaqca diqqətinizi yaxın keçmişə cəlb edərək bəzi əmrləri xatırlatmaq istərdim.

Məlumunuzdur general Denikin qoşununun Dağıstan üzərinə hərəkəti və Petrovski ilə Dərbəndin işğalı xəbəri yetişdikdə Azərbaycan əhalisi burasını məmləkətin səlamət və təmamiyyətinə və dövlətin istiqlalına böyük bir təhlükə sayaraq bir həyəcana düşmüşdü. Həmişə cəmaətin mənafeini gözləyən hökumət dərhal könüllü ordunun irəli hərəkətini dayandırmaq üçün lazımı tədbirlər gördü. Bu tədbirlər iki cür

---

* Qəzetəmizdə sırada 11, 14 və sonra 18 avqust tarixli iclaslar ikən xariciyyə naziri həzrətlərinin bəyanatını növbədən xaric olaraq biz dərc etməgi lazım bildik. Gələcək nömrədən əvvəlki qaidə ilə sırası ilə yazılacaqdır.

idi. Birisi sırf əskəri tədbirləri idi ki, hərbiyyə nəzarətinə aid olduğundan bən bu xüsusda bəhs etməyəcəgəm. Digəri də siyasi-diplomasi tədbirlər idi. Siyasi iqdamatımız isə general Denikinə etdigi köməklərə görə onun nəzərində böyük nüfuz və etibara malik olan ingilis komandanlığına kəraətlə protesto vermişdir. Bu iqdamat və protestolar nəticəsində İngiltərə hökuməti bir xətti-hüdud təyin etdi. İşbu xüsus vəqtilə Rəisi-Vükəla tərəfindən bu kürsüdən sizə xəbər verilmişdir. Fəqət xətti-hüdud təyini və ingilis komandanlığı tərəfindən könüllü ordu qoşunlarının haman xətt ötəsinə çəkilməsini qəti surətdə tələb edilməsinə baxmayaraq, könüllü ordu qoşunları bu vəqtədək Dərbənd və ümumdağıstanda qalmaqdadır. Bu münasibətlə kərraətlə ingilis komandanlığına yenidən protestolar verdiksə də nəticəsiz qaldı.

Sonra iyunun 28-də bən Gürcüstan xariciyyə naziri Qeçeçqori ilə bərabər ingilis heyəti-əskəriyyəsi rəisi general Qorinin yanına gedib müsahibədə bulunduq. Könüllü ordu barəsində ilk dəfə bildik ki, general Denikin Dağıstanı könüllü qoşunlardan təmizləmək istəməyib biləks oranı kəndi daireyi-nüfusuna daxil etmək istiyor və bu xüsusda İngiltərə hökuməti ilə müzakiratda bulunuyor. General Qori bizim bu məsələyə nə nəzərlə baxdığımızı bilmək istədi. Buna cavabən bu xüsusda bizim nəzərimiz və rəyimiz müəyyən olduğunu qeydlə dedi ki, hal-hazırda bizi ən artıq maraqlandıran budur ki, ingilis komandanlığı və hökuməti bu işə nə nəzərlə baxıyor. Çünki, həmişə bizi inandırıyordunuz ki, general Denikin İngiltərə hökuməti tərəfindən xətti-hüdud həqqində qoyulmuş qərara əməl edəcəkdir. Halbuki həqiqətdə əməl etmiyor. Bu müsahibədən biz anladıq ki, general Denikin barəsində İngiltərə hökuməti siyasətində təbəddülat vaqe olmuşdur. Fəqət heç bir müəyyən və həqiqi nəticə əldə edəmmədik.

Avqust ayının 4-də yenidən əhval böylə qeyri-müəyyən bir suratdə qalıyordu. Haman avqustun 4-də İngiltərə komandanlığı hökumətimizə rəsmi surətdə xəbər verdi ki, yeni xətti-hüdud müəyyən edilmişdir. Və haman xətt Samur çayı boyu ilə bəzi Bakı quberniyası sərhəddilə keçiyor. İngilis təbliğatı rəsmiyyəsinin surəti budur:

İngilis baş ərkani hərbi 27-ci firqə Bakı 4 avqust 1919 Azərbaycan hökuməti-cümhuriyyəsi Rəisi-Vükəlasına: Alişan! 11 iyun 1919 tarixli 2.5.244/39 tarixli teleqrama istinadən sizə xəbər veriyoram ki, əlahəzrət kral hökumətindən komandanlığa böylə bir teleqraf gəlmişdir:

Qərar verilmişdir ki, Zaqafqasiya ştatları ilə general Denikin arasında irəlicə təyin edilmiş olan xətti-hüdud dəgişərək Dağıstan könüllü ordu məntəqə nüfuzuna daxil edilsin. Dəgişmiş xətti-hüdud şimdi Bzib çayı mənsəbindən başlayaraq onun şimalında Suxum oblastı sərhəddi ilə gediyor. Və oradan şərqə dönərək Suxum Kutaisi və Tiflis quberniyalarının şimalı sərhəddi ilə keçiyor və şərqə dönərək Dağıstanın cənubi hüdudu ilə keçəcəkdir. Hazırki dəgişmiş xətti-hüdud xəritəsi göndəriliyor.

Teleqrafda təkrar ediliyor ki: Zaqafqasiya cümhuriyyətləri könüllü ordu müqabilinə təcavüzkaranə çıxışdan saqınmalı və general Denikinə heç olmazsa Bəhri-Xəzər donanması üçün neft verməklə kömək etməlidirlər. Eyni zamanda bolşevik qüvvələrinə neft verməməlidirlər.

Bundan əlavə teleqrafda göstərilir ki, buna əməl edilmədigi təqdirdə İngiltərənin xeyirxahlığını qeyb edər və əlahəzrət hökuməti üçün general Denikindən məzkur xətt şimalında dayanmayı tələb etmək qeyri-mümkün olar.

Şübhəsizdir ki, bu xəbəri biz lazımı cavabsız buraxa bilməzdik. Bu münasibətlə ingilis komandanlığına bir nota

verərək bildirdi ki, yeni xətti-hüdud həqqində İngiltərə hökumətinin qərarı bizim hökumətimiz üçün nacahani bir şeydir. Və çünki ingilis komandanlığı bizi inandırmışdı ki, general Denikin qoşunu əvvəlki hüdud ötəsinə keçəcəkdir. Ona görə də vəziyyəti-hazirəyi olduğu kibi təhkim ediyor. Hökumətimiz yeni xətti-hüdud təyinini qeyri-məqbul ədd və əskisində israr ediyor. Təvəqqe etmişdik bu xüsus İngiltərə hökumətinə bildirilsin. Fəqət bu vəqtədək İngiltərə hökumətindən bir cavab yoxdur.

Donanmaya gəlincə bildirməliyəm ki, imdi daha artıq kəsbi-şiddət etmiş olan bu məsələ (gəmilərin Denikinə verilməsi) iləricədə əhəmiyyətli bir mərkəzdə idi. Bəhri-Xəzərdə Azərbaycana düşmən olan qüvvənin bulunması həmişə hakimiyyətimizi düşündürmüşdür. Hökumət sahillərimizin, xüsusən paytaxtımızin təmini üçün tədbirlər düşünmək məcburiyyətindədir. Və o vəqt təmin edilə bilər ki, dənizdə hökumətimizin binagüzarlığında dava gəmiləri olsun. Ona görə hələ general Tomson Bakıda olan zaman hökumət bu xüsusu ona bildirərək donanmanın bir qisminin bizim əlimizdə olması lüzumunu göstəriyordu. Tomsonu əvəz etdikdən sonra general Qori nəzdində dəxi böylə təşəbbüslər edildi. Zaqafqasiyadan ingilislər gedib italyanlar gəlmək məsələsi çıxdıqda İtaliya heyəti-əskəriyyəsi rəisi Qabba ilə müsahibə əsnasında donanma məsələsi açıldı və polkovnik Qabba donanma məsələsini bizim nəfimizə həll etmək və lazım gələrsə istənilən miqdarda müəllimi-bəhriyun verməgə hazır olduğunu bildirdi.

Möhtərəm məbuslar! Necə ki, sizə məlumdur italyanlar daha buraya gələcək olmadılar. Və donanma yenə ingilis komandanlığı ixtiyarında qaldı. Komandanlıq bizi inandırıyordu ki, bütün ingilis qoşunları çıxıb getsələr də donanma

kimsəyə verilməyəcəkdir. Buna baxmayaraq Bakıda müntəşir "Rossiya" qəzetəsinin 30 iyul tarixli nömrəsində yazılmışdı ki, donanma könüllü orduya veriliyor. Bununla əlaqədar olaraq bən ingilis komandanlığına müraciətlə sorğu verdim. Və bildirdim ki, donanmanın bir qisminin könüllülərə verilməsi Azərbaycanın səlaməti-mülkiyyəsini dənizdən təhdid altına alıyor. Və bir çox müşkülat çıxarıyor. Binaənileyh donanmayı verməməlidir. Protestomuza cavabən ingilis komandanlığı xəbər verdi ki, bu xüsusu ali komandanlığa bildirər.

Sonra avqustun 4-də ingilis komandanlığına müraciətlə məmləkətimizi dənizdə mühafizə üçün hankı şəraitlə olur-olsun könüllülərə verildigi qədər gəminin bizə də verilməsini təklif etdik.

Buna cavab verdilər ki, Bəhri-Xəzər donanması ancaq bolşeviklərlə mübarizə üçün və bu siyasətin davam etdigi müddətə əmələ gətirilmişdir. İngilislərin buradan getmələri qət edildikdə İngiltərə hökuməti donanmanın general Denikinə verilməsini əmr etmişdir.

Burasını da demək lazımdır ki, ingilis komandanlığı ilə müzakirat əsnasında həmişə diyorlar ki, Denikinə silah, lavazim, hər nə veriliyorsa bolşeviklərlə mübarizə üçün veriliyor. Donanmanın Denikinə verilməsi münasibətilə general Qori bizə xəbər verdi ki, Yekatirinodardaki ingilis heyətini ən müsbət surətdə inandırıyor ki, donanmadan Bakı müqabilinə istifadə edilməyəcəkdir və Denikin qoşunları Azərbaycan əleyhinə heç bir iqamatda bulunmayacaqlardır.

İngilis komandanlığından xahiş etdik bizim Bəhri-Xəzər donanmasını istəməmizi İngiltərə hökumətinə bildirsin. Fəqət bu vəqtədək hələ cavab alınmamışdır. Bundan sonra da ingilis qoşunlarının Zaqafqasiyadan getmələri həqqində binagüzarlıq edildi ki, bununla da əlaqədar olaraq əhali arasında haman

sualımda denilən həyəcan çıxdı. İngilis qoşunlarının getmələri münasibətilə bən gürcü hökumətilə həmrəy olaraq ingilis komandanlığı ilə müzakirata girişdim və Şimaldan təhdid olduğu üçün onların getmələrindən dolayı Zaqafqasiyada böyük müşkülat çıxara biləcəgini göstərərək qalmalarını xahiş etdim. Bizə cavab verildi ki, ingilis qoşunlarının getmələri haqqındakı binagüzarlıq qətidir, fəqət bizim xahişimizi öz hökumətlərinə bildirərlər.

Dağıstanın Denikin tərəfindən işğalı, donanmanın ona verilməsi və ingilislərin getmələrindən dolayı hasil olan vəziyyəti bən simsiz teleqraf ilə Parisdəki heyəti-mürəxxəsimizə bildirərək lazımı tədbirlər görməsini tövsiyə etdim.

Dövlətimizin daxili düşmənləri və Denikin tərəfdarlarına gəlincə bunlar ilə mübarizə məsələsi daxiliyyə nazirinin səlahiyyətindədir.

Binaənileyh bu xüsusdan bəhs etməyəcəgəm, ancaq bənim bildigimə görə hökumətimiz sağdan və soldan istiqlalımızın düşmənləri ilə mübarizə üçün tədbirlər görmüş və görməkdədir.

Əskəri məsələlərdən də məlumunuz olan səbəblərə görə bəhs edəməm.

Xətmi-kəlam olaraq bən lazım biliyoram diyom ki, məmləkətin vəziyyəti çox ciddidir; Şimaldan təhdid edən təhlükə çox güclüdür. Fəqət hökumət lazım gələn hər növ tədbirlər görüyor və bən inanıyoram ki, bütün millətin kömәgilə Azərbaycanın hürriyyət və istiqlalını müdafiə və mühafizə edə biləcəgiz.

*"Azərbaycan", 24 avqust 1919, №259*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 14 avqust

**Sədr**: Həsən bəy Ağayev
**Katib**: Əhməd Cövdət
Sədr iclası açaraq məsaili-yövmiyyəyi elan ediyor və mərkəzi Məclisi-Müəssisan intixabat komissiyası ilə Zəngəzur qaçqınlarına yardım komissiyasına əza seçilməsini təklif ediyor. "Müsavat" və "Sosialistlər" fraksiyaları rəisləri yardım komissiyasına əza intixabatı fraksiyalarda müzakirə edilməmiş olduğunu qeydlə məzkur əzanın bu gün seçilməməsini təklif ediyorlar. Məclisi-Müəssisan intixabatı hazırlayan mərkəzi komissiyaya isə təftiş vəqti namizəd göstərilməsini təklif ediyorlar. Növbədəki məsələlərə keçiliyor.

**Rzayev Bağır** – Cinayət işlərində sülh məhkəmələrinin daireyi-nüfuzunun tövsi və sülh hakimləri hökmünün təqviyəsi ilə əmvali-xassəyə qarşı icra edilən bəzi cinayətlər həqqindəki qanunların təbdil və təğyiri həqqində məruzə veriyor. Bu vəqtədək mövcud olan rus qanununa görə əmvali-xassəyə qarşı işlənən cinayətlər əgər əmval 300 manatdan artıq olmasa sülh məhkəmələrində, ondan artığı isə ümumqaidə ilə mühakimə ediliyordu. Şimdi pul kursu tənəzzüldə olduğundan sülh hakimləri daireyi-nüfuzu pək məhdud oluyor. Və biləks işlərin həpsi istinaf məhkəməsi öhdəsində qalıyor; bu da ağır oluyor. Binaənileyh 300 əvəzinə, 10 min təyin etməlidir. Digər tərəfdən də ümumiyyətlə nahiyə məhkəməsi təhtimühakiməsində bulunan bir çox şeyləri də sülh məhkəməsinə verməlidir.

Layiheyi-qanuniyyə əksəriyyəti-ara ilə qəbul ediliyor.

Növbədə Azərbaycan sərhədində mühafizə bölügü təsisi haqqındakı qanun layihəsidir. Məruzəçi **Rza bəy Ağabəyov.**

İbtida Azərbaycan sərhədlərində qaçaqmal alış-verişilə mübarizə və sərhədi mühafizə etmək üçün inqilabdan qabaq Qafqasiya xətti-hüdudunda olduğu kibi sərhəd qarovulları qoyulması təsəvvür olunurdu.

Bu xüsusda bir layihə dəxi tərtib verilmişdi. Lakin gömrük mədaxili imdiki halda və şəraiti-hazirədən dolayı ancaq 13 milyon manat olduğu halda sərhəd qarovulunun xərci bu il 80 milyon və sonra ildə 50 milyona çatırdı. Digər tərəfdən bir çox sair müşkilat dəxi vardı. Ona görə məzkur layihə qeyri-məqbul görüldü. Binaənileyh maliyyə nəzarəti daha yüngül bir layihə hazırladı. Haman layihəyə görə bütün sərhəd boyunda zabitlər təhti-komandasında sərhəd qarovulxanaları təsis olunur. Hər quberniyada məzkur qarovulxanalar sərhəd mühafizə naçalniki təhti-idarəsində yerləşiyor və mərkəzi idarə olmaq üzrə xüsusi bir şöbə təsis ediliyor.

Bu qərar ilə təşkil olunan sərhəd mühafizəsinin xərci də az oluyor. Haman qarovulxanalar şəraiti-məhəlliyəyə müvafiq olaraq sərhəddə, yainki xətti-hüdud yaxınlığında sərhəddəki yollarda, yainki məzkur yolların dögüm nöqtələrində yerləşəcəklərdir. Qarovulluğa yerli əhalidən könüllü olaraq atlı və piyada adamlar qəbul ediləcəklərdir. Könüllülərin atı, silahı və libası özündən olub etibarnamə təqdimilə etimada müstəhəqq olduğunu isbat edə bilənlər qəbul ediləcəklərdir. Layiqli bir adamın silahı olmazsa xəzinədən veriləcəkdir.

Azərbaycanın sərhəd xətti dənizdən təxminən 560 verst və qaradan 1300 verst hesab olunur. Bu xətdə cümlətanı 992 qarovul ilə 99 əsasi qarovulxana olmalıdır. Qarovulların 332-si atlı, 660 nəfəri piyada olacaqdır. Qarovulxanaların məhəlli

bu qərar ilə təsəvvür olunur: 1- Zaqatala quberniyasında 102 qarovuldan ibarət 12 qarovulxana; 2- Gəncə quberniyasında 230 qarovuldan ibarət 28 qarovulxana; 3- Qarabağ general-qubernatorluğunda 180 qarovuldan ibarət 18 qarovulxana; 4- Lənkəran qəzasından başqa Bakı quberniyasında 220 qarovuldan ibarət 20 qarovulxana; 5- Lənkəran qəzasında 210 qarovuldan ibarət 21 qarovulxana.

Məzkur qarovulxanaların təsisi və onunla əlaqədar olaraq nəzarət cünbində xüsusi şöbə açılmasına iyunun 1-dən noyabrın axırınadək birdəfəlik 518 min manat, qarovulxanalar inşası və daimi xərc üçün və iyulun əvvəlindən yanvaradək 5 milyon 272 min 850 manat sair xərclərə lazımdır.

Məclisi-Məbusan maliyyə-büdcə komissiyası bu layihəyi müzakirə və qəbul etmişdir.

**Saniyev** – (Hümmət) Bizim fraksiyamız bu layihənin əsasi bir maddəsinə razı degildir. Çünki qanun layihəsində denilir ki, sərhəd qarovulları maliyyə nəzarəti təhti-idarəsində olacaqdır. Bu vəqtədək sərhəd qarovulları sərhəd boyundakı qəzaların məhəlli hökuməti təhti-idarəsində olmuşdur. İmdi onu maliyyə nəzarəti ixtiyarına verərək bunun üçün də bir çox xərc çəkib yeni təşkilat əmələ gətirmək lazım degildir. Əgər sərhəd qarovulu məhəlli hökumət təhti-idarəsindən çıxarılaraq yeni təşkilat vücuda gətiriləcək olsa, o halda hərbiyyə nəzarəti təhti-idarəsində bulunmasını təklif ediyoruz və ancaq böylə olsa razı ola biləcəgiz.

***"Azərbaycan", 25 avqust 1919, №260***

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**14 avqust**
(mabəd)

**Rəhim Vəkilov** – ("Müsavat") Saniyevin qaldırdığı məsələdə bən tamamilə əks rəydəyəm. Burasını ərz etməliyəm ki, sərhəd qaravulluqlarının qəza hökuməti-məhəliyyəsi təhti-idarəsinə verilməsini tələb etməgə yanlışlıq işliyor və gətirdigi misal onun əksini isbat ediyor. Çünki sərhəd qaravulunun qəza qaimməqamına tabe edilməsi xətti-hüdud mühafizəsini çürük bir əsas üzərində buraxıyor. Çünki böylə olan surətdə sərhədlərimizin mühafizəsi hər bir qəza qaimməqamının əhvali-mənəviyyəsindən asılı oluyor. Əgər böylə olsa keçən il payız və qışda məhəlli hökumətin fənalığından dolayı Qazax qəzası və bütün cümhuriyyətin düşdügü hal təkrar edər. Bundan əlavə sərhəd məsələsi qəza məmurlarına tapşırıldıqda kəndlilər üçün bir çox müşkülat çıxar. Məsələn: nəinki sərhəddə, hətta 50-60 verst içərilərdə bir kəndli bazardan gələrkən hər bir strajnik onu axtarıb min əziyyət verəcəkdir. Bu nöqteyi-nəzərdən sosialist yoldaşların rəyinə iştirak etmiyoruz. Amma sərhəd mühafizəsi bölügünün hərbiyyə nəzarəti təhti-idarəsinə verilməsinin əleyhində degiliz. Çünki hərbiyyə nəzarəti məzkur təşkilatı nizam və qaidəyə salıb namuskarlıq hüsula gətirə bilər.

**Əfəndizadə Muxtar** – (Əhrar) Hacı Kərim Saniyevin rəyinə iştirakla təklif ediyoram ki, yenidən strajniklər toplatmayıb bu məqsəd üçün cümhuriyyət sərhədlərinə yaxın qəzaların

qaimməqamı binagüzarlıqda bulunan strajniklərdən istifadə edilsin.

**Əhməd Cövdət** – (Hümmət) Bu məsələdə bən tamamilə Sanilinin rəyinə iştirak etməklə bərabər bunu da bildirməliyəm ki, biz ümumiyyətlə gömrükxanə haillərinin əleyhindəyiz. Bu xüsusda iyulun 14-də Parlamanda rəyimiz açıq və aydın zikr edilmişdir. Bizim zənnimizcə sərhəd qaravulu təsis və təşkilinə xərc olunan pullar hədərdir. Ələlxüsus ki, bütün sərhəddəki qəzalarda, məsələn Quba və Qazax qəzalarında və Qarabağ general-qubernatorluğu dairəsində xüsusi dəstələr təşkil edilmiş və buna milyonlarla pul xərclənmişdir. Hər bir qəza qaimməqamı haman dəstələrin kköməgilə qaçaqmal alış-verişi ilə mübarizə və sərhəddi qaçaqçılıqdan mühafizə edə bilər.

**R.Vəkilov** (Müsavat) – Görünür ki, bu məsələdə sosialistlər ilə bizim rəylərimiz arasında bənim təsəvvür etdigimdən dərin ixtilaf varmış. Çünki sosialistlər tamamilə gömrükxanə olmasının əleyhindədirlər. Ona görə də bu məsələyə böylə yüngülcə baxaraq sərhəd qaravulunu qəza hökumət məhəliyyəsi ixtiyarına verməyi təklif ediyorlar. Biz isək məsələyi mühüm hesab edərək və əsas etibarilə onun həllinə qalxışmayaraq, ancaq hələlik əhval və şəraiti-hazirə daxilində sərhədlərimizin mühafizəsi üçün möhkəm və mükəmməl bir aparat hasil etmək istiyoruz. Hacı Kərim Saniyev yaxşı biliyor ki, keçən il Qazax qəzasında nələr oluyordu. İmdi sərhəd mühafizəsi məhəlli hökumət təhti-idarəsinə verildikdə haman aparat daha da xarab olub Saniyevin yaxşı bələd olduğu keçən ilki pozğunluq, pərişanlıq tazələnir. İş böyləlik ilə həll ediləcək olursa sərhəd yaxınındakı qəzalarda hər bir strajnik üçün təcrübə göstərdigi kibi geniş bir soyqun meydanı keçilə biləcəkdir. Bundan böylə daha strajniklər bütün qəza dairəsində kəndlilərə imkan verməyəcəklər gəlib keçsinlər.

Böylə təşkilat sərhədlərdə kadrabandı degil, sərhəd boyundakı qəzalar daxilində ticarəti öldürər. Binaənileyh bən öz rəyimdə baqi qalaraq təklif ediyoram layiheyi-qanuniyyə varid olduğu kibi də qəbul edilsin. Yaxud dəgişmək lazım gəlsə ancaq hərbiyyə nəzarəti təhti-idarəsinə verilsin.

(10 dəqiqə tənəffüs elan ediliyor)

Tənəffüsdən sonra Məclisi-Müəssisan intixabatı işlərinə baxacaq mərkəzi komissiyaya namizədlər siyahısı təqdim olunduğu xəbər veriliyor. Namizədlər bunlardır: Müsavatdan: Rəsulzadə Məhəmməd Əmin, Rüstəmbəyli Şəfi bəy, Vəkilov Mustafa bəy, Hacıbababəyov Mehdi bəy, Ağabəyov Rza bəy, Aşurov Ağa.

Sosialistlərdən: Rzayev Bağır, Əhməd Cövdət, Camalbəyov Qasım bəy.

"İttihad"dan: Əmirov Əsəd bəy, Vəzirov Zeynal bəy, Məhəmmədbəyov Heybətqulu.

Bitərəflərdən: Lənbəranski Cəmil bəy və Əsədullah Əhmədov.

Əhrardan: Abdulla bəy Əfəndiyev və Bayram Niyazi Kiçikxanov.

Ruslardan: Vinoqradov, ermənilərdən: Malxazov və Xocayev, yəhudi: Qoxman.

Əhrar 2 yer istiyor, Hacı Hüseyn Əfəndizadənin namizədligini qoyur. Etiraz vaqe olur. Hacı Hüseyn əfəndi öz namizədligini götürüyor və nəticədə 21 nəfərdən ibarət birinci siyahı qəbul olunur.

Sonra sərhəd qaravulu haqqindəki layiheyi-qanuniyyə müzakirəsi davam ediyor.

Biri "Əhrar" fraksiyası tərəfindən, digəri də Qarabəyli ilə Vəkilovun imzası ilə olmaq üzrə iki təklif varid oluyor. Sərhəd qaravulunun hərbiyyə nəzarəti təhti-idarəsinə verilməsi təklif ediliyor.

**Ağabəyov** – (Məruzəçi) Görünür ki, bu təklifin tərəfdarları məzkur təşkilatın hərbiyyə nəzarəti təhti-idarəsinə verilməsini istəməklə orada möhkəm nizam və qaidə hüsulunu arzu ediyorlar.

Fəqət yalnız nizam naminə işin əslini dəyişmək olmaz. Fəqət bilməlidir ki, bu təşkilat yeni bir şey degildir. Bizdən əvvəl dəxi böylə şeylər vardı. İmdi biz də onun kibi və o əsas ilə təşkilat vücudə gətirmək istiyoruz.

Ona görə böylə yenilik və təbəddülat icrası ancaq qeyri-məmul müşkülat çıxara bilər.

Binaənileyh bən qanunun təbəddülatsız qəbulunu təklif ediyoram.

**Yusifbəyli Nəsib bəy** – (Rəisi-Vükəla) Bən öylə biliyoram ki, burada bir yanlışlıq var. Çünki sərhəd qaravulxanələri hərbiyyə işləri üçün olmuyub, ancaq gizli və qaçaq alış-verişi ilə mübarizəyə xidmət edəcəkdir. Bu da gömrükxanə məsələsilə sıxı surətdə əlaqədardır. Məlumunuzdur ki, gömrükxanələr maliyyə nəzarəti təhti-idarəsindədirlər. Bu surətlə qaravulxanələr hərbiyyə nəzarətinə tabe olduqda bir iş iki nəzarət altında qalıyor.

Deməli bir məsələ olduqda qaravulxanələr xəbər verəcəklər öz baş idarələrinə, o da hərbiyyə nəzarətinə orada gedəcək maliyyə nəzarətinə və o təriqlə gömrükxanəyə. Bu vəchlə əvvəla bir iş iki oluyor. Saniyən sərhəd xəttində bir iş olanda hərbiyyə nəzarəti deyəcək maliyyə nəzarəti xidmətçiləri işidir, onlarda hərbiyyə nəzarəti xidmətçilərini müqəssir tutacaqlardır. İki nəzarət miyanında daima mübahisə olacaqdır.

Bütün məmləkətlərdə sərhəd qaravulları maliyyə nəzarətinə tabedirlər. Binaənileyh bu qanun bilatəqyir və təbdil qəbul edilməlidir. Varid olan təklifi qəbul etmək işi daha da müşkülə və pozğunluğa salar.

**Hacıbababəyov** (Müsavat) Təklifə görə sərhədləri kontrabandadan qurtarmaq və qaçaq alış-verişi ilə mübarizə etmək üçün müntəzəm mötəbər və bütün əməlində divani-hərb hüzurunda məsul əskəri qitəat təşkil edilməsi istənilir. Və bu kibi bir müəssisə yaratdıqda iki nəzarətin arasında mübahisə çıxacağını göstərmək o qədər də əsaslı bir dəlil degildir. Binaənileyh bən təklif edərdim ki, sərhədimizi mötəbər və müntəzəm qüvvəyə tapşırmaq üçün qaravullar hərbiyyə nəzarəti təhti-idarəsinə verilsin.

**Hacınski Mehdi bəy** – (Müsavat) Layiheyi-qanuniyyələrdə böylə bir təbəddülat icrası heç vəqt mümkün olacaq şeylərdən degildir. Çünki sərhədlərin gömrükxanə qaravulu əsla hərbiyyə nəzarətinə aid bir şey olmuyub tamamilə maliyyə nəzarətinin işidir. Ona görə də maliyyə nəzarətinə aid bir məsələyi heç vəqt hərbiyyə nəzarətinə tapşırmaq olmaz.

**Əmircanov Əbdüləli bəy** – (Bitərəf) Böylə bir təklifi qəbul etmək heç şübhəsiz böyük bir xətadır. Hər bir məmləkətdə həmişə sərhəd qaravulları maliyyə nəzarəti təhti-idarəsində olmuşdur. İnqilabdan qabaq Rusiyada maliyyə naziri hətta sərhəd mühafizə bölügünün şefi idi. Gömrükxanə işləri sırf maliyyə nəzarətinə aid bir iş olduğundan sərhəddin mühafizəsi dəxi məzkur nəzarət təhti-idarəsində olmalı, yəni sərhəd qaravulları maliyyə nəzarətinə tabe olmalıdırlar.

**Qarabəyov Qara bəy** – (İttihad) Bu təklifi rədd etdikdə təcrübəyə istinad etmək, yainki filan məmləkətdə, filan vəqt böylə idi demək düz degildir. Çünki köhnə işlərə nisbətən şimdi nəzərlər, fikirlər və üsullar çox dəgişmişlərdir.

Biz sərhəd qaravulunun hərbiyyə nəzarətinə tabe olmasını istədikdə bir şeyi də nəzərə alıyoruz ki, böylə olsa həmişə sərhədlərimizdə müəyyən miqdarda əskəri qüvvəmiz olar. Və şayəd xaricdən bir şey olsa daima onlar müdafiəyə hazır ola-

raq vətən sərhədlərini əcnəbi təcavüzlərindən sinələrilə hifz və müdafiə edərlər. Bundan əlavə sərhəd qaravulları uzun müddət bir yerdə qaldıqda birdən özləri də haman alış-veriş işlərinə qarışa bilərlər. Yainki arada alış-verişçilərlə əlaqə peyda edərlər. Bu surətlə də vəzifəhlərini hüsn ifa edəməzlər. Halbuki hərbiyyə nəzarəti təhti-idarəsində olsa qoşun tez-tez dəgişir və əskərlər heç bir əlaqə və münasibat peyda edəmməzlər.

**Rəsulzadə Məhəmməd Əmin** – (Müsavat) Bu məsələnin lehinə də, əleyhinə də çox sözlər demək olar. Fəqət bizcə lehinə danışdıqda heç vəqt bunu dəlil götürmək olmaz ki, sərhədlərimizi nizami əskər qitəatı mühafizə edər. Və bu əskər eyni zamanda mühüm hərbiyyə vəzifəsini görər, həm də gömrükxanə işlərinə xidmət edər. Cümhuriyyətimizi düşmənlərdən müdafiə etmək ümuməskərlərin borcudur. İstər sərhəddə olsun, istər arxada ümum qüvveyi-əskəriyyə bu işə xidmət etməlidir. Bundan əlavə cümhuriyyətin əskəri müdafiəsi hərbiyyə nəzarətinə aid bir məsələdir. Bir də əskərlik vəzifəyi-müqəddəsini gömrükxanə qaravulluğu ilə qarışdırmamalıdır. Bu bir müqəddəs vəzifədir ki, onu olduğu kibi müqəddəs saxlamaq lazımdır. Burası da ixtilafsız həqiqətdir ki, sərhəd mühafizə bölügü ancaq gömrükxanə qarovulluğundan ibarət yalnız maliyyə nəzarətinə tabe olmalıdır. Çünki vəzifə birdir. Bu bir vəzifəyi iki nəzarət arasında paylamaq ancaq ixtilaf çıxara bilər.

Layiheyi-qanuniyyə səsə qoyularaq əksəriyyəti ara ilə komissiyanın qəbul etmiş olduğu surətdə qəbul ediliyor.

*"Azərbaycan", 26 avqust 1919, №261*

Qaimməqam – inzibati məmur, müavin
Hail – dəyişdirilmiş, manea, hasar

# BÖHTANLARLA BÖYÜK İŞLƏR GÖRÜLÜYOR

Biz Qafqaz türkləri həqli sədamızı, təbii həqqimizi yanımızda, aramızdaki müttəfiqlər müməssili Tomsona yetişdirəmədigimiz, ona həqiqət halı anlatamadığımız halda, ermənilər yüz dürlü böhtan və qırmızı yalanlarını Parisə, Londona qədər çatdıraraq Qafqas siyasətində böyük rol oynamaqdadırlar. Həm öylə dəhşət və əhəmiyyətli rol oynamaqdadırlar ki, ona qarşı bir saət səbr və sükut, ona qarşı bir siyasi aramamaq hüquqi-sərihəmizə, həyati-istiqlalımıza olan aşkar təcavüzü qəbul etmək deməkdir. Bu isə müstəqil yaşamaya əzm etmiş bir millət üçün degil, adi bir cəmiyyət üçün belə bir eyib, bir nöqsandır.

Yalnız bir eyib və nöqsanmı? İş bununla qalsa yenə dərd yarı; yenə nöqsanı ikmal mümkün. Fəqət daşnaqsaqanlar öylə qızıl iftira və ağulu dillərlə, öylə ustalıq və sərbazlıqlarla müttəfiqləri və onların buradakı vəkillərini aldadıyorlar ki, nəticəsi vücudumuzun mühüm bir üzvünü xəncərlə kəsib ayırmaq və bu surətlə həyati-istiqbalımızı bir daimi zəf və mərəzə düçar etməkdir.

Heyf ki, bəyanatım quru bir söz degil, iştə Ermənistan xariciyyə nazirinin Parisdəki erməni mütəxəssislərinə vurduğu teleqraf!

İştə bu teleqrafın nəticəsi olaraq Qars-Cənubi-Qərbi Qafqas hökumətinin dağıdılması.

Ehtimal ki, oxuyanların bir qismi bu teleqraf məzmununu bilmiyor.

Teleqrafın xülaseyi-məzmunu böylədir:

"Qarabağ, Şərur, Naxçıvan, Sürməli və Qars tərəflərində Osmanlı zabitlərinin komandaları təhtində böyük türk qüv-

vətləri toplanmaqdadır. Bunlar top və atəş qüvvətlərilə, yenidən erməni qanı axıtmaqla bu yerləri Azərbaycana zorla ilhaq etmək istiyorlar. Vəziyyət qayət ciddi və təhlükəlidir. Mütəfiqlər qüvvətinin müavinətilə bu qanlı qitalın qabağı saxlanmalıdır. Və illa yaxında böyük və qanlı faciələr üz verəcəkdir.

Parisə çəkilən bu həyəcanımız teleqraf Parisi vəlvələyə saldığı bir anda Tiflisdə çıxan ingiliscə "Detratiz Qafqasiyan post" qəzetəsindəki "Türk intiriqaları" məqaləsi də buradaki müttəfiq komandanlarını şübhəyə buraxdı.

İştə bu şübhə səbəbilədir ki, mütəfiqlər komandanı Tomson bir az əvvəl Kars hökumətini təqdir və təsdiq etdigi halda bu həftə adi bəhanələr ilə onu dağıtdı və aprelin 12-də bütün kabinə əzasını dustaq edib təhtülhifz Batuma göndərdi. Yarım milyonluq türk demokratiyasını daşnaqsaqanların, erməni sərmayədarlarının pəncəyi-intiqamlarına buraxdı.

İştə safail türklər görsünlər, sadədil Azərbaycan türk demokratları anlasınlar ki, daşnaqsaqanların kiçik bir qeyrətləri, daha doğrusu hiylə və böhtanları nə böyük işlərə şayani-asəf təbdillər vücudə gətiriyor!

Nasıl can alacaq damarı biliyorlar. Nasıl əhvalı-hazirə tilsimini quruyorlar. İngilisləri nasıl "Qafqazda Osmanlı nüfuzu" ilə quşqunlandırıyorlar.

İştə bu da bir siyasi hünər, bir hiylə müvəffəqiyyətidir. İngilislər əlilə böyük məram və qayələrinə çatmaqdır. Zəhmətsizcə yarım milyonluq bir türk kütləsinin ittihadını siyasi müəssisatını dağıtmaqdır.

Bu məgər az hünərmidir?

Bu gün yarın Kars şəhəri ermənilərə keçəcək, daşnaqsaqanların əski hakimiyyətlərini quracaq, bütün müsəlman füqərası uzaqlara işsiz yerlərə qaçacaq. Qayalara, dağlara sığınacaq, ac, çılpaq qalacaq, minlərcə naxoşlayacaq, yüzlərcə qırılacaq.

Əvət, daşnaqsaqan hakimiyyəti Karsa köçəcək. Oradaki yüzlərcə top, minlərcə tüfəng, milyonlarca patronu əllərinə keçirəcək müsəlmanlar əleyhinə işlədəcəklər.

Ermənistan hüdud və nüfuzi altında 486 müsəlman kəndinin ermənilər tərəfindən zəbt və işğal edilmələrinə rəğmən, Karsdaki 86 erməni kəndinə sığınan yersiz müsəlman kəndliləri yerlərindən qovulacaq dağlara, bayırlara sürüləcəklər. Bu il dağ otları ilə yaşasalar belə gələn qışda acından ölümə məhkum olacaqlar.

İştə daşnaqsaqan propağandasının, qızıl böhtanının nəticəsi!

İştə ingilisləri inandırmalarının siyasi manevra və hiylələrinin səmərəsi!

İştə buna müqabil də bizim sükut və "təvəkkül"ümüz!

Əcəba, bizim bu sükut və təpərimiz doğrudan uzun sürəcəkmi?

Zənn etməm. Daha zənn etməm ki, türk demokratiyası əskisi kibi uzun yatmaz!

Ümidvaram ki, tezliklə bu hiyləkarlıqların ingilis məhvəllərinin önünü açsın və tələb etsin ki, Kars hökuməti heyəti bacarıqsız idisə onu təməlindən pozmaq, dağıtmaq olmaz. Mövcud olan Məclisi-Məbusanı vasitəsilə tazələmək əhvalı islah etmək mümkündür.

Ümumi demokrat qanunu ilə vücuda gələn bir məmləkət Məclisi-Müəssisanını heçə saymaq, onun kabinəsini tutub həbs eləmək qonşular təşviqatı ilə Məclisi-Məbusanı ilə bərabər bir hökumət mütəşəkkülati dağıtmaq millətlər müqəddəratını təmin üçün Qafqasa gələn ingilislərin müttəfiqətinə müvafiq olmasın gərək.

**Ümidvar (Ömər Faiq Nemanzadə)**
***"Azərbaycan", 20 aprel 1919, №261***

Sərihə – açıq-aşkar, şübhəsiz

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 18 AVQUST İCLASI

**Sədr**: Həsən bəy Ağayev
**Katib**: Mehdi bəy Hacınski

Sədr məsaili-yövmiyyəyi elan etdikdən sonra sülh məkəmələrinin dairəyi-nüfuzunun artırılması haqqındakı layiheyi-qanuniyyənin 3-cü qiraətinə keçiliyor. Qiraətdən sonra qanun əksəriyyəti ara ilə qəbul edilərək təshih komisyonuna veriliyor.

Bədə Azərbaycan sərhəddinin mühafizə bölügü təsisi barəsindəki layiheyi-qanuniyyə dəxi üçüncü qiraətdə qəbul və təshih komisyonuna irsal ediliyor.

Növbədə darülfünun açılması haqqındakı layiheyi-qanuniyyənin müzakirəsidir.

**Mahmudov Mustafa** – (Müsavat) Məsələnin böyük əhəmiyyətini qeydlə təxirini təklif ediyor.

Təklif əksəriyyəti-ara ilə qəbul olunaraq növbədəki dövlət bankı təsisi layihəsinin müzakirəsinə keçiriliyor.

**Rza bəy Bağır** (Sosialist) – Bu məsələyə onların fraksiyasında baxılmamış olduğuna görə təxirə salınmasını təklif ediyor.

Təklif əksəriyyəti ara ilə rədd ediliyor.

**Ağabəyov Rza bəy** (Müsavat məruzəçi) – Məmləkətin iqtisadi maliyyə işlərini bir qaidəyə salmaq üçün bir dövlət bankı açılmasına ehtiyac vardır. Məlumdur ki, dövlət və məmləkətin maliyyat və iqtisadiyyatını adi bir yola və nizama salmaq üçün hökumətin əlində tamamilə ona tabe olan bir müəssisə lazımdır. Əsrimizdə böylə bir rol oynayan müəssisə dövlət bankından ibarətdir ki, bütün məmləkətlərdə mövcuddur. Və onun siyasəti-maliyyə və iqtisadiyyəsi məmləkət həyatında qəti bir amildir. Cümhuriyyətimiz bu vəqtədək böylə bir

müəssisədən məhrum idi. Halbuki ticarət və sənaətimiz dövlət dairə və təvəccöhündə müzahirət tələb ediyor. Bundan əlavə məmləkətimizdə mövcud olan xırda istiqraz müəssisələri məsələn xüsusi banklar, əmanət sandıqları və sairləri də onları birləşdirəcək mərkəzi bir müəssisəyə möhtacdırlar. Böylə bir müəssisə də ancaq dövlət bankından ibarətdir.

Bir də özünüz biliyorsunuz köhnədən qalmış və bu vəqtədək mövcud olan banklara və istiqraz müəssisələrinə cəmaət inanmıyor, etibar etmiyorlar. Ona görə də əhali pulunu onlara vermiyor. Bundan dolayı milyonlara pul cəmaətin əlində qalıyor, işləmiyor. Nəticədə hökumət hər daim yeni kağız pul kəsməgə məcbur oluyor. Bu isə hökumətin borcunu artırıyor və pulun qiyməti düşməsinə bais oluyor. Halbuki əgər Azərbaycan hökuməti özü dövlət bankı açsa, həm cəmaətin öz içində olmaq, həm də xəlq ruhuna müvafiq gəlib köhnə dolaşıq hesablardan uzaq olması həsəbi ilə, digər tərəfdən də banka verilən pulların hamısı həmişə cəmaətin öz cibindəki kibi olacaqdır. Ona görə də şübhəsizdir ki, cəmaət Azərbaycan dövlət bankına inanıb etibar edəcək və pulunu o banka verəcəkdir. Haman dövlət bankı xırda istiqraz müəssisələrinə pul buraxmaqla əvvəla onları mərkəzi idarəyə yaxınlaşdırar, saniyən də bu vəqtədək bankdan kömək ala bilməyən yerlər və cəmaətin bankdan uzaqda qalmış olan sinif və təbəqələrini hərəkətə gətirər. Nəhayət dövlət bankı xırda istiqraz müəssisələrinə kredit açıb münasibat və əməliyyatını nizam və qaidəyə salmaqla bir tərəfdən haman müəssisələr ümum məmləkət həyatında yeni cərəyan hüsula gətirər, digər tərəfdən də yavaş-yavaş məzkur müəssisələrə qarşı etimad və etibarı möhkəmləşdirərək çox müamilat başlanmasına bais olar ki, bu təriq ilə də təqdimlə olan ehtiyac azalar.

Dövlət bankının vəzifə və məqsədləri ticarət banklarınkından geniş və çox olacaqdır. Məsələn təsisat məsələsi dövlətin

maliyyə mərkəzi olmaq üzrə məmləkətin mərkəzlərilə uzlaşma üsulu olub maliyyə məsələsini nizama salmaq və sairə kibi mühüm vəzifəhlər ifa edəcəkdir. Böylə nəzarəti bu xüsusda 144 maddədən ibarət bir layihəyi təqdim etmişdir. Layihəyi bankın daxili nizamnaməsi dəxi yuxarıda fərz etdigim mülahizələrdən anlaşıldığı üzrə dövlət bankı haqqındaki layiheyi-qanuniyyənin tezlik ilə qəbulu və bir az əvvəl məmləkət həyati övzadiyə və maliyyəsinin tezlik ilə və möhkəm əsaslar üzrə də təhdidinə bais ola biləcəkdir. Maliyyə-büdcə komissiyası bu layiheyi-qanuniyyəyi qəbul və təsdiqi təklif ediyor.

**Ağamalı oğlu** – ("Hümmət") Yoldaşımız Bağır Rzayev fraksiyamız namindən bu layihəyə yaxşı baxa bilməmiş olduğumuzu göstərərək müzakirəsinin təxirə salınmasını təklif etdi. Bizim məqsədimiz bu surətlə layihəyə ətraflı bir surətdə aşina olmaq idi. Çünki bu məsələ çox mühümdür. Onu asanlıqla keçmək olmaz. Özünüzə məlumdur ki, dövlət bankı öylə bir müəssisədir ki, oraya camaat pulu qoyulacaqdır. Ona görə də haman bankdan bizim zənnimizə görə camaat özü istifadə etməlidir. Amma bu cur ki, imdi bizə təklif ediyorlar bu böylə bir alət olacaq ondan ancaq dövlətlilər istifadə edə biləcəklərdir. Halbuki biz gərək öylə bir bank açaq ki, ondan əkinçilər, kəndlilər, fəhlələr və ümumiyyətlə camaatin aşağı təbəqəsi istifadə edə bilsin.

Bu bank ki, açılıyor, onu camaat, füqəra sinfi sənaətindən uzaq duran bir şura idarə edəcəkdir. Bundan əlavə qanun layihəsində bir çox örtülü, dumanlı qaranlıq yerlər var ki, gələcəkdə bu şeylərdən sui-istifadə etməgə imkan verər. Ona görə bən təklif edirəm ki, bu layihəyə yaxşı diqqət verilsin. O maddələrə də ciddi surətdə baxılsın ki, sonra qaranlıqlar, örtülüklər qalmasın.

**Aşurov Ağa** – (bitərəf) Qabaqkı natiqlərin danışıqlarından böylə görüldü ki, onlar dövlət bankı açılmasına müarizdirlər.

Amma bən böylə biliyoram ki, dövlət bankı açmaq məsələsi öylə bir şeydir ki, heç vəqt onun ziddinə getmək olmaz. Çünki dövlət bankının olması məmləkətdə adi həyati-iqtisadiyyə hüsulinə xidmət ediyor. Onu açmaq və aydınlaşdırmaq lazımdır. Ümidvaram ki, bu məsələyə də kafi cavab verilər.

Bən bilmək istərdim ki, Azərbaycan dövlət bankı açıldıqda qabaqkı dövlət bankı və sairləri ilə əlaqə və müamiləsi necə olacaqdır.

**Əhmədzadə Yusif** – (bitərəf) Dövlət bankı öylə bir şeydir ki, hər bir hökumət və məmləkətə lazımdır. Buna heç kəs zənnimcə etiraz edə bilməz. O ki qaldı bankın demokratlaşdırılmasına bən belə biliyoram ki, heç kəs kəndlərdə əkinçilər, kəndlilər üçün xırda banklar açılmasına da etiraz etməz. Ola bilər ki, qabaqlarda banklarda öylə siyasət işləmişlər fəqir əhali banklardan istifadə etməmişlər, nəfbərdar ola bilməmişlərdir. Bu siyasəti yürüdən qabaqkı banklar idi. Amma imdi Azərbaycan özü üçün dövlət bankı açdıqda böylə siyasətləri rəf edər. Cəmaəti bankdan uzaqda buraxmaz. Və öylə edər ki, füqəra əhali dəxi banklardan nəfbərdar ola bilsinlər.

**Əbilov İbrahim** (Sosialist) – Biz əsas etibarı ilə Azərbaycanda dövlət bankı açılmasının ziddinə getmədik və getmiyoruz. Biləks məmləkətdə dövlət bankı açılmasına böyük əhəmiyyət veririk. Biz təklif etdik ki, bu məsələ təxirə salınaraq ətraflıca və məsul surətdə müzakirə edək. Çünki biz fraksiyamızda bu məsələyi geniş surətdə müzakirə etməmişik. Ancaq bizim təklifimiz qəbul olunmadı. Ona görə də bu məsələnin nə müzakirəsində lazım bildigimiz kibi iştirak edəcəgiz. Səsə qoysanız səs verəcəgiz.

*(Yenə var)*

***"Azərbaycan", 28 avqust 1919, №262***

İrsal – göndərmə, yollama

Müzahirət – yardım, müavinət

## ƏRAZİ MƏSƏLƏSINDƏKİ MÜVƏFFƏQİYYƏTİMİZ

Lənkəran düşmənlərdən təmizləndi.

Muğana çəkilən xaxollar Azərbaycan ordusunun vürudi üzərinə silahlarını təslim etməgə başladılar.

Qarabağ erməniləri Azərbaycan hakimiyyətinə boyun qoydular.

Naxçıvan, Şərur və Dərələgöz qəzaları həqsiz olaraq kəndisinə təhəkküm etmək istəyən erməni soldatlarını məmləkətdən çıxartdılar.

İşdə mətbuatı-milliyyənin son həftələr içərisində nəşr etməkdə olduğu mühüm xəbərlər silsiləsi.

Azərbaycan Cümhuriyyətinin ərazi məsələsindəki maəql tələbatı ilə aşina olanlar bu xəbərləri oxurkən hökuməti-hazirənin müvəffəqiyyətini təslim məcburiyyətində qalacaqlardır.

Deməк olur ki, kabinə proqramının bu fəsli haman-haman tətbiq edilmişdir.

Bu nöqteyi-nəzərdən bundan doqquz ay əvvəlki vəziyyətimizlə şimdiki vəziyyətimiz müqayisə edilərsə görünür ki, bir çox bədbinlərin təsəvvürü ilə imdiki böyük bir müvəffəqiyyət Azərbaycan xəlqinin nəsibi olmuşdur.

Doqquz ay bundan müqəddəm ümumi vəziyyəti-siyasiyyənin dəgişməsi ilə ingilislərin Azərbaycana qədəm qoyduqları zaman bütün mövcudiyyətimiz təhlükədə təsəvvür oluyor, daxilən dəxi Qarabağ, Lənkəran, Borçalı kibi vətənin ayrılmaz parçaları bizi tanımayan yabançı əllərdə bulunuyordu. Naxçıvan, Şərur və Dərələgöz qəzaları ilə Sürməli və sair bu kibi Azərbaycan əhalisi ilə məskun olan vilayətlərimizin

müqəddəratı dəxi mərkəzdən uzaq olmaları həsbilə olduqca qaranlıq bir şəkildə idi.

Bu gün ingilisləri dostanə bir şəkildə yola saldıqda ərazi məsələmizin də daha müvafiq bir şəkildə həll edilmiş olduğunu görüyoruz. Təbii fövqdə zikr olunan məsələlərdən başqa ərazi proqramına daxil olub bir an əvvəl həllini tələb edən Zəngəzur məsələsi ilə Borçalı məsələləri vardır.

Fəqət bunlardan birincisi yaxın bir zamanda həll olunacağı kibi o birisi də müttəfiqlərimiz Gürcüstan ilə sülhən həll oluna biləcək bir hala qoyulmuşdur. Hər halda bu məsələ bizi kəndisi ilə bərabər daha mühüm bir təhlükeyi-ümumiyyə qarşısında bulunduğumuz və bu təhlükənin rəfi üçün silah arkadaşı olduğumuz Gürcüstan ilə pozuşduracaq mahiyyətdə degildir.

Şu surətlə Nəsib bəy kabinəsi başlıca məqsədləri içərisində ən mühimini təşkil edən ərazi məsələsini əsasən həll etmiş kibidir.

Şimdi ərazi məsələsi degil, Azərbaycan üçün hüdudunu təyin və təmin etmək məsələsi qalıyor ki, bu bir tərəfdən zamanə, digər tərəfdən tədabili-siyasiyyəyə və ələlümum da qüvayi-əskəriyyəyə bağlı bir məsələdir.

Təbiidir ki, kabinəsinin digər xüsusatı-idarədəki gördüklərini bir tərəfə qoyub yalnız bu xüsusdakı tətbiqatını alırsaq kəndisini təyin ilə iki məqsədlərinin yüzdə əllisində müvəffəq olduğuna hökm etmək məcburiyyətindəyik.

Kabinənin bu xüsusdakı müvəffəqiyyəti heç şübhəsiz ki, əskəri təşkilatımızda göstərilən fəaliyyətlə müvəffəqiyyətə bağlıdır.

Bundan dörd ay əvvəl əskərlərimizdə fərarilik vardı. Xəlq lazım olduğu həvəslə əskər vermiyordu. Təşkilati-əskəriyyəmizdə nöqsan vardı. Bilxassə xəstəlik əskərləri qorxuduyordu. Əskərlər iaşələrindən şikayət ediyorlardı.

İştə o zaman Azərbaycan Cümhuriyyətinin təlimati-mülkiyyəsi də təmin edilmiş degildi. Şimdi tamamiyyəti-mülkiyyəmiz felən təmin edilməgə mütənasib olaraq qüvayi-əskəriyyəmizin kəmiyyət və keyfiyyətini nəzəri-etinaya və mühakiməyə alırsaq görüyoruz ki, bu iki hal arasında bir növ münasibət vardır.

Ordumuz əlhəmdülillah sağlam, fərarimiz yox kibi, xəstəliklər yox, məmləkətin nöqteyi-mühimmisində ümidli olaylar duruyor. Lənkəran, Qarabağ, Naxçıvan təslim oluyor.

Bu gün deyə biləriz ki, qismi-küllisində təmin edilmiş olan Azərbaycan ərazisi üzərində yaşayan türk xəlqində getdikcə möhkəmləşən fikri-istiqlal və fədakarı nəticəsində cümhuriyyətimiz daxili əngəllərdən təmin edilmişdir.

Bu gün bütün xəlqimizi, hər bir vətəndaşı əndişədar edəcək bir məsələ varsa, o da Şimaldakı qüvvənin təhdididir. Fəqət daxildəki məsələmiz həll olunduğu bir zamanda bu kibi təhlükələr istiqlalını göz bəbəyi kibi qorumağa and içmiş olan bir millət üçün qorxulu olamaz.

Yetişər ki, hökumət idarəsi ilə əlaqədar olan bəzi siyasi məhfillərimiz ümuri-idarədəki əsaslı müvəffəqiyyətləri gözdən uzaq buraxıb da əksərən prinsipdən ziyadə bir takım şəxsi təmayülatə qapılıb siyasət oyunu çıxartmasınlar.

Bitərəf xəlq əlbəttə görüyor ki, bu qədər dedi-qodularla bərabər hökumət tutduğu yol ilə ciddiyyətlə gediyor və digər məsail arasında pək haqli olaraq məsələnin canını təşkil edən xarici siyasətlə ərazi məsələlərində gündən-günə müvəffəqiyyətlərə nail oluyor. Böylə iki yeni böhranlar törətməgə mətlub olan "tənqid"lərin cavabı nə olduğunu əfkari-ümumiyyə kəndisi verər.

***"Azərbaycan", 28 avqust 1919, №262***

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 18 AVQUST İCLASI
(mabəd)

**Ağabəyov** – Sosialistlər şikayət ediyorlar ki, layiheyi-qanuniyyə ilə aşina ola bilməmişlərdir. Halbuki bu layihə iki aydır ki, maliyyə-büdcə komissiyasında yatıyor və ümumi iclasa qoyulmaq növbəsi gözlüyor. Bu müddətdə sosialistlər ona ətraflıca aşina ola bilərlərdi. Daha bundan artıq gözləmək olmaz.

Hökumətə lazımdır dövlət bankı açsın, daha onun əllərini bağlamaq olmaz. Bundan əlavə Ağamalı oğlu bankda sui-istifadəyə məhəl buraxa biləcək nöqtələr olduğunu göstəriyor. Doğrudur, 1886 tarixinədək bunklarda sui-istemallara geniş imkan vardı. Lakin səhmdarlıq qanunu verildikdən sonra intiba verilmişdir və imdi cəsarətlə deyə bilərəm ki, sui-istifadəyə məhəl yoxdur. Bir də Ağamalı oğlu etiraz etdikdə diyor ki, bu banklardan ancaq dövlətlilər istifadə edə biləcəklərdir. Amma əgər diqqət ilə baxmış olsaydı görərdi ki, kəndlilərə, əkinçilər üçün də orada geniş istifadə yeri var. Çünki kəndlilər üçün xırda borc açılıyor. Bundan da məhz füqəra sinfi istifadə edəcəkdir. Bankı idarə edəcək şuraya gəlincə bən və büdcə komissiyası bu rəydə olduq ki, şuraya kooperatsiyalar və təsis olunan Zemstvoların da nümayəndələri cəlb olunmalıdırlar. Ağa Aşurovun verdigi suala isə nəzarət cavab verməlidir. Onun da nümayəndəsi burada yoxdur. Komissiyada bu xüsusda məlumat yoxdur.

10 dəqiqə tənəffüs elan ediliyor.

## Tənəffüsdən sonra

Sədr elan ediyor ki, tənəffüs vəqti layiheyi-qanuniyyənin ikinci qiraətinin təxirə salınması təklif edilmişdir.

**Qarabəyli Qara bəy** – ("İttihad") Bu təklifi bizim fraksiyamız etmişdir. Səbəbi də budur ki, layihə fraksiyalarda müfəssələn müzakirə edilməmişdir. Bir də dövlət bankı açılması bir çox örtülü məsələlərlə əlaqədardır ki, onları da açmaq lazımdır. Bu bank sabiq rus dövlət bankının varisidir və sabiq bank ilə bir çox məsələlərlə, xüsusən rus bankının borcu məsələsində əlaqədardır. Bu gün maliyyə nəzarətinin nümayəndəsi burada olaraq bütün bu məsələlərə cavab verməli idi. Fəqət bu qədər. Ona görə təklif ediyoruz ikinci qiraət təxir edilsin, tainki nazir gəlib bəyanat versin.

Əksəriyyəti-ara ilə təklif qəbul olunur.

Növbədən xaric Qarayevə söz veriliyor.

**Qarayev** – ("Hümmət") Mənim növbədən xaric bəyanat üçün söz almağıma bais hökumətə məxsus "Ayzenşmid" emalatxanasında davam edən tətil ilə əlaqədar olaraq fəhlələrin fəna bir halda olmalarıdır. Tətil 16 gündür davam ediyor. Fəhlələr 18 gündür acdırlar. Fəqət həqli tələblərinin qəbulu uğrunda heç təşəbbüs edilməmişdir. Orada işlər çox qarışıqdır. Fəhlələrin bəziləri maaşlarını Moskva dekreti əsasilə, digərləri isə məsai nəzarətinin sonda kredi əsasilə alıyorlar. Ayzenşmid emalatxanası dəmiryolu müdiriyyəti təhti-idarəsində də haman müdiriyyət orada bir növ ayrıca bir idarə əmələ gətirmişdir ki, məsai nəzarətinin ixtiyarı çatmıyor. Əhval artıq böylə davam edəmməz. Bilxassə ki, əgər böylə şeylər xüsusi müəssisələrdə olseydi yenə də adam bəlkə səbr və təhəmmül edərdi. Amma hökumətə məxsus emalatxanələrdə böylə şeylərə əsla təhəmmül ediləməz.

Bundan sonra keçən iclasda sosialistlərin xariciyyə nəzarətinə vermiş olduqları suala keçiliyor.

Hökumət naminə xariciyyə naziri həzrətləri cavab veriyorlar. (Cavab qabaqkı nömrəmizdə dərc edilmişdi).

**Əhməd Cövdət** – (Sosialist) Biz sualımızda beş mühüm məsələ qaldırmışdıq və gözlüyorduq ki, hökumət bu məsələlərin həpsinə kafi və şafi cavab verəcəkdir. Fəqət xariciyyə naziri bizə bir çox əmrlərdən bəhs etdi ki, onsuz da həpsini biliyorduq. Amma yeni bir söz söyləmədi. Biz bu sualı verərkən istiyorduq ki, hökumət bu məsələlər həqqində nə kibi tədbirlər görmüşdür, yainki görmək fikrindədir. Lakin o şeyləri ki, bilmək və eşitmək istiyorduq əsla eşitmədik. Ona görə də xariciyyə nazirinin cavabı bizim üçün kafi degildir. Məclisi-Məbusan nizamnaməsinin müəyyən bir maddəsi əsasilə sualımızı sorğuya mübəddəl edərək yaxın iclaslardan birisində məsaili-yövmiyyəyə daxil edilməsini təvəqqe ediyoruz.

İclas bununla qapanıyor.

*"Azərbaycan", 29 avqust 1919, № 263*

Məhəl – yer

Şafi – qənaətləndirici

## 21 AVQUST İCLASI

**Sədr**: Qənizadə Sultan Məcid

**Katib**: Hacınski Mehdi bəy

**Sədr**: İclası açıb məsaili-yövmiyyəyi elan ediyor və diyor ki, Şamaxı ermənilərinin Bakıdakı həmvilayətlər ittifaqı Parlamana müraciətlə Şamaxı ermənilərinə bir yer verilməsini rica etmişlər və məbusluğa Naçarovu namizəd göstərmişlərdir. Divani-Rəyasət bunu müzakirə edərək rəddini təhti-qərarə almışdır. Çünki qanuna görə buna izn veriləməz. Erməni Milli Şurası tərəfindən seçilən məbuslar da Şamaxı ermənilərinin də nümayəndəsidirlər.

### Darülfünun

Növbədə Azərbaycan Darülfünunu açılması həqqindəki qanun layihəsidir. Məruzəçi Hacınski Mehdi bəy.

**Hacınski** – ("Müsavat") Məlumunuzdur ki, Bakıda darülfünun açmaq məsələsi ətrafında çox müzakirə, mübahisə və gurultular olmuşdur. Gərək Parlaman dairəsində və gərəksə camaat idarələrində iki cərəyan çıxmışdır. Birisi darülfünun açılmasının lehinə, digəri əleyhinədir.

Bakıda Azərbaycan darülfünunu açmaq məsələsi hökumət təşəbbüslərindən olub məşhur professor Razumovskinin sədarətilə bir darülfünun komissiyası təşkil edildi və bu məsələ üstündə çalışmaq ona tapşırıldı. Məzkur komissiya məsələyi ətraflı müzakirə edərək bir layihə tərtib vermişdir. Haman layihədəki Məclisi-Məbusanın ləvayehi-qanuniyyə

komissiyasında baxılaraq şimdi heyəti-ümumiyyə iclasına təqdim ediliyor.

Layihə komissiyada müzakirə edilərkən hələ fraksiyalarda baxılmamışdı. Ona görə də əksəriyyən şəxsi rəylər veriliyordu. Fəqət bununla bərabər orada da iki cərəyan əmələ gəldi. Darülfünun açılması tərəfdarları bu layihədə darülfünunun lüzumu həqqində göstərilən dəlillərə tamamilə iştirak ediyorlardı. Əleyhdarlar isə bunun bir türk darülfünununu olmadığını qeydlə açılması əleyhinə bir çox dəlillər gətiriyorlardı və ümdə olaraq göstəriyorlardı ki, hələ darülfünun açılmaq vəqti yetişməmişdir. "Əhrar" firqəsi dəxi bu rəydə idi. Bir çox mübahisə və müzakirə nəticəsində ümum fraksiyalar etilafa gəldilər və açılmağı qərarlaşdırdılar. Yalnız "Əhrar" firqəsi əvvəlki rəyində baqi qaldı. Bundan əlavə fraksiyalarda dəxi bu məsələnin müzakirəsi əsnasında iki cərəyan əmələ gəlib qızğın mübahisələr çıxdı. Fəqət orada dəxi tərəfdarlar üstün gəldilər. Məlumunuzdur ki, qəzetələrdə dəxi bu xüsusda cərəyanlar rəylərini bildirdilər. Ona görədir ki, ləhinə və əleyhinə verilmiş olan rəylər və dəlillərdən müfəssələn bəhs etməyəcəyəm. Bən ancaq bu layiheyi-qanuniyyə ilə bərabər təqdim edilmiş olan izahatnamədə göstərilən dəlillərdən bəhs edəcəyəm ki, haman dəlillər də hökuməti bu il tədris sənəsi ibtidasından etibarən darülfünun açılması lüzumuna qane etmişdir.

Onlar əvvəla bunu göstəriyorlar ki, Şərqi Qafqasiya, yəni Azərbaycanda və həmcüvar yerlərdə çoxdan bəri darülfünuna və dolayısı ilə nahiyyəyi mədəniyyətdən həyatın bütün xüsusatına aid mədəni qüvvələrdən təmin etmək üçün kəndinə məxsus bir darülfünuna ehtiyacı hiss olunur. Bu barədə Bakıda bütün müəssisələrilə bərabər darülfünunu sığışdıracaq abad evlər, binalar olmasının da əhəmiyyəti az degildir. Böylə binalardan birisi ticarət məktəbi və onun labaratoriya

və sair qismləridir. Birisi də birinci gimnaziyadır ki, darülfünun klinikaları orada yerləşdirilə bilər. Bundan maəda ali tibb məktəbində klinika tədrisatı üçün xəstəxanə materialları da lazımdır ki, bu xüsusda Mixaylovski Çornıqorod və sairləri kibi xəstəxanələr böyük xidmət edə bilərlər.

Komissiya mümkün olan qədər xərci azaltmaya çalışaraq ancaq müvəqqəti heyət göstərmiş və birinci sənənin smetasını təqdim etmişdir. Bu qərar ilə ki, sonra xəzinənin mədaxili artdıqca dövlət mədəniyyət tələbinə müvafiq surətdə darülfünun tovsi və təkmil edilsin.

Təqdim edilmiş olan layihədə bir neçə il darülfünun heyəti güşadının faidəsi, idarə təşkili və lazım gələn məxarici təyin və qət istiyor. Layihə ilə bərabər darülfünunun nizamnaməsi, heyət siyahısı və 1919/1920-ci ilin məxaric smetası dəxi təqdim edilmişdir. Bu layihədə ancaq o məsələlər qeyd edilmişlərdir ki, onlarsız darülfünun açılıb davam edəmməz. Nizamnamədə ancaq darülfünunun və ali məktəb mədrəsələrinin hüquq və imtiyazlarından bəhs edən və sair nəzarətlərə əsla dəxli olmayan maddələr qeyd edilmişdir. Bir çox sair məsələlər var ki, onlar son həll ediləcəklərdir.

Məclisi-Məbusanın ləvayehi-qanuniyyə komissiyası bu layihəyi təmamilə qəbul edərək ancaq 30-cu maddəsində bəzi şeyləri dəyişmişdir. Şimdi də layiheyi-qanuniyyəyi Parlamanın heyəti-ümumiyyəsinə təqdimlə ümidvar oluyor ki, Məclisi-Məbusan Azərbaycanda dövləti darülfünun açılmasının əleyhində olmaz.

*(Yenə var)*

***"Azərbaycan", 29 avqust 1919, №263***

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 21 AVQUST İCLASI

(mabəd)

**Keşiş Kravçenkov** – (Slav-rus) Məclisi-Məbusanın Slav-rus fraksiyası Azərbaycanın iqtisadi tərəqqisi və camaatin maddi rifahını nəzərə alaraq həmişə Azərbaycan üçün lazım olduğunu bəyan ediyor. Bakıda darülfünun açmaq məsələsi hər daim bizi də məşğul etmişdir. Fəqət biz onu məmləkətin zinəti hesab edərək diyorduq birinci növbədə ali ziraət və sənaye məktəbləri açılsın. Darülfünun isə ikinci növbədə dursun. Bakıda rus qüvveyi-elmiyyələri köməgi ilə darülfünun açılması ilə sizi təbrik edəriz. Zira bu iş rus mədəniyyətini məmləkətdə daha dərin bir surətdə möhkəmləşdirər. Darülfünun açılmasını bir də onun üçün təbrik edəriz ki, imanımız kamildir ki, o darülfünun camaət içinə və oradakı zülmətə rus mədəniyyəti və ənənəsi nuru saçar. Bu məsələ komissiyyada müzakirə edilərkən çox danışıqlar oldu. Qəzetələrdə də çox yazıldı. Fəqət rus mədəniyyəti mənbəi yaratmaq fikri üstün gəldi. Hal-hazırda tarix və ədəbiyyat məktəbi açıla bilməsi və davam edəcəgi Bakıda professor yoxluğundan bir növ şübhə altında isə, ali tibbiyyə açılmasına heç şübhə və tərəddüd olmaz. Əgər rus darülfünunlarında təhsil görüb rus elm və mədəniyyətinin qüvvəsini dərk etmiş və onun bayrağını uca tuta biləcək olan qüvvələr cəlb edilsə

Darülfünun komissiyasında möhtərəm Razumovskidən başqa məşhur adlar yox isə də, lakin darülfünun açmaq ideyasının əhəmiyyəti bizi vadar ediyor inanaq ki, cavan Azərbaycan darülfünunu rus ülum və fününuna dara və bu

mənbədən çıxacaq elmiyyə əxz edəcək olanların qəlbində rus mədəniyyətinə qarşı məhəbbət odu yandıra biləcək bir çox adamlar görəcəkdir. Doğrudur, elm beynəlmiləldir. (səslər: "doğrudur!") Fəqət darülfünuna rus professorları cəlb edilməsi bizi ruhən şad ediyor ki, Bakıda tezlik ilə darülfünun açıla biləcək və rus elmi, rus mədəniyyəti qalib olacaqdır. (Gülüş, səslər, anlaşılmaz sözlər – səs-küy) Parlaman əzalarının müttəhidülrəy olaraq darülfünun açmayı lazım gördüklərini təbriklə biz sizinlə bərabər onun açılmasına və davamına səs verəcəgiz. Bakıda darülfünun açmaq həqqindəki qərarınız tezlik ilə bütün dünyaya və bütün Rusiyaya məlum olacaq və inanıyoruz ki, çox elmi qüvvələr tapılacaq ki, cavan Azərbaycanın səsinə səs verib öz elm və təcrübələrini ona təxsis edəcəklərdir.

**Qarabəyli** – ("İttihad") Darülfünun açmaq məsələsinə çox diqqət və əhəmiyyət vermək lazımdır. Bir çox məsələlər var ki, ətraflıca bütün cüziyyatı ilə müfəssəl surətdə təhlil və müzakirə etmək lazımdır. Ona görə biz layihəyə təcili surətdə baxılmasına etiraz ediyoruz.

Azərbaycanda darülfünun açılması əleyhinə əsasən etiraz edən olmamışdır, yoxdur, ola da bilməz. Məsələ burasındadır ki, onu necə açmalıdır, kim açacaq və necə olacaqdır. Ona bol məbləğlər sərf olunacaqdır. Görək necə sərf olunur? Bu məsələlər hələ aydınlaşmamışdır. Ona görədir ki, təklif ediyoruz bu layihəyə təcili surətdə baxılmayıb komissiya və fraksiyalara qaytarılsın.

**Sədr** səsə qoyaraq diyor ki, layiheyi-qanuniyyənin müzakirəsi təxirə salınıyor.

**Rəsulzadə Məhəmməd Əmin** – ("Müsavat") Bən belə biliyoram ki, "İttihad"ın təklifi yaxşı anlaşılamamışdır. Onlar təcili surətdə baxılmasının əleyhinə oldular.

Fəqət bu o deməkdegil ki, məsələ növbədən götürülərək təxir edilsin. Bən təklif edərdim ki, layiheyi-qanuniyyəyi bu gün qeyri-təcili surətdə müzakirə edək. Nizamnaməyə görə üçüncü qiraətini gələn iclaslara qalmalı olacaqdır. O vəqtədək "İttihad" fraksiyası istədigi kibi təhlil və müzakirə edər.

Səsə qoyularaq əksəriyyəti-ara ilə layihənin qeyri-təcili surətdə müzakirə edilməsi təhti-qərarə alınır.

**Rəsulzadə M.Ə.** – Azərbaycanda darülfünun açılması barəsində iki rəy var. Bu məsələyə müariz çıxanlar dəlil gətiriyorlar ki, bu saət bizim özümüzün darülfünun açmaq üçün lazım olan miqdarda elmi qüvvəmiz və mütəxəssislərimiz yoxdur. Halbuki darülfünun açmaq hökumətin fikri olmalı idi. Necə ki, böylə olduğunu ibraz və bütün maneələri rəf etdi. Bu məsələnin ən mühüm cəhəti professor heyətidir ki, onun da əsası hazırdır. Yaxşı olardı ki, bu elm və mədəniyyət mənbəi türkcə olaydı. Fəqət hələlik bu mümkün degildir. Fəqət bu maneədə heç vəqt və heç kəsi özgə dildə də olsa darülfünun açmaqdan daşındırmamışdır, daşındırammaz da. Necə ki, ruslar, yaponlar və sairləri təzə başlayanda öyləcə də etmişlərdir. Bir sual ariz oluyor ki, pəs nə üçün biz rus dilində açıyoruz. Səbəbi məlumdur. Çünki bütün tələbə rusca biliyorlar. Amma başqa öylə bir dil yoxdur ki, ümum tələbələr bilsinlər.

Bir də deyə bilərlər ki, bir az tələbəmiz var, göndərsinlər əcnəbi məmləkətlərə, necə ki, 100 nəfərini Qərbi Avropaya göndərmək haqqində hökumətimiz tərəfindən təşəbbüs edilməkdədir. Lakin bunlarla bərabər məmləkətin daxilində bir elm mənbəi olmalıdır.

Darülfünun oxuduyor. Fəqət ölkəni ögrəniyor, ögrətiyor da. Darülfünun professorları eyni zamanda tədris edəcəkdir, həm də tədqiqatda bulunacaqdır. Bu vasitə ilə də darülfünun ətrafında elmi işlər başlanacaqdır.

Bundan qorxmamalıdır ki, keşiş Kravçenkonun göstərdigi kibi açdığımız rus darülfünunu olacaqdır. Şübhəsiz ki, bir türk məmləkətində türk mühitində darülfünun müəyyən xüsusi bir rəng alacaqdır. Komissiyada bütün Slav-rus fraksiyası namindən darülfünun açılmasına etiraz edən məbuslar şimdi lehinə səs verməgə hazır olduqlarını bildiriyorlar. Kravçenko tez-tez "rus-rus" deməklə bizi qorxudamaz. Özü dedigi kibi elm beynəlmiləl bir şeydir. Biz onu Çində də oxuya bilərik. Azərbaycanda bir çinlidən də oxuyarız. Azərbaycanda darülfünun təmsil rolu oynuyamaz. Hətta köhnə Rusiyada təhsil ilə mübarizə edənlər darülfünunlarda yetişmişlərdir.

Bundan əlavə məlumunuzdur ki, darülfünun açılan gündən etibarən milliləşdirmə binövrəsi qoyuluyor. Darülfünunda türkcə tədris ediləcək və tələbələrimiz türk mühiti içərisində öz millətinə yaxın olacaqlardır.

Bir də deyirlər ki, tarix və ədəbiyyat şöbəsi kibi bəzi ali məktəblər nəşrü-nüma edəməzlər. Həmişə ibtidada böylə olar. Rusiya, Türkiyə və sairlərinin darülfünunları təcrübəsi bunu yaxşı göstərmişdir. Türkiyə darülfünunda imdi də bəzi fənnlər alman və fransız dillərində tədris ediliyor. Elmi hər yerdə, hər dildə oxumaq olar. Ona görədir ki, bizim fraksiyamız tezlik ilə darülfünun açılması tərəfdarıdır. Elmi qüvvələrin azlığından da darıxmamalıdır. Ümidvaram ki, Bartold kibi adamlar Petroqradda əgləşmiyəcək Türkistanda yer qazmayacaqlardır. Onlar türk milləti paytaxtında daha məhsuldar bir surətdə işləyə bilərlər. Bən əminəm ki, böylə elm və fənn həvəsliləri də çox tapılar (Alqış).

*(Yenə var)*

***"Azərbaycan", 31 avqust 1919, №264***

Müariz – etiraz edən, opponent
İbraz – büruzə vermə, aşkara çıxarma

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 21 AVQUST İCLASI
(mabəd)

### Darülfünun məsələsi

**Qarabəyli Qara bəy** – (İttihad) Qabakı natiqlər bizi darülfünun açılmasının əleyhinə danışmağa vadar edənlər nöqsanları göstərdilər. Bən təkrar ərz ediyorum ki, bizim etirazlarımız əsas etibarilə darülfünun açılması əleyhinə degildirlər. Əsas etibarilə heç kəs darülfünun açılmasının əleyhində degildir. Çünki məarif işlərinə qapılarımızı geniş açmalı, ona geniş meydan verməliyiz. Bu doğru, fəqət söz burasındadır ki, bu darülfünun köhnə nizamnamə və proqramlar əsası üzərinə quruluyor. Həm də o adamların əli ilə açılıyor ki, bizim cəmaətimizi və məmləkətimizi yaxından tanımıyorlar və onun xüsusiyyatına hələ bələd olmamışlardır. Ona görədir ki, biz diyoruz qanun layihəsinə yenidən baxmaq və bizim bu işdə daha yaxından ciddi iştirakımız lazımdır. Darülfünunumuzun təşkili və təsisində biz özümüz iştirak etməliyiz və bunu etməgə qüvvəmiz, istedadımız vardır da qoy bunu keşiş Krafçenkov yadında saxlasın və onu da bilsin ki, onun bu günki nitqi rus elmi və rus mədəniyyətinə təhqirdən başqa bir mənfəət vermədi.

Bir də biz gərək məsələnin texnika cəhətinə artıq diqqət verək. Bunu da müzakirə edək ki, hal-hazırda nə açə biləriz və nə açə bilməriz. Diyorlar ki, darülfünunu ancaq orta məktəbləri tamamilə milliləşdikdən sonra açmalıdır. Bu da 5-6 il çəkər. Fəqət nə qədər çəkir-çəksin və nə vəqt açılıyor-

açılsın bən təkrar ediyoram ki, bu saət hələ darülfünun açmaq tezdir və layihəyi yenidən nəzərdən keçirmək üçün komisyona qaytarmalıdır.

## Maarif nazirinin nitqi

Nəhayət maarif naziri **Rəşid xan Kaplanov** həzrətləri söz alaraq böylə bir nitq irad ediyor:

Lüzumi ümumiyyətlə etiraf edilməkdə olan bu məsələ ibtida heç bir şübhəyə belə mucib olmadığı halda darülfünun açılması məsələsinin layihədən həyatə keçirilməsinə şüru edildigində gərək siyasi və ictimai dairələrdə və gərəksə mətbuat səhifəhlərində qızğın mübahisələr doğurdu. Darülfünun açılması məsələsi ətrafında böylə gurultular çıxarılmasına təəssüf etməmək qabil degil. Fəqət bu mübahisələrin bir müsbət nəticəsi oldu ki, məsələnin ətraflıca tənvir olunmasına səbəb oldu. Darülfünun lehinə nə ki, demək lazım idi degildi və bən daha bir şey artıracaq degiləm. Xüsusən Məhəmməd Əmin ilə cənab Vanseviçin nitqlərindən sonra daha deyəcək bir söz qalmadı. Əgər bir məsələ olmasaydı bən ancaq degilənlərin bəzi yerlərini təyid və təkid edərdim. Ancaq bir şey var ki, deyirlər əsas etibarilə darülfünunun əleyhində olan yoxdur. Amma söz burasında degil. Məlumdur ki, nəinki Parlaman daxilində, hətta kənarda da öylə bir adam tapılmaz ki, cəsarət edib desin ki, bən darülfünun istəmiyoram, bən elm, maarif istəmiyoram. Və hazırda qarşımızda bulunan bu əsas məsələ degil, **mühüm bir praktik məsələdir.** Bu il təsdiqinizə ərz olunmuş əsaslar üzərinə darülfünun açaqmı ya yox? Təfsilat və təfərrüatı isə təğyiri-təbdil edilə bilər. Və burada hər tərəfdən edilən təkliflər iki nəticə verə bilərlər: ya uzun bir müddət darülfünun məsələsini dəfn etmək, yainki

daha geniş dairədə tanış olub müfəssələn müzakirə etmək bəhanəsilə işi öylə təxirə salmaq ki, heç olmasza bu il darülfünun açmaq mümkün olmasın. Bilxassə ki, onsuz da çox vəqt itirilmişdir. İştə bən var qüvvəmlə həmin bunun müqabilinə etiraz etmək istiyoram. Zira darülfünun bir an əvvəl açılması millətin iqbal və istiqbalına aid bir çox mühüm məqsəd və məramlarına mərbutdur. Aydın və aşkardır ki, darülfünun açılması məsələsi bəzilərinin zənn etdigi kibi işsiz qalmış professorlar ilə Tiflis darülfünunu tələbələrinə yer vermək niyyətindən nəşət etmiyor. Zira Azərbaycan siyasiyunu içində öylə bir adam tapılmaz ki, Azərbaycan xəzinəsi zərərinə bunca əhli-xeyratlıq cəsarətində bulunsun. Eyni zamanda elm və fünuna xidmət kibi fəlsəfə dəxi bizi böylə mühüm iqdamatə vadar edəmməzdi. Şayani-ehtiram mədəni ləqəbi qazanmaq arzusunda olan hər bir millət üçün bəşəriyyətin ülum və fünun xəzinəsini zənginləşdirmək üçün var qüvvəsilə hər cəhətdən çalışmaq müqəddəs bir vəzifə olduğunu etirafla Azərbaycan içərisində bulunduğu ağır şəraitdən dolayı müvəqqəti olaraq bu vəzifənin ifasından vaz keçmək həqqinə malikdir. Bir çoxları böylə güman ediyorlar ki, darülfünun açılması Azərbaycanı nəzərlərdə yüksəldər və istiqlalımızın qəbul və təsdiqi məsələsinin hüsni-həllinə kömək edə bilər. Bən isəm heç vəqt bu surətlə sırf nümayişkaranə məqsədlə darülfünun açılmasına razı olmazdım. Zira böylə olan surətdə aydındır ki, milyonlar sərf edər, fəqət darülfünun əmələ gətirməgə müvəffəq olmazdıq.

Abdulla bəy göstəriyor ki, darülfünun bizə ən artıq möhtac olduğumuz müəllimləri yetişdirə bilər. Bu doğrudur. Fəqət biz darülfünunu bunun üçün açmıyoruz. Zira əgər məqsədimiz ancaq bu olsaydı ali müəllimlər institutunu açardıq. Nəhayət, əgər darülfünun açdıqda biz şəraiti-hazirədən dolayı təhsilini

davam etdirə bilməmiş qalan bir miqdar cavanların mənafeini nəzərə alsaq – bu da dürüst olmaz. Əlbəttə bu mənafe çox böyük və mühümdür. Fəqət məsələni doğru və dürüst həll etmək istiyorsaq başda onu qoymaq olmaz.

Biz Azərbaycan darülfünunu açılmasında israr edərkən ancaq Azərbaycan dövləti və türk mədəniyyəti-milliyyəsi mənafei nöqteyi-nəzərindən ediyoruz. Müstəqil bir millət kibi yaşamaq üçün elani-istiqlal etmək kafi degildir. Həqiqətən müstəqil yaşaya bilmək və mədəni millətlər ailəsində müəyyən bir mövqe tuta bilmək üçün öylə möhkəm bir binövrə (özül) qoymaq lazımdır ki, onun üzərində millətimiz dühayi-milliyyəsini, istedadi-xəllaqiyəsi, xüsusiyyatını ibraz edə bilsin və bununla da kəndi istiqlalını gələcək imtəhanlardan təmin etmiş olsun. Zira bənligini dərk etmiş bir millət üçün heç bir imtəhan qorxunc degildir.

Böylə əsası möhkəm bir binövrəyi də ancaq müstəqil bir mərkəzi-elm və fənn təşkil edə bilər ki, məmləkətin həyati-ruhaniyyə və əqliyyəsini tərvic və idarə edər və öylə bir mərkəz təşkil edər ki, millətin bütün həyati-siyasiyyə və ictimaiyyəsi onun ətrafına toplanmış olar. Öylə həqiqətlər var ki, onun müqabilinə əsla etiraz olamaz. Və heç mövcibi-bəhs olmaz. Böylə həqiqətlər haman bunca vazeh və qeyri-mövcib olduqları üçün unudularlar da. Hamı etiraf və təkrar ediyor ki, əsrimizdəki mədəni məmləkətlərin bütün güc və qüvvəsi elm və fənnin tərəqqisi üzərində əsaslanıyor. Fəqət çox vəqt oluyor ki, elm ilə onun tətbiqi məhsulunu qarışdırıyorlar, müdhiş vapurlara, böyük fabrika və zavodlara çox diqqət veriyorlar. Amma burasını unuduyorlar ki, bunların həpsi kabinə və laboratoriya guşələrində alimlərin kəşf etdikləri həqayiqi-elmiyyə məhsulundan başqa bir şey degildir. Şimdicə burada

eşitdiniz ki, bir çoxları diyorlardı bizə darülfünun lazım degil, xüsusi məktəblər lazımdır.

Əvət doğrudur. Əgər Azərbaycan başqa bir dövlətin bir əyaləti, bir vilayəti isə onda bizə lazımdır xüsusi məktəblər açaq, mütəxəssislər yetişdirək. Çünki o halda həyatımızın əsas məsələləri ayrı mərkəzlərdə, bizsiz həll və fəsl ediləcəkdir. Yox əgər biz müstəqil bir dövlət isək, əgər pozğun, qarışıq bir kütlə kibi degil, bəşəriyyətin ümumi mədəni həyatında layiqli bir rol oynayan müntəzəm, mütəşəkkil bir millət olaraq yaşamaya əzm etmişsək, o halda milli cəddimizin ruhunu təşkil edəcək bir mərkəzi-ülum yaratmaq lüzumunu dərk etməyə bilməriz.

Ancaq böylə bir mərkəzdir ki, biz başqaları qul kibi yamsılayan sənətkarlar degil kəndi millətinə kəndi milli mədəniyyətinə qarşı ürəgi dərin məhəbbətlə dolu olan öylə qüvvəyi əqllər yetirək ki, qüvveyi-elmiyyə ilə müsəlləh olaraq həyatımızın məsaili-əsasiyyələri barəsində tənimat icrasilə saiqəmizi pərdələyən örtüyü qaldırar xəlq özü ruhunun qəzasını təyin edər və hüsuli üçün düz yollar göstərərlər.

İştə darülfünun açmaqla təqib etdigimiz əsas məqsəd haman böylə elmi qüvvələri və fənni mərkəz təsis və hasil etməkdir. Ancaq budur ki, bizə həqiqi müstəqil həyat ilə yaşamağa imkan verər və milli mədəniyyətimizi möhkəm əsas üstündə qoyar. Şübhəsizdir ki, bunun üçün tamamilə milli xüsusata havi bir mərkəzi-fənniyə yaratmalıdır. Darülfünun tədris və tənimati-fənniyyə üçün dühayi-milliyyə xüsusiyyati ilə ahəngdar şərait təmin etmək mənası ilə milli ola bilər və ola bilməlidir. Fəqət mütəəssifanə lazım olan miqdarda elmi qüvvəmiz bulunmadığından yaxın sənələr zərfində böylə milli darülfünun təsis etmək iqtidarına malik degiliz. Bən zənn ediyoram ki, nəinki yalnız Azərbaycan bəlkə bütün türk aləmində mövcud qüvveyi-elmiyyələr bu adı daşımaya

layiq bir darülfünun açmaq üçün kifayət etsin. Fəqət o qədər qüvveyi-elmiyyəmiz olsa belə, məktəbi-aliyyədə mühazirələri türkcə anlamaq istedadına malik tələbələrimiz yoxdur. Heç kəsdən gizli degil ki, cavanlarımızın əksəri ana dilini pək zəif biliyor. Bəziləri hal-hazırda milli darülfünun açmaq qeyri-mümkün olduğuna istinadən cavanlarımızın əcnəbi məmalik darülfünunlarına göndərilmələrini tərcih ediyorlar.

Onların zənnincə cavanlarımızı əcnəbi məmləkətlərə göndərmək həm ucuz olar, həm də daha yaxşı nəticələr verə bilər. Çünki əcnəbi darülfünunları hər cəhətdən bizim açmaq istədigimizdən çox mütəşəkkil zəngin və yüksəkdirlər. Halbuki zənnimcə böylə məsələlərdə maliyyat öylə mühüm rol oynamamalıdır. Bilxassə ki, ora ucuzdur demək əsassızdır. Bu yaxınlarda hüzurunuza təqdim ediləcək olan layiheyi-qanuniyyədən görəcəksiniz ki, əcnəbi məmləkətlərə yüz tələbə göndərmək üçün tam bir darülfünun saxlamaq qədər xərc lazım oluyor. Öylə isə təhsili ali görmək arzusunda bulunan ümum cavanları göndərsək nə qədər xərc lazım olar? Doğrudur bizim darülfünunumuz, məsələn, Paris ya Berlin darülfünunu qədər yüksək mövqe işğal etməyəcəkdir. Lakin Avropa darülfünunlarının həpsi o mövqedəmidirlər? Böylə olan surətdə açacağımız darülfünunun birdən-birə ən gözəl əcnəbi darülfünunu mövqeini tuta bilməyəcəgi darülfünun açılması əleyhinə bir dəlil təşkil edə bilərmi?

Ən mühüm mülahizə budur ki, biz əcnəbi məmləkətlərə göndərmək istədigimiz cavanların fəaliyyətinə mənafei-milliyyəmizin tələb etdigi yolda icrayi-təsir edəmmiyəcəgiz. Hər bir tələbə ümumə qarışacaq və onun fəaliyyəti həyatın araya çıxardığı milli vəzaif və məsail ilə əsla əlaqədar olmayacaqdır. Hal-hazırda verilən ərizələrdən bən görüyoram ki, cavanlarımızın həpsi xüsusi məktəblərə meyl göstəriyorlar.

Və bən qorxuyorum ki, işlər böylə gedərsə 5-6 ildən sonra bir neçə yüz mütəxəssisimiz olsun, amma milli darülfünun yaratmaq üçün lazım gələn bir neçə on alim tapılmasın. Bən tələbələrin əcnəbi məmləkətə göndərilməsi əleyhində degiləm. Əks surətdə lazımı layiheyi-qanuniyyə təqdim etməzdim. Çünki burası çox lazımlı və pək mənfəətli tədbirlərdəndir. Amma bu yol bizi milli darülfünuna aparmaz. Onu yaratmaq üçün həqiqi çarə tez zamanda zəngin Avropa dillərindən birisində bir darülfünun açmaqdır. Yaşadığımız şərait altında bu dil isə bizim üçün rus dilidir. Böylə darülfünunun əleyhdarları nə deyəcəksə desinlər, həmin dairələr nə kibi gizli ümidlər bəsləyəcəklərsə bəsləsinlər, heç şübhəsizdir ki, nəhayət intəhayə o darülfünun Azərbaycan dövlətinə və türk mədəniyyətinə xidmət edəcəkdir. Zira həmin darülfünunun fəaliyyəti ayılmış, yaşamaq istəyən, zəngin bir lisana malik, mədəniyyətcə bəşəriyyətin mühüm bir qismilə mərbut olan bir millətin milli arzu və amalı ilə dolmuş bir mühit içərisində cari olacaqdır. Aşkardır ki, bu amal bir məktəbin fəaliyyətində əksəndaz olmaya bilməz. Böylə əlverişli bir mühit daxilində yeni kafedralar əmələ gətirmək tətbiatı-fənniyyə işlərini ən artıq mənfəətdar olduğumuz yollara sövq etdirmək kafedralar işğalına hazırlamaq üçün cavanlar seçmək, türk lisanı tədrisini yaxşı bir şərait altına qoymaq və sairə kibi bir çox tədabir ilə darülfünunumuzu müntəzəmən milliləşdirə biləriz.

Birdən-birə bu vəqtədək yoxluğu böylə şiddətlə hiss olunan bir mərkəzi-irfan əmələ gələr və Bakının hər şeyi cəlb edən ticarət və sənaət həyatının müqabilində durar darülfünunu lazım olan dərəcəyə çıxararaq həyatımızdakı nöqsanı təkmil etmək bizim həmiyyətimizə bağlıdır. Bu surətlə darülfünunun əlaqədar olduğu böyük və mühüm mənafei nəzərə alaraq mövcud olan, gizlədilməsinin mənası olmayan müş-

külat və qurqular qarşısında bir növ hissiyyata qapılmaq əfv edilməz bir xəta olardı. Bu müşkülat professorlar ya tələbələr heyətində degil, başqa bir şeydədir.

Bir çoxları göstəriyorlar ki, professor heyəti istər-istəməz könüllü ordu ətrafına toplanmış mötədil məslək sahibi əşxasdan təşəkkül edəcəkdir. Onun da məqsədi heç də Azərbaycanın istiqlalına müvafiq gəlməz. Fəqət əvvəla nəzərdə tutmalıdır ki, elm və fənn professorun məsləki-siyasiyyəsinə nisbətən dəyişəcək bir şey degildir. Digər tərəfdən şəxsi ehtiramını saxlayan heç bir professor darülfünun kafedrasını siyasiyyət minbərinə mübəddəl edəmməz. Əgər etsə də məhəll aidəsi tərəfindən rəf və dəf olunar. Nəhayət, məgərsə müdhiş qüvvələrə malik və bizi 9-10 yaşında öz əlinə alan çarizmin edə bilmədigi bir işi bir ovuc professor edə biləcəkmidir. Zənnimcə ibraz edilən qurqu sabiq üsuli-idarə dövründə professorların oynamış olduğu rolları ilə əsaslanıyor. Fəqət unuduyorlar ki, o zaman professorlar hökmfərma olan ictimai cərəyanı aydın bir surətdə nümayiş etdiriyorlar idi. İmdi isə Azərbaycanda o şeylər ola bilməz.

Bir də diyorlar ki, tələbələrin əksəri qeyri-türk olacaqdır. Bu il və gələn il üçün bu mülahizə doğrudur. Fəqət bu vəziyyət müvəqqətidir və uzun müddət davam edəmməz. Binaənileyh bu məsələdə həmişə özümüzün mütəzərrər olduğumuz sırf milliyyət hissilə mütəhəssis olmaq yaramaz. Hüriyyət və istiqlaliyyəti bunun üçünmü aldıq ki, həmişə şikayət etdigimiz məhdudatı şimdi özümüz tətbiq edək.

Bizim müşkülat və qorxumuz bunda degildir. Söz burasındadır ki, açacağımız darülfünunu fənn tələbatına müvafiq şərait altında bulundura biləcəgizmi, ya yox. Bir tərəfdən çox təxir etmişiz. Zira layiheyi-qanuniyyəyi darülfünunun güşadı mütəsəvvur olan vəqtdən ancaq on gün qabaq olmaq üzrə hələ

bu gün müzakirə ediyoruz. Digər tərəfdən də ümum iqdamatı müşkülatə salan ümumi qeyri-müvafiq şəraiti nəzərə almalıdır. Bununla bərabər ümid varam ki, darülfünunu bir az təxirlə də olsa həmin il açar və onu həm professor heyəti, həm də sair ləvazim tərəfindən öylə təmin edəriz ki, həqiqətən bir darülfünuna malik olarız. Müşkülat böyükdür. Fəqət rəf və dəf etmək də mümkündür, haman müşkülata istinadən vəzifəmizin ifasından boyun qaçırmağa həqqimiz yoxdur. Bən qanun layihəsini tamamilə müdafiə edərək əmin oluyoram ki, bu iqdam tamamilə bizə dövlət və milli mədəniyyətimizin həyatı ehtiyaclarına müvafiq bir tədbirdir.

Nitqimə xitam verərkən ancaq bunu arzu ediyoram ki:

Biz müsəlmanlar məscidə gedərkən onun müqəddəsliginə ehtiramən ayaqqabılarımızı çıxarıyoruz. Çox istərdim ki, darülfünunu da böylə təqdis edərək ona məbəd kibi baxaydıq və onun xüsusunda düşünərkən həqiqi bir məbədi-ülum yaratmağa xidmətedici mülahizatdan başqa ümum sair fikr və mülahizələri kənarə ataydıq. Çünki darülfünuna bağladığımız ümid və arzulara ancaq bu şərait altında nail olarız.

*"Azərbaycan", 2 sentyabr 1919, №266*

Tənvir – aydınlaşdırma
Təyid – qüvvətləndirmə, təsdiq etmə
Təğyir – dəyişdirmə, pozma
Tənim – nemət vermə
Saiqə – səbəb, sövq etmə
Müzare – oxşar, bənzər

## MÜVƏFFƏQİYYƏTLƏRİMİZ

Bir vəqt vardı ki, cavan dövlətimizin siyasi halı həm xaricən və həm daxilən çox yazıq və hətta gülünc bir halda idi. Bu o zaman idi ki, bir tərəfdən ana vətəndən ayrı qalıb da yabançıların dəstgiri olmuş Lənkəran müsəlmanlarının ah və naləlori qulaqlarımızı deşib, qəlbimizi yandırmaqda, digər tərəfdən Naxçıvan türkləri ümid və arzularından məyus olub xaricilər təhtiəsarətinə keçməkdə, bir tərəfdən də əhalimizi təngə gətirməkdə, məişət və güzəranlarına xələl və zərər yetirməkdə olan Qarabağ məsələsi qeyri-məmul bir surətə düşmək üzrə idi. Bunun üzərinə Şimalın qara və qırmızı təhlükələri əlavə olunmaqdan başqa düşmənlərimizin daxilimizdə törətməkdə olduqları intiriqaları dəxi əhvalı daha da pərişan və çarəsiz bir surətə salmışdı. Buna görə dövlətimizin zimami-idarəsini əlinə tapşırmış olduğumuz hökumətin halı dedikcə ağır, çətin və müşkül idi.

Burasını da qeyd etməlidir ki, o zamanlarda hökumətimiz öz işində tamamilə sərbəst olmayıb xarici bir əl bir çox işlərdə hökumətin qabağını kəsib bir para mühüm tədbirlər icrasına yol vermiyordu.

Nə qədər xuddarlıq, nə qədər müdəbbirlik və nə qədər mənəvi qüvvət sahibi olmaq lazım idi ki, məmləkəti oda atmadan, əhalini bəlalara salmadan və asayışi-ümumini xələldar etmədən bu işkalların hamısını böylə bir ağır şərait içində bir-bir dəf edib məmləkəti bu pərişan haldan çıxartmaq mümkün ola idi!

Görünür, yenicə təşəkkül etmiş olan Azərbaycan türk dövlətinin həm başında duranlarında və həm də əhalisinin özündə böylə ali və qiymətli sifət və məziyyətlər varmış ki, yuxarıda sadaladığımız işkallar onların həmiyyət və məta-

nəti-mərdanəsi qarşısında davam gətirə bilməyib dəf və rəf edilməgə üz qoydu. Bir az vəqt keçdi, bu məsələlər hamısı Azərbaycan türklərinin arzusu mucibincə həll və fəsl edildi.

Bu əhvalatı, yəni böylə çətinliklərin aqilanə və müdəbbiranə bir surətdə dəf edilə bilinməsi fəqərəsini təqdir etməmək qabil degildir. Bu vəqə Azərbaycan türklərinin idareyi-ümuri-dövlət içində böyük bir istedad və qabiliyyət sahibi olduqlarına şafi və kafi bir şahid və qeyri-qabili-inkar bir dəlildir! Məsləkləri bizi həmişə söymək və ləyaqətsizlikdə ittiham etməkdən ibarət olan düşmənlərimiz bizim bu qədər böyük olan siyasi müvəffəqiyyətlərimizə göz yumub guya əhəmiyyət belə vermiyorlər və bu vəqələri heç mənziləsində hesab ediyorlar. Biz isə – öz eyiblərimizi gizlətməgimiz kimi, öz hünərlərimizə də göz yuma bilmərik. Böylə mühüm vəqələri bütün əhəmiyyətilə səbt etmək və tariximizin şanlı səhifələrinə keçirməgə borcluyuq.

Qomşu cümhuriyyətlərimiz böylə məsələləri həll etmək üçün nə qədər qan tökmək və nə qədər can fəda etmək məcburiyyətində olduqlarını, zənn edirəm ki, hələ heç bir kəs unutmamışdır. Azərbaycan isə haman heç bir qurban vermədən və qan tökmədən bu cür müşkül məsələləri müdəbbiranə bir surətdə həll edə bilmək istedadını aşkar etdi.

Ümidvarıq ki, bu əsnalarda içimizdə yaşamaqda və siyasətimizə göz yetirməkdə olan əcnəbilər öz məmləkətlərinə qayıdıb da Azərbaycan və Azərbaycan türkləri həqqində zəlalətə düşürülmüş və sui-təfəhhümlərə qapılmış olan vətəndaşlarına həqiqəti-halı bəyan ilə bizim varlığımızı və varlığa layiq olduğumuzu aşkar edər və Avropanı Azərbaycan türklərinə və təşkil etmiş olduqları cavan cümhuriyyətə xüsusi əhəmiyyət yetirmək və layiqincə diqqət vermək məcburiyyətində qoyarlar.

**Hacıbəyli Üzeyir**

*"Azərbaycan", 2 sentyabr 1919, №266*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 28 AVQUST İCLASI

**Sədr**: Sultan Məcid Qənizadə
**Katib**: Əhməd Cövdət

İclas açılaraq birinci növbədə dövlət bankı təsisi həqqindəki layiheyi-qanuniyyə müzakirə edilərək maliyyə naziri Əliağa Həsənzadə həzrətləri bəyanat veriyorlar. Nəticədə layiheyi-qanuniyyə ikinci qiraətdə qəbul olunur. (Məlum olduğu üzrə bu məsələ 25 avqust tarixli iclasda da müzakirə edilib uzun mübahisəyə mövcib olmuşdu. Həmin mübahisələrlə maliyyə nazirinin bəyanatını gələcək nömrələrimizdə yazacağız.)

Bədə 10 dəqiqə tənəffüs elan edilərək, tənəffüsdən sonra Əhməd Cövdət bəy söz alır və sosialistlər fraksiyası tərəfindən hökumətə verilmiş olan sorğuya cavab verilməsini təklif ediyor və sorğuyu oxuyor:

### Məclisi-Məbusan Rəyasəti-Alisinə

Hökumət rəisinə işbu sorğumuzun əvvəlinci iclasda verilməsini rica ediyoruz.

Bu axır günlər içərisində daxili və xarici bir çox mühüm vaqeələr zühur etmişdir ki, onların dövlətə və cəmaətimizin hüquq və hürriyyətinə çox böyük təsiri ola bilər. Bunların cərgəsindən olaraq:

1 – Bu axır həftələr içərisində Kaspi dənizində ingilislərin təhti-komandanlığında bulunan hərb gəmiləri könüllü ordu komandanlığının ixtiyarına verilmişdir ki, bizim sahilləri-

mizin, xüsusən paytaxtımızın müdafiəsi üçün bunun çox böyük təsiri var.

2 – İngilis əskərləri məlum olduğu üzrə bu ayın ortasından Zaqafqasiyayı tərk ediyor. Bizim üçün əskəri nöqteyinəzərdən əhəmiyyətli olan bir çox tədbirlər ittixazı lazım gəliyor ki, bundan dövlətin tamamiyyəti-mülkiyyəsinə bir xələl gəlməsin.

3 – Zaqafqasiya cümhuriyyətlərini, xüsusən Azərbaycan Cümhuriyyətini Şimaldan gələn imperialist və əksinqilab qara qüvvələrindən mühafizə etmək üçün İngiltərə hökumətindən gələn və rəsmən tərəfinə bildirilən xətti-hərb bizim hökumət tərəfindən qəbul edilmiş idi. Fəqət axır vəqtlər yenə İngiltərə hökuməti haman xətti eşitdigimizə görə tazədən dəgişdirmiş və Petrovsk əvəzinə şimdi Yalama stansionuna qədər endirmişdir. Bu vaqeə əlbəttə ki hərbi xətlərin bir diploması oyun olduğunu və bundan naşı düşmənin səngərimizə yaxınlaşmasına heç bir məmaniət edilmədigini pək gözəl isbat ediyor.

4 – Düşmən dənizdən böyük qüvvə aldığı kibi imdiyə qədər Dağıstanda əhəmiyyətsiz bir qüvvə saxladığı halda imdi artıq Dağıstanda olan qüvvəsini pək çox artırıyor. Sərhəddə də fəaliyyət göstəriyor. Bununla Azərbaycan əleyhinə düşmənin nə fikri olduğunu göstəriyor.

5 – Xaricdən təhlükə böylə artdığı halda daxildə də könüllü ordu nümayəndələri açıqcasına Ekaterinodardan aldıqları dəstürüləməl üzərinə mətbuatda könüllü ordu nəfinə propaqanda yapıyorlar, təşkilatlarını möhkəmləşdiriyorlar, tərəfdarlarını qeyd ediyorlar ki, xaricdəki təhlükəyi nəzərə alanda bunun da nə qədər böyük müşkülat çıxara biləcəgi aydın olsun gərək.

İştə bu göstərdigimiz vaqeələr məmləkətin təmamiyyətimülkiyyəsi və səlaməti üçün və cəmaətin əldə etdigi inqilab qənimətləri üçün nə qədər böyük əhəmiyyəti olduğu aşkar

olduğundan hökumətin bu yolda nə fikr etdigini, nə iş gördügünü və görmək istədigini sual ediyoruz.

Sosialistlər fraksiyası tərəfindən: Əhməd Cövdət.

Sorğuyu oxuduqdan sonra da böylə bir nitq irad ediyor:

**Əhməd Cövdət** ("Hümmət") Əfəndilər! Məlum olduğu üzrə bu sorğu iki həfdə bundan əvvəl məsələ daha qızğın bir surətdə olduğu zaman sual şəklində hökumətə verilmişdi. Biliyorsunuz ki, bu vəqtədək içimizdə olan böyük bir qüvvət axır günlər buradan getmişdi.

Şimdi lazımdır ki, Məclisi-Məbusan və cəmaət öz vəziyyətini bilsin, görsün məmləkət nə haldadır. Bizim də hökumətə sual verməkdən məqsədimiz bu idi. Hələ biz sual verməmiş gərək hökumət özü məmləkətimizin vəziyyəti həqqində Parlamana bəyanat verə idi. Lakin bunu etmədi. Ona görə də biz sual etməgə məcbur olduq. O vəqt xariciyyə naziri bizim sualımıza qarşı bəyanat verdi. Fəqət onun verdigi cavab kafi degildi.

Çünki sualda bir neçə məsələ qaldırılıyordu ki, daxili və xarici işlərimizə aid idi. Daxili işlərə aid olan suallara cavab verməyərək dedi bu xüsusda cavabı daxiliyyə naziri verməlidir.

Əgər o vəqt daxiliyyə naziri cavab versəydi, bəlkə bir fikrə gələrdik. Lakin o da olmadı və xariciyyə nazirinin verdigi cavab kafi və şafi degildi. Çünki bizim suallarımıza cavabən xariciyyə naziri ancaq bunu dedi ki, qabaqda xətti-hərb böylə idi, şimdi böylə olmuşdur: donanmanın bir qismi könüllü orduya təslim edilmişdir. Bunun müqabilinə biz protesto vermişik. Lakin bir cavab çıxmamışdır. Əvvəla burada yeni bir şey yoxdur. Bunun həpsini biz biliyorduq. Saniyən doğrudur, protesto özü müəyyən bir tədbirdir. Lakin onu verib durmaq kafi degildir. Protesto etməklə bərabər hökumət məmləkətin müdafiəyə hazırlanması üçün bir çox tədbirlər dəxi görməli

idi. Bizim də istədigimiz onu bilmək idi ki, hökumət bu uğurda nə kibi tədbirlər görmüşdür. Lakin bu da olmadı. Xariciyyə naziri öz cavabında görülən tədbirlərdən bir söz demədi. Binaənileyh də biz o cavaba qane olmayaraq sualımızı sorğuya mübəddəl etdik. Şimdi hökumət bizə kafi cavab verməlidir. Məlumunuzdur ki, şimdi ingilislər tazəcə getmişlərdir. Bir vəqt vardı türklər burada idilər. Sonra onlar getdilər, ingilislər gəldilər. Onların hər biri bir dövr idi.

Şimdi ingilislər getmişlərdir. O vəqtən bəri də yeni bir dövr başlanmışdır. Bu zamanadək içimizdə həmişə xarici qüvvələr olmuş və biz xarici qüvvələrə istinad etmişiz. İmdi isə öz qüvvəmizə istinad etməliyiz.

Əlbəttə bu vəziyyətlərin həpsi biri-birindən fərqlidir. Odur ki, görülən tədbirlər də fərqli olmalıdır. Binaənileyh biz əhvalımızın, vəziyyətin nazikligini nəzərə alaraq hökumətdən cavab istiyoruz ki, məmləkətin vəz və övzaini nəzərə alaraq qüvvələrimizi topladıqmı, vətən və paytaxtı mühafizə halına gətirmişlərmi, qonşumuz gürcülərlə bağlamış olduğumuz əhdnamədən (istifadə) etdikmi, haman əhdnaməyə görə təhlükə zamanı biz gürcülərin qüvvələrindən istifadə edə bilərik: bundan istifadə edildimi, öz qüvvələrimizi hazırlayıb müdafiə halına gətirdikmi, iştə bizim bilmək istədigimiz şeylər.

Bu məsələlər ətrafında məlumunuz olduğu üzrə bir çox şayiələr dövran etməkdədir. Zənn ediyoruz ki, hökumət bu suallara kafi cavab verərək şayiələri yox etmiş olar. Bir də bilməlidir ki, bu cür şayiələr yalnız Bakıda degil, bütün vətənin hər yerində dövran etməkdədir. Məclisi-Məbusan vasitəsilə bu sözləri bütün camaatin qulağına yetirməli və bütün məmləkətdə şayiələri zail edər.

**Yusifbəyli Nəsib bəy** – (Rəisi-Vükəla)

Möhtərəm məbuslar!

Bən çox diqqətlə qulaq asdım görüm bu sual nə üçün sorğuya mübəddəl oldu. Fəqət Əhməd bəyin sözlərində bu suala cavab tapmadım. Onun nitqindən ancaq bir söz başa düşdüm ki, burada bir fikir varmış: hökumətin sözünü cəmaətə eşitdirmək. Buna qarşı təşəkkür edərəm, bu bizim borcumuzdur. Fəqət bu məqsəd ilə istizah olmaz. Çünki istizah məmnuniyyətsizlik və sairə kibi bir çox səbəblərdən olar ki, Parlaman hökumətin fəaliyyətindən naməmnun qalar, lazım gələn işlərdə hökumətin tədbirləri və iqdamatı qeyri-məqbul olar. O zaman istizah verilər. Fəqət arada bunların heç birisi yoxdur. Amma bununla bərabər sosialistlərin sorğusuna bən məmnuniyyətlə cavab verərəm. Fəqət bəzi məsələlərə cavab verməröm, çünki onlar sirri şeylərdir. O sirləri bu gün cəmaətə və bu təriqlə də düşmənə bildirmək olmaz.

Zira bu gün burada söylənən sirləri cəmaət eşidər, bilər, amma cəmaətlə bərabər düşmənlərimiz dəxi eşidib biləcəklərdir. Əgər Əhməd bəy bəşəxsə bu sualları versəydi cavab alardı. Amma onda da yenə bəlkə suallarının həpsinə cavab verməzdim.

Bizdən sorsalar tədbirlər görülüyordumu, əvət deyərəm görülüyor. Amma sorsalar, nə kibi tədbirlər görülüyor onu deməröm. Sual edilsə ki, dənizdən ya paytaxtımıza, ya vətənimizin sair yerlərinə edilə biləcək hücuma qarşı müdafiə tədbirləri varmı – deyərəm var. Amma desələr nə kibi tədbirlər görülüyor, top nə yerdə qoyulur, nə qədər qoyulur – onu deməröm. Soruşsalar ki, Gürcüstan ilə əqd olunmuş ittifaqdan istifadə ediliyormu – ediliyor – deyərəm. Amma necə istifadə ediliyor – deyə sual verilsə daha onu deməröm.

Fəqət bununla bərabər varid olan sorğudan bilaistifadə sizə bir neçə söz demək istiyoram.

Məlumunuzdur ki, biz ancaq 4 gündür ki, tamamilə müstəqilik.

Şimdi içimizdə heç bir xarici qüvvə yoxdur. İmdi millət isbat etməlidir və ümidvaram edər ki, azərbaycanlılar içlərində xarici qüvvə olmayan zaman özlərini daha gözəl müstəqil idarə etməgə müstəiddirlər. (Alqış) Və içimizdən gedən xarici qüvvə öz başçıları lisanı ilə neçə dəfə təkrarən bizə söylədilər ki, biz Azərbaycanda bulunduğumuz zaman gördük, inandıq və yəqin etdik ki, siz müstəqil yaşamaya layiqsiniz və istiqlalınızı saxlayıb kəndinizi idarə etmək üçün xarici qüvvəyə ehtiyacınız yoxdur. Siz bir çox mühüm məsələləri asanlıqla həll etdiniz və binaənileyh bundan böylə də öz qüvvənizlə hər işinizi görməgə layiqsiniz. Bunu yalnız sözləri ilə degil əməlləri ilə də göstərdilər. Və buradan çıxıb getmələrilə isbat etdilər ki, biz xarici qüvvəyə möhtac degiliz. Çünki onlar buradan çıxıb getdilər. Halbuki Zaqafqasiyanın bəzi yerlərindən hala çıxıb getmiyorlar, orada qalacaqlardır.

Zira o yerlərdə hələ xarici qüvvələrə ehtiyac olduğu hiss olunur. Digər tərəfdən hökumət bir dəfə qərar vermişdir ki, qan tökməgə, hərb etməgə ehtiyac olmadıqca millətin, vətənin namusu heysiyyəti-istiqlalı təhlükə altında bulunmadıqca hər məsələyi sülh təriqilə həll etməyə naildir, həll də ediyor. Necə ki, Lənkəran məsələsi demək olar ki, hərbsiz, qansız həll edildi. Lənkəran təslim oldu, arada 20 top, bir çox pulemyot, bir neçə aeroplan, hidroplan, külli miqdarda lavazimi-hərbiyyə alındı. Bunların həpsi ancaq 8 şəhiddən ibarət az bir təlafat ilə alınmışdır. Qarabağ məsələsi erməni vətəndaşlarımıza bir qədər güzəştlə də olsa sülh ilə həll edildi. Yalnız Zəngəzur məsələsi qalmışdır ki, o da ən yaxın zamanda ümidvaram həll olunacaqdır. (Alqış). Naxçıvan və sair tərəfdəki qardaşlarınız özgələrə tabe olmaq istəmədilər və özgə əlində qalmadılar, onlar da yabançılardan xilas oldular.

Qaldı Şimaldan dəxi təhlükə olduğu məlumunuzdur. Fəqət hal-hazırda haman Şimaldan təhdid edən qüvvə dəxi münasibətə girişməgi, məsələyi sülh təriqilə həll etməgi təklif ediyor. Hökumət bunu da təcrübə və imtəhan edər sülh ilə həlli mümkün olsa sülh ilə edər, onların təklif etdikləri şərait müvafiq və münasib olub namusumuz, istiqlalımız rəxnədar olmazsa məsələni sülh təriqilə həll etməgə çalışacağız. Bilməlisiniz ki, hökumət çalışıyor gündən-günə qüvvəmizi artırmaya. Çünki varlıq da, sülh də həpsi qüvvə köməgi ilədir. Nə qədər ki, əskəri qüvvənin köməgi olmasa sülh də olmaz. Fəqət qüvveyi-əskəriyyə nə qədər böyük olsa məsələləri sülh yolu ilə həll etmək də asan olur.

Məsələn, bu gün bizim lazımi miqdarda qüvvəmiz olsa Şimal təhlükəsi də sülh təriqilə həll edilə bilər.

Fəqət əlbəttə bununla bərabər hökumət də, siz də gözlərinizi yummamalısınız. Hökumət lazım olan və əlindən gələn tədbirləri görüyor. Və sizdən kömək gözliyor. Qüvvə hazırlamaq məsələsini də bilməlisiniz. Hökumət heç bir qüsur görmüyor. Əskərlikdən başqa məmləkətin hər bir nöqtəsində camaat özü könüllü dəstələr təşkil edərək vətəni hər təsadüfə qarşı təhlükədən müdafiəyə hazırlaşıyorlar. Məşq alıyorlar ki, vətən müdafiəsinə getməgi, müdafiə yolunda ölməgi bilsinlər. (Alqış) Bu təşkilatda sırf camaat çalışaraq biz onlara ancaq zabit veriyoruz.

Bundan əlavə bir çox şeylər də var ki, özünüz biliyorsunuz açıq-açığa denilməz.

Sualların əslinə gəldikdə bu xüsusda bən sizə bir neçə söz demək istərdim. Məlumunuzdur ki, qabaqda İngiltərə hökuməti könüllü ordu ilə bizim aramızda bir xətti-fəsl təyin etmişdi. O vəqt xətt Petrovskdan keçirdi, sonra bu yaxınlarda

haman xətti dəgişdi. Burası bizim üçün zərərli idi. Çünki tazə xətt Samur çayına qədər enmiş, bu surətlə bizim sərhəddimizə yaxınlaşmışdı.

Biz bu xüsusda İngiltərə komandanlığına müraciətən protesto etdik və eyni münasibətlə tamam dünyaya protesto notası verdik. Şübhəsizdir ki, biz var qüvvəmizlə çalışacağız bu xətti-fəsl dəgişsin. Dağıstan yenə öz istiqlalını öz əlinə alsın. Burası yəqindir ki, bizim Dağıstan topragında gözümüz yoxdur. Amma bununla bərabər var qüvvəmizlə xətti-fəslin dəgişməsinə çalışacağız. Fəqət eyni zamanda hər növ tədbirlər görməklə bərabər biz heç kəsə elani-hərb etməgi müvafiq görmüyoruz.

Donanmanın bir qismi ingilislər tərəfindən Denikinə verildi. Yəqindir ki, o öz malı idi və hər kəs öz malını istədigi adama verə bilər. Amma bu işin bizə zərəri oldugundan biz müdaxilə etdik və nəticədə donanmanın həpsi degil bir azı verildi. Fəqət bizdə o qüvvə yoxdur ki, ingilisləri məcbur edək ki, onlara vermə, bizə ver. Lakin güc ilə vadar etməgə qüvvəmiz olmamaqla bərabər, yenə də donanmayı özümüz üçün istədik, cavab çıxmadı. Bu xüsusda da biz əlimizdən gələn tədbirləri gördük. Bir məqamə çatdı ki, müttəfiqlər komandanlığı rəisi general Qori bizə dedi donanmanın verilməsindən bu qədər iztiraba düşmək lazım degil, çünki biz Denikinə o qədər şey vermişik ki, əgər onları üzərinizə atsalar daha donanmaya ehtiyac da qalmaz. Zira ona tankı və sair donanmadan müdhiş ləvazımi-hərbiyyə vermişik. Fəqət əmr etmişik ki, bunları sizə qarşı işlətməsinlər. Məlumdur ki, sülh konfransı şəxsində Avropa və bütün dünya bolşeviklərə elani-hərb etmişdir. Və bu yolda bolşeviklərlə mübarizə edən qüvvələrə hər növ kömək ediyorlar. Biz buna mane ola bilməriz. Fəqət onu bi-

liyoruz ki, bu köməklərin bizə qarşı qullanması həqqində əmrlər varid olmuşdur. Yəqin ki, bu uğurda da bir çox iqdamat və təşəbbüsata girişilmişdir.

Digər tərəfdən bu günlərdə sülh konfransı tərəfindən Zaqafqasiyaya bir nümayəndə göndərilmişdir: Haskel. O bizim məsələlərimiz ilə iştiğal edəcəkdir. O biri tərəfdən İngiltərə hökuməti dəxi nümayəndə göndərmişdir. Paris nümayəndələrimiz vasitəsilə də bunu xəbər vermişdir. İngiltərə hökuməti bəyan etmişdir ki, doğrudur bununla İngiltərə hökuməti Zaqafqasiya cümhuriyyətlərini rəsmi surətdə tanımıyor. Lakin felən bizimlə münasibatda bulunacaqdır. Bu əmr həddi-zatında bizi qəbul etmək hesabıdır.

Yenə məlumunuzdur ki, İtaliya hökuməti dəxi buraya nümayəndə göndərmişdir. Bu surətlə Avropa Zaqafqasiyanın Rusiyanın bir hissəsi olmadığını felən qəbul etmiş oluyor.

Şimdi möhtərəm məbuslar görüyorsunuz ki, məsələ pək mühüm və nazikdir. Böylə zamanlarda hökumət hər işdə tam diqqət və ehtiyatkarlıqla davranışlıdır. Məclisi-Məbusan dəxi bütün heyətilə və hər məbus fərdən hökumətə kömək etməlidir. Şimdi konyuktura (vəziyyəti-siyasiyyə) böylədir ki, biz gərək özümüzü xarici qüvvələrdən müdafiə və istiqlalımızı mühafizə edək. Əgər böylə edə bilsək, əgər hüriyyət və istiqlalımızı hər növ xarici təərruzatdan hifz edə bilsək sülh konfransı da istiqlalımızı tanıyar. Həm mühafizə və müdafiə edə biləcəgizə və dünya konfransı tərəfindən tanınacağımıza şübhə etmiyoram. Fəqət burada bir məsələ var ki, qeyd etmədən keçə bilmiyoram. Söz burasındadır ki, bu barədə hamınızın fikri, rəyi birdir. Bən təşəkkürlər və məmnuniyyətlə qeyd ediyoram ki, Denikin ilə mübarizə məsələsində sağlardan, sollardan, ortadan xülasə hamınızdan kömək görüyoruz. Buna təşəkkür edəriz. Lakin düşmən bir Denikin degil,

ondan az təhlükəli olmayan bolşeviklər dəxi vardırlar. Həm də bolşeviklər müqabilinə necə mübarizə edəcəgimizi bütün dünya təqib ediyor. Sülh konfransı da, bütün Avropa da bolşeviklərə qarşı tərzi-hərəkətimizə dördgöz ilə baxıyor, nə yapacağımızı gözlüyorlar. Bütün dünya ilə hali-hərbdə bulunan düşmənləri ilə Azərbaycan və Gürcüstanın necə hərb və mübarizə edəcəgini dördgöz ilə təqib ediyorlar. Fəqət mütəəssüfanə haman bu məsələdə həpiniz həmrəy degilsiniz. Bu barədə bəziləriniz bizə kömək etmiyorlar. Digər bəziləriniz isə nəinki kömək etmiyor, hətta mübarizəyə mane oluyorlar. Bən arzu ediyoram ki, bu barədə dəxi müəyyən bir rəyə gələsiniz. Bu saət hökumətin sizinköməginizə xüsusən mənəvi köməginizə ehtiyacı var. Ümidvaram ki, siz dəxi yardımınızı müzayiqə etməyib istər Denikin olsun, istər bolşevik olsun kim müqabilədə olursa-olsun hər barədə hamınız hökumətə kömək edərsiniz. (Alqış)

**Sədr** – Söz Əhməd Cövdətindir.

*(Mabədi yarın)*

***"Azərbaycan", 3 oktyabr 1919, №268***

Şafi – qənaətləndirici
İstizah – aydınlaşdırma, açıq izah tələb etmə
Müstəid – bacarıqlı, istedadlı
Xətti-fəsl – ayırma, bölmə xətti

## MƏMURLARIMIZ HƏQQİNDƏ

Keçən parlaman iclaslarının birində hökumət məmurlarının içində rüşvətxorluq müşahidə edildigindən söz açılmışdı. Sözü açan sosialistlər fraksiyası olduğundan Rəisi-Vükəla həzrətləri cavab verirkən: "Əgər bütün pristavları "Hümmət" firqəsi əzalarından təyin etsək də genə rüşvətxorluq aradan götürülməz," – deyə həqli olaraq bir işarə vurdu.

Vaqeən məmurların rüşvətxorluğu hökumət və məmləkət üçün qorxulu bir vəqədir. Rüşvətxor məmura xəlqin etibarı ola bilməz və bu kibi bir hökumət qulluqçusunun vəzifə başında baqi qalması hökuməti ləkələyən, şanını azaldan və nüfuzdan salan hadisələrdən biri ola bilər. Odur ki, rüşvətxorluq ilə mübarizə qılmaq hökumətin böyük vəzifələrindən biridir.

Hal-hazırda bu vəzifə hökumət tərəfindən kamalınca ifa edilməkdə olub məmurların rüşvətxorluq və başqa fənalıqlarını aşkar etmək üçün xüsusi bir idarəmiz mövcuddur.

Məmurlar arasında rüşvət almaq adətinin bir çox səbəbləri vardır.

Bu səbəbləri aramaq, bilmək və hər birinin künhinə bələd olmaq – əlbəttə hökumətin borcudur, çünki səbəb bilindikdən sonra rəf izalə edilər və məmur üçün rüşvət almaqdan ötrü heç bir bəhanə yolu qalmaz.

Fəqət səbəblər içində öyləsi var ki, məmurun öz təbiəti iqtizası olduğundan o xüsusda məmuru öz vəzifəsindən kənar etməkdən başqa hökumətin özgə bir çarəsi ola bilməz. Məsələn, təbiətən tamahkar və xəlq təbirincə – acgöz bir məmuru ancaq qulluğundan kənar etmək və mühakimə altına almaqla bu şəri rəf etmək olar.

Lakin başqa kənar səbəblər dəxi vardır ki, pişəzvəqt izalə edilirsə – bir çox rüşvətxorluq fəqərəsinə yol verilməz, o səbəblərdən biri və ola bilsin ki, ən müəssiri və mühimi – məmurun yoxsulluq halıdır. Bir çox məmurların yoxsulluq ucundan rüşvət almaqlarını inkar etmək olmaz.

Nikolay zamanında – ki bürokratiya tərzi-idarəsi idi – orta və kiçik məmurlar üçün təyin edilmiş olan "kazyonnı" məvacib heç bir vəqt kafi dərəcədə olmuyordu. Hökumət qulluqçuları xüsusi idarələrdə qulluq edən və onlarla həmqatar olanlara həmişə həsəd aparırdılar. Hökumət qulluqçusunun bir təsəllisi vardısa da – o da "çin", gələcəkdə "pensiya" almaq həvəsi idi. O idi ki, bu cürə qulluqlara şan və şərəf sevən dövlətlilər girib vəzifələrini keyfi-mayəşa ilə ifa edirdilər. Kasıb-kusub girirsə də – ya gərək acından ölə, ya da ki, rüşvət və sairə ilə başını dolandıra idi.

Demokratik üsul ilə idarə edilən məmləkətlərdə isə – hökumət məmurunun heç bir xüsusi şan və şərəfi olmayıb, yalnız öz məmuriyyətinin heysiyyatını gözləyə bilər. Yəni məsələn, bir qubernator küçə ilə keçərkən hər kəsdən baş əymək və ehtiram görmək təmənnasında bulunmaz, fəqət öz məmuriyyət və mənsəbinin də təhqir edilməsinə razı olmaz. Yalnız özünə verilmiş hüquq və ixtiyaratdan istifadə edə bilər, bunun xaricində heç bir əmələ həqqi yoxdur. Odur kı, demokratik üsullu məmləkətlərdə hökumət məmuru olmaq – üzərinə müəyyən və olduqca çətin bir vəzifə götürməkdən başqa bir şey degildir. Binaənileyh bu vəzifəni qəbul etmiş və onun hər bir çətinlik və məsuliyyətlərini üzərinə götürmüş olan adamların məişət və güzəranları nə qədər təmin edilmiş olursa – vəzifələrini bir o qədər yaxşı ifa edər və yoxsulluq üzündən rüşvət almağa da bəhanə bulmazlar.

Məmura, baxüsus müşkül vəzifələri olan polis məmurlarına məvacib və maaş təyin edərkən heç vəqt bu əsası nəzərdə tutmamalıdır ki:

Bəsidir, bir tövr ilə dolanar. Bu əsas şübhəsizdir ki, rüşvətxorluğa səbəbiyyət verir, çünki bir tövr ilə dolanmaq üçün aldığı məvacib kifayət etməz və məmurun gözü daim kənarları gəzər ki, təmini-məişət üçün mədaxilini artırsın.

Zənn edirəm, məmurlara verilən məvacib gərək o qədər çox olsun ki, nəinki özünün və ailəsinin yemək-içmək və geyməyini görsün, bəlkə qara gün üçün də bir şey qaldırmağa imkan olsun. Böylə olursa məmurun fikri ailə qayğısı və yoxsulluq dərdi ilə pərişan olmayıb, bütün huş və guşi öz qulluğunda olar. Demokratik üsullu məmləkətdə – Akaki Akakiyeviç kimi məmurlar gərək olmasın. Hər kəs gərək öz vəzifəsi müqabili o qədər maaş alsın ki, onu rahat dolandırsın və yoxsulluq işinə mane olmasın. Və hökumət məmuru deməsin ki, gedib fəhləlik eləsəm bundan yaxşı dolanaram.

Əminəm ki, hökumət məmurlarının məişət və güzəranı layiqincə təmin edilərsə – bir çox rüşvətxorluq əməlləri və başqa sui-rəftar və bəd hərəkətlər öz-özündən rəf olub gedər.

Ondan sonra əgər məişəti təmin edilmiş bir məmur artıq təməlik edib rüşvət-filan alarsa, öyləsini qanunun ən şiddətli cəzasilə tənbeh etmək, əlbəttə həm layiqdir və həm də lazım və vacibdir.

**Hacıbəyli Üzeyir**

***"Azərbaycan", 5 sentyabr 1919, №269***

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 1 EYLÜL İCLASI

İclas açılır saat 12-də
**Sədr**: Qənizadə Sultan Məcid
**Katib**: Əhməd Cövdət

### Məsaili-yövmiyyə

1 – Sosialistlər fraksiyasının hökumətə sualı;

2 – Azərbaycan hökumət darülfünunun təşkili haqqində qanun layihəsi;

3 – Əcnəbi məmləkətlərinə 100 tələbənin hökumət xərcilə göndərilməsi haqqində qanun layihəsi;

4 – Xəlq kitabxanaları üçün kitab alınmaqdan ötrü 1 milyon manat buraxılması haqqində qanun layihəsi;

5 – Azərbaycan hökumət bankı təşkili haqqində qanun layihəsi;

6 – Spirt məhsullarından alınan aksiz vergisi miqdarlarının təzyidi haqqində qanun layihəsi;

7 – Tövcü vergisinin artırılması ilə bərabər topraq gəlir və məxaric smetasının və topraq vergisi miqdarlarının təmdidi haqqində qanun layihəsi;

8 – Ümumi əyləncəxanə və tamaşaxanə yerlərindən alınan müvəqqəti vergi "naloq"un hökumət məbaliğ müstəhfizəsinə idxalı haqqində qanun layihəsi;

9 – Həmin sənə üçün İrəvan ümuri-xeyriyyə naziri vəkilinin maaşı və onun idarəsi məsarifatı üçün məzkur nazirə 177.000 manat kredit açılması haqqində qanun layihəsi;

10 – Şəhadətnaməsiz olan içki ticarətindən alınan cərimələrin artırılması haqqında qanun layihəsi;

11 – Azərbaycan Cümhuriyyəti ümuri-xeyriyyə nəzarətinin ştat siyahısı və maaşlarının artırılması haqqında layiheyi-qanuniyyə;

12 – Bakı xəzinə palatası müdir müavinlgi vəzifəsinin ləğvi haqqında qanun layihəsi;

13 – Damğa rüsumatı qanunnaməsinin bəzi maddələrinin təbdili və rüsum miqdarlarının təzyidi haqqında qanun layihəsi;

14 – Nəşr elanı haqqında qanun layihəsi;

15 – Fabrika inspeksiyasına dair qəvaidin təbdili haqqında qanun layihəsi;

16 – Maliyyə naziri şurası haqqında qanun layihəsi;

17 – Topraq məsələsi;

18 – Məhkəmeyi-hərbiyyə qanununun 15-ci maddəsinin təğyiri haqqında qanun layihəsi;

19 – Azərbaycan ilə Ermənistan arasında bağlanmış ticarət müahidənaməsi;

20 – Azərbaycandan xaricə çıxarılan spirt içkilərindən (üzüm şərabı və piyvə istisnadır) alınan gömrük vergisi miqdarları haqqında qanun layihəsi;

21 – Balıq və balıq məhsulu ixracı vergisinin təbdili haqqında qanun layihəsi;

22 – Maliyyə nəzarəti idarəsi cünbündə qeyri hissə şayiə vergilərinin (nakladnoy sbor) və inhisar şöbəsi təsisi haqqında qanun layihəsi;

23 – Vergi müdiriyyətləri hissələrində qapıçı tutulması üçün sənəvi əlavə olaraq 70200 rublə təxsis haqqında qanun layihəsi;

24 – Daxil olmuş kağızlar, o cümlədən:

a) Ümuri-xeyriyyə nazirinə Suraxanı-Mərdəkan yolunu düzəltməkdən ötrü smetadan xaric 3.300.000 rublə buraxılması haqqında;

b) İskəndər bəy Axundovun Şamaxı qəzasından Azərbaycan Məclisi-Məbusanına üzv seçilməsi haqqında Şamaxı bələdiyyə idarəsi tərəfindən verilmiş mandatı;

c) Paronyanın məzuniyyətinin sentyabrın 20-nə qədər uzadılması haqqında;

d) Maliyyə-büdcə komisyonuna yeni bir üzv seçilməsi haqqında;

h) Məlik Yeqanovun Parlaman üzvligindən xaric olunması haqqında.

**Ağamalı oğlu Səmədağa** – ("Hümmət") Bizim hökumətə vermiş olduğumuz sorğunun ayrı bir mənası yox idi. Hamınız biliyorsunuz ki, məmləkət qarşısında bir Denikin təhlükəsi var və o təhlükə bütün camaat arasında qorxuya bais olmuşdur. Hətta məsələyi çox böyütdülər də. Biz hökumətə sual verirkən istədik aydın və aşkara desin görək haman qorxunun önünü almaq üçün nə kibi tədbirlər görmüşdür. Və o qüvvənin qabağında biz nə qədər dayana bilərik. Təhlükə qarşısını almaq üçün müdafiəyi nə qədər davam etdirə bilərik. Yəqin ki, Denikinin gəlməsindən qorxan nə qədər varsa, onun gəlməsinə sevinən də çox var. Dedik qoy hökumət məlumat versin: tainki qorxanları da, sevinənləri də sakit etsin. Amma hökumətin cavabından biz bir şey hasil edə bilmədik. Çünki o məsələlərdən ki, bir şey başa düşə bilərdik hökumət o barədə cavab vermədi. O məsələlərin bəziləri hökumət sirri, bəziləri də voyenni sirr oldu. Dedilər bunların heç birisinin barəsində danışmaq olmaz.

Xülasə hökumətin cavabı böylə çıxdı ki, siz gərək bizə inanasınız. Doğrudur ki, kabinəyi seçən Parlaman öz seçdiklərinə

inanmaq lazımdır. Amma inanmağın etibar və etimad etməgin də bir həddi, bir dərəcəsi olar. Hökumətə inanmaqla bərabər Məclisi-Məbusan lazımdır bilsin ki, seçdigi adamlar nə qayırıyorlar, onun fəaliyyətindən də xəbərdar olmaq lazımdır. Çünki etimad və etibarı boş söz eləsə vermək olmaz. Onlar da bir əsas üzərinə qurulmalıdırlar. Zira ola bilər ki, bir firqə, bir fraksiya etimad qılsın, bir kabinəyi seçsin. Amma sonra onun fəaliyyətini kafi, tədbirlərini müvafiq görməsin. Əgər hökumət böylə olsa onda yəqin ki, etimad dəxi pozular.

Bir də burada öylə bir şey yoxdur ki, örtülü olsun. Biz gərək bilək hökumət nə kibi hazırlıq tədbirləri görüyor, qüvvəsini necə toplıyor. Əlavə Gürcüstan ilə bağlamış olduğumuz ittifaqdan da nə qədər istifadə edildigini gərək bilək. Amma bu barələrdən hökumətdən bir söz eşitmədik. Qarşımızda böylə böyük bir təhlükə varkən hökumət çox arxayın duruyor. Bu da bizi qorxuya salıyor. Çünki hökumətin qabağındaki böyük canavarları biliyoruz, tanıyoruz, o müdhiş canavarların birisi Denikindir, o biriləri də ingilislər və sairləri.

Denikin bizə diyor ki, Moskvayı alınca bizimlə işləri yoxdur. Çox ola bilər ki, olmasın da. Amma bu sözlərin hamısı başımız altına yastıq qoymaqdır. Biz bu sözlərə heç vəqt inana bilmərik. Digər tərəfdən ingilislər də bizə çox xatircəmlik veriyorlar. Bilmiyoram bəlkə ingilislər bizimlə qohum olublar, dost çıxıblar. (Ümumi gülüş) Amma bu işlərin hamısı bizi çox qorxuduyor. Biz diyoruq öylə olmasın ki, çiftçinin başına gələn bizim də başımıza gəlsin (burada natiq bir lətifə nəql ediyor ki, 4 lotu bir çiftçinin yanına gediyor: birisi gözü baxa-baxa onun öküzünün birini oğurlayacağına söz veriyor. Digərləri onun başını qarışdırıyorlar. Birincisi bir öküzü oğurlayıb gediyor. Sonra digər birisi gəlib sual ediyor ki, "pəs sən bircə öküz ilə yer şumluyorsan?" Çiftçi baxıb məəttəl qalıyor, cavab

veriyor ki: vallah özüm də mat qalmışam) (Ümumi gülüş, soldan alqış) Bəli diyoruq öylə olmasın ki, sabah hökumət də desin vallah özüm də mat qalmışam. Amma biz yaxşı biliyoruz ki, bizim o qədər qüvvəmiz var ki, toplayaq mübarizə edək və axırda mat qalmayaq. Çünki Azərbaycanda 2 milyondan ziyadə nüfus var. Bu zamanın hərb qanununa görə bu miqdar əhalidən 100.000 qoşun yığmaq olar. Nüfusca gürcü qonşularımız da bir o qədərdirlər, demək 100.000 qədər də onlar qoşun çıxara bilərlər. Bu surətlə Denikin bizim müqabilimizə dava başlarsa biz bütün qüvvələrimizi toplasaq müttəfiqlərimizlə bərabər 200.000 qoşun çıxara biləriz ki, bununla Denikinə çox asanlıqla müqabilə edə biləriz.

O biri tərəfdən bizim nizami qoşunumuzdan başqa könüllü dəstələr filanlar təşkil olunur. Diqqət vverilsə onlar da böyük bir qüvvə təşkil edərlər. Hökumət bu barədə dəxi bizə heç bir məlumat vermədi. Odur ki, hökumətin yolu düz getməsinə inanmaq lazımdırmı, yoxsa inanmaq olmaz – sualına cavab vermək çətindir. Bən demək istiyoram ki, biz bu vəqtədək bir iş görülmüş olduğuna ümid edə bilmiyoruz. Amma hökumət hərəkətə gələrək mümkün və lazım olan qədər tədbirlər görsə heç biz də qorxmarız.

Bizim son sözümüz budur ki: ümidvar oluyoruz, hökumət məsələnin əhəmiyyətini nəzərə alaraq bütün qüvvələri toplar və Baranovun danışıqlarına diqqət verməyib öz işini yaxşı aparacaqdır.

*(Mabədi gələn nömrədə)*

***"Azərbaycan", 12 sentyabr 1919, №272***

Təğyir – dəyişdirmə, başqa şəklə salma

## MİLLİLƏŞMƏK

Dövri-istibdaddan qalmış və bu gün Azərbaycan istiqlaliyyətinə yaraşmayan bir para işləri "likvidasiya" etmək, yəni aradan götürmək yolunda hökumətimiz ciddiyyətlə işləməkdədir. Bu bollu işlərin biri də rus dilidir ki, bu günə qədər aramızda hökumət lisanı hökmündə qalıb, Azərbaycan istiqlalının şərəfini azaltmaqla bərabər, Azərbaycan türkləri üçün dəxi az müşkülat törətmiyor.

Azərbaycan türk dili ümumqafqazda yaşayan müxtəlif lisanlı millətlər arasında ümumi bir dil olmaq kibi böylə bir beynəlmiləl əhəmiyyəti haiz olduğu halda, yəni bir ermənin bir dağıstanlı, bir malakanın bir gürcü ilə qonuşub danışmaq üçün türk dilinə müraciət etməgə məcbur olduqları bir halda, bu dilə malik olan türklərin rus dilinə möhtac qalması nə qədər qərib və nə qədər gülünc bir haldır.

Bu qeyri-təbii hal, əlbəttə, rus istibdadının bərəkətindəndir ki, ruslaşdırmaq politikası sayəsində Azərbaycan türkləri öylə bir şərait içində yaşıyorlardı ki, həmişə rus dilinə möhtac qalırdılar. Digər tərəfdən milli məktəb və mətbuatımız olmadığından dilimiz öz-özünə guşəyi-nisyanə atılacaq bir hala gəlirdi. Böylə bir şərait içində yaşayan Azəri türkləri arasında öz dilinə, öz ədəbiyyatına həvəs edənləri vardısa, o da çox az. Çünki bu yolda praktik bir mənfəət yoxidi. Türk dilinə dara olanlar bunu həyata təbiq etmək və bundan məişət və güzəranları üçün bir faidə almaq imkanından məhrum edilmişlərdi. Rus istibdadı hər bir "bənd-bərə"ni kəsib dilimizə heç bir yerdə yol vermiyordu.

İştə bu mənhus şəraitin nəticəsi olaraq, istiqlalımızı elan edib, felən müstəqil yaşamağa şüru edərkən baxıb gördük ki, bütün iş bilənlərimizin, karkün adamlarımızın və işə yarar zəvatımızın – bir cüzi istisna olmaq üzrə – haman cümləsi iş aparmaq üçün rus dili istemalına məcbur qalmışlardır. Odur ki, bütün dairələrimiz, divanxanalarımız, dəftərxanalarımız və bir-bir müəssisələrimiz bütün işlərini məcburi rus lisani vasitəsilə icra etməgə başladılar.

Lakin bu qeyri-təbii halın davamına ancaq müvəqqəti olaraq boyun qoymaq ola bilərdi. Ona görədir ki, bu gün hökumət tərəfindən maarif nəzarəti vasitəsilə icra olunan milliləşmək iqdamatı işlərin təbii yoluna qoyulması həqqində birinci qədəmdir ki, türk hökumətində türk dilinin qəsb edilmiş olan həqqi özünə qaytarılır.

Milliləşmək xüsusunda maarif naziri tərəfindən iki böyük işə iqdam olunubdur: biri məktəblərin, digəri isə ümumhökumət müəssisələrinin milliləşdirilməsidir. Məktəblərin milliləşdirilməsi doğrudan-doğruya icra edilməkdədir. Müəssisələrin milliləşdirilməsinə isə bilvasitə iqdam edilib və vasitə olmaq üzrə bilatəfriq millət ümumməmurlarımız üçün türk dili kursları açılıbdır. Azərbaycan hökuməti dairələrində qulluq etmək istəyən və türk dilinə dara olmayan ümumməmurlar haman kurslara girib türk dili öyrənməgə məcburdurlar. Maarif naziri həzrətlərinin bu yolda ciddiyyətlə çalışmaları şayanitəbrik və layiqi-təhsindir. Bizə məlum olduğu üzrə nazir həzrətlərinin böylə milliləşdirmək tədbirlərinə qarşı protesto edən və bu iqdamatdan şaki olanlar vardır. Lakin eşitdigimizə görə nazir həzrətləri heç bir güzəştdə bulunmamağa qərar vermişlərdir. Nazirin bu qərarı xüsusi bir təhniyyətə səzadır. Bu xüsusda heç bir güzəşt ola bilməz. Protesto edən tərəflərin istiqlalımızın xeyirxahı olmadıqları aşkardır və saniyən, öz

şəxsi mənfəətləri nöqteyi-nəzərindən şikayətlərdə bulunurlar. Halbuki milliləşmək işi dövləti əhəmiyyəti haiz olan böyük bir əmrdir. Bu əmri bir takımlarının, baxüsus ki, bədxahlarımızın xatirəsi və mənfəəti-şəxsiyyəsi üçün təxirə salmağı və yaxud durdurmağı əql qəbul edən işlərdən hesab etmək olmaz. Ümid edirik ki, nazir həzrətləri bu yoldakı mümaniətlər qarşısında heç bir tərəddüdə yol verməyib işi sürətlə irəlilədəcək və ümumazərbaycan türklərinin məramını və dövlət mənafeinin tələb etdigi əmrini kəmali-mətanət ilə yerinə yetirəcəkdirlər.

Bu xüsusda müvəffəqiyyətlərini dilərik.

**Hacıbəyli Üzeyir**
***"Azərbaycan", 21 sentyabr 1919, №278***

Karkün – işcil, iş görə bilən

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 20 EYLÜL İCLASI

**Sədr**: Həsən bəy Ağayev
**Katib**: Mehdi bəy Hacınski

Rəis məsaili-yövmiyyəyi və daxil olan övraq və ləvayihi elam edərək, yeni varid olmuş qanun layihələri aid olduğu komissiyalara göndəriliyor. Və növbədəki məsailin müzakirəsinə keçiliyor. Birinci növbədə tövcü vergilərinin artırılması həqqindəki qanun layihəsinin 2-ci qiraətidir.

**Ağamalı oğlu Səmədağa** – (Hümmət) Tövcü vergilərinin artırılması əleyhindədir. Çünki onun zənnincə, qabaqca topraq qanunu həll edilməli imiş, sonra bu qanun. Tainki kimin nə qədər yeri var və kimdən nə qədər vergi almaq lazım gəldigi məlum olsun. Böylə olmasa, topraq məsələsi həll edilməsə tövcüyi yığmaq belə çətin olar. Natiq diyor ki, əvvəla bu layihə vergisi əksərən kənd füqərası öhdəsinə düşər. Çünki yerin çoxu bəylərin, mülkdarların əlindədir, kəndlilər isə icarədar, ya rəncbərdirlər. Təyin olunan vergiyi bəylər onların üstünə qoyacaqlardır. Ona görə müvəqqəti olaraq hələ bu qanunu qəbul etməməli, vergiləri artırmamalıdır. Saniyən çox adam var ki, ancaq kağız üzərində adı var, amma həqiqətdə yeri yoxdur. Yeri quldurlar əlindədir. Bu gün bu qanun qəbul ediləcək olursa, gedib deyəcəklər siyahıda adın var – tövcü ver. Bu surətlə də yeri əkib mənfəət görən bir adam olacaq, tövcü verən başqası. Binaənileyh bən təklif ediyoram ki, o böyük topraq məsələsi həll olunanadək bu qanun layihəsi təxirə salınsın.

**Qarayev** – (Hümmət) Layiheyi-qanuniyyənin qəbul əleyhinə danışaraq diyor ki, qabaqca topraq məsələsini həll etməli, sonra tövcü vergisini artırmalıdır.

**Ağabəyov** – (Müsavat, məruzəçi) Deyirlər bu qanun kəndlilər üçün zərərdir. Əlbəttə, vergi vermək hamının cibinə zərərdir, çünki pul çıxıyor. Amma hamı bunu da nəzərə almalıdır ki, xəzinəyə pul lazımdır. Məlumdur ki, xəzinənin on milyonlar, yüz milyonlar ilə xərci var. Bu məxarici də yalnız pul kəsmək ilə ödəmək olmaz, camatdan vergi yığmalıdır. Bir də inqilab xəlqə yalnız bir hüquq vermiyor, hər hüququn müqabilində müəyyən vəzifə dəxi var. Camaat hürriyyət qarşısında vəzifəsini də hüsni-ifa etməlidir. Nəhayət, diyorlar tövcü vergisi tamamilə füqəranın üstünə düşəcəkdir. Xayır, bu düz degildir. Yer vergisini mülk sahibləri verəcəklər, nəinki icarədar, yainki rəncbərlər. Bu, bilvasitə vergi degil, bilavasitədir. Adını demokratiya tərəfdarı qoyan firqələr gərək hamıdan qabaq böylə vergilərin tərəfdarı olsunlar. Çünki bu vergiyi o adam verəcəkdir ki, bir yerin üstündə oturub, ondan mənfəətpərdar oluyor. O ki derlər vergiləri adı kağız üzərində olan adamlardan alacaqlar, bu da dürüst degildir. Çünki tövcü kağızlardakı siyahı üzərinə təqsim edilmiyəcək, siyahılar təhqiq və təftiş ediləcək, həqiqət halda topraq sahibi olanlar təyin olunacaq və həqiqət əsasilə tövcü təqsim ediləcəkdir.

İkinci natiqə gəlincə, o, əsl məsələdən danışmayıb uzaqlara çəkiyor. Söz burasındadır ki, topraq məsələsi nasıl həll olur-olunsun, haman tövcü vergisi yer sahiblərinin üzərində qalacaqdır. Əgər biz bu gün bu qanunu müdafiə ediyorsaq, ancaq onun üçündür ki, məqsədimiz yer sahiblərindən vergi alınmasıdır. Bu qanunun füqəraya dəxli yoxdur ki, zərəri də olsun. Binaənileyh komissiya namindən layiheyi-qanuniyyənin qəbulunu rica edərəm.

Nəhayət, layiheyi-qanuniyyə maddə-maddə rəyə vəz ediliyor. Birinci maddə əksəriyyəti-ara ilə qəbul olunur.

İkinci maddə səsə qoyulduqda ibtida Müsavatın təklifi rəyə vəz ediliyor. Müsavat fraksiyası vergilərin 75, 300 və 800 faiz

artırılmasını təklif ediyor. Bu təklif əksəriyyəti-ara ilə rədd ediliyor. Sonra maliyyə-büdcə komissiyasının təklifi səsə qoyuluyor. Maliyyə-büdcə komissiyası dəxi hökumət tərəfindən təyin edilmiş miqdarı az hesab edərək 100, 200 və 400 faiz artırılmasını təklif ediyor. Əksəriyyəti-ara ilə bu təklif qəbul olunur.

Sonra 3-cü, 4-cü maddələr səsə qoyularaq əksəriyyəti-ara ilə qəbula keçiyor və layiheyi-qanuniyyənin üçüncü qiraəti (nizamnaməyə görə) gələcək iclasa buraxılaraq növbədəki məsələyə, yəni ümumteatro və əgləncə biletlərindən alınan vergilərin artırılması haqqındakı layiheyi-qanuniyyənin müzakirəsinə keçiliyor.

**Qarayev** – Bu verginin dəxi əleyhinə danışıyor. Çünki diyor ki, bilet vergiləri artırılsa camaat üçün ağır olar, xəlq teatrolara gedə bilməz.

**Ağamalı oğlu** – Biz bilirik ki, xəzinəyə pul lazımdır və o pulları tapmaq, doldurmaq üçün də vergi yerləri axtarmaq lazımdır. Amma söz burasındadır ki, maliyyə naziri vergiləri lazım gələn yerindən axtarmıyor. Bilirik hökumətə pul lazımdır, bu da bizə məlumdur ki, hətta hökumət bu yaxın zamanlarda 600 milyon manat pul kəsmək üçün müsaidə istəmək məcburiyyətində qalacaqdır. Amma xəzinəyə lazım olan pulu əldə etmək üçün böyük vergi mənbələri aramaq lazımdır, nəinki xırda cüzi şeylər.

Bir də biz axır hürriyyətdən bir şey gözlüyoruz. Hürriyyət gərək camaata bir şey versin. Yoxsa hürriyyət xəlqə bir şey verməzsə daha onda nə hürriyyət olur. Ona görədir ki, biz ümumxırda vergilərin əleyhindəyiz. Nəzarət əgər xəzinəyə lazım olan pulları əldə etmək istiyorsa gəlirə görə vergi təyini, daxili istiqraz və sair bu kibi çarələrə təvəssül etməlidir. Amma buna da təvəssül etmiyor? Çünki burası dövlətlilərə zərərdir (Ümumi gülüş, soldan alqış).

**Ağabəyov** (məruzəçi) – Hökumətə lazım olan pulu əldə etmək və xəzinəyi doldurmaq üçün məlum olduğu üzrə bir çox vergilər təyin edilər. Daha filan vergidən az məbləğ hasil olur deyə adını xırda, cüzi şey qoyub rədd etməzlər. Bir məsəl var der: dama-dama göl olar. Hər vergi həddi-zatində az mədaxil versə də o azları bir yerə topladıqda böyük bir məbləğ hasil olar. Doğrudur, biletlərdən vergi alınsa mədaxil az olur. Amma bu qanunu tamamilə rədd etsək onda kimə xeyir olar? Biz layiheyi-qanuniyyəyi rədd etməklə biletlərin qiyməti azalmaz, intəhası bu olar ki, mədaxil hökumətə çatmayıb teatroçuların cibində qalar. Zira o qiymətlər ki imdi biletlərə təyin edilmişdir, o qiymətlər əksilmiyəcəkdir, haman miqdarında qalacaqdır. Əgər bu layihəyi qəbul etmək istəyənlərin məqsədi camaatı teatroya və sairəyə çox cəlb etmək isə, onun da çarəsi biletin qiymətini azaltmaq degil. Bunun üçün lazımdır xəlq teatroları, xəlq yurdları və sairə təsis edilsin.

Ona görə bən bu layihəyi zərərsiz ədd edərək komissiya namindən qəbulunu təklif və rica ediyoram.

Layiheyi-qanuniyyə rəyə vəz edilərək birinci və ikinci qiraətdə qəbula keçiyor və üçüncü qiraəti gələcək iclasa buraxılıyor (Nizamnamə mövcibincə).

Növbədə spirtdən qayrılan içkilərdən alınan vergilərin artırılması həqqindəki layiheyi-qanuniyyədir.

**Hacı Kərim Saniyev** – (sosialist) İçkinin camaata nə qədər zərərli olduğu bütün dünya üçün müəyyən və aşkar olmuşdur. Hətta köhnə Rusiya hökuməti axır zamanlar şərabın zərərini dərk edib içkiyi mən etmişdir. Şəriət dəxi içkiyi mən etmişdir. Bən sosialist olduğum halda bu məsələdə şəriətin ehkamına tamamilə əməl və içkinin bilmərrə mən edilməsini tələb ediyoram.

**Malxazyan** – (daşnaq) Rusca uzun bir nitq irad edərək bir çox rəqəmlər əsasilə Azərbaycanda üzüm bağlarının nə qədər

çox olduğunu və böyük bir qisminin haman füqəra kəndlilərin əlində bulunduğunu, həm də üzüm məhsulunun yüzdə 95 faizinin şərab növündən olduğunu isbat ediyor, digər tərəfdən Azərbaycanda hazırlanan şərab daxildə satılmaq üçün degil, ən çox miqdarının xaricə ixrac üçün qayrıldığını qeydlə göstəriyor ki, Azərbaycanda üzümçülüyü qaldırmaq olmaz və ləğv edilərsə məmləkət ticarətinə böyük bir zərbə təşkil edər. Əgər məqsəd alkoqol ilə mübarizə isə, bunun üçün də başqa yollar vardır. Məsələn, alkoqol ilə mübarizə etmək istədikdə əvvəla ixracat işlərini gözəl bir surətə salmalı və gömrük məsələsinin hüsni-həllinə çalışmalıdır. Saniyən vergi faizlərini əmtəənin ixrac ediləcəgi mövqedəki bazarın məzənnəsinə görə qılmalı və öylə etməlidir ki, Azərbaycan mətahı məhəlli maldan baha çıxmasın. Böylə olursa, malın həpsi əcnəbi bazarlara gedərək daxildə qalmaz. Əks surətdə Azərbaycanda mühüm bir ticarət mövqei tutmuş olan üzümçülük məhv olar, bu da həm dövlətə, həm cəmaətə böyük xəsarət yetirər.

Digər tərəfdən bu layiheyi-qanuniyyə tərtib verilərkən öylə möhkəm bir əsas üzərinə qurulmayıb, xırda şeylər mülahizə edilmişdir. Binaənileyh bən təklif ediyoram bu qanun qəbul edilməsin və maliyyə nəzarətinə tapşırılsın bundan böylə hər bir layiheyi-qanuniyyəyi tərtib verdikdə aid olduğu və o işlə iştiğal ilə dövləti, ya ictimai müəssisələrə müraciətlə məsləhət və məşvərət etsin.

**Qarayev** – İslam ölkəsi olduğu halda Azərbaycanda, xüsusən Bakıda nərəyə baxıyorsan şərabçı dükanıdır. Küçələrdə hər qədəmdə bir lokanta, bir şərabçı dükanı var.

Xülasə, əyyaşlıq xəlq arasında kök salmaqdadır. Ona görə cəmaəti bu rəzalətdən qurtarmaq üçün hökumətə təklif etməlidir ki, şərabxanaların bilmərrə bağlanması və içkilərin mən edilməsi həqqində bir layiheyi-qanuniyyə hazırlasın.

**Saniyev Hacı Kərim** – Malxazyana cavab verərək diyor ki, Azərbaycanda üzüm bağı nə qədər çox olsa da, şərabçılıq nə qədər rəvac tapmaqda isə də, fəqət üzüm bağları yalnız şərab qayırmaq üçün olmayıb, meyvəsi hər yerdə, hətta Petroqrad və Qərbi Avropada satılıyordu. Bundan əlavə məlumunuzdur ki, Azərbaycanda üzümdən doşab, sirkə və sairə qayırılıyor. Bu surətlə Malxazovun iddiası düz degildir, Azərbaycanda üzümçülük yalnız şərabçılığa xidmət etmiyor. Bir də bağların əksəri müsəlmanındır, şərabçılıq isə müsəlman arasında yoxdur. Yalnız içkiçilik bizim aramızda son zamanlar şəhərlərdə yenicə başlanmaqda və kəndlərə sirayət etməkdədir. Ona görə Azərbaycan hökuməti bunun önünü almalı, bunun üçün də açıq satışı mən etməli, duxanları, şərab satılan yerləri qapamalı və içənlərə də cəza verməlidir.

**Ağabəyov** (məruzəçi) – Natiq əfəndilərin danışıqlarından anlaşılıyor ki, əsas etibarilə onlar şərabdan alınan verginin artırılması əleyhində degildirlər. Ancaq iki rəy var: birisi budur ki, ümumiyyətlə Azərbaycanda şərabçılıq və şərab istemalının məni uğrunda tədbirlər görüb içki mən edilsin. Bir rəy də budur ki, ümumiyyətlə böylə qanun layihələri rədd edilsin.

Birinci rəy müqabilinə danışmayı bən fəzlə hesab ediyoram. Amma ikinci mülahizəyə o qədər də şərik olamıyoram. Çünki bir dəfə nəzərə almalıdır ki, Azərbaycanda əhali yalnız müsəlmandan ibarət degildir. Burada ermənilər, ruslar, yəhudilər və sairləri dəxi mövcuddurlar. Üzümçülük və şərabçılıq Azərbaycan əhalisi üçün mühüm bir zəmindarlıq və ticarət mənfəəti olduğu kibi, xəzinənin də burada mənafei var. Binaənileyh həm cəmaətin, həm də xəzinənin mənfəətini nəzərə almaq lazımdır. Alkoqol müqabilinə mübarizə tədbirlərindən bəhs edərkən söz arasında bir də dövlət inhisarından bəhs edildi. Halbuki şərab emalı və satışı işlərini dövlət

tərəfindən təhti-inhisara almaq üçün bir çox hazırlıqlar, külli miqdarda mübaşirlər və külli təhsisat lazımdır.

Sabiq Rusiya hökuməti belə bunu etməgi bacara bilmədi. Bir də əgər çarlıq Rusiyası içki satışını təhti-inhisara almışsa məqsədi verginin önünü almaq degildi. Biləks camaat arasına əyyaşlıq salmaq idi. Biz isək bu məqsədi təqib etmiyoruz.

Nəhayət, Malxazov diyor ki, hökumət böylə layiheyi-qanuniyyələri tərtib verərkən müəssisələrlə müşavirədə bulunmalıdır. Deməli, bu layihə tərtib verilərkən mərkəzi şərabçılıq komitəsinə məsləhət etməli imiş. Halbuki haman komitənin bütün heyəti tam bürokratdır. Onunla məşvərətdə bulunmaqdan camaatə və hökumətə bir xeyir çıxmazdı. Hətta nəzarət o komitənin ilğası həqqində bir layiheyi-qanuniyyə hazırlıyor. Əlavə: bu saat şərabın şüşəsi 70 manat, konyakın şüşəsi 100 manatdır. Yetmiş manatdan 2 manat, yainki yüz manatdan 6 manat vergi tələb etmək çox böyük bir şey degildir. Vergi artırılsa içki bahalanar deyə, parlamanı bahalaşmaqla qorxutmaq dəxi bicadır. Bir də, məbus əfəndilər, şərab ayrıdır, spirt ayrı. Bu qanun ancaq spirt üçündür. Nəhayət, dövlətin böyük bir promışlennostını da boğmaq olmaz. Bilxassə ki, buradan xəzinəyə 75 milyon manata qədər mənfəət vüsul oluyor.

Rəyə vəz olunaraq layiheyi-qanuniyyə əksəriyyəti-ara ilə qəbul ediliyor.

Bədə 1- xəzinə palatasının ləğvi; 2- hərbiyyə qanunu 15-ci maddəsinin təbdili; 3- dövləti gəlir vergisi qanununun 45 və 46-cı maddələrinin dəgişməsi; 4- şəhadətnaməsiz olan içki ticarətindən alınan cərimələrin artırılması və 5- maaşların artırılması həqqindəki layiheyi-qanuniyyələrə baxılaraq birinci, ikinci qiraətdə qəbul ediliyorlar.

*"Azərbaycan", 23 sentyabr 1919, №280*

## KABİNƏ TƏŞKİLİNƏ AİD

Rəisül-Vükəla Nəsib bəy Yusifbəyli həzrətlərinin istefası xəbəri Azərbaycanın həqiqi demokratiya və füqərayi-kasibəsini təlaş və əndişələrə saldı.

Bu vəqə, yəni Azərbaycan fəhlə, əmələ, əsnaf, sənətkar və bilümum bütün həqiqi demokratlarının Nəsib bəyə tərəfdar çıxıb da onun təkrar ümuri-idarə başında olmasını ciddən və misranə bir surətdə arzu etmələri Nəsib bəy əleyhində olanlar üçün bir sillə və Azərbaycan füqərayi-kasibəsi namına Nəsib bəyi danlamağa qalxışanlardan ötrü bir şapalaqdır.

Hökumətimizi bəy-xan hökuməti deyə nahəqq yerə töhmətləndirmək istəyənlər dəxi bu vəqə dolayisilə mənəvi bir zərbə yedilər, zənn edirəm. Çünki Nəsib bəyin istefasına qarşı protesto sədalarını çıxaranlar, bəylər və xanlar degil, məmləkətimizin demokrat və füqərayi-kasibə sinfidir. İndiyə qədər nə bir bəydən və nə bir xandan "Nəsib bəy yerində qalsın" deyə bir səs, ya bir arzu eşitmədik. Halbuki hökumətimiz vaqeən bəy-xan hökuməti olsa idi bu istefadan dolayı təlaş və əndişələrə düşənlər dəxi bəylər və xanlar sinfi olardı, nəinki demokrat və füqərayi-kasibə.

Nəsib bəy nə üçün istefa etdi? Onun üçün ki, sosialist fraksiyasının yersiz çıxışı onun qəlbini sındırdı.

Bir adam ki, ağır şərait içində yaman günlər keçirməkdə olan vətənin zimami-idarəsini əlinə alıb məsuliyyət yükünü üzərinə götürə və böylə nazik bir zamanda müdəbbiranə bir siyasət yeridib də vətəni nəinki təhlükələrdən qoruya, hətta haman qan tökmədən, qurban vermədən böyük-böyük siyasi müvəffəqiyyətlər qazandıra, həlli dedikcə müş-

kül olan məsələləri kəmali-sühulətlə həll edə, bizi təhdid edən təhlükələri bərtərəf edib mövqeimizi biganələr nəzərində möhtərəm bir hala sala – o adam bir bu qədər müvəffəqiyyətlərdən sonra heç olmasa bir quru "çox sağ ol" də eşitməyib onun əvəzində nahəqq yerə təkdir, məzəmmət və məlamətlər dinləməgə məcbur olarsa, əlbəttə, onun qəlbi sınıb rəncidəxatir olar.

Bu fəqərə istefanın psixoloji səbəbidir. Lakin səbəbi-istefa yalnız bundan ibarət olmuş olsa idi, Nəsib bəyi hissiyyata qapılmaqla ittiham edib sögülsən də, dögülsən də sən öz vəzifəndə sabitqədəm olmalısan, demək olardı. Fəqət digər bir səbəb dəxi vardır ki, o da parlamentarizm rəsmiyyətinin pozulmasıdır. Böylə ki, sosialistlər sorğusunun nəticəsində Nəsib bəy kabinəsinə etimat göstərən dimək olar ki, yalnız bir "Müsavat" fraksiyası oldu. Doğrudur, bu etimad əksəriyyəti-ara qazandı və kabinə istefasına səbəb qalmadı, lakin Nəsib bəy kabinəsi təşkilində öz adamları vasitəsilə iştirak edib, əvvəlcə bu kabinəyə etimad göstərənlərin birdən dönüb də xilafgiranə bir vəziyyət almaları – acaib-qəraibligi bir tərəfdə dursun – hökumətin istinad edəcəgi parlaman əksəriyyətligini pozub istinadgahı xələldar etdi. Böylə ki, əvvəldə Nəsib bəy kabinəsi düzəlirkən "Müsavat", sosialistlər və "Əhrar" fraksiyaları bu kabinə təşkili üçün adamlar verdilər.

Məsələn, "Müsavat"dan Nəsib bəy özü, Ağa Əminov və Nəriman bəy, sosialistlərdən Aslan bəy Səfikürdli, Cəmo bəy Hacınski və "Əhrar"dan Aslan bəy Qardaşov və böyləliklə, bu kabinə üçün istinadgah olmaq üzrə bir parlaman əksəriyyəti təşkil etdilər, lakin kabinə işə başlayıb bir bu qədər müvəffəqiyyətlərə nail olduğu bir zamanda ki, mövqei daha bərkimiş olmalı idi, sosialistlərlə "Əhrar" fraksiyasi intizar

xaricində olaraq birdən-birə xilafgir bir vəziyyət alıb, istinadgahı laxlatdılar.

Nəsib bəy, kabinəsinin istinad etdigi mövqei zəif görüb, istefa etdi, etdi ki, əgər təkrar seçilərsə, mövqeini möhkəmlətsin, istinadgahını bərkitsin, yox, seçilməzsə – o başqa məsələ.

Keçən gün xəbər verdigimiz üzrə parlaman rəisi həzrətləri yeni kabinə təşkilini təkrar Nəsib bəyə həvalə etmişdir. Deməli, həqiqi Azərbaycan demokrat və füqərayi-kasibəsinin arzu və tələbləri bununla isaf edilmiş olur.

Şimdi Nəsib bəy yeni kabinə düzəltməlidirlər. Bu kabinəyi təşkil edərkən, əlbəttə, təkrar sosialistlərə və ya "Əhrar"a müraciət etməgə artıq məhəl qalmıyor. Çünki bu fraksiyalar öz sözlərinin üstündə dura bilməyib, özlərini "kompromitə" etdilər. İndi ki, bunlar müxalifgirlik ixtiyar etmiş oldular, o surətdə Nəsib bəy kabinəsində iştirak edə bilməzlər və hətta xilafgirlikdən əl çəkmək istəsələr də, yenə güman yoxdur Nəsib bəy bu vəqədən sonra təkrar bunlara bel bağlaya bilsin.

Ona görə təbiidir ki, parlamanın başqa fraksiyalarına müraciət etmək lazım gələcəkdir.

Zənn edilir ki, ümuri-idareyi-dövlət işlərinə sağlam bir nəzərlə baxıb rast və müstəqim bir yol ilə iş aparılması tərəfdarı olanların kömək və müavinətlərinə istinad edib də parlaman əksəriyyətinin etimadına məzhər olacaq bir kabinə təşkili Nəsib bəy üçün bir o qədər də çətin olmayacaqdır. Ümumun arzusu budur ki, Nəsib bəy həzrətləri öz kabinəsini tezlik ilə düzəltdirib cümhuriyyətimizin idareyi-ümurinə əvvəlkindən daha artıq ciddiyyət və müvəffəqiyyətlərlə mübaşir olsunlar.

**Hacıbəyli Üzeyir**

***"Azərbaycan", 23 sentyabr 1919, №280***

Məlamət – qınama; danlaq

İsaf – başqasının tələb və istəyini yerinə yetirmə

## NƏSİB BƏYİN İSTEFASI ƏTRAFINDA

– 1 –

Müdiri-möhtərəm əfəndidən rica olunur ki, bu kaç kəlmə sözlərimizi "Azərbaycan" qəzetəsinin bir guşəsində dərc etsinlər.

Biz, Bakı Hacı Pirverdi məscidi camaati "Azərbaycan" qəzetəsinin 276-cı nömrəsində Rəisi-Vükəla Nəsib bəy Yusifbəyli əfəndinin istefa verdigini oxuyub xeyli qəmgin və məhzun olduq. Öylə vətən, millət yolunda bu qədər çalışqan bir vücudun istefasının qəbul edilməməsini qəzetə vasitəsilə rica edirik və Parlaman əzaları əfəndilərdən həm bu barədə kömək istiyoruq.

(200-ə qədər imza)

– 2 –

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Türkan şöbəsi tərəfindən Divani-Rəyasətə ikinci iclasda ikinci qətnamə olmaq üzrə böylə bir qətnamə göndərilmişdir:

Rəisi-Vükəla Yusifbəyli Nəsib bəy həzrətlərinin istefasını "Azərbaycan" ceridəsinin 274-cü nömrəsində oxuyub öylə fəal və çalışqan bir zatın istefasını qəbul etməməgi Parlaman əzasından qəzetə vasitəsilə rica etməgi təhti-qərara aldıq.

Sədr: Əliheybət Həsrətzadə

– 3 –

Müdiri-möhtərəm əfəndidən rica olunur ki, qəzetə sütunlarında bu bir neçə kəlmə sözlərimizə yer verəsiniz.

Biz, ümuməhmədli kəndinin sakinləri "Azərbaycan" qəzetəsinin 274-cü nömrəsində Rəisi-Vükəla möhtərəm Nəsib bəy

Yusifbəyli əfəndinin istefa verdigini oxuyub nəhayət dərəcədə mükəddər olduq. Vətən və millət yolunda böylə çalışqan bir vücudun işləməsi nə qədər xeyirli olduğunu bilib, onun fəaliyyətini nəzərə alıb, istefasının qəbul edilməməsini qəzetə vasitəsilə rica edirik və Parlaman əzalarından istefasının qəbul edilməməsini təmənna ediriz.

Sədr: Həsən Abbasqulu oğlu

– 4 –

Müdiri-möhtərəm əfəndidən rica olunur ki, bu neçə kəlmə sözlərimizi "Azərbaycan" qəzetəsinin bir guşəsində dərc etsinlər.

Biz Sabunçu camaəti və fəhlə sinifləri "Azərbaycan" qəzetəsinin 274-cü nömrəsində Rəisi-Vükəla möhtərəm Nəsib bəy Yusifbəyli əfəndinin istefa verdigini oxuyub xeyli qəmgin və mükəddər olduq. Öylə vətən və millət yolunda çalışqan bir vücudun bizim üçün nə qədər lazım olduğunu bilərək və fəaliyyətini təqdir edərək, o vücudun istefasının qəbul edilməməsini qəzetə vasitəsilə rica edirik və Parlaman əzaları əfəndilərdən həm bu barədə kömək etmələrini təmənna edirik.

(50-yə qədər imza)

***"Azərbaycan", 23 sentyabr 1919, №280***

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 22 EYLÜL İCLASI

**Sədr**: Həsən bəy Ağayev
**Katib**: Əhməd Cövdət
**Sədr:** İclası açaraq məsaili-yövmiyyəyi elan ediyor.

4-cü növbədə hökumət qulluqçuları maaşlarının artırılması haqqindəki layiheyi-qanuniyyədir. Məmurların əhvalının ağırlığını nəzərə alaraq məsələnin bir an əvvəl həlli üçün maaşlarının artırılması həqqindəki layiheyi-qanuniyyə ikinci növbəyə keçiriliyor.

### Darülfünun

Birinci növbədə darülfünun açılması həqqində layiheyi-qanuniyyənin üçüncü qiraətinə başlanıyor. Birinci 5 fəsil bilaetiraz qəbul olunur. Yalnız 3-cü fəsldə darülfünun şurası məsələsi mübahisəyə bais oluyor. Sosialistlər darülfünun şurasında tələbələrin də iştirak etməgə həqli olduqlarını qeydlə şurada onlara yer verilməsini tələb ediyorlar. Sosialistlər tərəfindən Əhməd Cövdət təklif ediyor ki, tələbələr şurada iştirak etsinlər fəqət rəy həqqinə malik olmasınlar.

Başda maarif naziri həzrətləri olmaq üzrə digər natiqlər və fraksiyalar isə tələbələrin şurada iştirak etmələrinə lüzum görmüyorlar. Çünki həqli olaraq bəyan ediyorlar ki, bir təşkilatda bu ya o tərəfin iştirakı onun hüquqi-siyasiyyəsini təmin üçündür. Tələbələrə həqqi-iştirak tələb edilən məmləkətlərdə – məsələn Rusiyada – dəxi bu iş ancaq siyasi mülahizə ilə idi. Zira oralarda tələbələr heç bir siyasi hüquqa malik degildilər.

Bir də Rusiyada darülfünunu maarif mənbəindən ziyadə bir siyasi müəssisə idi. Odur ki, tələbələr dəxi əksərən siyasətlə iştiğal ediyorlardı. Fəqət Azərbaycan kibi ümum vətəndaşların hüquqi-siyasiyyələrini təmin edən, hürriyyəti-tammə vermiş olan bir məmləkətdə tələbələrin hüquqi-siyasiyyələrindən bəhs etməgə belə ehtiyac yoxdur. Rusiyada mülahizati-siyasiyyədən nəşət etmiş olan məsələləri bu gün Azərbaycanda da qaldırmaq heç müvafiq degildir. Tələbələr əgər siyasətlə məşğul olacaqlarsa müəllim və tələbə sifətilə darülfünunda degil sair vətəndaşlar kibi məclislərdə, təşkilatlarda iştiğal etsinlər. Zira siyasətlə iştiğal üçün firqələr, müəssisələr və Parlaman kibi ali bir məclis mövcuddur. Qaldı ki, şurada iştirak etməklə tələbələr darülfünuna aid məsələlərin də həllinə hüsni-təsir icra edəmməzlər.

Məsələn, ayrı-ayrı kürsülər, ayrı-ayrı müəllimlər dəvəti və sair kibi məsələlərin həllində edadiyyələri yenicə bitirmiş olan tələbələr heç bir mənfəət gətirəməzlər.

Səsə qoyulduqda Əhməd Cövdətin təklifi keçmiyor.

### Maaşların artırılması

Sonra hökumət məmurları maaşlarının artırılması məsələsinə keçiliyor. Maliyyə-büdcə komissiyası tərəfindən Əbdüləli bəy Əmircanov məruzə təqdim ediyor.

Maaşların artırılması həqqində Parlamanda bu vəqtədək müzakirə edilmiş layiheyi-qanuniyyələrlə şimdikinin bir fərqi var ki, qabaqkılar ancaq məmurların maaşlarının müəyyən bir faiz artırılması barəsində oluyordu. O zaman böyük nöqsanlar oluyordu. Məsələn bir vəzifə müqabilinə müxtəlif nəzarətlərdə ayrı-ayrı miqdarda maaş veriliyordu. Şimdi isə ümumidövləti məmurlar vəzifələrinə görə bərabərləşdirilərək

cümləsi 18 sinfə təqsim edilmişdir. Bundan əlavə aşağı dərəcə xidmətçilər dəxi 3 sinfə ayrılmışlardır. Bu surətlə ümumdövləti xidmətlərdə eyni vəzifə ilə müvəzzəf olanlar bərabərləşdirilmiş və həpsinə bir miqdar maaş verilməsi təhtiqərarə alınmışdır.

Bundan əlavə bir çox məmurlar var ki, bu vəqtədək öz vəzifəhlərindən başqa ayrı bir iş dəxi götürüyordu. Şimdi bir məmurun iki xidmətdə bulunması mən ediliyor. Yalnız müəllimin azlığı və ehtiyacın çoxluğunu nəzərə alaraq onlara iki yerdə dərs verməк ixtiyarı veriliyor. Digər tərəfdən bəzi mütəxəssislərə tədris üçün iki vəzifədə olsa müsaidə ediliyor. Məsələn bir mütəxəssis mühəndis ya hüquqşünas hökumət məmurları olduğu halda məktəblərdə sənət və hüquq tədris edə bilərlər.

Bu surətlə maarif nəzarəti məmurlarının işi bir qədər yüngül və asanlaşdırılmışdır.

Bir də yeni maaşın nə vəqtən hesab olunması məsələsi var. Qabaqda martın əvvəlindən verilmək istəniliyordu. Fəqət məlum olduğu üzrə mayın 12-də maaşların artırılması həqqində bir qanun qəbul edilmişdir. İştə haman qanunu nəzərə alaraq maliyyə naziri yeni maaşların iyul ayından təyin qılınmasını təsvib etmişdir.

Maaşların yenidən artırılması nəticəsində xəzinədən nə qədər pul çıxacağı və nə qədər təfavüt edəcəgi məsələsinə gəlincə bu xüsusda müəyyən bir rəqəm göstərmək mümkün degildir. Çünki əvvəla hərbiyyə nəzarətinin smetası və maaş məsələsi bu qanuna daxil degildir.

Saniyən ümumiyyətlə nəzarətlərin məxaric smetası təyin edilməmişdir. Hələ keçən il ümum nəzarətlərə yazılmışdı ki, məxaric smetası tərtib və təqdim etsinlər. Bu vəqtədək ancaq 2-3 nəzarətdən smeta vüsul olmuşdur. Binaənileyh ancaq

təxmin üzərinə demək olar ki, şimdiyədək məxaric 370 milyon idi. Şimdi maaşlar yenidən artırıldıqda illik məxaric 600 milyon manat olacaqdır.

Bu surətlə təqribən xəzinəyə 230 milyon təfavüt ediyor ki, iyuldan bu ilin axırınadək 115 milyon oluyor. Bu cümlədən də 200 milyon manat məxaric yalnız təriq və məabir nəzarəti payına düşüyor. (Səslər: bahoo)

Hökumət bu layihəyi təqdim edərkən müstəcəl baxılmasını xahiş etmişdir.

Maliyyə büdcə komissiyası layihəyə baxıb bir qədər təbdil və təğyir ilə qəbul etmişdir. Təbdilatın da ümdəsi budur ki, əvvəla layihədə senatorlara maaş təyin edilmişdir. Bizim senatımız yoxdur ki, senatorlarımız da olsun. Binaənileyh komissiya bu maddəyi atmışdır.

Saniyən xəzinə palatasının baş məmuru bu vəqtədək 3-cü sinif hesab olunurdu. Şimdi isə 2-ci sinifə gətirilərək nazir müavini ilə bərabərləşdirilmişdir. Salisən məşixəti-islamiyyə sədrləri 3-cü sinifə daxil edilmişlərdir. Bundan əlavə də bir çox məmurlar (məruzəçi mənsəblərini də bir-bir göstərmişdir biz qeydinə lüzum görmədik) bir sinifdən digərinə keçirilmişdir. İştə maliyyə-büdcə komissiyası layiheyi-qanuniyyəyi böylə təbəddülat ilə qəbul və təsdiqini Parlamandan xahiş ediyor.

**Kravçenkov** (rus keşiş) – Məmurların dövlət çərxi mühərriki bazarda zəruri şeylər hesabilə manat kursunun bəzən bir qəpikdən də aşağı olduğunu qeydlə heç xəzinənin bunca böyük ehtiyacı ödəməyəcəgini bəyan ediyor və diyor ki, bununla bərabər hökumət məmurlarını ehtiyac içində buraxmaq olmaz. Zira ehtiyac nəticəsi olaraq məmurlar miyanında rüşvətxorluq, sui-istemal və sairə kibi hərəkətlər artıyor. Binaənileyh dövlət mənafei nöqteyi-nəzərindən yenə yeganə çarə olmaq üzrə maaşları artırmaq lazım gəliyor. Sonra ehtiya-

cı olanları da iki dərəcəyə ayıraraq yuxarı mərtəbə məmurların ən fəna bir halda olduğunu qeydlə bu layihədəki zəmmin də kifayət etməyəcəgini göstəriyor və təklif ediyor ki, yeni maaşlar iyuldan degil martdan hesab olunsun.

**Xocayev** (erməni) – Maaşların artırılmasına rəhm, ədalət kibi degil dövləti bir tədbir kibi baxılmasını tövsiyə edərək diyor ki: cavan cümhuriyyətə vicdanlı, sədaqətkar məmurlar lazımdır. Bu da o vəqt olar ki, məmur maddətən təmin edilsin. Bu gün məmurlardan insafsızlıq, rüşvətxorluq, sui-istemal görülüyorsa səbəbi əxlaq pozğunluğu degil, ancaq maddətən təmin edilmədiklərindəndir. Bu nöqteyi-nəzərdən heç imdi təklif olunan artırma dəxi həqiqi bir tədbir təşkil etməz. Çün nə qədər ki, mal azdır – baha olacaq və nə qədər ki, bahadır maaşların artırılması məmurları təmin edəmməz.

Binaənileyh hökumət öz məmurlarına həqiqi kömək çarələri düşünməlidir. Məsələn məmurlara müavinət üçün hökumət zəruri şeylər alıb ucuz qiymətlə qulluqçulara verməlidir. Böylə olmadıqca maaş nə qədər artırılsa da kömək etməz.

**Vanseviç** (polyak) – Məmurların birləşdirilməsindən narazı qalaraq diyor ki: bəzi nəzarətlərin məmurlarına, xüsusən ədliyyə nəzarətinə ayrıca diqqət və əhəmiyyət verməlidir. Bir məmləkətin yaşaması və səadəti üçün birinci şərt qanun və ədalətdir. Bu isə ədliyyə məmurlarından asılıdır. Ədliyyə məmurları sairləri ilə bərabərləşdirildikdə onlar dəxi adi bir qulluqçu olurlar. Halbuki onlar müstəqil və müstəqim yol getməlidirlər. Bir ədliyyə məmurunun həqq və ədalətə çalışması üçün mütləqa onu tam mənasilə təmin etmək lazımdır. Doğrudur sair məmurların da vəzifəsi var, onlardan da hüsni-ifa tələb olunur. Lakin onlar ayrı işlər də tapıb kənardan da pul qazana bilərlər. Amma ədliyyə məmurları ələlxüsus sudyalar öglə degildirlər. Binaənileyh ədliyyə məmurlarını sairlər

ilə bərabərləşdirmək yaxşı degil və onların maaşının bu qərar ilə artırılması azdır.

**Əhməd Cövdət** (Sosialist) – Layiheyi-qanuniyyənin böyük əhəmiyyətə haiz olduğu, maaş azlığının hamıya aşkar və ehtiyac içində bulunan məmurların maaşlarının artırılması lazım olduğunu qeydlə diyor ki: fəqət bununla bərabər məvaciblərin artırılması düz bir yol degil ki, tutuyorlar. Bununla məmurlar və hökumət təmin edilmiş olmaz. Çünki nəzarət daima məmurlarını təmin üçün maaşların artırılmasını tələb ediyor. Amma başqa bir çarə görmüyor. Halbuki maaş artdıqda mal da bahalanacaq. Pulun kursu düşəcək yenə ehtiyac qalacaqdır. Məsələn, martda artırmışdıq. Mayda yenə artırdıq. Şimdi sentyabrda bir daha artırmağa məcburuz və kimsə təxmin edəmməz ki, dekabrda yenə artırılmayacaqdır. Bu halın bir çox səbəbləri var ki, hökumətdən asılı degildir. Məsələn, hərbi-ümumi, qarışıqlıq, hərci-mərc və sair. Lakin bəzi səbəblər də var ki, onun çarəsi hökumətin əlindədir. Məsələn, biz Gürcüstandan dövlətli olduğumuz halda Tiflis Bakıdan bahalıq ikən orada məmurlar Azərbaycan məmurundan az maaş alıyor və daha rahət yaşıyorlar (?) Çünki Tiflisdə çörəyin girvənkəsi 10 manat ikən gürcü hökumətinin siyasəti nəticəsində məmurlar 3 manata alıyorlar. Qənd, çay, şəkər və sairdən də ucuz alıyorlar.

Şimdi bizim hökumətimiz xüsusən ərzaq nəzarətimiz dəxi hökumət qulluqçularına ucuz qiymətlə taxıl, qənd, çay, şəkər, arşın malı və sairə verməlidir ki, onların halı yaxşılaşsın. Digər tərəfdən haman şeylərin alınmasında dəxi hökumət bir çox müşkülat çəkiyor. Çünki tacirlər alıb ehtikar ediyor, malı bahalandırıyorlar. Hökumət bunun da müqabilinə öylə tədbirlər görməlidir ki, kəndisi malı ucuz ala bilsin.

Bir də bunu da nəzərdə tutmalıdır ki, maaş ilə ümrarihəyat edən yalnız qulluqçular degil əmələ dəxi o haldadır. O da aldığı maaş ilə dolanıyor. Binaən hökumət onların da dərdinə qalaraq ərzaqdan təmin etməlidir. Doğrudur ərzaq naziri son zamanlar qulluqçulara bəzi şeylər veriyor. Amma öylə veriyor ki, çox vəqt yuxarı dərəcə xidmətçilərə çatıyor, aşağıdakılara yox. Halbuki ən artıq ehtiyacı olan haman aşağı dərəcə məmur xidmətçilərdir. Ona görə hökumət bu işə diqqət verməli, tədbirlər görməlidir ki, buraxılan mallar xırda qulluqçulara da çatsın.

Əlavə hökumət eyni vəzifə ilə müvəzzəf olan məmurların maaşlarını bərabərləşdirmək istəmişdir. Fəqət qaşını qayırdığı yerdə gözünü tökmüşdür. Zira bu yeni layihədə bir çox anlaşılmaz qarışıqlar var ki, müşkülatə və dedi-qoduya bais olacaqdır.

Nəhayət, yeni qanun üzərinə maaşlar artırıldığından hökumətə pul buraxılması istəniliyor. Fəqət bunun da miqdarı müəyyən degildir. Hökumət bunu aydın göstərməli idi ki, nə qədər pul buraxmaq lazımdır.

**Sədr** – Söz Qarayevindir.

*(Mabədi var)*

*"Azərbaycan", 25 sentyabr 1919, №282*

İştiğal – məşğul olma
Müvəzzəf – qulluqçu
Təsvib – təsdiq etmə
Müstəcəl – təcili

## DAXİLİ İŞLƏRİMİZDƏN

Bu axır zamanlarda hökumət məmurları və baxüsus, polis adamları əhali ilə fəna rəftarlarda bulunub, dögmək, sögmək və rüşvət almaq kimi əməllərlə xəlqi incidir və əhalini rəğbətdən salırlar, – deyə bir çox şikayətlər eşidilməgə başlamışdı. Əhali arasından çıxan bu şikayət parlaman kürsüsünə qədər yeriyib, hökumətin bu xüsusda ciddi tədbirlərinə səbəbiyyət verdi. O tədbirlərin başlıcası mülkiyyə baş müfəttişligi təsis etməsidir.

Bu müfəttişligin borcu ümummülkiyyə məmurlarının əfal və əmalına göz yetirmək, bədəməl, bədrəftar, rüşvətxor, xain və xasirləri və bilümum cəmaətə əziyyət verən, xəlqi incidən məmurları iş başından kənar edib, günahları yozunca məhkəməyə sövq etmək və bu növlə heç bir sui-istemalata yol verməməkdir.

Rus istibdadı zamanında polis məmurları əhalinin qənimi və yağısı idi. Əhali polis əhlinə qorxusundan hörmət göstərərdi. Lakin bu qorxu əvvəla əmnü-asayişi təmin etməzdi. Oğrular, əgrilər polis məmurları ilə əlbir olduqlarından, rüşvət verdiklərindən soyğunçuluq, xırsızlıq öz qaidəsilə hökmfərma idi. Və saniyən, bu qorxu bir çox vəqt cüzi bir təqsir üzündən nə qədər adamları qaçaqçılıq halına salıb, özünü də, özgələri də fəlakətlərə məruz qoyardı. Polis böylə bir zəmdə idi ki, onun vəzifəsi əhalinin baş və bədəni üzərinə şallaq çəkməkdən və rüşvət almaqdan ibarətdir.

Fəqət azad və müstəqil Azərbaycan hökumətində böylə bir əcaib vəzifəşünaslığa yer verilməməlidir. Polis əhli öz vəzifəsinin əsl mənasını dürüst bilməli və dərk etməlidir. Onun doğrudan-doğruya vəzifəsi əhalinin canını, malını,

şərəf və heysiyyatını hər bir təcavüzdən qorumaq və dövlət qanun və qaidələrini camaat arasında icra edilməsinə çalışmaqdır. Əhali polis məmurlarını qorxu üzündən degil, onu təcavüzlərdən qoruyan bir mühafiz, bir qoruqçu sifətilə layiqi-ehtiram bilməlidir.

Mülkiyyə baş müfəttişliginin idarəsi – hökumətin müsib və məqul bir tədbiri nəticəsi olaraq doğruluq və sədaqəti ümumca şək və şübhə xaricində olan möhtərəm və müqtədir bir zata tapşırılmışdır. Bu zat bütün Azərbaycanca məşhur, millət və vətən məhəbbətilə məruf və bu yolda həbsxanalar bucağında can çürütməgə varıncaya qədər fədakarlıqlarda bulunmuş olan möhtərəm Faiq əfəndidir. Mühüm və mühümlüyü qədər də məsuliyyətli olan böylə bir idarənin başında Faiq əfəndi kibi etibar və etimadi-tamməyə layiq olan adamları görərkən qəlbimiz mütməin olmaqla gələcəgə nikbinanə bir nəzərlə baxmağa əsasımız olub, qəlbimiz dəxi fərəhlənir.

Möhtərəm Faiq əfəndinin vəzifəsi dedikcə ağırdır: vicdan qarşısında, dövlət nəzdində, camaat əndindəki məsuliyyəti təsəvvür etdikcə böyükdür. Milisionerdən tutmuş ta qubernatorlara qədər hər kəsə göz yetirmək, bir-birinin əməlinə diqqət vermək, sui-istemalat vaqe olduğu halda onu heç bir hissiyata qapılmadan, xətər gözləmədən, özünə düşmən qazansa da həqqi-nahəqqə vermədən tədqiq və təhqiq etmək, dövlət mənafeini hər bir şeydən əziz tutan Faiq əfəndi kimi qiymətli zatların əlindən gələ bilər. Bu üzdən cavan cümhuriyyətimizdə məmurlar sui-istemalatına heç bir vəchlə yol verilməyəcəkdir və bundan dolayı vaqe olan şikayətlərə məhəl qalmayacağına əmin olduğumuzu bir təbşir surətində xəbər verə bilərik.

Lakin hökumətimizin nəzər-diqqətini bir cəhətə cəlb etmək istərdik.

Bir var ki, məmur təftişdən qorxaraq vəzifəsində sui-istemalat icrasına cəsarət etməz, bir də var ki, öz təbiyyəti və öz tərbiyəsi sövqilə hər bir bəd əməl və fəna hərəkətlərdən ictinab ilə özünü saxlamağa qeyrət edər. Məmurun qorxutmaq yoluyla öz vəzifəsində doğruluq göstərməsinə mülkiyyə müfəttiligi təsisi ilə cəhd edən hökumət onlardan bir paralarının təlim və tərbiyəsinə də icrai-təsir edə bilər ki, bu yolilə də sui-istemalat rəf olub getsin. Məsələn, polis və jandarma məmurları üçün xüsusi məktəblər açmaq yolu ilə elmli və tərbiyəli milis və jandarmalarımız olub, əhali bir çox nahəqq sögüşdən-dögüşdən, təhqir və təkdirdən azad olmaqla bərabər milis və jandarma vəzifələri dəxi layiqli və lazımlı bir surətdə ifa olunar. Baxüsus, böylə məktəblərdə polis və jandarma vəzifələrinə aid olan dərslərdən əlavə dərs alanlarda milli ruh, milli tərbiyə və vətənpərvərlik hissi oyadacaq və tərbiyə edəcək sözlər və söhbətlər irad edilərsə böylə bir tərbiyə nəticəsi olaraq dövlət və millətpərəstlik sövqilə vəzifəsi başında duran kiçik məmurlara malik olmağımızla cavan cümhuriyyətimizə böyük xidmətlər göstərmiş olarıq.

Biz zənn edirik ki, bu yolda çalışmaq, yəni polis və jandarma məktəbləri açılmasına səy etmək möhtərəm Faiq əfəndinin doğrudan-doğruya vəzifələrindən biri və mühümüdür. Ona görə bu yolda Faiq əfəndinin lazım olan təşəbbüsata girişməgini və girişib də bu mühüm əmrə müvəffəq olmaqlarını ümüd və arzu edirik. Hökumətin bu yolda Faiq əfəndiyə kömək edəcəginə şəkkimiz ola bilməz.

**Hacıbəyli Üzeyir**

***"Azərbaycan", 25 sentyabr 1919, №282***

Mütməin – şübhə etməyən, yəqin bilən

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 27 SENTYABR İCLASI

İclas saət 12-də açılıyor.

**Sədr**: Həsən bəy Ağayev

**Katib**: Mehdi bəy Hacınski

Sədr iclası açıyor və məsaili-yövmiyyəyi elan ediyor.

Birinci növbədə dövlət məmurları maaşlarının artırılması həqqindəki qanun layihəsinin ikinci qiraətinin mabədi.

15-ci maddə oxunuyor. Keçən nömrəmizdə qeyd edilmiş olduğu üzrə qabaqkı iclasda Abdulla bəy Əfəndizadə 17 və 18-ci siniflərin ləğv edilməsi və aşağı dərəcə xidmətçilərə haman siniflərə məxsus maaş verilməsini təklif etmişdi.

Bu barədə müzakirə açılıyor.

**Malxazov** – məzkur siniflər arasında öylə bir fərq olmadığını və binaənileyh siniflərin dəgişməsinə lüzum və əhəmiyyət görmədigini qeydlə təklifin birinci qisminə etirazla, aşağı dərəcə xidmətçilərə 17 və 18-ci sinif məmur maaşı verilməsi həqqindəki ikinci qisminə iştirak ediyor.

**Aşurov** – aşağı sinif xidmətçilərin siniflərə daxil edilməsini onları məmurlarla bərabərləşdirmək kibi tələqqi edərək bunun da məntiq və ədalətsizlik olduğunu göstəriyor. Digər tərəfdən bu təklif qəbul ediləcək olursa təklifin ayda neçə milyon təfavüt edəcəgi göstərilmədigini bəyanla təklif ediyor ki, layihə komissiyanın təklif etdigi kibi qəbul edilsin.

Məruzəçi təklifə razı olmuyor. Və rəyə vəz olunduqda əksəriyyəti-ara ilə rədd ediliyor.

15-ci sinif əksəriyyəti-ara ilə qəbul olunuyor.

16-cı sinif müzakirəsinə keçiliyor.

**Kiçikxanov** – Məhkəmeyi-şəriyyə sədri 16-cı sinifdə qeyd edilmiş olduğundan kargüzarı da 16-cıda idi. Şimdi parlamanın qərarilə sədr 8-ci sinifə keçirilmişdir. Binaənileyh təklif ediyoram məhkəmeyi-şəriyyənin kargüzarı 10 və katibləri 13-cü dərəcəyə keçirilsinlər.

Təklif əksəriyyəti-ara ilə qəbul olunur.

16, 16 bis, 17, 17 bis və 18-ci siniflər və kiçik xidmətçilərə aid 1, 2, 3-cü dərəcələr bilaetiraz qəbul ediliyorlar.

Qanunun 3-cü qiraətinə keçiliyor.

Birinci maddə oxunduqda Vansoviçin təklifi yenidən mübahisəyə bais oluyor. Vansoviç təklif ediyor ki, sudyaların, müddəiyi-ümuminin maaşı 50 faiz artırılsın və baş notarius maaşca nahiyə məhkəmələri əzasilə bərabərləşdirilsin.

**Malxazov** – təklifə iştirak ediyor.

**Qənizadə Soltan Məcid** – təklifin birinci qisminə iştirak ediyor, fəqət baş notariusların daxil edilmələrinə razı olmuyor.

**Aşurov** – sudyalara çox maaş verilməsinə əsasən razı oluyor. Fəqət təklif ediyor ki, maaşları 50 faiz artırılmasın, ancaq hökumətə tapşırılsın ki, bir ay, ya 3 həftə zərfində bu xüsusda yeni bir layihə tərtib verərək Məclisi-Məbusana təqdim etsin. Tainki məbuslar hökumətin də rəyini bilsinlər.

**Hacınski Mehdi bəy** – Bu təklif qəbul edildigi təqdirdə bir də qanunun kimlərə şamil olduğu həqqində izahat verməgə lüzum olmaq dərəcə ixtilaf çıxacağını qeydlə Rəsulzadə Məhəmməd Əminin "Müsavat" namindən etmiş olduğu təklifi təkrarla təklif ediyor ki, hökumət bu barədə ayrıca bir layiheyi-qanuniyyə tərtib versin.

**Malxazov** – Bəyanat veriyor ki, məsələ o qədər vazehdir ki, əsla ixtilafı mucib olmaz. Zira bu təklif ancaq bilavasitə mühakimə ilə əlaqədar məmurlara şamildir.

**Məruzəçi** – Bu təklif qəbul edildigi təqdirdə sair nəzarətlərdə olan bir çox məmurların məsələsi qalxacaq və binaənileyh bir

çox yeni qanunlar tərtib vermək lazım gələcəgini qeydlə diyor ki, bu təklif məqbul degil. Ancaq arzu etmək olar ki, hökumət 50 degil, 10, ya 20 faiz artırmaq üçün yeni bir qanun layihəsi tərtib versin.

Təklif iki hissəyə ayrılaraq əvvəl hakimlərin maaşlarının 50 faiz artırılması, sonra da baş notariusun məhkəmə üzvlərilə bərabərləşdirilməsi səsə qoyulur və əksəriyyəti-ara ilə qəbul olunuyor.

1, 2, 3, 4, 5, 6, 7, 8, 9-cu bablar təshihlərilə bərabər bilaetiraz qəbul olunurlar.

10-cu bab rəyə vəz edildikdə, yeni maaşların nə vəqtdən hesab olunması məsələsi mübahisəyi mucib oluyor.

**Kravçenkov** təklif etmişdi ki, martın birindən hesab olunsun.

**Xocayev** təklif etmişdi ki, martdan olmasa da barı mayın birindən hesab olunsun.

**Məruzəçi** – diyor ki, martdan hesab edilsə xəzinəyə 80 milyon, maydan edilsə 40 milyon təfavüt edər. Maliyyə nəzarəti nümayəndəsi Məclisi-Məbusan komissiyası iclasında bəyan etmişdir ki, hökumət əsla bunu verə bilməz. Binaənileyh bən komissiya namindən təklif ediyoram iyulun birindən hesab olunsun.

Rəyə vəz edildikdə Kravçenkov və Xocayevin təklifləri rədd və 10 və 11-ci bablar komissiyanın qəbul etdigi qərar üzrə qəbul ediliyorlar.

Bədə layihənin 3-qiraəti səsə qoyularaq bilaetiraz qəbul olunur.

Nəhayət, bir arzu təklif ediliyor ki, hökumət məmurlara bundan böylə ucuz qiymətlə və şimdikindən çox məkulat və zəruri şeylər versin. Arzu müttəhidülrəy qəbul olunur. Tənəffüs elan ediliyor.

**Tənəffüsdən sonra**

1- Topraq vergisinin təzyidi həqqindəki layiheyi-qanuniyyə 3-cü qiraətdə maddə-maddə, sonra tamamilə rəyə vəz edilərək təshih və əlavəsilə müttəhidülrəy qəbul olunur.

2- Tamaşaxana və əyləncələrdən alınan verginin artırılması həqqindəki layiheyi-qanuniyyə 3-cü qiraətdə bilaetiraz qəbul olunur.

**Malxazov** – Bu layiheyi-qanuniyyə ilə əlaqədar olaraq bir arzu təklif ediyor ki: "Teatrodan alınan vergiləri həddən ziyadəədd edərək Məclisi-Məbusan arzu ediyor ki, hökumət bu xüsusu bir qaidəyə salacaq bir layiheyi-qanuniyyə tərtib versin".

Arzu müttəhidülrəy rəy qəbul olunur.

3- Azərbaycan xəzinə palatası müdir müavinligi vəzifəsinin ləğvi həqqindəki layiheyi-qanuniyyə 3-cü qiraətdə bilaetiraz qəbul ediliyor.

4- Dövləti gəlir vergisi xüsusundakı qəvaidin 45 və 46-cı maddələrinin təğyiri həqqindəki layiheyi-qanuniyyə 3-cü qiraətdə bilaetiraz qəbul olunur.

5- Məhkəmeyi-hərbiyyə qanununun 15-ci maddəsinin təğyiri həqqindəki qanun layihəsi bilaetiraz (3-cü qiraət) qəbul ediliyor.

6- Dövlət varidatı alınmaq üçün əhali malının siyahı edilib satılması xüsusundakı qanunun təğyir və təbdili həqqindəki layiheyi-qanuniyyə maddə-maddə və sonra tamamilə səsə qoyularaq bilaetiraz qəbul olunur.

7- Şəhadətnaməsiz olan içki ticarətxanalarından alınan cərimənin artırılması həqqindəki layiheyi-qanuniyyə maddə-maddə və tamamilə oxunaraq bilaetiraz qəbul olunur.

Nəhayət, bəxşiş, mükafat və rüşvət alma və tələb etmə cəzalarının təqviyəsi həqqindəki layiheyi-qanuniyyənin müzakirəsinə keçiliyor.

**Şəfi bəy Rüstəmbəyli** – (məruzəçi) Bu qanun yeni degildir. Əski qanun haman eynilə qalıyor. Fəqət nazir əfəndi rüşvətxorların cəzasını bir qədər artırmaq istəmişdir. Ona görə də bu xüsusdakı qanunun 372, 373 və 378-ci maddələrinin qüvvəsini artırmışdır. Böylə ki:

372-ci maddə bu xüsusdadır ki, bir məmur qanunu pozmadan bir adama kömək edə və onun müqabilində haman adamdan bəxşiş, ya mükafat ala. (Pul başı) Qabaqda böylə məmurun cəzası az müddətə həbsə verilmək idi. Bəzən də xidmətindən əzl edilərdi. Şimdi isə cəzası artırılıb xidmətindən əzl edilər, 8 ay müddətinə həbsxanaya alınar və almış olduğu pulu 10 qat artıq cərimə verər. Əgər aldığı bəxşiş miqdarı müəyyən olmasa 100000 manatdan artıq olmamaq üzrə cərimə təyin edilər.

373-cü maddə: bir məmur qanunu pozaraq bir adamın işini düzəldə və müqabilində bəxşiş, ya mükafat ala. Sabiqdə bunun cəzası 8 aya qədər müddətə həbs və xidmətdən əzl idi.

Şimdi cəzası artırılaraq qulluqdan çıxarılıb, 4-5 il müddətinə islah həbsxanası təyin ediliyor. Fəqət məhkəməyə ixtiyar veriliyor ki, üzri bir əsas olarsa cəzasını yüngülləşdirilərək 8 aydan 1 ilə qədər həbs qərar versin.

378-ci maddə: bir məmur güc ilə rüşvət, ya mükafat ala. Sabiqdə cəzası islah həbsxanası idi. Şimdi böylə oluyor:

1-Əgər rüşvət almış, fəqət təhqir etməmişsə xidmətindən əzl və bütün hüququndan məhrum edilərək 4 ildən 6 ilə qədər kürək (katorjnı) cəzasına məhkum ediliyor.

2- Əgər rüşvət alarkən təhqir etmiş və dögmüş olsa: xidmətindən əzl, hüquq və imtiyazatından məhrum edilərək 8 ilə qədər kürək cəsazına məhkum ediliyor.

3- Əgər dögdükdə bədəni xəsarətlənmiş olsa eyni cəza bir qədər də artırılaraq kürək cəzası 10 ilə qədər oluyor.

Bunlarla bərabər müqəssirdən böyük cərimə alınacaqdır.

Cərimənin verilməsini təmin etmək qəsdilə müstəntiqə tapşırılıyor ki, istintaqa başladıqda müqəssirin bütün mal və əmlakına həbs qoysun; tainki mülkünü və malını başqalarının adına yazdıra bilməsin.

Qanun bilamüzakirə birinci qiraətdə qəbul edilib, ikinci (maddə-maddə) qiraətinə keçiliyor və hər iki fəsli bilaetiraz qəbul olunur.

İclas bununla qurtarıyor.

*"Azərbaycan", 30 sentyabr 1919, №286*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 29 SENTYABR İCLASI

**Sədr**: Həsən bəy Ağayev
**Katib**: Əhməd Cövdət
Sədr iclası açaraq məsaili-yövmiyyəyi elan ediyor. Birinci növbədə darülfünun həqqindəki layiheyi-qanuniyyənin ikinci qiraəti mabəbidir.

### Darülfünun məsələsi

**Mehdi bəy Hacınski** məruzəçi sifətilə nizamnaməyi fəsilbəfəsil oxuyur (İbtidası keçən iclaslardan birisində oxunmuş olduğundan bu gün 4-cü fəsildən başlanıyor).

**Əhməd Cövdət** – (Hümmət) Darülfünuna daxil olmaq üçün edadi məktəb bitirmək şərt qonulmasına etiraz etmədigini bəyanla diyor ki:

Fəqət əsasən razı olmaqla bərabər əhalinin ehtiyacı və dövlətin mənafei naminə bəzi təkliflər etmək istərəm. Məlumunuzdur ki, son illər hərcü-mərc, binizamlıq və sairə kibi şəraitdən dolayı bir çox şəhərlərdə dərslər qaidəsilə gedəməmiş, bir çox yerlər tamamilə dağılmış, pərişanlıq olmuşdur. Ona görə də məzkur şəhərlərdə oxuyan mütəallim və mütəallimələr məktəbləri ikmal edəməmişlərdir. Bunlar 6, 7 və 8-ci siniflərdə qalmışlardır. Şimdi bu qanunu olduğu kibi qəbul edərsək, böylələri darülfünuna girmək ixtiyarından məhrum olacaqlardır. Binaənileyh bən təklif ediyoram bu kibi mütəallimələrə izn verilsin tam tələbə hüquqilə məktəbə daxil olsunlar. Fəqət ikmal etməmiş olduqları bir-iki ilin dərslərindən imtahan vermələri şərt qoyulsun.

Bir də təklif edirəm Tağıyev (Aleksandrin) məktəbini ikmal etmiş olan xanımlar müəyyən və xüsusi fənlərdən imtahan vermək şərtilə darülfünuna qəbul edilsinlər (tam hüquq ilə)

Bənim bu təklifim daimi olmuyub ancaq bu il böylə olsun və bu hüquq ancaq Azərbaycan təbəəsinə verilsin.

İkinci təklifim də budur ki, darülmüəllimin bitirmiş müəllimlər dəxi müəyyən xüsusi dərslərdən imtahan vermək şərtilə darülfünuna qəbul olunsun.

**Qarayev** (sol Hümmət) – Təklif edir ki, universitəyə realnı məktəblərin 5, 6 və 7-ci və zükur edadilərinin 6, 7 və 8-ci siniflərini qurtarmış mütəəllimləri və şəhadətnaməsi olan müəllimləri ümumiyyətlə qəbul edəlim.

Və bir də zaçot həqqindəki qeydi tamamilə bu qanundan ataq və yazaq ki, hər bir tələbə istədigi zaman zaçot verə bilər. (Ümumi gülüş və səs-küy)

**Camalbəyov** (Hümmət) – Müəllimlərin qəbulundan bəhslə diyor ki: bu xüsusda bən tamamilə yoldaşımız Əhməd bəyin təklifinə iştirak ediyoram. Çünki onun təklif etdigi kibi olmazsa çox adam darülfünuna girə bilməz. Halbuki çox məlumatı olan adamlar şəhadətnamələri olmadığına baxmayaraq darülfünuna qəbul edilsələr 4 il zərfində hazırlaşıb imtahan da verə bilərlər.

**Qənizadə Soltan Məcid** (İttihad) – Əhməd Cövdətin təkliflərinə etirazla diyor ki: bir adam darülfünuna qəbul edilib orada oxuduqdan sonra bilməm ki edadiyə ikmalı həqqində imtahan verməgə nə ehtiyac qalar.

Çünki bəncə edadi məktəbi qurtarmaq yalnız bir parça möhürlü kağız almaq üçün degil, onun üçündür ki, mütəəllim darülfünunda leksiyaları anlamaq, dərk etmək qədər məlumat kəsb etmək üçündür. Qaldı ki, əgər sairlərini qəbul etməgə azçox imkan olsa belə Tağıyev məktəbini qurtaranları darülfünu-

na qəbul etmək əsla mümkün degildir. Çünki zükur edadiyyə 5-ci, 6-cı siniflərini qurtarmış olanlar da barı o dərəcə hazır oluyorlar ki, az bir zamanda məlumatlarını artırıb təkmil edə bilərlər. Amma Tağıyev məktəbi ibtidai məktəblər dərəcəsində idi. Və orada lazım olan qədər elm və fənnlər oxunmuyor. Hətta orada müəyyən bir sistem üzərinə müəyyən bir kurs yoxdur. Ümum fənnlər orada ibtidai dərəcədə keçiliyordu. Riyaziyyat isə nəhayət dərəcədə az keçiliyordu. Binaənileyh edadiləri təmam etməmiş yarımçıq mütəəllimlərin qəbulunu mümkünədd etsəm belə, Aleksandrin qız məktəbini qurtaranların qəbulunu heç mümkün bilmiyoram. Məzkur məktəb ibtidada 4 sinifli ibtidai məktəb kibi idi. Sonra bir qədər darülmüəllimata yaklaşdırmaq qəsdilə Marinski ünas məktəblərilə bərabərləşdirildi. Nəhayət, son zamanlar haman məktəb nəzdində iki illik bir pedaqoji kursu açıldı. Bu kurs isə ancaq müəllimıligə xidmət ediyordu. Binaənileyh məktəb yenə ibtidai payəsində qaldı. Odur ki, onların darülfünuna qəbul edilmələri darülfünunun mənasını alçaldar.

Doğrudur, darülfünunun qapısı açıq olmalıdır. Lakin ümum hazırlığı olanlar üçün, nəinki hər kəs istəsə onun üçün.

Müəllimlərə gəlincə, darülmüəllimin qurtarmış şəxslər arasında bəlkə istedadlı, məlumatlı bir çox adamlar tapılar. Fəqət onlar da bir çox şeyləri bilmiyorlar. Məsələn, əcnəbi lisanlarını bilmiyorlar. Darülfünuna qəbul edildikləri təqdirdə onlara ümum tələbələrlə bərabər dərs keçə bilməzlər. O halda onları tələbələrdən ayırmaq lazım gələr, bu da ki, mümkün olmaz. Ayırmasaq da keçə bilməzlər. Binaənileyh onlar tələbə ola bilməzlər. Bu mülahizələrlədir ki, bən diyoram: müəllimlər, məktəbi qurtarmamış yarımçıq mütəəllimlər və Tağıyev məktəbində pedaqoji kursunu qurtaranlar tamam hüquqa malik

tələbə sifətilə degil, bəlkə ancaq məhəlli (volnı sluşatel) kibi qəbul edilə bilərlər.

**Malxazov** – Qənizadənin rəyinə iştirakla diyor ki, tələbələrin miqdarından ziyadə dərəceyi-məlumatını ölçmək lazımdır. Yoxsa tələbə çox olsun deyə hamıyı qəbul edəcək olursaq darülfünunun əhəmiyyəti azalar.

Bir də 6-cı və 7-ci sinif qurtarmış mütəallimlər darülfünuna qəbul edilsələr edadilər boş qalarlar. Zira hankı tələbədir ki, 2 il artıq məktəbdə davam etsin. Vəqta ki, az da oxusa, çox da oxusa darülfünuna qəbul ediləcəkdir. O halda hankı mütəallimdir ki, neçə il də artıq oxusun. Əlhəmdülillah Azərbaycanda dərslər yaxşı qaidəsilə gediyor. Binaənileyh darülfünunu yarımçıqlar ilə doldurmağa lüzum yoxdur. Zira tələbə çoxalar, amma darülfünun qiymətdən düşər. Ona görə bəncə onların miqdarının çoxluğuna degil, məlumatlarının çox olmasına çalışmaq lazımdır.

Zaçot məsələsinə gəlincə, burası professorlar heyətinə aid daxili bir məsələdir ki, bizə əsla dəxli yoxdur. Darülfünunun daxili işlərinə qarışmaq bizim işimiz degildir.

Tələbələrin tez-tez zaçot verməlarinə qaldıqda bu xüsus dəxi 50-ci maddə ilə təmin ediliyor. Tələbələr tez-tez zaçot vermək istəsələr 50-ci maddə mövcibincə kəndilərinə verilən hüquqdan istifadə edə bilərlər.

Nəhayət, diplomsuzların darülfünuna girə bilmələri həqqində də bunu demək istərəm ki, onları təmin üçün də 45-ci maddə var ki, onları təmin ediyor.

*(Mabədi var)*

***"Azərbaycan", 1 oktyabr 1919, №287***

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 29 EYLÜL İCLASI
(mabəd)

**Ağamalı oğlu Səmədağa** ("Hümmət") – Əhməd Cövdətin fikrinə iştirak edərək diyor ki, Azərbaycanın oxumuş adamlara ehtiyacı çoxdur. Binaənileyh darülfünun qapısını hamının üzərinə açmaq lazımdır və bundan qorxmamalıdır. Çünki ortaya ancaq hazırlığı olan adamlar gələcəklərdir. Gəldikdən sonra davam etməgi bacarmayanlar isə dərhal özləri gedəcəklərdir. Amma darülfünun qapısı açıq buraxılmadığı təqdirdə işlər axsıyacaqdır.

**Aşurov** – Cövdətin də, Malxazovun da rəylərini əsaslı hesab ediyor. Fəqət həqiqəti bu ikisinin arasında görüyor. Fəqət heç birisinin təklifinə qəti surətdə razı olmuyaraq qanunun eyni surətdə qalmasını təkliflə diyor ki: Ancaq bir arzu edə biləriz ki, darülfünun komissiyası nəzarət və hökumətin iştirakı ilə şimdiki qanun mövcibincə darülfünuna girə bilməyən, lakin girmələri münasib və lazım görülən zəvatın daxil ola bilmələrini təshil həqqində bir məruzə (?) təqdim etsin.

**Malxazov** – Əhməd Cövdətin və ümumiyyətlə açıq qapı tərəfdarlarının təkliflərinə etirazla diyor ki:

Burada çox təkid ediyorlar ki, ikmali-təhsil həqqində şəhadətnaməsi olmayanlar ancaq bu il qəbul edilsinlər.

Bən bilmiyoram nə üçün onlar böylə güman ediyorlar ki, Azərbaycan darülfünununun birinci kursu, yaxud ilk məzunları savadsız olmalıdır?! Biləks bəncə ilk kurs və ilk məzunlarının ən yaxşı ən parlaq olmasına çalışmalıdır ki, darül-

fünun hazırlığa malik və həyata müstəid adamlar buraxmağa qabil olduğu isbat olunsun.

**Hacınski Mehdi bəy** (məruzəçi "Müsavat") – Ümumiyyətlə darülfünuna ancaq tədris ediləcək ülum və fünunu dərk edəcək dərəcə hazırlığı olanların qəbulu lazım olduğunu qeydlə diyor ki:

Komisyonda bu məsələ müzakirə olunan zaman bən realnı məktəblərin 6-cı və zükur edadilərinin 7-ci sinifindən qurtaranların darülfünuna qəbul edilmələrini müdafiə ediyordum. Şimdi yenə haman təklifimdə israr ediyoram.

4-cü fəsil səsə qoyulduqda qabaqca təklif rəyə vəz edilərək Əhməd Cövdətin təklifi 4 qismə təqsim ediliyor:

1 – Darülfünun birinci sinifi Azərbaycan təbəələrindən edadinin 7 və realnının 6-cı sinfini ikmal etmiş məzunlar dəxi tam hüquqa malik olmaq üzrə darülfünuna qəbul edilsinlər.

Təklifin bu qismi əksəriyyəti ara ilə qəbul olunur.

2 – Zükur edadilərinin 6-cı sinfini bitirmiş olanlara da eyni hüquq verilsin.

Təklifin bu qismi əksəriyyəti ara ilə rədd ediliyor.

3 – Sabiq Aleksandrın (Tağıyev) qız məktəbi nəzdində pedaqoji kurslarını qurtarmış Azərbaycan təbəəsi xanım əfəndilərə də eyni hüquq verilsin.

Təklifin bu qismi rəyə vəz edildikdə əksəriyyəti ara ilə rədd ediliyor.

4 – Darülmüəllimini bitirmiş xanım əfəndilərə (Aleksandriyski Müəllimlər İnstitutu da buraya daxildir) təyin olunmuş xüsusi elmlərdən imtəhan vermək şərtilə eyni hüquq verilsin.

Əksəriyyəti ara ilə təklifin bu qismi də qəbul olunur.

4-cü fəsilə əlavə və təshihlər ilə bərabər qəbul olunur.

5-ci fəsil səsə qoyulduqda kvorum olmadığından 5 dəqiqə tənəffüs elan ediliyor.

### Tənəffüsdən sonra

Darülfünun nizamnaməsinin 5-ci fəsili bilaetiraz qəbul olunur.

### Bəxşiş, mükafat və rüşvət

Bədə bəxşiş, mükafat və rüşvət almaq cəzasının təqviyəsi həqqindəki qanun layihəsinin 3-cü qiraətinə keçilərək ümum maddələri və qanun tamamilə bilaetiraz qəbul olunur.

### Üsyan və hökumət əsaslarına qarşı cinayət

Növbədə üsyan və hökumət əsaslarına qarşı cinayət işləyənlər xüsusundakı cəza qanunlarının təğyiri və təbdili həqqində qanun layihəsidir. Məruzəçi Rüstəmbəyli Şəfi bəy.

**Rüstəmbəyli Şəfi bəy** – Sabiq Rusiya hökuməti tərəfindən verilmiş və Seym tərəfindən təsdiq edilmiş olan qanunlar necə ki, məlumunuzdur Məclisi-Məbusanın qərarına görə bizdə dəxi davam ediyor. Fəqət şimdi bir çox qanunlar var ki, artıq lüzumsuz olmuşdur. Yainki, bizim həyatımız şəraitinə uyğun degildir. Ona görə böylə qanunlar ləğv, yainki təbdil və təğyir edilməlidirlər.O cümlədən olaraq bəzi siyasi hərəkətlər müqabilinə cəza qanunları var idi. Məsələn Rusiyada padşahlıq olan zaman padişaha, yainki xanədan əzasına sui-qəsd və yaxud dövlət əsası və sair müqabilinə sui-niyyətə qarşı böyük cəza qanunları var idi. İmdi bizdə padşahlıq olmadığından padişah və xanədan əzasına qarşı işlənən cinayətlər də yoxdur. Şimdi bizim cümhuriyyətimiz köhnə qanunların bir qismini ləğv və bir qismini də təshih ilə qəbul edir. Və yenə siyasi cinayətlərdə bulunanlar həqqində, məsələn (heyəti-vükəla və heyəti-məbusan) birinə sui-qəsdə bulunmaq istəyən əşxaslar

həqqində tazə qanunlar çıxarılır. Məsələn haman qanunun 100, 101, 102 və 121-ci maddələrini bir qədər dəgişərək baqi saxlamalıdır. Sabiqdə çar və ailəsi əzasına sui-qəsd müqabilinə olan cəza maddələrini şimdi dövlət əzası, hökumət üzvləri, Rəisi-Vükəla və Parlaman rəisi həqqində tətbiq etməlidir. Sonra 103-cü maddəyi üsuli-idarə və əsas dövlət əleyhinə sui-qəsd kibi cinayətlər müqabilinə tətbiq etməlidir. Eyni qanunun 124, 127, 129, 132, 134, 173-cü maddələri hökumət idarəsini dəgişmək, üsyan qaldırmaq və sairə kibi sui-niyyətlə təbliğat icra etmək, mətbuat vasitəsilə təhrikat və təşviqatda bulunmaq, böylə sui-qəsd ilə təşkilat təsis etmək müqabilinə tətbiq olunur. Bu maddələrdən 134-cüsi üsuli-idarədən razı olmuyub dəyişmək fikrində olanlar müqabilindədir.

Komissiya bunun saxlanmasına razı olmadı. Çünki bu iş siyasi hürriyyətə aiddir. Bu gün maddə qalarsa hürriyyəti pozmuş olarız.

Əgər bir adam bu fikirdə olub fikrini mətbuat ya təbliğat vasitəsilə başqalarına da təbliğ edəcək olarsa əlbəttə onun müqabilinə başqa yol ilə mübarizə etmək olar. Lakin cümhuriyyət əsası ilə idarə olunan bir məmləkətdə hürriyyəti-kəlam, mətbuat və ictimaə rəayət edilməlidir və onların müqabilinə cəza təyin etmək olmaz.

Bir də 129-cu maddənin 2-ci fəslinə hökumət və Parlaman əleyhinə sui-niyyət müqabilinə cəzadan bəhs olunur. Malxazov komissiyada bu maddənin qaldırılmasını tələb etdi. Komissiya razı olmadı.

Sosialist və Əhrar fraksiyaları nümayəndələri qanun ilə ətraflı aşina olmadıqlarını qeydlə müzakirəsinin təxirini tələb ediyorlar.

Müsavat nümayəndəsi fraksiya namindən müzakirənin gələcək iclasa qədər təxirinə etiraz olmadığını bəyan ediyor.

Təxir həqqindəki təklif bilaetiraz qəbul olunur.

## Əskəri vergi

Nəhayət, əskərlikdən azad olunanlardan alınan verginin ləğvi həqqindəki layiheyi-qanuniyyənin müzakirəsinə keçiliyor.

**Rüstəmbəyli Şəfi bəy** – (məruzəçi) Sabiq Rusiya hökuməti zamanında əskərlikdən azad olunanlardan 28 manatdan 200 manata qədər (mədaxilə görə) naloq alınırdı. Əvvəla bütün rəiyyətlərin mədaxilini təyin etmək ona görə də vergi almaq mümkün olmuyordu. Saniyən də təcrübə göstərdi ki, bu naloq çox mədaxilsiz bir şeydir. Buna binaən 1917-ci ildə Rusiya hökuməti o xüsusdakı qanunu ləğv etdi və əmrnamə verdi. Fəqət qarışıqlıq düşüb haman əmrnamə Qafqasiyaya yetişmədi və binaənileyh burada tətbiq edilmədi. Bir məqamə gəlmişdi ki, hətta o naloq öz məxaricini ödəmiyordu. Həm də qaidə pək də köhnəlmişdir. Doğrudur əskərlikdən azad olunanların hökumətə, dövlətə başqa bir təriq ilə xeyir və mənfəət verməleri bəlkə lazımdır da. Amma rus hökumətinin o qanunu artıq davam edəmməz. Binaənileyh maliyyə naziri bu qanunun ləğvini lazım bilərək bu xüsusda bir qanun layihəsi tərtib vermişdir. Bundan əlavə köhnə Rusiya naloqlarından 29 min manata qədər qalıq (nedoimka) var. Onu da yığmaq həm çox müşküldür. Həm də heç xərcini ödəməz. Ona görə haman qanunu da götürülməsi təklif olunur. Parlaman komissiyası bu layihəyi bilaetiraz qəbul etmişdir. Məclisi-Məbusandan dəxi qəbulunu rica ediyor.

Qanun layihəsi birinci və ikinci qiraətdə bilaetiraz qəbul edilərək 3-cü qiraəti nizamnamə mövcibincə gələn iclasa qalıyor.

Nəhayət, Sultan Məcid Qənizadə növbədən xaric söz alaraq diyor ki, hazırda darülfünunun ticarət məktəbi və gimnaziya

binalarından ibarət iki binası var ki, lazım olanı təmir etmək böyük məxarici var. Digər tərəfdən keçən il Hacı Zeynalabdin Tağıyev cənabları mərhum oğlunun mərasimi-dəfnində özünəməxsus pasajını türk darülfününununa bəxş etmək üçün millətə bağışladığını xəbər vermişlərdi. Şimdi vəqt yetişmiş. Bakıda darülfünun açılmışdır. Binaənileyh təklif ediyoram Parlaman bir komissiya seçib Hacı cənablarının hüzuruna göndərərək vədlərinə vəfa qılmasını təklif etsin.

İclas bununla qapanıyor.

*"Azərbaycan", 2 oktyabr 1919, №288*

## MÜHÜM MƏSƏLƏ

Keçən səfər parlamanın sosialist fraksiyası təklif etdi ki, parlamanın gələn növbəti iclasında (yəni bu gün) yer və topraq məsələsi ruznameyi-müzakiratda birinci sıraya qoyulsun. Sosialistlərin intizarı xaricində olaraq Müsavat və sair fraksiyalar dəxi bu təklifə razı olmaqla təklif əksəriyyəti-ara ilə qəbul edildi.

Yer və topraq məsələsi mühüm bir məsələdir. Qədim romalıların "patriç" və "plebey"lərini andıran, bu günə qədər əhalini – biri mümtaz, digəri qeyri-mümtaz olmaq üzrə iki sinifə ayıran "bəy" və "rəiyyət" kəlmələri, zatən yer və torpağın qeyri-mütəsavi bir surətdə bulunmasını və ədalətdən kənar tərzi-təməllükünü ifham edən sözlərdir.

Yer və topraq məsələsi Avropa sosioloji alimlərinin çoxdan bəri fikrini məşğul edən ictimai bir məsələdir ki, bilaxirə siyasi firqələrin proqramına dəxi daxil edilib, bunun həlli və çarəsi həqqində hər firqənin xüsusi bir nəzəri vardır.

Əvvəlcə ixtilaf əsası üzərində idi. Yəni yeri bərabər olmaq üçün bir çoxlarının xüsusi malikiyyətlərinə əl vurmaq və malik olduğu yeri əlindən almaq caizdirmi və ya degilmi məsələsi üstündə ixtilaf vardı. Lakin bu günə qədər davam edən inqilablar nəticəsi olaraq bu ixtilaf haman aradan götürülüb bu gün bütün demokratik firqələrin cümləsi yer və toprağın bərabərcəsinə bölünməsi tərəfdarıdırlar. Və arada bir ixtilaf varsa o da "bədəl ilə" və "bədəlsiz" sözünün üzərindədir. Bəziləri diyorlar ki, yeri özgələr arasında təqsim edilmək üçün – əlindən alınan şəxsə bu maddi ziyan və zərər əvəzində bədəl

vermək lazımdır. Digərləri isə, məsələn, sosialist firqələri – bədəlsizligi iltizam edirlər.

Azərbaycan Cümhuriyyətində mövcud olan siyasi firqələrin, istər sosialist, istər qeyri-sosialist yer və topraq proqramı əsl və əsas etibarilə haman bir-birinin eyni olub füruatında mövcud olan ixtilafları da bu firqələr arasında münaqişə sala biləcək mahiyyətdə qəliz degildir.

Bundan aşkardır ki, yer və topraq məsələsi Azərbaycan Cümhuriyyətində "bərabər təqsim" əsasilə həll edilib bu xüsusdakı siyasətimiz və hökumət tərəfindən sadir olacaq qanun və qaidələr də bu əsasa müvafiqət edəcəkdir.

Bir çoxları var ki, yer və topraq məsələsinin bu yollu həlli məmləkətimizdə bir çoxlarının, baxüsus bəy və xan sinfinin narazılığını mucib olub da anarşi törətməsinə səbəb ola bilər, deyə əndişələrə düşürlər. Böylələri də yox degil ki, zatən məmləkətimizdə anarşi törətmək və bunun sayəsində xüsusi məqsədlərini yeritmək üçün yer və topraq məsələsinə bir vasiteyi-iğtişaş ümidilə baxıyorlar.

Fəqət Azərbaycan dövlətinin bugünki yer və topraq işləri, yəni "aqrarya" haləti sair məmləkətlərə nisbətən öylə bir kəskin vəziyyətdə degil ki, birincilərin əndişəsinə və ikincilərin ümidinə məhəl verilmiş olsun. İş bundadır ki, bu məsələ üzərində bizdə "sinif mübarizəsı" əmələ gələ bilməz. Çünki bizdə "bəy və xan" sinfi yer və topraq və malikiyyəti cəhətincə "rəiyyət" qismindən bir o qədər mafövq degildir. Bu saat bizlərdə bəylər və xanlar var ki, yalnız bir quru addan başqa heç bir şeyə malik degildirlər. Bunlar Haqverdili cənablarının məşhur "Dağılan tifaq"ında ustadanə bir surətdə təsvir edilən səbəblər nəticəsi olaraq hər nə mal və mülkləri varmışsa hamısını satmaq və başqa bir yol ilə əldən buraxmaq məcburiyyətində bulunub var-yoxdan çıxıbdırlar. Digər tərəfdən "rəiyyət" denilən adamlar vardır ki, böyük yerlərə –

mal və mülkə malik olub rus təbiri ilə "qulaq" adlanan böylə bir sinif təşkil edəcək dərəcədə mahiyyət ədədiyyələri vardır. Xırda kəndçilərin dəxi hər kəsin özünə məxsus az-çox yeri olub və ancaq bunlardan bir paraları alati-ziraəyə və işçi heyvanatdan məhrum olduqlarına görə özgələrə istər bəy olsun, istər "qulaq" olsun rəncbərlik edib bu yolilə imrari-həyat ediyorlar.

Əlavə bir bölünmək işinə gəldikdə vətənimizdə rusdan qalma bir çox münbit və qeyr-münbit yer dəxi o qədərdir ki, yer məsələsi həll edildikdən sonra hər kəsin, hər ziraətçinin böyük vüsətdə yeri olacaq. Narazı qalan olsa da yalnız artıq təməlik saiqəsilə baş verə biləcəkdir.

Bu üzdən ümid etməlidir ki, bizdə aqrarya islahatı felən həyatımıza tətbiq edilərkən azarsız bir surətdə keçib heç bir şuluqluğa və sair bu kibi vəqələr ehdasına məhəl qalmayacaqdır.

"Aqrarya" əhvalımızın kəskin deniləcək qədər bir cəhəti varsa, o da yalnız bir su məsələsidir ki, indiyə qədər ziraətçilər arasında istər bəy, istər qeyri-bəy hər nə münaqişə olmuşsa yalnız bu məsələ üzərində vaqe ola gəlmişdir. Əgər su xüsusi malikiyyət təhtindən azad edilib də ümumun istifadəsinə verilmək üçün dövlət malı olarsa, məsələ zənn edirik ki, bununla bitmiş hesab olunar.

Hər halda yer və topraq məsələsi mövcud olan xüsusi malikiyyət tərzi-idarəsini aradan götürməklə arada böyük bir ictimai təhəvvül və başqa bir idarə əmələ gətirəcəgindən mühüm bir məsələdir. Böylə olan surətdə bu mühüm məsələni parlamanımız heç bir hazırlıqlara girişmədən həll edə bilərmi? Yaxşı olmazmı ki, bu vacib məsələni camaat tərəfindən vəkalət və ixtiyarı bugünki parlamandan daha artıq və daha geniş olan Məclisi-Müəssisan həll etsin?

**Hacıbəyli Üzeyir**

***"Azərbaycan", 6 oktyabr 1919, №288***

## AZƏRBAYCAN MƏCİSİ-MƏBUSANINDA 2 TƏŞRİNİ-ƏVVƏL İCLASI

**Sədr**: Həsən bəy Ağayev
**Katib**: Əhməd Cövdət

Sədr iclası açaraq məsaili-yövmiyyəyi elan ediyor. Birinci növbədə topraq məsələsidir. Ərazi naziri bu münasibətlə Məclisi-Məbusana bir məktub yazaraq topraq məsələsi haqqində hökumət tərəfindən mükəmməl məlumat və materyallar hazırlanıb bir layiheyi-qanuniyyə tərtib verildigini və haman layihənin bu yaxınlarda Parlamana idxal ediləcəgini bildirərək Məclisi-Məbusan komissiyası tərəfindən təqdim edilmiş olan layiheyi-qanuniyyənin müvəqqətən növbədən götürülməsini və hər iki layihəyə birdən baxılmasını xahiş etmişdir. Sədr bu məktubu elan ediyor.

Bunun üzərinə uzun mübahisə açılıyor. Sosialistlərdən bir çox natiqlər çıxaraq bu layihənin təxirə salınması ilə topraq məsələsinin həllini gecikdirmək istənildigini qeyd edərək layihənin bir an əvvəl baxılmasını tələb ediyorlar.

**Qarabəyov** (İttihad) – Bilməli ki, məsələnin təxiri bu gün baxılmasından xeyirli olduğunu isbatla təxirini tələb ediyor.

**Rəsulzadə** – Sosialistlərin bu tələbdən məqsədləri topraq məsələsinin həlli degil, Parlamanda kəndlilər tərəfdarı olduqlarını və onların əleyhinə gedən bir qurub bulunduğunu göstərmək olduğunu qeydlə layiheyi-qanuniyyənin əslinə keçərək bunun qəbulu ilə topraq məsələsinin heç də həll edilmiş olmadığını isbata yetiriyor və təxirini tələb ediyor.

**Qasımbəyov** (Sosialist) – Layihəyə bu gün baxılmasını istiyor.

**Səmədağa Ağamalı oğlu** – Topraq məsələsinin bir an əvvəl həlli lazım olduğunu isbata çalışıyor. Nəhayət hökumətdən 15 gün zərfində layiheyi-qanuniyyənin Parlamana gələcəgini tələb etmək şərtilə topraq məsələsinin 2 həftə müddətinə təxirini təklif ediyor.

**Qarayev** – (Sol "Hümmət") Təxirə etiraz edərək salondan çıxıyor.

Çox mübahisə və münaqişədən sonra məsələ növbədən götürülür.

İttihad fraksiyası öz sorğularının birinci növbəyə keçirilməsini tələb ediyorlar. Fəqət nizamnaməyə zidd olduğundan təklif qəbul edilmiyor.

Sonra Parlaman məmur və xidmətçiləri maaşlarının artırılması haqqindəki layiheyi-qanuniyyə baxılaraq müstəcil olmaq üzrə 3-cü qiraətində bilaetiraz qəbul olunur.

Bədə hökumət ixtiyarına buraxılmış olan 40 milyon qurtardığından 40 milyonluq fondun 70 milyon edilməsi və bu surətlə hökumət ixtiyarına da 30 milyon manat pul buraxılması haqqindəki layiheyi-qanuniyyə birinci və ikinci qiraəti də bilaetiraz qəbul olunur.

Bundan sonra əskərlikdən azad edilənlərdən alınan verginin ləğvi haqqindəki layiheyi-qanuniyyə 3-cü qiraətində qəbul ediliyor. Nəhayət Azərbaycan əcnəbi məmləkətlərə spirtli məşrubat vergilərinin artırılması haqqindəki layiheyi-qanuniyyə baxılaraq qanun əksəriyyəti ara ilə qəbul olunub, balıq və balıq məhsulları ixracı haqqindəki layihəyə keçiliyor.

Burası dəxi uzun mübahisələrə bais oluyor. Başda Malxazyan olmaq üzrə bəziləri ümumiyyətlə ticarətə rəvac vermək və məmləkətin ixracatını artırmaq nöqteyi-nəzərini müdafiə edərək gərək balıq və gərəksə balıq məhsullarının ixracı bazarlara bilaməmaniət buraxılması, hətta ixracat şəraitinin

yüngülləşdirilməsini tələb ediyor və bu mülahizə ilə qanunu qeyri-məqbul görüyorlar.

Başda Rəsulzadə Məhəmməd Əmin olmaq üzrə digər bəziləri isə şimdiki şərait altında fövqəlzikr nöqteyi-nəzərin əsassızlığını isbat və əcnəbi bazara göndərilən mal müqabilində nə o qədər mühüm əmtəə gətiriləcəgini, nə də məmləkətimizin bu təriqlə qızıl ilə zənginləşdirilə biləcəgini qeyd edərək bu mülahizə ilə də təqəllübatın artırılması və ticarətə rəvac verilməsinin Azərbaycana gözlənilən mənfəəti olmuyacağını göstərərək diyorlar ki, barı öz mətaımızı məmləkətimizdə çox bulundurmaq və əhaliyi təmin etmək üçün böylə şeylərin ixracını təhdid etmək lazımdır. Bu mülahizə ilə də bunlar layiheyi-qanuniyyəyi müdafiə ediyorlar.

Layihə birinci və ikinci qiraətində qəbul olunur. İclas bununla qurtararaq "İttihad" fraksiyasının sorğusu oxunuyor. Fəqət rəsmi cəhətdən nizamnaməyə müvafiq olmadığından qeyri-məqbul görülərək geri qaytarılıyor.

***"Azərbaycan", 10 oktyabr 1919, №292***

Təqəllüb – dəyişmə, çevrilmə

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 9 TƏŞRİNİ-ƏVVƏL İCLASI

**Sədr**: Həsən bəy Ağayev
**Katib**: Əhməd Cövdət
İclas saat 11:50 dəqiqədə açılıyor.

Sədr iclası açaraq məsaili-yövmiyyəyi elan ediyor. Zəngəzur qəzasından Cəlil bəy Sultanov ilə Sadıq Axundzadənin məbus intixab edilərək seçki sənədləri varid olduğunu bəyan ediyor.

Sonra erməni fraksiyasından Parunyan və sosialistlərdən Atamalıbəyovun 2 həftədən bəri üzürsüz iclasa gəlmədiklərindən Məclisi-Məbusandan xaric olduqlarını, bir ay məlumat bildirmiyor və sonra xəbər veriyor ki, maliyyə nəzarəti Azərbaycan əmanət sandıqları həqqindəki layiheyi-qanuniyyənin birinci sırada müzakirə edilməsini təvəqqe etmişdir. Nəzarətin təvəqqei Parlaman tərəfindən qəbul ediliyor.

### Azərbaycan əmanət sandıqları

**Muxtar Əfəndizadə** – Əmanət sandıqları həqqindəki layiheyi-qanuniyyə barəsində məruzə təqdim edərək diyor ki: burası yeni bir qanun degildir. Bu vəqtədək əcnəbi məmləkətlər və sair millətlərcə qəbul və tətbiq edilmiş olan qanunlar ki, bizim hökumətimiz dəxi qəbul etmişdir.

Ancaq istibdad dövründə verilmiş olan ruhi bir qədər dəgişərək cümhuriyyət üsulu ilə idarə olunan bir məmləkətin ruhu verilmişdir. Bu surətlə də azacıq təbəddülat icra edilmişdir. Məclisi-Məbusan maliyyə və büdcə komissiyası layiheyi-

qanuniyyəyi eynilə qəbul etmişdir. Şimdi təsdiqini Parlamana təklif ediyor.

Layiheyi-qanuniyyə birinci və ikinci qiraətdə komissiyanın təshihilə bərabər və əmanət sandıqları nizamnaməsi bilaetiraz qəbul ediliyor.

## Spirt içkilərindən gömrük vergisi

Sonra Azərbaycandan əcnəbi məmləkətlərə aparılan spirt içkilərdən (üzüm şirəsi və pivə istinadır) gömrük vergisi alınması həqqindəki layiheyi-qanuniyyə və balıq və balıq məhsullarının ixracı və ondan vergi alınması həqqində qanun layihəsi 3-cü qiraətində bilaetiraz qəbul edilərək 5 dəqiqə tənəffüs elan olunur.

## Hökumət həqqində sual

Tənəffüsdən sonra Əhməd Cövdət növbədən xaric söz alaraq hökumət təşkili həqqində böylə bir nitq söylüyor:

**Əhməd Cövdət** – Bizim nizamnaməmizdə hökumət təşkili həqqində müəyyən bir maddə yoxdur. Çünki sabiq Rusiya Dövlət Duması nakazından iqtibas edilmişdir. O da mütləqiyyət üsuli ilə idarə olunan bir məmləkətin nizamnaməsi olduğu üçün bu xüsusda orada bir şey olamazdı. Şimdi bən növbədən xaric söz almaq qaidəsindən bilaistifadə hökumət həqqində bir neçə söz söyləmək istiyoram.

Məlumunuzdur ki, 3 həftəyə qədər bir müddətdir kabinə istefa vermişdir. O vəqtən bəri camaat və Parlaman yeni kabinə təşkilinə müntəzir olub bəkliyor ki, görsün yeni hökumət kimlərdən təşəkkül edəcək və kabinə təşkili kimə mühəvvəl ediləcəkdir. Qabaqkı iclasda hökumət istefa verən zaman bu

barədə heç danışıq olmadı. Yalnız Divani-Rəyasət xabər verdi ki, kabinə təşkili həqqində özü binagüzarlıq edəcək və bir adam tapşıracaqdır. Fəqət bu vəqtədək kabinə təşkilini kimə mühəvvəl etdigi və nə kibi nəticə çıxdığı barəsində bizə bir söz demədi. İstefadan bəri hökumət daxilində öylə bir iş görüləmiyor. İstefa vermiş vəzirlər vəzifəsini ifa edənlər müvəqqəti olduqlarını bilərək yeni nazir intizarında heç bir iş görmüyorlar. Şimdi bu surətlə 3 həftədir hökumət barəsində biz bir şey bilmiyoruz. Ancaq qəzetələrdən biliyoruz ki, yeni kabinə təşkili Nəsib bəyə mühəvvəl edilmiş, o da əvvəl razı olmamış, sonra razı olmuşdur.

Bu xüsus Tiflisdə də danışılıyor. Amma Parlaman içərisində bu barədə bir şey yoxdur.

Bir də bən ərz etməliyəm ki, kabinə təşkili həqqində fraksiyalar arasında müəyyən bir etiraf əmələ gəlmişdir. Məlum oldu ki, hökumətin xətti-hərəkəti və tərzi idarəsi barəsində yalnız sosialistlərin xüsusi bir nəzəri var. Sair firqələr isə bir fikirdədirlər. Binaənileyh bu məsələdə ümumiyyətlə bir etilaf hasil oldu və bu surətlə məsələnin ən mühüm, ən böyük qismi həll edilmiş oldu. Ondan sonra nə vaqe olmuşsa bizə məlum degildir. Zira müzakirat xaricində qaldığımızdan bir şey bilmiyoruz. Madam ki, məsələnin ən mühüm qismi həll edilmişdir. Pəs nə üçün bu vəqtədək araya bir şey çıxmıyor? Rəisi-Vükəlalığamı namizəd tapılmıyor, yainki, portfellərmi təqsim edə bilmiyorlar, yaxud daha nə kibi əngəl və maneə çıxıyor – bunu bilmək-bildirmək lazımdır. Eşitdik ki, Nəsib bəy kabinə təşkilinə razı olduqdan sonra bəzi məsələ üzərinə tazədən imtina etmişdir. Pəs ondan sonra kabinə təşkili kimə mühəvvəl edilmişdir? Parlaman rəisi bizə bu xüsusda məlumat verməlidir. Doğrudur biz müzakirat xaricindəyiz, doğrudur biz platforma məsələsində etilafa gəlmədik və hökumət

təşkilində də iştirak etmiyəcəgiz. Lakin Parlamanda bulunduğumuz üçün məmləkətin müqəddəratından və hökumətin fəaliyyətindən məsuluz. Binaənileyh bilmək istiyoruz ki, bu yolda nələr ediliyor, nələr oluyor?

## Üsyan və sui-qəsd müqabilinə qanun

Bədə üsyan və dövlət əsasları əleyhinə sui-qəsd müqabilinə cəza qanunları həqqindəki layiheyi-qanuniyyənin müzakirəsinə keçiliyor.

**Rüstəmbəyli Şəfi bəy** – Məruzəni təqdim edərək bu xüsusda sabiq Rusiya hökuməti zamanında nə kibi cəzalar olduğunu nəzərə çatdırır və imdi cümhuriyyət idarəyə malik olan Azərbaycanda haman qanunların nasıl dəgişdigini madəbə maddə bəyan edərək (bu xüsusda keçən nömrələrimizdən birisində müfəssəl yazılmışdı) diyor ki:

– Bu qanun çox mühümdür, çünki hankı məmləkətdə olur-olsun nasıl üsuli-idarə olur-olsun siyasi cinayət olmuşdur və olacaqdır. Bunun müqabilinə əlbəttə tənbih və cəza dəxi lazımdır. Fəqət çalışmalıdır ki, tənbih və cəza inzibat (adminstrativni) qaidədə olub ədliyyə üzərinə, həm də hürriyyət əsaslarına müvafiq bir surətdə olsun. Binaənileyh ədliyyə nəzarəti bu qanunun tezliklə qəbul və təsdiqini rica ediyor. Lavaheyi-qanuniyyə komissiyası bu layihəyi bəzi təshih və təbdil ilə qəbul etmişdir. (Bu xüsusları da qeyd ediyor. O barədə dəxi sabiq nömrələrimizdən birisində vardı)

**Ağamalı oğlu Səmədağa** ("Hümmət") – Bu qanun tamamilə hürriyyət əleyhinə olduğunu bununla əldə etmiş olduğumuz bu balaca (?!) hürriyyətin də kəsilməsi istənildigini və bu qanun qəbul ediləcək olursa kimsəyə bir yerə toplaşmaq, danışmaq, yazmaq və sairə imkanı verilməyəcəgini göstərərək layiheyi-qanuniyyənin əleyhində bulunur.

**Ağabəyov** (Müsavat) – Biləks bu qanunun hürriyyət əsaslarına zidd olmamaqla bərabər dövlət əsasını müdafiə və Azərbaycan fikri düşmənləri ilə bir qanunu mübarizə vəsiləsi olduğunu isbatla layiheyi-qanuniyyəyi müdafiə ediyor.

**Əhməd Cövdət** – (Hümmət) Üsyançılar və dövlət əsası əleyhinə işləyənlər ilə mübarizə etmək və bu xüsusda müəyyən qanunlar vermək lazım olduğunu əsasən etirafla, fəqət bundan qabaq qəbul edilməli çox qanunlar olduğunu qeyd və binaənileyh hələlik bu qanunun qəbulunu təxirə salmayı təklif ediyor.

**Rəsulzadə Məhəmməd Əmin** (Müsavat) – Səmədağaya cavabən diyor ki, bu qanun ilə sizi danışmaq hürriyyətindən məhrum etmək istənilmiyor, zira sizlərin danışıqlarından dövlət əsasına qorxu yoxdur, olmasa da sizin danışıqlarınız müqabilinə danışıq ilə də mübarizə edilir.

Bir də burada hürriyyətdən bəhs edildi. Bizcə hürriyyət qanunsuzluqdan ibarət degildir. Hürriyyət o demək degildir ki, heç bir qanun və qaidə olmasın, kim nə biliyor etsin. Əgər hürriyyət bundan ibarət olsa öylə bir qanunsuzluq, o dərəcə şiddətli bir anarxiya çıxar ki, siz özünüz də monarxiya arzu edərsiniz.

Hürriyyət yaxşı şeydir. Fəqət onun bir əndazəsi, həddi vardır.

Əlbəttə böylə qanunlar cümhuriyyətin əsaslarını müdafiə və öylə çıxışların qabağını almaq üçündür. Səmədağanın əndişəsi isə fəzlə qorxudur. Öz kölgəsindən ürkməkdir.

Bir də Əhməd Cövdət qanunu lazım biliyor. Fəqət təxirini tələb ediyor. Siz biliyorsunuz ki, dövlət və hökumət əleyhinə müəyyən cərəyanlar var, siyasi cinayət dəxi var və olur.

Binaənileyh şübhəsizdir ki, bunun müqabilinə tənbih, cəza dəxi olmalıdır. Fəqət cinayətin təqibi bir məmur, bir qubernatora həvalə edilərsə yəqin ki, öz bildigi və istədigi kibi rəftarda bulunacaq, arzu etdigi cəzayı tətbiq və təsmil edəcəkdir.

Amma qanun qəbul və hər şey qanuna rücu edilərsə vətəndaşlar məmur istibdadından mühafizə, hürriyyəti təmin edilmiş olar. Binaən bu qanunun vəqti degil demək olmaz. Əsil vəqtidir. Bir də Əhməd bəy və sairləri özləri sosialist olduqları halda bilməm ki sosialist ədliyyə nazirinin lazım bilmiş və mənfəətinə qane olaraq təqdim etmiş olduğu qanunu nasıl oluyor ki, rədd ediyorlar. Qanunun qəbulunun vəqtidir və bən qəbulunu təklif ediyoram.

**Əhməd Cövdət** – Məhəmməd Əminə etirazla qanundan degil, qanunun tətbiqi əsnasında məmurların sui-istemal edəcəklərindən qorxduqlarını bəyan edərək çox məmurların bir çox sui-istemallarına işarə ediyor.

**Muxtar Əfəndizadə** – Səmədağanın əndişəsini məmurların sui-istemallarına istinad edərək bu xüsusda onu həqli görüyor. Fəqət bununla bərabər qanuni qeyri-məqbul görmüyərək təxirini də lazım bilmiyor. Və maddə-maddə müzakirəsində tənqid edilmək üzrə qanuna baxılmasını təklif ediyor.

**Səfikürdski Aslan bəy** – (Ədliyyə naziri) – Bu layihə dəfaətlə Məclisi-Məbusan məsaili-yövmiyyəsinə daxil olmuş, fəqət müzakirə edilməmişdir. Bu gün də müzakirə ediləcəginə bənim ümidim yox idi. Ona görədir cavab verməgə hazırlaşmadım. Fəqət bununla bərabər bu xüsusda bir neçə söz demək istərdim.

Bən böylə görüyoram ki, burada sui-təfəhhüm olmuşdur. Zira bu layiheyi-qanuniyyədə qorxulacaq bir şey yoxdur. Doğrudur hər firqənin qanunu tənqid etmək ixtiyarı vardır və bən sosialist olduğum üçün təqdim etdigim layihəyi yoldaşlarım tənqid etməsinə Məhəmməd Əmin nahaq yerə təhəmmülsizlik göstəriyor. Bənim hər sözümü sosialist yoldaşlarım bilaetiraz qəbul etməgə məcbur degildirlər və tənqid etmək onların həqqidir. Kaş ki hamı sözlərimi və təkliflərimi

Məhəmməd Əmin böylə qəbul və müdafiə edə (Məhəmməd Əmin – (yerindən) Bu kibi təkliflərinizi həmişə müdafiə edərəm) Fəqət bununla bərabər təqdim olunan layiheyi-qanuniyyədə qorxulacaq bir şey yoxdur. Biləks bu qanunla vətəndaşlara bütün hürriyyətlər təmin ediliyor. Və cəzalar çox yüngülləşdirilmişdir. Bu qanun ilə vətəndaşlara çox rəhmlər edilmişdir.

Məsələn 99 və 100-cü maddələr götürülmüşdür. Halbuki o maddələr siyasi cinayət müqabilinə asılmaq barəsində idi. Və yalnız bu maddələr degil, ümumiyyətlə ədliyyə qanununda asılmaq, edam həqqindəki qanunların həpsi götürülmüşdür. Bir çox sair maddələr dəxi vardı ki, 10 il, 8 il, edam cəzası təyin ediliyordu. Onlar da yüngülləşdirilmişdir. Lakin hürriyyət əsası qoymaq edam cəzasını götürmək, ağır cəzaları yüngülləşdirməklə bərabər məmləkətdə siyasi canilərə qarşı cəza qanunu olmaq lazımdır. Bu barədə imdi bizdə tam mənasilə qanunsuzluqdur. Kim nə istəsə ediyor. Hankı məmur da nə kibi cəza istəsə veriyor. Böylə qanunsuzluqdan qüsurlu, nöqsanlı qanun yaxşıdır. Bu surətlə burada qanunun lazım olmağını iddia etmək olmaz. Nöqsandan bəhs etməlidir. Halbuki bəncə bu qanunun heç nöqsanı yoxdur. Hələ bən böylə güman ediyordum ki, bu qanun barəsində heç danışıq olmayacaqdır. Olsa-olsa burada ancaq 129-cu maddə barəsində danışıq və etiraz ola bilərdi. Sair maddələr isə bəncə bilaetiraz qəbul və təsdiq edilməli idi.

Bir də Səmədağa hürriyyəti-kəlamdan məhrum olmaqdan qorxuyor. Halbuki bu qanun hürriyyəti-kəlamı heç də təhdid və məhdud etmiyor. Burada təhdid varsa ancaq qan tökməgə, talana dəvət edən talançılıq edənlərə qarşı maddələr var. O yerdə ki qan, qətl, qarət, xəsarət təhdidi yoxdur, hürriyyəti-kəlam təmin edilmiş oluyor. Bu maddələr o adamlara qarşıdır

ki, xəlqi gedək, qıraq, dağıdaq, kənd basaq və sairə kibi işlərə dəvət edə. İştə bu qanunla böylə hərəkətlərin önünü alınmaq istəniliyor.

Bir də böylə qanundan heç vəqt qorxmamalıdır. Çünki əgər hökumət şiddətli tədbirlər görmək istərsə idareyi-ürfiyyəyi-əskəriyyə elan edər, qanun pozular və əleyhdarlarına istədigi kibi cəza verə bilər. Siyasi düşmənlərinə qarşı hər cür tədbir görə bilər. Bundan əlavə bu saət voyenni polojeniya var – demək bu qanun hələ bir müddət heç tətbiq edilməyəcəkdir də. Binaənileyh bu qanundan qorxmaq lazım gəlməz və bən onun eynilə qəbulunu təklif ediyoram.

***"Azərbaycan", 12 oktyabr 1919, №293***

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 11 TƏŞRİNİ-ƏVVƏL İCLASI

**Sədr**: Həsən bəy Ağayev
**Katib**: Əhməd Cövdət

### Dövlət əmanət sandıqları

Sədr iclası açaraq məsaili-yövmiyyəyi elan ediyor. Birinci növbədə Azərbaycan dövləti əmanət sandıqları həqqindəki layiheyi-qanuniyyə 3-cü qiraətində bilaetiraz qəbul ediliyor.

### Üsyan və sui-qəsd məsuliyyəti

Bədə üsyançılar və dövlət əsaslarına sui-qəsd edənlərin məsuliyyəti həqqindəki layiheyi-qanuniyyənin 2-ci qiraətinə keçiliyor. Bütün layiheyi-qanuniyyə bilaetiraz qəbul olunuyor. Yalnız 129-cu maddə böyük mübahisələrə bais oluyor.

**Ağamalı oğlu Səmədağa** – (Hümmət) 129-cu maddə mövcibincə söz, yazı və kitablar qoymaqla camaatin bir qismini digərinin üzərinə qaldıranlara 6 il kürək cəzası təyin edildigini qeyddə diyor ki, bu saət ümum kitablara və nitqlərə bu xasiyyəti istinad verməк mümkündür. Binaənileyh hər sözü qurdalayaraq burası cəmaəti qətl və qarətə təşviq etməkdir – demək olmaz. Ona görə bu maddəyi qanundan çıxarmalı və bu fəsildə qeyd etməlidir ki, hankı adamın əlindən və işindən başqalarına əziyyət və cəza yetmişsə onlar bu maddəyə daxil olsunlar. Bən təklif ediyoram haman maddə böylə yazılsın. Haçan bir adamın əlində böylə iş tutulsa bu cəza ona verilsin.

**Əfəndizadə Muxtar** (Əhrar) 129-cu maddə 3-cü qisminin axırında ələni surətdə xəlq içində nitq söyləyən, kitab oxuyan və ya şəkil göstərənlərə 6 il kürək cəzası təyin edildigindən bəhslə diyor ki: qanunnamədə hankı mənada nitq və nə kibi kitab və şəkil qeyd edilməmişdir. Binaənileyh təklif ediyor ki, məzkur maddə böylə yazılsın:

1 – Ələni surətdə hökumət və cümhuriyyət əsasları əleyhinə nitq söyləyənlərə;

2 – Ələni surətdə hökumət və cümhuriyyət əsasları əleyhinə kitablar nəşr edənlərə;

3 – Ələni surətdə hökumət və cümhuriyyət əleyhinə şəkillər göstərənlərə 6 il kürək cəzası.

**Əhməd Cövdət** – (Hümmət) 129-cu maddədə qətl və qarətdən bəhs edilsə də əsil məqsəd nitqlər və kitab və şəkil nəşri müqabilinə cəza təyin etməkdən ibarət olduğunu qeydlə onu sırf siyasi bir məsələ tələqqi ediyor və tənqidinə keçərək diyor ki:

Bu maddədə icbarı qərardadları pozanlara 6 il kürək cəzası təyin ediliyor. Bəncə lüzum yoxdur, çünki icbarı qərardad verənlər, onları pozanların cəzasını da təyin ediyorlar.

Digər bir qismdə əskəri məmurların vəzifə ifasından imtina etmələri və sairlərindən bəhslə ona cəza təyin ediliyor. Bəncə buna da əsla ehtiyac lüzumi yoxdur.

Bu da haman maddədə cəmaətin bir qismini digəri müqabilinə qaldırmaqdan bəhs olunur. Bu nə deməkdir: Cəmaətin bir qism, ya bir sinfinə təcavüz önünü almaq degilmi? Pək əla, öylə isə məsələn, biz sosialistlər sosializm əzası tətbiq etmək istərsək, şübhəsiz əhalinin sərmayədar sinfinə təcavüz və füqərayi-kasibəni onun müqabilinə qaldırmaq kibi tələqqi olunar. Sair firqələr bu maddədən bilaistifadə sosialistləri təqib ediyor cəzalar verirlər. Hürriyyət olan yerdə bu lazım

və mümkün degildir. Yaxud bir adam mütləqiyyət idarəyi cümhuriyyət əsasına tərcih versə ona da 6 il kürək cəzasını veriləcəkdir. Bu hürr cümhuriyyət əsasından uzaq bir işdir. Binaənileyh biz təklif ediyoruz 129-cu maddə qanundan çıxarılsın.

**Rüstəmbəyli Şəfi bəy** (Müsavat) – 129-cu maddə, xüsusən birinci qismi sırf mətbuata aiddir. Digər tərəfdən məlumdur ki, sosialistlər həmişə senzordan qorxmaqda və Parlamanda "Yedinaya Rossiya" və sair kibi qəzetələrin qapanmasını tələb etmişlərdir. Bu surətlə absalyutnı (mütləq) hürriyyət mətbuat yoxdur. Sağlara mənsub qəzetələr bağlandıqda hamının, hətta Əhmədin özünün də xoşuna getdi. Əgər Podşibiyakin gəlib bazarda xəlqi ixtişaşa, talana dəvət etsə yəqin ki Əhməd ona cəza verilməsinə də razı olardı. Bir də 1-ci maddə mütləqa heç kəs danışmasın, tənqid etməsin demiyor. Bolşeviklər də, monarxistlər də hürriyyətdən istifadə edə bilərlər.

Fəqət cinayət, ixtişaş, talan, qətl və qarət hürriyyət əsaslarından uzaqdır. Bu işlərə cəmaəti təşviq və təhrik edənlər bir cinayət işləmiş oluyorlar. Bu surətlə məsələ yalnız siyasi degil, cinayətlə qarışıqdır. Və şübhəsiz ki, bunun müqabilinə cəza və tənbih qoyulmasına hamı razı olar.

Nəhayət, Muxtar əfəndi bilməlidir ki, bu qanun evdə öz-özünə düşünən və oxuyanlar müqabilinə degil, cəmaət içində böylə nitq söyləyən və kitablar oxuyanlar müqabilinədir. Bir də Əhməd bir sinifi digər sinif müqabilinə qaldırmaqdan bəhs ediyor. Fəqət bilməlidir ki, bu maddə sinfi sinif müqabilinə degil, cəmaətin bir qismini digər qismin müqabilinə qaldıranlar haqqindədir. Sinif qaldırmaq müqabilinə sabiq Rusiyada 124-cü maddə var idi. Şimdi biz o maddəyi ləğv ediyoruz.

O ki qaldı hürriyyəti-mətbuata, yazılan şeylərə, qabaqca mətbuat müfəttişi baxacaqdır. Əgər bir cinayət tapsa verər

məhkəməyə, orada da hüquqşünaslar oturuyor. Onlar ədalətə baxacaqlardır, nəinki pristav, yainki qubernatora.

Bundan əlavə bütün məmləkətlərdə, hətta sosialistlərcə bu qanun məqbul görülmüşdür. Binaənileyh bən bu maddənin eynilə qəbulunu təklif ediyoram.

Maddə komissiyanın təklif etdigi kibi qəbul olunur.

Nəhayət, haman qanunda 132-ci maddəyi Parlaman komissiyası hürriyyət əsasına müğayir görərək onun ləğvini və bu surətlə dəgişməsini təklif ediyor.

127-ci maddədə 124 və 125-ci maddələr haqqindəki qeyd ləğv edilsin.

Bu təklif qəbul olunur.

Layiheyi-qanuniyyə bu təbdilat və təshihlər ilə 2-ci qiraətdə qəbul və 3-cü qiraəti gələcək iclasa təxir ediliyor.

## 1462-ci maddənin təbdili

Növbədə hüquqi mühakimə nizamnaməsi 1462-ci fəslinin mühakiməyi-sülhiyyə təhtindəki iqamə davaları fiatının nəhayət dərəcə artırılması üçün təbdili haqqindəki layiheyi-qanuniyyənin müzakirəsinə keçiliyor.

**Rüstəmbəyli Şəfi bəy** (məruzəçi) – Bu vəqtədək sülh məhkəmələrində ancaq 2.000 manata qədər qiyməti olan davalara baxılıb, ondan yuxarısı nahiyə məhkəmələrində mühakimə ediliyordu. Fəqət pulun kursunun düşməsi səbəbilə şimdi böylə az qiymətli dava pək az olduğundan sülh məhkəməsində iş çox az olub biləks nahiyə məhkəməsinin işi həddindən ziyadə oluyor. Nəzarət birincinin işini bir qədər artırıb digərini yüngülləşdirmək və onun üçün də sülh məhkəməsi təhti-idarəsindəki işlərin qiymətini 10 min manatadək artırmayı və bu xüsusa aid 1462-ci maddəyi müvafiq surətdə

dəgişməyi təklif ediyor. Parlaman komissiyası bu layihəyi bilaetiraz qəbul və təsdiqini heyəti-ümumiyyəyə təklif ediyor.

**Mehdi bəy Hacınski** – 10.000 manatı az hesab edib 20.000-dək artırılmasını təklif ediyor.

**Ağabəyov** – Onu da az hesab edərək 40.000-dək artırılmasını təklif ediyor.

Rəyə vəz edildikdə Ağabəyovun təklifi əksəriyyəti ara ilə qəbul olunur.

Layiheyi-qanuniyyə 1-ci və 2-ci qiraətində bilaetiraz (Ağabəyovun təshihilə) qəbul olunaraq nizamnamə mövcibincə üçüncü qiraəti gələcək iclasa buraxılıyor.

## Məhkəmə xərclərinin artırılması

Bədə məhkəmə işlərinin övraq, dəftərxanə və icbariyyə vərəqəsi vergisilə qiymətə aid olmayan iqameyi-dava xərclərinin artırılması həqqindəki layiheyi-qanuniyyənin müzakirəsinə keçilərək 1-ci və 2-ci qiraətində bilaetiraz qəbul ediliyor.

## Komissarlıq və xəlq komissarları şurası qərarlarının ləğvi

Növbədə sabiq Zaqafqasiya Komissarlığı və Bakı Xəlq Komissarları Şurası tərəfindən (diqqətsiz vergiçilər həqqində olan cəza tədbirlərinin ləğvi) həqqindəki layiheyi-qanuniyyədir. Məruzəçi Rüstəmbəyli Şəfi bəy.

Layiheyi-qanuniyyə bilaetiraz qəbul olunur. 5 dəqiqə tənəffüs elan ediliyor.

- - -

Tənəffüsdən sonra ümuri-xeyriyyə və nafiə nəzarətindən ştat artırılması haqqında idxal edilmiş olan layiheyi-qanuniyyəyə baxılaraq uzun mübahisələrə bais oluyor. (Təfsilatı yarınki nömrəmizdə) Nəhayət sədr iclasa bu sözlərlə xitam veriyor.

**Sədr** – İclasa bununla xitam verərək, fəqət iclası qapamadan əvvəl bir neçə məsələ qaldırmaq istərəm.

**Komissiya üzvləri**

Əvvəla müxtəlif komissiyalardan bəzi üzvlər çıxmışlardır. Rica edirəm gələcək iclasda bu yerlərə namizəd göstərəsiniz.

**Hökumət təşkili haqqında**

Saniyən məzbətədən bənə məlum oldu ki, keçən iclasda Əhməd Cövdət bən burada olmayan zaman hökumət təşkili və o uğurdakı təşəbbüslər haqqında Divani-Rəyasətdən izahat istəmişdir. Və demişdir ki, sədr bu xüsusda Parlamana məlumat vermiyor. Bəncə Əhmədin bu ərzi-halı yersizdir. Çünki əgər hökumət təşkili haqqında nə kibi təşəbbüslər edildigi, nə kibi iqdamatda bulunulduğu haqqında Rəis hər dəfə Parlamana məlumat verməli olsa gərək gündə 15 dəfə Parlaman üzvlərini yığıb iclas qursun. Bundan əlavə kabinə təklifi haqqında nə işlər oluyorsa məbusların həpsinə məlumdur. Ələlxüsus Əhməd fraksiya nümayəndəsi olmaq üzrə işlərin həpsini biliyor. Əhməd diyormuş biz müzakirat xaricindəyiz. Bu da o qədər doğru degildir. Zira fraksiya nümayəndəsi sifətilə müzakiratda iştirak ediyor, hətta 3 gün əvvəl vüqu bulmuş olan iclasda da iştirak ediyordu.

Əlavə hankı məbus nə bilmək istəsə bilə bilir. Maraqlanan Rəisdən sorub bilərlər. Odur ki, Əhmədin ərzihalı yersizdir.

**İclasa gəlməyən üzvlər**

Nəhayət, bir məsələ də vardır ki, bütün məbusların və fraksiyaların nəzər diqqətini ona cəlb etmək istərəm. Son zamanlar bir çox məbus iclasa gəlmiyor. Bəzi məbuslar var ki, xəstə oluyor, yaxud başqa bir işi oluyor. Ona görə də iclasa gəlmiyor. Bunun eybi yoxdur. Amma bəziləri heç üzürlü səbəb olmadan iclasa gəlmiyorlar. Hətta gəlib adlarını yazıyor. Fəqət iclasda iştirak etmiyorlar. Parlamanın qərarına – üzürsüz gəlməyənlərə cəza olaraq gündəlik maaşlarının iki misli məvaciblərindən çıxılıyor. Fəqət bu cəza öylə nəticə vermiyor. Məbuslar gəlib yazılıb gedirlər. Bən nəhayət bunların adını deməgə məcburam. O cümlədən Əliheydər Qarayev, məsələn bu gün gəlib adını yazmışdır. Amma görüyorsunuz ki, iclasda yoxdur. Bu bir məbusa yaraşan bir hərəkət degildir. Bunu qeyd etməklə bərabər bən təklif ediyoram ki, üzürsüz gəlməyən məbusları nizamnamədə müqərrər cəzadan 3-4 qat artıq cəza verilsin.

Ümum fraksiyalardan da xahiş ediyoram üzvlərinin nəzər diqqətini bu xüsusa cəlb etsinlər.

İclas saət 3-də qapanıyor.

*"Azərbaycan", 14 oktyabr 1919, №295*

Məzbətə – protokol

İqamə – sakit etmə, araya gətirmə

## BİLDİRİŞ

Azərbaycan Məclisi-Məbusan Rəisi naminə gələn ərizələr daxilində bir çox imzasız ərizələrə təsadüf olunur ki, böylə imzasız gələn ərizələrə qanun mövcibincə əncam edilmiyib buraxılmalıdır.

Buna binaən Azərbaycan Məclisi-Məbusan naminə gəlmiş olan imzasız ərizələr baxılmamış və əncamsız qaldığı kibi ərizə sahibi də ərzi-halına əncam ediləcəgini bəkləməkdə qalıyor.

Azərbaycan Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrlərinə binaən ərizə göndərən zatlara bununla məlum ediyor ki, göndərilən ərzi-halların cümləsi imza edilməlidir. Əks təqdirdə ərizə sahibinin hansı səbəbdən dolayı olursa-olsun ərizəsini imza etməmiş olduğu halda göndərilən ərizələr Məclisi-Məbusan tərəfindən sərəncamsız qalır.

Parlaman idarəsi vəkili: **Vəkilov**
Kargüzar: **C.Paşazadə**

*"Azərbaycan", 14 oktyabr 1919, №295*

## HEYƏTİ-MÜRƏXXƏSƏMİZ AZƏRBAYCAN VƏ GÜRCÜSTAN MÜRƏXXƏSLƏRİNİN SÜLH KONFRANSINA NOTASI

**Paris, 24 temmuz 1919**

Paris Sülh Konfransı Rəisi **Klemanso** cənablarına:

Rəis əfəndi!

Dobrovol adı ilə müsəmmi ordu təhdidatı qarşısında qalan Azərbaycan və Gürcüstan Cümhuriyyətləri 16 həziranda tədafö bir müahidə əqd etməyi lazım bilərək şu xüsusda Ermənistana dəxi təklifdə bulunmuşlar idi. Bunun ilə bərabər müahidənin surətini təqdim edərək Zaqafqasiya xəlqi arasında olan dostanə münasibatı qeyd etmənizi rica ediyoruz ki, onun gözəl bir bürhanı da 16 həziran müahidəsidir.

Yalnızca bir tədafö əsasə məbni əqd edilən şu müahidə ümumi hərbi çıxış kibi nəzərə alınmayacağını biz qəlbən ümid ediyoruz Zaqafqasiya müttəfiqin müdafiəsi altında olduğu və Denikin hərəkatı düvəli müttəfiqə nəzarət və kontrolu təhdində bulunduğuna görə hər bir təərüzatdan kəndisini saxlıyor.

Xüsusən məzkur müahidənin ən mühüm maddəsi olan 4-cü maddəyi qeyd etməlidir ki, müahid tərəfin mübahisəli topraq məsələlərini ümumi razılıq ilə hakəm vasitəsilə həll edəcəklərdir.

Bu təriq ilə iki qonşu olan Gürcüstan və Azərbaycan əraziləri xətti-hüdudini təyin etmək üçün gözəl bir üsuli-hərəkə vücuda gəlmişdir.

Fövqdə məzbur fəqərəyi düvəli müttəfiqə Məclisi-Alisi hüzuruna elam etmənizi istida etməklə bərabər fürsətdən bilaistifadə ehtiramati-fövqimizin qəbulunu rica ediyoruz – əfəndim.

Azərbaycan heyəti mürəxxəsi rəisi: **Topçubaşov**

Gürcüstan heyəti-mürəxxəsi rəisi: **Çxeidze**

*"Azərbaycan", 14 oktyabr 1919, №295*

Müsəmmi – adlandırılan
Tədafö – müdafiə
Bürhan – dəlil, sübut
Məbni – bağlanmış
Həkəm – münsif

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 9 TƏŞRİNİ-ƏVVƏL İCLASI

(keçən nömrədən mabəd)

**Tənəffüsdən sonra**

İclas saat 3-ə 10 dəqiqə işləmiş tazələniyor.

**Ümuri-xeyriyyə nəzarəti ştatası**

Növbədə ümuri-xeyriyyə və nafeə nəzarəti ştatasının artırılması həqqindəki layiheyi-qanuniyyədir.

**Vəkilov Mustafa** (Müsavat) – Qanun layihəsi həqqində məruzə verərək diyor ki:

Bu layihə maliyyə-büdcə komissiyasında müzakirə edilərkən ümumi bir məsələ qalxmadı. Məlumunuzdur ki, əvvəldən bəri müxtəlif nəzarətlər büdcə təqdim etmədən maaşların artırılması, ştatının genişləndirilməsi və sair bu kibi məsələlər həqqində qanun layihələri təqdim etməkdədirlər. Nəhayət bu iş nəzarətlərdə bir xəstəlik surəti almışdır. Biz nə qədər böylə qanunları gah təcili, gah mühüm qəbul etdikcə onların da büdcə vermədən layihə təqdim etmək iştəhaları artıyor. Biz burada kərraətlə demişiz ki, maliyyəyə aid layiheyi-qanuniyyələr büdcə daxilində olmalıdırlar. Zira büdcə məlum olmadıqca hər qanunu qəbul etmək olmaz. Fəqət biz deməkdən yoruluyoruz. Nazirlər büdcəsiz layiheyi-qanuniyyə verməkdən yorulmuyorlar. Ancaq hər dəfə təcilidir qəbul etməzsəniz işlər dayandırılacaq, işimiz getmiyor tez qəbul ediniz – deyə keçiriyorlar. Lakin bu vəqtədək də büdcə təqdim etmiyorlar.

Bu cümlədən ümuri-xeyriyyə nəzarəti dəxi bu vəqtədək hələ büdcə təqdim etməmişdir. Amma dalba-dal qanunlar gətiriyor. Odur ki, bu son layihə komisyonda müzakirə edilərkən bununla əlaqədar olaraq məzkur nəzarətin fəaliyyəti də tənqid edildi.

Əlimizdə olan məlumata görə bu nəzarətin məmurları gərək bir mərkəzdə və gərək məhəllərdə vəzifəhlərini hüsnüifa etmiyorlar. Hətta nazrin özü də etiraf etdigi kibi bir çox yerdə sui-etimallar dəxi oluyor. Bir çox yerlərdə isə məmurlar əsla işləmiyorlar. Bəzən nazrin son tələbləri də bununla da əlaqədar tutuldu ki, məmur az imiş, yaxud təmin edilmiyorlar. Ona görə də böylə sui-nəticələr hasil oluyor.

Bu səbəbdən komisyonda iki rəy çıxdı. Bəziləri nəzarətin fəaliyyətsizligini və bir nəticə göstərmədigini nəzərə alaraq bu layiheyi-qanuniyyənin tamamilə rədd edilməsi tərəfdarı oldular, bu əqəliyyətin rəyi idi. Digərləri isə tənqidlə bərabər layihədə göstərilən maddələri qismən qəbul, qismən rədd etmək tərəfdarı oldular. Məsələn, nəzarət mahal müfəttişi üçün ikinci köməkçi istəmişdir. Bunun 4 qəbul 2-ni rədd etmək və istənilən 3 müfəttişi və bir lavazim müdiri təyinini qəbul etmək tərəfdarı oldular. Bir də xırda şeylər istəniliyor. Məsələn, şofer kimi, onu da qəbul ediyorlar. Bundan əlavə bəzi maddəyi də dəgişiyorlar. Məsələn, dəftərxanə məxaricinin artırılması məsələsi. Nəzarətin layihəsinə görə dəftərxanə məxarici ildə 87.000 ikən komissiya ancaq 31.000 ediyor. Bu sürətlə büdcə komissiyası nəzarətin istədiklərindən 4-nə razı olub qalanını rədd ediyor.

**Ağabəyov** (Müsavat) – Ümuri-xeyriyyə nəzarətinin gələcəgi məlum və müəyyən degildir. Çox ola bilər ki, haman nəzarət tamamilə ləğv edilib vəzifəsi başqa bir nəzarətə mühəvvəl edilsin. Binaənileyh bəncə ümuri-xeyriyyə və nafeə

nəzarətinin heç bir istəgi qəbul edilməməlidir. Mütabiqən dəxi bu qanunun rəddini iqtiza edər.

**Saniyev Hacı Kərim** (Sosialist) – Ümuri-xeyriyyə və nafeə nəzarətnin işi bu saət ancaq qaçqınlar işinə baxmaqdır. Qaçqınların mərkəzi necə ki, məlumunuzdur Qazax qəzasıdır. Və halədə Ermənistandan oraya axın-axın qaçqınlar gəldigi görülüyor. Fəqət bu vəqtədək hələ görmədim və bilmədim ki, bu nəzarətin agenti oradadır və nə qayrıyor. Ancaq daima şikayətlər eşidiliyor ki, heç bir iş görmüyor. Və qaçqınlara yardım etmiyor. Bu saət Qazaxda küçələr, məscidlər qaçqın ilə doludur. Polis məmurları hər gün küçədən qaçqınların meydlərini tapıyorlar. Amma vəzifədar olan, bunun üçün maaş alan heç tapılmır da barı meydləri də götürmüyor.

Bir vəqt bən darıxaraq nəzarət nümayəndəsindən telefondan sordum ki, burada ümuri-xeyriyyə və nafeə nəzarətinin adamı yoxdurmu ki, bunlara kömək etsin. Dedi var. Bir rusdur. Fəqət nərədə olduğunu və nə qayırdığını bilmiyoram.

Əvvəla bir adam onun dilini bilmədikdə bir adam üçün bir mütərcimi saxlarlar ki, qaçqının dərdini anlasın? Saniyən Azərbaycanda qaçqınların dilini bilən adam yoxdurmu ki, təyin edilsin və qaçqınların dilini bilib dərdini dinləsin, çarəsini qılsın?

Qazaxdakı qaçqınlara baxan bu saət ancaq xəlq cəmiyyətidir. Onun da nə pulu var kömək edə bilsin, nə də ixtiyarı. Böylə bir nəzarətə yenidən nə pul verməlidir, nə də məmurlar. Əvvəlki natiq yaxşı dedi ki, onu ləğv etməlidir. Ona görə bən təklif ediyoram ki, bu istənilən şeylər artıqdır, xeyriyyə nəzarətinin layiheyi-qanuniyyəsi əsla qəbul edilməsin.

**Aşurov Ağa** – Hökumət gərək öz hüququnu da, vəzifəsini də bilsin, Parlaman nə istəsə hökumət gərək onu versin, verməzsə öz təklifini bilsin, vermiyoram, yainki verə bilmiyoram olmaz.

Bizim həqqimiz var ki, hankı nəzarət istədigimizi verməsə ona bir qəpik buraxmayaq. Doğrudur bəzi nəzarətlərdə öylə işlər var ki, smeta olmasa da biz ona pul buraxmalıyıq. Fəqət bu o nəzarətlərdən degildir. Ümuri-xeyriyyə və nafeə nəzarəti yeni bir nəzarətdir. O smetasını göstərməlidir. Biz bilmiyoruz ki, ona nə qədər pul buraxmalıyız. Və buraxılan pul nə yerə sərf ediliyor. Ümumiyyətlə bən bunu demək sitəyoram ki, biz bir dəfə hökumətdən qəti surətdə smeta tələb etməliyiz, tainki smeta tezlik ilə təqdim edilsin. Bu qanuna gəldikdə bən diyoram ki, ümuri-xeyriyyə nəzarətinin bu qanununu qətiyyən rədd etməlidir.

**Vəkilov Rəhim** (Müsavat) – Ümuri-xeyriyyə və nafeə nəzarətinə buraxılan pullar qaçqından ziyadə məmurlara sərf olunur. Məsələn, Lənkəran alınandan hələ 2-3 ay qabaq bir çox məmurlar təyin edilmişdi. Onlar yığışıb maaş alıyorlardı ki, gələcəkdə Lənkəran alınacaq və biz gedib orada işləyəcəyiz. Qazaxdakı qaçqınların halından burada bəhs etdilər. Yalnız Qazax degil, hər yerdə qaçqınların halı bedtərdir. Ümuri-xeyriyyə və nafeə nəzarəti məmurları da heç bir iş görmüyorlar. Zəngəzur və Şamaxıdakı qaçqınların halı daha fənadır, ölməkdən başqa onların dərdinə bir çarə yoxdur. Nəzarət məmurları nə ediyorlar? Hətta yerləri də məlum degildir.

Bir də bən təəccüb ediyoram ki, ümuri-xeyriyyə və nayeə nəzarətindən gələn layiheyi-qanuniyyələrin həpsi ştat həqqində oluyor, bu nəzarətin fəaliyyəti ancaq məmur təyin etməkdən ibarətdir. Binaənileyh bən təklif ediyoram bu layiheyi-qanuniyyə qətiyyən rədd edilsin, tainki nazir bilsin ki, yalnız işsizləri bir yerə toplamaq onları məmur təyin etmək və onlara maaş vermək ilə iş olmaz, fəaliyyət lazımdır.

**Şıxəlibəyov Asəf bəy** (Müsavat) – Bu nəzarət guya bizim Şamaxı qəzasında da işliyormuş. Bunu eşidiyoruz. Fəqət heç

bir işini görmüyoruz. Məlumunuzdur ki, Şamaxı fəlakətzədələrinin halı nə qədər fənadır. Neçə kəndlər dağıdılmışdır, şəhərin nə qədər bərbad olduğunu bilirsiniz. Kəraətlə bən bu xüsusda nazirlərin özünə məruzədə bulunmuşam. Fəqət bu vəqtədək oradakı fəlakətzədələrə bir çarə edilməmişdir. Məmurların sui-istemalına gəlincə Şamaxı qəzasında bu da yox degildir. Necə ki, bir müfəttiş 30 min manatın sərf edildigini isbat edəmmədigindən qulluqdan qovuldu. Haman bu işləri nəzərə alaraq bən də layiheyi-qanuniyyənin rədd edilməsini təklif ediyoram.

**Axundzadə** (Müsavat) – Necə ki sabiq natiqlər dedilər ümuri-xeyriyyə və nafeə nəzarəti məmurları heç bir iş görmüyorlar bən özüm qaçqın və qaçqınlar nümayəndəsi olduğum üçün onların halı və nəzarətin işlərinə daha yaxşı bələdəm ayrı yerləri bilmiyoram, ancaq Zəngəzurda 27.000 qaçqın olub böyük fəlakət içində yaşıyorlar. Hətta yaşamıyor, bəlkə qırılıyorlar. Fəqət bu vəqtədək bu nəzarətdən bizə bir xeyir və mənfəət çatmamışdır. Yalnız oraya bir neçə məmur göndərmişdir. Onlar da Zəngəzur ilə Qaryagin arasında kain Zəngilanə gəlib oradan qayıtmış və rəsmi bir rapor yazmışlar vəssəlam, başqa bir iş gördükləri yoxdur. Son bir il yarım zərfində nəzarətin qaçqınlara kömə gi bu olmuşdur ki, bərəkət versin türklər gedən zaman orada bir qədər zəkat buğdası buraxmışlardı, ondan adam başına 15 girvənkə tozlu-topraqlı buğda vermişlər. Bir də ümum qaçqınlara 7 pud 6 girvənkə qənd və 4 min arşın bez – vəssəlam. Görünür ki, oradakı məmurlar qaçqınlara kömək etmək üçün degil, qaçqınlar məmurları təmin etmək üçün imişlər. Qaçqınlar çöllərdə qalıb qırılıyorlar nə onlara toxumluq verən var nə heç olmaz ölümdən qurtaracaq qədər çörək veriliyor. Bən özüm nəzarət komissiyasına qaçqınların halından məlumat verdim. Bəgəndilər məsələ artıq həll olu-

nub qurtarmışdır. Bir daha məlumata ehtiyac yoxdur. Fəqət o vəqtən bəri nə nəzarətdən bir fəaliyyət görülür, nə də qaçqınlara bir şey çatıyor. Diyorlar nəzarət un alıb paylayacaqmış, halbuki 27.000 qaçqına 27 il qala Zəngəzurdan un almaq olmaz, çünki, orada əkin öylə vüsətli degildir. Bir də əkinçiyə öküz lazım, toxum lazımdır. Bunları haradan alacaqlar. Yəqin heç yerdən almayacaq və verməyəcəklər iki ay orada oturub sonra bir rapor yazacaqlar ki, iş gördük və o vəqtədək də qaçqınlar qırılıb məhv olacaqlardır.

Dərd çox bu barədə söylənəcək söz çox-çoxdur. Lakin onların həpsi əvəzinə bir kəlmə denilməlidir ki, ümuri-xeyriyyə və nayeə nəzarəti bilmərrə iş görmüyor, mənfəət vermiyor. Nəzarət hər qəzada 10 anbar güşadı təsəvvür və məmur təyin ediyor. Amma yaxşı olardı ki, nəzarət 10 anbar əvəzinə 10 darülitam açıb biçarələrə yardım edə idi. Bunların həpsi əvəzinə də ancaq Qarabağda 4 darülitam açılması layihəsi vardı. Bunun ancaq birisi Ağdamda açılmışdır. Orada da cümlətanı 9 yetim var. 18 aşbaz və sair qulluqçu. Bu nəzarətin işləri barəsində müfəssəl danışmaq istəsək çox uzun çəkər. Bən təklif ediyoram ki, bu layihə rədd edilsin, hətta qaçqınlara başqa bir yol ilə müavinət edilsin.

**Rəfibəyov Musa** (Müsavat) – Ümuri-xeyriyyə və nefeə nəzarətindən varid olan hər bir layihə uzun mübahisə və danışığa bais oluyor. Zira onun öhdəsinə düşən vəzifəyə böyük əhəmiyyət verə biliyor. Hər tərəfdən qaçqınlar gəliyor. Ehtiyac çox, bunların həpsinə yardım etmək, ehtiyaclarını ödəmək dərdlərinə qalmaq lazımdır. Qabaqda bən özüm məruzəçi sifətilə dəfaətlə ümuri-xeyriyyə və nafeə nəzarətinə pul istəmişəm.

Bu dəfə 3, digər dəfə 18 milyon istədim. Verilibdi də. Fəqət nə iş görülür, nə məram ilə çalışıyorlar, pullar hara gediyor

xüsusda bir şey görülmüyor və məlumat verilmiyor. Burası doğru, amma bunu Parlaman üçün tənqid etmək bəncə mənasızdır. Nəzarətin nümayəndəsi burada yoxdur ki, bu xüsusda bizə məlumat versin. Bu sözlərin həpsi nəzarət başında duran adamlara aiddir. Bəlkə onların da deyəcək sözləri var, bəlkə bu vəqtədək bir nəticə görülmədigi həqqində məlumat verəcəklər. Ya işləyə bilmədiklərinə nələr mane olduğunu bildirəcəklərdir. Biz görüyoruz ki, nəzarət layihələr veriyor, məmurlar təyin ediyor, amma bundan da bir şey çıxmıyor. Odur ki, nazirə xəbər verməlidir, nümayəndə göndəriisn, izahat versin. Əgər bu xüsusda kafi izahat verəmməzsələr o halda nəzarəti yalnız ləğv etmək kafi degil, hətta məhkəməyə vermək icab edər. Çünki burası dövləti bir cinayətdir. Binaənileyh bən təklif ediyoram qanun layihəsinin müzakirəsi bu gün təxir edilsin və nəzarətə xəbər verilsin ki, gələn iclasa nümayəndə göndərib izahat versin.

Musa bəyin təklifi (birinci qism) səsə qoyularaq əksəriyyəti-ara ilə qəbul və layiheyi-qanuniyyənin müzakirəsi gələn iclasa təxir ediliyor.

*"Azərbaycan", 15 oktyabr 1919, №296*

Kain – var olan
İtam – yedizdirmə

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 13 TƏŞRİNİ-ƏVVƏL İCLASI

**Sədr**: Həsən bəy Ağayev
**Katib**: Mehdi bəy Hacınski
İclas saat birin yarısında açılıyor.

**Sədr** – iclası açaraq məsayili-yövmiyyə elan ediliyor və məbusların iclasa öz vəqtində gəlməyib, hər dəfə bir saatdən ziyadə iclasın gec açıldığını qeydlə vəqtində gəlmələrini Divani-Rəyasət namindən rica ediyor və diyor ki, bundan böylə nizamnamə mövcibincə yarım saatdən artıq gözləməyərək kvorum olmasa iclası qapayacaqdır.

Sonra məsaili-yövmiyyəyə keçilərək

1- Üsyançılar və dövlət əsasları əleyhinə cinayət işləyənlərin məsuliyyəti

2- Hüquq mühakiməsi nizamnaməsinin 1462-ci fəslinin mühakimeyi-sülhiyyə təhtindəki iqameyi-dəvaları fiyatının nəhayət dərəcə artırılması üçün təbdili.

3- Məhkəmə işlərinin övraqi-dəftərxana və icbariyyə vərəqəsi vergisilə qiymətə aid olmayan iqameyi-dəva xərclərinin artırılması həqqindəki layiheyi-qanuniyyə

3-cü qiraətdə qəbul olunaraq, sabiq Zaqafqasiya komissariyyatı və Bakı xəlq komissarları şurası tərəfindən öhdələrində olan vergilərini vəqtində verməyənlərdən cəza üsulilə əxz ediləcək nəqdiyyələrə dair qərarların ləğvi həqqindəki layiheyi-qanuniyyəyə keçiliyor və 1-ci və 2-ci qiraətdə qəbul olunur.

## 10 milyon borc

Bədə Bakı bələdiyyə idarəsinə 10 milyon manat borc verilməsi həqqindəki layiheyi-qanuniyyənin müzakirəsinə keçiliyor. Bu layihə uzun müzakirə və mübahisəyə bais oluyor.

**Rzayev Abuzər bəy** – Şəhərin builki halını keçənilki ilə müqayisə edərək bilnisbə yaxşılaşdığını, küçələrin təmizlənməsi, işıq, konka, məktəb və xəstəxanaların şimdi necə olduğunu və bunun üçün şəhərə külli miqdarda pul lazım ikən mədaxilin azlığını qeydlə diyor ki:

Qabaqda parlaman bələdiyyə idarəsinə 5 milyon manat borc vermişdi. Bundan əlavə hökumət şəhərə 50 milyon manat daxili istiqraz əqdinə imtiyaz vermişdir. Fəqət haman borc əqdi gec olar. O vəqtədək şəhər xidmətçilərinə maaş vermək lazımdır. Pul da yoxdur. Binaənileyh bələdiyyə idarəsi hökumətə müraciətlə 5 faizlə 25 milyon manat borc istəmişdir. Lakin hökumət bu məbləği çox hesab edərək ancaq 10 milyon manat buraxmaya razı olmuşdur. O cümlədən, 5 milyonu qabaqda verilmişdir. Şimdi də 5 milyonunu buraxmaq həqqində parlamana şu layiheyi-qanuniyyəyi təqdim etmişdir.

Fəqət bu parayı bələdiyyə idarəsi necə qaytaracaqdır?

Qanuna görə Bakı şəhər dumasına verilən borc əqd ediləcək olan 50 milyonluq daxili istiqrazdan verilməlidir. Əgər bundan olmasa, şəhər nəfinə alınmaqda olan pud hesabı vergidən əda edilməlidir. Əgər şayəd bu, ya o səbəbdən bununla da ödənməzsə, o halda məzkur 10 milyon manat bələdiyyə məclisinin 1922 və 1923-cü illər məxaric smetasına daxil edilməlidir. Bundan əlavə şəhər duması bu pula ildə yarım milyon manat faiz verəcəkdir. Haman yarım milyon isə gələn ildən etibarən şəhər smetasına daxil edilsin gərək.

Maliyyə-büdcə komissiyası bu layihəyi qəbulla təsdiqini parlaman təklif ediyor.

**Ağamalı oğlu Səmədağa** – (Hümmət) Beşinci dəfədir ki, böylə layiheyi-qanuniyyə gəldigini və şəhərin pulu olmamasının səbəbi olmaq üzrə qlasnıların burjuaziya tərəfdarı olduqlarından şəhər xərcini varlılardan almaq lazım ikən, əsla bu uğurda tədbir görmədiklərini təzkarla təklif ediyor ki, istənilən pul buraxılmasın. Tainki Dum işlərini apara bilməyərək dağılmağa məcbur olsun və yeni üsul ilə bələdiyyə idarəsi seçilsin.

**Aşurov** – Bu pul verilməzsə minlərcə əmələ və xidmətçilərin ac qalacağını qeydlə qanunu müdafiə ediyor və diyor ki, bələdiyyə idarəsinin xərcini azaltmaq lazımdır. Zira şəhər duması bir çox şeylərə pul sərf ediyor ki, o, hökumətin borcudur. Məsələn, polis saxlamaq bələdiyyə idarəsinin borcu degildir. Doğrudur, Azərbaycan hökuməti sabiq Rusiya kibi polis xərcini Dumun boynuna salmayıb, özü çəkiyor. Amma yenə şəhər çox pul sərf ediyor. Saniyən məarif məsələsi tamamilə hökumətin öhdəsində olmalıdır. Halbuki Bakı bələdiyyə idarəsi məarif işlərinə ildə 18 milyondan ziyadə pul sərf ediyor. Salisən məlumdur ki, bu saət xəstəxanalara şəhərin ildə 25 milyondan artıq pulu çıxıyor. Bu da hökumətin borcudur. Bu surətlə bələdiyyə idarəsinin kəndi məxaricini ödəyə bilməməsinin səbəbi qismən də hökumət borcu olan bir çox şeylərə pul sərf etməsidir. Binaənileyh bən təklif ediyoram əvvəla, bu məbləğ şəhər idarəsinə 5 faizlə degil, faizsiz buraxılsın. Saniyən, şəhər heç vəqt bu məbləği 2 ildə qaytara bilməz. Həqiqətə göz yummamalıdır. Görüyorsunuz ki, əhval ildən-ilə bedtər oluyor. Bir də məlumunuzdur ki, həmişə şəhərlərə borcu 10, 20 ilə verirlərdi. Şimdi təklif ediyoram pul 2 ilə degil, 10 ilə verilsin. Və əlavə daxiliyyə nazirinə tapşırılsın ki, bələdiyyə idarəsinə xəbər versin kəndisi bir komissiya

təşkil etsin, şəhərin öhdəsində olan bəzi vəzifəsindən xaric şeyləri hökumət öz öhdəsinə alsın.

**Abdulla bəy Əfəndizadə** – (Əhrar) Ümumiyyətlə, bələdiyyə idarəsinə istənilən borcun verilməsi tərəfdarı olduğunu bəyan ediyor. Fəqət Aşurovun sözlərinə etirazla polis, məarif, xəstəxana və sairə hökumətə veriləcək olursa, bələdiyyə idarəsi boynunda nə kibi vəzifə qalacağını soruyor. Digər tərəfdən Bakı ən zəngin bir şəhər ikən Azərbaycanın 1/2 olmasa da, 1/3, ya 1/4 xərci Bakı üzərinə düşdügünü və bunun müqabilində mədaxil olmadığını qeydlə "pəs Bakının da mədaxili az olsa, haranın mədaxili olar bilər?" deyə sual edərək, bununla şəhər xozyaystvo qisminin işləmədigi isbat olunduğunu göstəriyor, təklif ediyor ki:

Pul verilsin, fəqət şəhərin xozyaystvo işlərinə diqqət verilsin. Yeni seçki icrasiləmi, bələdiyyə idarəsini bəzi üzvlərdən təmizləməkləmi, nə ilə olur-olsun, xülasə buna bir çarə edilsin.

**Əbilov İbrahim** – (Hümmət) 2 aydan bəri qanun qəbul edilmiş olduğu halda, dumaların təyin olunmuş üzvlərdən təmizlənmədigini və su kəməri, tramvay yolu və sairə inşası kibi böyük xərclər olmadığı halda şəhərin daima borca möhtac qaldığını qeydlə qlasnıların mədaxil mənbəi tapmayı bacarmadıqlarını göstəriyor və nə qədər ki duma tazələnməmişdir, pul verilməsi əleyhində danışıyor, diyor ki:

Biz nə qədər pul versək o qədər artıq istəyəcəkdir. Sonra Aşurova etirazla məktəb, xəstəxana, polis və qeyrə saxlamaq şəhərin vəzifəsi degilsə nə üçün öhdəsinə aldığını soruyor. Və böylə isə "şəhərin borcu yalnız süpürgəçilikmidir?" sualını verərək diyor ki:

Əgər vəzifəsi bu olmuş olsa da barı bunu da hüsni-ifa etmiyor. Binaənileyh bən təklif ediyoram ki, bu parlamanda qəbul

edilmiş olan qanun ilə yeni demokratik duma seçilənədək bələdiyyə idarəsinə pul buraxılmasın.

**Əhmədov Əsədulla** – (bitərəf) 2 il əvvəl şəhər büdcəsinin 21/2, keçən il 19 milyon olduğunu qeydlə xərcin birdən-birə bunca artdığının səbəbi şimdiki duma degil, haman "demokrat" duması olduğunu qeydlə mədaxil məsələsinə keçiyor. Diyor ki: şəhərin ümdə gəliri dəbəkdən ibarət olub, o da qabaqda 1 faiz idi, şimdi 2 olmuşdur. Əgər bütün dəbək yığılsa mədaxil 5 milyon olar. Nəinki 50 milyon bütün şəhərin evləri, 40 milyon mədaxil veriyor. Bunun həpsini şəhər kassasına versələr yenə məxarici ödəməz. Bakı bələdiyyə işlərinin bunca fəlakətə gəlməsinin səbəbi kimlərdir? Tsenzovun duması, 7 aylıq Azərbaycanmı? Yoxsa bu fəlakətlərin həpsi haman demokrat denilən dumanınmı irsidir? Bir də duma nə eləsin? Pud hesabı vergi qanunu 8 aydır təsdiq edilməmişdir. 50 milyon istiqraz layiheyi-qanuniyyəsi hələ 6 aydır gəlib çıxmıyor.

Nəhayət, bunu da bilməlidir ki, bir aydır təftiş və təhqiq komissiyası təyin edilmişdir.

Bundan sonra şəhərin məarif, xəstəxana, konka və sairə məsələləri haqqində rəqəmlərlə xərcinin çoxluğunu və qulluqçuların sentyabr maaşlarının verilməmiş qaldığını bəyanla təklif ediyor dumaya borc pul buraxılsın.

**Məhəmmədbəyov Heybətqulu** – (bitərəf) Əfəndizadə və Əbilovun nitqlərini tənqid edərək axırda diyor ki, şəhər idarəsi 3 milyon yarım maaş veriyor. Şindi bələdiyyə xidmətçiləri ittifaqı hələ yenidən maaşın artırılması haqqində tələbat vermişdir. Bu da qəbul ediləcək oluyorsa, 4 milyon yarım olacaqdır.

Bən təklif ediyoram dumaya istənilən pul verilsin, həm də 10 il müddətinə faiz olaraq buraxılsın.

**Qarayev Əliheydər** – (Sol-Hümmət) təklif ediyor ki, bu layiheyi-qanuniyyə rədd edilsin və hökumətə tapşırılsın tez

bir zamanda layihə tərtib versin ki, möhtəkirlər ilə mülkdarların cibindən pul çıxsın.

**Hacınski Mehdi bəy** – (Müsavat) Nizamsızlıq, zibil, bahalıq və ümum fəlakətlərin həp Qarayevin tərif və tələb etdigi Moskva füqərayi-kasibəsi irsi olduğunu bəyan ediyor (Alqış, bravo). Diyor ki, şimdi iş başına əsl Azərbaycan demokratiyası keçər, onda görüz işlər nə qədər yaxşı gedər. Hələlik bən bu məbləğin buraxılması tərəfdarıyam.

**Abuzər bəy** – (məruzəçi) Son sözündə qabaqkı natiqlərə müxtəsərən cavab verərək qanunu müdafiə ediyor, fəqət pulun faizsiz və 10 il müddətinə verilməsinə razı olmuyor.

Rəyə vəz edildikdə əksəriyyəti-ara ilə layiheyi-qanuniyyə komissiyanın təklif etdigi kibi qəbul olunur.

5 dəqiqə tənəffüs elan ediliyor.

**Tənəffüsdən sonra**

**Sədr** – komissiyalara müraciətlə məruzəçi təyin edərkən bir vəkil dəxi göstərilməsini, keçən iclasda təklif edilmiş olduğu üzrə parlaman komisyonlarından çıxmış olan üzvlərin yerinə yeni namizədlər göstərilməsini və bir də ləvayehi-qanuniyyə komissiyasına 2-3 yaxşı türkçə bilən üzvlər verilməsini rica ediyor.

**Gəlməyənlərə cərimə**

**Ağa Aşurov** – növbədən xaric söz alaraq bir çox məbusların tez-tez iclasa gəlmədiklərini və bir çoxlarının gəlib adını yazıb da iclasda iştirak etmədən getdiklərini qeydlə böylələrinə cəza olmaq üzrə parlamanın qərarına görə o günün maaşından məhrum edilməli olduğunu göstəriyor. Diyor ki:

Bu cəza azdır. Bən təklif ediyoram böylə məbusların cəzası 3 qat artırılsın. Yəni iclasa gəlməyən günü 300 əvəzinə 600 manat cərimə edilsinlər.

Bu məsələ üzərinə bir qədər mübahisə açılaraq nəhayət, iclasa gəlməyən üzvlərin 600 manat cərimə edilmələri haqqında Ağa Aşurov tərəfindən edilmiş təklif əksəriyyəti-ara ilə qəbul olunur.

**Qulluqların müsavilәşdirilməsi**

Nəhayət, növbətçi general kvartermeyster və ərkani-hərbi-ümumi topoqraf şöbəsi rəisi qulluğunun firqə komandanı qulluğu ilə müsavilәşdirilməsi haqqındakı layiheyi-qanuniyyənin müzakirəsinə keçiliyor. İstecal elan ediliyor. Layiheyi-qanuniyyə 1-ci, 2-ci və 3-cü qiraətdə bilaetiraz qəbul olunur.

İclas bununla qurtarıyor.

*"Azərbaycan", 18 oktyabr 1919, №298*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 16 TƏŞRİNİ-ƏVVƏL İCLASI

**Sədr**: Həsən bəy Ağayev
**Katib**: Əhməd Cövdət
İclas açılır saat 11:45 dəqiqədə

### Bakı Mövqe Komandanlığı

**Sədr** iclası açaraq məsayili-yövmiyyəyi elan ediyor.

Birinci sırada Bakı Mövqe Komandanlığı təşkili və ştatı həqqindəki layiheyi-qanuniyyədir. Məruzəçi doktor Musa bəy Rəfiyev.

Layiheyi-qanuniyyə ştat cədvəli ilə bərabər birinci qiraətdə müttəhidülrəy qəbul olunaraq maddə-maddə qiraətə keçiyor və ikinci qiraəti bilaetiraz qəbul ediliyor.

### Ümuri-Xeyriyyə Nəzarəti Ştatası

Bədə ümuri-xeyriyyə və nafeə nəzarətinin ştatası siyahısı və maaşlarının artırılması həqqindəki layiheyi-qanuniyyənin müzakirəsinə keçiliyor. Layihə yenidən uzun müzakirə və tənqidlərə bais oluyor.

**Klenovski** – (ümuri-xeyriyyə naziri) Rusca uzun bir nitq söyləyərək nəzarətinin fəaliyyətsizligi səbəblərini izah ediyor. Göstəriyor ki, bu vəqtədək ümuri-xeyriyyə və nafeə nəzarətinin işləməməsinə bir neçə səbəb mane olmuşdur. Əvvəla nəzarətə istədigi miqdar pul buraxılmamışdır. Pul az olduğundan lazımınca kömək dəxi edilməmişdir. Saniyən

ümuri-xeyriyyə nəzarəti tərəfindən tərtib verilmiş olan bir çox layihələr hökumət nəzdində qəbula keçməmiş, rədd edilmişdir. Bu da nəzarətin fəaliyyətini məhdud qılmışdır. Digər tərəfdən möhtaclara kömək məsələsi o qədər geniş dairə almışdır ki, bu işdə bütün hökumət və cəmaət çalışmalı idi. Yalnız xeyriyyə və nafeə nəzarətinin fəaliyyəti kifayət etməz. Ona görədir ki, ümuri-xeyriyyə və nafeə nəzarətinin zənnimcə qaçqınlara, fəlakətzədələrə lazımınca kömək edilməməsinin təqsiri yalnız məzkur nəzarətdə olmadığı kibi məsuliyyəti də haman nəzarətin öhdəsinə düşməz.

Bu dəlil və mülahizələrlə bərabər natiq əfəndi Şurayi-Vükəlayə nə vəqt, nə kibi layihə və məruzələr təqdim etmiş olduğunu göstərərək bəyan ediyor ki, nəzarət daima çalışmaq istəmiş və çalışmışdır, bir şey hasil olmamışsa təqsir onda degildir.

Nəhayət rəqəmlərə keçərək Azərbaycanda hal-hazırda 150 min möhtac olduğunu və bunlara ən zəruri şeylərdən ən az miqdarda veriləcək olsa belə ayda 75 milyon, ildə bir milyarddan ziyadə pul sərf etmək lazım gəldigini qeydlə diyor ki:

Bu surətlə görüyorsunuz möhtacları təmin üçün xəzinə belə kifayət etməz. Halbuki xeyriyyə nəzarəti ixtiyarında olan pul ehtiyaca nisbətən heç dərəcəsindədir.

Nitqinin axırında pul ilə bərabər məmurların da az olduğunu qeyd: məmurlar içində sui-istemal ittifaqları olduğunu etiraf və böylələrinin xidmətdən çıxarıldığını bəyan edərək, nəhayət bununla böylə məmurların azadlığını, işi yetirəmədiklərini göstəriyor. Çox məmur olduğunu təkid ediyor və nitqinə bu sözlərlə xitam veriyor:

Yuxarıdan bəri zikr etdigim kibi ümuri-xeyriyyə və nafeə nəzarəti qayət ağır və çalışmaya əsla əlverişli olmayan şərait altında işləmişdir. Fəqət böylə şərait altında çalışmaq artıq

mümkün degildir. Binaənileyh bən özüm xeyriyyə və nafeə nəzarətinin ləğvi tərəfdarıyam.

**Qənizadə Soltan Məcid** – ("İttihad") Nəzarət qulluqçularının çoxluğunu, bəzən xəyanətlər belə olduğunu və qaçqınlara müəyyən bir sistemlə yardım edilmədigini qeydlə sistemin fənalığını göstəriyor və rəfi üçün dəftərxanə xərclərinə sərf etmək üçün 2 milyon tapılıyor, qaçqınlara verməgə pul yoxdur diyorlar – deyə nəzarətin fəaliyyətini tənqid ediyor və nitqinə bu sözlərlə xitam veriyor:

Nazir bacaramıyoram deməklə işin içindən çıxmaq istiyor. Fəqət bunu deyə bilməz. Biz təklif ediyoruz nəzarət işlərini yarımçıq qoymuyub davam etdirsin. Fəqət müəyyən bir qaidə və nizama salsın.

**Ağabəyov** – ("Müsavat") Ümuri-xeyriyyə və nafeə nazirinin natiqlərə böylə cavab verərək təqsiri başqa nəzarətlərin boynuna atmasını – məsuliyyəti kəndi boynundan atmaq kibi tələqqi ediyor və nəhayət Ermənistandakı fəlakətzədələr nəfinə 3, Zəngəzurdakılara 18 milyon buraxılmış olduğu halda, mahalında möhtaclara bir şey çatmamış olduğu məsələsində müfəssələn dayanaraq diyor ki:

Bu gün nazir izahat verməgə başlarkən bən ondan böyük projelər gözlüyordum ki, deyəcək bu layihələr üzərinə çalışmaq istiyoram fikrim də budur. Böylə olsaydı əlbəttə Parlamanda layihəyi qəbul edərdi. Fəqət biz böyük projelər gözlüyorkən nə gördük: nazir bizə bir söz belə demədi.

**Ağamalı oğlu** – ("Hümmət") Bu nəzarətin lüzumsuzluğunu isbatə çalışaraq "xeyriyyə nəzarətinin qapısı bağlansa belə qaçqınlar heç də zərər çəkməzlər" deyə nitqinin axırında təklif ediyor ki:

Ümuri-xeyriyyə və nafeə nəzarəti bağlansın. Daxiliyyə nəzarəti cünbündə bir şöbə açılsın. Qaçqınlara yardım işləri

haman şöbənin təhti-idarəsinə verilsin. Yardım isə cəmiyyəti-xeyriyyələr vasitəsilə edilsin. Bundan əlavə məzkur şöbəyə tapşırılsın ki, yalnız yemək şeylərilə yardım etməklə qənaətlənmiyərək onlara yer, iş və əkin ləvazimi vermək həqqində tezlik ilə bir layihə tərtib və təqdim etsin.

**Əbilov** – ("Hümmət") Nazirin bəyanatını kafi görməyərək tənqid ediyor: qaçqınlara kömək edilmədigini göstəriyor və ümumiyyətlə nəzarətin işləmədigini qeydlə diyor ki:

Ümuri-Xeyriyyə və Nafeə Nəzarətinin nəinki heyətini artırmaq lazım degil, hətta nəzarətin özü də lazım degil. O nəzarəti qapayıb məmurlarına verilən pul xəzinədə qalsa daha xeyirlidir. Bu mülahizələrlə bən təklif ediyoram ki, xeyriyyə nəzarətinin bu layiheyi-qanuniyyəsi qəbul edilməsin və gələcəkdə nəzarət tamamilə ləğv edilsin.

**Axundzadə** – ("Müsavat") Nəzarəti tənqidlə bir çox rəqəmlər və dəlillər üzərinə ümuri-xeyriyyə nəzarətinin fəaliyyətsizligi və qaçqınlara kömək edilmədigini göstəriyor, diyor ki, Zəngəzurda siyahı üzrə 27 qələmdən düşmüşlər ilə 37 minə qədər qaçqın varkən nazir o qədər xəbərsizdir ki, 70.000 göstəriyor.

Sonra fevralda Zəngilanda qəbul edilmiş olan qətnaməyi oxuyaraq bunun da heç birisinə əməl olunmadığını qeydlə sui-istemallara keçiyor. Zəngəzur müfəttişinin məmuriyyətinə layiq olmadığını bildikləri halda ancaq təvəqqe ilə qəbul edildigini feldşerin qaçqınlara göndərilən davacatı İranda satdığını, Ağdamda qaçqınların yerləşdirilməsi həqqində 2 ay yarım bundan əvvəl görülməsi mütəsəvvür olan tədbirlərə hala da əməl edilmədigini və bu işlər xüsusunda nazirə məruzələr verilmiş olduğu halda bu vəqtədək bir cavab ya bir tədbir olmadığını və nəhayət böylə məmurlar iş başında qaldıqca cəmaət arasında hökumət nüfuz, etibar və etimadını qeyb

etdigini təzkarla bu kibi məmurların xidmətdən əzlini və cəzalanmasını tələb ediyor və axırda təklif ediyor ki:

Əvvəla ümuri-xeyriyyə və nafeə nəzarəti ləğv edilsin, yardım işləri daxiliyyə nəzarətinə mühəvvəl edilsin, saniyən Parlaman üzvlərinin də iştirakı məşrut olmaq üzrə məhəllərə bir komisyon göndərilsin və şəxsən məmurlara verilmiş olan dəsturüləməl dəgişsin.

**Rüstəm xan Xoyski** – (ümuri-xeyriyyə və nafeə naziri müavini) Qaçqınların əhvalının fənalığını etiraf və fəqət məbusların gözlədigi kibi kömək etmək qeyri-mümkün olduğunu qeyd edərək diyor ki: Fəqət bununla bərabər nəzarət heç də işləmiyor demək olmaz. Əlində olan pul miqdarında və imkan daxilində kömək ediyor. Gəncədə 2, Göyçayda 3, Şəki, Gədəbəy, Bakı və sairlərində birər darüləman saxlıyor. Sair yerlərdə də qaçqınlara az-çox kömək ediyor. Lakin bununla bərabər yalnız ümuri-xeyriyyə və nafeə nəzarəti degil, bütün hökumət belə bu hal ilə qaçqınlara istənilən qədər kömək və onları təmin edəmməz. Çünki 150.000 qaçqın var və Dağıstandan və Ermənistandan yenə də gəlməkdədir. Həddi əqəll götürülsə belə ayda 120 milyon pul lazımdır, bu da yoxdur.

Bundan əlavə xeyriyyə nəzarəti bir çox layihə və məruzə vermişsə də sair nəzarətlər tərəfindən rədd edilmişdir. Bu surətlə nəzarət barı istədigi qədərdə yardım edəmməmişdir.

Sonra ştat məsələsinə keçərək bütün şəhər, qəsəbə və köyləri gəzib yardım etmək üçün 2000 məmur lazım olduğunu və nəzarətin şimdiki miqdar məmurlar ilə heç fəlakətzədələrin dərdini sorub siyahısını da tatmaq mümkün olmadığını bəyan edərək diyor ki:

Şimdi bizim bu azacıq ştatımızı da qəbul etməzsəniz o halda əsla işləyə bilməyəcəgiz (bir səs: biz də diyoruz qapınız bağlansın).

Nəhayət, sosialistlərin tənqidlərinə cavabla Zəngəzura gedəcək komissiyada iştirak üçün Parlamanda vermək həqqində fraksiyalara kağız yazdıqlarını və bu vəqtədək hələ nümayəndə göndərilmədigini göstərərək "danışmaq asan, fəqət işləmək çətindir" deyə nitqinə bu sözlərlə xitam veriyor. Bu layihə çoxdan hazırlanmışdı. Əgər bu gün yazılsaydı hələ neçə qat artıq məmur istəmək lazım gələrdi. Şimdi bu ştat çox degildir. Əgər bunu da qəbul etməzsəniz əsla işləyə bilməyəcəgiz.

**Qarayev** – (Sol "Hümmət") Nəzarəti tənqidlə: qaçqınlara göndərilən şeyləri yolda da siçanlar, yainki siçana dönmüş məmurlar yeyirlər, ya da möhtəkirlərin əlinə düşür, – deyərək möhtaclara kömək edilmədigini göstəriyor və tələb ediyor ki: Öylə tədbirlər görülsün ki, camaatin pulu camaatin cibinə girsin.

**Musabəy** – (yerindən) Tiflis cəmiyyəti-xeyriyyəsinin pulu girən ciblərəmi?

Sırada bir çox natiqlər yazılmış olduğu halda təklif varid oluyor ki, müzakirat bitsin.

Səsə qoyulduqda təklif qəbul olunur.

Layihəyi-qanuniyyənin ikinci qiraətinə keçilməsi səsə qoyularaq əksəriyyəti ara ilə qəbul edilmiyor, bu surətlə ümuri-xeyriyyə və nafeə nəzarətinin layiheyi-qanuniyyəsi rədd edilmiş oluyor.

## Qızıl, gümüş ixracı

Axırda Azərbaycandan xaricə qızıl, gümüş və ağ qızıl ixracı həqqindəki layiheyi-qanuniyyə müzakirə ediliyor.

**Hacınski Mehdi bəy** – (məruzəçi) Sabiq Rusiya hökuməti dövründə Rusiyadan əcnəbi məmləkətlərə qızıl, gümüş və

ağ qızıl aparmağa hər kəsin ixtiyarı vardı. Müharibə vəqti 1914 sənəsi noyabrın 15-də çar Nikolay qanun əsasının 87-ci maddəsi mocibincə senata bir fərman verərək bu şeylərin ixracını mən etdi. Yalnız bir şəxs özü ilə 500 manatlığa qədər qızıl apara bilərdi. Bu qanunu pozanlara, yaxud qaçaq təriqilə aparanlara cəza olmaq üzrə malı müsadirə ediliyordu, malın 5 qat qiyməti miqdarında cərimə alınırdı və bir il 4 ay müddətinə həbs ediliyordu.

Bu qanun Azərbaycanda da qüvvəsində baqi qalmışdı. 1918 sənəsi oktyabrın 25-də hökumət maliyyə nəzarətinə bir əmr verərək bu qanunu ləğv etməklə bərabər qızıl, gümüş və ağ qızılın bilaicazə ixracını mən etmişdi. Sonra ikinci hökumət zamanında isə ixracı qətiyyən mən edilmişdi. Azərbaycandan aparılması mən olunan şeylər həqqində ticarət və sənaye nazirlərinin vermiş olduğu siyahıda dəxi bu şeylər vardı. Bu surətlə bir məsələ həqqində 3 cür qanun vardı. Şimdi maliyyə naziri bir layihə təqdim edərək qızıl, gümüş və ağ qızıl ixracının tamamilə mənini təklif ediyor. Fəqət cəza məsələsində 1914-cü il qanunu dəgişərək təklif ediliyor ki, məmnu şeyləri icra edən şəxslərin malı müsadirə və 5 qat qiyməti miqdarında cərimə edilsin. Lakin bir adam nəqdən degil, qızıl, gümüş və ağ qızıl əşya aparsa malı müsadirə və ancaq 2 qat qiyməti miqdarında cərimə edilsin.

Təklif varid oluyor ki, nəzarətin nümayəndəsi isbati-vücud etmədigindən bu məsələ müzakirədən götürülsün.

Təklif əksəriyyəti ara ilə qəbul olunur.

## Əxbariyyə vərəqələrinin irsal və təbliği

Nəhayət, hüquq davalarında mühakim tərəfindən göndərilən əxbariyyə vərəqələrinin irsal və təbliği üsulunun təğyir və təbdili həqqindəki layiheyi-qanuniyyənin müzakirəsinə keçərək birinci və ikinci qiraətində əksəriyyət ilə (bila müzakirə) qəbul olunur.

İclas bununla xitampəzir oluyor.

*"Azərbaycan", 20 oktyabr 1919, №300*

Mövqe – yer, məhəl
Mühəvvəl – həvalə edilmiş
Məşrut – şərtli
Məmnu – qadağa edilmiş
İrsal – göndərmə, yollanma
Təzkar – xatırlama, yada salma
Darüləman – priyot, uşaq evi
Təğyir – dəyişmə

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 18 təşrini-əvvəl iclası

**Sədr**: Həsən bəy Ağayev
**Katib**: Əhmməd Cövdət
İclas açılıyor saət 11:45 dəqiqədə

### Bakı Mövqe Komandanlığı

**Sədr** iclası açaraq məsaili-yövmiyyəyi və daxil olmuş kağızları elan ediyor. Birinci sırada Bakı Mövqe Komandanlığı təşkili və ştatısı həqqindəki layiheyi-qanuniyyə 3-cü qiraətində müzakirə və qəbul ediliyor.

### Damğa rüsumatı

Bədə damğa rüsumatının artırılması həqqində maliyyə nəzarətindən varid olmuş layiheyi-qanuniyyənin müzakirəsinə keçiliyor.

**Rüstəmbəyli Şəyi bəy** – Məruzəçi sifətilə bəyanat verərək diyor ki, sabiq Rusiya hökuməti zamanında damğa rüsumatı 1901-1905 və 1914-cü illərdə 3 dəfə artırılmışdı. O vəqt marka vergisi 10-20 qəpik kibi bir miqdar idi ki, şimdiki kurs nöqteyi-nəzərindən heç dərəcəsindədir. Ona görə maliyyə nəzarəti bu vergiyi bir neçə qat artırmağı təklif ediyor. Vergilər 3 qismə ayrılıyor. Bunlardan birincisi ən yuxarı dərəcədədir ki, qabaqda 2 manat idi, şimdi nəzarət onu 5 qat artıraraq 10 manat ediyor. Aşağı dərəcələr isə az artırılıyor. 3 manat və 1 manat

oluyor. 3-cü dərəcə isə xırda şeylərdir. Məsələn məhkəmələrə verilən ərizə və sairə damğa rüsumatı maliyyə nəzarətinin layiheyi-qanuniyyəsi üzərində artırıldıqda xəzinəyə 3 milyon yarıma qədər mədaxil vüsul olacağı mütəsəvvirdir.

Parlaman komisyonu bu maddələri danışıqsız qəbul etmişdir. Yalnız ticarət işlərində ali dərəcəyə aid verginin alınmamasını tələb etmişdir.

**Aşurov** – Diyor ki, damğa rüsumatının artırılması mədaxili artırmaq üçündür. Fəqət mədaxili artırmaq üçün yalnız markanın qiymətini böyütmək kifayət etməz. Zira çox zamanlar heç marka yapışdıran yoxdur, hamı ya heç yapışdırmıyor, ya da kopya yazıyor. Ona görədir ki, qanuna əməl olunmasını təqib etmək lazımdır.

Bən təklif ediyoram damğa rüsumatı o qədər artırılmayıb qanuna əməl olunması təqib edilsin.

Ələlxüsus ki, bu saət Azərbaycan markası işlənmədigindən özgə şəklinin bizim kağızlarımıza yapışdırılmasının heç o qədər mənfəəti də yoxdur.

Binaənileyh tez tədbirlər görməlidir ki, o vergi də bizim öz xəzinəmizə daxil olsun. Bu nöqteyi-nəzərdən bən güman ediyoram ki, bu qanunun hələ vəqti degildir.

Hökumət nümayəndəsi bilavasitə və bilvasitə vergilərin artırılmasına baxmayaraq büdcədə açıqlıq olduğunu və 1905-ci il qiymətlərinə nisbətən verginin pək az artırıldığını bəyanla damğa rüsumatının artırılmasının lazım və mümkün olduğunu göstərərək layiheyi-qanuniyyənin eynən qəbulunu rica ediyor.

**Aşurov** – Layiheyi-qanuniyyənin rəddini təklif ediyor.

Rəyə vəz olunduqda layiheyi-qanuniyyə birinci və ikinci qiraətində qəbul ediliyor.

## Nəşri elan

Növbədə nəşri elan haqqında ədliyyə nəzarəti tərəfindən verilmiş olan layiheyi-qanuniyyədir. Məruzəçi: Rüstəmbəyli Şəfi bəy.

**Rüstəmbəyli** – Sabiq Rusiya hökuməti zamanında bütün rəsmi elanlar hökumətin rəsmi qəzetələrində dərc və nəşr ediliyordu. Bunun üçün mərkəzdə xüsusi qəzetə və quberniyalarda "Qubernski vedomosti" adında qəzetələr vardı. Fəqət Azərbaycanda böylə qəzetələr olmadığından hökumət elanları "Azərbaycan" qəzetəsində nəşr ediliyordu.

Fəqət "Azərbaycan" hökumətin rəsmi qəzetəsi degildir və onu hamı oxumuyor. Şimdi "Azərbaycan Cümhuriyyəti hökumətinin əxbarı" namilə rəsmi bir qəzetə çıxıyor. Elanlar dəxi haman qəzetədə nəşr edilməlidirlər. Ona görə ədliyyə naziri bütün hökumət qərarnamə və elanlarının məzkur qəzetədə nəşr edilməsi haqqında bu layihəyi təqdim etmişdir.

Yalnız bir iş var ki, bu vəqtədək bir çox qərar və əmrnamələr "Azərbaycan"da nəşr edilmişdir. Burası rəsmi bir qəzetə olmadığından rəsmən onlar qanuni olmamış kibi oluyorlar və hətta ona əməl etməmək dəxi mümkün oluyor. Ona görə məzkur elan və qərardadları da rəsmi surətə salmaq üçün bu xüsusda dəxi bir maddə əlavə edilmişdir.

Bir də qabaqlarda rəsmi qəzetələrdə elan qiyməti manat yarım idi. Şimdi layiheyi-qanuniyyədə bu qiymət 10 qat artırılaraq 15 manat edilmişdir.

Fəqət bən mətbəə və kağız xərcini nəzərə alaraq 15 manatı az hesab ediyoram və təklif ediyoram elan qiyməti 30 manat olsun. Bu bənim öz təklifimdir.

Layiheyi-qanuniyyə səsə qoyularaq birinci və ikinci qiraətində bilaetiraz qəbul olunur. (Şəfi bəyin qiymət təklifi ilə bərabər)

Sıradakı məsələlərin müzakirəsinə keçmədən əvvəl 5 dəqiqə tənəffüz elan edilir.

## Qızıl, gümüş və ağ qızıl

Tənəffüsdən sonra qızıl, gümüş və ağ qızıl ixracının məni haqqindəki layiheyi-qanuniyyənin müzakirəsinə keçiliyor.

Məruzəçi Mehdi bəy Hacınski. Məlum olduğu üzrə bu qanun keçən iclasda yövmiyə müzakiratına daxil edilib sonra nəzarət nümayəndəsi iclasda olmadığından növbədən götürülmüşdü. (Məruzə haman dünənki nömrəmizdə vardır. Binaənileyh təkrarına hacət yoxdur)

**Hacıbababəyov** – Müsafirin özü ilə apara biləcəgi ziynət şeylərinin adları yazılmamış olduğundan gələcəkdə qanunun tətbiqində gömrükxanə məmurları ilə camaat arasında ixtilaflar çıxacağını göstərərək aparılması məmnu olmayan şeylərin siyahısının tərtibini lazım görüyor.

**Məruzəçi** – Etiraz ediyor ki, öylə şeylər o qədərdir ki, siyahısı uzun bir şey olar. Həm də bir çoxları yaddan çıxar.

Səsə qoyulduqda birinci və ikinci qiraətində layiheyi-qanuniyyə komissiyanın təklif etdigi kibi qəbul olunur.

## Gömrük vergiləri

Sonra Azərbaycana gətirilən mallardan alınan gömrük vergisinin artırılması haqqindəki layiheyi-qanuniyyənin müzakirəsinə keçiliyor.

Məruzəçi Hacınski Mehdi bəy.

**Əhməd Cövdət** – Məsələnin növbədən götürülərək maliyyə və büdcə komisyonuna verilməsini təklif ediyor.

**Cavanşir Behbudxan** – Qabaqda idxal olunan mallardan gömrük alınmasının səbəbi bu idi ki, hər tərəfdən küllü miqdarda mal gətiriliyordu. Şimdi isə mal az gətirilir. Ona görə onsuz da az gətirilən malın qabağına bir də gömrük həddi çəkmək lazım degildir. İxrac olunan mallara nə qədər istərsəniz gömrük qoyun, amma idxalata xərc qoyulmasın ki, mal çox gətirilsin, ucuzlaşsın.

**Aşurov** – Sabiq natiqi qismən haqli görərək təklif ediyor ki, Azərbaycana gətirilən mallar iki qismə ayrılsın. Ərzaq şeylərindən gömrük alınmasın, qalan hər şeydən alınsın.

**Məruzəçi** – Sabiq natiqlərə etiraz ediyor. Diyor ki: idxal olunan mallardan gömrük almamaq məsələsi ayrıca bir məsələdir ki, lazım görülüyorsa bu barədə xüsusi bir layiheyi-qanuniyyə təqdim etmək lazımdır. Ərzaq şeyləri isə gömrük vergisindən məafdır.

Səsə qoyulduqda Əhməd Cövdətin təklifi qəbul olunur.

Təklif böylədir: bu layihə növbədən götürülərək maliyyə və büdcə komissiyasına verilsin.

Sonra bir-iki də xırda layiheyi-qanuniyyəyə baxılaraq iclas bununla qapanıyor.

*"Azərbaycan", 21 oktyabr 1919, №301*

Mövqe – yer, məhəl
Vüsul – nail olma, çatma
Mütəsəvvür – təsvirə gələn

## "CORCİƏN MEİL"İN MƏQALƏSİ

Tiflisdə nəşr edilən ingiliscə "Corciən meil" qəzetəsinin tərcüməsini dərc etdigimiz məqaləsinə oxucuların nəzər-diqqətini cəlb ediyoruz. Daşnak politikasının əsaslarından biri olan yalançılıq üsuluna qarşı etiraz edən və bu üsulu Qafqaz millətləri arasında düşmənçilik davamına bais bilib də bu yolda dadü-fəryad edən indiyə qədər qafqazlılar idilər və bunlardan da baxüsus Azərbaycan türkləri idi. Bu gün isə böylə bir etirazı artıq avropalılar ağzından dəxi eşitməklə qəlbimizdə bir məmnuniyyət hissi dərk etdigimizi heç də gizlətmək istəmiyoruz. Arzumuz budur ki, bu məqalə Avropa mətbuatına dəxi keçib, daşnak yalanlarına inananları ayıldıb doğru və həqiqətə qarşı yumulmuş olan gözləri açdırsın və bu yalanlar vasitəsilə nə qədər zəlalət və rəzalətlər törəndigini və bunun nəticəsi olaraq nə kibi həqsizliklərə yol verildigini Avropa əfkari-ümumiyyəsinə anlatsın.

Bu məqalənin zühuru daşnak partiyasının yeni bir məğlubiyyətidir. Erməni millətinin müqəddəratını əlinə almaqla millətin özünə aid olan bu həqqi qaba bir yolilə qəsb etmiş və öz-özünü bu millətin başında "terror" gücilə qəyyum tikmiş olan bu iqbalsız partiya, erməni cümhuriyyəti elanı günündən bəri hər bir təşəbbüsündə və hər bir iqdamatında – məqul və səmimi olmadıqlarına görə – məğlubiyyət ardınca məğlubiyyət yeməkdə və bu məğlubiyyətlərin hər bir vüqui erməni millətinə taqətfərsa və təhəmmülsuz zərər və ziyanlar verməkdədir. Bu millətin səbrinə heyran qalmamaq qabil degildir!

Hakimlikdə zalım, qonşuluqda həsud, xüsusiyyətdə bədxasiyyət olan bu partiya siyasiyyatda dəxi cahildir. Azərbaycan, Gürcüstan, Dağıstan və başqa cümhuriyyətlərin millətləri kimi öz əllərilə öz müqəddəratlarını təyinə çalışmaq əvəzində bunlar, bu daşnaklar bu işi, yəni erməni millətinin təyini-müqəddəratını "Avropanın borcudur" deyə böylə zənn edirlər ki, Avropa siyasiləri gəlib Azərbaycanı bir tərəfə, Gürcüstanı digər tərəfə və Türkiyəni başqa bir tərəfə itələyib ermənilərin yerini genləndirəcək və bu yolilə meydana bir "Hayıstani-kəbir" zühur edəcəkdir. Bunun üçündür ki, Avropanı qızışdırmaq və bu əmr icrasına vadar etmək üçün bir yalançılıq kompaniyası təşkil edib, Ermənistan mühitində olan bütün qonşuları zalım və vəhşi, erməniləri isə məzlum və mədəni bir millət şəklində təsvir və tovsif etmək vəzifəsini ifaya məşğul olurlar. Bundan nə hasil olur? Avropalılar gəlib işə vüquf yetirirlər və görürlər ki, ermənilər iddia edən miqyas üzərinə vaqeən bir "Böyük Ermənistan" təşkil edilərsə, böyük Ermənistan əvəzinə, böyük bir haqsizlik əmələ gələ bilər. Çünki böylə bir dövlətin əhalisi içində ancaq yüzdə üç faizi erməni millətinə mənsub ola biləcəgindən böylə bir cüzi əqəliyyətin əksəriyyəti-qahirə üzərində hakim olması, bu fahiş haqsizligin təbii nəticəsi olacaq iğtişaş və ixtilallara səbəbiyyət verər.

Daşnak iddiasının nə qədər haqsiz olduğunu məhəllində təhqiq edən avropalılar, daşnak mənbəindən çıxan xəbərlərin də bir o qədər yalan olduğını öyrənib bu haqsizligi bərtərəf və bu yalanları rədd etmək istədikdə daşnaklara yas və növmidi ariz olub "hali-təbdən" çıxıyor və avropalıların özlərini söyməgə və "vəfasız"lığından şikayət etməgə başlıyorlar.

İştə daşnak qəzetəsi "Hayıstani-aşxatavur"ın ingilis "Corciən meil"in fövqüzzikr təkzib və təkdiri zühurini mucib olan

məqaləsi – daşnakların "hali-təbdən çıxmış", bir halında yazılmış və daşnak təbiətini tamamilə biruzə vermiş kizb və iftiradır ki, ingilis yazıçısı buna qarşı şiddətlə müqabilə etməgə məcbur olmuşdur.

"Corciən meil"in bu məqaləsi şübhəsiz ki, Londra mətbuatına dəxi keçəcək və ingilis əfkari-ümumiyyəsində daşnaklar və bilümum ermənilər əleyhinə olmaq üzrə bir təbəddülat əmələ gətirəcəkdir.

Zənn edirik ki, daşnak kompaniyasının bütün yalançılıqları təmamilə meydana çıxarsa, bundan nəinki bu yalanlardan mütəzərrir olanlar, bəlkə erməni milləti özü də bilaxirə mənfəət görə bilər.

**Hacıbəyli Üzeyir**
***"Azərbaycan", 21 oktyabr 1919, №301***

Vüquf – xəbərdar
Qahirə – cəbr edən, qəhr edən
Növmid – ümidsiz

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 20 TƏŞRİNİ-ƏVVƏL İCLASI

İclas saət 12 tamamda açılıyor.

**Sədr**: Həsən bəy Ağayev

**Katib**: Əhməd Cövdət

**Sədr** – İclası açaraq məsaili-yövmiyyə və daxil olmuş kağızları elan ediyor. Yenidən bir neçə layiheyi-qanuniyyə varid olaraq aid olduqları komisyonlara göndərildiklərini bildiriyor. Bədə Azərbaycan dəmiryolu tariflərinin təbdili həqqindəki layiheyi-qanuniyyənin 15-ci sıradan 5-ciyə köçürülməsini təklif ediyor. Təklif qəbul olunaraq sıradakı məsələlərin müzakirəsinə keçiliyor.

Qabaqca 1 – Damğa rüsumatı nizamnaməsinin bəzi maddələrinin təbdili

2 – Nəşri elan

3 – Maliyyə nəzarəti nəzdində bir şura təşkili

4 – Qızıl, gümüş və ağ qızıl ixracatının məsuliyyəti həqqindəki layiheyi-qanuniyyələr üçüncü qiraətdə maddə-maddə və tamamilə qəbul ediliyorlar.

**Qeyd:** Maliyyə nəzarəti nəzdində şura təşkili həqqindəki layiheyi-qanuniyyənin birinci və ikinci qiraəti 18 təşrini-əvvəl tarixli iclasda qəbul edilmiş, fəqət mütəəssüfanə qələmdən düşərək dünki nömrəmizdə qeyd edilməmişdir.

### Dəmiryol tariflərinin dəgişməsi

Bədə Azərbaycan dəmir yollarında mövcud tariflərin artırılması həqqində təriq və məabir naziri tərəfindən təqdim edilmiş olan layiheyi-qanuniyyənin müzakirəsinə keçilir. Məruzəçi: Əmircanov Əbdüləli bəy.

**Əmircanov** – Möhtərəm məbuslar! Mart ayının birində bilet və yük tarifləri məlumunuzdur ki, artırılmışdı. O vaqtədək dəmiryolunun məsarifi gəlirindən 8 milyon artıq olduğundan dəmiryolu ayda 8 milyon manat defisit (açıqlıq) veriyordu. Martda yük tarifi birə bir: bilet qiymətləri 50 faiz artırıldı. O vəqtən bəri açıqlıq az olub gəlir: ayda 18 milyon, məsarif isə 18 milyon 250 min manat olub. Bu surətlə az bir defisit ilə dəmiryolu demək olar ki, məxaricini başa-baş ödəməkdə idi. Nəhayət iyul ayında maaşlar artırıldı. Ondan bəri mədaxil sabiqki qərar üzrə qalıb məxaric isə artdı, oldu 30 milyon. Bu vəchlə də dəmiryolu ayda 12 milyon manat defisit (zərər) veriyor.

Məlumunuzdur ki, hər bir məmləkətdə dəmiryolları böyük bir mədaxil mənbəi oluyor. Fəqət şimdi inqilab dövrü keçdigimizdən öylə gəlir yoxdur. Lakin məxaricdə o qədər olmamalıdır ki, barı açıqlıq buraxılmasın. Bizim dəmir yollarımızın məxarici yanvardan bəri ayda 18 milyon 250 min manat idi.

İyul ayınadək 109 milyona qədər oluyor. İyuldan bəri məxaric ayda 30 milyon oluyor. Deməli cümlətanı 1919-cu ildə məxaric 289 milyon manat oluyor. Mədaxil isə ayda 18 milyon hesabı ilə böylə getsə bütün il zərfində 210 milyon oluyor. Bu surətlə mədaxil və məxaric il başınadək böylə qalsa 1919 sənəsində dəmir yollarımız 73 milyon defisit (zərər) verər. Bundan əlavə təriq və məabir nəzarəti dəmiryollarındakı xaraba qalmış stansiyalarını təmir etmək və sair inşaat işlərinə başlamaq istiyor ki, bunun üçün 51 milyon manat lazım olacaqdır. Böyləliklə dəmiryolu bu il 124 milyon manat zərər edər. Ona görədir ki, təriq və məabir naziri bir layiheyi-qanuniyyə təqdim edərək tariflərin artırılmasını təklif ediyor.

Doğrudur yeni tariflər qəbul edilsə o açıqlıq tamamilə qapanmazsa da amma tezlik ilə dəmiryol işləri islah olunar, qatarlar artar və bununla da açıqlıq qapanar. Komissiya bu

layihəyi eynilə qəbul etmişdir və buna təcili surətdə baxılmasını təklif ediyor.

Qanunun əsasları böylədir:

Məlumunuzdur ki, dava vəqti biletlərə 25 faiz voyenni naloq qoymuşdular.

Şimdi bu qanun ilə məzkur naloq ləğv ediliyor. Digər tərəfdən bilet qiymətləri bu qərar ilə atrırılıyor: Mərkəzi dəmiryolunda birinci, 2, 3 və 4-cü sinif biletləri 25 faiz.

Bakı-Sabunçu yolunda birinci sinif 3 manat 20 qəpik əvəzinə oluyor 6 manat, 2-ci sinif bir manat 90 qəpik əvəzinə 3 manat. Amma 3-cü sinifdə əksəriyyən fəhlələr getdigindən az artırılıb qabaqda 1 manat 15 qəpik ikən şimdi manat yarım oluyor.

Suraxanı yolunda: Birinci sinif 4 manatdan artırılıb 8 manat ediliyor. İkinci 4 manat, 3-cü isə 1 manat 50 qəpikdən 2 manat.

Ümumiyyətlə yüklərin kirayəsi 10 qat artırılıyor.

Odun, kömür, torf, daş, ağac və sairləri köhnə qiymət üzrə baqi qalmışdır. Neft kirayəsi 4 qat artırılıyor.

**Ağamalı oğlu Səmədağa** – Layiheyi-qanuniyyənin növbədən götürülərək gələn iclasa təxir edilməsini təklif ediyor.

Əmircanovun layihəyə təcili surətdə baxılması həqqindəki təklifi səsə qoyularaq əksəriyyətlə qəbul olunur.

**Qarayev** – (Sol "Hümmət") Tarif və naloqların artırılmasından xəzinəyə bir mənfəət olmuyub daha da bahalığa bais olduğunu göstərərək dövlət xəzinəsini doldurmaq üçün möhtəkirlərin cibindən pul çıxarmaq tədbiri görülməsini və bu layiheyi-qanuniyyənin qətiyyən rədd edilməsini təklif ediyor.

**Ağamalı oğlu** ("Hümmət") – Uzun bir nitq söyləyərək tariflərin artırılması əvvəla hər şeyin qiymətlərinin artmasına, saniyən dəmiryolundan sərnişin və yük hərəkətinin azalmasına bais olacağı və eyni zamanda açıqlıq qapanmayacağını göstərərək diyor ki, bu qanun rədd edilsin. "Fəqət bu

açıqlıq nə ilə örtülsün" – deyə ariz olacaq suala böylə cavab veriyor: məlumdur ki, yollar dövlətindir. Dövlət də hər bir məxaricini xəzinədən ödəməlidir. Deyəcəklər onda kağız pul çox kəsilməlidir. Bu doğrudur. Lakin kağız pul kəsmək daxili istiqrazdır. Daxili borc isə məmləkətin bütün əmlakı ilə təmin olunur. Əlbəttə daxili borc buraxılaraq hər iş səhmana salınsa işlər öz qaidəsilə gedər. Mədaxil artar, o zaman borc ödənər.

**Aşurov Ağa** – Büdcə təqdim olunaraq məxaricin miqdarı məlum olanadək tariflərin artırılmasını lazım görüyor. Lakin eyni zamanda nəzarətin fəaliyyətini tənqid edərək diyor ki:

Mədaxilin artması üçün 3 növ tədabir lazımdır: əvvəla – tarifi artırmaq, saniyən – məxarici azaltmaq, salisən nöqsanı islah edib hərəkəti artırmaq və işləri yaxşılaşdırmaq.

Biz hər dəfə tarifin artırıldığını görüyoruz. Fəqət sair tədbirlərdə görülüyormu? Xayır! Məxaric əsla azalmıyor. Məsələn bəlkə orada artıq məmurlar var. Bəlkə dəmiryol "upravleniya"sı heç də lazım degildir?

Yaxşılaşdırma məsələsində də bir iş görülməmişdir. Qabaqda nə qədər vaqon işliyordusa imdi də o qədərdir.

Bu gün görüyorsan filan ağaya bir danə vaqon veriliyor. Bütün qulluqçuları ilə, əlbəttə bir parovoz xüsusi adam aparanda millətə xidmət edəmməz. Səhiyyə işləri daha bədtərdir. Böylə zibil şimdiyədək heç görülməmişdir. Qatar naçalniki təmizligə və biletsiz adam getməməsinə baxmaq üçün ikən zibil hədsiz. Biletsiz gedən hesabsızdır, qaidə də əsla yoxdur. Buradan Biləcəriyə də, Tiflisə də plaskart 65 manatdır.

Bir də bilməm nə üçündür ki, bir məmləkətdə yolun birinə bir cür qiymət qoyurlar, digərinə başqa cür. Məsələn ümdə xətdə bilet qiyməti 25 faiz artmışkən nə üçün Bakı-Suraxanı yolunda 1-ci sinif 4 manatdan 8 manata qaldırılmışdır. Əgər burada gedənlər burjuy isələr, sair yolların da birinci sinif

sərnişinləri burjuydurlar. Fəqət bu nöqsanları göstərməklə bərabər bən tariflərin artmasını lazım görüyoram.

**Əbilov İbrahim** – ("Hümmət") Tarif artmasının bahalığa və həyatə sui-təsirini uzun bir nitq ilə bəyan edərək, fəqət yalnız tarifə degil, ümumiyyətlə mədaxili artırmaq lazım olduğunu etiraf ediyor və yol göstərmək təriqilə diyor ki:

Sosialistlərin də, sair firqələrin də proğramlarında var ki, bilvasitə vergilər götürülərək bilavasitə vergilərə diqqət və əhəmiyyət verilsin. Məsələn: gəlir vergisi təyin etmək, digər tərəfdən məsələn Gürcüstanda və sair bəzi məmləkətlərdə həddindən ziyadə mənfəətlərə vergi təyin edilmişdir. Bizim hökumətimizdə müəyyən təşkilat vasitəsi və qanun təriqilə artıq mədaxilə vergi təyin edə bilər. Böyləliklə həddən ziyadə pul qazanan möhtəkirlərin cibindən xəzinə nəfinə pul çıxar, həm vergi dərdindən malı ucuzlaşdırarlar. Bu surətlə də camaatin güzəranı yüngülləşər və tez-tez maaşın artırılmasını tələb etməzlər. Dünyada Azərbaycan kibi xırda dövlətlər arasında öylə bir məmləkət yoxdur ki, öz mədaxili ilə dolana bilsin. Amma Azərbaycan dolana bilər. Ancaq maliyyə işlərini düz yola qoymaq lazımdır. İşlərimiz qaidəyə salındıqda yalnız gəlir vergisi ilə biz büdcəmizin açıqlığını qapaya bilərik.

Binaən bən təklif ediyoram ki, bu layiheyi-qanuniyyə rədd edilərək gəlir vergisi, fövqəladə mənfəət naloğu və sair kibi böyük mədaxil mənbələrinə müraciət edilsin və böylə vergilər artırılsın.

*(Mabədi var)*

***"Azərbaycan", 22 oktyabr 1919, №302***

Ümdə – ən baş, başlıca

## BİR SUAL MÜNASİBƏTİLƏ

Keçən parlaman iclasında əzalardan bir qrup tərəfindən hökumətə, daha doğrusu, ədliyyə nazirinə verilən sual, şayani-heyrət və mucibi-təəssüf bir vəqəyə aid idi ki, "sensasiyon" mahiyyətini haiz bir keyfiyyət olduğunu hər kəs iqrara məcburdur.

Cümhuriyyətimizin məvai-ədl və məlcai-həqq olmaq hissiyyatilə nəzahət və qüdsiyyətinə inanılması lazım gələn ali bir müəssisənin, həqq və ədalət divanının, yəni məhkəməsinin müstəxdimindən, günahkarların günahını, mücrimlərin cürmini, canilərin cinayətini həqq və ədalət tərəfilə isbata müvəzzəf olan bir böyük üzvi-müddəiyi-ümumisi, üzərinə tovdi edilmiş məqami-alisini ləkədar edən alçaq bir felə irtikab etmiş, rüşvət almışdır...

Adam öldürmək bir cinayət olduğu kimi, rüşvət almaq dəxi bir cinayətdir; onun da, bunun da qanuna görə cəzası vardır. Fəqət ümumiyyət üzrə rüşvətxorluq cinayəti, qətl cinayətindən yüngüldür, çünki burada can qəsdi yoxdur, mal qəsdi vardır. "Malım cəhənnəm, canım sağ olsun" deyənlər canları alınmamaq üçün bütün mallarını verməgə razı olmaqla canın maldan əziz olduğunu bildirirlər. Əksəriyyət dəxi bu fikrə şərik olduğundan adi qətl cinayətinin cəzası, rüşvətxorluq və hətta qarət cinayətinin cəzasına nisbətən çox ağırdır.

Deməli, adam öldürmək rüşvətxorluqdan və qarətdən bədtərdir.

Fəqət əgər Azərbaycan məhkəməsinin müddəiyi-ümumisi rüşvətxorluq cinayəti əvəzinə, qətl cinayətinə mürtəkib olmuş

olsa idi, bu vəqənin acılığı bugünki kimi bir bu qədər müəssir və müəssif olmazdı. Hətta bu müddəiyi-ümumi qarət qəsdilə də bir qətl cinayətinə irtikab etmiş olsa idi, bu keyfiyyət ancaq əcaib və qəraib qəbilindən "məzəli" bir şey olub eşidənləri güldürərdi, halbuki müddəiyi-ümuminin rüşvətxor olması – gülmək degil, ağlamağı mucib ola biləcək alçaq və dərgahi-ədl və həqqi alçaqlardan qüdsiyyət və paklığını murdarlayan əhali arasındakı etibarını məhv, xəlqin ədalət və həqqaniyyətə olan etiqadını pozan, imanını rəxnədar və qəlbinə ədl və həqqə qarşı şəkk və şübhə ilqa edən ən pis və fəna bir əməldir. Polis məmurlarının rüşvətxorluğundan şikayət edən əhalini sakit və tətmin etmək üçün bu məmurları irtikab etdikləri cinayət üzərinə məhkəməyə cəlb ediyoruz. Axırda nə olur? Bu cinayətləri təhqiq və isbata müvəzzəf olan məhkəmə əzasının özü eyni cinayətə mürtəkib oluyor... Dövlətimizin əsasına rəxnə vura bilən bu müəssif və küdurətamiz keyfiyyət vətənimizin sadiq övladını və cavan cümhuriyyətimizin səmimi xeyirxahlarını təbiidir ki, hüznəngiz fikirlərə salacaq və dərin kədərlərə düçar edəcəkdir...

Vaqe olan sual üzərinə ədliyyə naziri həzrətləri kafı cavab və lazım olan bəyanatı verdilər.

Sual sahibləri bu cavab və bəyanatdan razı qaldıqlarını izhar etdilər.

Əlbəttə, nazir həzrətləri mərqum müddəiyi-ümuminin (prokurorun) rüşvətxor bir adam olduğunu əvvəldən bilmiş olsaydı, onu nəinki prokurorluğa, bəlkə heç bir iş başına keçirməzdi. Müddəiyi-ümumilik kimi ali və təmiz bir məqami işğal etməgə razı olan bir adamın natəmizligindən şübhələnmək dəxi müşküldür. Pristavlıq, qaimməqamlıq, qubernatorluq və sairə bu kibi məqamlara rüşvət mənbəi nəzərilə baxan ola bilər və olur da. Fəqət müddəiyi-ümumilik məqamını dəxi o

mənbə cümləsinə hesab edənləri xatirə belə gətirmiyorduq. Çünki o məqamın hər yerdə və hər bir məmləkətdə öylə bir ləkələrdən ari və təmiz olduğuna qane idik...

Hər halda kədərimiz nə qədər böyük olsa da bədbin olmağa hacət yoxdur. Cümhuriyyətimiz cavandır, binaənileyh adam tanımaq təcrübəsi hələ çox azdır. Qoy bu adamlar, bu məmurlar və hakəmlər silsiləsi bir-bir "məhək daşı"ndan sürtülüb keçsinlər. Kimin xalis qızıl (altun) və kimin qəlp və saxta olduğunu ancaq bu yolilə təyin etmək mümkündür.

Rüşvətxorluq müni üçün ağır cəzalar təyini luzumundan bəhs edənlər tərəfdarı degiliz. Cəza qorxusu üzərinə rüşvət almayanlar dəxi bizcə rüşvətxordurlar. Rüşvətxorluğun fənalığına qorxu saiqəsilə degil, qənaəti-vicdaniyyə təriqilə hökm verməlidir. Lakin zənn edilməsin ki, rüşvətxor məmur, məmuriyyətindən əzl edilmək kimi bilinisbə yüngül bir cəzaya uğradıqdan sonra bir kənara çəkilib də almış olduğu rüşvəti rahatcasına yeməyə məşğul olacaqdır. Biləks cismani cəzası bu qədər yüngül olan bu şəxs mənən ən böyük bir cəzaya məhkum edilmiş olacaqdır. Ən böyük cəza hankıdır? O cəza edam cəzasıdır. Əvət!

Bu adam artıq öləcəkdir. Məmləkət və cəmaət üçün onun varlığı, onun yoxluğuna müsavi olacaqdır. Məmləkət içində cəmaət arasına çıxmağa üzü olmayan, həyasızlığına salıb çıxsa belə nifrət və istikrahla qarşılanacaq olan bu adam vaqeən mənəvi bir edama məhkum edilib, cəzai-səzasinə çatacaq və aldığı rüşvət də ona haram olacaqdır.

**Hacıbəyli Üzeyir**

***"Azərbaycan", 22 oktyabr 1919, №302***

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 20 TƏŞRİNİ-ƏVVƏL İCLASI

(keçən nömrədən mabədi)

**Rəfiyev Musa bəy** – ("Müsavat") Qanunu müdafiə edərək diyor ki: martda dəmiryolunun mədaxili 5 milyon idi, amma şimdi 18 milyon olmuşdur. Halbuki o zaman ancaq 8 milyon artacağı gözləniyordu. Deməli tarifdən əlavə də yolun mədaxili artmışdır. Bununla bərabər dəmiryolunda vəsaili-nəqliyyə və hərəkat dəxi artmış, bir çox nöqsan islah edilmişdir. Bu surətlə əgər işlər əvvəlki qaidəsilə getsəydi dəmiryolunun mədaxili demək olar ki, məxarici ödər və işlər öz qaidəsilə gedərdi. Fəqət birdən-birə iyul ayında bir qanun ilə yolun məxarici 30 milyona qalxdı. Ona görədir ki, haman məsarifi ödəmək üçün tarifi artırmaq məcburiyyətindəyiz.

**Ağabəyov** – ("Müsavat") Dəmiryolunda vaqon və paravozların artması, nizam və qaidənin düzəlməsi həm də böylə ağır şərait altında bu qədər islah edilməsini böyük bir iş hesab edərək və Səmədağaya cavabən tarifinin daha artıq artırılsa belə mal daşınmasına, sərnişin hərəkatına və pulun kursuna sui-təsir edəmiyəcəgini, biləks Səmədağanın təkliflərindən daha artıq zərər yetişə biləcəgini bəyanla sual ediyor ki: sosialistlərin dedigi kibi topraq vergisi də, gömrük də, tarif də sair naloqlar da artmasın pəs məmləkət nə ilə dolansın və xəzinə bu xərcləri haradan alsın, nəhayət Əbilova cavabla heç vəqt bir məmləkətin ən böyük də olsa bir naloqla idarə ediləmədigini bəyanla ümumiyyətlə bəzi vergi və xərcin və xüsusi olaraq tarifin artmasını təklif ediyor.

**Aslanov Xudadad bəy** – (Təriq və məabir naziri) Möhtərəm məbuslar! Bu məsələ ətrafında çox sözlər danışıldı. Binaənileyh bən bir neçə məlumat vermək istərdim. Dəmiryolunun bir il əvvəlki hal ilə şimdiki halı hamıya məlumdur. Bununla işim yoxdur. Amma bir neçə ay əvvəlki əhvalı da, şimdiki halı da rəqəmlər ilə müqayisə edəcək olsaq, onda görəriz ki, nə qədər fərq var. Məsələn, martda mədaxil 5, məxaric 13 milyon idi. O zaman tarifi artırarkən diyorduq ki, 8 milyon açıqlığın bir hissəsi tarifdən düzələr. Qalanını da bəlkə dəmiryol işlərini islah edərək bəlkə başqa şeylərlə ödəriz. Amma bu gün sizə təqdim olunan layihədə göstəriliyor ki, o vəqtə nisbətlə şimdi mədaxil ayda 13 milyon artmışdır. Bundan əlavə qabaqda 50 paravozumuz olduğu halda, şimdi 150 paravozumuz var. Halbuki biz hələ bu vəqtədək Avropadan heç bir şey almamışıq. İngilislər və italyanlar bizdən çox siyahılar götürmüşlərdir. Fəqət bu vəqtədək hələ bir şey gəlməmişdir. Hər bir şeyini öz gücümüzlə düzəltmişiz. Doğrudur bəlkə yollarımızda xırda nöqsanlar ola bilər. Fəqət bununla demək olmaz ki, islahat olmamışdır. Əvvəla yollarda qatarlarımızın miqdarı o qədər artmışdır ki, mallar aylar ilə, anbarlarda yatıb növbə gözləmiyorlar. Hazırdı yolumuzda gündə 13 cift qatar işləyə bilər. Ancaq 6 ciftən artıq buraxmaq mümkün olmuyor. Saniyən deyirlər dəmiryollarında artıq məmurlar var. Bu da düz degildir. Bu yaxınlarda smetamız təqdim olunacaqdır. Onda görərsiniz ki, hər məmurun öz işi var. Lüzumundan artıq bir məmur yoxdur. Salisən dəmiryolunun böyük işlərindən birisi də trubaprovoddur. Bu barədə isə demək olar ki, dünyada rekordavərdik. Çünki 840 verst trubaprovodu böylə az müddətdə təmir etmək Amerikada da görülməmişdir. Hətta ingilislər bizim bu işimizə təəccüb ediyorlar.

Bir də büdcə yoxluğundan şikayət ediyorlar. Bu qismən haqlıdır. Fəqət büdcə hazırlıyıb təqdim etmək də çətin bir işdir. Çünki

məsarif bir dərəcədə sabit durmuyor. Bu gün büdcəyi hazırlıyorsan yarın məxaric artıyor. Yenə dəyişməgə məcbur oluyoruz. Bununla bərabər büdcə olmazsa da hamımıza məlumdur ki, məxaric mədaxildən artıqdır. Səbəbi də budur ki, əvvəla həyat adi məcrası ilə cərəyan etmiyor. Saniyən Hacıtərxan yolu bağlı olduğundan neftimiz Rusiyaya getmiyor. Halbuki adətən neft əksərən oraya gediyordu. **Bəncə, illik mədaxilimiz bir milyar, məxaricimiz isə bir milyar yarımdır.**

Nəhayət, hər şey əvəzinə gəlir vergisinin artırılmasını təklif ediyorlar. Lakin gəlir vergisindən xəzinəyə ən çoxu 40-50 milyon vüsul olar, bununla da dövlətin bütün məxarici ödənməz.

Məlumunuzdur ki, adətən mədaxil mənbələrinin ən böyüklərindən birisi dəmiryollarıdır. Bu cümlədən Qafqasiya dəmiryolları Rusiyanın ən mədaxilli yolu hesab olunurdu. Şimdi isə böyük mədaxil verməzsə də barı öz xərcini ödəməlidir.

Əlavə Səmədağa diyor ki, tarif artmasın, yolun xərci xəzinədən verilsin. Bu təklif ümum demokratiya üçün daha zərərlidir. Çünki xərclərin həpsi xəzinədən veriləcək olursa biliyoruz ki, pulun kursu düşər aşağı. Əkinçi bütün zəhmətini çörək edib bazara çıxartdıqda satar qiymətsiz pula, odur ki, bütün əmələ və əkinçinin mənafeini nəzərə aldıqda gərək naloqlar artsın. Bunu qəbul etməzsək o halda maliyatımız bərbad olar. Ən artıq zərəri də demokratiya çəkər. Çünki pulun kursu düşsə 5 milyona malik olan bir möhtəkirin halına o qədər təfavüt etməz. Amma bütün zəhmətilə 1000 manat yığıb qara gün üçün saxlamış olan bir əkinçiyə müsibətdir. İştə bu nöqteyi-nəzərdən bən diyoram ki, böylə qanunların qəbulu fəhlə və əkinçiyə daha xeyirlidir. Zira qəbul edildigi təqdirdə iqtisadiyyat müəyyən bir müvazinə bular. Bu surətdə də pulun kursu möhkəm olar, daha şimdiki kibi düşməz. Bir də Avropadan gələnlər Azərbaycanda tariflərin ucuzluğuna təəccüb ediyorlar. Çünki Avropada tariflər bizimkindən daha artıqdır.

Bundan əlavə natiqlər tarifin artırılmasının ərzaq şeylərinə sui-təsiri olacağını göstəriyorlar. Bu nəzər doğru degildir. Çünki tariflərin artırılması ilə unun girvənkəsi 2-3 qəpik bahalanar, bunun bahalığa təsiri ola bilərmi? Halbuki mədaxil artsa pul təb olunmasına ehtiyac az olar, pul az kəsilər. Bu da pulun kursunun qalxmasına xidmət edər. Bu surətlə də haman sui-təsir gözlənən cəhətdən də mənfəət verər.

Bir də Aşurov diyor ki, Bakı-Sabunçu-Suraxanı yolunun tarifi digər yollarınkindən çox artmışdır. Bu fikir səhvdir. Əvvəla unutmamalıdır ki, mart ayında ümum xətt tarifi artdıqda Bakı-Sabunçu-Suraxanı yolunun tarifi artırılmamışdı. Saniyə də şimdi faiz etibarilə baxsanız o yolun qiymətləri digərlərindən artıq degildir.

Əlavə diyor ki, qazyonni paravoz xidməti idarələri yainki yüklərini pulsuz aparıyormuş bənə böylə bir şey məlum degildir. Əgər bu xüsusda müəyyən bir şey bilən varsa buyursun. Amma bunu da deməliyəm ki, dəmiryolu ilə külli miqdarda qaçqın, əskər, dövlətə məxsus şeylər pulsuz aparılmışdır.

Nəhayət, bununla qeyd etməliyəm ki, qanunun təxirlə gətirilməsinə səbəb bu olmuşdur ki, biz öz yollarımızın tarifini Gürcüstan tarifəsi ilə rəbt etməliyiz. Ona görə məmur və xidmətçilərin maaşı artar-artmaz tarifi artırmaq fikrinə düşərək bu xüsusda Gürcüstan hökumətilə müzakirəyə başladıq. Müzakirat 3-4 gün əvvəl qurtardı. Dərhal layihəyi təqdim etdik və hökumətdə baxılaraq buraya göndərildi. Sözümə xitam verərkən əlavə etməliyəm ki, yuxarıda ərz etdigim üzrə bu yeni tarifin qəbulu millət və camaat üçün xeyirlidir. Amma hər gün təxirə düşməsindən yarım milyon zərər hasil oluyor. Binaənileyh bən xahiş edərdim layihə bir an əvvəl qəbul edilsin.

**Əmircanov** – (məruzəçi) Layihəyi müdafiə edərək diyor ki: layihəyə diqqətlə baxılsa görülər ki, hökumət hər bir təklifə

diqqət vermişdir. Məsələn, birinci sinif bilet 2 qat artırılmışkən 3-cü sinif füqəra üçün olduğundan ancaq 25 qəpik artırılmışdır. Bir də diyorlar dəmiryol tarifinin artırılması bahalığa səbəb olacaqdır. Bəncə böylə degildir. Əşyanın bahalanması kirayənin neçə qəpik artmasında degildir. Bu möhtəkirlərin işidir. Doğrudur, möhtəkirlərlə mübarizə lazımdır. Amma tarifi artırmaq bir mübarizə degildir. Sual ediyoram: əgər biz tarifəyi daha da ucuzlaşdırsaq çörək ucuzlaşacaqmı? Əlbəttə yox! Bu surətlə möhtəkirlərə qarşı başqa çarələr düşünməlidir. Bunu da bilməlidir ki, hökumət möhlət istiyor. Ancaq çalışdığı budur ki, mədaxil məxarici ödəsin.

Bir də burada büdcədən bəhs edildi. Əlbəttə büdcə lazımdır. Fəqət onun yoxluğundan dolayı tarifi artırmamaq dəxi mümkünatdan degildir. Xüsusi adamlara qatar verilməsinə gəlincə, burası bizə də məlum degildir. Bən ancaq bunu biliyoram ki, yalnız iki dəfə pulsuz qatar verilmişdir. Birisi Amerika nümayəndəliginə, digəri ingilis nümayəndələrinə.

Yollarımızda işlərin yaxşılaşmasına qaldıqda bən 4 ay əvvəl bir səfərə etmişdim. 10 gün əvvəl də səfər etdim. Deyə bilərəm ki, o vəqtə nisbətlə şimdi dəmiryolları nizam və yaxşılığında yerdən göyə qədər təfavüt var. Bir də unutmamalıdır ki, sentyabrda maaşlar artırıldıqdaki xərc 600 milyon artmışsa da bu miqdarın 275 milyonu yalnız tarif və məabir nəzarətinə düşübdür. Bu mülahizələri qeydlə bən layihəyi-qanuniyyənin komisyonuna təklif etdigi üzrə qəbulunu rica ediyoram.

Səsə qoyulduqda layiheyi-qanuniyyə birinci oxunuşda əksəriyyəti ara ilə qəbul edilir. Layihənin ikinci qiraətinə keçmədən 5 dəqiqə tənəffüs elan edilir.

*"Azərbaycan", 23 oktyabr 1919, №303*

Cift – qoşa

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### Tənəffüsdən sonra

Dəmiryol tariflərinin artırılması həqqindəki layiheyi-qanuniyyə 2-ci və 3-cü qiraətində qəbul ediliyor.

### Hökumətə sual

Bədə müxtəlif firqələrə mənsub 5 məbusun imzasilə hökumətə verilmək üzrə Parlamana göndərilmiş olan bir sual oxunuyor:

"Qanuni-ədalətin behəqq tətbiqinə məmur və müvəzzəf olan, hər xüsusda həqqaniyyət və qanunun əmr etdigi üzrə hərəkət etməgə məcbur olan Azərbaycan müddəiyi-ümumiligində zühur edən suyi-istemal və rüşvətxorluq xüsusunda hər kəsin məlumatı olduğu halda, ətrafına topladığı bir çox şəxslərlə müştərəkən yüz minlərcə rüşvət alan və cəmaət həqqində xilafi-mədələt bir çox işlər görən sabiq müddəiyi-ümuminin yalnız istefa etməklə vəzifəsindən çəkildigini xəbər aldığımızdan bu xüsusda hökumətin nə nəzərlə baxdığını, şimdiyə qədər bu məsələ üzərində nə iş gördügünü və görəcəgini ögrənmək istədigimizdən bu sualımızın hökumətə təbliğ buyrulmasını rica edəriz".

**Qarabəyli Qara bəy** – Sualı müdafiə edərək diyor ki, hökumətə verilən bu sual məmləkətdə qanunsuzluq və rüşvətxorluq aləmində görülən işlərin ən müdhişini təşkil edir. Şübhəsiz çox məmurlar rüşvət alıyorlar. Məsələn polis məmurları, ticarət və ərzaq nəzarəti qulluqçuları da rüşvət

alıyorlar. Doğrudur, bunların həpsinə çarə lazımdır. Fəqət onların əməlində öylə bir dəhşət və fəlakət görülmüyor. Fəqət qanun və ədalət əsasını müdafiə vəzifəsilə müvəzzəf olan bir məmurun həqqində rüşvət sözünü danışmaq belə məmləkət üçün böyük bir təhlükədir. Müddəyi-ümumi qanunun hamisidir. Bu vəzifəyi yalnız ən namuskar adamlara tapşırmaq lazımdır. Çün o işğal etdigi mövqeə görə hər kəs ilə istədigi kibi rəftar etmək səlahiyyətinə malik olduğundan çox namuskar olmalıdır ki, suyi-istifadə etməsin. Heç yerdə eşidilməmişdir ki, müddəiyi-ümumi qanunu satsın, rüşvət alsın. Binaənileyh Parlaman üzvləri və bütün cəmaət bu işə sayırları kibi baxmayaraq tələb ediyor ki, hökumət dəxi bu məsələyə başqaları nəzərilə baxmayaraq tez tədqiq və təhqiq etsin.

**Səfikürdlü Aslan bəy** – (ədliyyə naziri) Möhtərəm məbuslar! Necə ki, doktor əfəndi buyurdu əski zamanlarda hər məmləkətdə, hər məmurun həqqində rüşvət və suyi-istifadə sözu bir balaca imkan daxilində hesab edilsə də, ədliyyə məmurlarının böylə hərəkəti heç vəqt mümkün hesab olunmaz. Çünki bir məmləkətdə ədliyyə işləri düzgün getməzsə əsla yaşamaq mümkün olmaz. Odur ki, böylə şeylər nadir təsadüf olunacaq şeylərdəndir. Fəqət mütəəssüfanə bu kibi məmurların həqqində küçələrdə danışılıyor da amma bilə-bilə ki nəzarət təhqiq edib cəza verər, nəzarətə xəbər vermiyorlar. Adətən müddəiyi-ümumi padşahlıq gözü hesab olunar. Biz və xüsusən bən həmişə çalışmışam və çalışıyoruz ki, müddəiyi-ümumi bütün cəmaətin gözü olsun. Böylə olmazsa cəmaət və millət yaşıyamaz. Xüsusi olaraq Həsən Mustafayevin və bu müddəiyi-ümuminin işinə gəlincə, ərz etməliyəm ki, bir çox adamlar, hətta aranızda oturanlardan bəziləri çox danışmışlar ki, filankəs filan qədər Nikolay pulu alıb sair böyük məmurlarla yemişdir. Bunu kənarda danışırdılar. Amma ba-

şında bulunduğum nəzarətə müraciət etmiyorlardı ki, iş rəsmi surət alıb tədbirlər görülsün. Nəhayət, başladım bu işi axtardım. Çox adamlara yalvarıb məlumat istədim. Axırda məlum oldu ki, Həsən Mustafayevin işi barəsində istintaq icra ediliyormuş. Oktyabrın birində iş müddəiyi-ümumiligə verilərək ayın 4-də Həsən Mustafayev müddəiyi-ümuminin binagüzarlığı ilə həbs edilmişdir. O zaman çox adamlar, hətta burada oturanlardan da bəziləri onun buraxılmasını təvəqqe etdilər. Fəqət bən buraxmağa razı olmadım. Dedim bu müddəiyi-ümuminin işidir. Bən hər işə qarışa bilmərəm. Məsələn, neçə ay əvvəldə danışılıyordu ki, Həsən Mustafayev bir salon kimi qurmuşdur ki, gecə və gündüz şəhər kübarı, hətta hökumətin böyük məmurları və Parlaman üzvləri oraya toplaşıyorlar. Bilməm nələr ediyorlar. Yenə buna qarışmadım. Çünki bənim işim degildi. Onu daxiliyyə naziri edə bilərdi. Amma bən yox. Doğrudan da bən hər işə qarışsam düz getməz: hər kəsin öz işi var. Xülasə oktyabrın əvvəlində müddəiyi-ümumi əmr vermiş və 4-də Həsən Mustafayev həbs edilmişdir. Ayın 6-da müddəiyi-ümumi nədən isə müstəntiqə təklif etmişdir ki, həbs qərarı ayrı bir şeyə əvəz edilsin. Xülasə zamin iləmi nə iyləmi. Axır ki, Həsən Mustafayev həbsdən çıxsın.

Ayın 8-də 300 min manat rəhin (zaloq) alıb Mustafayevi buraxıyorlar. Ayın 10-da, ya 12-də (yaxşı yadımda degil) bən eşitdim ki, pul alıb buraxmışlardır. Dərhal müavinimə tapşırdım ki, bu işləri təhqiq etsin. Ertəsi günü gördüm bir məbus telefon ilə bənimlə danışmaq istiyor. Əhvalı anlayaraq dedim əgər bu məsələ həqqində danışmaq istiyorsunuz isə telefonla danışma, gəl bəşəxsə danışaq. Haman adam digər bir şəxs ilə gəldi. Onlar ilə danışdıqdan sonra məsələyə rəsmi rəng verib gətirdigi adamı da danışdırdım və filfövr adamlar göndərdim Həsən Mustafayev ilə həbsxanə məmurlarını danışdırsın-

lar. Ayın 13-də rəsmi tədqiqat başlanıb 18-dək işlər qurtardı. Əlbəttə, iş böylə olanda onun iş başında qalması artıq mümkün degildi. Binaənileyh istefa verdi. Bən dərhal istefayı qəbul etdim. Və digər bir adam çağıraraq müddəiyi-ümumiligi ona mühəvvəl etdim. Eyni gün təhqiqat icrası qurtararaq işi xüsusi təftiş komissiyasına göndərdim. Bu surətlə 5 gün içində həm işləri təhqiq etdirdim. Həm müddəiyi-ümumiyi istefaya çıxmağa vadar etdim, həm də işi məqami-aidinə sövq etdim.

**Sədr** – Nazirin bəyanatından qane oldunuzmu?

**Sual verənlər** – Təsəvvürat qənaətbəxşdir.

İclas bununla tamam oluyor.

*"Azəbaycan", 24 oktyabr 1919, №304*

Müddəiyi-ümumi – prokuror
Mədələt – insaf, ədalət
Müvəzzəf – qulluqçu, xidmət edən, vəzifə tapşırılan
Suyi-istemal – yaramazlıq, vəzifəsindən qanunsuz istifadə etmə
Təbliğ – çatdırma, yetişdirmə
Filfövr – dərhal

## BÖHRAN DOLAYISİLƏ

Bizdə kabinə böhranının müzmin bir hal kəsb etməsi və hər böhranın uzun bir müddət çəkməsi bir çoxlarını işlərdən lazımınca vüqufları olmadıqlarına görə marağa salıb neyçün böylə oldu, neyçün öylə oldu deyə bir çox suallar verməgə və o suallara şafi cavab aramağa məcbur ediyor.

Vaqeən Gürcüstanda və Ermənistanda təşəkkül etdikləri gündən bəri bir böhran vaqe olduğunu xatırlamıyoruz. Halbuki müddəti-təşəkkülü bunlardan qısa olan Azərbaycanda beş-altı kərə böhran keçirdik və hala böhran içindəyiz.

Bu böhranın adi bir səbəbi vardır. Gürcüstan və Ermənistanda hökumətə etimad edib müzahirət göstərən əksəriyyət yekrəngdir və hökumət ozü də o əksəriyyətin intisab etdigi firqənin əzalarından mütəşəkkildir. Məsələn, Gürcüstan hökuməti sosial-demokrat firqəsinə mənsubdur. Bu hökumətə keçən parlamanda və bugünki Məclisi-Müəssəsanda müzahirət göstərən əksəriyyət dəxi eyni sosial-demokrat firqəsidir. Hakəza Ermənistanda hökumət daşnak partiyasına mənsub olub, müzahirət göstərən parlaman əksəriyyəti dəxi daşnaklardan mütəşəkkildir.

Azərbaycanda isə öylə degildir. Əvvəla, hökumət firqəlik cəhətindən yekrəng degildir və məlum olduğu üzrə müştərəkdir. Yəni hökumət əzaları müxtəlif firqələrə mənsubdur. Yalnız bir "İttihad" partiyasından hökumət içində əza yoxdur. Böylə olan surətdə lazım gəlirdi ki, yalnız bir "İttihad" partiyası xilafgirlikdə (apazisiya) qalmağa, yerdə qalan fraksiyalar – ki kabinəyə şərikdirlər – hökumətin müzahiratına istinad edəcəgi əksəriyyəti təşkil edə idilər, əvvəllərdə öylə də oldu.

Lakin sonradan "Sosialist" və "Əhrar" fraksiyaları tərəfindən əmdən və səhvən vaqe olan dönüklük hökumətin müzahirət istinadgahını rəxnədar etdi, yəni hökumətə müzahirət göstərən qism yalnız bir "Müsavat"dan ibarət qaldı. Bunun üzərinə hökumət istefaya məcbur oldu.

İş bundadır ki, parlaman əksəriyyətinin müzahirəti olmazsa, hökumət öz məqamını möhkəm ədd edə bilməz. Yəni hökumət özünü "tikan üzərində oturmuş" bir mövqedə hiss edib hər işində tərəddüd göstərməyə məcbur olar. Gördügü tədbirlərin düzəltdigi layiheyi-qanuniyyələrin, təqib etdiyi siyasətin, qarşısında məsul olduğu parlamanın qəbul və təsvib edib etməyəcəgini – əksəriyyət müzahirəti olmadığına görə – təxminə qadir olmayan hökumət nə tövr iş görə bilər və böylə bir hökumət vücudi nəyə lazım olar?

Ona görə hökumət təşkilini üzərinə götürmüş olan zatən çalışdığı təbii o yolda olacaqdır ki, başında durduğu hökumət parlaman əksəriyyətinin müzahirəti tərəfindən təmin edilmiş olsun.

Fəqət bu zatın digər bir arzusu dəxi vardır. O da təşkil etdiyi hökumətin içinə daxil olacaq əzaların həm özləri şəxsən və həm də bunlara tövdi ediləcək portfel təqsimi o zatın – ki rəis olacaqdır – məramına müvafiq gəlsin. Bu da təbii bir arzudur. Rəis müvafiq bilmədigi bir adamın öz kabinəsində isbati-vücud etməsinə razı olmaz; o səy edəcəkdir ki, özünün təhti-rəyasətində işləyəcək olan adamlar rəisin proqram yürütməginə xələl yetirməyib, biləks kömək etsinlər.

İştə buna görədir ki, bizdə böhran bu qədər uzun çəkir. Parlamanımızda bir fraksiya yoxdur ki, təklikdə əksəriyyət təşkil edə bilsin. Öylə bir fraksiya mövcud olsa idi, hökumət əzaları dəxi eyni fraksiyadan, mənsub olduğu firqədən təşəkkül edib əksəriyyət tərəfindən dəxi təmin edilmiş olardı. Gürcüstan,

Ermənistan kimi təklikdə əksəriyyət təşkil edə bilən fraksiya olmadığına görə əksəriyyət təşkili üçün bir neçə firqənin iştirakı lazımdır, bunun hüsuli üçün də bu fraksiyalar arasında etilaf və müvafiqət əqdi iqtiza edər. Müvafiqət üçün dəxi o tərəfin və bu tərəfin ikilikdə bir şeyə razı olmaqları istənilir.

Bu günə qədər fraksiyaların hamısının razı olduqları bir şey varsa, o da Nəsib bəy həzrətlərinin vükəla rəisliginə intixab edilməsidir. Buna hamı razıdır. Lakin məsələni uzadan və böhran içində bir böhran yaradan fraksiyaların portfel təqsimi işinə qarışmalarıdır. Parlamentarizm məntiqincə iş böylə olmalı idi. Madam ki, Nəsib bəyə etimad edilib də kabinə təşkili ona həvalə olundu, o halda portfel təqsimi əmrini də ona tapşırmalı idi. Lakin nədənsə bu məntiq unuduldu. Məntiqsizlik olaraq Nəsib bəyə bir tərəfdən etimad edildisə də, digər tərəfdən edilmədi. Bunun üzərinə idi ki, Nəsib bəy həzrətləri kabinə təşkili əmrindən imtina etməgə məcbur olmuşdu. Çünki məramına müvafiq olmayan bir heyətə rəislik etmək mümkün iş degildir. Mümkün olsa da rəisin mənası olmaz, "yalançı pəhləvan" misalında nüfuz və heysiyyətsiz bir şey olar ki, rəsmi görünüşdən başqa özgə bir mənası qalmaz. Əlbəttə, böylə bir hökumət təşkili heç bir kəsi xoşnud edə bilməz.

İştə bu mülahizələrdən dolayıdır ki, kabinə böhranı bir bu qədər uzun çəkir.

Lakin bunlar hamısı böhran davamının zahirdə olan təxniyyət cəhətləridir? Bunun digər bir ətəni cəhəti dəxi var ki, o da firqələr arasında mövcud olan cidali-siyasidən nəşət edən firqəvi mübarizədir ki, bunun şərhi ikinci bir məqaləyə möhtacdır.

**Ü.Hacıbəyli**

***"Azərbaycan", 26 oktyabr 1919, №305***

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA 23 TƏŞRİNİ-ƏVVƏL İCLASI

İclas doktor Həsən bəy Ağayevin sədarətilə açılaraq ruznamə müzakirat elan ediliyor. Azərbaycan dövləti bankının Gəncədə şöbəsini açmaq layiheyi-qanuniyyəsi uzun müzakirədən sonra qəbul ediliyor. 2-ci məsələ olaraq mətbuat nizamnaməsinin müzakirəsinə keçilir. Rüstəmbəyli Şəfi bəy məruzəçi sifətilə məruzədə bulunur.

**Şəfi bəy** – Hər yerdə qaidədir ki, mətbuat üçün müəyyən bir qanun olar. Böylə ki, mətbuat qanundan kənar bir şey dərc etsə ona məhkəmə üzərilə baxılsın. Çünki mətbuatda bəzən cinayəti mövcib ola biləcək şeylərin dərc və nəşr edilməsi hər yerdə mümkün ola biləcək şeylərdəndir. Buna görə bir qanun, nizamnamə olmalıdır ki, cinayət müəyyən olandan sonra onun əsasilə məhkəmə işi röyət edə bilsin. Bu bir əsasdır ki, mətbuat gərək hürr və sərbəst olsun. Cinayətə məhkəmədə baxılsın. Bu layihə də o prinsip ilə tərtib olunmuşdur.

Bu layihə daxiliyyə nəzarətindən parlamana gəlmiş, komisyonda ona baxılmışdır. Bu layihənin əsası üzrə hər bir azərbaycanlının ixtiyarı var ki, məmləkətdə qəzetə çıxarsın, kitab təlif etsin və mətbəə açsın. Bu kibi işlər üçün heç bir yerdən izn və icazə almaq lazım degildir. İkinci mətbuat təb və nəşr olunandan sonra onda qanundan kənar sui-istemallar, cinayət olarsa onlara qanun üzrə məhkəmə baxacaqdır. Qeyri kəslərin, yəni adminstrasiyanın ixtiyarı yoxdur ki, məhkəmədən kənar qəzetə yazanı cəzalandırsın. 3-cü budur ki, bu kibi işlər üçün bir təşkilat olmalıdır ki, qəzetələrdə yazılan qeyri-qanuni şeyləri müəyyən edib məhkəməyə versin.

Bu vəzifə də layihə əsasilə qubernatorlara, polismeystirlərə, naçalniklərə tövsiyə edilir ki, mətbuatda qeyri-qanuni bir şey görsələr müddəiyi-ümumiyə göndərsinlər. Müddəiyi-ümumi əgər o işin cinayət olduğunu taparsa məhkəmə qanunda olan maddələr mövcibincə haman işi məhkəməyə verər, məsulini məhkəməyə cəlb eylər. Bununla bərabər bir də mətbuat müfəttişligi təşkil ediliyor. Yəni bir mətbuat inspektoru olur ki, o da məmləkətdə nəşr olunan kitab və qəzetələrə nəzarət ediyor. Nəşr olunan risalə və məcmuələrin neçə nüsxəsini alıb onları oxuyur, ona diqqət ediyor. Bu cinayəti təyin edəcək (nadzor) məsələsi komisyonda bir çox müzakirələrə səbəb oldu. Bir neçə mülahizəyə görə lazım bilindi ki, bu iş bir təşkilatın və yaxud bir adamın əlində olsun. Çünki administrasiyanın vəqti və imkanı olmaz ki, məmləkət daxilində çıxan bütün qəzetələrə və kitablara baxıb nəzarət etməklə cinayəti təyin edə bilsin, məhkəməyə versin.

İkinci nöqteyi-nəzər də budur ki, mətbuata öylə bir adam baxıb nəzarət etməlidir ki, mətbuat qanunları ilə aşina olmaqla bərrabər o xüsusda hərtərəfli məlumatı olsun və müəyyən edə bilsin ki, qarşısındakı yazıda cinayət, şəxsi və dini təcavüzlər varmı və ya yoxdur. Bunları müəyyən edib fikir verə bilsin və bilsin ki, hansı cinayəti müddəiyi-ümumiyə göndərmək lazımdır. Ona görə bu işlərin hamısı administrasiyadan alınıb inspektora verilməlidir. Yalnız inspektor mətbuata yaxşı baxa bilər. Burada bir etiraz varid ola bilər ki, mərkəzdə inspektor olarkən vilayətlərdə nasıl olsun. Əvvəla vilayətlərdə o qədər mətbuatımız yoxdur. Hərgah vilayətlərdə mətbuat olarsa, getdikcə artarsa, o zaman vilayət inspektoru təyin edilməklə bu məsələ həll edilə bilər. Və yaxud müvəqqətən bu iş vilayətlərdə administrasiya ixtiyarına verilər ki, o, hökuməti dairəsində nəşr olunan mətbuata nəzarət və diqqət etməklə

əgər bir cinayətə təsadüf edərsə onu müddəiyi-ümumiyə göndərir.

Bundan əlavə layihədə başqa maddələr də var ki, onlara nəzərən mətbuatı yalnız inspektor təqib etməyib, hər bir şəxsin ixtiyarı vardır ki, mətbuatda xilafi-qanun bir şey tapsa müddəiyi-ümumiyə tezlik ilə xəbər versin. Sonra qəzetə naşirləri qəzetə çıxan kibi 12 nüsxə inspektora və yaxud bu işə baxan administrasiyaya göndərməlidir. Qanunda bir də degilir ki, hankı şəxsin mətbəə açmaya ixtiyarı vardır. Ta bu vasitə ilə kimin nərədə mətbəəsi olduğu müəyyən edilsin. Böylə bir cinayət vüquində haman şəxs özü tapılmasa mətbəənin nərədə olduğu məlum olsun. Bunlar əski mətbuat nizamnaməsində olan şərtlər və maddələrdir ki, bəlkə imdi heç lazım olmadı. Sonra qanunda degilir ki, qəzetə müdiri kim ola bilər. Qəzetə müdiri olmağa Azərbaycanda olan hər bir vətəndaşın ixtiyarı var. Bundan sonra inspektorun ixtiyarı var ki, mətbəələrin kitabları üstə nəzəri olsun. Statistika nöqteyi-nəzərilə hər kəs qəzetə verirsə yeddi gün əvvəl polisəyə məlum etməlidir. Polisə o şəxsin qəzetə çıxarmaq həqqinə malik olub-olmadığını təhqiq edə bilsin. Başqa heç bir kəsə mümaniət yoxdur. Sonra bir də ştata var, iş çox az olduğundan ştat azdır. Komisyon bu ştatı artırdı. Müdirə müavin verdi. Habelə dəftərxana qulluqçularını da artırdı. Qanun layihəsi böylədir (oxuyur). Amma komisyonun nöqteyi-nəzərindən böylə olmalıdır (oxuyur).

Komisyon böylə təshihlə qəbul edib parlamandan qəbul edilməsini rica ediyor.

**Ağamalı oğlu** – (Hümmət) Bu qanun layihəsi ki, 15 dəqiqəyə oxuyub qurtardılar, nəzərdə ufak bir şey gəlir. Lakin bənim zənnimcə bu bir böyük qanundur ki, bunun üstə çox danışmaq lazım gəliyor deyib, vaqeən çox danışır və qanunun bilkülliyyə əleyhində olduğunu bildirir.

**Müseyib bəy Axcanov** – (Müsavat) Səmədağa cənabları məruzəçi Şəfi bəyə dediyi sözlər yalnız uzun danışmaqdan ibarət idi. O, senzor qanunu barəsində uzun-uzadıya danışdısa da, lakin mətbuat qanunu barəsində bir söz demədi. Ağamalı oğlu sual ediyor ki, hökumətin əleyhinə hankı sözlər yazılmışdır ki, mətbuat üzərində qanun qoymaq istiyorsunuz. Əgər bugünki "Qolos Rossiya" qəzetəsində olan provakasiyanı oxusa idiniz görərdiniz ki, mətbuatda nələr yazılıyor. Qubernator və jandarmalar buna mane olmuyorlar. Onlar ancaq böylə xəbərlərin olduğunu məhkəməyə bildirirlər. Məhkəmə idarəsi də ona baxar, əgər qanuna müğayir bir şey görmüş olsalar tənbeh edərlər. Bunun üçün bən təklif edərdim ki, bu qanun layihəsi qəbul edilsin.

**Əbilov** – (sosialist) Burada oturan firqələrin hamısı azadi mətbuat tərəfdarıdırlar. Əgər bu qanunda azadi mətbuat əleyhinə bir şey varsa, gərək heç kəs bunun tərəfdarı olmasın. Bu gün "Qolos Rossiya" qəzetəsində provakasiyalar nəşr olunursa ona başqa vasitələr ilə cəza vermək mümkündür.

Gürcüstanda olduğu kibi fövqəladə vəqtlərdə fövqəladə qanunlar ola bilər. Bu mətbuat qanunu isə fövqəladə zaman üçün degildir. Əgər mətbuatda bir cinayət olarsa qanunun bu barədə olan maddələrinə görə məhkəməyə cəlb edilə bilər. Bu nizamnamə isə ondan büsbütün başqadır. Burada mətbuatda kimlərin iştirak etməgə ixtiyarı olub-olmadığı təyin ediliyor. Bunun üçün bu nizamnaməyi nəzərdən keçirib onu müzakirə etməliyiz. Bən öylə bilirəm ki, bu nizamnamə mətbuat azadəliginə böyük mümaniətlər təşkil ediyorlar. Bu nizamnamə mətbuat işlərinin qarşısına sədd çəkir. Birinci maddədə degilir ki, Azərbaycanda olan hər vətəndaş mətbəə aça bilər, kitab və qəzetə nəşr edə bilər. Lakin 11-ci maddədə isə degilir qəzetə verən gərək yeddi gün əvvəl vəbər versin.

Ərizə verdikdən yeddi gün sonra ancaq istədigi qəzetəyi çıxara bilər.

Diyorlar ki, bu qəzetə verən adamın şəxsiyyətini bilmək üçündür. Yəni qəzetə verən adam təhti-məsuliyyətdə olmuşmu və ya düz və doğru adammıdır? Deməli, uyezd naçalniki o adama baxacaq, onun düz və doğru olduğunu təyin edəcəkdir. Əgər 1907-ci ildə siyasi işdə müttəhim edilmişsə onun qəzetə çıxarmaya ixtiyarı olmayacaqdır. Bu mətbuatın əleyhinə sənəddir. 11-ci maddə ilə birinci maddə arasında olan ziddiyyət burada aşkar görülür. Birinci maddədə degilir ki, icazə lazım degil. 11-ci maddədə yeddi gün vəqt təyin edilib degilir şərait müvafiq olmazsa qəzetə çıxara bilməz.

Bir də degilir ki, qəzetə verən şəxs gərək savadlı olsun. Savadlı olmaq cürbəcürdür. Görək uyezd naçalniki bu sözü nasıl başa düşüyor. Bir savadlı var ki, o ancaq adını yaza bilər. Birisi də var ki, qəzetə çıxara biləcək mahiyyətdədir. Qədim Nikolay zamanında da qəzetə çıxarmaq olmuyordu, ona görə bir bisavad fəhlə adından ərizə verib onu müdiri-məsul ediyordular. Qəzetəyi isə idarə edən başqası olurdu. Çünki cinayət qəzetənin içində olar, müdirin cibində və ya başında olmaz. Bununla bərabər ola bilər ki, keçmişdə etdigim bir günahdan dolayı hüquq və ixtiyarım əlimdən alınsın. İmdi isə tövbə edib qəzetə verirəm. Hərgah verdigim qəzetə də qanuna müğayir bir şey olursa lazım gələn cəza verilir. Daha bu kibi mümaniətlərə ehtiyac yoxdur. Bu qanunlar mətbuatın sərbəstligini mümaniət törədir. Bu qanunda bir tərəfdən mətbuata cəza verilir, digər tərəfdən əsasən mətbuat qarşısına sədd çəkilir.

Burada 14-cü maddədə müdiri-məsulun kim ola biləcəgi söyləniyor ki, gərək müdir savadlı olsun, həddi-büluğa çatsın. Bu bir mümaniətdir ki, onunla uyezdni naçalniklərə və

qubernatorlara ixtiyarlar veriləcəkdir. Bən qəzetə verirəm. hamı oxuyur. Müqəssirəm isə tutub bəni məhkəməyə verirlər. Siyasi nöqteyi-nəzərdən diyoram, heç bir qəzetə yazmayacaq ki, gedib oğurluq ediniz və yaxud adam öldürünüz, yazacaqlar ki, hökumət böylə yapmış və yaxud filan qanunsuz iş görmüşdür. Bunları nəzərə almalıdır. Mətbuata şüru etmədən onun qarşısına bir sədd çəkməgə görə diyoruz, bu qanuna ehtiyac yoxdur, hər şəxsin ixtiyarı var istədigi qəzetəyi versin.

***"Azərbaycan", 30 oktyabr 1919, №309***

## ƏSASSIZ TƏLƏB

Dabrovol komandası – dünki nömrəmizdə yazıldığı üzrə – "tələb" edir ki, bəhri-Xəzərdə Azərbaycanın nə ticarət və nə də hərbi gəmiləri olmasın. Bu tələbə bir əsas olmaq üzrə 1828 sənəsində Rusiya ilə İran arasında əqd edilmiş olan Türkmənçay müahidəsindən bəhs ediliyor. Məlum olduğu üzrə bu müahidəyə görə Xəzər dənizi İran diplomatlarının rəyincə heç bir vecə gəlməyən "abi-şor" olduğuna görə tamamilə rus hakimiyyəti təhtinə keçib istər ticarət, istər hərbi gəmilər saxlamağa İranın həqq və səlahiyyəti olmadı.

Əlbəttə, müstəqil Azərbaycana heç bir dəxli və rəbti olmayan Türkmənçay müahidəsi dabrovolların tələbinə həqq verə biləcək bir əsas təşkil edəmməz. Bu müahidə bəhsi bir bəhanədir və bu bəhanə ilə verilən tələb dəxi Azərbaycan hüququna təcavüzdən ibarət bir hərəkətdir.

İran-rus müahidələri əsas tutulmaq üzrə Azərbaycana tələblər vermək caiz görülərsə, o halda Türkmənçay müahidəsilə Xəzər dənizindən əl çəkməgə məcbur olan Azərbaycan Gülüstan müahidəsilə də Qarabağ, Gəncə, Bakı, Şirvan və bir kəlmə, tamam Azərbaycan torpağından əl götürməgə, yəni öz-özünə yox olmağa vadar olacaqdır.

Dabrovol komandasının bu hərəkəti ola bilər ki, Denikinin Azərbaycan həqqındakı qəsdinin qövldən felə çıxarılmaq yolunda birinci iqdami və "Azərbaycan səfəri"nin ibtida və başlanğıcıdır. Bəhanənin boş və əsassızlığı bu mülahizəyi təbid edən keyfiyyətlərdən hesab edilməlidir. Hər bir həqsiz təərrüz və təcavüzün bəhanəsi – bir mötad – boş və əsassız olar. Özünü güclü və müqabil tərəfi gücsüz hesab edənlər

təərrüzlərinə bir müqəddimə olmaq üzrə ortaya bimənа və məntiqsiz bəhanələr atarlar.

Fəqət bu qürur sahiblərinin əksər ovqat elmi-hesabda xam və naşi olduqları, acı peşmançılıqları mucib olan səhv və xətaları ilə isbat edilib iş, sahibi-qürurun heç də gözləmədigi və istəmədigi bir vəziyyətə dönməklə başqa nəticələr veriyor.

Denikinin Azərbaycanı nə hesab etdigini bilmiyoruq, ancaq bunu biliyoruq ki, Azərbaycan Cümhuriyyəti öz dənizini "abi-şor" ədd edəcək dərəcədə kutahbin olmamaqla bərabər böylə bir qərar hökmünə məcbur olacaq halda dəxi degildir. Azərbaycan öz hüququnu müdafiə yolunda heç bir şeydən çəkinməyəcəkdir.

Azərbaycan üçün dəniz məsələsi – can məsələsidir. Bu məsələyə əl vurmaq – Azərbaycanın canına toxunmaqdır. Azərbaycan Bakı dənizində hərbi gəmilər saxlamaqla heç kəsi qorxutmaq və heç bir kəsin yerinə təərrüz etmək fikrində degildir. Onun fikri özünu xarici imperialist və qasiblər tərəfindən müdafiəyə hazır bir halda durmaqdır. Azərbaycanın özgələr yerinə göz dikdigini heç kəs xəyalına belə gətirməz. Halbuki özgələrin Azərbaycan torpağı həqqindəki təcavüzkaranə fikri cümləcə məlumdur. Boylə olduğu sırada özünü qurudan mühafizə etmək Azərbaycana borc olduğu kimi, dəniz tərəfindən dəxi müdafiə və mühafizə yollarını əlində saxlamağa var qüvvəsilə səy və qeyrət edəcəkdir.

Azərbaycan Cümhuriyyəti demək olur ki, artıq beynəlmiləl bir əhəmiyyəti haiz olan bir məsələ surətinə keçmişdir. Bu nöqteyi-nəzərdən bolşeviklıklə müharibə üçün denikinlərə müzahirət göstərən Antanta və baxüsus ingilis məhafili-rəsmiyəsi və əfkari-ümumiyyəsi Denikinin Azərbaycan qəsdinə müvafiqət nəzərilə baxa bilməz və bu təərrüzə qarşı rui-riza göstərən Denikin Antanta müzahirətindən məhrum

edilərsə, pulsuz və ləvazimati-hərbiyyəsiz qalmaqla heç bir şeyə qadir olamaz. Qərəz mahal olaraq Antanta bu məsələyə qarşı laqeyd qalsa belə Azərbaycanın öz hüququnu müdafiə etmək üçün ixtiyarında olan vəsilələri və həqiqi vasitələri çoxdur.

**Ü.Hacıbəyli**

***"Azərbaycan", 30 oktyabr 1919, №309***

## MÜNDƏRİCAT

Ön söz .......... 5
"Azərbaycan"ın birinci səneyi-davamiyyəsi .......... 7
Hadisələrin mənası .......... 10
Dördgöz olmalıyıq .......... 16
Millətimiz özünü göstərəcəkdir!
Azərbaycan Parlamentinin tarixinə dair
qiymətli kitab .......... 19
Azərbaycan Məclisi-Məbusanında .......... 33
Azərbaycan Məclisi-Məbusanında .......... 38
Böhtanlarla böyük işlər görülür .......... 46
Təkzib .......... 49
Dağıstana imdad .......... 50
Zaqafqaziya konfransına dair .......... 53
Azərbaycan Məclisi-Məbusanında .......... 58
Möhkəm idarə möhkəm əxlaqlı istər .......... 69
Azərbaycan Məclisi-Məbusanında .......... 73
Dağıstan və biz .......... 77
Eyni müamilə gözləyirik .......... 79
Məclisi-Məbusanın qərarı .......... 82
Məbuslara dair .......... 83
Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi
tərəfindən .......... 84

Nə istiyorlar ........ 85
Yetər artıq ........ 89
Bayrağımız sarsılmaz ........ 91
Məclisi-Məbusan və tətil ........ 92
Siyasi imtahan ........ 102
Azərbaycan Məclisi-Məbusanında ........ 105
Xatimə ........ 108
Azərbaycan Məclisi-Məbusanında ........ 111
Vətən gənclərinə bir qaç söz ........ 114
Siyasiyyat ........ 117
İndi başa düşürlər ........ 120
Erməni mətbuatı ........ 124
İtaliya heyəti rəsmisi polkovnik Qabbanın
paytaxtımıza vürudi ........ 126
Bildiriş ........ 128
Naxçıvan və Qarabağ ........ 129
Ermənistanın vüsəti ........ 132
Azərbaycan vətəndaşlarına hökumətin müraciəti ........ 136
Azərbaycan İstiqlalını Mübin Əqdnamə ........ 139
İstiqlaliyyət ........ 141
Nə böyük bayram! ........ 143
Bir yaş ........ 147
Şərəfli bayram ........ 151
Türk şüərası və istiqlal ........ 153
Azərbaycan istiqlalı ........ 158

Böyük bir gün ... 162
Gənc nəslə ... 164
Yanar Dağ ... 167
Təşkilatın qadınlara təsiri ... 170
Milli bayram münasibətilə ... 176
Milli bayramımız münasibətilə ... 179
Azərbaycan Məclisi-Məbusanında ... 181
Azərbaycan Məclisi-Məbusanında ... 189
İstiqlal bayramı ... 194
Məclisi-Məbusanda ... 198
Azərbaycan Məclisi-Məbusanında ... 200
Azərbaycan Məclisi-Məbusanında ... 207
İçimizdəki denikinlər ... 210
Azərbaycan Məclisi-Məbusanında ... 213
Macəraçılıq ... 221
Qarabap hadisatı ... 224
"Səddi-İsgəndər" ... 227
Azərbaycan Məclisi-Məbusanında ... 230
Barışıq imza edildi ... 240
Sap ayapımız da kəsiliyor ... 242
Əxzi-əskər idarəsindən ... 246
Azərbaycan Məclisi-Məbusanında ... 248
Azərbaycan Məclisi-Məbusanında ... 257
Azərbaycan Məclisi-Məbusanında ... 260
Azərbaycan Məclisi-Məbusanında ... 269

Azərbaycan Məclisi-Məbusanında .................................. 278
Azərbaycan Məclisi-Məbusanında .................................. 284
Azərbaycan Məclisi-Məbusanında .................................. 287
Azərbaycan Məclisi-Məbusanında .................................. 295
Azərbaycan Məclisi-Məbusanında .................................. 300
Azərbaycan Məclisi-Məbusanında .................................. 306
Azərbaycan Məclisi-Məbusanında .................................. 313
Azərbaycan Məclisi-Məbusanında .................................. 320
Azərbaycan Məclisi-Məbusanında .................................. 325
Azərbaycan Məclisi-Məbusanında .................................. 330
Elan .................................................................. 336
Azərbaycan Məclisi-Məbusanında .................................. 336
Elan .................................................................. 343
Azərbaycan Məclisi-Məbusanında .................................. 343
Azərbaycan Məclisi-Məbusanında .................................. 347
Azərbaycan Məclisi-Məbusanında .................................. 353
İxtar ................................................................. 360
Azərbaycan Məclisi-Məbusanında .................................. 366
Azərbaycan Məclisi-Məbusanında .................................. 372
Azərbaycan Məclisi-Məbusanında .................................. 375
Böhtanlarla böyük işlər görülüyor .................................. 381
Azərbaycan Məclisi-Məbusanında .................................. 384
Ərazi məsələsindəki müvəffəqiyyətimiz .......................... 388
Azərbaycan Məclisi-Məbusanında .................................. 397
Azərbaycan Məclisi-Məbusanında .................................. 401

Müvəffəqiyyətlərimiz ... 410
Azərbaycan Məclisi-Məbusanında ... 412
Məmurlarımız həqqində ... 422
Azərbaycan Məclisi-Məbusanında ... 425
Milliləşmək ... 430
Azərbaycan Məclisi-Məbusanında ... 433
Kabinə təşkilinə aid ... 440
Nəsib bəyin istefası ətrafında ... 443
Azərbaycan Məclisi-Məbusanında ... 445
Daxili işlərimizdən ... 452
Azərbaycan Məclisi-Məbusanında ... 455
Azərbaycan Məclisi-Məbusanında ... 461
Azərbaycan Məclisi-Məbusanında ... 465
Mühüm məsələ ... 471
Azərbaycan Məclisi-Məbusanında ... 474
Azərbaycan Məclisi-Məbusanında ... 477
Azərbaycan Məclisi-Məbusanında ... 485
Bildiriş ... 492
Heyəti-mürəxxəsəmiz ... 493
Azərbaycan Məclisi-Məbusanında ... 495
Azərbaycan Məclisi-Məbusanında ... 502
Azərbaycan Məclisi-Məbusanında ... 509
Azərbaycan Məclisi-Məbusanında ... 517
"Corciən meil"in məqaləsi ... 522
Azərbaycan Məclisi-Məbusanında ... 525

Bir sual münasibətilə ........................................................ 530
Azərbaycan Məclisi-Məbusanında .................................... 533
Azərbaycan Məclisi-Məbusanında .................................... 538
Böhran dolayısilə.............................................................. 542
Azərbaycan Məclisi-Məbusanında .................................... 545
Əsassız tələb...................................................................... 551